# Azərbaycan Diasporu: 2013

**Tərtib edən: Məhbubə Tağıyeva**

## DİASPOR: Azərbaycan həqiqətlərini təbliğ edən nüfuzlu qüvvə

Azərbaycan böyük potensialı olan diaspora malikdir - dünya azərbaycanlılarının yalnız beşdən biri Azərbaycanda yaşayır. Vətəndən xaricdə yaşayan azərbaycanlıların sayı on milyonla ölçüldüyü kimi, onların sərmayəsi də on milyardlarla ölçülür. Bu həm iqtisadi, həm də siyasi cəhətdən böyük qüvvədir. Bu qüvvə cəmləşdirilsə, Azərbaycan Respublikası ətrafında birləşdirilsə dağı dağ üstə qoymaq olar. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan diasporunun təşkilatlanması məsələsini xarici siyasətimizin əsas prioritetlərindən biri elan etdi.

Heydər Əliyev 1991-ci ildə, hələ Naxçıvanda Ali Məclislin sədri vəzifəsində çalışarkən dekabr ayının 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi və diqqəti bu məsələyə yönəltdi. Heydər Əliyev elan etdi ki, Azərbaycan diasporunun dünya azərbaycanlılarının haqlarını qoruya biləcək, Vətənə dünya səviyyəsində dəstək verə biləcək bir qüvvəyə çevrilməsi hazırda müstəqil Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan diasporu müstəqil Azərbaycan dövlətinin iqtisadi və siyasi maraqlarının həyata keçirilməsi, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünün qorunması şərti ilə həll edilməsi istiqamətində fəaliyyət göstərən güclü lobbiyə çevrilməlidir.

Diaspor hərfi mənada "dağılma", "səpələnmə" demək olsa da, hər millətin, xalqın vətəndən ayrılması, dünyaya səpələnməsi diaspor yaratmır. Məsələn, dünyaya ən çox səpələnən xalqlar çinlilər və ərəblərdir, amma dünyanın heç bir yerində ərəb, ya da çin diasporu yoxdur. Diasporun meydana gəlməsi, yaranması üçün birinci əsas şərt vətəndən kənarda yaşayanların vətənə bağlı olmasıdır, vətənin problemləri ilə yaşamasıdır. Azərbaycan Prezidenti Heydər Əliyev də bu mühüm amilə böyük əhəmiyyət verir və 1997-ci ildə ABŞ-da yaşayan azərbaycanlılarla görüşündə çıxışına bu sözlərlə başlayırdı: "Mən on il Moskvada yaşamışam, Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşam və bu rəhbərliyin imkan verdiyi ən yüksək şəraitdə yaşamışam. Bir an da Azərbaycanı unutmamışam, ürəyim daim Azərbaycanla vurub. Sonra qayıtmışam Azərbaycana, Naxçıvanda bir daxmada yaşamışam. Gecəm də Azərbaycan olub, gündüzüm də. Çünki bu, mənim Azərbaycanımdır, mənim Vətənimdir". Azərbaycan Prezidenti soydaşlarımıza deyir siz düşünməyin ki, Azərbaycan sizin üçün nə edib, düşünün ki, siz Azərbaycan üçün nə etmisiz. Onda Azərbaycan diasporu da irəli gedər, Azərbaycan dövləti də inkişaf edər. Azərbaycanı düşünmək, Azərbaycanla yaşamaq isə ilk nəzərdən göründüyü kimi sadə məsələ deyil, bunun üçün ideya lazımdır, mənəvi əsas lazımdır. Dünya azərbaycanlılarının Azərbaycana bağlanması, Azərbaycanla yaşaması üçün mənəvi əsas ola biləcək bir ideya var-bu, azərbaycançılıqdır. Biz azərbaycanlılar bu ideyanı yaratmışıq, biz də yaşatmalıyıq, inkişaf etdirməliyik, onun əsasında da birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir. Biz dünyaya inteqrasiya ediriksə, deməli bizim mənəvi dəyərlərimiz də ümumbəşəri dəyərlərə inteqrasiya etməlidir. Doğrudur, insan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini, milli mənsubiyyətini qoruyub saxlamağı bacarsın. Amma dünyada eyni zamanda assimlyasiya - millətlərin bir-birlərinə yaxınlaşması, qaynayıb qarışması prosesi də gedir. Odur ki, Azərbaycan Prezidenti Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında tövsiyə edirdi: "Azərbaycanlılar gərək yaşadıqları ölkədə o şəraiti mənimsəyərək orada özləri üçün yaxşı mövqe tutsunlar. Ancaq öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

Azərbaycan diasporunun yaranması, birləşməsi üçün mənəvi əsas-azərbaycançılıq ideyası vacib olduğu kimi, bu ideyanın yaşaması, inkişaf etməsi üçün maddi əsas - aparıcı qurum lazımdır. Tarix boyu dövlətçiliyi olmayan, amma yaşayan və inkişaf edən yəhudi və erməni diasporları üçün belə bir qurum rolunu, məlum olduğu kimi, kilsə (məbəd) oynamışdır. Xaricdə yaşayan türklərin birləşməsində, güclü türk diasporunun (məsələn, Almaniyada olduğu kimi) yaranmasında aparıcı rol isə Türkiyə dövlətinə məxsusdur. Qeyd etmək lazımdır ki, diasporun yəhudi və türk modellərinin yaranması fərqli olduğu kimi, missiyası da fərqlidir. Yəhudi diasporu müstəqil İsrail dövlətinin yaranmasında maddi və mənəvi əsas rolu oynamışdır, faktiki olaraq, bu dövləti yaratmışdır. Bununla da bütün dünyaya səpələnmiş yəhudilərin böyük hissəsinin bir yəhudi dövlətinin ərazisində yaşamaq imkanı qazanmasına nail olmuşdur.

Türkiyə dövləti isə xaricdə, əsasən Avropada yaşayan türklərin təşkilatlanmasına dəstək vermiş, güclü türk diasporunun yaranmasına nail olmuşdur (hazırda Amerikada yaşayan türklərin təşkilatlanması və erməni təşkilatlarına qarşı duracaq səviyyəyə çatması istiqamətində iş gedir). Odur ki, yəhudi diasporu İsraili dəstəklədiyi kimi (bu dəstək əsasında ABŞ İsrailə ildə iki milyard dollardan çox yardım ayırır), Türkiyə də türk diasporunu dəstəkləyir. Azərbaycanda isə tarixi, sosial-siyasi şərait elə gətirib ki, Azərbaycan dövləti gənc olduğu, yenicə qurulduğu kimi, Azərbaycan diasporu da gəncdir, yenicə təşkilatlanır. Yəhudi və türk diasporlarından fərqli olaraq, Azərbaycan dövləti - Azərbaycan diasporu münasibətləri qarşılıqlı kömək, qarşılıqlı dəstək əsasında qurmalıdır.

Məsələn, Azərbaycan dövləti diasporun təşkilatlanmasında mühüm rol oynadığı kimi, diaspor da Dağlıq Qarabağ probleminin Azərbaycanın maraqları çərçivəsində həllində mühüm rol oynaya bilər. Azərbaycan Prezidenti Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında Azərbaycan dövlətinin və Azərbaycan diasporunun qarşılıqlı vəzifələrinə xüsusi diqqət yetirirdi: "Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha çox əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir".

Azərbaycan diasporunun təşkilatlanması, azərbaycançılıq ideyası altında müstəqil Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində Prezident Heydər Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü işlər tezliklə öz nəticəsini verdi. 1991-ci ildə əsası qoyulan, 1997-ci ildən başlayaraq həyata keçirilən təşkilatlanma prosesi 2001-ci ildə daha yüksək mərhələyə daxil oldu-noyabrın 9-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı açıldı. Qurultayın keçirilməsi həm Azərbaycan dövləti, həm də dünya azərbaycanlıları üçün mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev qurultayda çıxış etdi. Prezidentimiz Dünya Azərbaycanlılarının I Qurultayına böyük ümidlər bəslədiyini, bu qurultayın dünya azərbaycanlılarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində çox böyük rol oynayacağını, öz xidmətlərini göstərəcəyini qeyd etdi. Qurultay yüksək həmrəylik və işgüzarlıq şəraitində keçdi. Qurultay nümayəndələri öz təcrübələrini bölüşdülər, qabaqcıl təşkilatların təcrübəsindən öyrəndilər. Diaspor Azərbaycan üçün nə etməlidir, Azərbaycan diaspor üçün nə etməlidir-bu məsələlər açıq müzakirə olundu və təkliflər verildi. Qurultay elan etdi ki, Azərbaycan dünyada yaşayan hər bir azərbaycanlının Vətənidir, dünyada yaşayan hər bir azərbaycanlı da Azərbaycan üçün, Vətən üçün əlindən gələni etməlidir. Bu istiqamətdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, erməni faşizminin iç üzünün açılması, ifşa olunması əsas prioritetlərdən biridir. Çünki yalnız bundan sonra, Dağlıq Qarabağ probleminin beynəlxalq standartlara uyğun, ədalətli həlli reallaşa bilər.

Qurultayda Azərbaycanın və Azərbaycan diasporunun problemləri müzakirə olundu. Bu problemləri birlikdə həll etmək, Azərbaycan dövləti Azərbaycan diasporu əlaqələrini genişləndirmək üçün Azərbaycan Prezidentinin rəhbərliyi ilə dünya azərbaycanlılarının nüfuzlu nümayəndələrinin təmsil olunduğu Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası yaradıldı. AMEA-nın prezidenti, akademik Mahmud Kərimov Əlaqələndirmə Şurasının idarə heyətinin sədri seçildi.

2002-ci ilin yazında Azərbaycan diasporunun inkişafı üçün dövlət səviyyəsində daha bir addım atıldı. Azərbaycan Prezidentinin fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə (hazırda Diasporla iş üzrə) Dövlət Komitəsi yaradıldı. Komitəyə xaricdə yaşayan azərbaycanlılarla iş üzrə böyük təcrübəsi olan, Azərbaycanın Ukraynadakı keçmiş səfiri Nazim İbrahimov sədr təyin edildi.

Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının təşkilatlanmasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Artıq dünya azərbaycanlılarının öz paytaxtlarında öz mənzil-qərargahları vardı. Onlar istədikləri vaxt bura gələ və öz problemlərini müzakirə edə bilərdilər. Komitə qısa bir müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq oldu. Komitənin fəaliyyəti nəticəsində get-gedə daha çox təşkilat "güc birlikdədir" məntiqinə gəlir, ziddiyyətləri aradan qaldırmaq, mütəşəkkilliyə nail olmaq üçün qüvvələrini səfərbər etməyə çalışır.

Bu gün bir çox xarici ölkələrdə Azərbaycan cəmiyyətlərinin işbirliyi nəticəsində bu cəmiyyətlərin federasiyaları yaradılır. Belə birliklərdən Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasını, Ukrayna Azərbaycanlıları Konqresini, Ümumrusiya Azərbaycan Konqresi kimi qurumları göstərmək olar. Bu proqressiv ənənə digər ölkələrə də yayılmaqdadır. Yuxarıda deyildiyi kimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycan diasporunun inkişafını və güclü lobbiyə çevrilməsini müstəqil Azərbaycanın qarşısında duran əsas prioritetlərdən biri kimi dəyərləndirirdi. Artıq Azərbaycanda demokratik dövlət quruculuğu mərhələsi başa çatmış, dövlətin siyasi və iqtisadi bazası yaradılmışdır. Hazırda Azərbaycanın qarşısında duran əsas problem Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq normalara uyğun həlli məsələsidir. Ümummilli liderimizin tövsiyə etdiyi kimi, bu sahədə məqsədyönlü və ardıcıl siyasət həyata keçirilir. Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və erməni simasının açılması istiqamətində böyük işlər görür. Artıq Avropa Şurası və dünyanın digər nüfuzlu təşkilatları Ermənistanı işğalçı dövlət kimi tanımışlar.

Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi də bu istiqamətdə böyük işlər görür. Dünyanın Azərbaycanı tanıması, qədim tarixə, zəngin adət-ənənələrə malik bir xalq olduğunu bilməsi artıq erməni təbliğatına, onun yalançı məlumatına layiqli cavabdır. Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan diasporu da inkişaf edir və bütün dünyada Azərbaycanın maraqlarını qoruya biləcək bir qüvvəyə çevrilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2006-cı ildə Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi.

Qurultay Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, “xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etmək, Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmlənməsi, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi” daşıyırdı. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni bir addım olan bu ümumxalq tədbiri ümumilikdə Azərbaycanın inkişafında, ən yeni tarixində əhəmiyyətli bir hadisə kimi yadda qaldı.

2011-ci ildə Bakıda Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması və Vətənlə əlaqələrinin möhkəmləndirilməsi yolunda yeni mərhələnin başlanğıcını qoydu. Bu gün Azərbaycan dövlətinin dəstəyi ilə diasporumuz sürətlə inkişaf edir və dünya azərbaycanlılarının haqlarını qoruya biləcək, bütün dünyada Azərbaycanın maraqlarını qoruya biləcək bir qüvvəyə çevrilir. Azərbaycan diasporunun türk diasporu ilə qüvvələri birləşdirəcəyi, erməni lobbisinə layiqli cavab verəcək güclü lobbiyə çevriləcəyi gün uzaqda deyil. Bu, hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi diaspor siyasətinin əsas prinsiplərindən biridir.

**Qalib ARİF. “Xalq qəzeti”.-2013.-1 yanvar.-N 1.-S.6.**

**“Xəzər” İctimai Birliyi, Qırğızıstan Azərbaycanlıları Konqresi, Qırğızıstan Azərbaycanlılarını Əlaqələndirmə Mərkəzi, Regional Milli Etnik Diaspor Əməkdaşlığı Şurası və “Qırğızıstan-Azərbaycan Gəncləri” İctimai Birliyinin rəhbərlərinin toplantısı keçirilmişdir**

Yanvarın 5-də Bişkekdə Qırğızıstandakı Azərbaycan diaspor təşkilatlarının - “Xəzər” İctimai Birliyi, Qırğızıstan Azərbaycanlıları Konqresi, Qırğızıstan Azərbaycanlılarını Əlaqələndirmə Mərkəzi, Regional Milli Etnik Diaspor Əməkdaşlığı Şurası və “Qırğızıstan-Azərbaycan Gəncləri” İctimai Birliyinin rəhbərlərinin toplantısı keçirilmişdir. Tədbirdə Qırğızıstandakı Azərbaycan diaspor təşkilatlarının inkişafı, soydaşlarımızın bu ölkənin ictimai həyatında daha fəal iştirakı və s. məsələlər müzakirə olunmuşdur.

**5 yanvar 2013**

## Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə yerli diaspor nümayəndələrinin iştirakı ilə tədbir keçirmişdir

Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə yerli diaspor nümayəndələrinin iştirakı ilə tədbir keçirmişdir.Tədbirdə çıxış edən Birliyin Prezidenti İmaməddin Qasımov bildirmişdir ki, bu bayram xaricdə yaşayan azərbaycanlılar arasında sıx əlaqələrin qurulması, onların milli maraqlar naminə birgə hərəkət etməsi və ümumilikdə birlik və həmrəyliyin yaradılması prosesində mühüm rol oynayır. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin ötən il ərzindəki fəaliyyətinə toxunan İ.Qasımov hesabat dövründə erməni lobbi təşkilatlarının ölkəmiz haqqında apardıqları çirkin kampaniyaların və Avstraliya cəmiyyətində yanlış fikir formalaşdırmaq cəhdlərinin qarşısının uğurla alınması və Dağlıq Qarabağ barədə həqiqətlərin yerli ictimaiyyətə çatdırılması sahəsində uğurlu iş aparıldığını qeyd etmişdir.

Çıxış zamanı vurğulandı ki, cari ilin oktyabrın 25-də Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi tərəfindən Avstraliyadakı Azərbaycan və Türkiyə diasporlarının yaxından əməkdaşlığı ilə Avstraliyanın Yeni Cənubi Uels ştatının qanunverici şurasının iclasında şura üzvü-millət vəkili Meri Fikkara (Marie Ficcara) tərəfindən Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına çağırışın yer aldığı təklifin irəli sürülməsi ilə bağlı qanunverici şura üzvlərinə və dövlət rəsmilərinə 50 təşkilatın və 800-dək fərdi şəxsin imzası ilə etiraz məktubu göndərilmişdir. Məktuba cavab olaraq bir sıra parlament üzvləri dərhal cavab verərək, qaldırılmış məsələni diqqət mərkəzində saxlayacaqlarını bildirmişlər.

Öz çıxışında İ.Qasımov 2013-cü il ərzində də Azərbaycan Respublikasının və Avstraliyada yaşayan azərbaycanlıların burada layiqli təmsil edilməsi və onlar arasında əməkdaşlığın daha da gücləndirilməsi, Ermənistanın lobbi fəaliyyətinə qarşı tutarlı mübarizə aparılması istiqamətində səylərini davam etdirəcəklərini bildirdi.

**7 yanvar 2013**

**Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə İzmir Azərbaycan Mədəniyyət Evi və Həmrəylik Cəmiyyəti, Dünya Gəncləri Həmrəylik Dərnəyi və İzmirdə təhsil alan azərbaycanlı tələbələrin təşkilatçılığı ilə tədbir keçirilmişdir**

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə İzmir Azərbaycan Mədəniyyət Evi və Həmrəylik Cəmiyyəti, Dünya Gəncləri Həmrəylik Dərnəyi və İzmirdə təhsil alan azərbaycanlı tələbələrin təşkilatçılığı ilə tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən İzmir Azərbaycan Mədəniyyət Evi və Həmrəylik Cəmiyyətinin sədri Turgut Arat, cəmiyyətin sədr müavini Cavid Əliyev, Ədalət və İnkişaf Partiyasının İzmirdən seçilən Millət vəkili Rıfat Sait, Dünya Gəncləri Həmrəylik Dərnəyinin İdarə Heyətinin üzvü Turanə Əsgər tədbirin əhəmiyyətindən danışmış, bütün işritakçıları Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik etmişlər.

İzmirdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının sədrləri, siyasi partiyaların nümayəndələri, iş adamları, muəllimlər, xarici və azərbaycanlı tələbələrin iştirakı ilə keçirilən tədbir Əməkdar artist Tahir Eynullayevin milli rəqsləri, “Aypara” muğam üçlüyünün konserti ilə yekunlaşmışdır.

**7 yanvar 2013**

**Belçika Azərbaycanlıları Cəmiyyəti**
**Azərbaycan diasporunun yeni siması**

Azərbaycan diasporunun Avropa qitəsində geniş yayıldığı ölkələrdən biri də Belçika Krallığıdır. Təqribən 15 minə yaxın soydaşımızın məskunlaşdığı Belçikadakı azərbaycanlıların böyük əksəriyyətini Cənubi Azərbaycandan olan həmyerlilərimiz təşkil edir. 1979-cu il İran İslam İnqilabından sonra Avropaya axını sürətlənən Cənubi azərbaycanlıların üz tutduğu ölkələrdən biri də məhz Belçika idi. Zaman keçdikcə bu ölkənin ictimai-siyasi mühitinə uyğunlaşan soydaşlarımız Belçika cəmiyyətində öz layiqli yerlərini tuta biliblər. Hazırda Belçikada onlarla Azərbaycan diaspor təşkilatı, müxtəlif cəmiyyət və təşkilatlar fəaliyyət göstərir. Bu sıraya Belçika Azərbaycan Evi, Avropa Azərbaycan Cəmiyyətinin Belçika ofisi, Belçika Azərbaycan Cəmiyyəti və digər bu kimi təşkilatları aid etmək olar.

Adları qeyd edilən hər bir diaspor təşkilatı Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi, Xocalı soyqırımının Belçika, eləcə də dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərir, ölkəmizi layiqincə təmsil edirlər. Həmin təşkilatlar eyni zamanda Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliği, mədəniyyətimizin tanıdılması sahəsində də mütəmadi olaraq tədbirlər, layihələr həyata keçirirlər. Sözügedən ölkədə Azərbaycanla bağlı fəaliyyət göstərən təşkilatlardan biri də Belçika Qarabağ Kültür və Dayanışma Dərnəyidir. Bu təşkilat da yeni fəaliyyətə başlamasına baxmayaraq artıq bir sıra uğurlara imza atıb. Belçika Qarabağ Kültür və Dayanışma Dərnəyinin sədri İqdır kökənli Abbas Uçardı. Bu gün Belçikada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından biri də Belçika Azərbaycanlıları Cəmiyyətidir. Keçən il bu ölkədə yaşayan bir qrup soydaşımız tərəfindən təsis edilən Belçika Azərbaycanlıları Cəmiyyəti də digər təşkilatlar kimi Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində aktiv fəaliyyət göstərir. Belçika Azərbaycanlıları Cəmiyyətinin sədri bu ölkədə yaşayan soydaşımız Rəşad Quliyevdir.

Belçika Azərbaycanlıları Cəmiyyəti o qədər də uzun zamanlıq tarixi olan bir təşkilat deyil. Hətta Belçika Azərbaycanlıları Cəmiyyəti haqqında məlumatlar Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytında da yoxdur. Ümumiyyətlə, Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytına əsaslansaq görərik ki, Belçikada 5 cəmiyyətin adı və hüquqi ünvanları var. Amma Dövlət Komitəsinin saytındakı informasiya köhnə olduğundan saytda məlumatların yenilənməsinə ehtiyac var. Məsələn saytda qeyd olunmuş Avropa Azərbaycanlılar Mərkəzi son 4 ildə heç bir fəaliyyət göstərməyib. Hətta bu təşkilatın sədrinin də ümumiyyətlə Belçikada yaşamadığı bildirilir.

Belçika Azərbaycanlıları Cəmiyyətinin adı və hüquqi ünvanları barədə çox az adam məlumatlı olsa da, cəmiyyətin qısa zaman ərzində gördüyü işlər, həyata keçirdiyi tədbirlər və layihələr barədə geniş spektr məlumatlıdır. Təkcə Belçikada deyil, eləcə də digər Avropa ölkələrində Belçika Azərbaycanlıları Cəmiyyətinin fəaliyyəti böyük maraqla izlənilir, bu fəaliyyət təqdir olunur. Belçika Azərbaycanlıları Cəmiyyətinin ötən aylar ərzindəki fəaliyyətinə də nəzər yetirdikdə görürük ki, təşkilat bu müddət ərzində bir sıra işlər görüb. Belçika Azərbaycanlıları Cəmiyyətinin qısamüddətli fəaliyyəti ərzində ətrafına 100-ə yaxın üzvlər cəm edib. Müsbət tendensiyalardan biri ondan ibarətdir ki, Belçika Azərbaycanlıları Cəmiyyətinə üzv olanlar, onunla sıx əməkdaşlıq edənlər yalnız bu ölkədə yaşayan azərbaycanlılar deyil. Eyni zamanda Belçika cəmiyyətində kifayət qədər tanınan ictimai-siyasi cəhətdən fəal insanlar da Belçika Azərbaycanlıları Cəmiyyətinə qoşulur, onunla sıx əməkdaşlıq edirlər. Bu isə öz-özlüyündə Belçika Azərbaycanlıları Cəmiyyətinin lobbiçilik istiqamətində də müəyyən addımlar atdığını göstərir. Belə ki, Belçikanın ictimai siyasi sferasında tanınan şəxslərdən biri olan Henrik Kroner Belçika Azərbaycanlıları Cəmiyyətinin baş katibi seçilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, Henrik Kroner 11 il Avropa Ticarət Palatasının baş katibi olmuşdur. Eyni zamanda Henrik Kroner 9 il Beynəlxalq Avropa Hərəkatının baş katibi vəzifəsində çalışıb. Cənab Kroner həmçinin siyasi analitik və beynəlxalq əlaqələr üzrə ekspertdir. Eyni zamanda Filiz Özdəmir adlı türk kökənli olan Belçika vətəndaşı da Belçika Azərbaycanlıları Cəmiyyətinin vitse prezidentidir. Bu xanım isə Belçikada sığorta və bank işləri ilə məşğuldur. Bundan başqa onlarla fəal azərbaycanlılar təşkilatın fəaliyyətinə öz töhfələrini verirlər.

Belçika Azərbaycanlıları Cəmiyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliği, Azərbaycanın tanıdılması sahəsində məqsədyönlü addımlar atıb. Həmçinin cəmiyyət Azərbaycanın milli bayramlarını da yüksək səviyyədə qeyd edərək ölkəmiz barədə Belçika ictimaiyyətində obyektiv rəy formalaşdırır. Buna misal olaraq Belçika Azərbaycanlıları Cəmiyyətinin 28 may-Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin il- dönümü və 18 oktyabr müstəqillik haqqında Konstitusiya aktının qəbul edilməsi tarixini qeyd et- məsini göstərmək olar. Belə ki, hər iki bayram tədbiri Belçika Azərbaycanlıları Cəmiyyəti tərəfindən yüksək səviyyədə qeyd edilib. Belçika Azərbaycanlıları Cəmiyyəti Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi və Xocalı soyqırımının həm Belçika, həm də dünya ictimaiyyətinə çatdırılması istiqamətində aktiv fəaliyyət göstərir. Cəmiyyət xüsusilə Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, bu soyqırımın tanıdılması, Xocalıda insan qətliamı həyata keçirən şəxslərin cinayətə cəlb olunması istiqamətində aktiv fəaliyyət nümayiş etdirir. Belə ki, Belçika Azərbaycanlıları Cəmiyyəti cinayətkar, uşaq qatili Serj Sarkisyanın Fransaya səfəri zamanı bu ölkədəki Ermənistan səfirliyi qarşısında etiraz aksiyasının təşkilatçılarından biri olub.

Cəmiyyət həmin aksiyada Belçikada yaşayan yüzlərlə azərbaycanlının iştirakını təmin edib. Belçika Azərbaycanlıları Cəmiyyətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi də fərqlidir. Cəmiyyət hesab edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli 3 prinsipial məsələdə ciddi dönüş etdikdən sonra mümkündür. Birincisi, Azərbaycanın iqtisadiyyatı daha da güclənməlidir. Ikincisi, diplomatiyamızın, üçüncüsü isə ordumuzun döyüş hazırlığı artırılmalıdır. Belçika Azərbaycanlıları Cəmiyyətinin qənaətincə Ermənistan əgər doğrudan da hiss etsə ki, qeyd edilən prinsiplərdə müqayisə olunmayacaq dərəcədə Azərbaycanın üstünlüyü var, o zaman geri çəkilməyə məcbur olacaq. Bu baş verməsə o zaman Azərbaycan dövləti beynəlxalq hüququn bizə verdiyi üstünlüklərdən istifadə edərək, Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, NATO və Avropa Parlamenti kimi beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrini əsas tutaraq torpaqlarımızın işğaldan azad olunması üçün güc tətbiq etməlidir.

Belçika Azərbaycanlıları Cəmiyyəti diaspora fəaliyyətinə də fərqli prizmadan yanaşır və hesab edir ki, diaspor sahəsində görülən işlər daha da sürətli xarakter almalıdır. Cəmiyyətin qənaətincə diaspora deyiləndə yalnız bayram günlərini qeyd etmək yada düşməməlidi. Belçika Azərbaycanlıları Cəmiyyəti, eləcə də digər diaspor təşkilatları müxtəlif səbəblərdən Avropaya mühacirət etmiş insanlarımızın müxtəlif problemlərinin həll edilməsində yardımçı olmalıdır. Yaxın zamanlarda Belçika Azərbaycanlıları Cəmiyyətinin saytı, rəqs qrupu və “Az Qarabağ” adında futbol komandasının yaranması nəzərdə tutulub ki, bununla da cəmiyyət diaspora fəaliyyətinə öz töhfəsini verməyi düşünür. Bundan başqa cəmiyyət Belçikadakı azərbaycanlılar arasında kontakt və xəbərləşməni sürətləndirmək üçün yaradacağı saytda forum yaradılmasına qərar verib. Qarşıdakı aylarda isə Belçika Azərbaycanlıları Cəmiyyəti ilk mərhələdə özünün təqdimat mərasimini keçirməyi düşünür. Bundan başqa Belçika Azərbaycanlıları Cəmiyyəti 20 yanvar, Xocalı soyqırımı, 31 mart Azərbaycanlıların soyqırımı günü kimi mühüm tarixlərin qeyd edilməsi, bununla başımıza gətirilən faciələrin dünya ictimaiyyətinə çatdırılması və həmin cinayətlərin öz hüquqi qiymətini alması üçün kampaniya, aksiyalar, tədbirlər, konfransları keçirməyi, eyni zamanda Novruz Bayramını milli bayramınız kimi möhtəşəm qeyd etməyi planlaşdırır. Ümumiyyətlə, Belçika Azərbaycanlıları Cəmiyyətinin 3 əsas hədəfi var. Birincisi təşkilatlanmaq, ikincisi xalqımız, tariximiz, ölkəmiz haqqında avropalılarda müsbət imic formalaşdırmaq, Qarabağ həqiqətlərini, Azərbaycanın tarixi haqsızlığa məruz qalmasını dünya ictimaiyyətinə çatdırmaq, üçüncüsü, soydaşlarımızın üzləşdikləri problemlərinin həll edilməsində yardımçı olmaq. onların şikayətlərinin araşdırılmasına dəstək vermək. Ümumiyyətlə, Belçika Azərbaycanlıları Cəmiyyəti hesab edir ki, diasporaya yeni insanlar, xüsusilə sat düşüncəli vətənpərvər gənclər cəlb olunmalı və bu zaman dövlət də öz dəstəyini onlardan əsirgə- məməlidir.

Sonda onu da qeyd edək ki, Belçika Azərbaycanlıları Cəmiyyəti rəsmi qeydiyyata alınmaq üçün müvafiq sənədlərini Belçikanın aidiyyatı qurumlarına təqdim edib. Yaxın günlərdə Belçika Azərbaycanlıları Cəmiyyətinin rəsmən qeydiyyatdan keçəcəyi gözlənilir. Cəmiyyət rəsmi dövlət qeydiyyatına alındıqdan sonra daha geniş və əhatəli şəkildə fəaliyyət göstərməyi qarşıya məqsəd qoyub.

**“Olaylar”.-2013.-9 yanvar.-№2.-S.15.**

**Birləşmiş Ştatlardakı Azərbaycan Diasporu**

Soydaşlarımızın məskunlaşdığı və Azərbaycan diasporunu layiqincə təbliğ etdiyi ölkələr sırasında Birləşmiş Ştatların da öz yeri var. Okeanın o tayındakı azərbaycanlılar əsasən Birləşmiş Ştatların Nyu-York, Vermont, Arizona, Florida, Ohayo, Konnektikut, Nevada, Texas, İllinoys kimi ştatlarında yaşayırlar. Hazırda Birləşmiş Ştatlarda azərbaycanlıların 30-a yaxın ictimai birliyi, bir jurnalı və bir televiziya kanalı fəaliyyət göstərir. Birləşmiş Ştatlar Dövlət Departamentinin verdiyi məlumata görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra 5 553 azərbaycanlı Amerika vətəndaşlığına keçmişdir. Tarixi mənbələrə nəzər yetirsək görərik ki, Birləşmiş Ştatlara gələn ilk azərbaycanlı Mirzə Əli Əkbər olmuşdur. 0,1912-ci ilin 7 iyun tarixində Böyük Britaniyanın Liverpul dəniz limanından Mauretania gəmisi ilə Ellis adasına gəlmişdir. Azərbaycanlıların Birləşmiş Ştatlara mühacirətinin növbəti dalğası Azərbaycan Demokratik Respublikasının tənəzzülündən sonra baş vermişdir.

Həmin illərdə Demokratik Respublikanın süquta uğraması və cümhuriyyət dövrünün fəallarının təqiblərə məruz qalması 20-yə yaxın azərbaycanlının Birləşmiş Ştatlara getməsinə səbəb oldu.. Daha sonra İkinci Dünya müharibəsi illərində Almaniyada xidmət edən və ya faşistlərə əsir düşən azərbaycanlıların bir qismi Birləşmiş Ştatlara mühacirət etmişlər. Onların təxmini sayı 250-300 nəfər olmuşdur. Həmin dövrlərdə azərbaycanlılar ən çox Nyu-York ştatında yaşamışlar. Bu daha çox həmin ştatda türk mühacirlərin olması ilə əlaqədar idi. 1980-ci illərə qədər Azərbaycan SSR- dən Birləşmiş Ştatlara gedənlərin sayı çox az olmuşdur. Bunun əsas səbəbi SSRİ-dən Amerikaya adi vətəndaşların getməsinin mümkün olmaması idi.

1979-cu il İran islam inqilabı da azərbaycanlıların Birləşmiş Ştatlara mühacirət etməsinə gətirib çıxardı. Məhz 1979-cu ilin İslam İnqilabı zamanı 150 000 azərbaycanlı İrandan Birləşmiş Ştatlara mühacirət etmişlər. Onlar əsasən İranda hakimiyyətə gələn rejimin rəhbərliyi altında yaşamaq istəməyənlər olmuşlar.

Birləşmiş Ştatlar dövlət departamentinin verdiyi məlumata görə, 2001-2010-cu illərdə 9 391 nəfər azərbaycanlı Amerika vətəndaşı kimi qeydiyyata götürülmüşdür. Bunlardan 2 565 nəfəri artıq Green card sahibidir. 1990-cı ildən etibarən, Azərbaycandan Green card qalibi olanların sayı 5 490 nəfər olmuşdur. Birləşmiş Ştatlar Dövlət Departamenti, orta hesabla Azərbaycana hər il 400 nəfər kvota yeri ayrıldığını açıqlamışdır. Bu da qonşu Gürcüstan və Ermənistana ayrılan kvotadan dəfələrlə azdır. Təkcə 2011-ci ildə Azərbaycandan Green card qalibləri sayı 355 nəfər olmuşdur. Onu da qeyd etmək yerinə düşər ki, Birləşmiş Ştatlar azərbaycanlılarının sayları, Qafqazın digər xalqlarına nisbətən azdır. Hazırda Birləşmiş Ştatlarda 500 000 erməninin və 250 000 gürcü əsilli insanların yaşadığı qeyd olunur. Ümumiyyətlə bu gün Birləşmiş Ştatlarda azərbaycanlıların 30-a yaxın təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlardan birincisi 1957-ci ildə yaradılan Amerika Azərbaycanlıları Cəmiyyətidir.

Cəmiyyətin hazırkı sədri Tomris Azəridir. Birləşmiş Ştatlardakı digər təşkilatlar isə Amerikalı Azərbaycanlıların Şurası, Birləşmiş Ştatlar Azərbaycanlıları Şəbəkəsi, Birləşmiş Ştatlar-Azərbaycan Ticarət Palatası, Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Ocağı, Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyası, Azərbaycan Nyu-York Assosiasiyası və Hyuston Azərbaycanlıları Assosiasiyasıdır. Birləşmiş Ştatlarda yaşayan soydaşlarımız fəal təbliğat prosesinin tərkib hissəsi kimi kütləvi informasiya vasitələri, televiziya kanalları təsis edərək Azərbaycanın haqq səsini Amerika cəmiyyətinə çatdırırlar. Birləşmiş Ştatların İllinoys ştatının Çikaqo şəhərində azərbaycanlıların “Günaz TV" adlı televiziya kanalı yayımlanır. Kanal 2005-ci ilin aprel ayından canlı yayıma başlamışdır. “Günaz TV”-nin əsas təsisçiləri Əhməd Obalı və Huseyn Bəydir Gün ərzində 24 saatlıq proqram ları “Hotbird” peyki vasitəsi ilə yayımlanır. Kanalın əsas məqsədi İranda azərbaycanlıların hüquqlarının tapdalanmasma son qoyulması, İran azərbaycanlılarının haqlarının tanınması istiqamətində fəaliyyət göstərməkdir. Televiziya kanalının gün ərzində 8 saatlıq canlı efir müddəti var.

**“Olaylar”.-2013.-10 yanvar.-№3.-S.15.**

**Türkiyə Respublikasının Çukurova Dövlət Konservatoriyasının professoru, əməkdar incəsənət xadimi Cahangir Novruzov Alanya Bələdiyyəsinin sədri Həsən Sipahioğlu ilə görüşmüşdür**

Yanvarın 10-da Türkiyə Respublikasının Çukurova Dövlət Konservatoriyasının professoru, əməkdar incəsənət xadimi Cahangir Novruzov Alanya Bələdiyyəsinin sədri Həsən Sipahioğlu ilə görüşmüşdür. Alanya Bələdiyyəsinin dəvəti ilə Alanya Bələdiyyə Konservatoriyasında təhsil alan tələbələrə üç gün ərzində ustad dərsləri keçən Cahangir Novruzov, bələdiyyə sədri Həsən Sipahioğluna sənətə və sənət adamlarına göstərdiyi diqqətə görə təşəkkür etmişdir.

Türkiyənin mədəniyyət sahəsində Alanyanın xüsusi yeri olduğuna diqqəti çəkən Novruzov tələbələrlə təcrübəsini bölüşdüyünü və maraqlı fikir mübadiləsi çərçivəsində üç gün ərzində xüsusi zövq aldığını bildirmişdir. Bələdiyyə sədri görüşdən məmnun olduğunu bildirərək, Türkiyə-Azərbaycan xalqları arasındakı qardaşlıq münasibətlərinin, tarixi əlaqələrin, o cümlədən mədəniyyət sahəsindəki əməkdaşlığın bundan sonra da möhkəmlənəcəyinə əmin olduğunu qeyd etmişdir.

**10 yanvar 2013**

## **Azərbaycan diasporu 20 Yanvar faciəsinin ildönümünü qeyd edəcək**

### ***Dünyanın müxtəlif ölkələrində anım tədbirləri keçiriləcək***

Azərbaycan həqiqətləri, zaman-zaman xalqımızın başına gətirilən fəlakətlərin dünya ictimaiyyətinə çatdırılması prosesində diaspor təşkilatları da öz üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Azərbaycan təqviminə hüznlü gün kimi daxil olan 20 Yanvar faciəsinin ildönümü ərəfəsində də xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporu aktivliyini bir qədər də artıraraq həmin faciənin təfərrüatlarını dünya ictimaiyyətinə çatdırmağa çalışır. Hər il olduğu kimi bu il də faciənin 23-cü ildönümü ilə bağlı dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən anım tədbirləri, konfrans və dəyirmi masaların keçirilməsi nəzərdə tutulub. Benilüks Azərbaycanlıları Konqresi 20 Yanvar faciəsinin 23-cü ildönümü ilə əlaqədar olaraq Avropa Parlamentinə və Benilüks ölkələrinin qanunverici qurumlarına müraciət ünvanlayıb. Müraciətdə deyilir ki, 1990-cı il 20 Yanvar hüzn günü olmaqla yanaşı, eyni zamanda Azərbaycanda sovet rejiminin hakimiyyətinin sona çatmasının başlanğıcı olub. Benilüks Azərbaycanlıları Konqresi müraciətində Avropa Parlamentini və Benilüks ölkələri qanunvericilərini bu qeyri-insani aksiyanı rəsmi şəkildə pisləyən qətnamə qəbul etməyə çağırıb. Konqres üzvləri faciəyə Avropa Parlamenti tərəfindən siyasi qiymət veriləcəyinə, bu qanlı faciənin Avropa tarixi hafizəsinin tərkib hissəsi kimi qəbul ediləcəyinə inandıqlarını qeyd ediblər. Birləşmiş Ştatlarda fəaliyyət göstərən diaspor təşkilatları isə bu ölkədə nəşr edilən kütləvi informasiya vasitələrində faciə ilə əlaqədar silsilə materialların dərc edilməsinə nail olub. Belə ki, bu səylərin nəticəsi olaraq Amerikanın nüfuzlu "Vaşinqton Post” qəzetində 20 Yanvar faciəsi haqqında məqalə dərc edilib. Məqalədə qeyd olunub ki, bu günlərdə Amerikada yaşayan azərbaycanlılar 20 Yanvar faciəsinin qurbanlarını yad edəcəklər. Yazıda Amerika-Azərbaycan Şəbəkəsinin bu istiqamətdəki fəaliyyətinə də yer ayrılıb.

Bildirilib ki, son iki ildə Amerika-Azərbaycanlılar Şəbəkəsi Texas və Nyu-York ştatlarının parlamentlərində 20 Yanvara dair iki rəsmi qətnamə qəbul edilməsinə nail olub. Həmçinin şəbəkənin hazırladığı məlumatda ”Qara Yanvar: Bakı, 1990. Sənədlər və materiallar” kitabından götürülmüş faktlar verilir. Birləşmiş Ştatların azərbaycanlı icmasının üzvləri bu yazılı kampaniya vasitəsilə Amerika ictimaiyyətini 20 Yanvar hadisələri haqqında məlumatlandıraraq, ölkə qanunvericilərini bu qeyri-insani aksiyanı rəsmi şəkildə pisləyən qətnamə qəbul etməyə çağırır. Həmçinin Amerika Azərbaycanlıları Şəbəkəsi 20 Yanvar faciəsi haqqında Amerika ictimaiyyətinin məlumatlandırılması kampaniyasına başlamışdır. Şəbəkənin hazırladığı məlumatda ”Qara Yanvar: Bakı, 1990. Sənədlər və materiallar” kitabından götürülmüş faktlar verilir. Məlumatda qeyd edilir ki, 1990-cı il yanvarın 20- də 26 min nəfərlik sovet qoşun kontingenti Bakını işğal etmiş, şəhərin dinc əhalisinə vəhşicəsinə divan tutmuşdur. Bu təcavüz nəticəsində aralarında 6 qadın və 9 uşaq olmaqla 170 nəfər həlak olmuşdur.

Daha 370 nəfər yaralanmış, 321 nəfər isə itkin düşmüşdür. Birləşmiş Ştatlar Azərbaycanlılar Şəbəkəsinin Amerika ictimaiyyətinə, Amerika mətbuatına və ölkə qanunvericilərinə ünvanlanmış müraciətində deyilir ki, 1990-cı il 20 Yanvar hüzn günü olmaqla yanaşı, eyni zamanda Azərbaycanda sovet rejiminin hakimiyyətinin sona çatmasının başlanğıcı olmuşdur. Azərbaycanın dinc əhalisinə qarşı bu təcavüz sovetlər ölkəsinin öz vətəndaşlarına qarşı törətdiyi növbəti qırğın idi. Bundan əvvəl 1986-cı ildə Qazaxıstanda, 1989-cu ildə Gürcüstanda, daha sonra Litvada qeyri-insani aksiyalar həyata keçirilmişdi. Məlumatda deyilir ki, Azərbaycanda 20 Yanvar hadisələri Azərbaycan xalqının yaddaşında kədərli bir səhifə kimi qalmaqla bərabər, həm də növbəti, 1991-ci ildə respublikamızın müstəqilliyini elan etməsinə təkan verdi.

Qara Yanvar günlərindən iyirmi üç il keçdiyinə baxmayaraq hər il yüz minlərlə azərbaycanlı və Azərbaycanın dostları Bakı şəhərindəki Şəhidlər Xiyabanını ziyarət edir, Azərbaycanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini ehtiramla yad edir”. Birləşmiş Ştatlar Azərbaycan icmasının üzvləri bu yazılı kampaniya vasitəsilə Amerika ictimaiyyətini 20 Yanvar hadisələri haqqında məlumatlandıraraq, ölkə qanunvericilərini bu qeyri-insani aksiyanı rəsmi şəkildə pisləyən qətnamə qəbul etməyə çağırır. Kampaniya yanvarın 22-dək davam edəcəkdir. 20 Yanvar faciəsinin 23-cü ildönümü Belçikada da qeyd ediləcək. Belçikadakı çoxsaylı Azərbaycan diaspor təşkilatları və bu ölkədəki Azərbaycan səfirliyi tərəfindən anım tədbirləri təşkil olunacaq. Bundan başqa Belçika Azərbaycanlıları Cəmiyyəti tərəfindən Brüssel şəhərində 20 Yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş konfransın keçirilməsi nəzərdə tutulub.

“20 Yanvar faciəsi, Azərbaycanın qan yaddaşı” mövzusunda keçiriləcək konfransda Belçikada yaşayan soydaşlarımızla yanaşı, Avropa İttifaqı və Avropa Parlamentinin rəsmiləri, Belçikadakı ayrı-ayrı ölkələrin diplomatic nümayəndəlikləri, eləcə də digər ölkələrin diaspor nümayəndələrinin iştirakı nəzərdə tutulub. Konfransda əvvəlcə ingilis dilində hazırlanmış və 20 Yanvar faciəsini əks etdirən sənədli film nümayiş olunacaq. Konfrans zamanı həmçinin iştirakçılara 20 Yanvar faciəsinin baş vermə səbəbləri, keçmiş Sovet ordusunun Azərbaycan xalqına qarşı işlətdiyi cinayət barədə də məruzələr, çıxışlar dinləniləcək.

İsveçdə fəaliyyət göstərən Azərbaycan diasporu da 20 Yanvar faciəsinin 23-cü ildönümünü qeyd edəcək. Belə ki, 16-18 yanvar tarixlərində İsveç Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvləri İsveç Krallığının parlament və hökumət nümayəndələri ilə görüşməyi planlaşdırır. Görüş zamanı iştirakçılara 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet qoşunlarının dinc əhaliyə qarşı törətdiyi vəhşilikləri əks etdirən materialların təqdim olunması da nəzərdə tutulub. Bundan başqa, Stokholmda 20 yanvar faciəsinin qurbanlarına həsr olunmuş anım mərasimi də keçiriləcək. Bu tədbirə Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri cənab Rafael İbrahimov, səfirliyin əməkdaşları, həmçinin İsveçdəki Azərbaycan və Türk diaspor təşkilatlarının nümayəndələrinin də iştirak edəcəyi gözlənilir.

Azərbaycanın Qırğızıstandakı səfirliyi, Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu və Qırğızıstandakı Azərbaycanlıların Əlaqələndirmə Mərkəzi İctimai Birliyi yanvarın 18-də 20 Yanvar faciəsinin ildönümü ilə bağlı birgə tədbir keçirəcəklər.

Tədbirdə iştirakçılara 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşun kontingentinin Bakıya hücum etmişi, şəhərin dinc əhalisinə vəhşicəsinə divan tutması barədə məlumat veriləcək, bu təcavüz nəticəsində, aralarında 6 qadın və 9 uşaq olmaqla, 170 nəfərin həlak olması, daha 370 nə- fərin yaralanması, 321 nəfərin itkin düşməsi bir daha xatırlanacaqdır.

Tədbirin sonunda iştirakçılara akademik Ramiz Mehdiyevin Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu tərəfindən Bişkekdə qırğız və rus dillərində nəşr olunmuş "Azərbaycanlılara qarşı soyqırım gerçəkliyi" kitabı paylanacaqdır.

20 Yanvar faciəsinin 23-cü ildönümü Baltikyanı ölkələrdə də qeyd olunacaq. Belə ki, faciənin 23-cü ildönümü ilə bağlı Litva Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə Vilnüsdə bir sıra anım mərasimləri və təbliğat tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Həmin tədbirlər çərçivəsində 18 yanvar 2013-cü ildə Litva Respublikasının Seymində 1990-cı il 20 Yanvar Bakı və 1991-ci il 13 Yanvar Vilnüs hadisələri şəhidlərinin xatirəsinə həsr olunmuş birgə anım mərasimi keçiriləcək. Tədbir Azərbaycanın Litvadakı fövqəladə və səlahiyyətli səfirliyi ilə birlikdə Litva Azərbaycanlıları Cəmiyyəti, Litvanın 1991-ci il 13 Yanvar azadlıq müdafiəçiləri icması, Litva-Azərbaycan Parlamentlərarası əlaqələr üzrə işçi qrupu və Litva-Azərbaycan Assosiasiyası tərəfindən təşkil ediləcək. Tədbirlə əlaqədar olaraq Litva Respublikasının parlamentində 1990-cı il 20 yanvar hadisələri mövzusunda müxtəlif nəşrlər, tarixi materiallar, fotogörüntülər və Litva Sayudisinin arxivindən götürülmüş bir sıra siyasi sənədlərdən ibarət sərgi təşkil olunacaq qısa sənədli filmlər nümayiş etdiriləcək, tanınmış Litva politoloqları və tarixçiləri məruzələrlə çıxış edəcəklər. Anım mərasimində Litva Respublikası Seyminin rəhbərliyi, ölkənin millət vəkilləri, Litva Respublikası nazirliklərinin və digər hökumət idarələrinin nümayəndələri, tanınmış tarixçilər, politoloqlar, ictimai və mədəniyyət xadimlər, dini konfessiyaların təmsilçiləri, qeyri-hökumət təşkilatları və milli icmaların liderləri, jurnalistlər və digər şəxslərin iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, tədbir Litva Respublikası Seyminin televiziyası ilə canlı yayımlanacaq. Litva Respublikası Seyminin 17 yanvar tarixində keçiriləcək plenar iclasında isə cəmiyyətin təşəbbüsü və təklifi ilə 20 Yanvar şəhidlərinin xatirəsi 141 nəfər millət vəkili tərəfindən bir dəqiqəlik sükutla yad olunacaq. Həmçinin Litva azərbaycanlıları cəmiyyətinin xəttilə yerli kütləvi informasiya vasitələrində 20 Yanvar faciəsi ilə əlaqədar olaraq analitik yönümlü məqalə və müsahibələr dərc olunacaq.

20 Yanvar faciəsinin 23-cü ildönümü Danimarkada da qeyd ediləcək. Bu ölkədə fəaliyyət göstərən "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə baş tutacaq anım tədbirinə danimarkalı parlamentarilər siyasi partiyaların rəhbərləri, eləcə də Danimarkada fəaliyyət göstərən xarici ölkə səfirlikləri dəvət edilib. Anım tədbirində 20 Yanvar faciəsinin baş vermə səbəbləri, eləcə də keçmiş Sovet ordusunun Bakıda törətdiyi vəhşiliklər barədə danışılacaq.

**"Olaylar".-2013.-12 yanvar.-№5.-S.15.**

**“Azərbaycan üzrə Araşdırmalar Dərsləri” layihəsinin iştirakçıları, Toronto Universitetinin bir qrup Professor ve Magistr tələbələrinin Azərbaycana səfəri təşkil edilmişdir**

Cari ilin yanvar ayının 12-20 –də Toronto Universitetinin MUNK Mərkəzi ile birlikdə həyata keçirilən “Azərbaycan üzrə Araşdırmalar Dərsləri” layihəsinin iştirakçıları, Toronto Universitetinin bir qrup Professor ve Magistr tələbələrinin Azərbaycana səfəri təşkil edilmişdir. Azərbaycanda olduqları həftə ərzində, tələbələrimiz Azərbaycanın siyasət xadimləri, dövlət məmurları, elm-mədəniyyət sahələrinin qabaqcıl simaları ilə görüşlərdə, Azərbaycanın müxtəlif ali təhsil müəssisələri tərəfindən təşkil olunan seminarlarda və təqdimatlarda iştirak ediblər və Lənkaran şəhərinə bir günlük səfər edib, araşdırmalar aparıblar.

Tələbələr Diaspora ilə İş Üzrə Dövlət Komitəsində, Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzində, Mərkəzi Bakda, Azərbaycan Diplomatik Akademiyasında, Azərbaycan Respublikasının Milli Məclisində, Bakı Dövlət Universitetində tərəfdaşlarımız ilə görüşlər keçirdiblər. Qrupumuzun rəhbərləri AzTV və Space telekanallarında səfər çərçivəsində və Kanadada Azərbaycan-şünaslıq sahəsi üzrə gördüyümüz işlər haqqında çıxışlar etmişdir.

**12-20 yanvar**

## Azərbaycan diasporunun dəstəkverici qüvvəsi - türk diasporu

Azərbaycan diasporu ilə birgə mübarizə aparan, ölkəmizin haqq səsinin dünyaya çatdırılmasında diasporumuza yaxından dəstək verən əsas qüvvələrdən biri də türk diasporudur. Hər iki ölkənin milli maraqlarının qorunması istiqamətində həyata keçirilən birgə mübarizə tədricən öz müsbət nəticəsini verməkdədir. Xüsusilə, say baxımından türklərin daha çox üstünlük təşkil etdiyi Avropa ölkələrində türk diasporunun Azərbaycan diasporuna nümayiş etdirdiyi dəstək həm dövlətimiz, həm də onun müvafiq qurumları tərəfindən müsbət qiymətləndirilməkdədir.

Azərbaycan diasporu kimi o qədər də dərin tarixə malik olmayan türk diasporunun say tərkibi və məskunlaşma coğrafiyası da bir qədər fərqlidir. Türkiyənin Xarici İşlər Nazirliyinin son illərdə açıqladığı məlumata görə, dünya ölkələrində türklərin sayı 5-7 milyon nəfər arasında dəyişir. Onlar dünyanın 70-dən artıq ölkəsində məskunlaşıblar. Türklərin say baxımından ən sıx məskunlaşdığı region isə Avropa qitəsidir. Xüsusilə, bu qitənin ən dəqiq dövlətlərindən biri kimi tanınan Almaniyada türklərin sayı digər Avropa ölkələrindəki türklərin sayından dəfələrlə çoxdur. Statistik məlumatlara görə, Almaniyada türklərin sayı 3 milyon nəfərə çatır. Türk diasporunun formalaşma tarixi başlanğıcını Osmanlı İmperiyası dövründən və Türkiyə Respublikasının qurulmasından götürür. Osmanlı İmperiyası o zaman dünyanın ən zəngin dövlətlərindən sayılırdı. Bu imperiyanın vətəndaşları digər dövlətlərdə olduğu kimi səadət ardınca başqa dövlətlərə mühacirət etmirdilər. Avropa, Asiya və Afrika qitələrində böyük ərazilərə malik olan Osmanlı İmperiyasında türklər nadir halda yaşadıqları əraziləri tərk edirdilər. Başqa dövlətlərdə yaşayan türklər yalnız işlə əlaqəli olaraq buralara gəlmişdilər. Onların çoxu öz səlahiyyət müddəti bitəndən sonra geri köçürdülər. Onların bir qismi isə çalışdıqları dövlətlərdə özlərinə yaxşı şərait yaratdıqlarından buralarda qalmalı olurdular. Bu səbəbdən də tədqiqatçıların çoxu türk diasporu tarixini bu dövrdən götürürlər.

Zamanla Osmanlı İmperiyası zəiflədikcə.nəzarət edilən ərazilərin əldən çıxmasına baxmayaraq türklərin bəziləri yaşadıqları dövlətləri tərk etməyib öz icmalarını yaratdılar. Bununla da türk diasporunun təməlini qoymuş oldular. Avropa qitəsində türk diasporunun formalaşması prosesi 1950-ci illərdən başlayır. Məhz bu tarixdən etibarən Avropa kütləvi şəkildə türk mühacirlərini qəbul etməyə başladı. Ailəvi halda ilk mühacirlər məskunlaşdıqları Avropa ölkələrində qısa zamanda özlərinə iş tapdılar. Bu mühacirlər əsasən orta yaş hədlərində olan türklər idi. Onlar özləri ilə Avropaya türk ənənələri, mətbəxi, musiqisini gətirirdilər. Mühacir türklərin vətənlə sıx əlaqələrinin olmasına baxmayaraq onlar Avropa mühitinə tez adaptasiya olunurdular. Bir-birinə əks olan Şərq və Qərb mədəniyyətlərinin ağırlıqlarını çiyinlərində daşıyan türk mühacirləri hər iki tərəfdən təzyiqlə üzləşirdilər. Bir tərəfdən Qərb mədəniyyəti ənənələrinə assimilyasiya olunan türklər digər tərəfdən Şərq mədəniyyəti və ənənələrini Avropa qitəsində təbliğ edirdilər. Bu mühacirlərin əksəriyyəti daim Avropada yaşamaq məqsədini qarşısına qoymamışdı. Onların çoxu maddi durumlarını yaxşılaşdırdıqdan sonra Vətənə qayıdırdılar. Lakin onlar Vətənə dönərkən Avropa ənənələrini də özləri ilə gətirdilər ki, bu da Türkiyəni Avropaya inteqrasiya olunmasında mənəvi-psixoloji baxımdan mühüm rol oynadı. 1960-cı illərdən sonra başlanan kütləvi türk mühacirəti tərkibinə görə, müxtəlif təbəqələri əhatə edirdi. Türkiyənin düşdüyü sosial-iqtisadi durum, işsizlik, inflyasiya, hökumət böhranları türklərin bir çox ölkələrə, xüsusən Avropaya mühacirət etməsinə səbəb oldu. Kompakt halda Avopa ölkələrində məskunlaşan türklər qısa zamanda öz icmalarını yaratdılar.

Türklərdə təbii-bioloji yolla artımın yüksək olması Avropada demoqrafik duruma ciddi təsir göstərməyə başladı. Xarici ölkələrdə yaşayan türklərin sayının artımı diasporun formalaşdırılma prosesini sürətləndirdi. Ucuz işçi qüvvəsi və birgə halda çalışmaları onlara üstünlüklər verirdi. Zavod, fabriklərdə çalışan türklərin çoxu Avropa dillərini öyrənməyə cəhd etmirdi. Türk məhəllələrində yaşayan həmvətənləri ilə birgə çalışan bu şəxslərin dil öyrənməyə ehtiyacları yox idi. Ailə, nikah ənənəsini, milli ənənələrini qoruyub saxlayan türklər məskunlaşdıqları ölkənin də ənənələrinə riayət edirdilər. Təşkilatlanmanın güclü olduğu türk diasporunda xüsusilə ziyalılarıjn rolu böyük idi. Avropada əsasən Fransa, Almaniya, Böyük Britaniya, Niderland, Avstriya, Belçika, İsveçrə, İsceç, İtaliya, Norveçdə çoxluq təşkil edən türklərin fəaliyyəti, yaşayış tərzi yerli əhalidən xeyli fərqlənirdi. Əsasən fəal və bacarıqlı işçi kimi tanınan türklər ağır sənaye müəssisələrində, tikinti işlərində çalışır, xırda və orta bizneslə məşğul olurdular. Türklərin bu xüsusiyyətləri Avropada müsbət qarşılanırdı. Çalışqan, namuslu və çılğın olduqlarına görə fabrik, zavod rəhbərləri onları işə götürərkən tərəddüd etmirdilər. Avropada türklər üçün türk dili əsas ünsiyyət vasitəsi hesab edilirdi. Avropanın sosial-iqtisadi həyatının ayrılmaz tərkib hissəsi olan türk diasporu milli ənənənələrə riayət edən etnik diasporlardan hesab olunur. Onların Avropaya daha tez adaptasiya olunması, işçilərinin çalışqanlığı Avropa dövlətlərini Türkiyə ilə əmək müqavilələrinin imzalanmasına stimul yaratdı. İlk belə müqavilə 1961-ci ildə Almaniya ilə imzalanmışdır. Daha sonra 1964-cü ildə Avstriya, Belçika, Niderland, 1965-ci ildə Fransa ilə imzalanan əmək miqrasiyası barədə müqavilələr türklərin Avropa ölkələrinə miqrasiyasında böyük rol oynamışdır. Türk diasporunun Avropada ictimai-siyasi fəaliyyəti isə 1970-ci illərdən başlayır.

1970-1980-cı illər arası Avropada türk təşkilatlarının sayı 156-ya çatırdı. Bu dövrə qədər yalnız Avropada 70 diaspor təşkilatı fəaliyyət göstərirdi ki, onların da əksəriyyəti Almaniyada təsis edilmişdi. Türk diaspor təşkilatları mədəni, ədəbi təbliğatçılıq işləri ilə də məşğul olurlar. Avropada günü-gündən sayı artan türk diaspor təşkilatları tərəfindən təsis olunmuş kütləvi informasiya vasitələrinin də sayı tədricən artmağa başlayıb. 1970-ci illərdə Avropada cəmi 34 türk kütləvi informasiya vasitəsi fəaliyyət göstərdiyi halda, 1980-ci ilə qədər onların sayı 100-ü keçmişdi.

Türkiyə Milliyyətçi Hərəkat Partiyasının yaradılması Avropada türklərin fəaliyyətinin güclənməsinə stimul verdi. Türk kütləvi informasiya vasitələri sosial, mədəni, iqtisadi problemlərlə yanaşı, siyasi polemikalara da geniş yer ayırmağa başlayırdı. 1976-cı ildə Avropada Milliyyətçi Hərəkat Partiyasının 106 şöbəsi fəaliyyət göstərirdi ki, bu da diasporun siyasi fəallığının kifayət qədər yüksək olduğunu göstərirdi. Milliyyətçi Hərəkat Partiyası tərəfdarları Avropada türk kimliyini, türkçülük faktorunu təbliğ etməklə, onların assimilyasiya olunmasının qarşısını almağa çalışır, türklərə qarşı olan bu fikirləri dəyişmək istiqamətində iş aparırdılar. Türkiyədə partiyalar arasında olan münasibətlər Avropadakı türklər arasında münasibətlərə də öz təsirini göstərməkdəydi. Avropanın sosial-iqtisadi və ictimai-siyasi həyatında fəal rol oynayan türk diasporunun maddi durumu isə bu dövrdə orta səviyyədə idi. Türkiyənin əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər türk diasporunun mövqelərinin güclənməsinə şərait yaradırdı. Erməni, kürd və yunan diasporunun əks-təbliğatına baxmayaraq Avropada türklərə sevgi və sayğı ilə yanaşılırdı. Türkiyənin Avropaya inteqrasiyası, atılan uğurlu addımlar türk diasporunun fəaliyyətinin daha da genişlənməsinə imkan yaradırdı.

Almaniya-XVI əsrdən etibarən türk mühacirlərinin Almaniyaya köçünün başlanmasına baxmayaraq burada türk diasporu 1950-ci ildən sonra yaranmağa başladı. 1950-ci ildən Almaniyaya köçən türklərə qarşı "müvəqqəti qonaq", "əcnəbi işçi", "Almaniyanın müsəlman təbəqəsi", "insan haqları uğrunda mübarizə aparan ordu" və digər baxışlar və yanaşmalar mövcud idi. Zamanla türk mühacirlərinin sayının durmadan artması ölkə ictimai-iqtisadi həyatında rolunun güclənməsilə onlara münasibət və baxışlarda ciddi dəyişiklik yarandı. Almaniyaya ilk köçən mühacirlər burada daimi yaşamaq məqsədi güdmürdülər. Onlar müxtəlif sahələrdə çalışaraq maddi durumlarını yaxşılaşdırdıqdan sonra Vətənə geri dönmək barədə fikirləşirdilər. Sonradan çalışdıqları sahədə onlara ehtiyacın artması bu ölkəyə tamamilə adaptasiya olunmaları ilə əlaqədar burada daimi məskunlaşan türklər öz diasporlarını formalaşdırmağa başladılar. Almaniyada ilk dəfə olaraq 1923-cü il, aprelin 26-27-də Düsseldörf şəhərində yaşayan türklərin birinci konqresi keçirildi. İlk konqresin gedişində iştirak etmək üçün Almaniyanın müxtəlif şəhərlərindən həmkarlar ittifaqlarının nümayəndələri, ziyalılar, iş adamları, təşkilat rəhbərləri, jurnalist və digər peşə sahibləri də bu toplantıya təşrif buyurmuşdu. Birinci konqresdə bir çox məsələlər müzakirə olunmuş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdi. 1988-ci ildə türk diasporunun üzvləri və təşkilat rəhbərləri federasiya formasında birləşərək ümumi türk işi və türk milli kimliyinin qorunub saxlanması istiqamətində birgə fəaliyyət göstərməyə başladılar. Federasiyanın yaranması diaspor təşkilatlarının kortəbii və pərakəndə fəaliyyətini aradan qaldıran Almaniyada türklərin həmrəyliyi və milli birliyi üçün atılan mühüm addım idi.

**Azərbaycan Respublikası Prezidenti yanında**
**KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun**
**maliyyə dəstəyilə çap edilmişdir**
**"Olaylar".-2013.-15 yanvar.-№6.-S.15.**

**Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Toronto Universitetinin nümayəndə heyəti Azərbaycana səfər etmişdir**

Yanvarın 14-dən Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Toronto Universitetinin nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Səfər zamanı keçirilmiş görüşlərdə Azərbaycanın regionda və dünyada rolu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycana xarici investisiyaların cəlb edilməsi, iqtisadi inkişafı, insan hüquqlarının müdafiəsinə dair bir sıra məsələlər müzakirə olunacaq. Nümayəndə heyəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində, Azərbaycan Diplomatik Akademiyasında, Lənkəran Dövlət Universitetində olmuş, Lənkəran Bələdiyyə Başçısı Taleh Qaraşov ilə görüş keçirmişlər.

Nümayəndə heyəti yanvarın 17-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovla görüşəcək. Bundan başqa, Azərbaycan Respublikası Milli Məclisinin İnsan Hüquqları Komitəsində və digər təşkilatlarda da görüşlərin keçirilməsi planlaşdırılır.

**14 yanvar 2013**

**Kaliforniya Universitetinin professoru Lütfi Zadə 2012-ci il üçün "Foundation Frontiers of Knowledge Awards"ın informasiya-kommunikasiya texnologiyaları nominasiyası üzrə BBVA mükafatına layiq görülüb**

Dünya şöhrətli azərbaycanlı alim, Kaliforniya Universitetinin professoru Lütfi Zadə 2012-ci il üçün "Foundation Frontiers of Knowledge Awards"ın informasiya-kommunikasiya texnologiyaları nominasiyası üzrə BBVA mükafatına layiq görülüb.

"APA-Economics"in xəbərinə görə, alim bu mükafatı qeyri-səlis məntiq nəzəriyyəsinin kəşfi və inkişafına görə alıb. Mükafatın münsiflər heyəti hesab edir ki, bu nəzəriyyə kompüter texnologiyaları sahəsində inqilabi sıçrayış olub.

Qeyd edək ki, son 50 ildə Lütfi Zadənin metodikası təkcə ABŞ və Yaponiyada 50 mindən çox patentin əsası olub. "Foundation Frontiers of Knowledge Awards"ın BBVA elmi mükafatı 8 nominasiya üzrə təqdim olunur. Münsiflər heyətində Avropanın aparıcı universitetlərinin alimləri təmsil olunur.

**16 yanvar 2013**

## Dövlət Komitəsinin sədri Kanada Azərbaycan Tədqiqatlar İnstitutunun nümayəndə heyətini qəbul etmişdir

Yanvarın 17-də Diasporla iş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov Kanada Azərbaycan Tədqiqatlar İnstitutunun nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı Kanada Azərbaycan Tədqiqatlar İnstitutunun fəaliyyəti ilə bağlı geniş fikir mübadiləsi aparılmış, institutun Azərbaycan tarixi və mədəni irsinin təbliği baxımından böyük əhəmiyyət daşıdığı bildirilmişdir.

N.İbrahimov Kanadanın aparıcı universitetlərindən biri olan Toronto Universitetinin nümayəndə heyətini Azərbaycanda görməkdən məmnun olduğunu bildirmişdir. Komitənin Universitetlə əməkdaşlığa böyük önəm verdiyini və ikitərəfli əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əmin olduğunu vurğulayan Dövlət Komitəsinin sədri bu əlaqələrin hər iki tərəf üçün faydalı olduğunu diqqətə çatdırmışdır.

Nümayəndə heyətinin rəhbəri - Kanada-Azərbaycan Araşdırmalar İnstitutunun təsisçisi, Kanadanın Vaterloo Universitetinin professoru İlham Axundov institutun fəaliyyəti barədə geniş məlumat vermişdir. O, institutun 2009-cu ildə təsis edildiyini və 2011-ci ildə rəsmi qeydiyyatdan keçdiyini qeyd etmişdir. İ.Axundov İnstitutda Azərbaycanın siyasi və iqtisadi həyatının müxtəlif istiqamətləri üzrə tədqiqatlar apardığını diqqətə çatdırmışdır. O, institutda Azərbaycana həsr olunmuş seminarların təşkil olunduğunu və bu seminarlarda Kanadada fəaliyyət göstərən müxtəlif universitetlərin tələbələrinin də iştirak etdiyini bildirmişdir.

Kanadanın Toronto Universitetinin professoru Robert Austin Azərbaycanın kifayət qədər maraqlı ölkə olduğunu və burada olmaqdan məmnunluq duyduğunu vurğulamışdır. O, Kanada Azərbaycan Tədqiqatlar İnstitutunun ötən müddətdə çox mühüm işlər gördüyünü, Azərbaycanın tarixi, iqtisadiyyatı, ictimai-siyasi həyatı ilə bağlı bir sıra maraqlı tədqiqatlar aparıldığını söyləmişdir. O, layihənin daha da genişləndirilməsinin əhəmiyyətli olacağına inamını ifadə etmişdir. R.Austin torpaqlarının 20 faizi işğal altında olan bir ölkənin nə qədər ciddi çətinliklərlə üzləşdiyini anladığını bildirərək bu barədə öz tələbələrinə məlumat verdiyini də qeyd etmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov Kanada Azərbaycan Tədqiqatlar İnstitutuna bundan sonra da dəstək veriləcəyini diqqətə çatdırmışdır. O, Kanadada belə bir institutun fəaliyyət göstərməsinin Azərbaycan haqqında bu ölkənin ictimaiyyəti, xüsusilə elm adamları və gənclərin məlumatlandırılması baxımından çox vacib olduğunu söyləmişdir. Dövlət Komitəsinin sədri layihənin genişləndirilməsi üçün Komitə tərəfindən bütün zəruri köməyin göstəriləcəyini vurğulamışdır.

Qeyd edək ki, yanvarın 14-də Bakıya gəlmiş Kanada Azərbaycan Tədqiqatlar İnstitutunun nümayəndə heyətinin səfəri Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təşkil olunmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti bir sıra dövlət orqanlarında görüşlər keçirmişdir.

**17 yanvar 2013**

**"Bəzi ölkələrdə bir təşkilatın olması normal deyil" - Nazim İbrahimov – müsahibə**

**"Xaricdə Azərbaycanın imicinə zərbə vurmaq, ölkədə gedən proseslərə kölgə salmaq düşmən dəyirmanına su tökmək kimi bir şeydir"**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun müsahibəsi

**-Nazim müəllim, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor məsələlərinə cavabdeh dövlət qurumlarının rəhbərlərinin Bakı görüşünü necə dəyərləndirirsiniz?**

-Bu gün türk dünyasının birliyinə daha çox ehtiyac duyulur. Cənab prezident İlham Əliyev də bu məsələyə çox ciddi diqqət verir və bu məsələ hər zaman onun nəzarətindədir. Artıq biz neçə illərdir ki, türk-Azəbaycan diasporlarının birgə toplantılarını keçiririk. 2007-ci ildə Bakıda birinci forum keçirilib. Eyni zamanda türk-Azərbaycan diasporlarının birgə strategiyası hazırlanaraq həyata keçirilir.

Biz hər zaman hesab edirdik ki, bu prosesə digər türkdilli dövlətlər də qatılmalıdır və onların diasporlarının gücü də bizim gücümüzlə birləşdirilməlidir. Ona görə də bu birliyin bir başlanğıcı olmalıdır. Çox yaxşı haldır ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və bizim təşəbbüsümüzlə Bakıda belə bir yığıncaq keçirilir. Həmçinin biz türkdilli dövlətlərin dünyada olan diaspor təşkilatlarının birinci forumunun keçirilməsi ideyasını irəli sürmüşük. Həmin toplantının Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış etmişik. Yəqin ki, bu il ərzində Bakıda belə bir mötəbər tədbir keçiriləcək. Bu da gələcəkdə türkdilli dövlətlərin strategiyasını hazırlayıb ortaya qoyaraq türkdilli dövlətlərin gücünə daha bir güc qatmış olacaq.

**-Gələcəkdə qarşılıqlı təcrübə mübadiləsindən yararlanmaq nəzərdə tutulurmu? Xüsusilə, Azərbaycan dövlətinin diaspor siyasəti sahəsindəki uğurlu fəaliyyətindən digər türkdilli respublikalar da yararlana biləcəkmi?**

-Etiraf etmək lazımdır ki, Azərbayca Respublikasının diaspor quruculuğu sahəsində çox böyük təcrübəsi var və bizim təcrübəmiz artıq dünyanın bir çox yerlərində öyrənilir. Biz də gələcəkdə bu işə yeni başlamaq istəyən, diaspor quruculuğuna xüsusi diqqət yetirən ölkələrə yardımçı olacağıq. Bizim birliyimiz gələcəkdə türk dünyasının birliyinə xidmət edəcək.

**-Türkmənistan və Özbəkistanın bu toplantıda təmsil olunmamasını necə hesab edirsiniz? Sizcə bu bir natamamlıq yaratmırmı?**

-Hər bir işin başlanğıcı belə olur. Hesab edirəm ki, bu günkü qəbul edilən qərarlar gələcəkdə həm Türkmənistan, həm də Özbəkistanda öyrəniləcək və hər iki dövlət də bu prosesə qatılacaq. Dünya Azərbaycanlılarının qurultaylarında hər zaman həm Türkmənistan, həm də Özbəkistandan yüksək səviyyədə nünayəndə heyəti iştirak edib. Bu bir başlanğıc proses olduğu üçün onu o qədər də qabartmaq da düzgün deyil. Hər zaman hər bir işin başlanğıc nöqtəsində belə olur. Başlayıb fəaliyyət göstərərik və bütün dövlətlər görərlər ki, bizim fəaliyyətimiz onların dövlətinin hər hansı bir mənafeyinə toxunmur. Əksinə biz onlara yardımçı ola bilərik. Güman edirəm ki, çox yaxın bir müddətdə təcrübəmiz ortaya qoyulacaq və həmin dövlətlər də bu prosesə qoşulacaq. Bir məqamı da qeyd etmək lazımdır. Hesab edirəm ki, başlanğıc nöqtədə siyasi problemləri o qədər də qaldırmamalıyıq. Müəyyən ümumi dərdlərimiz var. Eyni zamanda bizi ümumu meyarlar, tarixi köklər birləşdirir. Bu dəyərlər, meyarlar üzərində həmin birliyi qursaq gələcəkdə müəyyən mənada ümumi bir formul tapıb hərəkət istiqamətlərimizi müəyyənləşdirsək bizim üçün daha rahat olacaq.

**-Yanvarın 25-də "AzərRoss"-un növbəti qurultayı keçiriləcək. Bu qurultaya münasibətiniz necədir və bu qurultaydan nə gözləyirsiniz?**

-"AzərRoss" Rusiyada azərbaycanlıların on illərdir ki, yaratmış olduğu bir təşkilatdır. Azərbaycanın diaspor siyasətinin əsas məqsədlərindən biri ondan ibarətdir ki, əgər dünyada olan diaspor təşkilatları Azərbaycan dövlətçiliyi, azərbaycançılıq, həmin ölkələrdə yaşayan soydaşlarımızın milli, mənəvi dəyərlərinin qorunub saxlanmasına xidmət edirsə biz həmin təşkilatların yanındayıq, onlara hər zaman yardım etməyə hazırıq. "AzərRoss" təşkilatı da belə təşkilatlardandır. Mətbuatda da yazıldığı kimi həmin təşkilatda müəyyən dəyişikliklərin olacağı gözlənilir. Bir müddət əvvəl mətbuata bildirdiyim fikirlərdə qalıram. Biz həmişə dövlətçiliyə xidmət edən, Azərbaycanın ətrafında sıx birləşən, yaşadıqları ölkələrlə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsinə çalışan hər bir təşkilatı dəstəkləyirik. Həmin təşkilata kimlərin seçilməsi bizim üçün heç bir məna daşımır. Siyasi baxışından asılı olmayaraq bu işə xidmət edən hər bir şəxsi öz ətrafımızda görürük. Azərbaycandan kənarda Azərbaycanın daxili siyasəti yürüdülmür.

Daxili siyasət yeritmək üçün Azərbaycan Respublikası var. Siyasi fəaliyyət göstərmək üçün hər bir kəs Azərbaycana gələrək özünün siyasi partiyası, ictimai hərəkatını yaradıb bu haqda düşünə, siyasi mübarizə apara bilər. Bu demokratik ölkə üçün normal haldır. Ancaq kənarda olan azərbaycanlıların əsas ideyası, məqamı Azərbaycan dövlətinin möhkəmləndirilməsinə xidmət etmək olmalıdır. Bizim də amalımız, məqsədimiz budur. Ona görə də "AzərRoss"-un qurultayına uğurlar arzulayırıq. Əgər söylədyim ideyaların aparıcısı, daşıyıcısıdırlarsa biz onlara yardım etməyə hazırıq. Əgər başqa bir ideyaları olacaqsa, ya başqa istiqamətə gedəcəklərsə, o halda bizim də fəaliyyətimiz ona uyğun qurular.

Azərbaycan dövlətinin diaspor siyasətində siyasi baxışına görə fərqlilik yoxdur. Biz hər zaman Azərbaycan dövlətinə, dövlətçiliyə xidmət edən, simvollarımıza hörmətlə yanaşan bütün azərbaycanlılara diqqət-qayğı ilə yanaşmışıq, onlar bizim ətrafımızdır. Kimlərin nə deməsindən asılı olmayaraq Azərbaycanda çox böyük bir demokratiya var. Azərbaycan demokratik səhnədə dünyada öndə gedən dövlətlərdən biridir. Azərbaycan demokratik fəaliyyət göstərmək üçün ən ideyal ölkələrdən biridir. Xaricdə Azərbaycanın imicinə zərbə vurmaq, ölkədə gedən proseslərə kölgə salmaq düşmən dəyirmanına su tökmək kimi bir şeydir və çox yaramaz bir haldır. Bunun isə qarşısını adekvat addımlarla alırıq. Deyərdim ki, bu işə hətta nail olmuşuq. 1992-93-cü illərdə siyasi baxışlarına görə ölkəni tərk edib gedən insanlar var ki, bu gün biz onlarla yaxın əlaqədə, ünsiyyətdəyik. Çünki həmin insanların hər biri Azərbaycan dövlətçiliyinə xidmət edir.

**-Mətbuatda qeyd edilir ki, adıçəkilən qurumun Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı da müəyyən planları var**

- Ola bilər ki, müxtəlif təşkilatlara rəhbərlik edən şəxslər zaman-zaman özlərini göstərmək, meydanda görünmək üçün bəyanatlar verirlər. Azərbaycanın daxilindən xəbəri olmayan, son illərdə Azərbaycana gəlməyən bir adamların daxili həyatmız barədə verdikləri bəyanatları ciddi qəbul etməyə dəyməz. Düzdür, hərdən belə şeylər olur. Hesab edirik ki, bunlar hamısı yalnış, ümumi işimizə yaramayan hərəkətlərdir. "AzərRoss"-un keçmiş rəhbərliyinin Azərbaycanda gedən proseslərlə bağlı zaman-zaman mənfi fikirlərlə çıxış etməsi heç bir ölçüyə sığmır və onun bu fəaliyyətini çox yaramaz hesab edirik. Konkret ad çəkib onları reklam etmək istəmirəm. Ancaq hər kəs bilir ki, kim haqqında danışıram. Belə hallar bizi qorxutmur, narahat etmir. Çünki Azərbaycan dövləti çox möhkəm əsaslar, ümummilli liderin ideyaları üzərində qurulub. Azərbaycan dövlətini sevən hər bir kəs cənab prezidentin ətrafında birləşib və biz dövlətçiliyimizi qoruyacağıq. Kimliyindən, hər hansı bir sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq heç bir şəxs Azərbaycan dövlətinə hər hansı bir ziyan gətirə bilməz. Biz ciddi şəkildə bu prosesləri izləyirik və hər zaman hər bir şəxsin cavabını verməyə hazırıq.

**-Nazim müəllim, Ukraynadakı diasporumuz arasında da müəyyən ikitirəliyin olduğu bildirilir. Xüsusilə Ukrayna Azərbaycanlıları Konrqesində bu özünü daha qabarıq göstərir. Hazırda Ukraynada eyni adda iki təşkilat fəaliyyət göstərsə də, onların heç biri rəsmi olaraq qeydə alınmayıb. Bu barədə nə deyə bilərsiniz?**

-Dünyanın müxtəlif ölkələrində yanaşma fərqli olmalıdır. Əgər bir ölkədə bir qrup azərbaycanlı başqa bir qrupla heç bir tərzdə yola getmək istəmirsə, birgə fəaliyyət göstərməyə maraqlı deyilsə, hesab edirəm ki, orada iki təşkilatın olması daha sərfəlidir. Ermənilərin Kaliforniyada 1300-dən artıq təşkilatı var. Ancaq onların hamısının ümumi bir ideyası var, Böyük Ermənistan ideyasına qulluq etmək. Bizim də hansı ölkədə nə qədər təşkilatın olmasına baxmayaraq azərbaycanlıların əsas məqsədi azərbaycançılığa xidmət etmək olmalıdır. Qoy bir-birilərilə rəqib olsun, mübarizə aparsınlar ki, kim daha çox iş görür. On il ərzində birləşə bilmirlər deyib, heç bir iş görməməkdənsə bu daha çox sərfəlidir. Ona görə də son dövrlərdə bizim yanaşmamızda müəyyən bir dəyişikliklər var. Əvvəllər əlbəttə ki, birləşməyi, bir təşkilat olmağı vacib sayırdıq. Ancaq bəzi ölkələrdə bir təşkilatın olması normal deyil. Hesab edirəm ki, bir neçə təşkilatın olması daha sərfəlidir. Avropada Azərbaycan əleyhinə olan hər hansı siyasi institutlara yazılan məktublar zamanı təşkilat sayının çox olması mühüm əhəmiyyət kəsb edir. Ona görə də bir yerə on və ondan artıq məktubu getməsi daha sərfəlidir. Bunu da ermənilər çox ustalıqla həyata keçirirlər. Onlar iki, hətta bir nəfərdən ibarət çoxsaylı təşkilatlar yaradaraq Azərbaycana qarşı kampaniya aparırlar. Çünki hansısa bir ünvana məktub göndəriləndə təşkilatda təmsil olunan insanların sayı önəm kəsb etmir. Əsas təşkilatın adı göstərilir. Ona görə də bu gün Ukraynada yaşayan azərbaycanlılar bir təşkilat daxilində yola getmirlərsə, hələlik onların iki təşkilatının olması daha sərfəlidir.

**19 yanvar 2013**

**Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları həmçinin, Türkdilli ölkələrin diaspor təşkilatlarının rəhbərləri Heydər Əliyevin xatirəsini ehtiramla yad etmişdirlər**

Yanvarın 24-də Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları həmçinin, Türkdilli ölkələrin diaspor təşkilatlarının rəhbərləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı önünə əklil qoyulmuşdur.

Sonra Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, məzarları üzərinə güllər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar. Bununla yanaşı, Şəhidlər xiyabanında 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önünə də əklil qoyulmuşdur.

**24 yanvar 2013**

**Bakıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin diaspor məsələlərinə cavabdeh dövlət qurumlarının rəhbərlərinin ilk görüşü keçirilmişdir**

Bakıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin diaspor məsələlərinə cavabdeh dövlət qurumlarının rəhbərlərinin ilk görüşü keçirilmişdir. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın diaspor məsələlərinə cavabdeh dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşün başlıca məqsədi Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diasporları arasında əməkdaşlığı gücləndirmək, Türk dünyasının birliyi ideyalarının yayılması və həyata keçirilməsi üçün səylərin birləşdirilməsi və gələcək fəaliyyət strategiyasının müəyyənləşdirilməsi olmuşdur.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov toplantıda çıxış edərək tədbirin əhəmiyyətindən danışmış və tədbir iştirakçılarına uğurlu fəaliyyət arzulamışdır. Nazim İbrahimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər zaman türk xalqları arasında milli birliyin möhkəmləndirilməsinə xüsusi önəm verdiyini qeyd etmişdir. Xalqlarımızı minilləri əhatə edən tarixi qardaşlıq bağları, etnik mənşə, ortaq dil və mədəniyyət birləşdirdiyini bildirən Dövlət Komitəsinin sədri çıxışında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının bu toplantısının məhz türkdilli xalqların diasporlarının mövcud vəziyyəti və potensialını müzakirə etmək, prioritet məqsəd və vəzifələrini müəyyənləşdirmək baxımından əhəmiyyətli olduğunu bildirmişdir.

Toplantı zamanı Türkdilli ölkələrin Əməkdaşlıq Şurasının Baş katibi Halil Akıncı, Ümumdünya Qazaxlar Assosiasiyasının İdarə Heyətinin sədr müavini Talqat Mamaşev, Qırğızıstan Respublikasının Xarici İşlər Nazirliyinin məşğulluq və miqrasiya məsələləri departamentinin direktoru Keştakbek Aytımatov, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜKPA) Baş Katibi Ramil Həsənov, Türkiyə Respublikasının Azərbaycan Respulikasında Fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun toplantıda çıxış edərək türkdilli ölkələrin diaspor təşkilatları toplantısının keçirilməsinin ölkələrimiz arasında diaspor və lobbi quruculuğu sahəsində əməkdaşlığın gücləndirilməsinə töhfə verəcəyini vurğulamışlar. Toplantıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diasporları arasında əməkdaşlığı gücləndirmək və gələcək fəaliyyət strategiyasının müəyyənləşdirilməsi istiqamətində müzakirələr aparılmış, bir sıra təkliflər irəli sürülmüşdür. Qeyd edək ki, toplantıda Türkdilli xalqların diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi və bu sahədə əməkdaşlığın sistemli şəkildə həyata keçirilməsi məqsədilə Türkdilli xalqların diaspor təşkilatları rəhbərlərinin forumunun keçirilməsi də planlaşdırılır. Bununla yanaşı, toplantıda foruma hazırlıq məqsədilə diasporla iş üzrə dövlət qurumları nümayəndələrindən ibarət İşçi qrupun yaradılması, Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyasının hazırlanması, məsələləri ətrafında da fikir mübadiləsi aparılmışdır.

**24 yanvar 2013**

**Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Diaspor Məsələrinə Cavabdeh Dövlət Qurumları Rəhbərlərinin I Toplantısı fasilədən sonra öz işini davam etdirmişdir**

Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Diaspor Məsələrinə Cavabdeh Dövlət Qurumları Rəhbərlərinin I Toplantısı fasilədən sonra öz işini davam etdirmişdir. Toplantı iştirakçıları yekun sənəd layihəsi ətrafında fikir mübadiləsi aparmışdır. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstandan olan nümayəndələr sənəd layihəsinə dair rəy və təkliflərini səsləndirmişlər. Müzakirələrdən sonra yekun sənəd layihəsi qəbul olunmuşdur. Layihə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasınının Baş katibi tərəfindən təsdiq edilmişdir.

Qeyd edək ki, yekun sənəd layihəsində türkdilli ölkələrin əməkdaşlıq şurasına üzv dövlətlərin diaspora məsələlərinə cavabdeh dövlət qurumlarının gələcək əməkdaşlığının əsas istiqamətləri öz əksini tapmışdır. Sənəd layihəsində Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq strategiyasının müəyyən edilməsi üçün Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının diaspora məsələrinə cavabdeh dövlət qurumlarının mütəxəssislərindən ibarət Təmas Qrupunun yaradılmasına dair müddəa öz əksini tapmışdır.

Bundan başqa sənəddə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor təşkilatlarının rəhbərlərinin Forumunun təşkil edilməsi də nəzərdə tutulmuşdur. Forumun Azərbaycanda keçirilməsinə dair təklif də sənəddə öz əksini tapmışdır. Təmas Qrupunun fəaliyyəti Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Katibliyi tərəfindən koordinasiya olunacaqdır. Toplantıda Təmas Qrupunun ilk görüşünün 2013-cü ilin aprel ayında İstanbul şəhərində keçirilməsi qərara alınmışdır.

Həmçinin toplantıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının III Sammiti ilə əlaqədar Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor təşkilatlarının rəhbərlərinin I Forumunun 2013-cü ildə Azərbaycanda keçirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor təşkilatları rəhbərlərinin görüşünün, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin 3-cü Sammitindən öncə müəyyən edilmiş yerdə - 2013-cü ilin may ayında keçirilməsi tövsiyə edilmiş, Təmas Qrupu tərəfindən hazırlanan hesabat və birgə fəaliyyət planının təsdiqlənməsi üçün Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına təqdim olunması haqqında razılıq əldə olunmuşdur.

Tədbirin sonunda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Baş katibi Halil Akıncı toplantıya yekun vuraraq bütün iştirakçılara təşəkkürünü bildirmişdir. O, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinə ilk görüşün keçirilməsini təşkil etdiyi və tədbirə ev sahibliyi etdiyi üçün minnətdarlığını ifadə etmişdir.

**24 yanvar 2013**

## Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) yeni nümayəndəliyi açılmışdır

Yanvarın 26-ı 2013 –cü il tarixində Moskva vilayətinin Kolomno şəhərində Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) yeni nümayəndəliyi açılmışdır. Bu münasibətlə ÜAK mərkəzi aparatı nümayəndələrinin iştirakı ilə yığıncaq keçirilmişdir. Tədbirin sonunda şəhər administrasiyasına Ümumrusiya Azərbaycan Konqresi adından ölkəmiz haqqında kitablar təqdim olunmuşdur.

**26 yanvar 2013**

**“Birinci millətlərarası Murmansk forumu” keçirilmişdir**

Yanvarın 29-da Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) mərkəzi aparatının nümayəndə heyəti Murmansk vilayətində səfərdə olmuşdur. Səfər çərçivəsində ÜAK-ın təşkilatçılığı ilə “Birinci millətlərarası Murmansk forumu” keçirilmişdir. Forumda Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporunun gördüyü işlərdən, planlardan söhbət açılmışdır. Forumda vilayətdə “Millətlər evi”nin və “Dostluq xiyabanı”nın yaradılması təklifləri irəli sürülmüşdür.

**29 yanvar 2013**

**"Əl-Cümhuriyyə" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin müsahibəsi dərc edilmişdir**

Misirdə geniş oxucu auditoriyasına malik nüfuzlu "Əl-Cümhuriyyə" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin müsahibəsi dərc edilmişdir.

Səfirlikdən verilən məlumata görə, Qanlı Yanvar hadisələri barədə məlumat verən diplomat 1990-cı il yanvarın 20-də Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından danışmışdır. Bakının küçələrinə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən və eyni zamanda, öz azadlığına və müstəqilliyinə can atan xalqa qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardığını oxucuların diqqətinə çatdıran səfir yüzlərlə günahsız insanın qətli və yaralanması ilə nəticələnən bu qanlı hadisələrin Azərbaycan xalqının müstəqillik əzmini daha da gücləndirdiyini vurğulamışdır. Ş.Abdullayev nəticə etibarı ilə demokratik əsaslar üzərində azad və müstəqil Azərbaycanın yarandığını xüsusilə qeyd etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan diplomat Avropa Şurasının, NATO-nun və digər beynəlxalq təşkilatların qərarları ilə yanaşı işğala son qoyulmasını və işğalçı qüvvələrin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin qəbul olunduğunu xatırlatmışdır. Səfir vurğulamışdır ki, Ermənistan hələ də bu qərarlara məhəl qoymur.

Ş.Abdullayev diqqəti Misirin inqilabdan sonra münaqişəyə dair mövqeyində müsbət tendensiyaya yönəldərək bunun 2012-ci ildə Şarm-əş-Şeyxdə Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun xarici işlər nazirləri səviyyəsində keçirilmiş iclasının yekun sənədində əks edildiyini vurğulamışdır. Azərbaycan-Misir iqtisadi əlaqələrinə toxunan səfir ölkələrimiz arasında neft-qaz sahəsində uğurlu əməkdaşlığın olduğunu qeyd etmişdir. Təhsil sahəsində əməkdaşlığa gəlincə Ş.Abdullayev demişdir ki, bu istiqamətdə nəhəng layihələri reallaşdırmaq məqsədilə Azərbaycan tərəfi misirli alim, Nobel mükafatçısı Əhməd Züveyllə əməkdaşlıq edir. Bu məqsədlə alim Azərbaycana səfər etmişdir. Bundan əlavə, Azərbaycan İslam dünyasının mötəbər dini mərkəzi olan Əl-Əzhər ilə faydalı əməkdaşlıq edir.

Turizm sahəsində əməkdaşlıqdan danışan diplomat Azərbaycan turistlərinin qış aylarında Misirin Şarm-əş-Şeyx, Ğurqada və s. kurort şəhərlərinə səyahətlərinin təşkili məqsədilə Misir tərəfi ilə vaxt cədvəlinin tərtib ediləcəyini diqqətə çatdırmışdır.

Müsahibədə, həmçinin Azərbaycanın uğurlu iqtisadi göstəriciləri barədə ətraflı məlumatlar verilmiş, respublikamızın hazırda donor ölkəyə çevrildiyi qeyd edilmişdir.

**29 yanvar 2013**

**ABŞ-ın nüfuzlu "The Hill" qəzetində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) London ofisinin əməkdaşı Emil Ağazadənin məqaləsi dərc edilmişdir**

ABŞ-ın nüfuzlu "The Hill" qəzetində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) London ofisinin əməkdaşı Emil Ağazadənin məqaləsi dərc edilmişdir (http://thehill.com/blogs/congress-blog/foreign-policy/278803-armenia-and...). Cəmiyyətdən AzərTAc-a bildirmişlər ki, məqalə erməni müəllifi, Oksford Universitetinin aspirantı Harri Semercyanın "Xristian Ermənistan və müsəlman İran: qeyri-adi əməkdaşlığın izahı"yazısına (http://thehill.com/blogs/congress-blog/foreign-policy/276961-christian-a...) cavabdır. E.Ağazadə məqaləsində erməni müəllifinin Cənubi Qafqazda mövcud geosiyasi vəziyyətin təhlilində qərəzsiz və obyektiv olmaq səylərini müsbət qiymətləndirsə də, onun bu cəsarətli cəhdinin tam alınmadığını vurğulayır.

Yazıda qeyd edilir ki, özünə dost və müttəfiq seçmək hər bir xalqın haqqı və suveren hüququdur. Hər bir ölkə xarici hərbi bazaları öz ərazisində yerləşdirməkdə və kiminsə Qafqazda forpostu adlandırılmaqda azaddır. Ölkələr arasında dostların nə üçün seçildiyinin əsaslandırılması da diplomatik və siyasi dialoq müstəvisində normal haldır. Lakin danışıqların münaqişənin həll edilməsi yollarını tapmaq məqsədi daşımasını nəzərə alsaq, elm adamının irəli sürdüyü bir fikrin ədalətli və dürüst olması vacibdir.

Erməni müəllifin məqaləsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı yeddi rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi faktını dilə gətirməsini təqdir edən E.Ağazadə hətta bu acınacaqlı reallığın etiraf edilməsinin də bəzən kifayət etmədiyini bildirir. E.Ağazadə bildirir ki, işğalçı qüvvələrin Azərbaycanın ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə barədə məlumat H.Semercyanın yazısına əlavə edilsə idi, bu, daha ədalətli olardı.

H.Semercyanın "Şimali İranda" bir neçə erməni çarlığının mövcudluğu barədə fikrini absurd adlandıran E.Ağazadə bu cür uydurmaların azərbaycanlılar və gürcülər tərəfindən istehza ilə qarşılandığını, amma prezidentliyə namizədlərdən Vardan Sedrakyanın növbəti seçkilərdə qalib gələcəyi təqdirdə Azərbaycan, Türkiyə və Gürcüstan ərazilərinin müəyyən hissələrinin Ermənistana birləşdirəcəyini seçicilərinə vəd etməsinin heç də istehza doğuran məsələ olmadığını vurğulayır.

Məqalədə deyilir: "Başa düşürəm ki, ölkədəki cəhalətdən fərqli düşünmək, həqiqəti qəbul etmək cəsarət tələb edir. Rəy yaratmaq üçün Qlendeyl və ya Nyu-Yorkda bir nənənin danışa biləcəyi hekayələr əsasında elmi tədqiqat işi hazırlamaq daha asandır. Nə qədər ağrılı olsa da, bu, Cənubi Qafqazda davamlı sülh və erməni müəllifini narahat edən Ermənistanın təcrid olunmasına son qoymaq üçün zəruridir. Müəllifin gətirdiyi faktların bəzilərinə inanmasını, yaxud inanmamasını deyə bilmərəm, lakin onun Vaşinqton rəhbərlərinə olan müraciətinin səbəbinin Ermənistanın qonşu İran ilə eşqbazlıq etməsini anladığını izah etdiyi tamamilə aydındır. Bu cür məsələlərdə Fransua de La Roşefokolun “biz başqalarının yanında maskalanmağa o qədər öyrəşmişik ki, nəticədə özümüzə qarşı da maskalanırıq" sözləri yada düşür. Ümid edirəm ki, H.Semercyan belə məqalə yazmaqdansa başqa işlər görməyə, fəlsəfə doktorluğu dissertasiyasını bitirməyə çalışacaqdır. Mən ona elmi işlərində uğurlar arzulayıram".

E.Ağazadə məqaləsində yazır: "Müəllif məlum 11 sentyabr hadisələrinin səhəri efirə gedən siyasi proqramın növbətçi redaktoru olmuşdur. Onun bu növbətçilikdən beynində qalan məqamlardan biri ABŞ Prezidenti Corc Buşun “siz ya bizimləsiniz, ya da bizə qarşısınız",- fikri olmuşdur. Məncə, bu, təkcə növbətçiliyə görə deyil, eyni zamanda, bir dövlətin başçısının bu cür acıqlı Qərb ritorikası verməsi xeyli qəribə idi. İndi siz neomühafizəkarların terrorizmə qarşı qlobal müharibə anlayışı ilə razılaşmaya da bilərsiniz. Lakin ABŞ Prezidenti o vaxt bu mənada haqlı idi. Çünki hər bir xalqın tarixində elə bir anlar olur ki, kimin tərəfində olduğu barədə seçim etməli olur. Azərbaycan öz seçimini etmişdir. Digər tərəfdən, rusların təbirincə desək, Ermənistan iki kürsü üstündə oturmağa çalışır. Bu isə, adətən yıxılmaqla nəticələnir".

**29 yanvar 2013**

**“Böyük Azərbaycan mütəfəkkirləri Nizami, Nəsimi və Füzulinin yaradıcılığı" kitabı rus dilində nəşr edilmişdir**

30 yanvar 2013-cü il tarixdə Qazaxıstanın paytaxtı Astanada Vidadi Salahov və Kalimaş Beqalinovanın həmmüəllifi olduğu “Böyük Azərbaycan mütəfəkkirləri Nizami, Nəsimi və Füzulinin yaradıcılığı" kitabı rus dilində nəşr edilmişdir. Mədəniyyət və Turizm Nazirliyindən APA-ya verilən məlumata görə, kitabın rəyçiləri Azərbaycandan akademik Kamal Abdullayev, Qazaxıstandan Dostmuhammet Nur-Ahmet və akademik Kazbek Kaskenovdur.

**30 yanvar 2013**

**Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) mərkəzi aparatının nümayəndə heyəti Murmansk vilayətində səfərdə olmuşdur**

Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) mərkəzi aparatının nümayəndə heyəti Murmansk vilayətində səfərdə olmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti Murmansk şəhərinin meri Aleksey Vellerlə görüşmüşdür. A.Veller bildirmişdir ki, Murmanskda yaşayan azərbaycanlılar vilayət iqtisadiyyatının bir çox sahələrində uğurla çalışırlar. Bildirilmişdir ki, Azərbaycan diasporunun fəaliyyəti, yerli idarəçilik və icra orqanları ilə sıx münasibətləri vilayətdə digər diaspor təşkilatları üçün nümunədir. Murmansk şəhərinin meri Azərbaycan şəhərlərindən biri ilə qardaşlıq münasibətlərinin qurulması təklifini də irəli sürmüşdür. ÜAK nümayəndə heyəti şəhər administrasiyasına Azərbaycan haqqında kitablar və suvenirlər təqdim etmişdir.

ÜAK nümayəndə heyətinin səfəri Murmanskda keçirilən ənənəvi Milli Mədəniyyətlər Festivalına təsadüf etmişdir. Festivalda Murmanskda yaşayan müxtəlif millətlərin nümayəndələri iştirak edirlər. Murmansk Mədəniyyət sarayında təşkil edilən tədbirdə 20-dən çox diaspor təşkilatı təmsil olunmuşdur. ÜAK-ın Murmansk nümayəndəliyi sarayın foyesində ölkəmiz haqqında stend qurmuşdur. Azərbaycanın milli rəqsləri və mahnıları maraqla qarşılanmışdır. Soydaşlarımıza maraqlı çıxışlarına görə Murmansk administrasiyasının diplomları təqdim edilmişdir.

Regiona iki gün davam edən səfər çərçivəsində ÜAK-ın təşkilatçılığı ilə "Birinci millətlərarası Murmansk forumu" keçirilmişdir. ÜAK-ın Moskva regional bölməsinin sədri İlqar Hacıyev, konqresin Murmansk bölməsinin rəhbəri Afil Hüseynov Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporunun gördüyü işlərdən, planlardan söhbət açmışlar. Şəhər rəhbərliyinin nümayəndələri, Murmansk vilayətinin sosial yardım komitəsi sədrinin müavini Mixail Şilov, Murmansk vilayəti İctimai Palatasının üzvü Svetlana Praşkova və başqaları bu cür forumların vilayətin inkişafına təkan verdiyini və Azərbaycan diasporunun aparıcı rolunu vurğulamışlar. Forumda vilayətdə "Millətlər evi"nin və "Dostluq xiyabanı"nın yaradılması təklifləri irəli sürülmüşdür.

**30 yanvar 2013**

**20 yanvar faciəsi qurbanlarının xatirəsi bir çox diaspor təşkilatlarımız tərəfindən anılmışdır**

**20 Yanvar faciəsinin 23-cü** ildönümü münasibətilə xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız tərəfindən dünyanın müxtəlif qitələrində 100-dən çox tədbir keçirilmişdir.

**Cari ilin yanvarın 26-da** Amerika Azərbaycanlılarının şəbəkəsi (USAN) və ABŞ-da yaşayan azərbaycanlılar Prezident Barak Obama Administrasiyasının Xocalı qətliamını və müharibə cinayətlərini, eləcə də faciə qurbanlarını tanıması məqsədi ilə Ağ Evin rəsmi veb-səhifəsində petisiya yerləşdirmişlər. Xarici ölkələrdə yaşayan həmvətənlərimizin, Azərbaycan diaspor fəallarının, kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının və yerli ictimaiyyətin aktiv fəaliyyəti nəticəsində petisiyaya toplanılan imzalar vaxtından əvvəl fevralın 12-də saat 17:40-da 100.000 imza limitini keçmişdir. 26 fevral tarixində petisiyanı imzalayan hər bir kəsə Ağ Evdən gələn cavab məktubunda ABŞ-ın Azərbaycan və Ermənistan arasındakı müharibə zamanı insanların faciəli ölümünə dərindən təəssüfləndiyi vurğulanmışdır.

**2013-cü ilin yanvar ayı** ərzində ABŞ-dakı diaspor təşkilatlarının fəaliyyəti nəticəsində Amerikanın bir sıra ştatlarında 20 yanvar hadisələri ilə bağlı Nyu-Cersi, Nyu-York və Pensilvaniya ştatlarının yerli qəzetlərində məqalələr dərc edilmişdir.

**Bu ilin yanvar ayında** Ümumrusiya Azərbaycan Konqresinin nəşri olan “Azerbaydjanskiy Konqress” qəzetinin 2013-cü il 18 yanvar tarixli 1 saylı nömrəsinin birinci səhifəsi “Qara Yanvar” məqaləsi ilə çapdan çıxmışdır.

**Cari ilin yanvar ayında** 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Rusiyanın Sankt-Peterburq, **Murmansk**, Nijni Novqorod, Krasnoyarsk, Buryatiya, Kemerovo, Novosibirsk, Vladivostok, Xabarovsk, Blaqoveşensk, Volqoqrad, Krasnodar, Smolensk, Yaroslavl, Ufa, Ulyanovsk, Çelyabinsk, Stavropol, Yekaterinburq kimi bir sıra şəhərlərində də anım mərasimləri keçirilmişdir.

**2013-cü il yanvar ayının 12-də** Breiterwerq Mərkəzi Maqdeburqda Saksen Anhalt vilayəti üzrə Alman Azərbaycan Mədəniyyət Cəmiyyəti, Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi (AAKM), “Xəzər” Hannover cəmiyyətinin təşəbbüsü ilə 20 yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş “Demokratiya Yolları” adı altında anım mərasimi keçirilmişdir.

**16-18 yanvar 2013-cü il tarixində** İsveç Azərbaycanlıları Konqresinin İdarə heyətinin üzvləri İsveç Krallığının parlament və hökumət nümayəndələri ilə görüşmüşlər. Görüş zamanı iştirakçılara 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet qoşunlarının dinc əhaliyə qarşı törətdiyi vəhşilikləri əks etdirən materiallar paylanmışdır.

**2013-cü il 17-20 yanvar tarixlərində** Litva Respublikasının Vilnüs şəhərində, Litva Azərbaycanlıları Cəmiyyəti və Azərbaycanın Litvadakı Səfirliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünə həsr olunmuş nəşrlər, tarixi materiallar, fotolar və bir sıra siyasi sənədlərdən ibarət sərgi təşkil edilmişdir.

**2013-cü il 17-20 yanvar tarixlərində** Türkiyədə fəaliyyət göstərən İzmir Azərbaycan Mədəniyyət Evi, Eskişehir Azərbaycanlılar Dərnəyi, Dərincə Azərbaycan Evi Dərnəyi, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası, Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Çanakkale Azərbaycan Evi Dərnəyi, Ədirnə Azərbaycan Evi Dərnəyi, Kocaeli Azərbaycan Dərnəyi Evi, Gebze Azərbaycanlılar Dərnəyi, Antalya Azərbaycan Evi Dərnəyi tərəfindən 20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünə həsr olunmuş anım mərasimləri, elmi praktiki konfranslar və sərgilər keçirilmişdir.

**17 yanvar 2013-cü il tarixində** Helsinki şəhərinin "Kaisa" Mədəniyyət Mərkəzində Finlandiya Azərbaycan Assosiasiyasının təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş “20 Yanvar 1990-cı il Azərbaycan xalqının unudulmayan tarixi” adlı seminar keçirilmişdir. Tədbiri giriş sözü ilə açan “Finlandiya Azərbaycan Assosiasiyası”nın sədr müavini, Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri Arzu Oqtay 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Ermənistana havadarlıq edən Sovet Ordusunun dinc Azərbaycan xalqına qarşı törətdiyi qırğın, erməni terrorçularının Azərbaycana qarşı hərbi təcavüzü haqqında geniş məlumat vermişdir. Tədbirdə iştirak edən Vaasa Universitetinin tələbələri işğalçılıq siyasəti və digər məsələlərə dair məruzələrlə çıxış etmiş, Assosiasiyanın fəal üzvləri qonaqları maraqlandıran suallara cavab vermişlər. İştirakçılara “20 Yanvar” hadisələrinə dair müxtəlif dillərdə kitablar təqdim edilmiş və sənədli filmlər nümayiş etdirilmişdir.

**18 yanvar 2013-cü il tarixində** Litvanın ən populyar və nüfuzlu informasiya vasitələrindən olan “Lietuvos zinios” (“Litva xəbərləri”) adlı qəzetin 18 yanvar 2013-cü il tarixində çapdan çıxmış 14 (13439) saylı nəşrində, Litva-Azərbaycan Assosiasiyasının fəallarından olan Aydanas Praleykanın təşəbbüsü ilə və Litva azərbaycanlıları cəmiyyətinin dəstəyi sayəsində, Azərbaycan Respublikasının Litvadakı Fövqəladə və səlahiyyətli səfiri Həsən Məmmədzadənin “Yanvar hadisələri Bakı və Vilnüsü birləşdirir” başlıqlı müsahibəsi dərc olunmuşdur. Səfirlə müsahibəni tanınmış politoloq, jurnalist və naşir Aydanas Praleyka aparmışdır.

**2013-cü il 19-20 yanvar tarixlərində** Almaniyanın digər şəhərlərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları - Almaniya-Azərbaycan Cəmiyyəti (Alm.Az), “Bakılı” klubu, Azərbaycan Kültür Ocağı, Vahid Azərbaycan Cəmiyyəti, Azərbaycan Kültür Dayanışma Cəmiyyəti, Hamburq Azərbaycan Mədəniyyət Cəmiyyəti, Frankfurt Azərbaycan Cəmiyyəti, Odlar Yurdu Azərbaycan Alman Dostluq və Mədəniyyət Cəmiyyəti və “Xəzər” Mədəniyyət və Təhsil Cəmiyyəti tərəfindən 20 yanvar faciəsində həlak olan şəhidlərimizin xatirəsinə həsr olunmuş anım mərasimləri təşkil olunmuşdur.

**2013-cü il 19-20 yanvar tarixlərində** ABŞ-da fəaliyyət göstərən Amerika-Azərbaycan Ticarət Palatası, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Azərbaycan Nyu-York Assosiasiyası, Hyuston Bakı Qardaşlaşmış şəhərlər Assosiasiyası, Amerika Azərbaycan Dostluq Cəmiyyəti, Azərbaycan-Amerika Qadınlar Cəmiyyəti, Azərbaycan Vaşinqton İcması, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Amerika Azərbaycan Mədəniyyət Mərkəzi, Amerika Azərbaycan Mədəniyyət Assosiasiyası, Amerika Azərbaycanlıları Şəbəkəsi, Amerika Azərbaycan Dostluq Cəmiyyəti tərəfindən 20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünə həsr olunmuş müxtəlif formatlı tədbirlər keçirilmişdir.

**2013-cü il 19-20 yanvar tarixlərində** ABŞ Azərbaycanlıları şəbəkəsi (USAN) və “Pax Turcica” təşkilatı 1990-cı il yanvarın 20-də baş vermiş hadisələrə siyasi qiymət verilməsi məqsədilə icma üzvlərinə, ABŞ qanunvericilərinə məktub göndərilməsi üçün kampaniya keçirmişdir. Məktubda beynəlxalq “Human Rights Watch” təşkilatının hadisələrlə bağlı hesabatında yazdıqları göstərilir: “Sovet ordusunun yanvarın 19-dan 20-ə keçən gecə törətdikləri zorakılıqlar azərbaycanlıların göstərdiyi müqavimətlə o dərəcədə qeyri-proporsional idi ki, bunu kollektiv cəzalandırma adlandırmaq olar”.

**2013-cü il 19-20 yanvar tarixlərində** Kanadada fəaliyyət göstərən – Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyası, Kvebek Azərbaycanlıları Assosiasiyası, Azərbaycan-Kanada Dostluq Assosiasiyası, Alberta Azərbaycan Mədəniyyət Mərkəzi, Kanada Azərbaycan Alyansı, Kanadada Azərbaycan Tədqiqatlar İnstitutu (KATİ), Kanada Azərbaycan Dostluq Cəmiyyəti, Kanada Azərbaycan Qadınları Assosiasiyası, Kanada Azərbaycan Gəncləri Assosiasiyasi, Ontario Azərbaycanlıları Assosiasiyası, Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti, Qaflantı adına Azərbaycan Kanada Cəmiyyəti, Toronto Universitetinin Azərbaycanlı Tələbələri Assosiasiyası, Kanada Azəri Türk Assosiasiyası, Azərbaycan Kültür Ocağı, Azərbaycan Strateji Araşdırmalar Mərkəzi, “Bakinets” Azərbaycan Cəmiyyəti, Şimali Amerika Azərbaycanlı Gənclər Şəbəkəsi (AYNA) tərəfindən 20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünə həsr olunmuş anım mərasimləri keçirilmişdir.

**2013-cü il 19-20 yanvar tarixlərində** Benilüks Azərbaycanlıları Konqresi 1990-cı ildə Bakıda törədilmiş 20 Yanvar faciəsinin 23-cü ildönümü ilə bağlı silsilə tədbirlər keçirmişdir. Qurumun ən böyük təşkilatlarından biri olan “Rotterdam Azərbaycan Hollandiya Həmrəylik Cəmiyyəti”ndə yanvarın 20-də Sovet Ordusu tərəfindən Bakıda törədilmiş 20 Yanvar hadisələrində şəhid olmuş Azərbaycan vətəndaşlarını anım mərasimi keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin əməkdaşları, Azərbaycan və Türk diaspor təşkilatlarının rəhbərləri, yəhudi və digər diaspor təşkilatlarının təmsilçiləri, siyasi partiyaların üzvləri iştirak etmişlər.

**20 yanvar 2013-cü ildə** Ukraynanın Azərbaycanlı Gənclər birliyi Dnepropetrovsk vilayət təşkilatı, 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirmişdir. "Şəhidlərimizi yad etməyə gəlmək hər bir azərbaycanlının borcudur. Xatırlayırıq, kədərlənirik və heç vaxt unutmayacayıq!" şüarı altında reallaşan tədbir Dnepropetrovski administrasiyasının dəstəyi ilə təhsil mərkəzində baş tutmuşdur. Tədbirdə həmçinin başqa millətlərin nümayəndələri də iştirak etmişdir.

**20 yanvar 2013-cü ildə** Strasburqda, Strasburq Azərbaycanlı Gənclər Assosiasiyasının təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsini anım mərasimi keçirilmişdir. Strasburqda işgüzar səfərdə olan Azərbaycan Respublikası Milli Məclisi aparatının məsul işçiləri, Azərbaycanın Avropa Şurası Parlament Assambleyası yanındakı nümayəndə heyətinin üzvləri, Strasburqda və Avropa Şurası yanında akkreditə olunan diplomatik korpusun əməkdaşları, Strasburq Universitetinin müəllimləri, diasporumuzun təmsilçiləri və tələbələrimiz anım mərasimində iştirak etmişdir.

**20 yanvar 2013-cü ildə** Belarusda 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Belarus Respublikasındakı səfiri, Azərbaycan İcmaları Konqresinin nümayəndələri, diplomatik nümayəndələrin əməkdaşları, Belarus Respublikasındakı Azərbaycan İcmaları Konqresinin nümayəndələri, Belarus Respublikası Parlamentinin Nümayəndələr Palatası Daimi Komitəsinin üzvləri, eyni zamanda M.Tank adına Belarus Dövlət Pedoqoji Universitetinin Azərbaycan dili və mədəniyyəti mərkəzinin tələbələri də iştirak etmişdir.

**20 yanvar 2013-cü ildə** Krımda, Franko adına Respublika Kitabxanasının "Xalqlar dostluğu" şöbəsində 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə Krım Azərbaycan İcması tərəfindən Bakıda Sovet ordusunun vəhşiliklərini əks etdirən foto-sərgi təşkil edilmişdir. Tamaşaçılara 20 Yanvar faciəsini əks etdirən film də nümayiş etdirilmişdir.

**20 yanvar 2013-cü ildə** Gürcüstanda fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının Mədəniyyət Mərkəzi, "Tolerans" İnsan hüquqları İctimai Birliyi, Azərbaycanlı Ziyalılar Cəmiyyəti, Rustavi Azərbaycanlılarının Mədəniyyət Mərkəzi, "Varlıq" Cəmiyyəti Gürcüstanın bir çox regionlarını təmsil edən ziyalılar, gənclər, ictimaiyyət və KİV nümayəndələrinin iştirakı ilə tədbirlər, təşkil etmiş və 20 Yanvar faciəsinə həsr olunmuş sərgi təşkil edilmişdir.

**Cari ilin yanvar ayında** Ukraynada 20 yanvar – "Qanlı yanvar" şəhidlərinin xatirəsinə həsr olunmuş tədbirin keçirilmişdir. Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporasının mərkəzi ofisində keçirilən tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli, Diplomatik korpusun nümayəndələri, UABD-nin sədri Hikmət Cavadov, Ümumrusiya Azərbaycan Konqresinin nümayəndələri və Ukrayna-Azərbaycan Gənclər hərəkatı və «Пульс Демократии» beynəlxalq ictimai təşkilatının nümayəndələri iştirak etmişdir. Tədbirin girişində iştirakçılar rejissor Rəşad Mehdiyevin 1990 –cı il 20 yanvar haqqında 3 dəqiqəlik filminə tamaşa etmişdir. Daha sonra 20 yanvar şəhidlərinin ruhu 1 dəqiqəlik sükutla yad edilmişdir.

**20 yanvar 2013-cü il tarixində** İsraildə fəaliyyət göstərən İsrail-Azərbaycan Assosiasiyası (Aziz) Facebook sosial şəbəkəsində 20 Yanvar faciəsinə həsr edilmiş səhifə yaratmışdır. "İsrail Azərbaycan Assosiasiyası"nın fəal üzvü, əslən Bakıdan olan faciənin canlı şahidi Boris Dobinin çəkdiyi nadir fotoşəkillərin yer aldığı "20 Yanvar Boris Dobinin fotoşəkillərində" adlı səhifənin yaradılmasında məqsəd azadlıq uğrunda mübarizəyə qalxmış dinc sakinlərə qarşı törədilmiş bu qanlı aksiyanın dünya, xüsusilə də İsrail ictimaiyyətinə əyani sübutlarla çatdırılmasıdır.

**20 yanvar 2013-cü il tarixində** "Rotterdam Azərbaycan Hollandiya Həmrəylik Cəmiyyəti"nin ofisində Sovet Ordusu tərəfindən Bakıda törədilmiş "Qanlı Yanvar" hadisələrində şəhid olmuş Azərbaycan övladlarının anma mərasimi baş tutmuşdur. Tədbirdə Azərbaycan Respublikasının Haaqadakı səfirliyinin diplomatları, qardaş Türk diaspora təşkilatlarının rəhbərləri, yahudi və yerli digər diaspora cəmiyyətlərinin təmsilçiləri, siyasi partiyaların üzvləri iştirak etmişdirlər. Tədbirdə 20 Yanvar hadisələrinə aid sənədli film izlənilmiş, hadisə iştirakçılarının xatirələri dinlənmişdir. Anım mərasiminin sonunda 20 Yanvar hadisələrində şəhid olmuş azərbaycanlıların xatirəsinə ehsan verilmişdir.

**21 yanvar 2013-cü il tarixində** Belçikanın Brüssel şəhərində, Sovet Ordusu tərəfindən törədilən 20 Yanvar şəhidləri xatirəsinin anım mərasimi keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Belçika Krallığındakı səfiri Fuad İsgəndərov, Azərbaycanın NATO yanında daimi nümayəndəsi Xəzər İbrahim, Benilüks Azərbaycanlıları Konqresinin təmsilçisi Musa Pünhan, Belçika Azərbaycan Dostluq Cəmiyyətinin sədri Ayhan Dəmirçi, Belçikada fəaliyyət göstərən DAYAK Dərnəyinin sədri Asəf Bağırov və diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər. Tədbirdə 20 Yanvar hadisələrinə aid sənədli film izlənilmiş, iştirakçıların faciə haqqında xatirələri dinlənilmişdir. Tədbir 20 Yanvar hadisələrini əks etdiren foto eksponatlar və filmin nümayişi ilə başa çatmışdır.

**21 yanvar 2013-cü il tarixində** Azərbaycan Respublikasının Polşa Respublikasındakı səfirliyinin təşkilatçılığı və "Azərbaycan Mədəniyyət Mərkəzi"nin iştirakı ilə Polşanın Varşava şəhərində Varşava Universitetində 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə "Azərbaycan Mədəniyyət Mərkəzi" Cəmiyyətinin sədri Şəhla Kazımova, Azərbaycan Respublikasının Polşadakı səfirliyin əməkdaşları və Varşava Universitetinin tələbələri iştirak etmişdilər. Tədbiri giriş sözü ilə açan Şəhla Kazımova 20 Yanvar faciəsinin tarixçəsi və Azərbaycan xalqının öz azadlığı uğrunda göstərdiyi şücaət haqqında tələbə geniş məlumat vermişdir. Daha sonra Azərbaycanfilmin istehsalı olan və 20 Yanvar faciəsinə həsr olunmuş film təqdim olunmuşdur. Tədbirin sonunda Şəhla Kazımova tələbələrin suallarına cavablandırmış və əyani vəsait olaraq Səfirlik tərəfindən hazırlanmış açıqcaları tədbir iştirakçılarına paylaşmışdır.

**Yanvar 2013**

## Azərbaycan diasporunun formalaşmasına uzun illərin tarixi proseslərinin təsiri

Tarixi mənbələr təsdiq edir ki, miqrasiya prosesləri hələ ən qədim zamanlardan bütün tarixi cəmiyyətlərə xas olub. Qədim yazılı mənbələrin meydana gəlməsi isə miqrasiya prosesləri haqqında məlumatların daha da konkretləşməsinə və qarşılıqlı etnik əlaqələrin meydana çıxmasına şərait yaradıb. Sivil, hərbi siyasi və o cümlədən irimiqyaslı etnodemoqrafik axınlar, mədəniyyətlərin və dillərin qarşılıqlı təsiri, həyat tərzi, demoqrafiya, etiqad, mənəvi özünühiss qarşılıqlı olaraq bir-birini qəbul etmək baxımından regiondakı çoxsaylı etnik qrupların və birliklərin həyatında öz izini buraxıb.

Azərbaycan əhalisinin etnik tərkibi uzun illər ərzində müxtəlif tayfaların basqınlarının təsiri ilə formalaşıb. Azərbaycanlıların etnogenezinə yerli tayfalarla bərabər (kadusilər, kutilər, lulubilər, mannalılar, midiyalılar, albanlar və başqaları) Ön Asiya və türkdilli tayfaların (kimmerlər, skiflər, hunlar, xəzərlər, oğuzlar, bulqarlar) eramızdan əvvəl I minilliyində və bizim eranın əvvəlində Azərbaycan ərazisinə müdaxilələri nəticəsində bir-birinə qarışması təsir göstərmişdir. Azərbaycan diasporu uzun illər ərzində gedən tarixi proseslər nəticəsində yaranaraq formalaşıb. Avropa və Asiyanın kəsişdiyi ərazidə yerləşən Azərbaycan çox əlverişli coğrafi mövqeyə malik olduğundan artıq qədim dövrdən başlayaraq müxtəlif tayfaların və dövlətlərin diqqətini özünə cəlb edib. Azərbaycanlılar diqqəti cəlb edəcək sayda yalnız öz tarixi etnik ərazilərindən kənarda müxtəlif daxili və xarici proseslər, o cümlədən hərbi-siyasi, sosial iqtisadi və etnokonfesional proseslər nəticəsində erkən orta əsrlərdə bir etnik varlıq olaraq tarixin səhnəsində görünməyə başlayırlar.

Erkən orta əsrlərdə Azərbaycana başqa ərazilərdən köçmə ilə bsğlı məlumatlara ilk dəfə ərəb müəllifi Əl-Bəlazurinin əsərlərində rast gəlinir. O, yazırdı: “Ərəblər Azərbaycanı tutduqdan sonra onların tayfaları iki dairədən (Kufə və Bəsrə) və Suriyadan buraya axışmağa başladılar. Onların hər biri torpağı zəbt etdilər və bəziləri isə qeyri-ərəbələrdən torpaq almağa başladılar” Orta əsrlər dövrünün müasir tədqiqatları bu dövrə yeni baxımdan yanaşmağa imkan yaradır. Belə ki, bu dövrdə güclü miqrasiya prosesləri-böyük sayda tayfaların yerdəyişmələri prosesi nəticəsində Cənubi Qafqaz regionunun etnik mənzərəsi formalaşdı. Burada ilk növbədə IV-VII əsrlərdə baş vermiş “xalqların böyük köçünü” nəzərdə tuturuq. 5 min illik dövlətçilik tarixinə malik olan azərbaycanlılar, tarixin müxtəlif mərhələlərində kutilərdən, lulubilərdən başlayaraq öz tarixi ərazilərində müxtəlif dövlətlər yaratmışdılar.

Azərbaycana qarşı xarici təcavüzlər nəticəsində ölkə qədim və antik dövrdə fars-Əhəməni, Parfiya, makedoniyalı İsgəndərin hərbi yürüşləri nəticəsində təcavüzə məruz qalmış, erkən orta əsrlərin müxtəlif mənbələrində Sasani, Ərəb Xilafəti və Xəzər xaqanlığı, Səlcuq, Monqol, Osmanlı və 1813-cü ildən isə Rusiya imperiyalarının tərkibində olub. Müxtəlif dövrlərdə baş vermiş xarici dağıdıcı təcavüzkar hücumlar ölkə ərazisində intensiv miqrasiya proseslərinə səbəb oldu. Yerli əhalinin bir hissəsi öz doğna etnosundan ayrılmaq məcburiyyətində qalaraq rahatlıq və sülh şəraiti əldə etmək arzusu ilə Qərb ölkələrinə mühacirət etmişdilər. Bu isə həmin ölkələrdə ilk Azərbaycan icmalarının yaranmasına səbəb olub.

Azərbaycanlılar erkən orta əsrlərdən başlayaraq fasiləsiz olaraq xarici işğalçılara qarşı mübarizə aparmışdılar. 224-cü ildə yaranan Sasanilər dövləti 226-cı ildə Atropatenanı (Cənubi Azərbaycan) işğal etdi. Sasanilər VI əsrin əvvəllərində isə Albaniyanı (Şimali Azərbaycan) tamamilə özlərinə tabe etdilər. Bu dövrdə Albaniya özünün nisbi dövlət müstəqilliyini saxlayaraq Sasani və Bizans imperiyalarına qarşı mübarizə aparırdı. VI əsrdə Albaniya müxtəlif Şimali Qafqaz tayfalarının dağıdıcı təcavüzlərinə məruz qaldı. V-VI əsrlərdə bu əraziyə hunların yürüşləri intensivləşdi. VI əsrdə Xəzərlər Dərbənd keçidindən keçərək buraya bir neçə dəfə müdaxilə etdilər. Məhz V-VI əsrlərdən Cənubi Qafqaz ərazisinə türk mənşəli tayfaların axını güclənir. Həmin dövrdə baş verən miqrasiya və köçürmə siyasəti nəticəsində bu gün Cənubi Qafqazda farsdilli etnoslar, talışlar, lahıclar, tatlar, kürdlər, dağlılar və digər etniklər yaşayırdılar.

VII əsrin ortalarında ərəb işğalçılarının zərbələri altında nə vaxtsa çox güclü olan Sasanilər imperiyası süqut etdi. Onun əraziləri də daxil olmaqla sərhədləri qərbdə Atlantik okeanından, cənubda Hind okeanına qədər , şərqdə Orta Asiyaya, şimalda isə Qafqaza qədər uzanan ilk müsəlman dövləti olan Ərəb xilafəti yarandı. Ərəblərin işğal etdiyi ölkələrdə yerli əhali İslam dinini qəbul etdikdən sonra VIII əsrin sonunda bu din Azərbaycan ərazisində hökmran dinə çevrildi. Yerli əhali müsəlman sivilizasiyası və mədəniyyətinin yaranması və inkişafı prosesində fəal iştirak etməyə başladı. Azərbaycanlılar yüksək təhsil almaq üçün Bağdad, Kufə, Bəsrə, Dəməşq, Mədinə,. Qahirə və İsgəndəriyyə şəhərlərinə getməyə başladılar. IX əsrin əvvəllərində yaşamış ərəb müəllifi yazırdı ki, Mədinə şəhərində elə bir şair yoxdur ki, Azərbaycandan olmasın. Bu dövrə aid yazılı mənbələrdə ərəb dilində təkcə öz vətənlərində deyil, həm də əslən Azərbaycandan olan alimlər və mütəfəkkirlər haqqında böyük sayda məlumat saxlanılmaqdadır. Onlar öz vətənlərindən kənarda müsəlman dünyasının elm və mədəniyyət mərkəzlərində geniş elmi, mədəni və pedoqoji fəaliyyətlə məşğul olmuşlar. Beləliklə, artıq orta əsrlərdə Azərbaycan icmalarının intelektual təbəqələrinin formalaşması prosesi özünü geniş şəkildə büruzə verməyə başlayır.

VII əsrin ortalarından etibarən VIII əsrin sonuna qədər Azərbaycan həm də Xəzər xaqanlığının hücumlarına məruz qalmışdı. Məlumdur ki, xəzərlər 627-628-ci illərdə bütün Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycanı özlərinə tabe etmişdilər. Dövrün salnaməçisi Əs-Suyuti xəzərlərin Cənubi Qafqaz ərazilərinə etdikləri yürüşlərin birindən sonra yazırdı: "Qələbə çalanlar özləri ilə Azərbaycandan Şimali Qafqaza 100 min nəfər əsir apardılar. Bu elə bir dəhşət idi ki, əhali əvvəllər heç zaman belə fəlakətlə üzləşməmişdi". Akademik Ə.S.Sumbatzadə isə yazır ki, burada söhbət bu ərazidə baş verən müharibələrin xarakterindən getmir. Ən əsası odur ki, bu müharibələr Azərbaycanın etnuk mənzərəsinə necə təsir göstərib və həmin müharibələr nəticəsində əhalinin kütləvi surətdə əsir aparılması, eləcə də yerli azərbaycanlı əhalinin geniş miqyasda məhvi ilə nəticələnib. Beləliklə, Azərbaycan III Sasanilər İmperiyası tərəfindən işğal olunub. VII əsrdə isə Ərəb Xilafətinin işğalına məruz qalıb. Buna görə də işğalçılar kütləvi surətdə İranın və Ərəbistanın daxili ərazilərindən fars və ərəb mənşəli əhalini Azərbaycan ərazilərinə köçürməyə başlayıblar. Köçürülən əhalini Azərbaycanın mühüm hərbi-strateji əhəmiyyət kəsb edən torpaqlarında yerləşdiriblər.

IX-X əsrlərdə rusların Şimali Azərbaycan ərazilərinə etdikləri yürüşlər diqqəti cəlb edir. Bununla bağlı qeyd etmək lazımdır ki, XI əsrin birinci yarısında bu ərazi dəfələrlə müxtəlif tayfaların, alan, rus, sərir və sabirlərin, o cümlədən Bizans imperiyasının yürüşlərinə məruz qalıb. Onların ardınca bu ərazilərə artıq Mərkəzi Asiyada oğuz türklərinin yaratdığı Səlcuq İmperiyasının Qərb istiqamətindən yürüşləri başlayır. Səlcuq türklərinin hərəkət etdiyi istiqamətdə hərbi əməliyyatlardan zərər çəkən ərazilərdən biri Azərbaycan ərazisi idi. Buna görə də XI əsrin 40-70-ci illərində bu regionda cərəyan edən hərbi-siyasi hadisələr ölkə iqtisadiyyatına ağır zərbə vurmaqla bərabər, həm də əhalinin müəyyən hissəsinin öz vətənindən məcburən miqrasiya etməsinə səbəb oldu.

XII əsr Azərbaycanın mədəni həyatında renessans dövrü kimi xarakterizə olunur. Bu dövrdə Azərbaycan Şirvanşahlar və Atabəylər-Eldənizlər dövlətlərinin saraylarında tanınmış alimlər, tarixçilər, riyaziyyatçılar, həkimlər, kimyaçılar, astronomlar, ərəb və fars ədəbiyyatının biliciləri yaşayırdılar. Onların böyük əksəriyyəti dünyanın tanınmış elm mərkəzlərində olmuş və bir çoxları öz fəaliyyətlərini bu mərkəzlərdə davam etdirmişdilər. Onlardan birini Əbu-Əli İbn Sinanın tələbəsi və davamçısı, orta əsr Şərqinin fəlsəfi fikir tarixində mühüm rolu olan Bəhmənyarı göstərmək olar. Eyni zamanda həmin dövrdə Suriya, Misir, İran və digər ölkələrin elm və təhsil mərkəzlərində keçirilən elmi diskussiyaların iştirakçısı, məşhur Nizami Əl-Mülk tərəfindən Bağdadda təsis edilən "Nizamiyyə" mədrəsəsinin müəllimi Xətib Təbrizini bu sıraya aid etmək olar. İstər Ərəb xilafətinin ictimai-siyasi həyatında fəal iştirak edən görkəmli mütəfəkkir və sufi Şaihab əd-Din Suhraverdi, istər Bəhmənyar, istərsə də Xətib Təbrizi və başqaları bu ölkədə yaranmış azərbaycanlı icmaların intellektual gücünün artırılmasında mühüm rol oynayıb.

1220-cim ildə monqol ordusu ilk dəfə Azərbaycana yürüş etdi və 1231-ci ildə başlanan ikinci yürüş 1239-cu ildə ölkənin işğalı və onun Monqol İmperiyasının tərkibinə daxil edilməsi ilə başa çatdı. XIII-XVI əsrlər ərzində, xüsusilə də 1220-1222, 1231-1239, 1258-1357, 1358-1360, 1385-1408-ci illər ərzində Azərbaycan ərazisində cərəyan edən hərbi-siyasi proseslər nəticəsində ölkə iqtisadiyyatının dağıdılması intibah dövrünü ümumAzərbaycan mədəniyyətini tənəzzülə uğratdı. Bu isə öz növbəsində azərbaycanlıların bir qisminin yaxın və uzaq ölkələrə miqrasiya etməsi ilə nəticələndi. Hətta XIV əsrin 80-90-cı illərində Azərbaycanın çoxsaylı elm, incəsənət və mədəniyyət xadimləri Mərkəzi Asiya ölkələrinə sürgün edildi. Baş vermiş hərbi yürüşlər nəticəsində əhalinin məhv edilməsi ilə bərabər, həm də onun bir qisminin qonşu ölkələrə köçməsinə səbəb oldu. Ölkənin monqollar tərəfindən işğal edilməsi prosesi, həm də Azərbaycan ərazisinə Orta Asiya ölkələrindən çoxsaylı qeyri-azərbaycanlı əhalinin köçürülmısi ilə müşayət olunurdu.

Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir

**"Olaylar".-2013.-1 fevral.-№19.-S.15.**

## Azərbaycan-Türkiyə diasporları əməkdaşlıq müstəvisində

### *Bakı türkdilli xalqların beyin mərkəzinə çevrilir*

Azərbaycan və türk diasporlarının son illərdəki coğrafiyasına və tərkibinə nəzər yetirsək, hər mənada böyük irəliləyişin şahidi olarıq. Türk-Azərbaycan diasporunun yaranması, iki qardaş xalqın vahid ideologiya ətrafında birləşməsi və türk birliyinin yaranması istiqamətində atılan ən güclü addımdır. Mənəvi-tarixi, siyasi-iqtisadi köklərə bağlanan xalqlarımız son illər ümumtürk diasporunun yaranmasına stimul verən çox önəmli addım atıblar. Məqsəd həqiqətlərimizin dünyaya bir mövqedən çatdırılmasıdır. Avropa dövlətlərində, beynəlxalq toplantılarda və ya Qərbin ikili standartlarına qarşı etiraz tədbirlərində qardaş xalqlar əl-ələ, çiyin-çiyinə addımlayır, bayraqları qoşa dalğalanır.

Birlik və bərabərlik ruhunda çıxış edən toplum hər zaman qalib olur. Bu fikrin doğruluğuna söykənən Azərbaycan və türk diasporu təşkilatlanaraq son bir neçə ildə xarici ölkələrdə Xocalı soyqırımı ilə bağlı mitinqlər keçirir, Dağlıq Qarabağ problemini Avropa dövlətlərinin gündəminə gətirmək üçün birgə layihələr reallaşdırır, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə etinasız yanaşan dövlətlərə və siyasətçilərə qarşı haqq səslərini ucaldırlar. Avropada yaşayan azərbaycanlılar və türklər Ermənistanın Azərbaycan torpaqlarında törətdikləri vandalizm aktlarını, soyqırımıları, "qondarma erməni soyqırımı" yalanlarının qarşısının alınması və digər məsələlərdə etiraz tədbirləri keçirir, bir-birlərinin maraqlarını müdafiə edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ildə söylədiyi "Bir millətin iki diasporu olmaz" fikri bu prosesin daha da sürətlənməsinə təkan verdi.

Yaxın günlərdə Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin diaspor məsələləri üzrə cavabdeh dövlət qurumları rəhbərlərinin keçirdiyi ilk toplantıda bu məsələlər gündəmə gətirildi. Konfransda başlıca istiqamət türkdilli dövlətlərin diasporları arasında əməkdaşlığın gücləndirilməsi, türk dünyası birliyi ideyasının həyata keçirilməsi üçün səylərin birləşdirilməsi və gələcək fəaliyyət strategiyasının müəyyənləşdirilməsi idi. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirdi ki, bu sahədə türk dövlətlərinin fəaliyyətini əlaqələndirmək üçün sıx münasibətlər qurulmalı, digər türkdilli ölkələr də bu prosesə qoşulmalıdırlar.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı türk xalqlarının ortaq əlifbasının və dilinin qəbul olunmasını, ortaq tarix və ədəbiyyat dərsliklərinin hazırlanmasını, universitetlərarası əlaqələrin inkişaf etdirilməsini, diplomların qarşılıqlı tanınması və ortaq təhsil telekanalının yaradılmasını zəruri hesab etdi: "Bundan başqa, xarici ölkələrdə yaradılan türk diaspor mərkəzləri digər türk diaspor təşkilatlarının ortaq problemlərini həll etməli, onların qaldırdığı məsələləri təmsil etdiyi ölkələrin dövlət rəhbərliyinə çatdırmalıdırlar".

Müxtəlif türk dövlətlərindən gəlmiş nümayəndələr bildirdilər ki, sovet rejimi türk xalqları arasındakı mənəvi və tarixi bağlılıqların qırılması və dağıdılması üçün əlindən gələni etdi, dil və əlifba siyasətindən sədlər ucaltdı. Ona görə də SSRİ ərazisində yaşayan qardaş xalqlar on illiklər ərzində bir-birlərindən tədricən aralandılar.

"İndi isə başqa zamandır, bizim artıq hər mənada bir-birimizi anlamağımızın vaxtıdır. Bunun üçün ilk növbədə, türkdilli ölkələrin əlifbalarının uyğunlaşdırılması və vahid yazı qrafikasına keçilməsi gündəmə gətirilməlidir. Onsuz da nə qədər tez başlasaq, yenə də gecikmişik" deyə fikirlər səsləndi. O da vurğulandı ki, latın qrafikasına keçilməsində Azərbaycan örnək göstərdi.

Ümumdünya Qazaxlar Assosiasiyası idarə heyətinin sədr müavini Talqat Mamaşev latın qrafikasına keçərkən Azərbaycanın təcrübəsindən yararlanmağı üstün hesab etdi: "Ortaq əlifbamız olarsa, biz qardaş türk xalqları bir-birimizin dilini anlayar, mətbuatını oxuyar, internet əlaqələri qurarıq".

Xatırladaq ki, bir müddət əvvəl Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda keçirilən elmi şuranın toplantısında Türkiyə tarixçilərinin və millət vəkillərinin iştirakı ilə sözügedən mövzu ətrafında geniş müzakirələr aparıldı, ortaq türk tarixinin yazılması üzərində dayanıldı. Tarix İnstitutunun direktoru, professor, Milli Məclisin deputatı Y.Mahmudov ortaq Azərbaycan-Türkiyə tarixinin yazılmasından danışdı və bu sahədə işlərin davam etdirildiyini bildirdi: "Bir neçə ildir ki, orta və ali məktəblərdə türk xalqlarının tarixi geniş tətbiq olunur. Azərbaycan tarixinə dair elmi əsərlərin Türkiyə türkcəsinə çevrilməsi və arxiv sənədlərinin mübadiləsi sahəsində də əməkdaşlıq edilir.

Planlarımıza görə ortaq türk tarixinin tədrisinə ümumtəhsil məktəblərindən başlanılacaq. Dərsliklər hazır olduqdan sonra ortaq türk tarixinin ilk növbədə Azərbaycan və Türkiyədə tədrisi nəzərdə tutulur, sonra Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan kimi qardaş xalqların orta məktəblərində tədrisi üçün müraciət olunacaq. Hazırda ən vacib məsələ türk dünyasının orta əsrlər dövrünü hazırlamaqdır. Bundan sonra qədim və müasir dövrü yazmaq çox vaxt aparmayacaq". Türkiyə Böyük Millət Məclisinin üzvləri Tülay Selamoğlu, Şuay Alpay və azərbaycanlı mütəxəssislər həmin toplantıda qərara aldılar ki, ümumtürk əlifbasının yaradılması üçün bütün qüvvələr səfərbərliyə alınmalıdır.

Qırğızıstanın Xarici İşlər Nazirliyinin məşğulluq və miqrasiya məsələləri departamentinin direktoru Keştakbek Aytmatov da jurnalistlərlə görüşündə hər bir türkdilli insanın bir-birini anlaya və danışa biləcəyi dilə və əlifbaya böyük ehtiyac olduğundan danışdı: "Bu türkdilli xalqların əlaqələrinin genişlənməsində və dünyada bir-birinə dəstək olmasında böyük rol oynayar, diaspor fəaliyyətinin inkişafına təkan verər".

Son illər Azərbaycan türkdilli dövlətlərin bir araya gəlməsi ilə bağlı keçirilən bir neçə beynəlxalq konfranslara ev sahibliyi edib. Belə demək mümkünsə, Azərbaycan türkdilli xalqların əməkdaşlıq və beyin mərkəzinə çevrilib. Toplantıda bir fikir də xüsusilə vurğulandı ki, dünyada gedən proseslər milli-etnik kökü yaxın olan dövlətlərin bir-birilə yaxınlaşmasını vacib şərtə çevirib. Bu baxımdan Orta Asiyada və Rusiyanın tərkibində yaşayan türkdilli xalqların da türk birliyinə inteqrasiyası vacib amillərdən biridir. Bu dövlətlərdə türklər bir çox prinsipial məsələlərdə hələ də öz mövqelərini sərbəst şəkildə sərgiləyə bilmir. Lakin ümidlər və imkanlar tükənməyib. Qazaxıstan və Qırğızıstan bu addımı ataraq türk dövlətlərinin birləşməsinə böyük töhfə verib. Azərbaycan isə bu birliyin təmin edilməsində sanki katalizator rolunu oynayır. Unutmaq olmaz ki, bu istiqamətdə yaradılmış bir çox qurumların mərkəzi ofisləri Azərbaycanda yerləşir. Bunlar Azərbaycanın dövlət səviyyəsində türk dövlətləri arasında inteqrasiyaya nə qədər ciddi önəm verməsinə sübutdur.

Müzakirələrin sonunda yekun sənəd qəbul olundu. Sənəddə TDƏŞ-yə üzv dövlətlərin diaspor təşkilatlarının ortaq strategiyasının müəyyən edilməsi üçün mütəxəssislərdən ibarət təmas qrupunun yaradılmasına dair müddəa öz əksini tapdı. Həmçinin sənəddə türk dövlətlərinin diaspor təşkilatlarının rəhbərlərinin I forumunun Azərbaycanda keçirilməsi qərara alındı.

**Rəsmiyyə Rzalı, "Azərbaycan".-2013.-2 fevral.-N 24.-S.3.**

**Azərbaycanın zəngin mətbəx nümunələrinin ilk təqdimatı keçirilmişdir**

4 fevral 2013-cü ildə Parisdə fəaliyyətini yenidən bərpa edən "Azərbaycan evi"nin ölkəmizi fransızlara daha yaxından tanıtmaq məqsədilə planlaşdırılan aylıq layihələri çərçivəsində Azərbaycanın zəngin mətbəx nümunələrinin ilk təqdimatı keçirilmişdir. "Azərbaycan evi" və yerli fransız təşkilatları arasında nəzərdə tutulmuş bu silsilə tədbirin ilk qonağı 500-dən artıq üzvü olan Paris Qarşılıqlı Əlaqə (ACP) qurumu olmuşdur. "Azərbyacan evi"nin sədri Mirvari Fətəliyeva tədbirdə çıxış edərək ölkəmizin tarixi haqqında ətraflı məlumat vermiş, zəngin mədəniyyətimiz barədə söhbət açmışdır.

Layihə rəhbəri, sədrin müavini Jalə Babayevanın təqdimatı ilə Azərbaycanın zəngin mətbəxinin ləziz təamlarından olan paxlavanın hazırlanma qaydası göstərilmişdir. Böyük marağa səbəb olan bu təqdimatda iştirakçıların özləri də yaxından iştirak etmişlər. Çay süfrəsi ətrafında davam edən tədbir qonaqlarda Azərbaycan haqqında xoş təəssürat və maraq oyatmışdır. Beləliklə, qonaqlar mətbəx mədəniyyəti vasitəsilə ölkəmizə qiyabi səyahət etmişlər.

**4 fevral 2013**

## Ümumrusiya Azərbaycan Konqresi Mərkəzi Şurasının iclası keçirilmişdir

***Fevralın 5-də Moskvanın "Prezident" hotelində Ümumrusiya Azərbaycan Konqresi (ÜAK) Mərkəzi Şurasının növbədənkənar iclası keçirilmişdir***

***İclasda Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva iştirak etmişdir***

Tədbirdən əvvəl ÜAK Rəyasət Heyətinin üzvləri - Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Qüdsi Osmanov, İTAR-TASS Agentliyi baş direktorunun birinci müavini Mixail Qusman və Rusiyadakı Azərbaycan diasporunun nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir. Görüşdə bir sıra əhəmiyyətli məsələlər müzakirə olunmuşdur. Sonra geniş tərkibdə keçirilən iclası ÜAK-nın prezidenti, akademik Məmməd Əliyev açaraq Azərbaycan diasporunun nümayəndələrini salamlamışdır. Azərbaycan və Rusiyanın dövlət himnləri səslənmiş, ÜAK-nın 2012-ci ildə fəaliyyətini əks etdirən film nümayiş olunmuşdur. Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Məmməd Əliyev konqresin Rəyasət Heyətinin iclasında ÜAK-nın növbədənkənar qurultayının keçirilməsi məsələsinin müzakirə edildiyini söyləmişdir. O, konqresin 2011-ci ildə keçirilən III qurultayında qəbul olunan nizamnaməsinin Rusiya Federasiyası Ədliyyə Nazirliyində qeydiyyatdan keçməməsi, konqresin qeyri-qanuni fəaliyyət göstərməsi barədə fikirlərə aydınlıq gətirmişdir. Tədbirdə Rusiya Federasiyası Ədliyyə Nazirliyinin nümayəndəsi nazirliyin Ümumrusiya Azərbaycan Konqresinin sorğusuna əsasən təqdim etdiyi konqresin ictimai təşkilat olaraq yeni qurultay çağırılanadək 2006- cı ildə keçirilən qurultayın nizamnaməsinə əsasən fəaliyyət göstərdiyini təsdiq edən sənədin mətnini oxumuşdur.

ÜAK-nın prezidenti Azərbaycan Respublikasının Sankt-Peterburqdakı baş konsulu Qüdsi Osmanova konqresin aparatının icraçı direktor vəzifəsinin təklif olunduğunu diqqətə çatdırmışdır. Qüdsi Osmanov bu təklifə münasibətini bildirərək demişdir ki, Rusiyanın Azərbaycan diasporu ilə işləmək böyük şərəfdir. O vurğulamışdır ki, fəxri və baş konsul işlədiyi müddətdə Rusiyanın 60-dan çox regionuna səfərləri zamanı Azərbaycan diasporunun fəal üzvləri ilə mütəmadi görüşlər keçirmişdir və diaspor təşkilatlarının rəhbərləri ilə dostluq münasibətləri vardır. Q.Osmanov hazırda baş konsul vəzifəsində çalışdığını və təkliflə bağlı müvafiq qərarın məsləhətləşmələrdən sonra veriləcəyini bildirmişdir.

Daha sonra konqresin İcra Aparatının rəhbəri Nemət Nağdəliyev hesabat məruzəsi ilə çıxış etmişdir. O, 2011-ci ilin iyununda keçirilmiş sonuncu qurultaydan sonra konqresin gördüyü işlərdən danışmış və qarşıya qoyulan bir sıra layihələrin həyata keçirildiyini qeyd etmişdir. Bildirilmişdir ki, ötən dövr ərzində ÜAK real qüvvəyə malik böyük və nüfuzlu ictimai təşkilata çevrilmişdir. Konqres Rusiyanın ictimai həyatında fəal iştirak edir, dövlət qurumları və ictimai təşkilatlarla yaxşı əlaqələr qurmuş, həmvətənlərimizin milli özgürlüyünü, dilini, mədəniyyətini və ənənələrini qoruyub saxlamasına kömək etmişdir. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ÜAK-nın yaradılmasında və Rusiyada yaşayan soydaşlarımız üçün ümumi evə çevrilməsində rolunu xüsusi vurğulamışdır.

Ümumrusiya Azərbaycan Konqresinin regional bölmələrinin rəhbərləri ötən dövr ərzində görülən işlərdən, qarşıda duran vacib vəzifələrdən danışmışlar. Qeyd olunmuşdur ki, regionlarda konqresin işinin təkmilləşdirilməsi üçün bundan sonra da müvafiq addımlar atılacaqdır.

Sonda ÜAK-nın 2013-cü il üçün nəzərdə tutulmuş tədbirlər planı müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar kompleks tədbirlərin təşkili prioritet məsələlər sırasındadır. Ötən il ÜAK Heydər Əliyev adına mükafat təsis etmişdir. Bu yüksək mükafat Rusiyanın ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafında xidmətləri olan nüfuzlu şəxslərinə təqdim ediləcəkdir.

Çıxışlardan sonra Məmməd Əliyev iclasa yekun vurmuş, təşkilatın fəaliyyətini bütövlükdə müsbət qiymətləndirmişdir.

**Fəridə Abdullayeva, “Xalq qəzeti”.-2013.-6 fevral.-N 27.-S.4.**

**“Yosef-Yoaxim konsert zalı”nda “Gecənin romansları” adlı konsert proqramı təşkil edilmişdir**

2013-cü il fevral ayının 10-da Berlin İncəsənət Universitetinin professoru, həmyerlimiz Ləman Dadaşın sinfində təhsil alan tələbələrin iştirakı ilə konsert təşkil edilmişdir. Universitetin “Yosef-Yoaxim konsert zalı”nda keçirilən “Gecənin romansları” adlı konsert proqramında müxtəlif ölkələrin bəstəkarlarının dünya musiqi xəzinəsinə daxil edilmiş əsərləri səslənmişdir. Azərbaycan alimi Almaniyada yüksək mükafata layiq görülmüşdür.

**10 fevral 2013**

**Berlin şəhərində professor Eldar Quliyevin "Qotfrid Vilhelm fon laybniz medalı" ilə təltifatına həsr olunmuş mərasim keçirilmişdir**

2013-cü il fevralın 13-də Almaniyanın paytaxtı Berlin şəhərində Azərbaycan Parlamentinin üzvü, İqtisadiyyat üzrə Fəlsəfə doktoru, professor Eldar Quliyevin "Qotfrid Vilhelm fon laybniz medalı" ilə təltifatına həsr olunmuş mərasim keçirilmişdir. Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyi tərəfindən Berlinin "İnterkontinental" hotelində təşkil edilən təltifetmə mərasimində Azərbaycan və türk diasporlarının təmsilçiləri, cəmiyyət sədrləri və üzvləri, Almaniyada təhsil alan azərbaycanlı tələbə və doktorantlar iştirak etmişlər.

Təltifat mərasimini Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin sədri Samira Patzer-İsmailova açaraq qonaqları salamlamış və bildirmişdir ki, Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra bütün sahələrdə qazandığı uğurlarla bütün dünyada tanınmağa başlamışdır. O, Azərbaycan Respublikası Kooperasiya Universitetinin rektoru, millət vəkili Eldar Quliyevi təbrik etmiş və uğurlar arzu etmişdir.

**13 fevral 2013**

## "Qaradağlı soyqırımı" kitabının təqdimatı keçirilmişdir

15 fevral 2013-cü il tarixdə Qaradağlı faciəsinin növbəti ildönümü ərəfəsində - Gürcüstanın paytaxtı Tbilisidə "Qaradağlı soyqırımı" kitabının təqdimatı keçirilmiş və "Azərbaycan Həqiqətləri" adlı video-albom nümayiş edilmişdir. Təqdimat mərasimində Azərbaycan-Gürcüstan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Qənirə Paşayeva, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun İdarə Şurasının sədri Ümid Mirzəyev, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafina Yardım Assosiasiyasının karabakhİnfo.com e-jurnalının redaktoru Zaur Qəriboğlu, Gürcüstan parlamentinin deputatı Azər Suleymanov və KİV nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Azərbaycanlıların Mədəniyyət Mərkəzinin sədri Fazil Həsənov zaman-zaman Azərbaycan xalqının başına gətirilən faciələrin Gürcüstanda daim anıldığını deyib. Millət vəkili Qənirə Paşayeva isə bu məsələdə hamını daha həssas olmağa, tariximizi dərindən öyrənməyə, vətənpərvər ruhda gənclər böyütməyə, üzərimizə düşən vətəndaşlıq və milli borcu məsuliyyətlə yerinə yetirməyə çağırıb. Gürcüstanda “Xocalı ayı”na Marneulidən start verdiklərini deyən Qənirə Paşayeva anım tədbirlərinin ölkənin bir çox bölgələrində keçiriləcəyini qeyd etmişdir.

**15 fevral 2013**

## Azərbaycan icma və cəmiyyətlərindən federasiya və konqreslərə doğru

### *Diaspor təşkilatlarının formalaşması yeni müstəvidə*

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız 2000-ci ilin əvvəllərində icma və cəmiyyətlər şəklində birləşərək Azərbaycan diasporunu təmsil etdikləri halda, artıq bir neçə il sonra daha geniş formatlı qurumlar, konqres və federasiyalar, assambleyalar təsis etməyə başladılar. Bu istiqamətdə yaradılmış qurumlardan biri Benilüks Azərbaycanlıları Konqresidir. Belə ki, Benilüks ölkələrində - Niderland, Belçika və Lüksemburqda fəaliyyət göstərən bir sıra Azərbaycan diaspor təşkilatları Amsterdam şəhərində Benilüks Azərbaycanlıları Konqresinin təsis konfransını keçirdilər. Benilüks Azərbaycanlıları Konqresinin təsis edilməsində məqsəd Benilüks ölkələrindəki Azərbaycan və türkdilli cəmiyyət və dərnəkləri bir araya gətirməkdən, onların fəaliyyətini əlaqələndirməkdən ibarət idi.

Benilüks ölkələrində məskunlaşmış soydaşlarımızın tarixi vətənləri ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, türkdilli xalqlar arasında birliyin və həmrəyliyin təmin olunması, milli mənəvi dəyərlərin birgə qorunması və Avropa ölkələrində təbliği Benilüks Azərbaycanlıları Konqresinin fəaliyyət platformasının əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdi. Benilüks ölkələrində fəaliyyət göstərən və beş təşkilatı özündə birləşdirən İraq Türkmənlərinin Məclisi də konqresin tərkibinə daxil oldu. Konfransda Benilüks Azərbaycanlıları Konqresinın nizamnaməsi, bayrağı, idarə heyəti, sədri təsdiq edildi. Niderland-Azərbaycan Cəmiyyətinin təsisçisi Sahil Qasımov konfransda Benilüks Azərbaycanlıları Konqresinın sədri seçildi. Təsis konfransında Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov da iştirak etmişdi. Konfrans iştirakçıları adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə müraciət qəbul olundu. 2006-cı ilin noyabrında Birləşmiş Ştatlarda Amerika Azərbaycan Tədqiqatçılar İnstitutu təsis edildi. Amerika Azərbaycan İnstitutunun yaradılmasının əsas məqsədi Azərbaycanla Birləşmiş Ştatlar arasında münasibətlərin inkişafına dəstək vermək, Amerika ictimaiyyətini Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti və müasir ictimai-siyasi həyatı barədə məlumatlandırmaqdan ibarət idi. Tədqiqatlar İnstitutu həmçinin Amerika və Azərbaycan şəhərlərinin qardaşlaşması layihəsini həyata keçirəcək, tələbə mübadiləsi aparacaq, Vaşinqton və Bakı şəhərlərində tədbirlər keçirəcək, ölkələr arasında nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini təşkil edəcəkdi. İnstitut Azərbaycanın turizm, iqtisadiyyat sahələrinə də töhfə verməyi nəzərdə tutur. İnistitutun ilk tədbirinin «Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsi»nə həsr edilməsi və toplantının Birləşmiş Ştatlar Konqresində keçirilməsi planlaşdırılmışdı.

Noyabr ayında Almaniyada Avropa Azərbaycan Strateji Araşdırmalar Mərkəzi yaradıldı. Avropa Azərbaycan Strateji Araşdırmalar Mərkəzi Avropa ictimaiyyətini Azərbaycan haqqında zəruri informasiyalarla təmin etməyi, habelə müasir texnologiya vasitələrindən istifadə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri Avropa ölkələrinə çatdırmağı qarşısına əsas məqsəd kimi qoymuşdu. Bundan başqa mərkəz Azərbaycanda gedən sosial-iqtisadi inkişaf prosesləri, ölkəmizin əldə etdiyi iqtisadi nailiyyətlər barədə də Avropa ictimaiyyətini məlumatlandıracaqdı. Mərkəzin fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycanın Avropaya inteqrasiya siyasətinə dəstək vermək idi. Avropa Azərbaycan Strateji Araşdırmalar Mərkəzi Azərbaycan Respublikasının Avropaya inteqrasiya siyasətinin məqsədi barədə Avropa ölkələrinin ictimaiyyətində obyektiv təsəvvürlərin formalaşmasını təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirəcəkdi. Mərkəz Avropa ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanması, onlar arasında birliyin təmin olunması istiqamətində də Azərbaycan icmalarına yaxından kömək göstərəcəkdi.

2006-cı ilin noyabr ayında Türkiyədə təsis edilmiş Türkiyə-Azərbaycan Strateji Araşıdrmalar Mərkəzi də öz fəaliyyətində məhz yuxarıda qeyd olunan prinsipləri əsas götürmüşdü. Mərkəzin fəaliyyətinin əsas istiqamətlərindən biri də "erməni soyqırım" iddiaları ilə bağlı elmi-praktik konfranslar təşkil elmək, bu iddiaların reallıqdan tamamilə uzaq olduğunu sübut edən elmi araşdırmaların nəticələri barədə dünya ictimaiyyətini məlumatlandırmaqdan ibarət olacaqdı. Mərkəzin nəzdində ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən bölmələrin qurulması da nəzərdə tutulurdu. Mərkəz Azərbaycanla Türkiyə arasında münasibətlərin inkişafına da töhfə verməyə çalışacaq, iki qardaş ölkənin dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə xidmət edən tədbirlər təşkil edəcəkdi. Dekabr ayında isə Türkiyənin İzmit şəhərində bu ölkənin 14 vilayətində fəaliyyət göstərən Azərbaycan Evi Dərnəklərinin toplantısı keçirildi. Tədbirin keçirilməsində məqsəd bu dərnəklərin Azərbaycan Evi Mədəniyyət Dərnəkləri Federasiyası (AEMDF) adı altında birləşməsini təşkil etmək idi. Toplantı iştirakçıları bu təşəbbüsü dəstəklədiklərini yekdilliklə bildirmiş və qurumun təsis olunmasını məqsədəuyğun hesab etmişlər. 2006-cı ilin dekabr ayında Dünya Azərbaycanlıları Konqresinin (DAK) Ukraynadakı nümayəndəliyi bu ölkənin Ədliyyə Nazirliyində rəsmi qeydiyyata alındı. Dünya Azərbaycanlıları Konqresinın Ukrayna nümayəndəliyinin yaradılmasında əsas məqsəd Birləşmiş Millətlər Təşkilatının nizamnaməsini, Ümumdünya İnsan Haqları bəyannaməsini, Ukrayna qanunvericiliyini rəhbər prinsip kimi qəbul edərək soydaşlarımızın professional, sosial və digər hüquqi mənafeyini qorumaqdan ibarət idi.

Dünya Azərbaycanlıları Konqresinın Ukrayna nümayəndəliyi soydaşlarımızın hüquqlarını beynəlxalq səviyyədə qorumaqla yanaşı, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında da fəal iştirak etməyi bir vəzifə kimi qarşısına məqsəd qoymuşdu.. Dekabrın 17-də Toronto şəhərində Ontario və Kvebek vilayətlərində fəaliyyət göstərən 8 təşkilatın-Kvebek Azərbaycanlıları Assosiasiyası, Kanada Azərbaycan Dostluq Assosiasiyası, Ontario Azərbaycanlıları İcması, Kanada Azərbaycan Əməkdaşlığı Assosiasiyası, Kanada Azərbaycan Ticarət Mərkəzi, Kanadada Azərbaycan Tələbələri Cəmiyyəti, Kanada Azərbaycan Qadınları Assosiasiyası və Kanada Azərbaycan Gənclər Assosiasiyasının təşəbbüsü ilə geniş toplantı keçirildi. Toplantı iştirakçıları Azərbaycan həqiqətlərinin, o cümlədən Vətənimizə qarşı erməni təcavüzünün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin mövqeyinin və dövlətimizin xarici siyasətinin beynəlxalq qurumlar səviyyəsində dəstəklənməsi, azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin gücləndirilməsi və Kanadanın ictimai-siyasi həyatında fəal iştirakını təmin etmək məqsədi ilə Kanada Azərbaycan Assosiasiyaları Assambleyasını (KAAA) təsis etdilər. Assambleyanın nizamnaməsinin hazırlanması, onun dovlət qeydiyyatına alınması və 2007-ci ilin yanvarında ilk qurultayının keçirilməsi ilə əlaqədar işçi qrupu yaradıldı.

Bu illərdə təşkilatlanma prosesi xarici ölkələrdə yaşayan azərbaycanlı gənclər arasında da geniş vüsət almışdı. Belə ki, 2006-cı ilin avqust ayında Benilüks Azərbaycanlı Gənclərinin Koordinasiya Şurası yaradılmışdı. Benilüks Azərbaycanlı Gənclərinin Koordinasiya Şurasının əsas məqsədi Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatırmaq, Qarabağ probleminə dair Avropada obyektiv rəy formalaşdırmaq və beynəlxalq təşkilatların diqqətini Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi faktına yönəltməkdən ibarət idi. Qurum gələcəkdə digər ölkələrdə fəaliyyət göstərən Azərbaycan gənclər təşkilatları ilə əməkdaşlıq etmək niyyətini də açıq şəkildə ortaya qoymuşdu. Sentyabr ayında Sankt-Peterburqda Ümumrusiya Azərbaycan Konqresinin Mərkəzi Şurasının üçüncü iclası keçirildi. Konqresin 5-ci ildönümü ərəfəsində keçirilmiş toplantıda ötən müddət ərzində UmumRusiya Azərbaycanlıları Konqresinın Rusiya azərbaycanlılarının nüfuzlu təşkilatı kimi təşəkkül tapması, ölkənin ictimai həyatında layiqli yer tutduğu vurğulandı. Qeyd olundu ki, ÜmumRusiya Azərbaycanlıları Konqresi öz fəaliyyət coğrafiyasını genişləndirməkdədi və təşkilatın yeni regional bölmələrinin yaradılması üçün intensiv iş aparılır, federal dairələrin fəaliyyəti müzakirə olunur, təşkilati və mədəni-maarif işlərinin təcrübəsi, gənclərin ÜmumRusiya Azərbaycanlıları Konqresinın fəaliyyətinə daha geniş cəlb olunması məsələsi diqqət mərkəzində saxlanılır. İclasda gənclərin diasporun həyatına cəlb olunması işinin fəallaşdırılması, tələbələrin Rusiya ali məktəblərinə qəbulu praktikasının davam etdirilməsi və Rusiya Elmlər Akademiyasının elmi bölmələri ilə əməkdaşlıq məsələləri müzakirə mövzusu olmuşdu.

Oktyabr ayında isə Kaliforniya Amerika Azərbaycanlıları Şurası Birləşmiş Ştatlarda yaşayan azərbaycanlı gənclərin ilk forumunu keçirdi. Kaliforniyanın Los-Anceles Universitetində təşkil edilən forumda ölkəmizi Birləşmiş Ştatlarda daha da geniş tanıtmanın yollarını müzakirə ediblər. Forumda çıxış edənlər diasporun təşkilatlanması, Birləşmiş Ştatların qanunverici orqanları ilə əlaqələrin möhkəmləndirilməsi, habelə Azərbaycanın regionda rolu və mövcud iqtisadi durumu, təhsil sistemində vəziyyət kimi mühüm mövzulara diqqət yetirmişlər. Amerikanın müxtəlif ştatlarından gələn forum iştirakçıları yerlərdə həyata keçirdikləri layihələr barədə fikir mübadiləsi aparmışlar. “Hyuston-Bakı” Qardaşlaşmış Şəhərlər Assosiasiyasının Texas ştatında uğurlu fəaliyyəti nümunə kimi göstərilmişdi.

**Süleyman İsmayılbəyli**, **Azərbaycan Respublikası Prezidenti yanında**
**KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir**
**“Olaylar”.-2013.-21 fevral.-№33.-S.15.**

## Azərbaycançılıq və Azərbaycanın dövlət rəmzləri

**Hər hansı bir dövləti digərlərindən fərqləndirən simvol və rəmzlər - emblem, bayraq, gerb, orden, pul və s. mövcuddur. Bu mənada, azərbaycançılıq əsrlər boyu Azərbaycan dövlətinin özünəməxsusluğunu səciyyələndirən rəmzlərlə sıx bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti qədim diyarımızda milli hüquqi dövlətçiliyimizin əsasını qoymuşdur. Yaxın Şərqdə, islam aləmində və türk xalqları arasında ilk dəfə bəşəri və milli əsaslara istinad edən müstəqil demokratik dövlətin qurulması xalqımızın milli azadlıq, milli istiqlal naminə apardığı mübarizəsinin misilsiz qələbəsidir. Qısa dövr ərzində Azərbaycan hökuməti tərəfindən ali dövlət orqanları yaradılmış, türk (Azərbaycan) dili rəsmi dövlət dili elan edilmiş, siyasi, iqtisadi, hərbi və mədəni quruculuq sahəsində bir sıra islahatlar aparılmışdır.**

Azərbaycan dövlətçiliyi bərpa olunan kimi onun yaradıcıları dövlətin milli əlamətlərini əks etdirəcək özünəməxsus rəmzlərin təxirəsalınmadan yaradılması işinə başladılar. Milli dövlətçiliyin istiqlaliyyətini, varlığını, xalqın ən ülvi arzularını lakonik, bədii obrazlı dildə ifadə edən mühüm amillər- rəmzlər, bayraq, gerb və himndir. Bundan başqa, dövlətin pulu, həmçinin, təsis etdiyi orden və medallar da onun atributları hesab olunur. Ulu öndər Heydər Əliyev deyirdi: **"Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən, gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir".**

Ulu öndər Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" 30 yanvar 1998-ci il tarixli Sərəncamında deyildiyi kimi, **"Azərbaycan Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən istiqamətlərdir".**

Həqiqətən, Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər tarixi işlərlə yanaşı, milli dövlətçilik atributlarının (dövlət bayrağı, milli himn və dövlət gerbi) yaradılması yolunda da uğurlu addımlar atılmış, dövlət bayrağı qanunvericilik səviyyəsində qəbul edilmiş, himn və gerb yaradılsa da, qanunvericilik aktı ilə təsdiq olunması o zamankı siyasi-tarixi hadisələrlə bağlı mümkün olmamışdı...

Ulu öndər Heydər Əliyevin siyasi- dövlətçilik fəaliyyətinin Naxçıvan mərhələsindən danışarkən görkəmli tarixçi, AMEA-nın müxbir üzvü Yaqub Mahmudlu haqlı olaraq yazır"...milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 19-20 Yanvar 1990-cı il faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 dekabr gününün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması, nəhayət, böyük Vətəndən -Azərbaycandan ayrı düşmüş Naxçıvanda amansız hərbi-iqtisadi blokada şəraitində Vətən torpağının düşməndən qorunub saxlanması, bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda mühasirə şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov və Əsgər Quliyev "Azərbaycan Respublikasının dövlət rəmzləri" kitabında göstərirlər ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi uğurlu milli dövlət quruculuğu siyasəti müstəqilliyimizin atributlarının, xüsusən, dövlət rəmzlərinin də tam formalaşmasına, onların bütün vətəndaşlar, xüsusən gənclər arasında təbliği və öyrənilməsi işində yeni keyfiyyət dəyişmələrinə keçməyə tarixi zəmin hazırladı. Belə ki, dahi şəxsiyyət Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının dövlət rəmzləri ilə bağlı tarixi xidmətlərinin ikinci mərhələsi, hər şeydən əvvəl, Onun imzaladığı və rəhbərliyi ilə hazırlanan müxtəlif qanunvericilik aktlarında, eləcə də, bir sıra çıxış və nitqlərində irəli sürərək, əsaslandırdığı aşağıdakı prinsipial məsələlərin həlli və ya perspektivliyi ilə səciyyələnir: dövlət müstəqilliyimizin müqəddəs rəmzlərinin (bayraq, gerb, himn) müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında (12 noyabr 1995-ci il) təsbit olunması; ölkənin bütün təhsil-tərbiyə müəssisələrində Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının məna və məzmununun tədrisi ideyasının irəli sürülməsi və bu ideyanın gerçəkləşməsində dövlət rəmzlərinin dərindən öyrədilməsinin zəruriliyi;

Azərbaycan vətəndaşlarında, xüsusən, gənclərdə milli vətənpərvərlik və azərbaycançılıq hisslərinin, Vətənə sədaqət və məhəbbət ruhunun tərbiyə olunmasında dövlət müstəqilliyi-atributlarının təbliğinin, öyrənilməsinin, tədrisinin rolu və əhəmiyyətinin əsaslandırılması; Dövlət rəmzlərinin mahiyyəti və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə hörmət və ehtiram ruhunda tərbiyə edilməsi ölkəmizdə vətəndaş cəmiyyətinin, hüquqi- demokratik və vətəndaş həmrəyliyi cəmiyyətinin formalaşmasının mühüm amili, şərti olması ideyasının irəli sürülüb əsaslandırılması; Azərbaycanın dövlət rəmzlərinin məna, funksiya və mahiyyətinin Azərbaycan gəncliyinə dərindən öyrədilməsi milli ideologiyamızın əsas təməl prinsiplərinin (milli ənənələrə və soykökünə bağlılıq, islami və ümumbəşəri dəyərlərə hörmət, Vətənçilik - azərbaycançılıq, istiqlalçılıq və azadlıq-ideallarına, eləcə də, müasirlik dünyəvilik prinsiplərinə sədaqət və s.) təbliğinin və tədrisinin mühüm şərtlərindən biri olması; bütün Azərbaycan vətəndaşlarında, xüsusən, gənclərdə milli dövlətçilik rəmzlərinə olan hörmət, ehtiram və məhəbbətin, eyni zamanda, Vətənə, xalqa, millətə, dövlətə olan məhəbbətə bərabərliyi ideyasının irəli sürülüb əsaslandırılması; hər bir Azərbaycan vətəndaşında dövlət rəmzlərinə - bayrağa, gerbə və himnə hörmət etməyin onun konstitusiya ilə müəyyənləşən vətəndaş yəzifəsi olduğunu şüurlu olaraq dərk etməsinə nail olunması və s.

**Milli-dövlətçilik rəmzlərinin prezident Heydər Əliyevin memarı olduğu Azərbaycan Respublikasının Konstitusiyasının iki maddəsində (23-cü və 75-ci maddə) təsbit olunması ilə onların qanunvericilik səviyyəsində təsdiqi və tam formalaşması prosesi başa çatmış oldu. Azərbaycan Respublikasının Konstitusiyasının "Azərbaycan dövlətinin rəmzləri" adlanan 23-cü maddəsində həmin atributların tərkibi və onları müəyyənləşdirən qanunvericilik aktları təsbit edilmişdir: Azərbaycan Respublikasının dövlət rəmzləri-Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasınm Dövlət Himnidir.**

Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti l:2-dir.

Azərbaycan Respublikasının Dövlət Bayrağının və Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri, Azərbaycan Respublikasının Dövlət Himninin musiqisi və mətni Konstitusiya Qanunu ilə müəyyən edilir. Azərbaycan Respublikasının Konstitusiyasının "Dövlət rəmzlərinə hörmət" adlanan 75-ci maddəsində isə deyilir: "Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə-bayrağına, gerbinə və himninə hörmət etməlidir".

Deməli, Azərbaycan Konstitusiyası vətəndaşlarımızın hüquq və azadlıqlarına geniş təminat verdiyi kimi, onların qarşısında həm də dövləti əhəmiyyətli ciddi vəzifələr və məsuliyyət də qoyur. Bu mənada, dövlət rəmzlərinə-bayrağa, gerbə və himnə dərk olunmuş şüurlu ehtiram və hörmət hissinin formalaşması Vətənimizdə vətəndaş cəmiyyətinin yaranmasının mühüm şərtlərindən biri kimi çıxış edir.

**Ulu öndər Heydər Əliyev dövlət rəmzlərinin konstitusiyada təsbitinə nail olduqdan sonra qarşıda daha ciddi, aktual, mili dövlətçiliyimizin inkişafı baxımından perspektivli məsələnin - dövlət atributlarının təbliği və öyrənilməsinə yeni münasibətin formalaşması üçün əməli iş görməyin vacibliyini dərindən duyaraq, bu sahədə ilk olaraq, konstruktiv addımlar atmağa üstünlük verdi, bu məsələdə əsas diqqəti təhsil müəssisələrinə yönəltdi.**

**Ulu öndərin layiqli siyasi varisi prezident İlham Əliyevin dövlət rəmzlərinə yeni baxış, onların təbliği və öyrənilməsinin milli-dövlətçilik, milli təhsil və tərbiyə, mədəniyyət, tarix, milli ideologiya baxımından rolu ilə bağlı ictimai-siyasi, mədəni-ideoloji, strateji, konseptual fikirlərinin böyük bir hissəsi - gənclər, şagirdlər və tələbələrlə görüşlərindəki çıxış və nitqlərində irəli sürülmüşdür.**

**Vahid Ömərov, “Azad Azərbaycan”.-2013.-26 fevral.-№ 28.-S. 5.**

**Parisdə Fransa Milli Assambleyasının binasında Parisdəki Azərbaycan Evinin sədri Mirvari Fətəliyeva və azərbaycanlı tələbə Vüsal Hüseynovun Fransa Milli Assambleyasının üzvü, ermənipərəst mövqeyi ilə tanınan parlamentar Fransua Roşebloun və erməni diasporunun üzvləri tərəfindən vəhşicəsinə döyülmüşdür**

Azərbaycan Respublikası Prezidentinin tövsiyələrinə uyğun olaraq öz fəaliyyətlərini hücum taktikası əsasında quran Azərbaycan diaspor təşkilatlarının son vaxtlar nümayiş etdirdiyi yüksək fəallıq erməni diasporu və lobbisinin də ciddi narahatlığına səbəb olmaqdadır. Fevral ayının 26-da Parisdə Fransa Milli Assambleyasının binasında Parisdəki Azərbaycan Evinin sədri Mirvari Fətəliyeva və azərbaycanlı tələbə Vüsal Hüseynovun Fransa Milli Assambleyasının üzvü, ermənipərəst mövqeyi ilə tanınan parlamentar Fransua Roşebloun və erməni diasporunun üzvləri tərəfindən vəhşicəsinə döyülməsi bunu bir daha təsdiq edir. Qeyd edək ki, fevralın 26-da Fransa Milli Assambleyasında Fransadakı Erməni Məsələləri Bürosunun təşkilatçılığı, Fransadakı erməni icmasının nümayəndələri və Fransa parlamentinin bir neçə deputatının iştirakı ilə "Sumqayıt hadisələrindən 25 il sonra; hazırkı vəziyyət və Dağlıq Qarabağ xalqı üçün gələcək perspektivlər" adlı tədbirdə Azərbaycan diasporu nümayəndələri də iştirak edərək bu gün Xocalı soyqırımının 21-ci ildönümünün keçirildiyini iştirakçıların diqqətinə çatdırıblar. onların bu mövqeyi qarşı tərəfin ciddi etirazına səbəb olsa da, Azərbaycan diasporunun nümayəndələri qətiyyət nümayiş etdirərək Sumqayıtda baş verən hadisələrlə bağlı səsləndirilən fikirlərin heç bir tarixi fakta əsaslanmadığını bildiriblər. Bundan sonra Fransa parlamentinin üzvü Fransua Roşeblounun təhriki ilə Azərbaycan diasporunun rəhbəri və azərbaycanlı tələbəyə hücum edərək onları vəhşicəsinə döyüblər. Qeyd edlək ki, tədbir iştirakçıları. o cümlədən Fransa Parlamentinin toplantıda iştirak edən deputatları bu vəhşildiyin qarşısını aldmaq üçün heç bir cəhd göstərməyiblər.

Qeyd edək ki, Parisdəki Azərbaycan Evinin sədri Mirvari Fətəliyeva Fransadakı Azərbaycan diasporunun ən fəal nümayəndələrindən biri, Avropa Azərbaycanları Konqresinin üzvü, Dünya Azərbaycanlı Gənclər Birliyinnin Mərkəzi Şurasının üzvüdür.

Qeyd edək ki, bir neçə gün öncə Türkiyədə də Xocalı soyqırımı ilə bağlı quraşdırılan stendlər naməlum qrup tərəfindən dağıdılmışdı. Bütün bunlar erməni lobbisi və diasporunun Azərbaycan diaspor təşkilatlarınının fəallaşmasından ciddi narahatlıq keçirdiyini bir daha təsdiqləyir. Dövlət Komitəsinə daxil olmuş məlumatların təhlili göstərir ki, bu cür insidentlərin gələcəkdə də baş verməsi mümkündür. Lakin belə təşəbbüslər Azərbaycan diaspor təşkilatlarının fyəaliyyətini əngəlləyə və Azərbaycanın haqq işi uğrunda mübarizədən çəkindirə bilməz. Hal-hazırda Diasporla Iş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Fransadakı Səfirliyi və digər müvafiq dövlət orqanları ilə birlikdə məsələni araşdırırvə günahkarların Fransa qanunlarına uyğun şəkildə cəzalandırılması istiqamətinldə müvafiq tədbirlərin görülməsinə çalışır.

**28 fevral 2013**

**Dünyanın müxtəlif ölkələrində Xocalı Soyqırımının iyirmi birinci ildönümü ilə bağlı 80-dən çox tədbir keçirilmişdir**

2013-cü ilin fevral ayı ərzində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən dünyanın müxtəlif ölkələrində Xocalı Soyqırımının iyirmi birinci ildönümü ilə bağlı 80-dən çox tədbir keçirilmiş, Soyqırım qurbanlarının xatirəsini yad etmək məqsədi ilə etiraz aksiyaları təşkil edilmiş, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, teleradio kanallarında Xocalı Soyqırımı ilə bağlı materiallara geniş yer verilmişdir.

**Bu ilin fevral ayında** Xocalı Soyqırımının 21-ci ildönümünü Rusiyada yaşayan soydaşlarımız xatirə gecələri ilə qeyd etmişdir. Rusiya Federasiyasının bir çox vilayət və şəhərlərində Azərbaycan diaspor təşkilatları Xocalı qurbanlarının xatirəsinə anım mərasimləri təşkil etmişlər. Qonşu ölkənin **Stavropol**, **Amur**, **Ryazan**, **Perm**, **Murmansk**, **Kostroma**, **Kira**, **Voronej** vilayətlərində, Xantı-Mansiysk Muxtar Diyarında, Çuvaş Respublikasında keçirilən tədbirlərdə Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, iştirakçılara 1992-ci fevralın 25-dən 26-na keçən gecə yaşananlar haqqında məlumat verilmiş, Ermənistan silahlı qüvvələrinin Xocalıda dinc əhaliyə qarşı törətdiyi vəhşiliklər pislənmişdir.

Həmin vilayətlərdə baş tutan tədbirlərdə Xocalı həqiqətlərini əks etdirən sənədli və bədii filmlər nümayiş etdirilmişdir. Anım mərasimlərində yerli hakimiyyət nümayəndələri, Azərbaycan diasporunun nümayəndələri, ziyalılar, iş adamları, gənclər iştirak etmişdir.

**2013-cü il fevralın ayının 19-da** Nyu-Yorkda Kolumbiya Universitetində “Dağlıq Qarabağ: Cinayətlər, qaçqınlar və kollektiv yaddaş” mövzusunda konfrans keçirilmişdir. ABŞ və Kanadada fəaliyyət göstərən Azərbaycan Amerika Şurası və Amerika Azərbaycan Cəmiyyətinin dəstəyi ilə keçirilən tədbir Kolumbiya Universitetində təhsil almış Amerika Azərbaycanlı Gənclər Şəbəkəsinin üzvləri tərəfindən təşkil edilmişdir. Universitetinin beynəlxalq və ictimai münasibətlər kafedrasında təşkil edilmiş tədbirdə amerikalı jurnalist Tomas Qolts mühazirə oxumuşdur. Xocalı hadisələrinin şahidi olmuş Tomas Qolts Amerika ictimaiyyətinə faciə ilə bağlı məlumatları çatdıran ilk jurnalistdir. O,“Azərbaycan gündəliyi” kitabının müəllifidir. Mühazirədən sonra Tomas Qoltsun Xocalı faciəsi haqda çəkdiyi sənədli film nümayiş etdirilmişdir.

**2013-cü il fevral ayının 21-də** ABŞ-ın paytaxtı Vaşinqtonda çap edilən "The Hill" qəzetində bu ölkədə yaşayan həmyerlimiz, ABŞ Azərbaycanlılar Şəbəkəsinin Direktorlar Şurasının həmtəsisçisi və üzvü Adil Bağırovun Xocalı soyqırımına həsr olunmuş geniş məqaləsi dərc olunmuşdur. Yazı “Xocalı faciəsi tanınmağa layiqdir” adı ilə qəzetin “Konqres” bölməsində yer almışdır. Məqalədə amerikalı oxucuya 21 il əvvəl Ermənistan silahlı qüvvələrinin 613 nəfəri bir gecədə qətlə yetirdiyi soyqırım haqda ətraflı məlumat verilmiş və qətliam Avropada ən böyük müharibə cinayəti adlandırılmışdır. Müəllif beynəlxalq media və insan haqları qruplarının müharibə cinayətində hadisələrin detallarını təfərrüatı ilə söyləməsinə baxmayaraq, günahkarların hələ də cəzasız qalmasından narahatlığını bildirmişdir.

**22-26 Fevral 2013-cü il tarixdə** Türkiyənin Eskişəhər şəhərində Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar bir sıra tədbirlər keçirilmişdir. Tədbirlərin məqsədi yerli və beynəlxalq ictimaiyyətə Xocalı soyqırımı haqqında ətraflı məlumat verilmişdir. Tədbirlər çərçivəsində fevralın 22-si saat 13.30-da Anadolu Universiteti Tələbə Mərkəzində əvvəlcə fotosərgi, daha sonra isə “Xocalıda nələr yaşandı?” mövzusunda konfrans keçirilmişdir.

**22 fevral 2013-cü il tarixdə** Avstraliya-Azərbaycan-Türk Dostluq Cəmiyyətinin təşəbbüsü ilə Gelibolu Camisində 3000-dək insanın iştirak etdiyi cümə namazından öncə Xocalı soyqırımı barədə məlumat verilib, Xocalı qurbanlarının ruhuna “Yasin” oxunub və dualar edilmişdir.

**Fevralın 23-ü 2013-cü il tarixində** Paris Azərbaycan Evi Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə Fransa paytaxtında aksiya keçirmişdir. Aksiyaya Yerli ictimaiyyətin də cəlb olunduğu aksiyada “Xocalı uşaqların gözü ilə” mövzusunda rəsm əsərləri nümayiş olunmuşdur.

**Fevralın 23-ü 2013-cü il tarixində** Güney Azərbaycan İstiqlal Partiyasının (GAİP) təşkilatçılığı ilə Xocalı soyqırımının ildönümü ilə əlaqədar Böyük Britaniyada yaşayan azərbaycanlılar Londonda piket və yürüş keçirmişdir.

**2013-cü ilin fevral ayının 23-də** Vaşinqtonda yaşayan azərbaycanlı icmasının nümayəndələri Ermənistanın ABŞ-dakı Səfirliyi qarşısında etiraz aksiyası keçirmişlər. Qeyd edək ki, aksiyanın təşkilatçılarından biri ABŞ Azərbaycanlıları Şəbəkəsidir (USAN).

**Fevralın 24-ü 2013-cü il tarixində** Texas ştatı Nümayəndələr Palatasına Xocalı qətliamının 21-ci ildönümünün anılması haqqında qətnaməni Palatanın üzvü Cin Vu (Gene Wu) təqdim etmişdir. Hyuston şəhərində Azərbaycanlıların Amerika Mədəni Alyansı (AAMA) tərəfindən Xocalı faciəsinin 21-ci ildönümünə həsr olunmuş tədbirdə çıxış edən C.Vu qətliam barədə öyrəndikdə kədərləndiyini və bu kimi faciələrin yenidən təkrarlanmasına yol verilməməsi üçün onları xatırlamağın vacib olduğunu demişdir.

**Fevralın 24-ü 2013-cü il tarixində** İsveçrənin Baden şəhərində " Azərbaycanın Dostları " Birliyi və Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı Səfirliyinin dəstəyi Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar xatirə gecəsi keçirilmişdir. Gecədə Xocalı və bütün Qarabağ şəhidlərinin ruhunun bir dəqiqəlik sükutla yad edilmiş və iştirakçılara Xocalı soyqırımından bəhs edən film nümayiş etdirilmişdir.

**Fevralın 25-i 2013-cü il tarixində** Dnepropetrovsk şəhərində Xocalı soyqrımının 21-ci ildönümü ilə bağlı mətbuat konfransı və anım mərasimi keçirilib. Ukrayna Azərbaycanlı Gənclər Birliyinin və Dnepropetrovsk Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə "Xocalı faciəsi 20-ci əsrin ən amansız soyqrımı aktıdır" devizilə baş tutan mətbuat konfransı baş tutmuşdur.

**Fevralın 25-i 2013-cü il tarixində** Yekaterinburq şəhərində Ümumrusiya Azərbaycan Konqresinin Sverdlovsk Regional "Azərbaycan" təşkilatı Xocalı faciəsinin 21-ci ildönümü münasibətilə "Xocalıya Ədalət" adlı böyük konfrans keçirmişdir. Konfransda Xocalı haqqında sənədli film nümayiş etdirilmişdir. Konfransda Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Baş Konsulu Sultan Qasımov, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin üzvü Natiq Əliyev, Sverdlovsk vilayətinin İnsan hüquqları üzrə müvəkkili Tatyana Merzlyakova, Avropa İttifaqının İnformasiya Mərkəzinin direktoru, Avropa Tədqiqatlar İnstitunun direktoru, Ural Federal Universitetinin profesoru, tarix elmləri doktoru Aleksandr Nesterov, Sverdlovsk Vilayətinin Regional Dumasının deputatı Sergey Çepikov, şəhər Dumasının deputatı İqor Pexotin, Sverdlovsk vilayəti Azərbaycan Gənclər Təşkilatının sədri, Sverdlovskda yaşayıb fəaliyyət göstərən ictimai-siyasi xadimlər, müxtəlif elm ocaqlarının professor-müəllim heyəti, Koreya, Yakutiya, Tacikistan, Başqırdıstan, Gürcüstan, Dağıstandan olan diaspor nümayəndələri, Yekaterinburq Azərbaycan Gənclər Təşkilatının nümayəndələri iştirak etmişlər. Konfransda Ümumrusiya Azərbaycan Konqresinin Sverdlovsk Regional "Azərbaycan" təşkilatının sədri Şahin Şıxlinski və digər iştirakçılar çıxış edərək Xocalı Soyqırımı haqqında məlumat vermiş, beynəlxalq qurumları bu soyqırımı tanımağa çağırmışlar.

**Fevralın 25-i 2013-cü il tarixində** Ukraynanın Xarkov şəhərində təhsil alan azərbaycanlı tələbələr və "Dostluq" mərkəzinin yetirmələrinin iştirakı ilə Xocalı soyqırımının 21ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir. Tədbiri açan Xarkov Dostluq Cəmiyyətinin sədri Murad Ömərov gəncləri Azərbaycan xalqının başına gətirilən faciələri heç vaxt unutmamağa çağırmışdır. İştirakçılar Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Tədbirdə çıxış edənlər Xocalı faciəsini XX əsrin görünməmiş dəhşətli soyqırımı, ermənilərin azərbaycanlılara qarşı apardığı etnik təmizləmə adlandırmış, Xocalı soyqırımına dünya ictimaiyyətinin siyasi və hüquqi qiymət verməsinin vaxtının gəlib çatdığını vurğulamışlar.

**Fevralın 26-da** Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) Murmansk vilayət bölməsi və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) yerli bölməsi Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar matəm tədbiri keçirmişlər. Tədbirdə Azərbaycan icmasının və digər milli icmaların, yerli ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**26 fevral 2013-cü ll tarixində** İzmirdə Xocalı soyqırımı ilə bağlı tədbir keçirilmişdir. Millət vəkili Qənirə Paşayeva İzmirdə Xocalı soyqırımı ilə bağlı tədbirdə iştirak etmişdir. Q.Paşayeva çıxış edərək bildirmişdir ki, bu soyqırımı törədənlər ədalət qarşısında cavab verməlidir. Xocalı soyqırımının bütün insanlığa qarşı edilmiş bir cinayət olduğunu deyən millət vəkili, hər kəsin Azərbaycanı bu mövzuda dəstəkləməli olduğunu qeyd etmişdir. Azərbaycan Kültür və Dayanışma Dərnəyi rəhbəri Turgut Aran, Azərbaycan Öyrəncilər Təmsilçisi Cavid Əliyev, TİMUB başqanı Çingiz Bayramov, Dos.dr. Vəfa Qurban, professor Kamal Arı və başqaları çıxış edərək bu cür tədbirlərin keçirilməsinin vacibliyini qeyd ediblər.

**26 fevral 2013-cü il tarixdə** Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası sədri Bilal Dündar və Federasiyaya bağlı digər idərnəklərin idarə heyəti üzvləri 26 Fevral Xocalı soyqırımının 21-ci ildönümü münasibətilə Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçəklə görüş keçirmişdir. Görüşdə, Azərbaycan Prezident Administrasiyasının İctimai və Siyasi Məsələlər şöbəsinin müdiri Əli Həsənov, Azərbaycan millət vəkilləri Qənirə Paşayeva, Yaqub Mahmudov, Musa Qasımlı, Azərbaycanın Ankaradakı Səfiri Faiq Bağırov, Türkiyə Universitetləri Məzunları İctimai Birliyinin sədri Çingiz Bayramov, Türkiyə Böyük Millət Məclisi millət vəkillərindən Sibel Gönül , Sinan Oğan, Əli Özgündüz, Adnan Yılmaz və Türkiyə Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri Necdət Ünüvar iştirak etmişdir.

**Cari ildə Fevralın 26- da** Haaqadakı Ermənistan Səfirliyinin önündə Xocalı aksiyası keçirilmişdir. Hollandiyada fəaliyyət göstərən "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin, Hollandiya Azərbaycan Türk Mədəniyyət Mərkəzinin və Hollandiya Azərbaycan Gənclər Cəmiyyətinin, o cümlədən Azərbaycanın Hollandiyalı dostu Gert Van Damın birgə təşkilatçılığı ilə keçirilən aksiyada "Xocalıya Ədalət", "Biz sülh və ədalət istəyirik", Sarkisyan - terrorçu" və başqa şüarlar da səslənmiş, əllərində Azərbaycan və Niderland bayraqlarını tutmuşlar. Haaqa Ədalət məhkəməsinin önündən başlayıb Ermənistan səfirliyinin önündə bitən yürüş zamanı yerli sakinlərə Xocalı faciəsi haqqında vərəqələr və kitabçalar paylanılmışdır. Tədbirin sonunda təşkilatçıların hazırladığı bəyanat səsləndirilərək Ermənistan səfirliyinin poçt qutusuna atılmışdır.

**26 Fevral 2013-cü il tarixdə** Türkiyənin Adana şəhərində Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Adana Qardaş Kültür Dərnəklər Topluluğunun birgə təşkilatçılığı ilə "Tarixin işığında Xocalı soyqırımı" mövzusunda konfrans keçirilmişdir. Tədbirdə, professor Əmrulla Məmmədov və Əməkdar incəsənət xadimi, professor Cahangir Novruzov konfrans iştirakçılarına faciə haqqında geniş məlumat vermişdir.

**2013-cü fevral ayının 26-da** Flensburg şəhərinin eyni adlı Universitetində azərbaycanlı tələbələrin təşkilatçılığı ilə XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı Soyqırımının 21-ci ildönümünə həsr olunmuş anma mərasimi keçirilmişdir. Anma mərasimində Flensburg Universitetinin tələbələri və müəllim heyəti iştirak etmişdir. Mərasimdə erməni işğalçı siyasəti nəticəsində Xocalıda baş verən dağıntılar, vəhşiliklər haqda danışılmış, fotomateriallar təqdim olunmuşdur. Daha sonra tədbir iştirakçılarına Xocalı haqqında qısametrajlı film nümayiş etdirilmiş, həmçinin Dağlıq-Qarabağ problemi və onun həll yolları ilə bağlı müzakirə keçirilmişdir. Ermənistanın Azərbaycana qarşı soyqırım törətməsi, beynəlxalq hüququn norma və prinsiplərini, insane hüquq və azadlıqlarını köbudcasına pozması Flensburg Universitetinin hüquq tələbələrinin böyük marağına səbəb olmuşdur, Xocalıya dair case-study hazırlanması barədə ideyalar irəli sürülmüşdür. Tədbir Universitetin kitabxanasında sona çatmış, kitabxanaya Xocalıya həsr olunmuş plakat və bukletlər təqdim edilmişdir.

**2013-cü ilin fevralın 26-da** BAK Haaqadakı Ədalət Məhkəməsinin önündən Ermənistan səfirliyinə doğru yürüş keçirilmişdir.Yürüş zamanı yerli sakinlərə Xocalı faciəsi haqqında vərəqələr və kitabçalar paylanmışdır.

**Fevralın 26-ı 2013-cü il tarixində** Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) Murmansk vilayət bölməsi və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) yerli bölməsi Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar matəm tədbiri keçirmişlər. Tədbirdə Azərbaycan icmasının və digər milli icmaların, yerli ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**Martın 18-i 2013-cü il tarixində** Tennessi ştatının parlamenti Xocalı qətliamını tanımışdır. Pensilvaniya ştatının Assambleyasında isə Xocalı qətliamının tanınması ilə bağlı qətnamə təqdim edilmişdir. Tennessi ştatının Xocalı faciəsinin 21-ci ildönümünün tamam olduğu vaxt qəbul etdiyi qətnamə ştatın qanunvericilik orqanına konqresmen Co Touns tərəfindən təqdim etmişdir. "31 Mart Azərbaycanlıların Soyqırımı" günü xarici ölkələrdə yaşayan həmvətənlərimiz tərəfindən də hüznlə yad edilmişdir. Belə ki, diaspor təşkilatları soyqırım günü ilə əlaqədar müxtəlif formatlı anım mərasimləri keçirmiş, yaşadıqları ölkələrin ictimaiyyətini soyqırım barədə məlumatlandırmağa çalışmışlar.

**Fevral 2013**

**İki azərbaycanlının vəhşicəsində döyülməsi fransız mətbatının diqqətindən yayınmamışdır**

Milli Assambleyada erməni icması və onun bir qrup fransız havadarı tərəfindən keçirilən yığıncaqda "Sumqayıt hadisələri"ndə "həlak" olan ermənilərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi zamanı buna etiraz bildirən və eyni zamanda, Xocalı faciəsi qurbanlarının da xatirəsinin yad edilməsi tələbini irəli sürən iki azərbaycanlının vəhşicəsində döyülməsi fransız mətbatının diqqətindən yayınmamışdır. Ölkənin ən nüfuzlu "Le Fiqaro", "Le Monde" və digər qəzetlərinin səhifələrində, habelə aparıcı Frans Press Agentliyinin saytında bu hadisə barədə geniş məlumat verilmişdir.

"Le Fiqaro" qəzetinin "Ermənistan: Milli Assambleyada toqquşma" sərlövhəli yazısının əvvəlində Milli Assambleyada yığıncaq keçirən ermənilərlə iki azərbaycanlı arasında baş verən hadisəyə Azərbaycanın Fransadakı səfirinin dərhal münasibət bildirməsi diqqət çəkir.

Məqalədə qeyd olunur ki, ermənilər 1988-ci ildə SSRİ dövründə Azərbaycanın Sumqayıt şəhərindəki iğtişaşlar zamanı həlak olan ermənilərin xatirəsini yad etmək məqsədilə fevralın 26-da Milli Asambleyanın binasında yığıncaq keçirmişlər. Həmin yığıncaqda iştirak edən iki azərbaycanlı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi vaxtı 1992-ci ildə ermənilərin Xocalıda törətdikləri soyqırımı qurbanlarının anılmasının təklifi ermənilərin qəzəbinə tuş gəlmişdir. Yazıda səfirin "azərbaycanlı olduqları üçün erməni fəalları tərəfindən möhkəmcə döyülmüşlər" fikrinə istinad edilir. Vəhşiləşmiş ermənilərin əllərindən canlarını birtəhər qurtaran hər iki azərbaycanlı bir qrup deputatın yığıncaq keçirdiyi başqa bir otaqda gizlənə bilmişlər.

Səfirin hadisəni törədənlərin yaxın vaxtlarda məsuliyyətə cəlb olunacağı barədə fikiri də yazıda yer alır. Həmişə xalqımıza ləkə yaxmaq, beynəlxalq aləmin gözündən salmaq üçün dəridən-qabıqdan çıxan ermənilər yenə də öz əməllərinə sadiq qalırlar.

Baş verən hadisəyə münasibət bildirən Fransa ermənilərinin Koordinasiya Şurası bu məsələdə fransızların diqqətini yayındırmaq üçün növbəti böhtana əl atır: heç bir neçə dəqiqə keçməmiş səfir hadisə yerinə gəlmişdir. Bu, Azərbaycanın təxribatıdır" kimi fikrlər qəzetdə verilir.

"Le Monde" qəzetinin "Milli Assambleyada ermənilərlə iki azərbaycanlı arasında vuruşma" başlıqlı yazıda da "Sumatıtda həlak olan ermənilərin xatirəsi yad edilərkən" orada iştirak edən iki azərbaycanlının ayağa qalxmaması ermənilərin qəzəbinə tuş gəlmiş və onlar hər iki azərbaycanlıya hücum edərək müxtəlif bədən xəsarəti yetimələri barədə səfir Elçin Əmirbəyovun fikirlərinə istinad olunur.

Yazıda Müstəqillərin və Demokratların Birliyi Partiyasından deputat seçilən Filip Vijye ermənilər tərəfindən vəhşicəsinə döyülən iki azərbaycanlının partiya sədri Jan-Lui Barloonun rəhbərliyi ilə keçirilən başqa bir zalda sığınacaq tapdıqlarını təsdiq etmiş və bildirmişdir ki, onlar stress və çoxlu zərbələr almış vəziyyətdə idilər. Məqalədə səfirin cinayətkarlar tezliklə tapılaraq ədalət məhkəməsi qarşısında dayanacaqları barədə fikri yer almışdır.

Türkiyəyə və Azərbaycana qarşı daim qərəzli mövqe tutan, böhtan dolu fikirlər söyləməkdən usanmayan, ləğv olunan qondarma "erməni soyqırımı"nı inkar edənlərin bir illik məsuliyyətə cəlb olunması və 45 min avro cərinə ödənməsi kimi qanunun müəllifi, ermənilər tərəfindən ələ alınan Xalq Hərəkatı Birliyi Uğrunda Partiyasından (UMP) deputat seçilən Valeri Boyer hadisəni "Azərbaycan tərəfinin yeni təxribatının teatrı" kimi qələmə verməklə yenə də köhnə şakərinə sadiq qaldığını göstərmişdir.

Senator Natali Qulenin və parlamentin altı üzvünün imzası ilə bu hadisəni pisləyən bəyanatla çıxış etməsi barədə də məqalədə məlumat verilmişdir.

"Milli Assambleyada erməni fəalları ilə iki azərbaycanlı arasında baş verən hadisə" sərlövhəli yazı ölkənin aparıcı Frans Press Agentliyinin saytında da yayımlanmışdır. Yazıda Azərbaycanın Fransadakı səfirinin sözlərinə istinad olunur və bildirilir ki, 1988-ci ildə SSRİ dövründə Azərbaycanın Sumqayıt şəhərində baş verən hadisələr zamanı" həlak olan ermənilərin" xatirəsi Milli Assambleyada yad edilən tədbirin iki azərbaycanlı iştirakçısının ayağa qalxmamasından və Xocalı faciəsi qurbanlarını xatirəsinin də anılması barədə çağırışlar səsləndirdiklərinə görə əsəbiləşən ermənilər onlara qarşı zor tətbiq etmiş və vəhşicəsinə döymüşlər.

Sonda təqsirkarların tezliklə öz cəzalarını alacaqları qeyd olunmuşdur.

**01 mart 2013**

## Parisdəki "Azərbaycan Evi"

*Azərbaycan diasporunun Fransadakı qabaqcıl təşkilatı*

**Hazırda Azərbaycan diasporu ermənilərin ikinci vətəni sayılan Fransada da aktiv şəkildə fəaliyyət göstərir. Rəsmi statistikaya görə, bu gün Fransada ona yaxın Azərbaycan diaspor təşkilatı, cəmiyyət və birliklər mövcuddur ki, bu təşkilatlar da qeyd olunan ölkədə Azərbaycan həqiqətlərinin fəal şəkildə təbliği, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin baş vermə səbəbləri, ermənilərin işğalçılıq siyasəti, həmçinin tarixən azəbaycanlılara qarşı həyata keçirilən deportasiya və soyqırım siyasətinin fransızlara çatdırılması istiqamətində aktiv rol oynayırlar.**

Fransada uğurlu diaspora fəaliyyəti ilə məşğul olan təşkilatlardan biri də Parisdəki "Azərbaycan Evi"dir. Parisdəki "Azərbaycan Evi"nin əsası 1993-cü ildə qoyulmuşdur. Belə ki, keçmiş SSRİ-nin süqutundan sonra Azərbaycan və onun ətrafında baş verən hadisələri olduğu kimi fransız xalqına çatdırmaq məqsədilə Parisdə "Azərbaycan Evi" yaradılıb. 1992-ci ildə Parisdə yaşayan soydaşlarımızdan Timurçin Hacıbəyli, Ramiz Abutalıbov, Vəfa Mustafayev və Huşəng Azərmərd tərəfindən bu istiqamətdə ilk addım atılıb, Nəticədə Fransada qeydiyyatdan keçən ilk Azərbaycan təşkilatı kimi Parisdəki "Azərbaycan Evi" yaradılıb. Təşkilatın yaradıcıları həmin dövrdə Azərbaycanla bağlı bir neçə tədbirin həyata keçirilməsinə müvəffəq olublar. Parisdəki "Azərbaycan Evi"nin o zamankı əsas heyəti Səid İsmayılov, Patrik Desmont, Səməd İsmayılovdan ibarət idi. Parisdəki "Azərbaycan Evi"nin ən görkəmli üzvləri sırasında isə Andre Qadaud, Jean-Pierre Quinhut, Fransa-Qafqaz Cəmiyyətinin prezidenti Ambroise Dupont, fəxri senator Jean Boyer, Aralıq dəniz Avropası prosesinin səlahiyyətli nümayəndəsi, keçmiş səfir Francois Qouyette və keçmiş səfir Roland Blatmanın adları qeyd edilir.. Lakin Parisdəki "Azərbaycan Evi"nin fəaliyyəti o qədər də uzun sürməyib. Belə ki, Parisdəki "Azərbaycan Evi" nin o zamankı sədri Timurçin Hacıbəylinin vəfatı və daha sonra sədr müavini Ramiz Abutalıbovun vətənə qayıtması nəticəsində təşkilat fəaliyyətini dayandırmağa məcbur olub. Lakin sonrakı dövrlərdə Fransada Azərbaycan diasporunun fəaliyyəti tam strukturlaşmadığından və güclü erməni diasporunun ölkəmizə qarşı apardığı böhtan kampaniyalarına ləyaqətli cavab verməkk üçün Parisdə "Azərbaycan Evi" nin fəaliyyətini bərpa etməyin vacibliyi ortaya çıxdı. Nəticədə yerli diaspor nümayəndələrindən ibarət yeni İdarə Heyətinin rəhbərliyi ilə Parisdəki "Azərbaycan Evi"nə yeni bir nəfəs verildi.

Parisdəki "Azərbaycan Evi" Azərbaycan mədəniyyətinin Fransadakı fəal təbliğatçısı kimi xarakterizə edilə bilər. Sözügedən təşkilatın qarşısına qoyduğu başlıca məqsəd Azərbaycan və Fransa arasında mədəni əlaqələrin inkişaf etdirilməsidir. Təşkilatın fəaliyyəti yenidən bərpa olunarkən də onun nizamnaməsində qeyd edilirdi ki, Azərbaycan dili və mədəniyyətinin tanıdılması Parisdəki Azərbaycan Evinin həyata keçirəcəyi layihələrin əsasını təşkil edəcək. Buna müvafıq olaraq Parisdəki Azərbaycan Evi fəaliyyəti müddətində azərbaycanca-fransızca lüğət nəşr edib. Paralel olaraq Parisdəki Azərbaycan Evi 10 illik fəaliyyəti dövründə fransızlar üçün ilk Azərbaycan dili dərsliyinin hazırlanmasında fəal iştirak edib. Həmin vəsaitlərin nəşr edilməsi prosesinin əsas təşkilatçısı isə uzun müddət Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışmış Jean-Pierre Quinhut olmuşdur. Bununla yanaşı Parosdəki "Azərbaycan Evi" Azərbaycanın uzun illər mədəniyyət naziri vəzifəsində çalışmış Polad Bülbüloğlu ilə sıx əməkdaşlıq şəraitində, UNESCO-nun təşkil etdiyi mədəni tədbirlərdə də fəal iştirak etmişdir. Hələ Parisdəki "Azərbaycan Evi" fəaliyyətini bərpa edərkən bu mərkəzə sədr seçilmiş Mirvari Fətəliyeva öz çıxışında bildirmişdi ki, fəaliyyətləri dövründə əsas etibarilə Azərbaycanı fransızlara yaxından tanıtmağa çalışacaqlar. Bu məqsədlə Parisdəki "Azərbaycan Evi" ötən müddət ərzində Parisdə və Fransanın digər şəhərlərində rəsm və fotolardan ibarət sərgilərin, folklor ansambllarının çıxışlarının, Azərbaycan mətbəxinə dair ustad dərslərinin keçirilməsini qarşısına məqsəd qoyub və həmin tədbirləri zaman-zaman həyata keçirib. Bununla yanaşı Parisdəki "Azərbaycan Evi" qarşıdakı illərdə Fransada yaşayan soydaşlarımızın uşaqları üçün "Ana dili" kurslarının açılmasını da planlaşdırır. Bir sözlə, Parisdəki "Azərbaycan Evi" ölkəmizi fransız xalqına yaxından tanıtmaq üçün bütün imkanlardan istifadə edir.

Parisdəki "Azərbaycan Evi" Fransada Azərbaycanın haqq işi uğrunda aktiv mübarizə aparan, ölkəmizin həqiqətlərini fransızlara çatdıran aktiv Azərbaycan diaspor təşkilatlarından birir hesab edilir. Təşkilat hər il öz ənənəsinə sadiq qalaraq Azərbaycan tarixinə qara hərflərlə yazılmış günləri qeyd edir, həmin hadisələr barədə Fransa ictimaiyyəti, həmçinin bu ölkədə yaşayan digər xalqların nümayəndələrini məlumatlandırır. Bir müddət əvvəl isə Ermənistan prezidenti Serj Sarkisyanın Fransa səfərinə etiraz olaraq Parisdəki "Azərbaycan Evi"nin də iştirakçılığı ilə işğalçı dövlətin Parisdəki səfirliyi qarşısında etiraz aksiyası keçirilib. Dünya Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı ilə baş tutan etiraz aksiyasıda təxminən 1500-ə yaxın azərbaycanlı və türk iştirak edib. Aksiyanın məqsədi Azərbaycan torpaqlarının işğalında fəal şəkildə iştirak etmiş, Xocalı soyqırımının təşkilatçılarından olan Ermənistan prezidenti Serj Sarkisyanın Fransaya səfərinə Azərbaycan diasporunun etirazını çatdırmaq olub.

Aksiyada “Qarabağ bizimdir bizim olacaq”! “Yelisey Sarkisyanı Xocalı qatili elan etməkdən imtina edir!”, “Fransa, öz gucünü BMT qətnamələrinin yerinə yetirilməsinə və Azərbaycana qarşı erməni təcavüzünü dayandırmağa yönəlt!”, “Bir milyon azərbaycanlı qaçqınının hüqularını tapdayan cinayətkarSarkisyan!”, “Nanəcib qatil Sarkisyan, Xocalıda günahsız 613 azərbaycanlını öldürdüyünə görə cavab ver!”, “Qatil Sarkisyan, sənin yerin Haaqa Tribunalıdır” və digər şüarlar səsləndirilib.

Azərbaycanın Dövlət Himninin oxunması ilə başlayan aksiyada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı həlak olan azərbaycanlı şəhidlərin xatirəsi yad edilib. Aksiya iştirakçıları Ermənistanın işğalçılıq siyasətinin regionda sülhə və təhlükəsizliyə təhdid olduğunu, dünya birliyinin münaqişəyə ədalətli qiymət verməsini tələb edən şüarlar səsləndiriblər. Aksiyada “Koroğlu” uvertürası və qədim Azərbaycan xalq mahnısı olan “Sarı gəlin” musiqisinin sədaları altında çıxış edən Azərbaycan diasporunun fəalları, tanınmış ictimai xadimlər Ermənistanın təcavüzkar siyasətinə öz etirazlarını bildiriblər. Fransa Azərbaycan Evinin sədri Mirvari Fətəliyeva, Milli Məclisin deputatı Rəfael Hüseynov, Dünya Azərbaycanlı Gənclər Birliyinin sədri Ramin Məmmədov, Dünya Azərbaycanlıları Konqresinin sədri Milli Məclisin deputatı Sabir Rüstəmxanlı, Avropa Azərbaycanlıları Konqresinin prezidenti Samirə Patzer-İsmayılova, Köln Türk Universitetləri Təşkilatının sədri Ləvənt Daşqıran, Hollandiya-Azərbaycan-Türk Kültür Dərnəyinin sədri İlhan Aşqın, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı və digərləri beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə baxmayaraq Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal altında saxlanılmasının beynəlxalq hüquqa etinasızlığının təzahürü kimi qiymətləndiriblər. Çıxış edənlər Xocalı soyqırımı kimi dəhşətli bir cinayətin ssenari müəlliflərindən olan Sarkisyanın ədalət məhkəməsi qarşısında cavab verməli olduğunu vurğulayıblar. Aksiyada Avropada fəaliyyət göstərən Azərbaycan və türk diaspor təşkilatları, o cümlədən Avropa Azərbaycanlıları Konqresi, Fransa Azərbaycan Evi, Azərbaycan Fransız Gənclik Assosiasiyası, İsveçrə Azərbaycanın Dostları Dərnəyi, İspaniya Azərbaycanlıları Cəmiyyəti, Köln Türk Universitetləri Təşkilatı, Fransa Azərbaycanın Dostları Təşkilatı, Belçika Azərbaycanlıları Assosiasiyası, Hollandiya-Azərbaycan-Türk Kültür dərnəyi, Dünya Azərbaycanlıları Konqresi, Köln Azərbaycan Türk Kültür və Dayanışma Dərnəyi, Azəri-Türk Qadınlar Birliyi, Azərbaycan-Belçika Dostluq Cəmiyyəti, Almaniya Türk Federasyonu, Fransa Türk Tələbələr Birliyi, Köln Türk Federasiyası, Strasburq Azərbaycan Tələbələr Birliyi və digər təşkilatlar iştirak edib.

Parisdəki “Azərbaycan Evi” Azərbaycan uğrunda daha fədakarlığı Xocalı soyqırımının ildönümü ərəfəsində nümayiş etdirib. Belə ki, cari ilin 26 fevral tarixində isə Fransa Milli Assambleyasının binasında erməni diaspor təşkilatlarının keçirdiyi tədbir çərçivəsində həmin toplantı salonuna daxil olan Parisdəki “Azərbaycan Evi”nin rəhbəri Mirvari Fətəliyeva və azərbaycanlı tələbə Vüsal Hüseynov ermənilərin azərbaycanlılara və türklərə qarşı törətdikləri soyqırım faktlarını qorxmadan onların üzünü deyib və erməni təbliğatını ifşa etməyə çalışıblar. Lakin haqlı tənqid və iradlara dözümsüzlük nümayiş etdirən Parisdəki "Azərbaycan Evi"-nin rəhbəri Mirvari Fətəliyeva və bu ölkədə təhsil alan azərbaycanlı tələbə Vüsal Hüseynov erməni diasporunun üzvləri tərəfindən vəhşicəsinə döyülmüşdür. Fransa Milli Assambleyasının üzvlərinin gözləri qarşısında baş vermiş hadisəyə onlar tərəfindən heç bir müdaxilə edilməmişdir. Xaricdəki erməni lobbisi və onların havadarları tərəfindən Azərbaycan vətəndaşlarına qarşı zorakılığa yol verilməsi bir daha təsdiqləyir ki, Azərbaycan tərəfinin münaqişə ilə bağlı həqiqətləri beynəlxalq ictimaiyyətə olduğu kimi çatdırması istiqamətindəki fəaliyyəti, eləcə də diasporumuzun ikinci erməni dövləti sayılan Fransadakı aktivliyi ermənilərdə dərin narahatlıq doğurur. Bu kimi zorakılıq hallarına baxmayaraq, Azərbaycanın xaricdəki diplomatik missiyaları və diaspor təşkilatları, Ermənistan tərəfindən xalqımıza qarşı törədilmiş faciələrin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətindəki fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

**Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir**
**“Olaylar”.-2013.-5 mart.-№ 41.-S.10.**

**Fransız mətbuatı fevralın 26-da Milli Assambleyada iki azərbaycanlının ermənilər tərəfindən vəhşicəsinə döyülməsini işıqlandırmaqda davam edir**

Fransız mətbuatı fevralın 26-da Milli Assambleyada iki azərbaycanlının ermənilər tərəfindən vəhşicəsinə döyülməsini işıqlandırmaqda davam edir. Parisdə gündəlik nəşr olunan nüfuzlu "Le Parisien" qəzeti Milli Assambleyada iki azərbaycanlının ermənilər tərəfindən qəddarlıqla döyülməsi ilə bağlı hadisəni "Milli Assambleyada yumruq davasından sonra şikayətlər" başlığı altında dərc etmişdir. Məqalədə bildirilir ki, fevralın 26-da fransız qanunlarının qəbul olunduğu Milli Assambleyada erməni məsələsi üzrə Fransa bürosunun keçirdiyi yığıncaqda ermənilərlə iki azərbaycanlı arasında yumruq davası baş vermişdır.

Fransa Xarici İşlər Nazirliyinin ermənilərin iki azərbaycanlını döyməəri hadisəsini pislədiyi, bununla bağlı nazirliyə saysıq-hesabsız şikayət ərizələrinin daxil olması məqalədə yer almışdır. Hadisədən ətraflı bəhs olunan yazıda qeyd olunur ki, 150 nəfər yığıncaq iştirakçısı "Sumqayıt hadisələri" zamanı "həlak olan ermənilərin" xatirəsini bir dəqiqəlik ayaqüstə sükutla yad etmək təklif olunarkən zaldakı iki azərbaycanlının buna etiraz əlaməti olaraq ayağa durmaması, onların 1992-ci il fevral ayının 26-da erməni hərbçiləri tərəfindən vəhşiliklə qətlə yetirilən Xocalı sakinlərinin xatirəsinin anılması barədə təklifindən qəzəblənən ermənilərin hər iki azərbaycanlını möhkəmcə əzişdirmişlər.

Hadisənin əsas səbəkarlarını gizlətməyə cəhd edən ermənilərin böhtan dolu çıxışlar edərək günahı azərbaycanlılarının üstünə yıxmağa səy göstərmələri, yumruq davasına ilk dəfə gənc azərbaycanlı oğlanın başladığını bildirmələri və bunu Azərbaycan tərəfinin təxribatı kimi qələmə verməyə çalışmaları məqalədə diqqətə çəkilir. Yazıda başqa bir zalda keçirilən yığıncağın iştirakçı deputat Jan-Lui Borloonun ermənilərin əlindən zorla qurtarıb onların zalına girən "hər iki azərbaycanlının stress vəziyyətində olduqları, sifətlərində zərbələrin izinin aydınca göründüyü" barədə fikrinə istinad edilmişdir.

Zərər çəkən azərbaycanlıların vəkil tutduqları, onlardan biri Şarl Morelin təqsirkarların tezliklə tapılaraq məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlardan istifadə edəcəkləri bildirilmişdir. "Direct Matin " qəzetində Milli Assambleyada baş verən hadisə ilə bağlı dərc olunan məqalədə fevralın 26-da Milli Assambleyada iki azərbaycanlı gəncin ermənilərin hücumuna məruz qalmaları, ölkəmizin Fransadakı səfirliyinə istinadən "iki azərbaycanlının ermənilər tərəfindən vəhşicəsinə döyüldüyü" qeyd olunur, səfir Elçin Əmirbəyovun dərhal hadisə yerinə gəldiyi və xəsarət alanlara yardım göstərildiyi barədə qısa məlumat verilir. "Courrier İnternational" da dərc olunan " Milli Assambleyada gənc azərbaycanlı qadına vəhşicəsinə divan tutulma cəhdi" başlıqlı yazıda onlarla kişinin köməksiz qadına əl qaldırması Fransa Respublikasının demokratik prinsiplərinə tamamilə zidd olduğu vurğulanır.

Məqalədə bildirilir ki, 1970-1980-cı illərdə fəallaşan ermənilərin ASALA terror təşkilatı onlarla türk diplomatını, türk mənşəli fransız vətəndaşlarına qarşı terror aktları həyata keçirərək onları qətlə yetirmişlər. Erməni ekstremistlərinə qarşı ictimaiyyətin, xüsusilə kütləvi informasiya vasitələrinin seyrçi münasibətləri bağışlanılmaz haldır. Fransa demokratiyasının sinvolu olan Milli Assambleyada baş verən hadisə qanun çərçivəsində həll edilməli, günahakarlar layiqli cəzalarını almalıdırlar. Fevralın 26-da Milli Assambleyada iki azərbaycanlının erməni vəhşiliyinə məruz qalması "TF-1 NEWS" saytında "Milli Assambleyada ermənilərlə iki azərbaycanlı arasında toqquşma" sərlövhəli yazıda öz əksini tapmışdır.

Məqalədə ermənilərin iki azərbaycanlıya qarşı hərəkətləri pislənir, deputat və senatorların hadisə ilə bağlı fikirlərinə yer verilir. Türkiyəyə və Azərbaycana qarşı həmişə böhtan yağdıqmaqdan usanmayan, Fransa Konstitusiya Məhkəməsi tərəfindən rədd edilən qondarma "erməni soyqırımı"nı inkar edənlərin məsuliyyətə cəlb edilməsi və cərimə ödəməsi barədə üzdəniraq qanunun müəllifi deputat Valeri Boyer bir daha ermənipərəst mpvqeini nümayiş etdirərək baş verən hadisəni Azərbaycan tərəfinin təxribatı adlandırsa, məsələlərə obyektiv yanaşan və daim həqiqəti bildirən senator Natali Qule V. Boyerin fikirlərinə təmamilə etirazını bildirmiş, hadisə zamanı Vüsal Hüseynovun qabırğasının sındığını və Mirvari Fətəliyevanın isə ciddi bədən xəsarəti aldığını vurğulamış, xoşagəlməz hadisənin Milli Assambleyada baş verməsindən təəssüf hissi keçirdiyini qeyd etmişdir. Fransada fəaliyyət göstərən "Vətəndaş sayıqlığı və informasiya kollektivi" təşkilatının orqanında Milli Assambleyada azərbaycanlılara qarşı qəbuledilməz təcavüzü qətiyyətlə pislənilmişdir.

Ermənistan səfirliyi və Erməni Milli Sosialist Partiyası tərəfindən Milli Assambleyada təşkil olunan konfransda iki azərbaycanlının- Mirvari Fətəliyevanın və Vüsal Hüseynovun erməni millətçilərinin zorakı hücumlarına məruz qalmalarından, gənc qadının möhkəm döyülməsindən və gənc oğlanın isə qabırğasının sınmasından ətrafı bəhs olunmuş, onların yığıncaq gedən başqa bir zalda sığınacaq tapdıqları və onlara yardım göstərildiyi yazıda yer almışdır.

Məqalədə həmçinin Ermənistanın Azərbaycan ərazilərini 20 ildən artıq müddətdə işğal altında saxladığı, bu işğalçılıq hərəkəti ilə bağlı BMT kimi beynəlxalq təşkilatın bir neçə qətnamə qəbul etdiyi, işğal edilən ərazilərdə dinc azərbaycanlıları kütləvi şəkildə qətlə yetirməkdə ermənilərin günahkar olmaları xüsusi vurğulanmışdır.

Məqalədə diqqəti cəlb edən bir məqama toxunulur: Dünyanın müxtəlif ölkələrində, o cümlədən Fransada Xocalı soyqırımının və erməni işğalının digər qurbanlarının xatirəsi yad edildiyi gün ermənilərin uydurma “Sumqayıt hadisələri” ilə bağlı konfrans keçirmələrində məqsəd dünyanın onların törətdikləri vəhşiliklərə diqqətini yayındırmaqan ibarət idi. Amma onlar istədiklərinə nail ola bilmədilər.

Yazıda daha sonra qeyd olunur ki, azərbaycanlılara qarşı nifrət dolu aktın demokratiyanın beşiyi hesab edilən Fransada xüsusilə qanunların qəbul edildiyi Milli Assambleyada baş verməsi yolverilməzdir. Vətəndaş sayıqlığı və informasiya kollektivi siyasi təşkilatları hökumətlə birlikdə insanlığa qarşı törədilən bu akta dərhal münasibət bildirməyə çağırır.

**06 mart 2013**

**Azərbaycan diasporu dünyada söz sahibinə çevrilir**

*Xristian təəssübkeşliyi diasporamızın fəaliyyətinə mane ola bilmir*

**Artıq bir sıra ölkələrdə Xocalı faciəsinin soyqırım kimi tanınması faktı reallaşıb. Bu ölkələr sırasında ABŞ-ın 7 ştatı və Avropanın bir neçə ölkəsi var ki, artıq həmin ölkələr Xocalı faciəsinə ədalətli münasibət sərgiləyiblər. Hələ qarşıda bir neçə ölkələrin parlamentinin anoloji qətnamələr qəbul edəcəyinin şahidi olacağıq. Artıq İndoneziya ilə bu istiqamətdə aparılan danışıqlarda müsbət nəticə əldə edilib.**

Xarici ölkələrin parlamentləri tərəfindən belə qətnamələrin qəbul edilməsi deməyə əsas verir ki, bir çox ölkələrin 40-50 ildə keçdiyi yolu biz qısa zamanda keçirik. Etiraf edilməlidir ki, bu uğurların sırasında Azərbaycan dövlətinin çevik xarici siyasəti ilə yanaşı, diaspora təşkilatlarımızın da əməyi danılmazdır.

Bu gün dünyanın dörd bir tərəfinə səpələnmiş, qürbətdə vətən həsrətini köksündə daşıyan 50 milyondan artıq soydaşımızı birləşdirən ən böyük amal müstəqil Azərbaycanın işğal altındakı torpaqlarının azadlığına, həqiqətlərimizin dünyaya çatdırılmasına, erməni yalanlarının ifşasına nail olmaqdır. Aparılan işlərin təhlili göstərir ki, Azərbaycan diasporu qısa müddət ərzində bu sahədə uzun bir yol qət edib. Arxada qalan bu şərəfli dövr ərzində Azərbaycan diasporu ən müxtəlif məsələlərlə bağlı ölkəmizin xeyrinə olan çoxsaylı qətnamələrin çıxarılmasına nail olub. Xüsusilə, Ermənistanın Azərbaycana qarşı təcavüzündən, habelə bu təcavüz zamanı ermənilərin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər, eləcə də Xocalı soyqırımı ilə əlaqədar xeyli işlər görülüb. Hələ 2009-cu il 31 martda Nevada ştatında martın 31-i qubernator tərəfindən “Azərbaycanlıların Soyqırımı Günü”nün anılması tarixi kimi elan edilib; 2010-cu il fevralın 25-də Massaçusets ştatının Nümayəndələr Palatası Xocalı soyqırımının 18-ci ildönümü ilə əlaqədar olaraq, Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul edib; 2011-ci ilin 26 fevralında Texas ştatının Nümayəndələr Palatası da Ermənistan tərəfindən Xocalıda çox ağır cinayət törədilməsi faktını tanıyıb. Həmçinin Nyu-Cersi, Texas, Corciya ştatlarında da Xocalı soyqırımını tanıyan qətnamələr qəbul olunub və indinin özündə də bu proses davam etməkdədir.

Ötən dövr ərzində dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız arasında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, adət-ənənələrimizin yaşadılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də xeyli işlər görülüb. Sirr deyil ki, bütün bunlar diasporumuzun təşkilatlanması və getdikcə daha da güclənməsi sayəsində baş verib. İndi dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan icmaları, mədəniyyət mərkəzləri məhz bu missiyanı üzərlərinə götürərək real işlərlə məşğul olurlar.

Bu gün Azərbaycan diasporu dövlət başçısının çağırışına dəstək olaraq müdafiə diplomatiyasından hücum diplomatiyasına keçib. Təbii ki, qarşıya qoyulan hədəflərə nail olmaq üşün diaspora təşkilatlarının “çəkici bir zindana vurması” zəruri şərtlərdəndir. Təəssüf ki, hələ də diaspora təşkilatları arasında koordinasiya məsələsi arzuolunan səviyyədə deyil. Elə ölkələr var ki, orada fəaliyyət göstərən onlarla icmalar bir-birini tanımır, əlaqəli şəkildə fəaliyyət qura bilmir. Üstəlik mövcud təşkilatların parçalanması müşahidə olunur ki, bu da diasporamızın gücünə mənfi təsir edən amillərdəndir. Lakin ekspertlər belə parçalanmanı təbii hesab edir və hətta onun üstün cəhətlərinin olduğu qənaətindədirlər. Onların sözlərinə görə, belə hallara heç də qeyri-adi proses kimi yanaşma düzgün deyil. Heç bir halda diaspora təşkilatlarının parçalanmasından çəkinməyə dəyməz. Çünki onlar ayrılıqda fəaliyyət göstərsələr də ümumu məqsədləri diaspora ilə bağlıdır. Yəni, ən azından hər bir təşkilat öz ətrafında azərbaycanlıları birləşdirir ki, bu da nəticə etibarilə ümumu məqsəd uğrunda çalışmaq deməkdir. Belə təşkilatlar bütün hallarda çalışırlar ki, soydaşlarımızla vətən arasında körpü rolunu oynasınlar, vətən üçün nə isə etsinlər. Məlumat üçün qeyd edək ki, ermənilərin Amerikada minlərlə diaspora təşkilatları var, lakin ermənilər bunu heç də diasporanın tənəzzülü kimi qəbul etmirlər. Əksinə, bunu bir uğur, formalaşmış təşkilat kimi qələmə verirlər. Belə halda qarşıda duran əsas məsələ diaspora təşkilatlarının koordinasiyasıdır ki, yalnız bu halda güclü, dünyada sözünü deyə bilən təşkilatlar formalaşa bilər. Bu məsələdə dövlətin də çiyninə müəyyən yük düşmüş olur. Yəni, dövlət çalışmalıdır ki, xaricdəki bütün diaspora təşkilatları ilə eyni cəviyyədə münasibət yaratsın, eyni səviyyədə əlaqələr qursun, onların özlərinin problemlərinin həllində dəstək olsun.

Bütün hallarda qətiyyətlə demək olar ki, bu gün diaspora təşkilatlarımız erməni yalanlarının ifşası istiqamətində daha əzmlə çalışmaqda israrlıdır və bu istiqamətdə fəaliyyətdən usanmırlar. Məhz bu məsələdə diaspora təşkilatlarımız birgə çalışır, üstəlik digər xalqların diaspora təşkilatları ilə də əməkdaşlıq edir. Nəzərə almaq lazımdır ki, diaspora o zaman güclü olur ki, qeyri-millətlər də təbliğat işinə cəlb edilir. Artıq bu fəaliyyətin konkret nəticələri göz qabağındadır. Məhz görülən gerçək fəaliyyət nəticəsində bir müddət öncə Almaniya vətəndaşı, yazıçı Rols Kumş Xocalı soyqırımının 20 illiyinə həsr olunmuş kitab yazıb almanca nəşr etdirdi. O da nəzərə alınmalıdır ki, Azərbaycan diasporu hələ gəncdir, bir sıra xalqların yüz illərdən bəri formalaşmış diaspora təşkilatları səviyyəsinə yetmək üçün xeyli işlər görülməlidir.

Elə bunun nəticəsidir ki, erməni diasporu bir qayda olaraq Ermənistana, hətta Dağlıq Qarabağda kök salmış separatçılara yardım göstərdiyi halda Azərbaycan diasporu Bakıdan dəstək gözləyir. Çünki, erməni diaspora təşkilatlarının həm maddi, həm də təşkilati cəhətdən imkanları həddən artıq böyükdür. Dünyanın ayrı-ayrı xristian dairələrində erməni təəssübkeşliyi güclüdür və bu təəssübkeşlik də onlara əlavə güc verir. Elə bu səbəbdən erməni lobbisi dünyanın müxtəlif ölkələrində ayrı-ayrı media orqanlarını, ictimai-siyasi xadimləri öz təsirləri altına sala bilirlər. Azərbaycan diasporunun təşəkkülü, formalaşması və inkişaf tarixi isə bilavasitə xalqın mühacirət tarixi ilə bağlıdır. Azərbaycanlıların xarici ölkələrə mühacirəti tarixən qədim köklərə malik olsa da, sistemli şəkildə bu proses XIX əsrin birinci yarısındakı siyasi-hərbi münaqişələr, İran-Rusiya müharibələri, Qafqaz regionundakı məcburi miqrasiya prosesləri ilə bağlıdır.

1828-ci il Türkmənçay müqaviləsindən sonra tarixi Azərbaycan ərazilərinin Araz çayı boyunca iki yerə parçalanması, Şimali Azərbaycan xanlıqlarının Çar Rusiyası təbəəliyini qəbul edərək vahid inzibati-ərazi bölgüsü halında birləşməsi bir tərəfdən xalqın təmərküzləşməsi prosesinə təkan vermişdisə, digər tərəfdən çarizmin siyasətindən narazı qalanların xarici ölkələrə kütləvi mühacirəti ilə nəticələnmişdir. Azərbaycan Respublikası da daxil olmaqla dünyanın 70-dək ölkəsində təqribən 50 milyona yaxın azərbaycanlı yaşayır. Tarixi ərazilərində yaşayan, hər hansı mühacirət faktı baş vermədən, yalnız müəyyən ictimai-siyasi hadisələrin gedişində yaranan sərhəd dəyişmələri nəticəsində xarici ölkə vətəndaşlarına çevrilmiş həmvətənlər - İranda, Gürcüstan və Rusiya Federasiyasının Azərbaycanla həmsərhəd rayonlarında yaşayan etnik azərbaycanlılar diaspor hesab olunmur. 2004-cü il aprel ayının 17-də Almaniyanın paytaxtı Berlində "Avropa Azərbaycanlıları Konqresi"nin (AAK) təsis edilməsi müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində əhəmiyyətli hadisə oldu. Dünyanın 28 ölkəsində 50-dən artıq diaspor təşkilatı - Rusiya, Ukrayna, Belarus, Moldova, İsveç, İsveçrə, Norveç, Danimarka, Fransa, Hollandiya, Avstriya, Bolqarıstan, Rumıniya, Macarıstan, Belçika, Finlandiya və Almaniyadakı Azərbaycan icmaları AAK- ın kollektiv üzvləridir. Regionda azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi- hüquqi maraqlarını təmin etmək konqresin əsas vəzifələrindəndir. AAK-ın fəaliyyət sahələrindən biri də Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi-tədqiqat işlərini dəstəkləmək, fondlar, tədqiqat institutları, kitabxanalar və arxivlər təsis etməkdir. Təşkilat Avropada, MDB-də və digər regionlarda fəaliyyət göstərən diaspor qurumları ilə əməkdaşlıq edir.

Ekspertlər hesab edir ki, Azərbaycan diasporunun mütəşəkkil şəkildə formalaşması üçün indiki mərhələdə ona yardım göstərmək zəruridir. Bu işdə iş adamları, imkanlı şəxslər diaspora quruculuğu işinə cəlb olunmalıdır ki, prespektivdə diasporumuz dövlətin maddi köməyinə ehtiyac duymasın. Onu da qeyd edək ki, Azərbaycan diasporunun bir əsr tarixi olan erməni lobbisi qədər söz sahibi olmasa da onlar qarşısında dirəniş göstərir. Ancaq hesab olunur ki, Azərbaycan diasporu yeni yarandığı, ilk addımlarını atdığı, gənc olduğu üçün hələlik ona dəstək lazımdır. Lakin qətiyyətlə demək olar ki, vaxt gələcək Azərbaycan diasporu o qədər güclü olacaq ki, min illərlə tarixi olan diaspora təşkilatları onunla hesablaşmalı olacaq. Necə ki, vaxtilə bizə çox çətin görünən diaspora fəaliyyəti indi gündəlik həyat tərzimizə çevrilib. Xaricdə yaşayan soydaşlarımız artıq özlərini yaşadıqları ölkənin ictimai-siyasi mühitinin bir parçası hesab edir və o ölkənin vətəndaşı olduqlarını hiss edirlər. Həmin ölkələrdə Azərbaycan diasporu artıq təşkilatlanıb və bu gün daha yaxşı təşkilatlanmadan söhbət gedir. Son illər fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi və mədəni həyatında Azərbaycan cəmiyyətlərinin fəal iştirak etmələri diaspor quruculuğu işinin ən mühüm istiqamətlərindən biridir. Bir sıra ölkələrin qanunvericilik, icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarında təmsil olunmaları, kompakt yaşadıqları ərazilərdə Bazar günü məktəblərinin açılması, müxtəlif icma və birliklərin nəzdində 27 qəzet, 10 jurnal, 3 radio və 1 televiziyanın fəaliyyət göstərməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif tədbirlərin təşkil edilməsi Azərbaycan diasporu nümayəndələrinin ictimai-siyasi fəallığının artmasının göstəricisidir.

**Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir**
**"Olaylar".-2013.-7 mart.-№ 43.-S.10.**

**Frankfurt şəhərində “Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr” mövzusunda diaspor nümayəndələrinin müşavirəsi keçirilmişdir**

Martın 8-i 2013 –cü il tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) dəstəyi və Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Frankfurt şəhərində “Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr” mövzusunda diaspor nümayəndələrinin müşavirəsi keçirilmişdir.

Görüşdə Fransa Milli Assambleyasının binasında Azərbaycan diasporunun fəallarının erməni icmasının üzvləri tərəfindən hücuma məruz qalması faktı da ətraflı müzakirə olunmuşdur. Müzakirələrin nəticəsi olaraq Fransa Milli Assambleyasına müraciət və Avropa Azərbaycanlıları Konqresinin bəyanatı qəbul olunmuşdur.

**08 mart 2013**

## Londonda City Universitetinin Azərbaycan cəmiyyətinin təşkilatçılığı ilə "Azərbaycanın keçmişi, bu günü və gələcəyi" adlı konfrans keçirilmişdir

Londonda City Universitetinin Azərbaycan cəmiyyətinin təşkilatçılığı ilə "Azərbaycanın keçmişi, bu günü və gələcəyi" adlı konfrans keçirilmişdir. AzərTAc xəbər verir ki, tədbirdə ölkəmizin Böyük Britaniyadakı səfirliyinin əməkdaşları, bu ölkədə fəaliyyət göstərən Azərbaycan təşkilatlarının nümayəndələri, müxtəlif universitetlərdən tələbələr iştirak etmişlər. Tədbiri açan Cəmiyyətin sədri Aysəba Umutlu tədbirin məqsədindən danışmış ölkəmizi beynəlxalq aləmdə tanıtmağın əhəmiyyətini vurğulamışdır.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Fəxrəddin Qurbanov ölkəmizin tarixinə nəzər salmış, əldə edilən uğurlardan və xüsusilə son illərdəki nailiyyətlərdən danışmışdır. Müstəqillik tariximizdən bəhs edən səfir vurğulamışdır ki, Azərbaycanın yeni müstəqillik dövrü tariximizin ən parlaq və şanlı səhifələridir. Bu müddətdə ölkəmizin keçdiyi inkişaf yolu, qazandığı nailiyyətlər isə Azərbaycanın müstəqilliyinin əbədiliyinə möhkəm, sarsılmaz təməl yaratmışdır. İyirmi iki il ərzində Azərbaycan böyük bir intibah məsafəsini qət edərək, digər xalqların əldə etdiyi nailiyyətləri tarix üçün çox qısa sayılacaq zaman kəsiyində əldə edə bilmişdir. Bildirilmişdir ki, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ulu öndər Heydər Əliyevin dövlət quruculuğu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının apardığı uğurlu siyasət nəticəsində Azərbaycan regionun aparıcı ölkəsinə çevrilmişdir. Ölkəmizin iqtisadi uğurları haqqında məlumat verən diplomat, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini nümunə göstərmiş, ümumdaxili və adambaşına düşən məhsul istehsalının həcmində və başqa iqtisadi göstəricilərdəki artımdan danışmışdır. Ölkəmizin beynəlxalq aləmdə əldə etdiyi uğurlara da toxunan F.Qurbanov, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini və bir sıra beynəlxalq təşkilatlarda iştirakını, qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsini iştirakçıların diqqətinə çatdırmışdır.

Avropa Azərbaycan Cəmiyyətinin media bölməsinin rəhbəri Emil Ağazadə iştirakçılara ölkəmizin strateji əhəmiyyəti, qonşu xalqlarla olan münasibətlərimiz və neft sektorunun tarixi inkişafı haqqında ətraflı məlumat vermişdir. Tarix boyunca üzləşdiyimiz çətinliklərdən və əldə etdiyimiz nailiyyətlərdən danışan E.Ağazadə ölkəmizin bundan sonra daha sürətlə inkişaf edəcəyinə əminliyini ifadə etmişdir.

Azərbaycan haqqında kitabın müəllifi, yazıçı və səyyah Mark Elliott təqdimatla çıxış edərək ölkəmizi ziyarət etdikdən sonra mədəniyyətimiz və tariximiz haqqında əldə etdiyi maraqlı məlumatları iştirakçılarla bölüşmüşdür. Universitetin azərbaycanlı tələbəsi Aqşin Şahbazzadə təqdimatla çıxış edərək Azərbaycan iqtisadiyyatının inkişaf tarixi və əldə etdiyi iqtisadi uğurlar haqqında iştirakçıları məlumatlandırmışdır. Tədbirdə tariximiz, mədəniyyətimiz və milli adət ənənələrimizdən bəhs edən videomaterial nümayiş etdirilmişdir.
Sonda iştirakçıların sualları cavablandırılmışdır.

**13 mart 2013**

**Novruz bayramı münasibətilə Rusiyanın Saratov şəhərində müsəlman diasporlarının komandaları arasında mini futbol üzrə ənənəvi turnir keçirilmişdir**

Novruz bayramı münasibətilə Rusiyanın Saratov şəhərində müsəlman diasporlarının komandaları arasında mini futbol üzrə ənənəvi turnir keçirilmişdir. Turnirin təşkilatçıları Saratov vilayəti Müsəlmanlarının Dini İdarəsi, Saratov vilayəti Milli Mədəniyyət Birlikləri Assosiasiyası, Saratov vilayətinin diaspor təşkilatlarıdır.

Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) vilayət şöbəsini turnirdə bu yarışın keçənilki qaliblərindən və kubok sahiblərindən ibarət komanda təmsil etmişdir. Turnirdə həmçinin qazax, tatar, çeçen, Dağıstan diasporlarının, habelə Saratov və Engels şəhərləri mədrəsələrinin kollektivləri təmsil olunmuşlar.

AzərTAc xəbər verir ki, qrup turniri gedişində Azərbaycan komandası gözəl oyun nümayiş etdirmiş, böyük hesabla iki qələbə qazanmış və yarımfinala çıxmışdır. Yarımfinalda onu təcrübəli futbolçulardan ibarət tatar komandası ilə görüş gözləyirdi. Görüşün əvvəlindən gərgin mübarizə getsə də, oyun Azərbaycan komandasının qəti qələbəsi ilə başa çatmışdır.

Birinci yer uğrunda mübarizədə bizim saratovlu oğlanları daha bir ciddi rəqib–Qazax diasporunun komandası gözləyirdi. Final oyunu gərgin, kəskin mübarizə şəraitində keçmiş, amma həmin gün uğur qazax futbolçularının tərəfində olmuşdur. Nəticədə onlar kubok qazanaraq turnirdə qələbəni bayram etmişlər.

ÜAK-ın regional Saratov şöbəsinin sədri Vladimir Muradov azərbaycanlı futbolçuları kədərlənməməyə çağıraraq qeyd etmişdir ki, belə turnirlərdə hər şeydən əvvəl dostluq qalib gəlir və turnirdə ikinci yer də əla nəticədir.

Mükafatlandırma mərasimində Saratovdakı "Şeyx Səid" mədrəsəsinin direktoru Rasim Kuzyaxmetov demişdir ki, turnirin başlıca yekunu onun zədəsiz, münaqişəsiz, maraqlı idman mübarizəsində keçərək Saratov vilayətində yaşayan müxtəlif millətlərdən olan müsəlmanları bir-birinə daha da yaxınlaşdırmasıdır.

Saratov vilayəti milli birliklərinin liderləri tezliklə Mordvada müsəlman komandaları arasında keçiriləcək Rusiya Federasiyasının Volqaboyu birinciliyində iştirak etmək üçün yığma komanda yaratmaq barədə razılığa gəlmişlər. Şübhəsiz, yığma komandanın tərkibində Azərbaycan futbolçuları, məsələn, turnirin ən yaxşı futbolçusu kimi tanınmış Anar Məmmədov da olacaqdır.

**14 mart 2013**

**London School of Economics" Universitetində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin təşkilatçılığı və Böyük Britaniyadakı səfirliyimizin dəstəyi ilə Novruz bayramı ilə əlaqədar nümayiş keçirilmişdir**

"London School of Economics" Universitetində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin təşkilatçılığı və Böyük Britaniyadakı səfirliyimizin dəstəyi ilə Novruz bayramı ilə əlaqədar nümayiş keçirilmişdir. AzərTAc xəbər verir ki, tədbirdə Novruz təamları ilə bəzədilmiş stol açılmış, milli geyimlərimiz və ornamentlərimiz nümayiş olunmuşdur.

Maraqlananlara Novruzun adət-ənənələri və mədəniyyətimiz haqqında ətraflı məlumat verilmişdir. Milli geyimli qızlar Novruz xonçası, paxlava, şəkərbura haqqında qonaqlara məlumat vermiş, onları bu təamları dadmağa dəvət etmişlər. Tədbirin təşkilində universitetin azərbaycanlı tələbələri Kubra Əliyeva, Nərmin Məmmədli, Anna Məmmədova, Yusif Yusifli, Həmid Rəhimov və Əsəd Hüseynov iştirak etmişlər.

**14 mart 2013**

**Frankfurt şəhərində "Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr" mövzusunda diaspor nümayəndələrinin müşavirəsində Avropa Azərbaycanlıarı Konqresinin bəyanatı qəbul olunub**

Martın 8-də Diasparla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avrapa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Frankfurt şəhərində "Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr" mövzusunda diaspor nümayəndələrinin müşavirəsində Avropa Azərbaycanlıarı Konqresinin bəyanatı qəbul olunub. Bəyanatda qeyd olunur ki, Azərbaycan Respublikasında yürüdülən uğurlu xarici və daxili siyasət, həyata keçirilən islahatlar və irimiqyaslı layihələr əsasında iqtisadi və sosial-siyasi sahələrdə sürətli inkişafa nail olunmuşdur. Sənəddə bu uğurların diaspor quruculuğu işinə də müsbət təsir göstərdiyi, ötən dövrdə Azərbaycan diasporunun güclənməsinə xidmət edən bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirildiyi vurğulanmışdır.

Bəyanatda Azərbaycanın daxili siysətinə aid məsələlərin xarici ölkələrdə yaşayan bəzi soydaşlarımız tərəfindən müzakirə obyektinə çevrilməsindən də narahatlıq ifadə olunmuşdur. "Lakin bəzən Azərbaycanın daxili siyasəti ilə bağlı məsələləri ölkənin hüdudlarından kənara çıxarmağa çalışan, məqsədi və məramı aydın olmayan diaspor təşkilatları bütöv Azərbaycan diasporunun parlaq fəaliyyətinə kölgə salmağa çalışır. Bu cür təşəbbüslər Azərbaycan dövlətçiliyinə və ölkəmizin milli maraqlarına ziddir və belə cəhdlərin perspektivi yoxdur".

Bəyanatda qeyd olunur ki, xaricdə yaşayan azərbaycanlıların mütləq əksəriyyəti Azərbaycanın tutduğu yolun düzgün və uğurlu olduğuna inanır: "Biz inanırıq ki, bu il keçiriləcək Prezident seçkiləri, Azərbaycanda demokratiyanın inkişafına xidmət edən tarixi proses kimi yadda qalacaq və xalqımız bu dəfə də düzgün seçim edərək, ölkənini iqtisadi inkişafı, dünya birliyinə inteqrasiyası, regionda və beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi istiqamatində böyük naiilyyətlərə imza atmış cənab İlham Əliyevin namizədliyini dəstəkləyəcəkdir. Biz bu siyasətin müasir dövrün mürəkkəb geosiyasi və qlobal iqtisadi şərtləri fonunda Azərbaycanın alternativsiz inkişaf yolu olduğuna qəti şəkildə əmin olduğumuzu xüsusi vurğulamaq istəyirik".

**14 mart 2013**

**Britaniyanın Aberdin Universitetində Azərbaycan cəmiyyətinin təşkilatçılığı və Böyük Britaniyadakı səfirliyimizin dəstəyi ilə Novruz şənliyi keçirilmişdir**

Britaniyanın Aberdin Universitetində Azərbaycan cəmiyyətinin təşkilatçılığı və Böyük Britaniyadakı səfirliyimizin dəstəyi ilə Novruz şənliyi keçirilmişdir. AzərTAc xəbər verir ki, tədbirdə müxtəlif ölkələrdən 100-dən artıq qonaq iştirak etmişdir. Universitetin Azərbaycan cəmiyyətinin sədri Nigar Dadaşzadə Novruz bayramının yaranma tarixindən və əhımiyyətindən danışmışdır. Universitetin azərbaycanlı tələbəsi Fuad Sultanov çıxış edərək Novruz adət və ənənələri haqqında iştirakçılara ətraflı məlumat vermişdir.

Tədbirdə həmçinin qonaqlara ölkəmizin mədəniyyətini və tarixini əks etdirən suvenirlər, ingilis dilində nəşr edilmiş "Əli və Nino" kitabı hədiyyə olunmuşdur. Proqram çərçivəsində azərbaycanlı tələbələr tərəfindən nümayiş etdirilən milli rəqslərimiz və xorla ifa olunan "Ey həyat sən nə qəribəsən" mahnısı iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Qonaqlar Azərbaycanın milli yeməkləri-plov, dolma, eləcə də şəkərbura, paxlava, qoğal və digər Novruz təamlarından dadmağa dəvət olunmuşlar. Sonda xarici qonaqlarla birgə "Yalli" rəqsi oynanılmışdır. Aberdin Universiteti Cəmiyyətləri Birliyinin prezidenti Emma Karlen sosyal şəbəkələrdə tədbirin çox yaxşı təşkil edildiyini bildirmiş, Azərbaycan cəmiyyəti üzvlərini bu uğurlarına görə təbrik etmişdir.

**17 mart 2013**

## İstanbul Türkiyə Azərbaycan Dərnəyi Maltepe Saylan Kültür Mərkəzində möhtəşəm Novruz şənliyi təşkil edib

İstanbul Türkiyə Azərbaycan Dərnəyi Maltepe Saylan Kültür Mərkəzində möhtəşəm Novruz şənliyi təşkil edib. 600 nəfərlik Türkan Saylan Kültür Mərkəzində yer tapa bilməyən bəzi qonaqlar pilləkənlərdə oturaraq proqramı izləyiblər. Türkiyə və Azərbaycan himnlərinin oxunması ilə başlayan proqramda Çanaqqala şəhidləri də unudulmayıb. Dərnəyin gənclər təşkilatının hazırladığı "Canaqqala keçilməz" adlı tamaşa izləyiciləri duyğulandırıb. Çox sayda yerli sənətçinin öz çıxışı ilə rəng qatdığı proqramda Azərbaycanın tanınmış müğənnisi Brilyant Dadaşova da iştirak edib. Novruz tədbirləri çərçivəsində zalda simvolik ocaq qalanıb, yumurta döyüşdürülüb, səməni gəzdirilib, üzərlik yandırılıb.

Metin Yıldırımın aparıcılıq etdiyi şənlikdə İstanbul Türkiyə Azərbaycan Dərnəyinin sədri Səfər Qaraqoyunlu söz alaraq iştirakçıları Novruz bayramı münasibətilə təbrik edib: "Beş min ildir Türk dünyasında qeyd edilən Novruz bayramı dostluğun, qardaşlığın və yeni günün rəmzidir. Novruz eyni zamanda türk dünyasının milli bayramıdır. Bu gün eyni zamanda Çanaqqala müharibəsindəki qələbədən 98-ci il keçir. Bu münasibətlə dünyanın müxtəlif yerlərində Türk kimliyi uğrunda şəhid olan soydaşlarımızı hörmətlə anır və Allahdan rəhmət diləyirik".

Gecədə iştirak edən Maltepe Bələdiyyə sədrinə, Azərbaycan və Türkiyədən olan sənətçilərə, maliyyə dəstəyi göstərənlərə və proqramın təşkilində zəhməti olan hər kəsə təşəkkür edən Səfər Qaraqoyunlu deyib ki, "məqsədimiz milli kimliyimizi qoruyaraq, adət-ənənələrimiz yaşatmaq və onu gələcək nəsillərə ötürməkdir".

Bayram şənliyində iştirak edən Azərbaycanın İstanbuldakı baş konsulu Həsən Zeynalov iştirakçıları təbrik edərək onların diqqətini Qarabağ məsələsinə yönəldib: "Türk dünyasının birgə hərəkəti ilə Qarabağı düşmən işğalından qurtara bilərik".

Novruz bayramı ilə bağlı çıxış edən Maltepe Bələdiyyə sədrinin müavini Nimet Karabulut bu qədər say-seçmə insanı burada qarşılamaqdan qürur duyduqlarını dilə gətirib: "Novruz bayramı belə qeyd edilər. Qardaşlıq, dostluq və birliyimizin sonsuza qədər sürməsini arzu edirəm".

Bayram proqramı iştirakçılara xatirə hədiyyələrinin təqdimatı ilə başa çatıb.

**17 mart 2013**

**Azərbaycan Respublikasının Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzinin binasında Paris və Paris ətrafı şəhərlərdə yaşayan azərbaycanlı uşaqlar üçün ilk Azərbaycan dili dərslərini təşkil edib**

Paris Azərbaycan Evinin uzun müddətdir üzərində işlədiyi layihə nəhayət reallaşıb. Martın 17-də təşkilat Azərbaycan Respublikasının Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzinin binasında Paris və Paris ətrafı şəhərlərdə yaşayan azərbaycanlı uşaqlar üçün ilk Azərbaycan dili dərslərini təşkil edib.

Paris Azərbaycan Evinin sədri Mirvari Fətəliyeva uşaqları və valideynləri salamladıqdan sonra Azərbaycan dili dərslərinin tədrisi və dərs proqramı haqqında məlumat verib. Mirvari Fətəliyeva eyni zamanda Azərbaycan dili dərslərinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, Fransada doğulub böyümüş azərbaycanlı uşaqlarının gələcəkdə milli mənsubiyyət problemlərinin yaranmaması üçün həftəsonu tədris edilən bu dərslərinin rolu çox böyükdür.

Həftəsonu dərsləri 4 yaşından 13 yaşadək uşaqlar üçün nəzərdə tutulub. Şagirdlər yaş və dil səviyyəsinə görə iki sinfə ayrılacaq. Təmənnasız tədris edilən Azərbaycan dili dərsini Azərbaycan Evinin təhsil işləri üzrə məsləhətçisi Aygün Əyyubova və Azərbaycan Evinin incəsənət işləri üzrə məsləhətçisi Mehri Quliyeva aparacaq.

Tədris proqramında Azərbaycan haqqında ümumi məlumat, onun tarixi, coğrafiyası, mədəniyyəti, incəsənəti kimi mövzular cəmləşdirilib. Novruz bayramına həsr olunmuş ilk dərsdə həm də şagirdlərə dərslik və dərs ləvazimatları paylanılıb. Uşaqların böyük maraqla qarşıladığı ilk dərs günü uğurla yekunlaşıb.

Qeyd edək ki, bu layihənin həyata keçirilməsi Parisdə yaşayan uşaqların həyatında çox mühüm rol oynayacaq.

**17 mart 2013**

**Almaniyada fəaliyyət göstərən “Almaniya Azərbaycanlı Gənclər Birliyi” 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar BMT-nin Baş Katibi Pan Ki-Moona ünvanlanan bəyanat qəbul edib**

Almaniyada fəaliyyət göstərən “Almaniya Azərbaycanlı Gənclər Birliyi” 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar BMT-nin Baş Katibi Pan Ki-Moona ünvanlanan bəyanat qəbul edib. Bəyanatda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi aramsız soyqırım və deportasiya siyasəti, 1918-1920-ci illərdə Azərbaycan xalqını yer üzündən silmək niyyəti ilə törətdiyi qırğınlar – 700 mindən çox insanın amansızlıqla qətlə yetirilməsi, bütöv şəhər və kəndlərin talan edilməsi haqqında məlumat verilir. “Almaniya Azərbaycanlı Gənclər Birliyi” BMT və Beynəlxalq təşkilatları bu soyqırım faktına göz yummamağa, ikili standartlara yol vermədən Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə çağırır.

Bəyanatda həmçinin bu qurumlardan ədalətin tezliklə öz yerini tapması, soyqırımı dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunması, Azərbaycanın ərazi bütövlüyünün, qaçqın və məcburi köçkünlərin kütləvi şəkildə pozulmuş hüquqlarının bərpası, əsir və girovlar azad olunması tələb edilir.

**18 mart 2013**

## Ukraynanın Xarkov vilayətində yaşayan azərbaycanlılar Novruz bayramını qeyd etmək üçün bir araya gəlib

Ukraynanın Xarkov vilayətində yaşayan azərbaycanlılar Novruz bayramını qeyd etmək üçün bir araya gəlib. "Dostluq" Azərbaycan-Ukrayna Dostluq Cəmiyyətinin Xarkov vilayət bölməsinin təşkil etdiyi bayram tədbirində soydaşlarımızla yanaşı, yerli icra orqanlarının, ictimaiyyətin təmsilçiləri və qonaqlar da iştirak edib. Tədbiri Azərbaycan-Ukrayna Dostluq Cəmiyyətinin sədri, texnika elmləri namizədi, professor Murad Öмərov açaraq hamının bayramını təbrik edib və arzularını çatdırıb. Tədbirdə iştirak edən Xarkov şəhərinin rəsmiləri də toplaşanların Novruz bayramını təbrik edib, "Dostluq" Cəmiyyətinə regiondakı fəal roluna görə təşəkkür ediblər.

Tədbirdə Azərbaycanın milli nemətləri və Novruz atributları ilə bəzədilmiş süfrə də açılıb. Bayram şənliyinin əsas bəzəyi isə Cəmiyyətin "Azərbaycan inciləri" rəqs kollektivinin Azərbaycanın və Ukraynanın milli rəqslərini ifa etməsi olub.

Bayram şənliyinin ab-havası qonaqlara Novruz bayramının xüsusiyyətləri, eləcə də Azərbaycan xalqının qədim ənənələri ilə tanış olmaq imkanı verib. Qeyd edək ki, keçirilən bayram tədbiri yerli qəzetdə ("Xarkovckiye izvestiya", 19 mart 2013) və telekanalda ("Xarkovskiye izvestiya", 19 və 20 mart 2013) işıqlandırılıb.

**19 mart 2013**

**Azərbaycan Diasporunun Almaniyadakı Mərkəzi Şurası 31 Mart soyqırımı ilə əlaqədar Almaniya Bundestaqının spikeri, professor Norbert Lammert-e ünvanlanmış bəyanat qəbul edib**

Azərbaycan Diasporunun Almaniyadakı Mərkəzi Şurası 31 Mart soyqırımı ilə əlaqədar Almaniya Bundestaqının spikeri, professor Norbert Lammert-e ünvanlanmış bəyanat qəbul edib.

Bəyanatda 1918-ci ilin mart-aprel aylarında ermənilərin Azərbaycanın bir çox şəhərlərində törətdiyi qırğınlar, kütləvi və amansız qətllər, 700 mindən çox insanın öldürülməsi haqqında məlumat verilir, ermənilərin azərbaycanlılara qarşı bir əsrdir həyata keçirdiyi soyqırım və deportasiya siyasəti pislənilir.

Bəyanatda deyilir ki, 31 mart soyqırımı insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması ilə müşayiət olunur və Almaniya dövləti, dünya ictimaiyyəti, beynəlxalq qurumlar Azərbaycanın haqlı tələblərini dəstəkləməli, insanlığa qarşı törədilən bu qatı cinayət genosid aktı kimi tezliklə beynəlxalq hüquqi qiymətini almalı və cinayətkarlar cəzasız qalmamalıdırlar.

**19 mart 2013**

### İtaliyanın paytaxtı Roma şəhərində Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun (ASAİF) növbəti – Roma forumu işə başlamışdır

Martın 28-də İtaliyanın paytaxtı Roma şəhərində Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun (ASAİF) növbəti–Roma forumu işə başlamışdır. "Azərbaycan 2020. Gənclərin baxışı" başlığı altında keçirilən forumun açılışında Azərbaycan və İtaliyanın dövlət himnləri səsləndirilmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ASAİF-in Roma forumunun iştirakçılarına ünvanlanmış təbrik məktubu oxunmuşdur.

Tədbiri giriş nitqi ilə ASAİF-in sədri Ramin Həkimov açmışdır. Azərbaycan tarixində gənclərin sistemli şəkildə xaricdə təhsil almasının əsasının hələ 1918-1920-ci illərdə 100 gəncin Avropaya göndərilməsi ilə qoyulduğunu qeyd edən R.Həkimov daha böyük dalğanın ötən əsrin 70-80-ci illərdə ulu öndər Heydər Əliyevin sayəsində baş verdiyini bildirmişdir. Həmin dövrdə hər il 1000 nəfərdən artıq gəncin ölkə hüdudlarından kənarda təhsil almasına şərait yaradılmışdır. Bu missiya müasir dövrdə ölkə rəhbəri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xaricdə təhsillə bağlı 2007-2015-ci il dövlət proqramı çərçivəsində 1800-dən artıq Azərbaycan gənci dövlət vəsaiti hesabına xarici ölkələrdə ali təhsil alır.

Qeyd edilmişdir ki, indiyə kimi ASAİF-in forumları Strasburq, London, Budapeşt və Vyana şəhərlərində uğurla baş tutmuşdur. Bugünkü forumun digər forumlardan əsas fərqi onun geniş əhatəli olmasındadır, çünki ilk dəfə olaraq təkcə Avropadan deyil, dünyanın digər regionlarından gənclərimiz bu tədbirə qoşulmuşdur. Qürurverici haldır ki, 45 ölkədən 550-dən artıq nümayəndə bu forumda iştirak edir.

Yekunda bildirilmişdir ki, Azərbaycan dövlətinin gənclər siyasətinin mərkəzində Azərbaycan gəncləri dayanır. 2011-2015-ci illərdə gənclərlə bağlı dövlət proqramının qəbulu və icrası, eləcə də gənclərlə bağlı həyata keçirilən mütəmadi tədbirlər buna bariz nümunədir.

Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov Azərbaycan gənclərinin ölkə hüdudlarından kənarda ən böyük toplantısının Roma şəhərində keçirilməsindən məmnunluğunu ifadə etmiş, tədbir iştirakçılarına uğurlar arzulamışdır. Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov öz çıxışında bu kimi tədbirlərin mühüm əhəmiyyətini vurğulamışdır. Qeyd edilmişdir ki, mütəmadi şəkildə keçirilən bu forumların əsas məqsədi gənclərlə ünsiyyət, onların yeni intellektual elita kimi yetişməsinə dəstək, digər tərəfdən isə xaricdəki tələbə və məzunları bir araya gətirən ASAİF-in sistematik fəaliyyətini təmin etməkdir. Bu tədbirlərin yekun hədəfi isə Azərbaycan dövlətinin güclənməsini təmin etmək, qara qızılın insan potensialına çevrilməsi nəticəsində ölkəmizin maraqlarını təmsil edən yeni nəsil peşəkar insanların yetişməsinə çalışmaqdır. Azərbaycan bu gün investisiya qoyulan ölkədən investisiya qoyan dövlətə çevrilir, ölkənin beynəlxalq imici və reytinqi yüksəlir. Bunun fonunda Azərbaycanı sevməyən qüvvələr də fəallıq göstərir. Həmin qüvvələrə qarşı ölkə başçısı İlham Əliyevin siyasi kursunu dəstəkləyən, onu uğurla icra edən yeni nəsil gənclərə böyük ehtiyac vardır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov öz çıxışında qeyd etmişdir ki, xaricdə təhsil alan gənclərlə keçirilən bu tədbirlərin əsas hədəfi gənclərimizin intellektual gücünü və imkanlarını müəyyənləşdirmək, onların təşəbbüs və intellektual imkanlarından xalqımızın rifahı, dövlətimizin gücləndirilməsi üçün yararlanmaqdan ibarətdir. Eyni zamanda, Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durduğuna görə, bu kimi tədbirlər sayəsində güclü vətəndaş yetişdirilməsi hədəfə alınmışdır. Çünki güclü dövlət güclü vətəndaşlarının məcmusu, onun obrazıdır. Azərbaycan xoşbəxt ölkələr sırasındadır ki, orada ölkə əhalisinin əksəriyyətini gənclər təşkil edir, bu gün Cənubi Qafqazın ümumi daxili məhsulunun 70 faizi Azərbaycanın payına düşür, ölkənin strateji valyuta ehtiyatları 50 milyard dollara çatmışdır, dövlət büdcəsi 23 milyard manat təşkil edir, Azərbaycan etibarlı tərəfdaş və regional dövlətə çevrilmişdir. Ölkəmiz beynəlxalq təşkilatların üzvü kimi dünyada öz sözünü deyir, qonşu dövlətlərlə xoş qonşuluq siyasət yürüdür, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün bütün qüvvələrini səfərbər edir. Bütün bu inkişaf fonunda Azərbaycan gənclərinin üzərinə məsuliyyətli iş düşür, onların səsi xarici ölkələrin tribunalarından gəlməli, sabah öz işinin peşəkarları kimi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün fəaliyyət göstərməlidir.

E.Aslanov, həmçinin vurğulamışdır ki, Suriyadan olan köçkünlərlə bağlı böyük dövlətlər tez bir zamanda reaksiya verə bilirlər, lakin 20 ildən artıq davam edən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ikili standartlar tətbiq olunur. Azərbaycan gəncləri bu çətinliklərdən çəkinməməli, ölkə maraqlarının təmsil olunmasında əzmkarlıq nümayiş etdirməlidirlər. Bildirilmişdir ki, gənclərlə bağlı dövlət proqramı davam edəcək və təkmilləşdiriləcəkdir. Xaricdə təhsil alan hər bir gəncimiz həmin ölkədə vətənimizi təmsil edən bir səfirdir və onlar bu məsuliyyəti dərk edərək həm yüksək səviyyədə ali təhsil almalı, digər tərəfdən isə ölkəmizin maraqlarını var gücləri ilə xaricdə təmsil etməlidir. Azərbaycanın təhsil nazirinin müavini Qulu Novruzov Roma forumunu gənclərimizi Azərbaycan hüdudlarından kənarda bir araya gətirən ən genişmiqyaslı tədbir kimi səciyyələndirmişdir. O, qeyd etmişdir ki, hələ 19-cu əsrin sonlarından başlayaraq Azərbaycan gəncləri pərakəndə şəkildə Avropa ölkələrində təhsil almağa başlamışlar. Müasir dövrdə bu iş dövlət rəhbərinin diqqətində dayanan sistematik bir prosesə çevrilmişdir.

Tədbir iştirakçılarına uğurlar arzulayan nazir müavini xaricdə təhsil alan gənclərimizə iki mühüm amili - milli kimlik və vətənə sevgini diqqət mərkəzində saxlamağı tövsiyə etmişdir.İtaliya Nazirlər Kabineti yanında Gənclər və Dövlət Mülki Xidməti rəhbərinin müşaviri Mauro Skanu, Azərbaycan-İtaliya Assosiasiyasının rəhbəri Paola Kasaqrande, Azərbaycan ilə İtaliya Ticarət İnstitutunun başçısı Manuela Traldi çıxışlarında Azərbaycan-İtaliya arasında əlaqələrin gücləndirilməsi, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yerli ictimaiyyəti məlumatlandırmaq üçün əllərindən gələni edəcəklərini bildirmiş, həm iqtisadi, həm də mədəniyyət sahəsində hər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün böyük potensial olduğunu söyləmişlər.

Açılış mərasimi bitdikdən sonra ASAİF-in fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunmuşdur. Forum çərçivəsində "Baxış 2020: Azərbaycan üçün yeni brendlər və yeni trendlər", "Ənənəvi və ictimai diplomatiya", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixçəsi, danışıqlar prosesinin gerçəklikləri, hazırkı vəziyyət və perspektivlər" mövzuları ətrafında işçi panellər keçiriləcək, müzakirələr aparılacaqdır. Forum işini martın 29-da bitirəcəkdir.

**AzərTAc28 mart 2013**

## Amerikadakı Azərbaycan diaspor təşkilatları

**Azərbaycan diasporunun bu gün mövcud olduğu ölkələrdən biri də Birləşmiş Ştatlardır. Tarix baxımından soydaşlarımızın okeanın o tayında məskunlaşması XIX əsrin əvvəllərinə, daha dəqiq desək Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasından sonrakı dövrə təsadüf edir. Düzdür, həmin dövrə qədər də azərbaycanlıların Birləşmiş Ştatlara səfərləri və ya mühacirəti olub. Lakin bu çox qabarıq şəkildə özünü göstərməyib. Ancaq Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasından sonra soydaşlarımızın Birləşmiş Ştatlara mühacirəti intensivləşib. O zaman bolşevik və daşnakların təzyiqlərindən yaxa qurtarmaq üçün AXC fəallarının üz tutduğu ölkələrdən biri də məhz Birləşmiş Ştatlar idi. Sonrakı illərdə də azərbaycanlıların Amerikaya mühacirəti prosesi baş verib. Tədricən bu ölkənin cəmiyyətinə uyğunlaşan və inteqrasiya edən azərbaycanlılar zaman keçdikcə okeanın o tayında cəmiyyət və dərnəklər, təşkilatlar təsis etməyə başlayıblar.**

Ötən illər ərzində soydaşlarımızın Birləşmiş Ştatlarda təsis etdikləri cəmiyyət və dərnəklər illər keçdikcə böyüyüb inkişaf etmiş və Azərbaycan diasporu rolunu oynamışlar. Məhz bunun nəticəsidir ki, hazırda okeanın o tayında fəaliyyət göstərən onlarla bu kimi təşkilatlar bu gün Azərbaycan diasporunu təmsil edirlər. Günümüzdə Birləşmiş Ştatlarda Azərbaycanı layiqincə təmsil edən, ölkəmizin həqiqətlərini Amerika ictimaiyyətinə çatdıran, o cümlədən zəngin tarixi-mədəni irsimizi təbliğ edən diaspor təşkilatlarımız bunlardır.

ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN)- ABŞ Azərbaycanlıları Şəbəkəsi (US Azeris Network – USAN) bütün ABŞ-ın Azərbaycan, türk və digər diaspor və icma təşkilatlarını, qruplar, cəmiyyəti, koalisiyalar, şəbəkələr, assosiasiyalar və klubları bir arada cəmləşdirir. ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycan-Amerika potensial seçiçilərinin bir araya gətirilməsinə cəhd edir. USAN seçiçiləri səsvermə və seçici qeydiyyatı ilə bağlı maarifləndirmək, Amerika siyasi debatında onların iştirakını təmin etmək, səsvermədə iştirakı fəallaşdırmaq və aktiv seçiçi potensialına çevrilmək imkanlarının artırılmasına çalışır. Şəbəkə Azərbaycan-Amerika seçicilərinin Vaşinqton və ABŞ ştatlarında güclü qüvvəyə çevrilməsini, geniş nüfuza sahib olmasını, səsinin eşidilməsini qarşıya məqsəd qoymuşdur. Xüsusən də enerji təhlükəsizliyi, dini dözümlülük, irqcilik, NATO, Avropa İttifaqı və Ümumdünya Ticarət Təşkilatına siyasi, humanitar yardım və strateji müttəfiqlik, xalqlara vergi, sosial təminat, səhiyyə, texniki yardıma aid məsələlərdə həlledici rol oynamaq əzmindədir. Şəbəkə Birləşmiş Ştatlar siyasətinə Azərbaycan-Amerika, Türk-Amerika ictimaiyyətini, İran azərbaycanlıları icmalarını, eləcə də yəhudi diasporunu ətrafında cəmləşdirərək yeni bir seçici qüvvəsi kimi nüfuz etmək niyyətindədir. Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) icracı direktoru Adil Bağırovdur.

Azərbaycan Amerika Alyansı-Azərbaycan Amerika Alyansı (AAA) qeyri-hökümət təşkilatıdır. Onun missiyası Azərbaycan və Amerika xalqları arasında qarşılıqlı anlaşma və hörmət atmosferinə yardım etməkdən ibarətdir. Onun həyata keçirdiyi ən irimiqyaslı tədbirlədən biri 2012-ci ilin fevralında Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı keçirdiyi kampaniyadır. Azərbaycan Amerika Alyansının Xocalı soyqırımı ilə bağlı keçirdiyi kampaniya yüz milyonlarla insanı əhatə etmişdir və ümumilikdə silsilə tədbirlərdən ibarət olmuşdur. Kampaniya çərcivəsində Nyu-York və Vaşinqtonun mərkəzi küçə, vağzal və metro stansiyalarında poster və bannerlərdən tutmuş ABŞ konqresmenlərinin bəyanatları, Xocalı soyqırımına həsr olunmuş film və digər təbliğat tədbirləri həyata keçirilmişdir. “Washington Post”, “New-York Times” qəzetlərində 26 fevral sayının bütöv bir səhifəsi Xocalı soyqırımına həsr olunmuş, həmçinin “Washington Post”, “New-York Times” və “Politico” dərgilərinin internet səhifələrində həftə müddətində Xocalı soyqırımı ilə bağlı pop-up yerləşdirilmişdir. Təkcə bu pop-up vasitəsilə bu saytları ziyarət edən 10 milyona yaxın insana Xocalı həqiqətləri çatdırılmışdır.

Fevralın 23-dən etibarən Azərbaycan-Amerika Alyansı küçə, poster və digər aksiyalar vasitəsilə azərbaycanlılara qarşı yönəlmiş cinayət haqqında dünyanın iqtisadi mərkəzi olan Nyu-York və siyasi mərkəzlərindən biri olan Vaşinqton sakinlərini məlumatlandırmışdır. Nyu-York şəhərinin ən böyük dəmiryolu vağzalı olan “Penn Station”da, vağzalın giriş və cıxış qapıları və müxtəlif köşələrində, o cümlədən metro stansiyalarında xüsusi posterlər yerləşdirilmiş, avtobus dayanacaqlarında və avtobusların üzərində bannerlər yapışdırılmışdır. Vaşinqton şəhərində 400-dən çox metro qatarlarında, o cümlədən 95 metro stansiyasında,“Capitol Hill”ə gedən avtobuslarda posterlər yerləşdirilmişdir. Həmçinin Xocalı soyqırımını daha böyük müstəviyə, Birləşmiş Ştatların xarici siyasətində prioritet məsələlər dairəsinə çıxarmaq üçün Azərbaycan-Amerika Alyansının saytında xüsusi bölmə yaradılmışdır. Saytda Xocalı hadisələri ilə bağlı geniş məlumatlar öz əksini tapmışdır. Azərbaycan Amerika Alyansının təsisçisi və rəhbəri Anar Məmmədovdur.

**Amerika Azərbaycanlıları Cəmiyyəti-Amerikada** ilk Azərbaycan diaspor təşkilatı 1956-cı ildə Birləşmiş Ştatların Nyu-Cersi ştatında yaradılmış Amerika Azərbaycanlıları Cəmiyyətidir. Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli nümayəndələri olan Nağı bəy Şeyxzamanlı tərəfindən təsis edilmiş bu cəmiyyət Amerikada Azərbaycan həqiqətlərini təbliğ etmiş, respublikanın Sovetlər tərəfindən işğal olunduğunu bəyan etmişdir. Amerika Azərbaycanlıları Cəmiyyətinin aparıcı üzvləri Azərbaycan Demokratik Respublikasının “Hec bir yerdə məskən salmayın, bizim gözəl olkəmiz var.

Nə vaxtsa bir gün hamımız geri dönüb, orada yaşayacağıq" arzuları ilə sələflərinə vəsiyyət edən Nağı Şeyxzamanlı kimi banilərin nəvə və nəticələridir.Amerika Azərbaycanlıları Cəmiyyəti azərbaycanlıları öz ətrafında toplayaraq xalqımızın qədim tarixi və zəngin mədəniyyəti barədə Amerika ictimaiyyətini məlumatlandırır. Otən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycanın ərazi butovluyunə təcavuzu və Dağlıq Qarabağ ətrafında baş verən hadisələrə etirazla əlaqədar Amerika Azərbaycanlıları Cəmiyyətinın fəaliyyətində müşahidə edilən dircəliş nəticəsində cəmiyyət Birləşmiş Ştatlardakı ən fəal Azərbaycan diaspor təşkilatlarından birinə çevrilmişdir. Amerika Azərbaycanlıları Cəmiyyəti yarandığı gündən indiyədək Azərbaycanla bağlı həqiqətləri Amerika ictimaiyyətinə catdırmaq məqsədi ilə aktiv fəaliyyət göstərir. Ənənəvi olaraq cəmiyyət Azərbaycanın milli və dövlət bayramları-Müstəqillik günü, Respublika günü, Novruz bayramı- Azərbaycan torpaqlarının erməni separatçıları tərəfindən işğal olunan günləri, 20 Yanvar, Xocalı faciəsi kimi digər matəm günlərini hər il qeyd edir. Amerika Azərbaycanlıları Cəmiyyətinin hazırda sədri Tomris Azəridir. Tomris Azəri Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurası sədrinin müavinidir. 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**Amerika-Azərbaycan Ticarət Palatası** (USACC)-1995-ci ildə yaradılan Amerika-Azərbaycan Ticarət Palatası (USACC) Azərbaycan ilə uzunmüddətli işgüzar əlaqələrin yaradılmasını axtaran Amerika şirkətləri üçün mühüm mənbə olmuşdur. "Washington Post" qəzetinin qeyd etdiyi kimi, Amerika-Azərbaycan Ticarət Palatası Amerika investorlarının Azərbaycanda ən güclü müdafiəçisidir. Bu təşkilat iki ölkə arasında işgüzar əlaqələrin inkişafında mühüm rol oynayır. Amerika-Azərbaycan Ticarət Palatası dünyanın ən strateji və iddialı regional enerji layihələri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələrdə əsas hərəkətverici qüvvədir. Palata Azərbaycan və Amerika Birləşmiş Ştatlarının hokumət və qeyri-hokumət təşkilatları, biznes təşkilatları arasında etibarlı informasiya və şəbəkə xidmətləri gostərmək, əməkdaşlıq və məlumat mubadiləsinin inkişafını təmin edir. Amerika Azərbaycan Ticarət Palatasının icraçı direktoru vəzifəsini Mahir İskəndərli həyata keçirir.

**Amerika-Azərbaycan Şurası**-1994-cu ildən Vaşinqtonda fəaliyyət göstərir. Təşkilat indiyədək muxtəlif siyasi lobbiçilik fəaliyyəti ilə məşğul olmaqla yanaşı, mədəniyyətlə bağlı silsilə tədbirlər, sərgilər, araşdırma mərkəzlərində Azərbaycanla bağlı seminarlar təşkil etmişdir. Təşkilatın üzvləri Xocalı, 31 Mart Soyqırımı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında, müxtəlif məsələlərlə bağlı məktublar, bəyanatlar hazırlayaraq Amerika prezidentindən tutmuş bütün dövlət nümayəndələrinə, senatorlara, konqresmenlərə, eyni zamanda, mətbuata göndərirlər. Amerika-Azərbaycan Şurası 2006-cı ildə qeyri-hökümət təşkilatı kimi qeydiyyatdan keçmişdir. Hazırda təşkilatın İdarə Heyətində 7 nəfər təmsil olunur. Şura Kaliforniya ştatında fəaliyyət göstərən ən böyük Azərbaycan təşkilatıdır. Şuranın məqsədi azərbaycançılıq ideyalarını bir araya gətirmək, bu fikirləri tədris və mədəni proqramlar vasitəsilə ortaya qoymaqdır. Bu rakursda Amerika-Azərbaycan Şurası tərəfindən mütəmadi olaraq forumlar keçirilir. Kaliforniyada təhsil alan azərbaycanlı tələbələr və Azərbaycanla bağlı araşdırmalar aparan insanlar foruma dəvət edilir, iqtisadi, siyasi və texnoloji problemlər ətrafında müzakirələr aparılır. Amerika-Azərbaycan Şurasının Texas ştatında da nümayəndəliyi fəaliyyət göstərir. Amerika-Azərbaycan Şurası Azərbaycan mədəniyyətinin Birləşmiş Ştatlarda yaxından təbliğ edilməsi prosesində də fəal iştirak edir. Ümumi məqsəd ideoloji məsələlər üzərində qurulmuşdur. Amerika-Azərbaycan Şurasının prezidenti Cavid Hüseynovdur.

**Ardı növbəti sayımızda**

**Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir**

**"Olaylar".-2013.-29 mart.-№53.-S.15.**

**“31 mart Azərbaycanlıların soyqırımı” ilə bağlı bir sıra tədbirlər keçirilmişdir**

**31 mart 2013-cü ildə** Nikolayevdə “31 mart Azərbaycanlıların soyqırımı” tədbirinin keçirilmişdir. Nikolayev vilayəti Azərbaycanlı Gənclər təşkilatının rəhbəri Samir Orucov və təşkilatın fəalları tərəfindən həftəsonu məktəbində azərbaycanlı şagirdlərə bu soyqırımın tarixi barədə dərs keçirilmiş və bu soyqırımı törətməkdə mənfur düşmənlərimizin əsas məqsədi, Azərbaycanın hansı bölgələrində eyni zamanda azərbaycanlıların kütləvi şəkildə məhv edilməsi barədə məlumat verilmişdir.

**31 Mart 2013-cü il tarixdə** İstanbulda 31 mart 1918-ci ildə ermənilərin Bakıda 12 min azərbaycanlını qətlə yetirilməsinin anma mərasimi keçirilmişdir.Tədbirdə İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin sədri Səfər Qaraqoyunlu ermənilərin türklərə qarşı törətdiyi soyqırım və qətliamların dünya ictimaiyyətinə çatdırılması, bu faciələrə hüquqi qiymət verilməsi üçün sistemli iş aparılmasının vacibliyini qeyd etmişdir. Mərasimdə çıxış edən Azərbaycanın İstanbuldakı baş konsulluğunun konsulu Ceyhun Məmmədov Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı fərmanın 31 mart 1918-ci ildə ermənilərin Bakıda həyata keçirdiyi soyqırıma siyasi və hüquqi qiymət verilməsi yolunda atılan önəmli addım olduğuna xatırlatmışdır.

**31 mart 2013-cü il tarixində** Ümumrusiya Azərbaycan Konqresinin təşkilatçılığı ilə 31 mart Azərbaycanlıların soyqırımı gününə həsr edilmiş dəyirmi masa keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin əməkdaşları, Ümumrusiya Azərbaycan Konqresinin Rəyasət Heyətinin üzvləri, tanınmış alimlər, ictimai xadimlər və gənclərin nümayəndələri iştirak etmişlər. Dəyirmi masada Ümumrusiya Azərbaycan Konqresinin icraçı direkdoru İlqar Hacıyev, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri Polad Bülbüloğlu, Ümumrusiya Azərbaycan Konqresinin Rəyasət Heyətinin üzvü Tofiq Məlikli, yazıçı Çingiz Hüseynov, tarixçi-qavkazşünas Rudolf İvanov, rəssam Əsgər Məmmədov, «Карабахская сага» kitabının müəllifi Emin Məmmədli və b. çıxış etmişlər. Tədbirin sonunda iştirakçılar tərəfindən müvafiq müraciət qəbul olunmuşdur.

**31 mart 2013**

**Dr. İsmayıl Seragəldin ərəb dünyasının tanınmış simaları təmsil olunan böyük nümayəndə heyyəti "Cənubi Qafqaz Forumu"nda iştirak etmək üçün Azərbaycana səfərə gəlir**

Ərəb və Müsəlman dünyasında elmin yenidən inkişaf etdirilməsinin aparıcı nəhənglərindən biri olan, son 1600 illik tarixdə İsgəndəriyyə şəhərinin Baş Kitabxanaçısı titulunu daşıyan, qədim və əfsanəvi İsgəndəriyyə Kitabxanasının direktoru Dr. İsmayıl Seragəldin ərəb dünyasının tanınmış simaları təmsil olunan böyük nümayəndə heyyəti ilə həmsədri olduqu Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşkil etdiyi "Cənubi Qafqaz Forumu"nda iştirak etmək üçün Azərbaycana səfərə gəlir.

Dünya elm və mədəniyyətinin əfsanəsi, Dünya Bankında yoxsul ölkələrə yardım proqramlarının müəllifi, Ümumdünya Kənd Təsərrüfatı Qrupunun, Ümumdünya Su mühafizəsi Qrupunun, Yoxsul ölkələrə yardım qrupunun, mikromaliyələşdirmə birliyinin təsisçi rəhbəri olan İsmayıl Seragəldin 1992-2000-ci illərdə Dünya Bankının 1-ci vitse prezidenti vəzifəsində çalışmışdır. Amerika Elmlər Akademiyası məlumatlarına əsasən dünya əhalisinin 2,5 milyardının yaxın 40-50 il ərzində acından ölmək təhlükəsindən uzaq olması məhz cənab Seragəldinin apardığı siyasət nəticəsində real olmuşdur.

Nizami Gəncəvi - Azərbaycan təşəbbüsünün müəllifi və hamisi olan cənab Seragəldinin rəhbərliyi ilə Nizami Gəncəvinin bütün dünyaya yayılmış irsi öz doğma vətəninə qaytarılmışdır.

Fransada İlin Elm adamı, Ümumdünya Elektron Kitabxanasının təsisçi Direktoru, 60-dan çox nüfuzlu universitetin Fəxri Doktoru, Sivilizasiyalar Alyansının və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olan cənab İsmayıl Seragəldin Cənubi Qafqaz Forumuna hazırlıq üzrə təşkilat Komitəsinin həmsədridir.

Ensiklopedik zəkaya malik olan əfsanəvi ziyalı, siyasətçi, strateg İsmayıl Seragəldin Azərbaycanı Şərq və Qərbin qovşağında yerləşən mühüm əhəmiyyətli ölkə olmasını vurğulayaraq, Şərqdə qadınlara seçib seçilmək hüququnu verən, ilk demokratiya anlayışını tebliq edən, dahi Nizami irsinin sahibi olan əsrlərə arxalanan Azərbaycanın təcrübəsindən bir çoxlarının yararlanmalı olduqunun əhəmiyyətini vurqulayır.

2013-cü il YUNESKO Baş Assambleyasının elm və təhsilin durumu üzrə Ali məruzəçisi olan cənab İsmayıl Seragəldin Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən Cənubi Qafqaz Forumuna moderatorluq etməklə yanaşı Gəncə şəhəri 4000 illik keçmişi layihəsinində rəhbəridir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi cənab İsmayıl Seragəldinə Nizami Gəncəvi irsinin Azərbaycana qaytarılması təşəbbüsünə, Mərkəzə həmsədirlik etməsinə və Nizami Gəncəvinin irsinə həsr olunmuş bütün layihələrə himayədarlıq etməsinə görə dərin təşəkkür və ehtiramımızı bildiririk.

**05 aprel 2013**

**Milli ideologiyamızın və müstəqilliyimizin baş memarı**

**Bu gün bütün dünyanın hər yerindən sorağı gələn azərbaycanlılar bir bayraq altında birləşir, yaşadıqları ölkələrdə Azərbaycan gerçəkliyini, azərbaycançılıq ideyalannı təbliğ edir. Sovetlər dövründə güclü təzyiqlərə baxmayaraq, azərbaycançılıq ideyalarının təbliği, Azərbaycanı tanıtmaq yolunda atılan bu addımlar, əslində müstəqil Azərbaycan Respublikasının əsas meyarı olan azərbaycançılıq ideologiyasının ilk cücərtiləri idi.**

**Bu gün müstəqil dövlətimizin simvolu olan üçrəngli bayrağımız BMT–nin və Avropa Şurasının iqamətgahları qarşısmda əzəmətlə dalğalanır.**

**Dünyanın 70 ölkəsində altmış milyondan artıq azərbaycanlı yaşayır. Harada yaşadıqlarından asılı olmayaraq onların Azərbaycan deyilən bir vətəni, bir millət atası – Heydər Əliyev kimi ümummilli lideri var.**

XX əsrin son qərinəsində XXI əsrin başlanğıcında Azərbaycan xalqının keçmiş olduğu tarixi inkişaf yolu ölkəmizdə 35 il başçılıq etmiş ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Mürəkkəb tarixi şəraitə təsadüf edən bir dövrdə xalqın tale yükünü çiyinlərində gəzdirən dərin zəka, vətəni, xalqını sevən, dünya siyasətində səriştəsi olan yalnız Heydər Əliyev kimi dövlət başçısı olmalı idi. Elə ona görə də cəmiyyətin tərəqqisinə təkan vermiş, zamanın sınağından mərdliklə çıxan “Heydər Əliyev fenomeni” yaranmışdır. Heydər Əliyev XX və XXI əsrin övladı, görkəmli siyasi lideri kimi, təkcə Azərbaycanda, Qafqazda, keçmiş Sovet məkanında deyil, həmçinin dünyada böyük nüfuza malik bir şəxsiyyətdir. Azərbaycan xalqının tərəqqisi üçün Heydər Əliyev qədər çalışan hələ belə bir sima olmamışdır. Heydər Əliyev sözün əsl mənasında görkəmli siyasət adamı idi. Heydər Əliyev dünya miqyasında siyasi xadim kimi çox böyük və qüdrətli idi. Belə bir müdrik kəlam var: ”Dövlətlərin qüvvəsi, onun düzgün, ağıllı siyasətindədir…” 1969–cu il ölkənin, xalqın tarixində önəmli bir il sayıldı. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etmək üçün Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçildi. Elə bununla da ölkənin tarixində, xalqın taleyində iqtisadi və siyasi həyatında, elmin, təhsilin, mədəniyyətin, incəsənətin, ağır sənayenin, kənd təsərrüfatının inkişafında irəliləyişlər yarandı.

1969–cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda milli–mənəvi intibah prosesinin əsasını qoydu. Respublika rəhbəri Heydər Əliyev həqiqi azərbaycanlı vətəndaş, böyük şəxsiyyət kimi rəsmi tədbirlərdə, məhz Azərbaycan dilində çıxış edirdi. Bu, xalqın öz tarixi köklərinə qayıdışını və milli mənəvi dəyərlərinə bağlılığını rəsmi səviyyədə nümayiş etdirən ciddi hadisə idi. Təhsil hər bir millətin gələcəyidir. Təhsil müasir dünya görüşünün gələcək inkişaf yollarını müəyyən edən əsas aparıcı faktordur. Ümummilli liderimiz Heydər Əliyev uzaqgörən siyasətçi kimi Respublikada təhsilin inkişafına hər zaman xüsusi əhəmiyyət vermişdir. Heydər Əliyev azərbaycanlı gənclərin ölkənin ictimai siysi həyatında və dövlət idarəetmə strukturlarında fəal iştirakının təmin olunması istiqamətində də tədbirlər gördü. Heydər Əliyevin təşəbbüsü ilə respublikamızdan yüzlərlə gənc keçmiş Sovetlər ittifaqının ən nüfuzlu ali təhsil ocaqlarında təhsil almaq imkanını əldə etmişdir. Bu proses 1969–cu ildən başlayaraq 80–ci illərin sonlarına qədər davam etdi. O dövrdə müdrik dövlət başçısının uzaqgörən siyasəti nəticəsində bu gün yaşadığımız müstəqil Azərbaycan Respublikasının iqtisadi və siyasi inkişafının təmin edilməsi üçün müstəsna rol oynayan mükəmməl milli kadr potensialı formalaşdırıldı.

Azərbaycanlı gənclərin yüksək ixtisaslı kadrlar kimi yetişdirilməsi respublikamızın iqtisadi potensialının artırılmasına, xalqımızın dünya arenasında, o cümlədən İttifaq miqyasında böyük nailiyyətlər əldə etməsinə stimul yaratmaq məqsədi daşıyırdı. O illərdə ölkə rəhbərinin göstərişi ilə ali məktəbləri bitirən çox saylı istedadlı gənc vətənə qayıdıb, hazır kadr kimi işlə təmin olunurdu. Bunun nəticəsi idi ki, həmin dövrdə respublikada yüksək ixtisaslı kadr hazırlanmasında böyük dönüş yarandı. Tarixi bir faktdır ki, Azərbaycanın 1969–cu ildən bəri yaşanan dövrü Heydər Əliyev dövrü kimi həkk olunub. Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycanın ümumi tərəqqisində, sosial–iqtisadi inkişafında görünməmiş köklü bir dönüş baş verdi. 1969–cu ildən Azərbaycanın qüdrətli rəhbəri kimi fəaliyyət göstərmiş, Azərbaycan xalqının xoşbəxt gələcəyinin təminatçısı, dünyada sülhün carçısı, vətənimizin yenilməz oğlu ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının qəlbində dərin bir qürur hissi oyatdı.

Ümummilli lider Heydər Əliyevin incəsənət sahəsində dərin biliyə malik olması, mədəniyyətin mürəkkəb problemlərindən xəbərdar olması heç də təsadüfi deyil. Heydər Əliyev 1939–cu ildə memarlıq fakültəsinə daxil olmuşdu. Lakin İkinci Dünya müharibəsinin başlanması onun memar olmaq arzusunu yarımçıq qoydu. Memarlıq istedadı onun siyası fəaliyyətində, bir tarixçi kimi Azərbaycanın dövlət quruculuğunda öz əksini tapdı. Ölkəmizdə bütün sahələr üzrə qlobal islahatlar apararaq iqtisadiyyatımızı dirçəldən dövlət başçısı fəlakətdən qurtardığı Azərbaycanın dövlətçilik təməllərini möhkəm əsaslar üzərində quraraq Müstəqil Azərbaycan dövlətinin memarı kimi tarixə yazıldı.

Heydər Əliyevin təşəbbüsü sayəsində 1970–ci illərdən başlayaraq Bakı şəhəri paytaxt tipli iri şəhərə çevrildi. Ölkənin bütün şəhərlərində tikinti və abadlıq işləri görüldü, yaşayış kompleksləri, iri sənaye obyektləri, inzibati binalar tikildi. Şəhərin ən baxımlı yerlərində gözəl memarlıq ansamblları yaradıldı. 1970–80–ci illərdə görülmüş nəhəng miqyaslı işlər bu gün də müstəqil Azərbaycan dövlətinin yaşamasına və inkişaf edib möhkəmlənməsinə xidmət edir.

Heydər Əliyev həmin dövrdə Bakı şəhərinin mühüm nəqliyyat problemlərini həll etməli oldu. Bakı dəmir yolu vağzalının yenidən bərpa olunması, dəniz vağzalının tikintisi, Bakı metropolitenin stansiyalarının tikilib istifadəyə verilməsi üçün çox böyük işlər gördü. Ölkədə Dərin Dəniz Özülləri zavodu, məişət kondisionerləri zavodu və başqa iri sənaye müəssisələri Azərbaycanın indiki iqtisadi yüksəlişi üçün əsaslı zəmin yaratdı.

Azərbaycan dövlətinin əldə etdiyi ən mühüm nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun rəhbərlik etdiyi 1969–1982–ci illərdə respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişafında, xalqın həyat səviyyəsinin yüksəldilməsində böyük müvəffəqiyyətlər əldə olunmuşdur. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi müddətdə kənd təsərrüfatının–pambıqçılıq, üzümçülük, taxılçılığın və eləcə də sənayenin kompleks inkişafına xüsusi diqqət yetirmişdir. Keçmiş İttifaqda ən iri məişət kondisionerləri zavodu, ÜBNZ neft emalı üzrə Elou–Avt qurğusu, Salyanda plastik kütlə emalı zavodunda o zaman mən bir televiziya jurnalisti kimi xalq təsərrüfatı əhəmiyyəti olan işlərdən, fəhlələrin əməyindən, onların həyatından televiziya verilişləri hazırlamışam.

Heydər Əliyevin Azərbaycan üçün milli zabit kadrların hazırlanması sahəsində çox böyük xidmətləri olmuşdur. Heydər Əliyev hələ 70–ci illərdə Azərbaycanın hərbi zabit kadrına ehtiyacı olacağını böyük həsasslıqla öncədən duymuşdur. Buna görə də C.Naxcıvanski adına hərbi liseyin açılması barədə qərar qəbul etmişdir. Bu da o dövr üçün çox böyük bir hadisə idi. Hərbi liseyin yaradılması ümummilli liderimiz Heydər Əliyevin xalqın sabahı naminə uzaqgörənliklə həyata keçirdiyi siyasətin real bəhrəsi idi. Bu gün Azərbaycanın yüksək hərbi ixtisaslı mütəxəssislər sarıdan hazırlıqlı olması 1969–1982–ci illərdə məqsədyönlü fəaliyyətinin nəticəsidir. Azərbaycanın torpaqları olan Dağlıq Qarabağ artıq 20 ildən çoxdur ki, təcavüzkar erməni daşnakları tərəfindən amansızcasına işğal edilmişdir.

Böyük Ermənistan yaratmaq xülyası erməni təcavüzkarlarına irsən keçən bir xəstəlikdir. İkiyüzillik tarixi əhatə edən bu faciəvi plan erməni qəsbkarlarının əli ilə həyata keçirildikcə yüz minlərlə azərbaycanlılar kütləvi soyqırımlara, etnik təmizləmə və işgəncələrə məruz qalmaqla ata–baba yurdlarından didərgin düşmüşdür.

İyirminci əsrin sonlarında isə ermənilərin ərazi və torpaq iddiası özünü daha qabarıq şəkildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə büruzə verdi. Bu dəfə ermənilərin köməyinə açıq–aşkar M.Qorbaçovun “Yenidənqurma” siyasəti çatdı. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan əraziləri zəbt olunmaqla soydaşlarımız öz dədə–baba yurdlarından qovuldular.

1921–ci illərdə Azərbaycanın tarixi ərazisi olan Zəngəzur heç bir əsası olmadan ədalətsizcəsinə Ermənistana verilmişdir. Qarabağın işğalı Azərbaycanın böyük itkilərindən biridir. Bu gün bütün dünya xalqları tarixi həqiqətləri, Dağlıq Qarabağın Azərbaycanın olduğunu bilirlər.

1988–ci illərdən başlayan Ermənistanın Azərbaycana getdikcə azğınlaşan silahlı təcavüzünün qarşısını almaq üçün səriştəli, xalqına canı yanan dövlət başçısı lazım idi. Azərbaycan sanki hərc–mərcilik poliqonuna çevrilmişdir. Bir tərəfdən bədnam qonşuların təcavüzü, digər tərəfdən dövlət çevrilişinə, silahlı təcavüzlərə cəhdlər, daxili qruplaşmalar, xarici qüvvələrin təxribatları, ictimai–siyasi sabitliyin pozulması ölkəni iflic vəziyyətinə salmışdı. Dövləti yalnız bilikli, zəkalı, siyasi səriştəli şəxsiyyət–Heydər Əliyev idarə edə bilərdi. Xalqın təkidi, çağırışı ilə qədim Odlar Diyarının böyük, müdrik oğlu Heydər Əliyev siyasi hakimiyyətə qayıtmalı oldu. Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra müasir müstəqil **Azərbaycan Respublikasının yaradıcısı** oldu. Heydər Əliyev müdrikliyinin, onun atdığı taktiki və strateji addımların sayəsində Azərbaycan üçün mənfi təzahürlər qısa müddət ərzində aradan qaldırıldı.

1993–cü il 15 iyun Azərbaycanın xilası və dirçəlişinin yeni bir tarixi günü oldu. Azərbaycan xalqı fəlakətlər girdabından, zəngin bilik və təcrübə, qətiyyət, nadir uzaqgörənlik, mürəkkəb vəziyyətdən yeganə düzgün çıxış yolu tapmağa qadir olan ümummilli liderimiz Heydər Əliyevin sayəsində xilas olmaqla, böyük mübarizə və quruculuq yolu keçdi. Heydər Əliyevin müdrikliyi və polad iradəsi sayəsində Azərbaycan dövləti başının üstünü almış bütün təhlükələri sovuşdurdu. Ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə ölkədə sabitlik bərpa olundu. Onun qarşıya qoyduğu ilk məqsəd isə münaqişənin həllində sülhə nail olmaq, hər iki tərəfdən insan təlafatının və qırğınların qarşısını almaq idi. Buna 1994–cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs müqaviləsinin imzalanması ilə nail olundu. Lakin o vaxtdan bu günə kimi Ermənistan tərəfi demək olar ki, hər gün atəşkəsi pozmaqla sərhədlərdə qeyri sabitliyin hökm sürməsinə şərait yaradır. Müstəqilliyimizin tarixində Heydər Əliyev qədər Azərbaycanın neft sənayesini dərindən bilən ikinci bir rəhbər tapmaq çətindir. 1994–cü ildə Respublikamız yeni bir eraya–neftimizin dünya bazarına, nəqli erasına qədəm qoydu.

Heydər Əliyev xarici iş adamları, xarici şirkətlərlə iş qurmaqla milli neft strategiyasının əsasını qoydu. Azərbaycanın tarixində xüsusi əhəmiyyət kəsb edən Xəzərin neft–qazla zəngin strukturlarının işlənməsinə dair möhtəşəm bir müqavilə imzalandı. Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" və "İpək yolu" kimi nəhəng layihələrinin reallaşması bütün dünyada maraqla izləndi. Azərbaycan xarici investisiya qoyuluşuna görə MDB məkanmda birinci yeri tutdu. Bakı–Tbilisi–Ceyhan neft Tbilisi–Ərzurum–qaz kəmərlərinin çəkilişi dünya miqyasında mühüm hadisə kimi qiymətləndirildi. Xarici neft şirkətləri ilə imzalanan ilk irimiqyaslı beynəlxalq müqavilə Heydər Əliyevin düşündüyü kimi iqtisadiyyatımıza milyardlarla dollar xarici sərmayə qoyulmasına, ölkəmizin qərblə sivil iqtisadi inteqrasiyasına yol açdı. Heydər Əliyev inanırdı ki, belə layihələrin reallaşması ilə Azərbaycan qısa zaman içində lider dövlətə çevriləcək. Bu isə Qarabağ münaqişəsinin ədalətli həllinə yardımdır. Bununla ümummilli liderimiz Heydər Əliyev özünün neft strategiyası ilə Azərbaycanm güclü və qüdrətli demokratik bir dövlətin əsasını qoydu. Elm müstəqil dövlətin davamlı sosial–iqtisadi və mədəni inkişafını təmin edən mühüm bir amildir. Keçən əsrin 88–ci illərin məlum qarmaqarışıq siyasi hadisələri nəticəsində ictimai və mədəni həyatımızın başqa sahələri kimi elm ocaqları da nəinki durğunluq, həm də tənəzzülə uğramışdı.

Ümummilli liderimiz Heydər Əliyevin azərbaycanlı alimlərlə elm sahəsində çalışanlarla görüşündə söylədiyi fikirlər onlara sanki ikinci bir həyat verdi. Uzun müddət təsirlərə məruz qalmış Azərbaycan intellekti yenidən dirçəliş yoluna qədəm qoydu. Heydər Əliyev alimlərlə görüşü zamanı elmimizin qarşısında duran problemlərin dərindən analizini verərək dünya səviyyəli elmi işlərlə bərabər həm də dövlətimizə, xalqımıza lazım olan elmi tutumlu strateji problemlərlə məşğul olmağı tövsiyə etmişdir.

Bu dəyərli sözlər ölkəmizin inkişafının qlobal istiqamətlərinin intellektual təminatını həyata keçirmək kimi məsuliyyətli bir tapşırıq idi. Ümummilli liderimiz Heydər Əliyevin elm xadimlərinə olan xüsusi diqqəti onların yaşayış tərzinin yaxşılaşdırılması üçün məvaciblərinin artırılması elmə dövlət tərəfindən göstərilən çox böyük bir qayğı idi.

Heydər Əliyev Azərbaycan ədəbi dil tarixində də diplomatiya üslubunun əsasını qoymuşdur. Azərbaycan ədəbi dili məhz onun nitqində dünyanın ən yüksək kürsülərində səslənirdi. Ümummilli liderimiz Heydər Əliyevin gərgin əməyi və xidmətləri sayəsində bu gün Azərbaycan dili özünün inkişaf ömrünü yaşayır. Dil yaşayırsa, inkişaf edirsə, deməli, millət də yaşayır və inkişaf edir.

Ümummilli liderimiz müstəqil dövlətin ordu quruculuğu sayəsində də böyük işlər görmüşdür. Onun xarici siyasəti sülhsevər siyasət olmaqla Azərbaycanın geniş tanınmasına xidmət etmişdir. 1993–cü ildən hərc–mərclik, vahid ordunun olmaması üzündən Azərbaycan cəbhədə məğlubiyyətlərə məruz qalıb, torpaqlarının bir hissəsini itirdi. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra orduda vahid komandanlıq yarandı, qeyri–qanuni silahlı dəstələr ləğv olundu. Ordu quruculuğu Azərbaycanın sülh danışıqlarında mövqelərini daha da möhkəmləndirdi. 1993–cü ilin sonlarından başlayaraq həyata keçirdiyi xüsusi tədbirlər nəticəsində Azərbaycan da Milli Ordu quruculuğunun yeni mərhələsinə qədəm qoyuldu. Qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdı.

Heydər Əliyev Azərbaycan torpaqlarının bütövlüyünü qorumaqda, ölkənin daxilində parçalanmanın qarşısını almaqda yüksək dövlətçilik məharətindən biri də ölkənin ən təhlükəli vaxtında şərq müdrükliyindən özünün qanına işləmiş, canına hopmuş uzaqgörənliyi ilə xalqın xilaskarı oldu. Müasir dünyada Azərbaycanın layiqli yer tutmasında çox böyük rolu olan ulu öndərimiz müstəqil Azərbaycanın baş memarı Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyev ölkənin ictimai–siyasi, mədəni həyatında böyük yüksəliş estafetinin bir daha layiqli əllərdə olduğunu sübut etdi. Xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə Azərbaycan Respublikasının prezidenti seçildi.

Cənab İlham Əliyev Azərbaycana, xalqa səadət andı içdiyi vaxtdan onun gərgin iş günü tükənməz enerjisi ilə, çoxcəhətli ictimai–siyasi fəaliyyətlə səciyyələnir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu, şərəfli yolunu ləyaqətlə davam etdirən İlham Əliyev hər bir azərbaycanlının Prezidenti oldu. Cənab İlham Əliyevin gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai–iqtisadi və sosial həyatının yüksəlişi dünya ictimaiyyətinin diqqətinə, marağına səbəb oldu. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı dünyanın ən nüfuzlu dinamik inkişafda olan ölkələri sırasına yüksəltdi. Bu gün Heydər Əliyevin siyasət yolunu möhtərəm Prezidentimiz İlham Əliyev xalqın maraqlarına, dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirir.

Cənab İlham Əliyevin istedadı, səyi nəticəsində ölkə iqtisadiyyatının və regionların davamlı inkişafi, yeni istehsal müəssisələrinin açılması, yeniləşməsi, yeni iş yerlərinin yaradılması, idman komplekslərinin tikilməsi, yolların, nəhəng körpülərin salınması, ölkəmizin abadlaşdırılması, bir sözlə – Azərbaycanın çiçəkləndirilməsi kimi vacib məqamlar diqqəti cəlb edir. Həqiqətən də Azərbaycanın sosial–iqtisadi, mədəni nailiyyətləri faktlarla təsdiqlənən tarixi reallıqdır. Azərbaycan sənətkarlar diyarıdır, desək yanılmarıq. Azərbaycanımıza məhz, sənəti duyan, qiymətləndirməyi bacaran möhtərəm İlham Əliyevin başçılıq etməsi, ölkənin hər bir sahədə inkişafının, eləcə də mədəniyyətimizin həm uğuru, həm də xoşbəxtliyidir. Mədəniyyətin, incəsənətin inkişafında sənətə, sənətkara layiqli qiymət verilməsi də vacib şərtlərdəndir.

Ulu öndərimiz Heydər Əliyev bütün həyatı, fəaliyyəti dövründə sənətə və sənətkara həmişə layiqli qiymət vermişdir. Heydər Əliyevin davamçısı olaraq cənab İlham Əliyev də mədəniyyətimizin incənətimizin inkişafına böyük diqqət və qayğısını əsirgəmir. Mədəniyyət dövlət siyasətin əsas prioritetlərindən biri kimi daim diqqətdə saxlanılır. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 20 faizi işğal olunmuş, bir milyondan çox həmvətənimiz öz doğma yurd–yuvalarından didərgin salınmışdır. Xalqımız o illər ərzində on mindən çox şəhid vermişdir, yüzlərlə igid döyüşçümüz vətən uğrunda gedən döyüşlərdə öz sağlamlığını itirmişdir. İşğal olunmuş torpaqların alınması üçün ölkə başçısı İlham Əliyev çox böyük işlər görməkdədir. Yurd–yuvasından didərgin düşmüş qaçqın və köçkünlər gec–tez dədə–baba torpaqlarına dönəcəklər. Azərbaycan xalqı buna varlığı qədər inanır. İşğalda olan torpaqlarımızın ulu öndərimizin siyasi kursunun davamçısı olan Prezident, Ali Baş Komandan, cənab İlham Əliyevin müdrik siyasəti ilə hansı yolla olursa–olsun, istər sülh yolu, istərsə də müharibə yolu ilə tezliklə azad olunacağına inanırıq. Musiqi insanlar arasında mənəvi bir körpüdür. Azərbaycan xalqı dünya sivilizasiyasına böyük töhvələr vermişdir.

Onların içərisində ən görkəmlisi dünyanın hər yerində yayılmış musiqi əsərlərini yaradan və Azərbaycanın çoxəsrlik musiqisini sistemləşdirib, dünyaya təqdim edən dahi bəstəkar Üzeyir Hacıbəyov olmuşdur. Ü.Hacıbəyov, M.Maqomayev, Q.Qarayev kimi görkəmli bəstəkarlar ömürlərinin son günlərinə qədər həyatlarını Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafına həsr etmişdir. Ümummilli liderimiz musiqinin hər bir incəliklərini dərindən duyan bir şəxsiyyət kimi, Azərbaycan musiqi mədəniyyətinin, muğam, estrada, simfonik janrlarının inkişafına çox böyük əhəmiyyət vermişdir. Heydər Əliyev Azərbaycan professional bəstəkarlıq məktəbinin rolunu həmişə xüsusilə vurğulamışdır. Azərbaycanda bitkin özünəməxsus professional məktəbin yaranmasına daima qayğı göstərmişdir. Heydər Əliyev ömrünü, həyatını musiqi, kino, teatr və ədəbiyyata həsr etmiş yaradıcı şəxslərin qayğısına qalmış və həmişə onlara himayədarlıq etmişdir. Müasir meyarlara görə demək olar ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi davamçısı cənab prezident İlham Əliyev, xanımı YUNESKO və İSESKO–nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva Azərbaycan və türk dünyası tarixinin yaddaşına həkk olunmuş şəxsiyyətlərdəndir. Bu gün Azərbaycan mədəniyyəti mübaliğəsiz, dünya xalqları içində öz parlaq, yüksək və zəngin mədəniyyəti ilə seçilməkdədir. Dünyanın bütün qitələrində Azərbaycan mədəniyyətinə böyük diqqət və çox maraq göstərirlər. Əlbəttə, bu da səbəbsiz deyil. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva düşdüyü ocağın ab–havasına, ənənəsinə sədaqətini göstərməklə Heydər Əliyev yolunun davamçısı oldu. Mehriban xanımın təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsinə, muğam irsimizin dünyada tanınmasına və yeni–yeni muğam mərkəzlərinin açılmasına göstərdiyi xidmətlər hər bir azərbaycanlının ürəyincədir. İnşa edilən müasir məktəb binaları, səhiyyə, uşaq evləri, mədəniyyət mərkəzləri bu dediklərimizin bariz nümunəsidir.

Bu gün Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanınmasında, milli musiqimizin dünya arenasına çıxarılaraq nümayiş etdirilməsində Mehriban xanım Əliyevanın çox böyük xidmətləri var. Mehriban xanım Əliyeva istedadı, biliyi, zəkası, uzaqgörənliyi sahəsində bu gün həyata keçirdiyi missiyanın öhdəsindən layiqincə gəlir.

Onun həyata keçirdiyi mədəni–ictimai tədbirlər xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində nüfuzunun yüksəlməsinə xidmət edir. Qüdrətli dövlət başçısı olmuş ümummilli liderimiz Heydər Əliyev ocağında dünyaya göz açmış övladlar bu möhtəşəm ocaqdan bəhrələnmişlər. El arasında belə bir misal var – deyirlər dövlətdə dəvə, övladda nəvə. Doğrudan da nəvə ailəyə öz gəlişi ilə bir dünya sevinc gətirir. Ailədə gözəl ab–hava yaradır. Əbəs yerə deməyiblər – nəvələr nəslin davamçılarıdır. **–Haşiyə–** Kainatın fəxri sevgili peyğəmbərimiz Həzrəti Mühəmməd (Səlləlləhu əleyhi və alihi vəsəlləm)in qızı, dünyanın ən gözəl ailəsinə sahib Peyğəmbər çiçəyi Həzrət Fatimə bütün hərəkətləri, əqli, zəkası ilə atasına bənzəyən mükəmməl övlad, həyat və davranışları ilə bütün qadınlara örnək, kamil bir qadın olmaqla, Allah Rəsulunun Reyhan ətirlərinin dediyi Həzrəti Həsən və Həzrəti Hüseynə gözəl ana olmuşdur. Dünyanın ən gözəl ailəsinə sahib qüdrətli dövlət başçısı, siyasi xadim olmuş ümummilli liderimiz Heydər Əliyev ocağında dünyaya göz açmış Leyla xanım bütün hərəkətləri, əqli, zəkası ilə valideynlərinə bənzəyən mükəmməl övlad, həyat davranışları ilə bütün yaşıdlarına, insanlara örnək, kamil bir xadim olmaqla həm də nəslin davamçıları gözəl balalar Əli və Mikayıla gənc anadır. Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın gənclərlə apardığı böyük layihələr göz qabağındadır. Ölkəmizdə, eləcə də ölkə xaricində mühüm tədbirlər gənclərin milli ruhda vətənpərvər kimi böyüməsi üçün çox böyük layihələr həyata keçirməkdədir. Yaxşı deyiblər: – Daha çox müdrikliyi və mərdliyi ilə yadda qalan o insanlardır ki, onlar özlərini insani və mənəvi keyfıyyətləri ilə hər kəsi heyrətləndirə bilsin. Leyla xanım Əliyeva gənc olsa da, bir şəxsiyyət kimi artıq özünü tarixin səhifələrində təsdiq etmişdir. Leyla xanım Əliyevanın ədəbiyyata, incəsənətə gəlməsi, müəllifi olduğu yüzlərlə şeirlərin, neçə–neçə rəsm əsərlərinin yaradıcısı olduğu heç də təsadüfı deyil. Ulu öndərimiz Heydər Əliyev ictimai–siyasi, mədəni həyatın, demək olar ki, bütün sahələri ilə bağlı yaradıcı, məhsuldar, çox geniş fəaliyyət dairəsinə malik olan böyük bir şəxsiyyət idi.

Onun həyatı, fəaliyyəti barədə onlarca, yüzlərlə kitab yazılmış və yazılacaqdır. Ümummilli liderimiz Heydər Əliyev fenomeninə Azərbaycan siyasətinin, elminin, mədəniyyətinin, ictimai fıkrinin nümayəndələri bu gün də, sabah da dönə–dönə müraciət edəcək. Nəsillər ondan həyat və tarix quruculuğunu, dövlətçilik ənənələrini öyrənir və öyrənəcəklər. Ulu öndərimiz Heydər Əliyev həyatını xalqına həsr edərək, özü şam kimi yanmış, insani hərarətini, qəlbinin işığını xalqına – Vətənin övladlarına paylamışdır. Azərbaycan xalqı üçün Heydər Əliyevin keçdiyi bu yol sönməz vətən sevgisi, həqiqətən də, qürur, iftixar dolu bir aləmdir.

– Heydər Əliyev haqqında keçmiş Sovetlər dövlətinin yüksək vəzifə sahiblərindən biri, Bakıda doğulub boya–başa çatmış, təhsil almış Nikolay Baybakovun fikirlərini xatırlatmaq yerinə düşərdi: “Mən çox adamlarla ünsiyyətdə olmuşam və çox rəhbərlərlə işləmişəm. Amma Heydər Əliyev qədər xalqını, millətini sevən bir azərbaycanlı, bir rəhbər təsəvvür edə bilmirəm”.

Ümummilli liderimiz Azərbaycan xalqının tarixində əsrlər boyu bir örnək olaraq qalacaq. Bundan sonrakı nəsillər Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində əldə etdiyi təcrübədən əsrlər boyu bəhrələnəcəklər. Mahir bir idarəçi kimi yetişmək siyasi hadisələrdən vaxtında baş çıxarmaq istəyən hər siyasət adamı Heydər Əliyevin idarə etmə məktəbindən bəhrələnməli olacaq.

Hər əsr öz tarixi mənasına görə çox şərəflidir. Hər əsrin müəyyən zamanlarında dünya öz azadlıqsevər, mübariz oğullarını yetişdirib. Tarixdə belə şəxsiyyətlərin hərəsinin öz yeri var. Onlar mənsub olduqları xalqını əsrlərə bərabər inkişaf yolu keçməsinə yardımçı olan qeyri–adi insanlardı. Belə nadir zəka, qabiliyyət sahiblərinin adı bəşəriyyətin yaddaşında həmişəyaşardı. Makidoniyalı İsgəndər, Napoleon, Ruzvelt, Çörçill, Şarl De Qoll, Mustafa Kamal Atatürk və əbədi liderimiz Heydər Əliyev.

Heydər Əliyev hümanist, bəşəri sevgi üzərində köklənən dahi şəxsiyyət idi. Heydər Əliyev kimi tarixi şəxsiyyətləri olan xalq xoşbəxtdir. Ulu öndərimiz Heydər Əliyevin Azərbaycanın milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən zəngin irsi milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük vasitədir. Həm də böyük bir sərvətdir. Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycanın bütün inkişaf və tərəqqi yollarını öz dühası ilə işıqlandırdı. Milli ideologiyamızın və müstəqilliyimizin baş memarı oldu.

**Rəfiqə Məsud, kinossenarist, publisist, əməkdar mədəniyyət işçisi**
**“Respublika”.-2013.-6 aprel.-N 70.-S.4.**

**Aprelin 8-də Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumu (Davos Forumu) işə başlamışdır**

Aprelin 8-də Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumu (Davos Forumu) işə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılışında və "Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının gələcəyinə baxışlar" mövzusunda birinci sessiyasında iştirak etmişlər.

Dünyanın diqqəti növbəti dəfə Azərbaycana yönəlmişdir. Son illərdə beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Bakı Dünya İqtisadi Forumunun iştirakçılarını qəbul etmişdir. Dünyanın iqtisadi vəziyyətini proqnozlaşdıran tanınmış iqtisadçılar, ekspertlər, dövlət və hökumət nümayəndələri bir araya gələrək, bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə etmək üçün mərkəz kimi məhz Bakını seçmişlər. Dünya İqtisadi Forumunun Bakıda keçirilməsi barədə ümumi razılıq yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab ilə görüşündə əldə edilmişdir. Dünya İqtisadi Forumunun təsisçisi və icraçı direktoru Klaus ŞVAB Forumu açaraq dedi: -Hörmətli cənab Prezident, hörmətli qonaqlar, əziz dostlar, Dünya İqtisadi Forumunun üzvləri. Mən sizin hamınızı Cənubi Qafqaz və Orta Asiyanın gələcəyinə dair strateji dialoqa həsr edilmiş birinci Dünya İqtisadi Forumunda salamlamaqdan son dərəcə məmnunam.

İcazənizlə, cənab Prezident, Sizə təşəkkür etmək istərdim. Azərbaycan Hökuməti tərəfindən lütfkarlıqla bu Forumun Bakı kimi gözəl şəhərdə təşkilinə görə təşəkkür etmək istərdim. İcazənizlə onu da qeyd etmək istərdim ki, sonuncu dəfə mən 20 il bundan əvvəl burada olmuşam. Həqiqətən deməliyəm ki, o vaxtdan bəri çox böyük dəyişikliklərin baş verdiyini müşahidə etdim. Bakı şəhəri həqiqətən çox gözəl bir məkana çevrilmişdir. Dünya İqtisadi Forumunun Azərbaycanda keçirilməsi bizim üçün bir qürurdur. Azərbaycan çox böyük imkanların olduğu bir ölkədir. Ümumiyyətlə, son illər ərzində ölkədə çox böyük iqtisadi artım göstəriciləri qeydə alınmışdır. Bu, ilk növbədə, ölkənin müstəsna təbii resurs potensialının düzgün istifadəsi sayəsində mümkün olmuşdur. Eyni zamanda, bu nailiyyətlər həmin resurslardan ölkə iqtisadiyyatının şaxələndirilməsində uğurla və bacarıqla istifadə edilməsi sayəsində qazanılmışdır. Azərbaycan informasiya texnologiyaları, maliyyə, tikinti sahələrində çox qabaqcıl bir ölkədir.

Qeyd etməliyik ki, region ölkələrinin heç biri potensialı təkbaşına reallaşdıra bilməz. Uzunmüddətli iqtisadi uğurlara nail olmaq üçün əməkdaşlıq zəruridir. Yəni, bu uğur yalnız təbii resurslardan asılı deyildir. Azərbaycanın nadir coğrafi mövqeyi, yüksək təhsil almış işçi qüvvəsi vardır. Buradakı sağlam mühit, ümumiyyətlə, birgə iş və əməkdaşlıq çərçivəsində çox uğurlar əldə oluna bilər. Avropa qitəsinə, yaxud Asiya regionuna baxsaq, görərik ki, iqtisadi, sosial sahələrdə uğurlar əldə etmək üçün mütləq etibar və uzunmüddətli əməkdaşlıq şəraitində birgə səylər göstərilməlidir. Məhz buna görə də Dünya İqtisadi Forumu çox nadir bir format yaradır. Forumdan məqsəd sadəcə olaraq müəyyən görüşlərin keçirilməsi deyildir. Məqsəd uzunmüddətli təşəbbüslərə start verməkdir. Cənubi Qafqaz və Orta Asiya regionları üçün müəyyən ssenarilər təqdim olunur. Qarşıdan gələn 18 ay ərzində bu proseslər davam edəcəkdir. Regiondan və region xaricindən olan aparıcı şəxslər bu prosesə cəlb ediləcəklər. Məqsəd regional iqtisadi inteqrasiyaya nail olmaqdır. Regionun uzunmüddətli gələcəyi üçün müxtəlif ssenarilər yaradılır. Məqsəd regionun nadir evolyusiya potensiallarını araşdırmaq və müxtəlif alternativ ssenariləri nəzərdən keçirməkdir. Bu gün biz bu prosesi başlayırıq. Məqsəd regionun nadir imkanlarını aşkar etməkdir. Ümid edirəm ki, siz dəyərli fikirlərinizi bölüşəcəksiniz, bizim paneldə təmsil olunmuş natiqlərlə bir yerdə fikir mübadiləsi aparacaqsınız. Cənab Prezident, eyni zamanda, mən bu imkandan istifadə edib çox dostcasına münasibətinizə və Dünya İqtisadi Forumu ilə əməkdaşlıq etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. Neçə illər boyu Siz davamlı olaraq bizim illik görüşlərimizdə iştirak etmisiniz. Bu mənada Azərbaycanı və bu regionu beynəlxalq xəritədə çox gözəl təqdim etmisiniz. Regionun iqtisadi imkanları və bu bölgənin dünyanın iqtisadi baxımdan çiçəklənməsinə necə töhfə verəcəyi barədə bizdə dolğun təsəvvür yaratmısınız. Sonra Dünya İqtisadi Forumu tərəfindən hazırlanmış Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının iqtisadi inkişaf potensialına həsr edilmiş videoçarx nümayiş olundu. Videoçarxda Azərbaycan iqtisadiyyatının uğurlarına və potensialına xüsusi yer ayrılmışdı.

Daha sonra müzakirələrin hansı istiqamətdə aparılması ilə bağlı səsvermə keçirildi. Regionun gələcəyinə dair sorğuda pərakəndəlik, inteqrasiya və qütbləşmə ilə bağlı 3 bənd yer aldı. Səsvermə zamanı tədbir iştirakçıları müzakirələrin inteqrasiya mövzusunda keçirilməsi fikrində yekdil oldular. ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya-Qafqaz İnstitutunun rəhbəri Frederik STAR səsvermənin nəticələrinin müsbət olduğunu dedi. Bildirdi ki, son 15 ildə energetika sahəsinə baxsaq görərik ki, şaxələndirilmə daha da aktuallaşıb və gələcəkdə bunun rabitə və nəqliyyat sahələrini də əhatə etməsi labüddür. Frederik Star regionun əhəmiyyətinə toxunaraq onun qitənin mühüm mərkəzinə çevrildiyini vurğuladı. "Cənub" dəhlizinin yaradılması və digər yolların çəkilməsinin vacibliyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Forumda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar.
Hörmətli qonaqlar

Sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Belə bir möhtəşəm tədbirdə iştirak etmək fürsətini yaratdığınıza görə minnətdarlığımı bildirirəm.

Bakıda Dünya İqtisadi Forumunun keçirilməsi ilə əlaqədar dəvətimizi qəbul etdiyinə görə professor Şvaba və bu Forumda iştirak edən, eləcə də ölkəmizi dəstəkləyən bütün digər ölkələrə xüsusi təşəkkürümü bildirirəm. Professor Şvabın qeyd etdiyi kimi, mən artıq 7 dəfə bu Forumda iştirak etmişəm. Deyə bilərəm ki, bu iştirak, müzakirələrə qatılmaq, dünyanın biznes elitası ilə ünsiyyət iqtisadiyyatımızı şaxələndirməkdə bizə çox yardım etdi. Çünki bizim iqtisadi inkişafımız enerji sektoru ilə başlayır və bu sektor hələ də xarici sərmayələr üçün cəlbedici sahə kimi qalır.

Hazırda əsas məqsədimiz iqtisadiyyatı şaxələndirməkdir. Bunu etmək üçün biz dünyanın biznes icmasına özümüzü nəinki mühüm coğrafi mövqeyi və təbii sərvətlərə malik olan ölkə, o cümlədən islahatlara, dəyişikliklərə və şaxələndirməyə sadiq olan bir ölkə kimi təqdim etməliyik. Deyə bilərəm ki, Dünya İqtisadi Forumu, eləcə də Davosda keçirilən görüşlər sayəsində açılan imkanlar Azərbaycanı keçmişdə, ümumiyyətlə, tanımayan dünya şirkətləri ilə münasibətlərin qurulmasını mümkün edir. Ölkəmiz kifayət qədər gəncdir, müstəqilliyimizin 21 yaşı vardır. Lakin Azərbaycan böyük tarixə, adət-ənənələrə, mədəniyyətə malik olan ölkədir. Əminəm ki, sizin Azərbaycanı daha yaxşı tanımaq şansınız olacaqdır. Bununla belə, müstəqil ölkə kimi biz yalnız 21 ildir ki, yaşayırıq. Professor Şvab qeyd etdi ki, Azərbaycana ilk səfərini hələ 1993-cü ilin mart ayında edib. Ola bilsin ki, həmin vaxtlar gənc, müstəqil ölkəmiz üçün ən ağır vaxtlar olub. Həmin vaxt müstəqilliyimizin yaşı 2 ildən də az idi və o vaxt fikrimcə, Azərbaycanda olan vəziyyət bütün postsovet məkanında ən ağır vəziyyət idi. Daxili çaxnaşmalar, vətəndaş qarşıdurması var idi, Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi və bu hadisələr beynəlxalq səviyyədə tanınan ərazimizin 20 faizinin işğalı ilə nəticələndi.

Lakin 1993-cü il inkişaf baxımından dönüş nöqtəsi oldu. Çünki 1993-cü ilin ortalarından etibarən vəziyyət sabitləşməyə başladı. Biz olduqca ciddi, köklü siyasi və iqtisadi islahatları həyata keçirməyə başladıq və Azərbaycan özünü beynəlxalq ictimaiyyətə təqdim etdi. Bu, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, birpartiyalı sistemdən çoxpartiyalı sistemə, totalitarizmdən demokratiyaya keçid dövrü oldu. Deyə bilərəm ki, tarixi baxımdan 21 il əlbəttə ki, böyük zaman kəsiyi deyildir. Lakin, eyni zamanda, bu, real dəyişikliklər dövrü idi. İslahatların başlanğıc mərhələsində Azərbaycan öz enerji sektoruna böyük sərmayələri cəlb edə bildi. Biz Azərbaycana sərmayə yatırdıqlarına görə, xarici investorlara, böyük enerji şirkətlərinə minnətdarıq. Sonrakı mərhələdə biz iqtisadi inkişafın istiqamətini enerji sektorundan qeyri-enerji sektoruna yönəldə bildik və neft-qaz sahəsinə aid olmayan sektorlara sərmayələr cəlb etdik. Eyni zamanda, siyasi və iqtisadi islahatları davam etdirdik, hazırda bu proses gedir. Bu, gələcək illərdə Azərbaycanda sabit inkişaf üçün imkanlar yaradacaqdır. Bizim çox əlverişli coğrafi mövqeyimiz vardır. Lakin infrastruktur olmadan bu mövqenin böyük əhəmiyyəti yoxdur. Təbii sərvətlərimiz vardır, karbohidrogenlərimizin nəql edilməsi üçün şaxələndirilmiş şəbəkə yaratmışıq. Çünki Azərbaycanın açıq dənizə çıxışı yoxdur. Buna görə də neft və qazımızı nəql etmək üçün boru kəmərlərini çəkməli idik. Bu, 1990-cı illərin sonunda və bu əsrin əvvəlində qarşımızda duran ən böyük vəzifələrdən biri idi. Bu vəzifə uğurla icra edildi. Hazırda bizim şaxələndirilmiş boru kəmərləri şəbəkəmiz vardır. Azərbaycanın neft və qazını beynəlxalq bazarlara və Avropa bazarlarına çıxaran 7 neft-qaz boru kəməri mövcuddur. Eyni zamanda, Azərbaycan karbohidrogenlərin nəqlində Xəzər dənizinin digər sahilində yerləşən tərəfdaşlarımız üçün tranzit rolunu oynamağa başlamışdır.

Lakin son 10 il ərzində əsas məqsədimiz iqtisadiyyatın şaxələndirilməsi olmuşdur. Əgər Azərbaycanın iqtisadi inkişafına nəzər yetirsəniz görərsiniz ki, iqtisadiyyatımız son 10 ildə dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmuşdur. Ümumi daxili məhsul 3 dəfə - 300 faiz, sənaye istehsalı 2,5 dəfə artmışdır. Biz işsizliyi azalda bilmişik, hazırda işsizliyin səviyyəsi 5,2 faizdir. On il əvvəl əhalimizin demək olar ki, yarısı yoxsulluq şəraitində yaşayırdı. Hazırda yoxsulluq səviyyəsi 6 faiz təşkil edir. Büdcə xərcləri demək olar ki, 20 dəfə artıb və inflyasiya isə təxminən 1 faiz səviyyəsindədir. Bu, son 10 il ərzində müşahidə olunan inkişafdır. Biz də əslində nailiyyətlərimizi Dünya İqtisadi Forumunun verdiyi qiymətdə görməkdən çox şadıq. Çünki Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətə davamlılığı baxımından Azərbaycanı 46-cı yerdə qərarlaşdırmışdır və bu sahədə ölkəmiz ardıcıl olaraq dördüncü ildir ki, MDB məkanında birinci yerdədir. Hətta iqtisadi və maliyyə böhranı zamanı iqtisadiyyatımız artmaqda davam etmişdir. Neftin qiymətləri kəskin surətdə aşağı düşdüyü zaman iqtisadiyyatımız yenə də inkişafını davam etdirmişdir. Çünki qeyri-enerji sektorumuz yaxşı nəticələr verməyə başladı. “Fitch”, “Standard & Poor’s”, “Moody’s” kimi əsas kredit reytinqi təşkilatları Azərbaycanın kredit reytinqini bu yaxınlarda yaxşılaşdırmışdır. Bu da islahatların yaxşı göstəricisidir.

Hazırda biz neft gəlirlərini insan kapitalına çeviririk və əsas gələcək məqsədlərimizdən biri təhsildir. Təhsil istənilən ölkənin hər hansı uğurlu inkişafının ən vacib amilidir. Təhsil sahəsinə sərmayələr, universitetlərimiz ilə dünyanın aparıcı universitetləri arasında əlaqələr iqtisadi gələcəyimizi çox ciddi intellektual potensiala əsaslanaraq planlaşdırmağa imkan yaradır. Eyni zamanda, biz hazırda yeni texnologiyalara sərmayə yatırırıq. İndi informasiya-kommunikasiya texnologiyaları sahəsi Azərbaycanda prioritetlərdən birinə çevrilir. Azərbaycan artıq kosmos sənayesinə malik olan məhdud sayda ölkələr klubunun üzvünə çevrilmişdir. Bu ilin fevral ayında ilk peykimiz - "Azərspace-1" uğurla buraxıldı və bu, kosmik sənayenin inkişafının yalnız başlanğıcıdır. Bir sözlə, müstəqillik illəri nəinki siyasi və iqtisadi sistemin dəyişilməsi illəri oldu, bu dövrdə gələcək illərdə gəlir gətirəcək sərmayələr yatırıldı.

İslahatlarımızın əvvəlində müsbət sərmayə mühitinin yaradılması prioritetlərimizdən biri olmuşdur. Son 10 il ərzində Azərbaycana 130 milyard dollardan çox sərmayə qoyulmuşdur. Bu sərmayələrin müəyyən hissəsi xarici investisiyadır. Yaxşı sərmayə mühiti, proqnozlaşdırılan siyasi vəziyyət, ölkədə sabit durum və əlbəttə ki, regional əlaqələr hər bir ölkənin uğuru üçün ilkin şərtlərdən biridir.

Bu gün müzakirə olunan mövzulardan biri, əlbəttə ki, regional əməkdaşlıq və inteqrasiya olacaqdır. Səsvermənin nəticələrini görməkdən çox şad oldum. Yeri gəlmişkən, elə bunu belə də gözləyirdim. Çünki Azərbaycan regional əməkdaşlıqda öz rolunu oynayır. 1990-cı illərin ortalarında başladığımız layihələr nəinki Azərbaycanın iqtisadi inkişafına, o cümlədən geniş regional əməkdaşlığa yönəlmişdir. Biz Xəzər dənizini xarici sərmayələr üçün açıq elan edən ilk ölkə olduq. Biz Xəzər dənizindən Aralıq dənizinə və Qara dənizə dəhliz yaradan ilk ölkəyik. Neft və qaz dəhlizləri sonra ümumi geosiyasi və enerji dəhlizi rolunu oynamağa başladı. Hazırda biz Azərbaycan, Gürcüstan və Türkiyə arasında mühüm dəmir yolu xətti layihəsini yekunlaşdırmaq üzrəyik və bu, dostumuz cənab Starın qeyd etdiyi kimi, sırf regional layihə olmayacaqdır. Bu, Avropanı Asiya ilə Azərbaycan və qonşu ölkələr vasitəsilə bağlayacaq layihə olacaqdır. Böyük fərəh hissi ilə qeyd edirəm ki, biz bu layihənin həyata keçirilməsində nəinki maliyyə resurslarımızla, o cümlədən öhdəliklərimiz və siyasi iradəmizlə əsas rollardan birini oynayırıq. Əlbəttə ki, hökumətimizə gəldikdə, enerji amili artıq əsas prioritet deyildir. Lakin enerji potensialımız regionun, xüsusən də Avropanın enerji təhlükəsizliyində daha böyük rol oynayır və oynayacaqdır.

İki il öncə biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq memorandumu imzaladıq. Bu, hazırda həyata keçirilir. Son dövrün ən mühüm nailiyyətlərindən biri TANAP- Trans-Anadolu boru kəməri layihəsi oldu. İdeya Azərbaycan tərəfindən verilmiş, Türkiyə və Gürcüstandakı tərəfdaşlarımızın güclü dəstəyini almışdır. Azərbaycan bu layihənin həyata keçirilməsi üçün əsas maliyyə öhdəliyini öz üzərinə götürmüşdür və ən azı 100 il xidmət edəcək boru kəmərinin çəkilişinə başlamışdır. Çünki Azərbaycanın nəhəng qaz ehtiyatlarını və regiondakı potensial resursları nəzərə alsaq, bu dəhliz gələn on illiklər ərzində mühüm rol oynaya bilər. Əlbəttə ki, regional əməkdaşlıq yalnız siyasi baxımdan sabit və inkişaf edən ölkələrlə baş tuta bilər.

Biz nəqliyyat marşrutları, əməkdaşlıq və inteqrasiya haqqında danışacağıq. Bu isə yalnız prosesə cəlb olunan bütün ölkələrin eyni münasibəti olduqda mümkündür. Şadam ki, Xəzər regionu, Mərkəzi Asiya və bu regionda Azərbaycan, biz gələcəyimizi sıx münasibətlərdə və əməkdaşlıqda, xalqlarımız üçün daha yaxşı həyatı, ölkələrimiz üçün daha yaxşı gələcəyi təmin etmək məqsədilə səylərimizin inteqrasiyasında və birləşdirilməsində görürük.

Hörmətli dostlar! Bir daha sizi ölkəmizdə salamlamaq istəyirəm. Professor Şvaba və onun heyətinə bu Forumu Bakıda keçirdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu tədbirin nəticələrinin gündəlik həyatımıza çox ciddi təsiri olacaqdır. Region isə daha sabit, proqnozlaşdırılan və çiçəklənən olacaqdır. Çox sağ olun.

**08 aprel 2013 AzerTAC**

**Isgəndəriyyə Kitabxanasının direktoru Dr. Ismayıl Seragəldin Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ münaqişəsi haqqında danışıb**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə təşkil etdiyi Cənubi Qafqaz Forumunda iştirak edəcək Isgəndəriyyə Kitabxanasının direktoru Dr. Ismayıl Seragəldin Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ münaqişəsi haqqında danışıb: "Misir Ərəb Respublikası Azərbaycan torpaqlarının işğal olunması faktını qəbul edir və BMT-nın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin icra olunmamasına qarşı çıxır".

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olan cənab Dr. Ismayıl Seragəldin bildirib ki, "biz alimlər olaraq həqiqəti gələcək nəsillərə və cəmiyyətə təhrif olunmadan çatdırmalıyıq. Iki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana olan torpaq iddiaları ilə başlayıb. Dağlıq Qarabağ və ona aid olan yeddi rayon - ümumilikdə Azərbaycanın 20 faiz ərazisi erməni silahlı qüvvələrinin nəzarəti altındadır".

Cənab Seragəldinin fikrincə, elm həmişə ideologiyaya qalib gələcəkdir, alimlərin həqiqətləri müəyyənləşdirərək cəmiyyətə çatdırmaqla şərq və qərb arasında bir körpü yaratmış oluruq. Dr. Seragəldin Azərbaycana, onun mədəniyyətinə və ən əsası da insanlarına, gənclərinə vurğunluğunu bildirib. Azərbaycan əhalisinin ağır müharibə şəraitindən əziyyət çəkməsinə təəssüf etdiyini bildirib və Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunacağına ümid etdiyini deyib. Dr. Seragəldin dünya mədəniyyətinin incisi olan Isgəndəriyyə Kitabxanasının direktoru, Dünya Elektron Kitabxanasının və Misir Elmlər Akademiyasının rəhbərliyini edir.

**10 aprel 2013**

**Türkiyədə səfərdə olan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Cənubi Qafqaz Forumu ilə bağlı müzakirələr aparır**

Türkiyədə səfərdə olan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Fondunun toplantısı çərçivəsində Yunanıstanın sabiq xarici işlər naziri, millət vəkili Dora Bakoyannislə görüş keçirib. Görüşdə bir sıra məsələlərlə yanaşı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Madrid klubunun mayın 6-8-də Bakıda keçirəcəyi Cənubi Qafqaz Forumu görüşün əsas müzakirə mövzusu olub, bu istiqamətdə fikir mübadiləsi aparılıb. Dora Bakoyannis bu toplantının Şərqlə Qərb arasında bir körpü rolu oynayacağını, mədəniyyətlər və dinlər arasında dialoqun inkişafında xüsusi əhəmiyyət daşıyacağını bildirib.

Qeyd edək ki, 2009-cu ildə isə ATƏT-ə rəhbərliyi zamanı Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün aktivlik göstərən Dora Bakoyannis Cənubi Qafqaz Forumunda Münaqişələrə dair plenar iclasa sədrlik edəcək.

Xatırladaq ki, Cənubi Qafqaz Forumunda dünyanın 50-dən çox ölkəsindən 30-dan artıq sabiq ölkə və hökumət rəhbəri, 200-dən çox dünyanın nüfuzlu elm adamı, strateqlər iştirak edəcəklər. Forumun təşkilinə İsgəndəriyyə Kitabxanası, Fundacion de Paz, Roma Klubu, Gəncə Şəhər İcra hakimiyyəti və bir sıra digər nüfuzlu qurumlar da dəstək göstərir.

**2013-04-11**

**Qlobal Liderlər Alyansın təsis olunması qərara alınıb**

İsgəndəriyyə Kitabxanası, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Foundation for Peace, End Human Trafficking, Diasporla İş üzrə Dövlət Komitəsi və dünyanın bir sıra nüfuzlu qurumlarının dəstəyi ilə Qlobal Liderlər Alyansın təsis olunması qərara alınıb. Alyansın əsas məqsədi qloballaşan dünyada nüfuzlu alimlər, sabiq ölkə və hökumət başçılarından ibarət Ali Qrupun sivilizasiyalararası siyasi, mədəni, dini anlaşmanın yaradılmasında aktiv iştiraklarıdır.Ali Qrupa Latviyanın sabiq Prezidenti Vaira Vike-Freiberga, Finlandiyanın sabiq Prezidenti Tarja Halonen, YUNESKO-nun sabiq Direktoru Federiko Mayor Zaragoza, İsgəndəriyyə Kitabxanasının direktoru İsmayıl Seragəldin, BMT Baş Katibinin müşaviri Nafis Sadik və Əlahəzrət Kraliça Nur daxildir.Alyansın ilk toplantısı mayın 7-8-də Bakı şəhərində keçiriləcək. Mərkəz rolunda isə Vaşınqton, Cenevrə, İsgəndəriyyə və Bakı şəhərləri olacaq.

**12 aprel 2013**

**Bakıda Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) məzunlarının I Ümumdünya Forumu keçirilmişdir**

Aprelin 12-də Bakıda Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) məzunlarının I Ümumdünya Forumu keçirilmişdir. Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər. MDBMİ-nin məzunlarını Bakıda salamlayan Prezident İlham Əliyev "Birlikdə gələcəyə doğru" devizi altında keçirilən bu forumun Bakıda keçirilməsini mühüm tarixi hadisə adlandırdı, onun dostluq şəraitində keçəcəyinə və heç vaxt unudulmayacağına əminliyini bildirdi. Dövlətimizin başçısı dedi: "Bu gün MDBMİ-nin məzunları dünyanın əksər ölkələrində məsul vəzifələr tutur, çox mühüm məsələləri həll edirlər. Əlbəttə ki, bu gün Bakıda keçirilən tədbir bizim təmsil etdiyimiz ölkələrin daha da yaxınlaşmasına təkan verir. Mənim həyatımın 15 ili MDBMİ ilə bağlıdır. Əvvəlcə təhsil, sonra aspirantura və iş. Bunlar unudulmaz illər idi. Yəqin ki, hər kəs üçün gənclik, yetkinlik illəri həyatın ən yaxşı dövrüdür. Mənim də MDBMİ-də aldığım bilik və təcrübə, tam səmimiyyətlə və mübaliğəsiz deyim ki, mənə işimdə kömək edir". MDBMİ-nin böyük ənənələrinin bu gün də yaşadığını vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev bu işdə əməyi olan insanlara - müəllimlərə təşəkkürünü bildirdi. Bu mötəbər tədbirdə MDBMİ-nin sabiq rektoru Nikolay Lebedevin və hazırkı rektoru Anatoli Torkunovun iştirak etdiyini qeyd edən dövlətimizin başçısı vurğuladı ki, məhz belə şəxslərin xidmətləri sayəsində MDBMİ dünyada tanınmış nüfuzlu ali məktəbə çevrilmişdir. "Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu bu gün dünyada xarici əlaqələr sahəsində təhsil verən aparıcı ali məktəblərdən biridir",-deyən Azərbaycan Prezidenti hazırda institutun məzunlarının dünyanın bir çox yerlərində uğurla fəaliyyət göstərdiklərini diqqətə çatdırdı. Prezident İlham Əliyev son illərdə Azərbaycanda gedən proseslər barədə danışdı, müstəqilliyin ilk illərinin ölkəmizin həyatında xaos, böhran, vətəndaş qarşıdurması, iqtisadi tənəzzül dövrü kimi qaldığını bildirdi. Bu vəziyyətdən Azərbaycanın yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra çıxdığını deyən dövlətimizin başçısı son 10 ildə ölkəmizin qazandığı uğurlar barədə də Forumun iştirakçılarına məlumat verdi. Azərbaycan Prezidenti bildirdi ki, bu illərdə ölkəmizin iqtisadiyyatı üç dəfə artmışdır. Sənaye, kənd təsərrüfatı sahələrində böyük nəticələr əldə olunmuşdur.

Ölkəmiz iqtisadi inkişafına görə dünyada lider dövlətə çevrilmişdir. Hazırda iqtisadiyyatın şaxələndirilməsi və neftdən asılılığın azaldılması istiqamətində tədbirlərin görüldüyünü deyən Prezident İlham Əliyev cari ilin fevralında peykini orbitə buraxan Azərbaycanın artıq Kosmik Klubun üzvünə çevrildiyini, İKT və turizmin inkişafı ilə bağlı ölkədə tədbirlərin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu uğurları beynəlxalq reytinq agentlikləri də təsdiqləyirlər. Dünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan iqtisadi inkişafına görə 46-cı, MDB məkanında isə birinci yerdədir. Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət sahəsində ciddi uğurların olduğunu, tərəfdaşlarla əlaqələrin möhkəmləndiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, 155 ölkənin səsini alaraq BMT Təhlükəsizlik Şurasının üzvü olan Azərbaycan bu gün qlobal miqyasda beynəlxalq məsələlərdə fəallıq göstərir. Ölkəmizin müstəqil siyasi xəttinin olduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına da üzv olduğunu, bu hadisənin xarici siyasətimizin qlobal miqyasda mühüm elementə çevrildiyini diqqətə çatdırdı. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və məsələ yalnız beynəlxalq hüququn normaları, o cümlədən beynəlxalq təşkilatların qərar və qətnamələri çərçivəsində həll olunmalıdır. Prezident İlham Əliyev vurğuladı ki, hazırda BMT Təhlükəsizlik Şurasının bəzi ölkələrlə bağlı qərarların bir neçə saat ərzində yerinə yetirilməsinə baxmayaraq, bu təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnaməsi 20 ildir ki, icra olunmur. Sonda Azərbaycan Prezidenti bir daha MDBMİ-nin Bakıda toplaşan məzunlarının I Ümumdünya Forumunun işinə uğurlar arzuladı.

MDBMİ-nin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki Anatoli Torkunov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin forumun iştirakçılarına təbrik məktubunu oxudu. Çıxışında Anatoli Torkunov rəhbərlik etdiyi ali təhsil ocağının tarixi, keçdiyi inkişaf yolu barədə məlumat verdi və tarixən formalaşan ənənələrin institutun mövcud olduğu 70 illik dövr ərzində davam etdiyini vurğuladı. Bu gün MDBMİ-ni bitirənlərin bir çox ölkələrdə də uğurla fəaliyyət göstərdiyini deyən Anatoli Torkunov bu foruma dünyanın 32 ölkəsindən məzunların gəldiyini diqqətə çatdırdı. İnstitut xarici dillərin tədrisinin sayına görə Ginnesin Rekordlar Kitabına düşmüşdür. MDBMİ-nin dünya təhsil reytinqində yüksək yerlərdə dayandığını deyən rektor bu yüksək səviyyəli tədbirim təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Rossotrudniçestvonun rəhbəri, MDB işləri üzrə Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi, MDBMİ-nin Qəyyumluq Şurasının üzvü Konstantin Kosaçev MDBMİ-nin məzunu, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun təbrik məktubunu oxudu. Konstantin Kosaçev MDBMİ-nin məzunlarının Bakıda toplaşmasını sevindirici hadisə adlandıraraq, forumun təşkilinə görə minnətdarlığını bildirdi. Sonra MDBMİ-nin himni ifa olundu. Daha sonra forum işini sessiyalarda davam etdirmişdir.

**12 aprel 2013**

**Danimarkanın paytaxtı Kopenhagendə yaradılmış "Azərbaycan Evi"ndə "Vətən" Cəmiyyəti Gənclər Təşkilatı İdarə Heyətinin növbəti yığıncağı keçirilib**

Aprelin 14-də Danimarkanın paytaxtı Kopenhagendə yaradılmış "Azərbaycan Evi"ndə "Vətən" Cəmiyyəti Gənclət Təşkilatı İdarə Heyətinin növbəti yığıncağı keçirilib. Tədbirdə gənclər görüləcək işlər, gözlənilən tədbirlərin təşkili ilə bağlı müzakirələr aparıblar. Toplantıda çıxış edən "Vətən" cəmiyyətinin sədri Səfər Sadiqi "Skandinaviya Azərbaycan Gənclərinin Birliyini " yaratmağı təklif edib. Səfər Sadiqi qeyd edib ki, bu birliyin təsis olunması Skandinaya ölkələrində yaşayan azərbaycanlı gənclər arasında əlaqələrin daha da sıx olmasına zəmin yaradacaq. Cəmiyyət sədrinin təklifi məqsədəuyğun sayılıb və ideyanın həyata keçirilməsi üçün təşkilat komitəsi yaradılıb. "Vətən" Cəmiyyəti Gənclət Təşkilatı İdarə Heyətinin yığıncağında yaxın aylarda Danimarka universitetlərinin birində "Azərbaycanın bu günü və sabahı" mövzusunda seminarın keçirilməsi məsələsi də müzakirə olunub.

Qeyd edək ki, tədbirdə uzun müddətdir İsveçdə fəaliyyət göstərən "Xəzər" Cəmiyyətinin sədri leyla Kianide iştirak edib. Leyla Kiani Isveçdə fəaliyyət gösətərn "Gənclər təşkilatı" barədə məlumat verib, onların təcrübəsindən danışıb. Toplantıya Azərbaycan filminin nümayişi ilə yekun vurulub.

**14 aprel 2013**

**Cənubi Qafqaz Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olacaq Bolqarıstan Respublikasının sabiq Prezidenti Petar Stoyanov (1997-2002) təşkilatçılara xüsusi müraciət etmişdir**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə təşkilatçılığı ilə keçirilən Cənubi Qafqaz Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olacaq Bolqarıstan Respublikasının sabiq Prezidenti Petar Stoyanov (1997-2002) təşkilatçılara xüsusi müraciət etmişdir. "Gözəl ölkəniz Azərbaycana dünyanın siyasi, elmi, mədəni elitasının ən nüfuzlu simalarını gətirərək Azərbaycan və regionda açıq cəmiyyət mövzusunda müzakirələrin təşkil olunması təşəbbüsü çox önəmli bir addımdır.

Belə bir mötəbər və nüfuzlu dünya miqyaslı tədbirdə iştirak etmək hər birimiz üçün çox önəmli hadisədir". Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə reallaşdırdığı Cənubi Qafqaz Forumu dünyanın 60-dan çox ölkəsindən 400-ə yaxın beynəlxalq mütəxəssisləri, 50-dən çox sabiq ölkə və hökumət başçılarını bir yerə toplayacaq. Forumun əsas tərəfdaşları, Diasporla İş üzrə Dövlət Komitəsi, İsgəndəriyyə Kitabxanası, Foundation for Peace, Gəncə şəhər İcra Hakimiyyətidir.

**16 aprel 2013**

**Dünya Azərbaycanlı Gənclər Birliyinin nümayəndəsi, Almaniya Azərbaycanlı Gənclər Birliyinin (AAGB) rəhbəri Elnur Richter Almaniyanın sabiq kansleri Gerhard Şröder ilə görüşüb**

Aprelin 16-da Dünya Azərbaycanlı Gənclər Birliyinin nümayəndəsi, Almaniya Azərbaycanlı Gənclər Birliyinin (AAGB) rəhbəri Elnur Richter Almaniyanın sabiq kansleri Gerhard Şröder ilə görüşüb. Görüş zamanı AAGB-nin prezidenti rəhbərlik etdiyi təşkilatın fəaliyyəti, xalqımızın mədəni irsinin Almaniyada təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işləri barədə ətraflı məlumat verib.

Cənab Gerhard Şröder tarixi baxımdan olduqca qısa bir müddətdə Azərbaycanın müstəqil dövlət kimi bütün dünyada tanınmasında və dünya birliyində öz layiqli yerini tutmasında əldə etdiyi misilsiz nailiyyətlərini vurğulayıb. Görüşün sonunda cənab Gerhard Şröderə Heydər Əliyev Fondunun “Azərbaycan” adlı kitab silsiləsini hədiyyə edib.

**16 aprel 2013**

**Almaniyada yaşayan azərbaycanlılar Münhen şəhərində irqi ayrı-seçkiliyə, millətçiliyə qarşı etiraz nümayişi keçirmişdir**

2013-cü il aprelin 17-də Almaniyada yaşayan azərbaycanlılar türk diasporuna dəstək məqsədilə Münhen şəhərində irqi ayrı-seçkiliyə, millətçiliyə qarşı etiraz nümayişi keçirmişdir. Avropa Azərbaycanlıları Konqresi və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin təşkil etdiyi aksiya Münhen Baş Əyalət Məhkəməsinin qarşısında baş tutmuşdur. Təxminən 600-dək soydaşımızın qatıldığı izdihamlı mitinqin iştirakçıları irqi ayrı-seçkiliyi, millətçiliyi pisləyən bəyanatlarla çıxış etmişlər.

**17 aprel 2013**

## İsveçdə Azərbaycan diasporu

**Azərbaycan diasporunun fəaliyyət göstərdiyi ölkələrdən biri də İsveçdir. İsveç də yaşayan soydaşlarımızın təqribi sayı 30 minə çatır. Azərbaycandan İsveçə mühacirəti XIX əsrin sonu - XX əsrin əvvəllərindən başlayıb.**

Əsasən Cənubi Azərbaycandan bu ölkəyə köçən azərbaycanlılar artıq XX əsrin ortalarında burada icmalarını yarada biliblər. Hazırda çoxsaylı media orqanları və təşkilatlarının fəaliyyət göstərdiyi İsveçdə soydaşlarımız fəal təbliğat işi apara bilir. İsveçdə Azərbaycanla bağlı bir çox tarixi sənədlərə və məlumatlara rast gəlmək olar. Xüsusilə, Upsala Universitetində Azərbaycan ədəbiyyatı, folkloru və tarixinə aid onlarla sənəd və material var. Azərbaycanlılar İsveçin bir çox şəhərlərində məskunlaşmışlar. İsveçin "Dag lus Nyhyer" ("Gündəlik xəbərlər") qəzetində verilən məlumata görə, təkcə 2002-2003-cu illər də İsveç vətəndaşlığına 1000-dən çox azərbaycanlı daxil olmuşdur. İsveçdə cənubi azərbaycanlılar çoxluq təşkil edir. Onların əksəriyyəti 20 ildən çoxdur İsveçdə yaşayır və bu ölkənin cəmiyyətinə artıq uyğunlaşıb. Azərbaycan Respublikasından olan miqrantlar, əsasən, son illər ərzində İsveçə mühacirət etmişlər. Azərbaycanın dəstəyinə ehtiyaclarını gizlətməyən İsveç azərbaycanlıları informasiya sahəsində bir qədər fəaldırlar. Soydaşlarımız burada “Tribun”, “Varlıq”, “Azərbaycan”, “Araz” və s. qəzet və jurnallar nəşr edirlər. İsveç Parlamentində “Azərbaycan dostları” qrupu mövcuddur.

İsveçdə çoxsaylı Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir ki, bunlardan da biri **AFİ-Azərbaycan Federasiyası İsveçdir.** Federasiya ölkə üzrə milli təşkilatların əksəriyyətini ("Durna", "Ulduz", "Az link", "Günəş", "Ərk", "Savalan", "Azərbaycan Dostluq", "Yanar", "Azər", "Təbriz", "Akademik Mərkəz", "Oyanış", "Varlıq", "Türk-Az", "Babəkin şopinq", "21 Azər" və başqa təşkilatları) özündə birləşdirə bilib. Azərbaycan Federasiyası İsveç bu ölkədə fəaliyyət göstərən milli təşkilatlar tərəfindən 1998-ci ildə təsis edilib. Təşkilatın məqsədi İsveçdə yaşayan azərbaycanlılar və burada fəaliyyət göstərən milli təşkilatlar vasitəsilə Azərbaycan mədəniyyətini, tarixini, dilini, adət-ənənələrini yaşatmaq, Qarabağ və digər bölgələrin işğal edilməsini, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın problemlərini ölkə ictimaiyyətinə, eləcə də İsveçdə fəaliyyət göstərən beynəlxalq təşkilatlara və dövlət strukturlarına çatdırmaqdır. Azərbaycan və onunla bağlı problemləri İsveç toplumu və quruluşlarına tanıtmaq, İsveçdə yaşayan azərbaycanlıların bu topluma inteqrasiyasına çalışmaq da federasiyasının başlıca prioritetləridir. Eyni zamanda AFİ İsveçdə fəaliyyət göstərən Azərbaycan dərnəkləri, fəal şəxslər arasında əlaqələrin qurulmasına yardım edir. İsveç mediasında Azərbaycan dilində proqramların yayımının təşkili də AFİ-nin qarşısına qoyduğu vəzifələrdəndir. Azərbaycan Federasiyası İsveç hazırda Səttar Sevigin rəhbərliyi altında fəaliyyət göstərir.

**“Babək” Kültür Dərnəyi-“Babək”** Kültür Dərnəyinin əsası İsveçin Linşoping şəhərində 1990-cı ildə qoyulmuşdur. Zaman-zaman dərnəyin fəaliyyətində fasilələr yaranmış, hətta dövlət orqanlarındakı rəsmi qeydiyyatı ləğv edilmişdir. Lakin bu ləğvolunma uzun sürməmiş, 2007-ci ilin sentyabr ayında 48 nəfər üzvün iştirakı ilə dərnək yenidən formalaşdırılmışdır. Dərnəyin Linşopingdə yaşayan azərbaycanlılarla bərabər qonşu qəsəbə və şəhərlərdən olan üzvləri də vardır. Dərnəyin məqsədi Azərbaycan mədəniyyət kursları təşkil etmək, gənclərin mədəni şüurunu istiqamətləndirmək, bununla bağlı müxtəlif təşəbbüslər göstərməkdir. “Babək” Kültür Dərnəyinin rəhbəri Aslan Ərəbluidir.

**“Xəzər” Azərbaycan-İsveç Dostluq Cəmiyyəti-“Xəzər”** Azərbaycan-İsveç Dostluq Cəmiyyəti 1999-cu ildə İsveçin Malmo şəhərində yaradılmışdır. Cəmiyyətin üzvləri həm cənubdan, həm də şimaldan olan kimliyini danmayan, Azərbaycan türkü olması ilə fəxr edən insanlardan ibarətdir. Cəmiyyəti yaratmaqda məqsəd azərbaycanlıları bir araya gətirmək, milli adət-ənənələrimizi qoruyub yaşatmaq, İsveç cəmiyyətinə inteqrasiya olmaq, isveçlilərlə sıx əlaqə saxlamaq və onlara ölkəmizi, tariximizi, mədəniyyətimizi, musiqimizi tanıtmaqdır. “Xəzər” Azərbaycan-İsveç Dostluq Cəmiyyəti yalnız Malmodəki dərnəklərlə deyil, digər şəhərlərdəki təşkilatlarla da əlaqə saxlayır. Son illərdə isə Danimarkada fəaliyyət göstərən “Vətən” Cəmiyyəti ilə sıx əməkdaşlıq edir, Malmodəki türk, türkmən cəmiyyətlərinin tədbirlərində fəal iştirak edir. “Xəzər” Azərbaycan-İsveç Dostluq Cəmiyyətinə Leyla Kiani rəhbərlik edir.

İsveç Azərbaycanlıları Konqresi-İsveç Azərbaycanlıları Konqresinin təsis qurultayı 2010-cu ilin iyununda İsveçin paytaxtı Stokholm şəhərində keçirilmişdir. Tədbir 15 Azərbaycan diaspor təşkilatının iştirakı ilə baş tutmuşdur. İsveç Krallığında fəaliyyət göstərən bir neçə diaspor təşkilatının bu qurumu yaratmaqda məqsədi Azərbaycan həqiqətlərini, tarixini, mədəniyyətini yaşadıqları ölkənin ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Eyni zamanda, vahid diaspor təşkilatı kimi bu yolla Azərbaycan icmaları, cəmiyyətləri arasında əlaqələri inkişaf etdirmək, onların imkanlarını və güclərini səfərbər etmək, bu qurumların fəaliyyətini koordinasiya etmək, mövcud problemləri birlikdə çözməkdir. İsveç Azərbaycanlıları Konqresinin sədri **Emil Mirzəyevdir.**

**“Olaylar”.-2013.-17 aprel.-№66.-S.15.**

**Misir Ərəb Respublikasının Prezidenti Məhəmməd Mursinin rəhbərliyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Qlobal Liderlər Şurasının əsas təsisçi qurumlarından biri olan məşhur İsgəndəriyyə Kitabxanasının Direktorlar Şurasının toplantısı keçirilmişdir**

Misir Ərəb Respublikasının Prezidenti Məhəmməd Mursinin rəhbərliyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Qlobal Liderlər Şurasının əsas təsisçi qurumlarından biri olan məşhur İsgəndəriyyə Kitabxanasının Direktorlar Şurasının toplantısı keçirilmişdir.

Prezident Mursi İsgəndəriyyə Kitabxanasının həm Misirin, həm də dünya mədəniyyətində oynadığı önəmli rolu vurğulayaraq Misir hökumətinin hər zaman kitabxananın işinə yardım edəcəyini bildirmişdir.

Görüşdə Qlobal Liderlər Şurasının Ali Nümayəndələri Latviyanın keçmiş prezidenti Vayra Vike-Freyberqa və Dr. İsmayıl Serageldin toplantı zamanı Məhəmməd Mursiyə Azərbaycanda keçiriləcək Cənubi Qafqaz Forumu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi haqqında geniş məlumat vermişlər.

Misir Ərəb Respublikasının Prezidenti Məhəmməd Mursi Nizami Gəncəvinin yaradıcılığının böyük maraq doğurduğunu vurğulayaraq şairin irsinin Misirdə daha da geniş araşdırılmasını, Misirin bu forumda fəal iştirakını tövsiyə etmiş və Azərbaycanda keçiriləcək beynəlxalq əhəmiyyətli foruma uğurlarını arzulamışdır.

**18 aprel 2013**

**İstanbulda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası nəzdində diaspor məsələləri üzrə Təmas qrupunun ilk toplantısı keçirilib**

Aprelin 18-19-da İstanbulda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası nəzdində diaspor məsələləri üzrə Təmas qrupunun ilk toplantısı keçirilib. İclasa Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Baş katibi Halil Akıncı sədrlik edib. Toplantıda Azərbaycan tərəfini Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Nəriman Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.İclasda "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" layihəsi geniş müzakirə olunub. Layihə ilə bağlı Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan nümayəndələrinin təklifləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Bütün tərəflərin rəy və təklifləri dinlənildikdən sonra layihəyə müvafiq əlavə və dəyişikliklər edilib.

Təmas qrupunun üzvləri sənəd layihəsinin Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor məsələlərinə cavabdeh dövlət qurumları rəhbərlərinin toplantısında təsdiq olunmağa hazır olduğunu bildiriblər.Daha sonra müvafiq məsləhətləşmələr əsasında Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor məslələrinə cavabdeh dövlət qurumları rəhbərlərinin görüşünün may ayının14-də Ankara şəhərində keçirilməsi qərara alınıb. Bu görüşdə "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" layihəsi dörd ölkənin müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən təsdiq olunacaq.

Toplantı zamanı Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının I forumu ilə bağlı müzakirələr aparılıb. İştirakçı ölkələlərin təmsilçiləri forumun 2013-cü il iyun ayının 21-də Bakı şəhərində keçirilməsi barədə Azərbaycan tərəfinin təklifini dəstəklədiklərini bildiriblər. Qərara alınıb ki, forumda iştirak edəcək ölkələr müəyyən vaxt ərzində kvotaya uyğun olaraq foruma qatılacaq nümayəndələrin siyahısını Türkdilli ölkələrin Əməkdaşlıq Şurasına təqdim etsinlər. Təmas qrupunun iclasında Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının I forumunun gündəliyi, müzakirəyə çıxarılacaq məsələlər, birgə əmkdaşlığın mümkün istiqamətləri ilə bağlı bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**18 -19 aprel 2013**

**“Diaspora təşkilatlarımız Azərbaycanın milli maraqlarının sistemli şəkildə qorunmasında fəal rol oynamalıdırlar”**

***İlqar İlkin: “Biz diaspora təşkilatlarımızı sadəcə mitinqlərdə deyil, həm də nüfuzlu qurumlarla birlikdə strateji məsələlərin həllindəki müzakirələrdə görmək istərdik”***

***Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin icra katibi, Milli Qeyri Hökumət Təşkilatları Forumunun diaspora və lobbiçilik departamentinin müdiri İlqar İlkinin “OLAYLAR”a müsahibəsi***

-İlqar bəy, Milli Qeyri Hökumət Təşkilatları Forumunun diaspora və lobbiçilik məsələləri üzrə departamenti diaspora sahəsində hansı işləri görməyi nəzərdə tutur və diaspor təşkilatları ilə əlaqələr hansı səviyyədə qurulacaq?

-Milli Qeyri Hökumət Təşkilatları Forumu Azərbaycanda fəaliyyət göstərən 600-dən çox qeyri-hökumət təşkilatını öz ətrafında birləşdirir. Müxtəlif sahələr üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının ölkə üzrə ən böyük koalisiyası olan Milli Qeyri Hökumət Təşkilatları Forumu neçə illərdir ki, beynəlxalq təşkilatlarla da əməkdaşlıq etməkdədir. Bir ay öncə Milli Qeyri Hökumət Təşkilatları Forumunun işində dinamikliyi daha da artırmaq məqsədilə qurumun İdarə Heyəti tərəfindən bir neçə yeni departament formalaşdırıldı ki, bu departamentlərdən biri də diaspora və lobbiçilik departamentidir. Sözügedən departament yeni struktur kimi fəaliyyətə başladı. Əslində, on ildən artıq fəaliyyəti dönəmində Milli Qeyri Hökumət Təşkilatları Forumu diaspora təşkilatları ilə daim əlaqədə olub. Hətta uzun illər MQF-nin tərkibində Diaspora Mərkəzi də fəaliyyət göstərib.Yəni diaspora təşkilatları ilə iş sistemi bu təşkilatda yeni deyildir, sadəcə olaraq bu əlaqələri günün tələblərinə uyğun yeni bir şəkildə canlandırmaq lazımdır. Uzun illər Türk dünyası və Türk diasporaları ilə çalışdığımı nəzərə alaraq bu departamentə rəhbərlik etməyim məsləhət görüldü. İnanıram ki, yaxın vaxtlarda diaspora təşkilatlarımızla milli maraqlarımıza xidmət edən ortaq layihələri davamlı şəkildə gerçəkləşdirə biləcəyik.

**-Departamentin rəhbəri olaraq diaspora və lobbiçilik sahəsində hansı yeniliklər həyata keçirməyi düşünürsünüz?**

-Bizim diaspora təşkilatları adlandırdığımız təşkilatlar həm də fəaliyyət göstərdikləri ölkələrdə bir qeyri-hökumət təşkilatı olaraq təsis olunublar. Fikrimcə, onlar bu statuslarından çıxış etməklə yaşadıqları ölkələrin siyasi, ictimai gündəmində olduqca fəal iştirak etməlidirlər. Diaspora təşkilatlarımız Azərbaycanın milli maraqlarının sistemli şəkildə qorunmasında fəal rol oynamalıdırlar. Təbii ki, onlar bu funksiyaları daşımaları üçün güclü əlaqələrə sahib olmalıdırlar. Biz diaspora təşkilatlarımızı sadəcə mitinqlərdə deyil, həm də nüfuzlu qurumlarla birlikdə strateji məsələlərin həllindəki müzakirələrdə görmək istərdik.

**-Ümumiyyətlə, diaspora sahəsindəki hazırkı vəziyyəti necə qiymətləndirərdiniz?**

-Azərbaycan diasporu deyəndə ilk ağıla gələn parçalanmış və dağınıq halda fəaliyyət göstərən bir mənzərə ilə qarşılaşırıq. Təbii ki, bu vəziyyət ürəkaçan deyildir. Bütün qarşılıqlı ittihamlara bir an son vermək lazımdır. Və artıq diaspora təşkilatları da yaşadıqları ölkələrdə öz kimliyini, mədəniyyətini tanıtmaqla yanaşı, həm də yeni dünya düzəni və gündəmi ilə də ayaqlaşmağı bacarmalıdırlar.

**-Bu günlərdə Türkiyədə II Dünya Türk Forumu keçirildi. Forumda əsas etibarilə müzakirə edilən məsələlər hansılar idi?**

-Türkiyə-Asiya Strateji Araşdırmalar Mərkəzinin İstanbulda düzənlədiyi Dünya Türk Forumu sayca ikinci Forum idi. Birinci Forum 2010-cu ildə keçirilmişdir. Bu il keçirilən Forum “Türk diasporaları və Türk dünyası Vizyon 2023” başlığı altında keçirilirdi. Əsasən Türk dünyasının və türk diasporalarının gələcək strategiyalarının müzakirə olunduğu bu Forumun olduqca effektli və faydalı olduğunu düşünürəm. Çünki Türk dünyasının, eləcə də Avropanın düşüncə mərkəzlərinin qatıldığı bu Forumda Türk dünyasının gələcək strategiyasına yönələn fikir və təkliflər səsləndirildi. Forumda “Türk Dünyası və Türk Şurası 2023 Vizyonu”, “Türk Diasporaları 2023 Vizyonu”, “Müstəqilliyinin 30-cu ilində Türk dövlətləri Vizyonu”, “Yurtdışı türklər və Akraba Topluluklar başkanlığı Vizyon 2023”, “Türkiyə və müstəqil Türk Dövlətləri əlaqələrində əksikliklər və yeni arayışlar”, “Erməni diasporası – 2015 və Türk Diasporaları – 2023 Vizyonu” başlığı altında keçirilən müzakirələr irəliyə baxış tədbirlərinin əsas qayəsi idi. Mən bu Foruma Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin (ATXƏM) nümayəndəsi olaraq qatıldım və “Erməni diasporası 2015 və türk Diasporaları 2023 Vizyon” bölümündəki müzakirələrdə türk diasporalarının birlik və bərabərlik içərisində çalışmaları üçün təkliflərlə çıxış etdim. Təbii ki, öz çıxışımda Azərbaycanın işğal olunmuş torpaqlarındakı durumla bağlı nüfuzlu beynəlxalq təşkilatların çıxardığı qərarları gündəmə gətirərək, bu qərarların yerinə yetirilməsi üçün birgə əməkdaşlığın formalarını və istiqamətlərini də qeyd etdim.

**-Bu forum türk dünyasının diasporlarının birgə fəaliyyət göstərməsi baxımından nə dərəcədə əhəmiyyət kəsb edir?**

-Artıq biz bütün sahələrdə Türk Dünyasının birliyinə yönəlik fəaliyyətləri hiss etməkdəyik. Türk Dünyasının birliyi istiqamətində dövlət rəsmiləri tərəfindən siyasi iradə ortaya qoyulub və hər keçən gün bu məqsədlərə doğru daha aydın addımlar atılmaqdadır. Təbii ki, bu strateji xətt Türk diaspora təşkilatlarının fəaliyyətində də hiss olunmalıdır. Türk Dünyasının ortaq problemləri mövcuddur və bütün Türk diasporaları öz fəaliyyətlərini həm də beynəlxalq aləmdə bu problemlərin həll olunmasına səfərbər etməlidirlər. Təbii ki, biz Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində həmin Türk diasporalarının birgə səmərəli fəaliyyətini daha aydın görmək istəyirik. Forumda müzakirə olunan əsas məsələlərdən biri də məhz bu idi ki, Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsində Türk diasporalarının necə bir xətt yürütmələri faydalı ola bilər. Fikrimcə, biz artıq dünyada fəaliyyət göstərən bütün Türkdilli xalqların diaspora təşkilatlarını vahid mərkəzdən idarə olunan bir koordinasiya şurasını da yaratmalıyıq.

**“Olaylar”.-2013.-19aprel.-№68.-S.15.**

**Azərbaycanda səfərdə olan israilli jurnalistlər qrupu Diasporla İş üzrə Dövlət Komitəsində görüş keçiriblər. KİV nümayəndələrini komitə sədrinin birinci müavini Valeh Hacıyev qəbul edib**

Bir neçə gündür Azərbaycanda səfərdə olan israilli jurnalistlər qrupu Diasporla İş üzrə Dövlət Komitəsində görüş keçiriblər. KİV nümayəndələrini komitə sədrinin birinci müavini Valeh Hacıyev qəbul edib. Qonaqları salamlayan Valeh Hacıyev azərbaycanlı-yəhudi dostluğunun tarixi köklərindən danışıb. Valeh Hacıyev bildirib ki, hər zaman beynəlmiləl və tolerant ölkə olan Azərbaycanda digər millətlərin nümayəndələri ilə yanaşı, yəhudilərlə də daim mehriban və isti münasibətlər hökm sürüb: "Məhz belə münasibətlərin nəticəsidir ki, Azərbaycandan köçüb getmiş və hazırda müxtəlif ölkələrdə yaşayan yəhudilər azərbaycanlılar qədər Azərbaycana xidmət edir. Ölkəmizin üzləşdiyi problemlərin, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında yəhudi diasporunun böyük xidməti var".Azərbaycandan İsrailə köçüb getmiş yəhudilərlə əlaqələrdən danışan Valeh Hacıyev bu istiqamətdə "İsrail-Azərbaycan" Beynəlxalq Cəmiyyətinin ("AZİZ") fəaliyyətini xüsusi qeyd edib. "Bu təşkilat Azərbaycanla İsrail arasında illərlə formalaşmış dostluğu daha da möhkəmləndirir və inkişaf etdirir".

Görüşdə iştirak edən "AZİZ" İsrail-Azərbaycan təşkilatının təmsilçisi Lev Spivak İsrail media nümayəndələrinin belə geniş tərkibdə Azərbaycanda ilk dəfə olduğunu bildirib və gələcəkdə bu cür səfərlərin mütəmadi təşkilinə ümidvar olduğunu deyib. Görüşdə Azərbaycan diaspor təşkilatları, onların fəaliyyəti ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb. Qeyd edək ki, israilli jurnalistlər Azərbaycan XİN-də, Milli Məclisdə görüşlər keçirib, Quba Soyqırım Məzarlığında olub, əsasən yəhudilərin məskunlaşdığı Qırmızı Qəsəbəyə baş çəkib və Azərbaycan mədəniyyəti, tarixini əks etdirən abidələri ziyarət ediblər.

**19 aprel 2013**

## Mənzil qərargahı Amsterdamda yerləşən Benilüks Azərbaycanlıları Konqresi ətrafında yeni təşkilatları birləşdirir

Mənzil qərargahı Amsterdamda yerləşən Benilüks Azərbaycanlıları Konqresi ətrafında yeni təşkilatları birləşdirir. Aprelin 21-də Niderland Krallığının Brabant əyalətində yeni təşkilatın yaranması üçün ilk addımlar atılıb. BAK-ın ətrafında yaradılan "Brabant Əyaləti Azərbaycanlıları Məclisi" əyalətdə yaşayan azərbaycanlıları öz ətrafında birləşdirmək üçün krallığın Tiburq şəhərində toplantı keçirib. Toplantıda yeni təşkilatın idarə heyəti seçilib, müxtəlif şöbə və komissiyalar yaradılıb.

BAK sədrinin müavini Ofelya Babayeva qurumun sədri seçilib. mişdir. "Brabant Əyaləti Azərbaycanlıları Məclisi" BAK-ın yeni təşkilatları öz ətrafında birləşdirmək layihələrindən biridir. BAK-ın əsas məqsədi Niderland Krallığında və digər Benilüks ölkələrinin əyalətlərində yaşayan azərbaycanlıları Azərbaycanla bağlı həqiqətləri yaşadıqları ölkələrdə təbliğ etmək istiqamətində bir araya gətirməkdən və təşkilatlandırmaqdan ibarətdir. Bu günlərdə Niderlandın şimal əyalətlərində yaşayan soydaşlarımız da təşkilatlanaraq BAK ətrafında sıx birləşmək üçün təşəbbüs qrupu yaradıblar. Bir neçə aydan sonra əyalətin paytaxtı Haarlem şəhərində "Şimali Hollandiya Azərbaycanlıları İttifaqı" təşkilatının fəaliyyəti rəsmiləşdiriləcək. Bu tendensiya soydaşlarımızı bir araya gətirmək və BAK ətrafında sıx birləşdirmək üçün Benilüks məkanının bütün əyalətlərində davam etdiriləcək.

**21 aprel 2013**

**Almaniyanın Frankfurt Sülh Tədqiqatları İnstitutunun (PRIF) elmi əməkdaşı, həmyerlimiz Azər Babayevin tanınmış beynəlxalq elmi-tədqiqat "Democratization" jurnalında geniş elmi məqaləsi dərc edilmişdir**

Berlin, 22 aprel (AzərTAc). Almaniyanın Frankfurt Sülh Tədqiqatları İnstitutunun (PRIF) elmi əməkdaşı, həmyerlimiz Azər Babayevin tanınmış beynəlxalq elmi-tədqiqat "Democratization" jurnalında geniş elmi məqaləsi dərc edilmişdir. "Demokratiyaya dəstək "siyasi" və "sosial" yanaşmalar burulğanında: ABŞ-ın və Almaniyanın Belarus siyasətlərinin müqayisəsi" sərlövhəli məqalə gənc tədqiqatçının ABŞ-ın və Almaniyanın timsalında Qərbin Belarus siyasətinə dair uzunmüddətli elmi tədqiqatına həsr olunmuşdur.

Qeyd edək ki, Almaniyanın ilk və ən böyük sülh tədqiqatı institutu olan PRIF ölkə üzrə 86 tədqiqat institutunu birləşdirən Leybniz cəmiyyətinin üzvüdür. İnstitutun əsas məqsədi beynəlxalq və daxili münaqişələrin araşdırılması, sülh şərtlərinin tədqiq edilməsi və sülh ideyasının dəstəklənməsidir. Həmçinin siyasi məşvərət funksiyasını həyata keçirən institutun əldə etdiyi tədqiqat nəticələri alman federal hökumətinin bu istiqamətdə konkret siyasi qərarlarının qəbul olunmasına da öz töhfəsini verir.

A.Babayev hazırda həmin tədqiqat institutunda "Hakimiyyət və ictimai sülh" tədqiqat departamentinin elmi əməkdaşı kimi akademik karyerasını davam etdirir. O, artıq regionda gedən siyasi proseslərə, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məqalələri, çıxışları, habelə təşkil etdiyi konfransları ilə alman elmi dairələrində Cənubi Qafqaz regionu üzrə ekspert kimi tanınır.

"Democratization" jurnalı ildə 6 dəfə nəşr olunur və beynəlxalq siyasi-elmi dairələrdə tədqiqat nəticələrinin mühüm təqdimat platforması kimi ad qazanmışdır.

**22 aprel 2013**

**Helsinkinin "Caisa" mədəniyyət mərkəzində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş "Qadınların cəmiyyətdə rolu" mövzusunda tədbir keçirilmişdir**

Xüsusi müxbirimiz xəbər verir ki, aprelin 22-də Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Finlandiya-Azərbaycan Assosiasiyasının (FAA) birgə təşkilatçılığı ilə Helsinkinin "Caisa" mədəniyyət mərkəzində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş "Qadınların cəmiyyətdə rolu" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə AzərTAc-ın Helsinkiyə ezam edilmiş əməkdaşları, Finlandiya Türk Cəmiyyətinin, Finlandiya Azərbaycan Assosiasiyasının, Finlandiya Türk Dərnəyinin nümayəndələri və bu ölkənin fəal qadınları, həmçinin digər qonaqlar iştirak etmişlər. İştirakçılar əvvəlcə AzərTAc-ın görkəmli alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyi münasibətilə hazırladığı videoçarxa baxmışlar. Mərasimdə çıxış edən FAA-nın nəzdində fəaliyyət göstərən Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri Arzu Muradlı AzərTAc-la birgə təşkil edilmiş bu tədbirin əhəmiyyətindən danışmış, akademik Zərifə xanım Əliyevanın keçdiyi şərəfli həyat yolu, tibb elminə verdiyi töhfələr barədə söhbət açmışdır. Bildirilmişdir ki, Zərifə xanım Əliyeva ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur. Görkəmli dövlət xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində doğulan Zərifə xanım ulu öndər Heydər Əliyevə mənəvi dayaq, arxa olmuşdur.

A.Muradlı akademik Zərifə Əliyevanın timsalında bütün Azərbaycan qadınlarının qazandıqları uğurlar barədə də danışmışdır. O, bu gün yüksək intellektual düşüncəyə malik, dünya görüşlü Azərbaycan xanımlarının həyatımızın müxtəlif sahələrində çalışdığını diqqətə çatdırmışdır.

Mərasimdə çıxış edən Türkiyənin xaricdə yaşayan türklərlə iş komitəsinin Finlandiyadakı təmsilçisi Mina Eray belə tədbirlərin keçirilməsinin vacibliyini diqqətə çatdırmışdır. Türkiyə təmsilçisi bunun Azərbaycan, türk mədəniyyətinin, incəsənətinin, tarixi reallıqlarının təbliği baxımdan böyük əhəmiyyət daşıdığını qeyd etmişdir. Eyni mədəniyyətə, incəsənətə, tarixə malik Azərbaycan və Türkiyə birliyinin, qardaşlığının xaricdə daha çox diqqət çəkdiyi bildirilmiş, türk qadınlarının bu gün daha böyük uğurlara imza atdığı diqqətə çatdırılmışdır.

Mərasimdə çıxış edən Finlandiya-Türkiyə Körpüsü Cəmiyyətinin idarə heyətinin üzvü Anna Liza ölkəsində yaşayan azərbaycanlılar və türklərlə dostluq münasibətindən söz açmış, xalqlarımızın tarixi, mədəniyyəti və mətbəxi ilə yaxından tanış olduğunu diqqətə çatdırmışdır. Tədbirin əhəmiyyətinə də diqqət çəkən fin xanım, ölkəsində Azərbaycanın tanınmış oftalmoloq alimi Zərifə xanım Əliyevanın 90 illik yubileyi ilə bağlı tədbirin keçirilməsindən məmnunluq ifadə etmişdir.

Tədbir iştirakçıları Finlandiya Yeniyetmə və Gənclər Təşkilatının Azərbaycan haqqında hazırladığı təqdimatla və AzərTAc-ın fotolarından ibarət sərgi ilə də tanış olmuşlar. İştirakçılara ölkəmizin tarixi, mədəniyyəti haqqında kitablar, Azərbaycan və türk mətbəxinin nümunələri də təqdim edilmişdir.

**22 aprel 2013**

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç ilə görüşüb**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç ilə görüşüb. Türkiyənin Azərbaycandakı fövqaladə və səlahiyyətli səfiri İsmayıl Alpər Coşqunun da iştirak etdiyi görüşdə hər iki qurum arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Dövlət Komitəsinin sədri Nazim İbrahimov son illər daha da güclənən türk və Azərbaycan diasporunun birgə fəaliyyətindən danışıb və bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb. Nazim İbrahimov rəhbərlik etdiyi qurumla Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamenti arasında əlaqələri daha da inkişaf etdirmək məqsədilə işçi qrupun yaradılmasını təklif edib. O qeyd edib ki, yaradılacaq işçi qrup vasitəsilə türk və Azərbaycan diasporu arasında koordinasiya daha effektli qurula bilər.

Nazim İbrahimov bu il iyunun 21-də Bakıda keçiriləcək və Türkiyənin də geniş tərkibdə qatılacağı Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının I forumunun da bu istiqamətdə atılan vacib addımlardan biri olduğunu qeyd edib.

Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç isə öz növbəsində bildirib ki, mayın 14-də Ankara Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın diaspor məsələlərinə cavabdeh dövlət qurumları rəhbərlərinin görüşünə ev sahibliyi edəcək. Görüşdə “Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası”nın layihəsi müzakirə olunub təsdiqlənməlidir.

Kemal Yurtnaç da Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyətinin daha effektli olacağını bildirib. “Türk dünyasının ən böyük ehtiyacı beynəlxalq əhəmiyyətli məsələlərdə ortaq mövqedən çıxış edə bilməsidir” – deyən Kemal Yurtnaç tədricən Azərbaycan və türk diasporunun birliyinə, hər iki dövləti və xalqı narahat edən problemlərin həllində birgə fəaliyyətinə nail olduqlarını da qeyd edib: “Ötən il Fransada keçirilən və 35 min insanın iştirak etdiyi yürüşün təşkilində Azərbaycan diasporunun çox böyük dəstəyini gördük”. Türk diasporunun da Xocalı həqiqətlərinin dünyaya çatdırılması fəal iştirak etdiyini deyən Kemal Yurtnaç birgə fəaliyyətin daha da gücləndirilməsinin vacib olduğunu və bu məqsədlə işçi qrupun yaradılması ideyasını dəstəklədiyini bildirib.

**23 aprel 2013**

**AzərTAc-ın Finlandiyaya ezam olunmuş əməkdaşları Aygün Həsənova və Elşən Şahbalayev, Finlandiya-Azərbaycan Assosiasiyasının sədri Vasif Muradlı və təşkilat sədrinin müavini Arzu Oqtay Eduskuntuda (Finlandiya parlamenti) görüş keçirmişlər**

Aprelin 24-də AzərTAc-ın Finlandiyaya ezam olunmuş əməkdaşları Aygün Həsənova və Elşən Şahbalayev, Finlandiya-Azərbaycan Assosiasiyasının sədri Vasif Muradlı və təşkilat sədrinin müavini Arzu Oqtay Eduskuntuda (Finlandiya parlamenti) görüş keçirmişlər.

Görüşdən öncə azərbaycanlı qonaqlar və Assosiasiyanın üzvləri Eduskuntanın iclasında iştiraka dəvət edilmişlər. Parlamentin spikeri Eero Heynyaluomanın sədrliyi ilə keçən iclasda Finlandiyada işçilərin əmək hüquqlarının qorunması, iş yerlərində təhlükəsizlik məsələləri müzakirə olunmuşdur.

Sonra Finlandiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Eero Lehti ilə görüş olmuşdur. Görüşdə Azərbaycan və Finlandiya arasında münasibətlərin inkişafından, ötən ilin noyabrında Finlandiya parlamentində Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan dinləmələrdən danışılmışdır. Deputat iqtisadi sahədə iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğulamışdır. Eyni zamanda parlamentin deputatı ilə Finlandiyada yaşayan azərbaycanlıların təşkilatı məsələlərinin həlli də müzakirə edilmişdir. Eeri Lehti azərbaycanlıların Helsinkidə təşkil edəcəyi tədbirlərdə məmnuniyyətlə iştirak edəcəyini bildirmişdir.

Sonda AzərTAc-ın əməkdaşları Eero Lehtiyə özləri ilə gətirdikləri Azərbaycanın mədəniyyəti, tarixi, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı haqqında kitablar təqdim etmişlər. Deputat bu kitabların Azərbaycanı təbliğ etməkdə zəruri vəsait olduğunu bildirmişdir. O, Azərbaycandan gətirilən kitablara görə AzərTAc-ın əməkdaşlarına minnətdarlığını bildirmişdir.

Görüşdə Finlandiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun yaranmasının təşəbbüskarı, parlamentin deputatı Markus Mustayarvi də iştirak etmişdir.

**24 aprel 2013**

**Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi növbəti yenilik edib**

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi növbəti yenilik edib. Komitə Azərbaycanın diasporları arasında əlaqələri daha da genişləndirmək və möhkəmləndirmək istiqamətindən fəaliyyət göstərir. ANS PRESS-in məlumatına görə, Komitə "İnstagram" şəkil-paylaşma və sosial şəbəkəsində yeni səhifə açıb. "İnstagram"da Diasporla İş üzrə Dövlət Komitəsinin müxtəlif xarici ölkələrdə keçirilən beynəlxalq səviyyəli tədbirlər, konfranslar, forumların şəkillərini paylaşıblar. Hazırda şəkil-paylaşma və sosial şəbəkəyə 277 şəkil yerləşdirilib. Onlara 86 nəfər abunə olub.

**25 aprel 2013**

## Azərbaycan və türk diasporu arasında əməkdaşlıq yeni mərhələdə

**Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi diaspora sahəsində də əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Mütəmadi olaraq keçirilən ikitərəfli görüşlər, konfrans və forumlar iki qardaş ölkənin diaspor təşkilatları arasında yeni-yeni əməkdaşlıq imkanları yaradır, bu sahədə əlaqələri inkişaf etdirir. Xüsusilə, son aylar bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində atılan addımların intensivliyi müşahidə edilir.**

Belə ki, cari il, aprelin 18-19-da İstanbulda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası nəzdində diaspor məsələləri üzrə Təmas qrupunun ilk toplantısı keçirilib. İclasa Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının baş katibi Halil Akıncı sədrlik edib. Toplantıda Azərbaycan tərəfini Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Nəriman Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. İclasda "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" layihəsi geniş müzakirə olunub. Layihə ilə bağlı Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan nümayəndələrinin təklifləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Bütün tərəflərin rəy və təklifləri dinlənildikdən sonra layihəyə müvafiq əlavə və dəyişikliklər edilib. Təmas qrupunun üzvləri sənəd layihəsinin Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor məsələlərinə cavabdeh dövlət qurumları rəhbərlərinin toplantısında təsdiq olunmağa hazır olduğunu bildiriblər. Daha sonra müvafiq məsləhətləşmələr əsasında Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor məsələlərinə cavabdeh dövlət qurumları rəhbərlərinin görüşünün may ayının14-də Ankara şəhərində keçirilməsi qərara alınıb. Bu görüşdə "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" layihəsi dörd ölkənin müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən təsdiq olunacaq. Toplantı zamanı Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının I forumu ilə bağlı müzakirələr aparılıb. İştirakçı ölkələlərin təmsilçiləri forumun 2013-cü il iyun ayının 21-də Bakı şəhərində keçirilməsi barədə Azərbaycan tərəfinin təklifini dəstəklədiklərini bildiriblər. Qərara alınıb ki, forumda iştirak edəcək ölkələr müəyyən vaxt ərzində kvotaya uyğun olaraq foruma qatılacaq nümayəndələrin siyahısını Türkdilli ölkələrin Əməkdaşlıq Şurasına təqdim etsinlər. Təmas qrupunun iclasında Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının I forumunun gündəliyi, müzakirəyə çıxarılacaq məsələlər, birgə əməkdaşlığın mümkün istiqamətləri ilə bağlı bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Bu günlərdə isə Azərbaycan və Türkiyə diaspor təşkilatları arasında birgə əməkdaşlığa yönəlik daha bir görüş keçirilib. Belə ki, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç ilə görüşüb. Görüşdə hər iki qurum arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov son illər daha da güclənən türk və Azərbaycan diasporunun birgə fəaliyyətindən danışıb və bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb. Nazim İbrahimov rəhbərlik etdiyi qurumla Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamenti arasında əlaqələri daha da inkişaf etdirmək məqsədilə işçi qrupun yaradılmasını təklif edib. O qeyd edib ki, yaradılacaq işçi qrup vasitəsilə türk və Azərbaycan diasporu arasında koordinasiya daha effektli qurula bilər. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bu il iyunun 21-də Bakıda keçiriləcək və Türkiyənin də geniş tərkibdə qatılacağı Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının I forumunun da bu istiqamətdə atılan vacib addımlardan biri olduğunu qeyd edib. Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç isə öz növbəsində bildirib ki, mayın 14-də rəsmi Ankara Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın diaspor məsələlərinə cavabdeh dövlət qurumları rəhbərlərinin görüşünə ev sahibliyi edəcək. Bildirilib ki, həmin görüşdə "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası"nın layihəsi müzakirə olunub təsdiqlənməlidir. Kemal Yurtnaç da Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyətinin daha effektli olacağını bildirib. Görüş zamanı Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç qeyd edib ki, Türk dünyasının ən böyük ehtiyacı beynəlxalq əhəmiyyətli məsələlərdə ortaq mövqedən çıxış edə bilməsidir. Kemal Yurtnaç tədricən Azərbaycan və türk diasporunun birliyinə, hər iki dövləti və xalqı narahat edən problemlərin həllində birgə fəaliyyətinə nail olduqlarını da qeyd edib. Diqqətə çatdırıb ki, ötən il Fransada keçirilən və 35 min insanın iştirak etdiyi yürüşün təşkilində Azərbaycan diasporunun çox böyük dəstəyini açıq-aydın görüblər. Türk diasporunun da Xocalı həqiqətlərinin dünyaya çatdırılması fəal iştirak etdiyini deyən Kemal Yurtnaç birgə fəaliyyətin daha da gücləndirilməsinin vacib olduğunu və bu məqsədlə işçi qrupun yaradılması ideyasını dəstəklədiyini bildirib.

**"Olaylar".-2013.-25 aprel.-№ 72.-S.15.**

**İsveç Azərbaycanlıları Konqresinin (İAK) nümayəndələri Şərqi Avropada "dondurulmuş" münaqişələrə həsr olunmuş seminarda iştirak etmişlər**

2013-cü il aprel ayının 26-da İsveç Azərbaycanlıları Konqresinin (İAK) nümayəndələri Şərqi Avropada "dondurulmuş" münaqişələrə həsr olunmuş seminarda iştirak etmişlər. İsveç Beynəlxalq Araşdırmalar İnstitutu tərəfindən təşkil edilmiş seminarda Dağlıq Qarabağ münaqişəsi xüsusi qabardılmışdır.

Seminarda konqres nümayəndələrinə İsveç Beynəlxalq Münasibətlər İnstitutunun jurnalının yeni buraxılışı təqdim olunmuşdur. Jurnalda Dağlıq Qarabağ münaqişəsinin indiki vəziyyətinə ayrıca məqalə həsr olunmuşdur.

**26 aprel 2013**

**Dünya Azərbaycanlı Gənclər Birliyi Mərkəzi Şurasının iclası keçirilmişdir**

2013-cü il aprelin 27-də Türkiyənin İstanbul şəhərində Dünya Azərbaycanlı Gənclər Birliyi Mərkəzi Şurasının iclası keçirilmişdir. İclasda 40 ölkədən 70-dən çox təşkilat rəhbərləri və üzvləri iştirak etmişdir. Gündəlikdə olan məsələlər əsasən, Mərkəzi Şuraya daxil olan üzv təşkilatların il ərzində gördükləri işlərin və həyata keçirilən layihələrin hesabatlarının dinlənilməsi, bu haqda müzakirələrin aparılması olmuşdur. Tədbirin rəsmi hissəsində Dünya Azərbaycanlı Gənclər Birliyi və Avropa Azərbaycanlıları Konqresi arasında Əməkdaşlıq Memorandumu imzalanmışdır. Tədbirin sonunda Dünya azərbaycanlı Gənclər Birliyi Mərkəzi Şurasının bəyanatı qəbul edilmişdir.

**27 aprel 2013**

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar Almaniyanın Maqdeburq şəhərində yaşayan azərbaycanlılar xüsusi aksiya keçiriblər**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar Almaniyanın Maqdeburq şəhərində yaşayan azərbaycanlılar xüsusi aksiya keçiriblər. Aprelin 28-də ölkənin Zahsen-Anhalt əyalətində fəaliyyət göstərən Alman-Azərbaycan Mədəniyyət Cəmiyyəti "Sağlamlığa və Oksigenə diqqət!" şüarı ilə təmizlik və adablıq aksiyası təşkil edib. Dörd saat davam edən aksiya çərçivəsində Maqdeburq şəhərində ağaclar əkilib, küçə və həyətlərdə təmizlik işləri görülüb, ətraf ərazilər abadlaşdırılıb.

Aksiyada Maqdeburq şəhərində yaşayan azərbaycanlılarla yanaşı, almanlar da fəal iştirak ediblər. Ulu öndərin 90 illik yubileyi ilə əlaqədar Maqdeburqda, həmçinin Almaniyanın digər şəhərlərində də müxtəlif aksiyaların keçirilməsi planlaşdırılıb.

**28 aprel 2013**

**“Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafında və möhkəmlənməsində Heydər Əliyevin rolu” adlı elmi praktik respublika konfransı keçirilmişdir**

29 aprel 2013-cü il tarixdə Almatı şəhərindəki adlı-sanlı universitetdə Qazaxıstan Azərbaycanlıları Milli Mədəni Mərkəzi, Fəlsəfə problemlərini öyrənən Elmi Mərkəz, Azərbaycanlıların “Ozan” İctimai Birliyi Azərbaycan bayrağı altında bir araya gəlmişlər. “Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafında və möhkəmlənməsində Heydər Əliyevin rolu” adlı elmi praktik respublika konfransında Satpaev adına Qazaxıstan Milli Texniki Universitetində professorlar, elmlər doktorları və tələbələr, türk, ərəb, özbək, çeçen, qırğız milli mərkəzlərini təmsil edən alimlər Heydər Əliyevin Şərq dünyasındakı şəxsiyyətinin dəyəri, onun siyasi baxışları və başqa xususi keyfiyyətləri haqqında çıxışlar etmişlər.

Qazaxıstan Azərbaycanlıları Milli Mədəni Mərkəzləri İttifaqının sədri Vidadi Salahov “Azərbaycan dövlətçiliyinin yaranmasında Heydər Əliyevin rolu” adlı məruzəsində Heydər Əliyevin Qazaxıstan və Azərbaycan xalqlarının dostluğu zəminində apardığı ümummilli siyasətindən danışmışdır. Almatıdakı Azərbaycanlılarının “Ozan” İctimai Birliyinin sədri Qərib Məmmədov Heydər Əliyevin Azərbaycan diasporunun dünyada formalaşması yönümündəki etdiyi xidmətlərdən danışmışdır. Tədbirə qatılan professor və akademiklər, tələbələr Asiya Amirbekova və Gülmira Məsimova Heydər Əliyevin müstəqil, müasir Azərbaycanın yaranması və möhkəmlənməsi istiqamətindəki müstəsna xidmətindən danışıblar. Tədbirin sonunda Qazaxıstan Azərbaycanlılarının milli dərgisi olan “Turan Times” qəzetinin Heydər Əliyevə həsr olunmuş nəfis nömrəsi paylanılmışdır.

**29 aprel 2013**

## Dövlətin diqqətində olan diaspor nümayəndələri

Dünyanın müxtəlif ölkələrində yaşayan və həmin ölkələrdə Azərbaycan diasporunu formalaşdıran dəyərli soydaşlarımız hər zaman dövlətin diqqət və qayğısını öz üzərilərində hiss edib, göstərdikləri fəaliyyətə görə müxtəlif vaxtlarda Azərbaycanın ən ali mükafatları ilə təltif olunublar. Belə şəxslərdən biri də Nurəddin Arasdır. Məlumat üçün qeyd edək ki, Nurəddin Aras 1954-cu il martın 6-da İqdır şəhərində anadan olub. O, ilk, orta və lisey təhsilini İqdırda alıb. Liseyi bitirdikdən sonra Almaniyaya gedib və Hote İnstitutunda dil təhsili alıb. Sonra Erlanqen Universitetinin İdman Akademiyasında təhsilini davam etdirib. 1980-ci ildə İqdırda coğrafiya müəllimi təyin olunub. 1999 və 2004-cu illərdə keçirilən seçkilərdə qalib gələrək 10 il İqdır bələdiyyə sədri olub. 2011-ci ildə keçirilən Türkiyə Ümumi Seçkilərində Ədalət və İnkişaf Partiyasından II nomrəli millət vəkili namizədi olaraq göstərilib. Azərbaycanla münasibətə həmişə böyük önəm verən Nurəddin Arasın təşəbbüsü və dəstəyi ilə hər il Xocalı soyqırımının ildönümü ilə əlaqədar Avropa ölkələrində beynəlxalq konfrans keçirilir. Türkiyə-Ermənistan sərhədlərinin açılmasına qarşı çıxan Nurəddin Aras İqdırın Azərbaycanla, xüsusi ilə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin genişlənməsində önəmli rol oynayıb. Nurəddin Aras 2006-cı il martın 13-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə “Tərəqqi” medalı ilə təltif olunub.

Nobert Yevdayev-1929-cu ildə Bakı şəhərində anadan olub. İlk ali təhsilini Bakı şəhərində Xarici Dillər İnstitutunda, ikinci ali təhsilini isə Moskva şəhərində alıb. Tələbəlik illərində caz və rəssamlıqla məşğul olub, Qərbin incəsənət tarixi ilə maraqlanıb. Moskvada müxtəlif xarici şirkətlərdə texniki məsləhətçi olub. 1956-cı ildən müasir texnologiya sahəsində tərcümə və nəşr etmə üzrə çalışır. 1989-cu ildən Birləşmiş Ştatlarda yaşayan həmyerlimiz orada Azərbaycanın AZEM Həmyerlilər Birliyinin sədridir. 2003-cu ildən Nyu-Yorkda təsis etdiyi, rus və ingilis dillərində nəşr olunan “Novıy Rubej” qəzetinin baş redaktorudur. Azərbaycan mədəniyyətinin Amerikada təbliğ olunması istiqamətində bir sıra tədbirlər təşkil edib. 2006-cı il martın 13-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə “Tərəqqi” medalı ilə təltif olunub.

Niyazi Hacıyev-1964-cu ildə iyulun 15-də Ermənistan SSR-nin Sisiyan rayonunun Vaqudi kəndində anadan olub. 1981-ci ildə Vaqudi kənd orta məktəbini bitirib. 1993-cu ildə Tallin Texniki Universitetində ali təhsil alıb. 1988-ci ildə Estoniya Azərbaycan İcmasının (“Ocaq” Cəmiyyətinin) sədri seçilib. 1994-cu ildən “Turan-N” şirkətinin sahibidir. 1995-ci ildə Eston İslam İcmalarının (Tatar, Azərbaycan, Özbək, Qazax İcmaları daxildir) sədrinin birinci müavini seçilib. 1996-cı ildə Estoniya Respublikası prezidenti yanında İnsan Hüquqlarının Qorunması İnstitutuna üzv seçilib. 2000-ci ildə Estoniya Azərbaycan İcmasının fəxri sədri, 2001-ci ildə Estoniya Demokratlar Partiyasının İdarə Heyətinə üzv, həmçinin, Estoniya türkdilli (Azərbaycan) məktəbinin Şurasına sədr seçilib. 2001-ci ildə isə 9-10 noyabr tarixində keçirilən Dünya azərbaycanlılarının I qurultayında Əlaqələndirmə Şurasına üzv, 2002-ci ildə isə Estoniya Respublikası Prezidenti yanında Milli Azlıqlar uzrə “Dəyirmi masa”ya üzv seçilib. 2004-cu ildən Estoniya “Aydan” Mədəniyyət Mərkəzinin sədridir. Tallin “Bakılı” klubunun həmsədrlərindən biridir. 2011-ci il iyulun 4-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunub.

Natiq Atakişiyev-1939-cu il fevralın 15- də Bakı şəhərində anadan olub. 1961-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirib. Fizika-riyaziyyat elmləri doktorudur. 1994-cu ildən Meksikada tədqiqatçı kimi işə başlayan alim 1996-cı ildən Meksika Milli Muxtar Universiteti (Universidad Nacional Autonoma de Mexico) nəzdində Riyaziyyat İnstitutunun Kuernavaka şəhərində yerləşən bölməsində çalışıb. Elə həmin ildən Meksika Elmlər Akademiyasının üzvüdür. Onun dünyanın nüfuzlu jurnallarında 112, beynəlxalq konqreslərin materiallarında isə 51 məqaləsi dərc edilib. 80-dən çox çapdan çıxmış elmi əsəri var. AMEA-nın Fizika İnstitutunda böyük elmi işçidir. Natiq Atakişiyevin rəhbərlik etdiyi Latın Amerikası Azərbaycanlıları Assosiasiyası 2008-ci ilin sonunda fəaliyyətə başlayıb. 2011-ci il iyulun 4-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elm sahəsindəki nailiyyətlərinə gorə “Əməkdar elm xadimi” fəxri adına layiq görulüb.

Natiq Ağamirov-1958-ci il noyabrın 6-da Ağdam rayonunda anadan olub. 1980-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib. Ali məktəbi bitirdikdən sonra Azərbaycan ədliyyə orqanlarında işləyib. 1983-cu ildə Rusiya Federasiyasının ədliyyə orqanlarına - Moskva Vilayəti uzrə Ədliyyə İdarəsinə keçirilmiş, orada idarənin məsləhətçisi, baş mütəxəssisi - notariat şğbəsinin rəisi işləyib. 1990-cı ildən Rusiya Federasiyasının Ədliyyə Nazirliyinə – Hüquqi Yardım İdarəsinin İdarəsinin baş mütəxəssisi vəzifəsinə keçirilib. 1991-ci ildə RSFSR Ədliyyə Nazirliyinin İdarə rəisinin müavini – hüquqi yardımın təşkili şobəsinin rəisi vəzifəsinə təyin edilib. 1991-ci ildən Rusiya notariuslarının birinci təsis qurultayında Rusiya Notariusları Assosiasiyasının sədri, 1992-ci ildə isə Ümumrusiya Peşəkar Notariusları İttifaqı Mərkəzi Şurasının sədri secilib.

Hüquq nəzəriyyəsi və hüquq tətbiqi fəaliyyəti sahəsində bir sıra elmi məqalələrin və yazıların müəllifidir. Rusiya Federasiyası Məhkəmə və notariat sistemi islahatının təşəbbüskarlarından biridir. Siyasi və hüquq elmləri namizədir. Ümumrusiya Azərbaycan Konqresi İqtisadi İnkişaf Fondunun İdarə Heyətinin sədridir. 2007-2009-cu illərdə Avropa Azərbaycanlıları Konqresinin prezidenti olub. Hazırda Avropa Azərbaycanlıları Konqresinin Prezidentlərinin Məşvərət Şurasının üzvüdür.
2006-cı il martın 13-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif edilib.

Natiq Bağırov- 1964-cu il sentyabrın 7-də Bakı şəhərində anadan olub. 1971-1981-ci illərdə Bakı şəhəri 211 saylı orta məktəbdə təhsil alıb. 1981-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun neft mədənləri fakültəsinə qəbul olunub və 1986-cı ildə həmin institutu bitirib. 1983-cu ildə SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilib. 1986-1987-ci illərdə "Qiproneftqaz" ETİ-də mühəndis vəzifəsində çalışıb. 1987-ci ildə Belarus Respublikasının İdman Komitəsinin dəvəti ilə Minsk şəhərinə köçüb, orada idmançı və məşqçi kimi fəaliyyət göstərib. İdman Nazirliyində mütəxəssis vəzifəsində çalışıb. 1992-1993-cü illərdə İtaliyada məşqçi kimi fəaliyyət göstərib. 1995-ci ildə Belarus hökuməti tərəfindən Əməkdar idman ustası adı ilə təltif olunub. 1996-1997-ci illərdə Xorvatiyada işləyib, sambo və dzudo üzrə 4 dəfə dünya, 5 dəfə Avropa çempionu olub. 2002-ci ildən Belarus Respublikasının dzudo üzrə Milli komandasının baş məşqçisi vəzifəsində işləyir. 1996-2002-ci illərdə Minsk şəhərində Beynəlxalq Humanitar-İqtisadi İnstitutunun "Beynəlxalq münasibətlər" üzrə mütəxəssisi, ingilis və alman dillərinin referent-tərcüməçisi mütəxəssisi ixtisasını alıb. 1997-ci ildə Minsk şəhərində fəaliyyət göstərən "Qobustan" Mədəni-Maarif İctimai Birliyinin sədri seçilib. 2002-ci ilin noyabr ayından Belarus Azərbaycan İcmaları Konqresinin sədridir. 2004-cü ildə Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti seçilib. 2006-cı il martın 13-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

Məzahir Həsənov-1962-ci il iyulun 14-də Qərbi Azərbaycanın Qafan rayonunun Yuxarı Gödəkli kəndində anadan olub. Rusiya Federasiyası DİN Sankt-Peterburq Ali siyasi məktəbini, RF DİN Akademiyasını və İ.A.Voznesenski adına Sankt-Peterburq Maliyyə-İqtisad İnstitutunu bitirib. Hal-hazırda Sankt-Peterburq Farfor zavodunun baş direktoru, "Sankt-Peterburqun Azərbaycan diasporu" Regional İctimai təşkilatı sədrinin birinci müavinidir. "Rusiya DİN-in 200 illiyi" və "Sankt- Peterburqun 300 illiyi" xatirə medalı ilə təltif olunub.
2011-ci il iyulun 4-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

Murad Ömərov-Xarici Vətəndaşların Tədris Mərkəzinin direktoru, Xarkov Milli Radio Elektronika Universitetinin Təbiət Elmləri Kafedrasının rəhbəri, texniki elmləri doktoru, professordur. 1963-cu ildə Kürdəmir rayonunun Xırdapay kəndində anadan olub. 1980-ci ildə Xarkov Radio Elektronika İnstitutuna qəbul olunub, 1985-ci ildə institutda müxtəlif vəzifələrdə çalışıb. 1991-ci ildə İnformasiya ötürülməsi üzrə fiber-optik rabitə sistemləri sahəsində namizədlik dissertasiyasını müdafiə edib. 2004-cu ildə Ukrayna Tətbiqi Radio Elektronika Akademiyasının akademiki seçilib. 2009-cu ildə professor adını qazanıb. 2009-cu ildən etibarən Xarkov Milli Radio Elektronika Universitetinin Xarici Vətəndaşların Tədris Mərkəzinin direktorudur. 2000-ci ildən etibarən Xarkov vilayəti Azərbaycan Ukrayna "Dostluq" cəmiyyətinin üzvü olub, 2001-ci ildə isə bu cəmiyyətin sədri seçilib. 2002-ci ildə Murad Ömərov Ukrayna Milli Mədəni Birlik Assosiasiyasının vitseprezidenti seçilib. 2004-cu ildə "XXI əsrin liderləri" beynəlxalq imic proqramının ekspertlər şurasının qərarı ilə Ukraynanın sosial-iqtisadi inkişafındakı xidmətlərinə görə "Ukrayna iş adamı" medalı və diplomu ilə mükafatlandırılıb. 2006-cı ildə Xarkov şəhər Şurasının İcraiyə Komitəsinin "Millətlərarası sülh və razılığın möhkəmləndirilməsi" nominasiyasında mükafata layiq görülüb. 2002-2006-cı illərdə Xarkov şəhəri Kiyev rayon şurasının IV çağırış deputatı, İqtisadi inkişaf və sahibkarlıq daimi komissiyasının sədri olub. 2011-ci il iyulun 4-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

**Azərbaycan Respublikası Prezidenti yanında**
**KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun**
**maliyyə dəstəyilə çap edilmişdir**
**"Olaylar".-2013.-30 aprel.-№ 75.-S.15.**

**Moskvada Rusiya Azərbaycanlı Gənclər Təşkilatının rəhbərliyi ilə Rusiyada işləyən azərbaycanlı həkimlərin 1-ci tibb forumu keçirilmişdir**

30 aprel 2013-cü ildə Moskvada Rusiya Azərbaycanlı Gənclər Təşkilatının rəhbərliyi ilə Rusiyada işləyən azərbaycanlı həkimlərin 1-ci tibb forumu keçirilmişdir. Forumda Azərbaycan və Rusiya arasında tibbi əməkdaşlığın genişləndirilməsi və mütəxəssis mübadiləsi haqda fikirlər müzakirə olunmuşdur.

Tədbirdə Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev iştirak etmişdir. O, “2007-2015-ci il azərbaycanlı gənclərin xaricdə təhsil proqramı” -ın yüksək əhəmiyyətini vurğulamışdır. 100 gənc həkim və 50-dən çox qonağın iştirak etdiyi forumda səhiyyə sahəsində dövlət proqramı, cərrahiyyə və stamatalogiya, kadr siyasəti və müasir tibbi avadanlıqlar mövzularında görüşlərin keçirilməsi planlaşdırılmışdır.

**30 aprel 2013**

## Qlobal Liderlər Alyansı təsis edilmişdir

Cari ilin aprel ayında İsgəndəriyyə Kitabxanası, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Beynəlxalq Sülh Fondu, İnsan Alverinə Son təşkilatı, Diasporla İş üzrə Dövlət Komitəsi və dünyanın bir sıra nüfuzlu qurumlarının dəstəyi ilə Qlobal Liderlər Alyansı təsis edilmişdir.

Alyansın əsas məqsədi qloballaşan dünyada nüfuzlu alimlər, sabiq ölkə və hökumət başçılarından ibarət Ali Qrupun sivilizasiyalararası siyasi, mədəni, dini anlaşmanın yaradılmasında aktiv iştiraklarıdır. Alyansın ilk toplantısı mayın 7-8-də Bakı şəhərində keçirilmişdir.

**Aprel 2013**

## Gənclər Azərbaycan diasporunun hərəkətverici qüvvəsi kimi

**Yarandığı bir ildən artıq müddətdə xeyli işlər görən Dünya Azərbaycanlı Gənclər Birliyi növbəti illər üçün öz hədəfləri və qarşısında duran vəzifələri müəyyənləşdirməyi qərarlaşdırıb.**

Elə bu məqsədlə bu günlərdə Türkiyənin İstanbul şəhərində Dünya Azərbaycanlı Gənclər Birliyinin Mərkəzi Şurasının iclası keçirilib. Dövlət himninin səslənməsindən sonra Mərkəzi Şura öz işinə başlayıb. İclasda 40 ölkədən 70-dən çox təşkilat rəhbərləri və üzvləri iştirak ediblər. Gündəlikdə olan məsələlər, əsasən, Mərkəzi Şuraya daxil olan üzv təşkilatların il ərzində gördükləri işlərin və həyata keçirilən layihələrin hesabatlarının dinlənilməsi, bu barədə müzakirələrin aparılması olub. Tədbirin əvvəlində Dünya Azərbaycanlı Gənclər Birliyi və Avropa Azərbaycanlıları Konqresi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Bildirilib ki, memorandumun imzalanmasında əsas məqsəd dünya azərbaycanlı gənclər təşkilatları ilə Avropa Azərbaycanlıları Konqresinə üzv olan təşkilatlar arasında müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir. Daha sonra məruzələr dinlənilib və Dünya Azərbaycanlı Gənclər Birliyinin sədri Ramin Məmmədov geniş məruzə ilə çıxış edib. Məruzələrdən sonra Dünya Azərbaycanlı Gənclər Birliyinin Mərkəzi Şurasına ünvanlanan təbrik məktubları iştirakçıların diqqətinə çatdırılıb.

Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) İdarə heyətinin üzvü Emin Hacıyev tədbirdə çıxış edərək Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın tədbir iştirakçılarına ünvanladığı təbriklərini çatdırıb, toplantının işinə uğurlar arzulayıb. Daha sonra Emin Hacıyev tədbirin əhəmiyyətindən danışaraq, təşkilatlar arasında əməkdaşlıq əlaqələrinin genişlənməsi, müxtəlif sahələr üzrə fəaliyyətin istiqamətlərinin koordinasiyası digər məsələlər ətrafında fikirlərini bildirib. O, qeyd edib ki, azərbaycanlı gənclərin nümayiş etdirdiyi fəallıq nəticəsində son illərdə əldə olunmuş nailiyyətlər gənclərin böyük potensiala malik olduğunu təsdiqləyir. Emin Hacıyev Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının dünyanın müxtəlif ölkələrində yaşayan, təhsil alan azərbaycanlı gənclərlə əlaqələrin gücləndirilməsinə xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırmışdır. Tədbir çərçivəsində Türkiyə Azərbaycan Dərnəyinin sədr müavini Ahmed Gencehan Babiş, “Bizim Nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin sədri Nürəddin Mehdiyev, Özbəkistan Azərbaycanlılarının Respublika Milli Mədəniyyət Mərkəzinin Gənclər Şurasının sədri Ayna Zeyniyeva, Ruminiya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının sədri İqbal Hacıyev, Rusiya Federasiyası Dövlət Dumasının əməkdaşı Ramin Qasımov, Gürcüstan Azərbaycanlı Gənclər İttifaqının sədri Leyla Məmmədova, Azərbaycan Gənclər Federasiyası İdarə Heyətinin üzvü Ayda Amir Haşimi, Ukrayna Azərbaycanlı Gəncləri Birliyinin sədri Anar Tahirov, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, Norveç Azərbaycan Gənclər Assosiasiyasının (NAYO) sədri Ramil Əliyev, “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin sədri Şahin Seyidzadə, “Demokratik Azərbaycan Naminə” Gənclər İctimai Birliyinin sədri Elməddin Behbud tədbirin birinci hissəsində məruzə ilə çıxış edərək gündəlikdə duran məsələlərlə bağlı təkliflərini bildiriblər.

Çıxış edənlər təşkilatlar arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, Azərbaycan tarixinin və dilinin xarici ölkələrdə tədris olunması, xarici ölkələrin gənclər təşkilatlarının azərbaycanlı gənclərlə hərtərəfli əlaqələrin qurulması, lobbiçilik fəaliyyətinin genişləndirilməsi və digər məsələlərlə bağlı təkliflər irəli sürüblər. Tədbirin sonunda Dünya Azərbaycanlı Gənclər Birliyinin Mərkəzi Şurasının üzvləri tərəfindən irəli sürülən təkliflər də nəzərə alınmaqla yekun qərar qəbul edilib. Qərarda əsasən, Dünya Azərbaycanlı Gənclər Birliyinin növbəti qurultayının 2013-cü il ərzində Azərbaycanda keçirilməsi, Azərbaycanlı gənclərin vahid internet şəbəkəsinin yaradılması üçün müvafiq tədbirlərin görülməsi, 2013-cü ildən başlayaraq Azərbaycanın turizm bölgələrində xaricdə yaşayan azərbaycanlı gənclər üçün “Yay düşərgəsi” layihəsinin həyata keçirilməsi bu və ya digər təkliflər öz əksini tapıb. Daha sonra isə Dünya azərbaycanlı Gənclər Birliyi Mərkəzi Şurasının bəyanatı yekdilliklə qəbul edilib. Bəyanatda qeyd olunub ki, bu gün dünyanın hansı hissəsində yaşamasından, sosial statusu və imkanlarından asılı olmayaraq hər bir azərbaycanlı gənc Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən yürüdülən daxili və xarici siyasəti dəstəkləyir. Biz bu siyasətin Azərbaycanın inkişafına, tərəqqisinə xidmət etdiyinə səmimi şəkildə inanır və əmin olduğumuzu bildiririk ki, aparılmış uğurlu və məqsədyönlü siyasət xalqımızın rifahının yüksəldilməsinə, ölkəmizin hərtərəfli inkişafı və beynəlxalq aləmdə nüfuzunun artmasına öz töhfəsini verəcəkdir.

**“Olaylar”.-2013.-1 may.-№76.-S.15.**

## Diaspor təşkilatları Heydər Əliyevin 90 illik yubileyini qeyd edir

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi Azərbaycanla yanaşı, ölkədən kənarda da geniş şəkildə qeyd ediləcək. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycanın fövqəladə və səlahiyyətli səfirlikləri, eləcə də diaspor təşkilatlarımızın birgə keçirəcəyi tədbirlərdə ümummilli lider ehtiramla yad ediləcək, onun Azərbaycanın müstəqilliyi uğrunda yorulmaz fəaliyyətindən bəhs olunacaq.**

Birləşmiş Ştatlardan tutmuş Avropaya, Türkiyədən tutmuş Orta Asiya respublikalarına qədər hər bir ölkədə Azərbaycan diaspor təşkilatları ümummilli lider Heydər Əliyevin 90 illiyini geniş şəkildə qeyd edəcəklər. Bununla bağlı hər bir diaspor təşkilatı xüsusi tədbirlər planı hazırlayıb və həmin tədbirlər planına uyğun olaraq müxtəlif səpkili tədbirlərin keçirilməsi nəzərdə tutulub. Artıq bir sıra ölkələrdəki diaspor təşkilatlarımız ümummilli liderlə bağlı yubiley tədbirlərinə start verib. Belə ki, Türkiyə Cümhuriyyətinin Əskişəhir şəhərində fəaliyyət göstərən Türkiyə Azərbaycan Kardeşlik Platformu Topluluğu Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətindəki səfirliyinin dəstəyi ilə Əskişəhər Osmanqazi Universitetində ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar inşa müsabiqəsinə start verib. Yarışma qısa müddətdə universitet tələbələrinin böyük marağına səbəb olub və artıq təşkilatçılara onlarla yazı təqdim edilib. Bundan başqa, Türkiyə Azərbaycan Kardeşlik Platformu Topluluğu Azərbaycan və Türk gəncliyinin uşaqlara sevgisini, qayğısını göstərmək, Azərbaycanın daim Türkiyə Cümhuriyyətinin yanında olduğunu isbat etmək məqsədilə aprelin 27-də “Gələcək çocuklarla gələcək!” adlı xeyriyyə şənliyi keçirilib. Əskişəhərdəki kimsəsiz uşaqlar evində yaşayan bütün balacalar universitetə dəvət edilib, onlar üçün müxtəlif oyunlar, əyləncəli yarışlar təşkil olunub, Azərbaycana aid hədiyyələr təqdim edilib.

Aprelin 24-də isə Litvanın Kaunas şəhərində Dünya Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə münasibətilə “Heydər Əliyev gecəsi” təşkil olunub. Litva-Azərbaycan əlaqələri çərçivəsində həyata keçirilən tədbirdə Azərbaycan diaspor nümayəndələri və gənc fəallar çıxış edib. Tədbirdə həmçinin ümummilli lider Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə həsr olunmuş fotosərgi və qısametrajlı sənədli film nümayiş olunub. Tədbirdə moderator kimi Dünya Azərbaycanlı Gənclər Birliyinin üzvü Fərhad Vəliyev çıxış edib. Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə keçirilən tədbirdə Litvanın ictimai xadimləri, Litva, Latviya, Estoniyada təhsil alan azərbaycanlı və xarici tələbələr də iştirak edib.

Almaniyada "Heydər Əliyev kuboku-2013” beynəlxalq mini futbol turniri çərçivəsində ölkə üzrə milli seçim turlarına yekun vurulub. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş turnir çərçivəsində keçirilən Almaniya yarışında müxtəlif şəhərlərdə yaşayan azərbaycanlılardan ibarət həvəskar komandalar güclərini sınayıblar. Gərgin mübarizə şəraitində keçən oyunlarda Hamburq şəhərinin “İnternational Bund” komandası qalib gələrək, turnirin ümummilli lider Heydər Əliyevin ad günü ərəfəsində Bakıda keçiriləcək “Böyük Final” mərhələsinə vəsiqə qazanıb. İlk 3 yeri tutan komandalara (“İnternational Bund”, “Makkabi" və “Atlantik”) medallar, qalib komandaya “Heydər Əliyev Kuboku” təqdim olunub. Mükafatları qaliblərə “Verein Yugens Arbeit in Bergedorf” cəmiyyətinin prezidenti Aleks Gaal təqdim edib. Məlumat üçün qeyd edək ki, "Heydər Əliyev kuboku-2013” beynəlxalq mini futbol turnirinin Almaniya üzrə seçim turlarını “Buta” cəmiyyəti həyata keçirib. Turnir 8 ölkədə - Böyük Britaniya, Almaniya, Avstriya, Çexiya, Rumıniya, Litva, Ukrayna və Rusiyada keçirilir. Hər bir ölkədə 8 komanda öz aralarında yarışır və qalib komanda Bakıya gələrək “Böyük Final” oyununda iştirak hüququ qazanır. “Böyük Final”ın mayın ikinci yarısı keçirilməsi nəzərdə tutulur. Artıq 6-cı ildir keçirilən beynəlxalq turnir Azərbaycan Gənclər və İdman nazirliyi, Rusiyanın Azərbaycanlı Gənclər Birliyi və Böyük Britaniya Odlar Yurdu Təşkilatının dəstəyi ilə təşkil edilir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar Almaniyanın Maqdeburq şəhərində yaşayan azərbaycanlılar xüsusi aksiya keçiriblər. Aprelin 28-də ölkənin Zahsen-Anhalt əyalətində fəaliyyət göstərən Alman-Azərbaycan Mədəniyyət Cəmiyyəti “Sağlamlığa və Oksigenə diqqət!” şüarı ilə təmizlik və abadlıq aksiyası təşkil edib. Dörd saat davam edən aksiya çərçivəsində Maqdeburq şəhərində ağaclar əkilib, küçə və həyətlərdə təmizlik işləri görülüb, ətraf ərazilər abadlaşdırılıb. Aksiyada Maqdeburq şəhərində yaşayan azərbaycanlılarla yanaşı, almanlar da fəal iştirak ediblər. Ulu öndərin 90 illik yubileyi ilə əlaqədar Maqdeburqda, həmçinin Almaniyanın digər şəhərlərində də müxtəlif aksiyaların keçirilməsi planlaşdırılıb.

Qardaş Türkiyə Cümhuriyyətində isə Türkiyə-Azərbaycan Dərnəkləri, Türkiyə-Azərbaycan Dostluq Cəmiyyəti, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası və bu kimi digər diaspor təşkilatlarının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar silsilə tədbirlər keçiriləcək. Qardaş ölkədə keçiriləcək yubiley tədbirlərində Azərbaycan və Türkiyənin dövlət rəsmiləri, millət vəkilləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak edəcək. Yaxın günlərdə bu məqsədlə Azərbaycan nümayəndə heyətinin Türkiyə Cümhuriyyətinə səfər edəcəyi nəzərdə tutulur.

Rusiya Federasiyasının paytaxtı Moskva şəhəri və bu ölkənin müxtəlif subyektlərində də ümummilli liderin anadan olmasının 90 illik yubileyi qeyd olunacaq. Heydər Əliyev Fondunun Rusiya nümayəndələri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı və ÜmumRusiya Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə Rusiya rəsmiləri, Dövlət Dumasının üzvləri də iştirak edəcək.

Belarusda isə Beynəlxalq Diaspor Mərkəzinin bu ölkədəki nümayəndəliyi və Belarus Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Yubiley tədbirlərində iştirak etmək üçün artıq Azərbaycandan Beynəlxalq Diaspora Mərkəzinin rəhbərliyinin də daxil olduğu nümayəndə heyəti Belarusa səfər edib. Yubiley tədbirləri çərçivəsində iştirakçılara Heydər Əliyevin Azərbaycanın müstəqilliyi uğrunda yorulmaz fəaliyyəti barədə məlumat veriləcək. Həmçinin tədbirlərdə ümummilli liderin həyatından bəhs edən sənədli film nümayiş olunacaq.

**“Olaylar”.-2013.-3 may.-№78.-S.15.**

## İsmayıl Serageldin mayın 3-də Gəncədə olmuşdur

Cənubi Qafqaz Forumunda iştirak etmək üçün Azərbaycana səfərə gələn Misirin İsgəndəriyyə Milli Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Qəyyumlar Şurasının həmsədri, Qlobal Liderlər Şurasının üzvü, doktor İsmayıl Serageldin mayın 3-də Gəncədə olmuşdur.

AzərTAc xəbər verir ki, səfər çərçivəsində bir çox görüşlər keçirən İsmayıl Serageldin Azərbaycan Dövlət Aqrar Universitetində professor-müəllim heyəti qarşısında Nizami Gəncəvi irsinin tədqiqinə həsr olunmuş məruzə ilə çıxış etmişdir. Əvvəlcə keçən il dahi Nizami Gəncəvinin 870 illiyinə həsr edilmiş yubiley mərasimində iştirakını yada salan hörmətli qonaq dahi şairin məqbərəsi ətrafında aparılan abadlıq-quruculuq işlərinin onu heyran etdiyini bildirmiş və bütün bunların gəncəlilərin Nizamiyə böyük sevgilərindən qaynaqlandığını qeyd etmişdir.

Sonra məruzə ilə çıxış edən İsmayıl Serageldin dünya mədəniyyətinin əfsanəsi, insanlığın ən uca zirvəsinə yüksələn, ən dəyərli əsərlərinin yaradıcısı olan Nizami Gəncəvinin təkcə Azərbaycan ədəbiyyatının inkişafında deyil, eyni zamanda, dünya mədəniyyətinin inkişafında böyük rol oynadığını diqqətə çatdırmışdır. İsmayıl Serageldin məruzəsinin sonunda bildirmişdir ki, Gəncəyə builki gəlişimin məqsədi dahi şəxsiyyət Heydər Əliyevin 90 illiyi ərəfəsində keçiriləcək Cənubi Qafqaz Forumunda iştirak etməkdir. Məruzə başa çatdıqdan sonra İsmayıl Serageldin iştirakçıların suallarına cavab vermişdir. Tədbirdə hörmətli qonağa xatirə hədiyyəsi təqdim olunmuşdur.

**03 may 2013**

**Leyla Əliyeva "Heydər Əliyev kuboku"nu turnirin qalibi Moskva Dövlət Humanitar İqtisadiyyat İnstitunun komandasına təqdim edib**

Leyla Əliyeva "Heydər Əliyev kuboku"nu turnirin qalibi Moskva Dövlət Humanitar İqtisadiyyat İnstitunun komandasına təqdim edib Moskvanın "Lujniki" İdman Arenasında Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) təşkilatşılığı ilə Heydər Əliyev kuboku uğrunda mini-futbol turniri keçirilib.APA-nın Rusiya bürosunun məlumatına görə, 2009-cu ildən bu yana keçirilən, artıq ənənə şəklini alan turnir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Heydər Əliyevin doğum gününə həsr olunub. Bu il "Heydər Əliyev kuboku" turnirində Rusiya universitetlərində təhsil alan azərbaycanlı tələbələr və RAGT-ın regional bölmələrinin təmsil etdiyi 32 komanda iştirak edib. Qrup mərhələsində qalib gəldiyi oyunların sayına görə ilk yeri tutan komanda play-off mərhələsinə yüksəlib. Dörddəbir final mərhələsnin oyunlarından sonra yarım finala Moskva Dövlər Humanitar İqtisadiyyat İnstitutu, Rusiya Dövlət Bədən tərbiyəsi, İdman və Turizm Universiteti, Ümumrusiya Dövlət Vergi Akademiyası və RAGT-n Tula regional bölməsinin komandaları yüksəlib. Turnirin qalibi Moskva Dövlər Humanitar İqtisadiyyat İnstitunun (MDHİİ) komandası olub. MDHİİ artıq dördüncü dəfə "Heydər Əliyev kuboku" turnirinin qalibi adını qazanıb. İkinci yeri isə Rusiya Dövlət Bədən tərbiyəsi, İdman və Turizm Universitetinin komandası qazanıb. Bürünc medalın sahibləri isə Ümumrusiya Dövlət Vergi Akademiyası və RAGT-ın Tula regional bölməsinin komandası olub.

Turnirin "ən yaxşı qapıçısı" MDHİİ-nin tələbəsi Vladdimir Zakolodin, "ən çox qol vuranı" Rusiya Dövlət Bədən tərbiyəsi, İdman və Turizm Universitetinin tələbəsi Denis Bazovoy, "ən yaxşı oyunçusu" isə Rusiya Dövlət Bədən tərbiyəsi, İdman və Turizm Universitetinin tələbəsi Yuriy Kerşner olub. Qey edək ki, turniri izləyənlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyətli səfiri Polad Bülbüloğlu da olub. Leyla Əliyeva "Heydər Əliyev Kuboku"nu qalib komandaya özü təqdim edib.

**05 may 2013**

**Birinci Cənubi Qafqaz Forumu keçirilmişdir**

2013-cü il 7-8 may tarixlərində Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə Birinci Cənubi Qafqaz Forumu keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak etmişlər. Forumda Madrid Klubunun, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, dünyanın müxtəlif ölkələrindən 300-dən çox ekspert, yüksək səviyyəli rəsmilər, sabiq dövlət və hökumət başçıları, alimlər iştirak etmişdir. Cənubi Qafqaz Forumunun sonuncu günü Madrid Klubu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında əməkdaşlıq protokolu imzalanıb.

**7-8 may 2013**

## Xarici ölkələrdə Azərbaycan dilinin təbliğində diaspor təşkilatlarının rolu

**Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı həyata keçirdikləri soyqırımlar, eləcə də Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması ilə yanaşı yaşadıqları ölkədə zəngin tarixi-mədəni irsimizin, ana dilimizin qorunub saxlanılması istiqamətində də fəaliyyət göstərirlər. Müxtəlif ölkələrdə yaradılan həftə sonu məktəbləri və ya təhsil ocaqlarına Azərbaycan dili ilə bağlı keçirilən tədbirlər xarici ölkələrdə böyüməkdə olan gənc nəslin öz ana dilinə bağlılığını artırır. Azərbaycan diaspor təşkilatları tərəfindən demək olar ki, müntəzəm şəkildə bu cür tədbirlər həyata keçirilir**.

Gənc nəsil tərəfindən Azərbaycan dilinin qorunub saxlanılmasına xidmət edən tədbirlərdən biri Almaniyanın Frankfurt şəhərində keçirilən Dünya Azərbaycanlı Gənclərin I Konqresi çərçivəsində baş tutub. Belə ki, Dünya Azərbaycanlı Gənclərin I Konqresi çərçivəsində "Virtual həftə sonu məktəbi"nin təqdimatı olub. Təqdimat mərasimi konqresin ikinci günü baş tutub. Bu yeni layihə barədə iştirakçılara və qonaqlara **Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Rasim Əliquliyev** məlumat verib. Bildirilib ki, layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etməkdir. "Virtual həftə sonu məktəbi" xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında yetərli bilgisi olmayan hər bir azərbaycanlı gəncə virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır. Burada bir neçə istiqamət üzrə məlumat əldə etmək mümkündür. "Ana dili" bölməsində Azərbaycan dilinin qramatikası, fonetika, leksika, morfologiya, köməkçi nitq hissələri, sintaksis dərsləri yerləşdirilib. Burada Azərbaycan dilinin qanunauyğunluqları barədə ətraflı məlumat əldə etmək olar. Bölmədə hər bir mövzu ayrıca dərs kimi yerləşdirilib. "Azərbaycan coğrafiyası" bölməsində Azərbaycanın fiziki və iqtisadi coğrafiyası barədə məlumatlar öz əksini tapıb. Burada Azərbaycanın relyefi, flora və faunası, iqlimi barədə ətraflı məlumat verilir. İqtisadi coğrafiya alt bölməsində Azərbaycanın iqtisadi regionları, onların ölkənin iqtisadi sistemində yeri və rolu, ölkəmizin təbii sərvətləri, sənaye və kənd təsərrüfatının inkişaf tempi barədə informasiyalar yer alıb. "Azərbaycan tarixi" bölməsi Azərbaycanın ən qədim dövrlərdən müasir günümüzə qədər olan tarixini əhatə edir. Bu bölmədə tarixi proseslər barədə xronoloji ardıcıllıqla məlumat verilib. "Azərbaycan tarixi" bölməsindən, həmçinin Azərbaycan ərazisində yaranmış dövlətlər, onların taleyi, xalqımızın görkəmli tarixi şəxsiyyətləri haqqında zəruri məlumatları əldə etmək mümkündür. Qeyd edək ki, bu bölmə digər bölmələrdən daha genişdir və burada əyani vəsaitlərdən daha çox istifadə edilib. Azərbaycan ədəbiyyatı bölməsində Azərbaycanın yazılı və şifahi ədəbiyyatı, xalqımızın əsrarəngiz ədəbi nümunələri, dünya miqyasında şöhrət qazanmış görkəmli şair və yazıçılarının əsərləri, klassik ədəbiyyatımızın korifeyləri, onların həyat və yaradıcılığı barədə məlumat yerləşdirilib. Bu bölmədə, həmçinin şifahi xalq ədəbiyyatının ən sanballı nümunələri ilə də tanış olmaq mümkündür.

Qeyd edək ki, bu ideya ilk dəfə olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2007-ci ilin noyabrın 17-19-da Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında irəli sürülüb. 2008-ci il dekabrın 18-19-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında Azərbaycan həqiqətlərinin təbliği, lobbi quruculuğu, soydaşlarımızın yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiyası, ictimai-siyasi proseslərdə daha fəal iştirakının təmin olunması ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Toplantı çərçivəsində rəy və təkliflər nəzərə alınmaqla əsas kimi qəbul olunan «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası» layihəsinin 12.15.-ci bəndində xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dilini, Azərbaycan tarixini, mədəniyyətini, coğrafiyasını tədris etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutu ilə birlikdə "Virtual həftə sonu məktəbi"nin yaradılması nəzərdə tutulub.

Almaniyanın paytaxtı Berlin şəhərində isə Ana Dili Gününə həsr edilmiş tədbir keçirilib. Tədbir Berlində fəaliyyət göstərən Azərbaycan Kültür Ocağında Beynəlxalq Ana Dili Günü çərçivəsində "Uşaqların və gənclərin sevimli yazıçısı" mövzusu ətrafında baş tutub. Tədbir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, maarifçi pedaqoq və milli dirçəliş tərəfdarı Abdulla Şaiqin anadan olmasının 130 illiyinə həsr edilib. Kültür Ocağının üzvləri, xanım Reyhan Qasımova və Naibə Hantelin birgə hazırladıqları məruzə tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Reyhan Qasımova yazıçı-şairin həyatı və yaradıcılığı haqqında geniş məlumat verib, Abdulla Şaiqin fəaliyyətini və ailə həyatını əks etdirən foto-şəkillər iştirakçıların diqqətinə çatdırılıb. Abdulla Şaiqin uşaqların ifasında səslənən şerləri alqışlarla qarşılanıb. Daha sonra şairin əsəri əsasında çəkilmiş "Tülkü həccə gedir" cizgi filmi nümayiş etdirilib.

Tədbirin ikinci hissəsində **türkoloq alim Süleymanoğlu** "Türk dili tarixinə qısa bir baxış" adlı məruzə ilə çıxış edib. O, çıxışında türk dilinin inkişafı mərhələlərini təhlil edib, müxtəlif cərəyanların zaman-zaman ona təsirindən danışıb. Sonda məruzəçilər tədbir iştirakçılarının suallarını cavablandırıb və hər iki məruzə ətrafında fikir mübadiləsi aparılıb.

Gürcüstanın Qardabani rayonunun Qaratəhlə açıq məktəbində Qaratəhlə və Ağtəhlə məktəblərində Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkil etdiyi gürcü dili kurslarının müəllimlərinin təşkil etdiyi tədbir keçirilib. Tədbirdə Qaratəhlə məktəbinin direktoru **Elza Həsənova**, Ağtəhlə məktəbinin direktoru **Ketevan Koçiaşvili**, hər iki məktəbdə fəaliyyət göstərən gürcü dili kurslarının müəllimləri **Zaira Allahyarova** və **Sofio Koberidze**, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin əməkdaşları **Əbülhəsən Əzizov, Abbas Məmmədov** və pedaqoji kollektivin nümayəndələri iştirak etdilər. Qaratəhlə məktəbinin 15 siniflik binası BP neft şirkətinin və yerli əhalinin köməyi ilə tikilib. Məktəbdə 285 şagird təhsil alır. 23 nəfərlik pedaqoji kollektiv, kompüter otağı fəaliyyət göstərir. Məktəbin direktoru Elza Həsənova şagirdlərdə gürcü dilini öyrənməyə böyük maraq olduğunu və bu işdə AMM-in təşkil etdiyi kursların böyük əhəmiyyətini qeyd edib. Qaratəhlə məktəbində fəaliyyət göstərən gürcü dili kurslarının müəllimi Zaira Allahyarova 2 ildir ki, kurslarda aparıcı müəllim kimi işləyir. Hazırda bu kurslarda 20 şagird gürcü dilini öyrənir. O qeyd edib ki, uşaqlarda gürcü dilini öyrənməyə çox böyük həvəs var və bu işdə məktəb rəhbərliyi də öz köməyini əsirgəmir. Ağtəhlə məktəbində fəaliyyət göstərən gürcü dili kurslarına Sofio Koberidze rəhbərlik edir. Kurslarda 24 şagird gürcü dilini öyrənir. Bir ildir fəaliyyət göstərdiklərinə baxmayaraq böyük uğurlar qazandıqlarını qeyd edən Sofio, şagirdlərin böyük həvəslə kurslara gəlməsini, ikinci bir qrupun açılmasına ehtiyac olduğunu da bildirib. Məktəbin direktoru Ketevan Koçiaşvili qeyd edib ki, buraxılış sinifləri test imtahanlarında gürcü dili fənnindən 6,5-7 bal göstəricisi ilə çıxıblar, bu da çox yüksək göstəricidir. O belə yüksək göstəricilərin əldə olunmasında AMM-in təşkil etdiyi kursların böyük rolu olduğunu vurğulayıb.

Sonra Qaratəhlə məktəbinin binasında hər iki məktəbin nəzdində fəaliyyət göstərən gürcü dili kurslarında oxuyan şagirdlərin birgə hazırladığı Gürcüstanın və Azərbaycanın müstəqillik gününə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib. Tədbirdə şagirdlər Azərbaycan və Gürcüstanın Dövlət Himnlərini, gürcü və Azərbaycan dilində şerlər oxuyublar. Tədbirin sonunda Azərbaycanlıların Mədəniyyət Mərkəzinin əməkdaşı **Əbülhəsən Əzizov** bütün tədbir iştirakçılarını Azərbaycan və Gürcüstanın milli bayramları münasibətilə təbrik etmiş, gürcü dili kurslarının işinin yüksək səviyyədə təşkilinə görə hər iki məktəbin rəhbərliyinə təşəkkürünü bildirib.

Vilnüsün M.K.Çürlyönis adına Milli incəsənət məktəbinin konsert zalında Litva məktəbliləri arasında keçirilmiş "Azərbaycan mənim gözlərimlə" beynəlxalq müsabiqəsinin yekun mərasimi olub. Yekun mərasimində Azərbaycan Respublikasının Litvadakı fövqəladə və səlahiyyətli səfiri **Nairə Şahtaxtinskaya**, Türkiyənin Litvadakı Səfirliyinin 1-ci katibi **Şayda Hanbay**, Litva Respublikasının təhsil və elm naziri **Gintaras Steponaviçyus**, Litva Seyminin İqtisadiyyat komitəsinin sədri, millət vəkili **Daynyus Budris**, Litva Mədəniyyət nazirinin müavini **Deyvidas Staponkus**, Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin şöbə müdiri **Surəddin Hümbətov**, Litva Seyminin Sədri **İrena Degutinenin** müşaviri və xüsusi nümayəndəsi Laurinas Kasçyunas, Litva mədəniyyət nazirinin müşaviri İmantas Melyanas, Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyev, Latviya azərbaycanlılarının "Ocaq" cəmiyyətinin sədri Roman Əliyev, eləcə də digər rəsmilər, ölkənin tanınmış elm, mədəniyyət, incəsənət və siyasət xadimləri, bir sıra nüfuzlu ictimai təşkilatların rəhbərləri, milli azlıq qurumlarının nümayəndələri və başqaları iştirak ediblər. Müsabiqəni Litva azərbaycanlıları cəmiyyəti bu ölkənin Təhsil və Elm Nazirliyi, Litva Milli İcmalar Evi və Litva gənclərinin turizm mərkəzi ilə birgə təşkil edib. Layihəyə maliyyə dəstəyini isə Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi göstərib. Litva Respublikasının Təhsil və Elm naziri sözügedən müsabiqənin təşkili barədə Cəmiyyətin təşəbbüsü ilə bu ilin iyul ayında öncədən xüsusi sərəncam imzalayıb, müsabiqənin Əsasnaməsini və eləcə də bu layihə ilə əlaqədar digər sənədləri təsdiq edib. Əsasnamədə göstərilib ki, müsabiqə Litva-Azərbaycan mədəniyyətlərarası bilgilərinin genişləndirilməsinə həsr edilir və onu keçirməkdən məqsəd şagirdlərdə Azərbaycanın qədim keçmişinə və dövlətçilik tarixinə, mədəni irsinə, coğrafiyasına, təbiətinə və s. maraq oyatmaq, informasiya texnologiyalarından istifadə etməklə onlara Azərbaycanla bağlı fikir və düşüncələrini yaradıcı surətdə təqdim etmək üçün imkan yaratmaqdır. Müsabiqə Litva-Azərbaycan mədəniyyətlərarası dialoqu layihəsi çərçivəsində bu ölkənin ümumtəhsil məktəblərinin 7-12-ci siniflərində oxuyan şagirdləri arasında keçirilib.

**"Olaylar".-2013.-8 may.-№81.-S.15.**

## Azərbaycan diasporu Asiya qitəsində

**Bu gün Azərbaycan diasporunun fəaliyyət göstərdiyi regionlardan biri də Asiya qitəsidir. Azərbaycanlılar Asiya qitəsinin demək olar ki, hər bir ölkəsində məskunlaşaraq burada diaspor təşkilatı, müxtəlif cəmiyyət və birliklər yaradıblar. Məhz elə buna görədir ki, Azərbaycan diasporunun üçüncü böyük hissəsinin Asiya qitəsində məskunlaşdığı bildirilir. Bu qitədə məskunlaşan azərbaycanlıların sayı Banqladeşdə, Hindistan, Əfqanıstan, Pakistan, İordaniya və Orta Asiya respublikalarında yüz minlərlə, İndoneziya, Yəmən Ərəb Respublikası, Yəmən Demokratik Respublikası, Çin, Birləşmiş Ərəb Əmirliklərində, Oman, Səudiyyə Ərəbistanı və Suriyada on minlərlə, İraqda isə təqribən bir milyona çatır.**

**Yaponiya**-Bu ölkədə Azərbaycan diasporunun fəaliyyətinin tarixi o qədər də qədim deyil. Dünyada gündoğar ölkə kimi tanınan Yaponiyada rəsmi məlumatlara görə bir diaspor təşkilatı fəaliyyət göstərir ki, o da Yaponiya=Azərbaycan Dostluq Cəmiyyətidir. Yaponiya - Azərbaycan Dostluq Cəmiyyəti 21 noyabr 2002-ci ildə Yaponiyanın Naqoya şəhərində təsis edilmişdir. Cəmiyyətin təsisində bir qrup yapon professor və tələbə iştirak etmişdir. Cəmiyyət tanıtma layihələri, anım günləri, şənliklər və Azərbaycanın təbliğinə yönəlmiş bu kimi tədbirlər həyata keçirir. Bu təşkilat Azərbaycanla Yaponiya arasında tələbə-müəllim mübadiləsi, həmçinin, gənc həmvətənlərimizin gəlib buradakı universitetlərdə təhsil alması üçün vasitəçilik edir. Buna misal olaraq, 2010-cu ildə Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov başda olmaqla, Azərbaycanın öndə gedən bütün ali təhsil ocaqlarının rəhbərlikləri ilə Xəzər, Bakı Dövlət, Dillər, Qafqaz universitetlərinin, eləcə də Diplomatik Akademiya və Turizm İnstitutunun rəhbərləri arasında səmərəli görüşlər keçirilmiş, Yaponiya təhsil ocaqları ilə əməkdaşlıq barədə razılıq əldə olunmuşdur. Elə həmin il də tələbə müsabiqəsi keçirilərək ilk 4 nəfərlik tələbə heyəti Yaponiyanın Doşişa Universitetində oxumağa yola salınmışdır. Təşkilat, həmçinin, Azərbaycanın tarixi günlərini Yaponiyada qeyd edir, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini yapon ictimaiyyətinə çatdırmağa çalışır. Belə ki, Cəmiyyətin təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş sərgi, orada nümayiş olunan foto və videomateriallar yaponları çox təsirləndirmişdir. Həmin sərgidə minə yaxın imza toplanmış, Yaponiyanın Baş naziri və parlamentin hər iki palatasına göndərilərək erməni vəhşiliyinin pislənməsi və bu faktın soyqırım kimi tanınması istənilmişdir. Yaponiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəhman Şahhüseynlidir.

**Çin**-Dünyada əhali sayına görə öndə gedən ölkələrdən sayılan Çində də yalnız bir dənə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. "Çin azərbaycanlıları" İctimai Birliyi yaxın illərdə təsis edilib. İctimai Birlik Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ probleminin təbliği, ölkəmizin zəngin tarixi-mədəni irsinin tanıdılması istiqamətində fəaliyyət göstərir. "Çin azərbaycanlıları" İctimai Birliyinin sədri Nizami Mirzəliyevdir.

**Cənubi Koreya da** Azərbaycan diasporunun məhdud sayda olduğu ölkələrdən hesab edilir. Yaponiya və Çində olduğu kimi bu ölkədə də yalnız bir Azərbaycan diaspor təşkilatı mövcuddur ki, o da "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatıdır. "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatı 2009-cu il, mart ayının 21-də təsis edilib. Təşkilat Koreyada Azərbaycanın tanıdılması, eləcə də iki ölkənin gəncləri arasında əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərir. "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının sədri Eltay Aslanovdur.

**Birləşmiş Ərəb Əmirlikləri**-Birləşmiş Ərəb Əmirliklərində də Azərbaycan diasporu çox deyil. Bu ərəb ölkəsində yalnız bir diaspor təşkilatı mövcuddur ki, o da Azərbaycan Cəmiyyətidir.

Birləşmiş Ərəb Əmirliklərindəki Azərbaycan Cəmiyyəti 2004-cü ildən fəaliyyət göstərir. Cəmiyyət Dubay şəhərində təsis edilmişdir. Azərbaycan Cəmiyyəti Birləşmiş Ərəb Əmirliyində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ictimaiyyətə və dövlət orqanlarına məlumat verən yeganə qurumdur. Cəmiyyət rəhbərliyi yerli qəzetlərə bununla bağlı mütəmadi müsahibələr verir, il ərzində dəfələrlə dövlət kitabxanalarına problemlə bağlı ərəb və ingilis dillərində kitablar, jurnallar təqdim edir, hər bir nazirlik və ya komitəni ayrı-ayrı ziyarət edib, rəhbərlərini bu haqda ətraflı məlumatlandırır. Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin sədri Samir İmanovdur.

**Misir**-Azərbaycanlıların Misirdə məskunlaşması II dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Alman ordusunun tərkibində fəaliyyət gostərən azərbaycanlı mühacirlərin müharibədən sonra köçdükləri ölkələr içərisində Misirdə var. Bəzi tarixi mənbələrdə II dunya müharibəsindən sonra əsir düşən azərbaycanlıların ingilis və fransız hərbi qüvvələrindən xilas edilərək Misirdə yerləşdirilməsi barədə məlumatlara rast gəlmək mümkündür. Misir kralı və onun yaxın adamlarının sayəsində xilas olan soydaşlarımız Misirdə evlə, işlə təmin olunmuş və özlərini qorumaq məqsədi ilə pərakəndə və gizli formada yaşamağa məcbur olmuşlar. Cənubi Azərbaycandan da mühacirət prosesinin güclənməsi nəticəsində Misirdə azərbaycanlılar icması yaradıldı. Enerjili, intellektual və sosial baxımdan xeyli fəal və gənc hesab olunan azərbaycanlılar 90-cı illərdən etibarən ictimai həyat da fəal iştirak etməyə başlamışlar.

Hazırda Misirdə on minlərlə həmvətənimizin yaşadığına dair təsdiqlənməmiş məlumatlar var. Misirdə təhsil alan gənclərimizin işini qənaətbəxş hesab etmək olar. 1999-cü ildən başlayaraq, Qahirə radiosunda iqtisadi, siyasi, mədəni və dini proqramlar hazırlayan Azərbaycan xidmətiyaradılmışdır. Misirdə fəaliyyət göstərən yeganə diaspor təşkilatı Azərbaycan Gənclər Təşkilatıdır. İki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi, gənclər arasında təcrübə mübadiləsinin artırılmasına xidmət edən Azərbaycan Gənclər Təşkilatı yaxın illərdə yaradılıb. Misirdə fəaliyyət göstərən Azərbaycan Gənclər Təşkilatının sədri Ramil Niftəliyevdir.

**Küveyt**-Küveytdə də digər Asiya ölkələrində olduğu kimi yalnız bir Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Bu ölkədə Azərbaycanı təmsil edən diaspor təşkilatlarından biri Küveyt-Azərbaycan Mədəniyyət və Dostluq "Vətənsevər" Cəmiyyətidir. Küveyt Azərbaycan Mədəniyyət və Dostluq "Vətənsevər" Cəmiyyəti 2010-cu il, dekabrın 31-də yaradılmışdır. Cəmiyyət burada Azərbaycan mədəniyyətini, tarixini, ölkəmizdəki ictimai prosesləri Küveyt dövlətinə, xalqına layiqincə tanıtmaq, onlara mütəmadi informasiya ötürmək missiyasını yerinə yetirir. Hər il Azərbaycanın Müstəqillik Günü, milli lider Heydər Əliyevin doğum və anım günləri, Novruz bayramı və Azərbaycanın bir çox tarixi-mədəni əlamətdar günləri geniş şəkildə qeyd olunur. Küveyt-Azərbaycan Mədəniyyət və Dostluq "Vətənsevər" Cəmiyyəti tərəfindən qardaş Türkiyənin diaspor təşkilatları ilə güclü əlaqələr qurulmuşdur. Bu məqsədlə burada yaşayan türk diaspor təşkilatları, cəmiyyətləri ilə tez-tez görüşlər keçirilir, tədbirlər təşkil edilir.

Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq "Vətənsevər" Cəmiyyətinin sədri **Könül Hacızadədir**.

İraq-İraqda türkmənlərin məskunlaşması eramızın VII əsrinə təsadüf edir. İlk zamanlar hərbi heyət olaraq Bağdadda xidmət edən türkmənlər sonradan ciddi nüfuz qazanmış və həmişəlik burada qalmışlar. İraq türkmənləri Bağdad ətrafı ərazilərdə sıx-sıx məskunlaşıb, bəzi yerlərdə sayca ərəblərdən üstun olmaqla, doğma mədəniyyəti, musiqi və ədəbiyyatı, ənənələri təbliğ edirdilər. 1922-ci ildə İraq-Böyük Britaniya sazişinin 3-cü maddəsinə görə, azərbaycanlılar ana dilində təhsil almaq hüququ əldə etdilər. Lakin onlara verilən hüquqlar sonradan İraq hökuməti tərəfindən kobud şəkildə pozuldu. 1958-ci ildə İraq da respublika qurulmasında yaxından iştirak edən türkmənlər ilk illər müəyyən hüquqlar əldə etdikdən sonra 1959-cu ilin 1 fevralında Bağdadda türkmən dilində radio açıldı. 1960-cı ildə Bağdadda Türkmən Qardaşlıq Klubu (sonradan Ocaq oldu) yaradıldı. İraq türkmənlərinin iradəsilə təşkil olunan klub onların rəsmi nümayəndəliyi kimi sosial-mədəni sahədə fəaliyyət göstərməyə başladı. 1961-ci ildə "Qardaşlıq" jurnalının nəşrə başlaması klubun ilk mühüm işlərindən idi. İraq türkmənlərinin tarixini, həyat tərzini, dünya görüşünü əks etdirən jurnal 156 saylı 1977-ci il 6 fevral tarixli qərarla BƏƏS partiyasının nəzarətinə keçdikdən sonra nüfuzunu itirdi. 1968-ci il 17 iyun inqilabından sonra İraq türkmənlərinə ana dillərində təhsil almaq, doğma dildə jurnal, qəzet nəşr etmək, Kərkuk televiziya və radiosunda verilişlər açmaq vədləri verildi. Səddam Hüseynin hakimiyyət illərində İraqdakı soydaşlarımızın vəziyyəti daha da pisləşdi. Təzyiqlər yolu ilə türkmənlərin qonşu ölkələrə köçməsini gücləndirən Səddam Hüseyn rejimi boş qalan ərazilərdə kürdləri və ərəbləri yerləşdirirdi. 8 illik müharibə illərində qardaşı qardaşa silah qaldırmağa vadar edən İraq və İran rejimlərinin amansız, mənfur siyasətinin qurbanları əsasən hər iki ölkədə yaşayan və hər iki səngərdə vuruşan türkmənlər idi. İraq türkmənlərinin 1990-cı ilin İraq Konstitusiyasında adları belə çəkilmir. Konstitusiyada "İraq xalqı yalnız ərəb və kürdlərdən ibarətdir" bəndini qeyd etməklə insan hüquqlarını kobudcasına pozan, beynəlxalq hüquq normalarını tapdayan Səddam Hüseyn rejimi, aydındır ki, soydaşlarımızı bu iki xalqın içərisində "əritməyə" çalışıb. Ərəblərdən sonra İraqda ikinci böyük xalq olan soydaşlarımızın dili, mədəniyyəti son günlərdə sərt şəkildə sıxışdırılmaqda, folklor abidələri, ənənələri, mətbəx, milli varlığı yox edilməkdədir. Soydaşlarımızın kütləvi informasiya vasitələrinə çıxışı yox dərəcəsindədir. Hazırda İraq türkmənləri ölkə daxilində və kənarda müxtəlif birliklər quraraq öz sosial- mədəni hüquqlarının bərpa edilməsinə çalışırlar. Bu sırada İraq Milli Azadlıq Hərəkatı, Şimali İraq Türkmən Cəbhəsi, Türkmən Milli Cəbhəsi, İraq Milli Türkmən Partiyası, Müstəqillər Partiyası, Qardaşlıq Ocağı, İraq türkmənlərinin Mədəniyyət Dərnəyi, İraq Türkmənlərinin Mədəniyyət və Yardımlaşma Dərnəyi, Türkmənistan Elli Gənclik və Tələbə Birliyi, Türk Milli Vəqfi, Kərkük Vəqfi kimi qurumlar var. Bu təşkilatlar İraqda başlanan hərbi əməliyyatlar zamanı burada yaşayan soydaşlarımızın zərər görməməsi və tarixi abidələrimizin qorunması üçün müəyyən işlər görmüşdür. İraqda 1400 illik tarixə malik olan türkmənlər - azərbaycanlılar tarixin müxtəlif dövrlərində bütün çətinliklərə baxmayaraq, öz kimliklərini, mənəviyyatını, ana dilini unutmamış, ulu babalardan qalan, misilsiz dəyərə malik ənənələri nəsildən-nəsilə ötürərək bu günümüzə çatdırmışlar.

**"Olaylar".-2013.-11 may.-№83.-S.10.**

**Berlində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilib**

Berlində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilib. Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi (AAKM), Almaniya Türk-Azərbaycan Birliyi (TAVD), həmçinin Avropa Azərbaycanlıları Konqresinin (AAK) birgə təşkil etdiyi gecə Berlindəki Türk Evində reallaşıb. Tədbiri açan AAKM-nin icraçı direktoru Samira Patzer İsmailova ulu öndərin ölkəsi üçün göstərdiyi xidmətlərdən danışıb: “Bu gün Azərbaycan Respublikasının azad, müstəqil dövlət kimi tanınması, iqtisadiyyatının gündən-günə güclənməsi, siyasi çəkisinin artması Azərbaycan tarixində misilsiz iz qoymuş, dünya miqyaslı siyasətçi, uzaqgörən rəhbər, görkəmli şəxsiyyət, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır”. Bu günlərdə Berlində və Almaniyanın bir çox şəhərlərində Heydər Əliyevin 90 illik yubileyinin qeyd edildiyini diqqətə çatdıran AAKM-in icraçı direktoru məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan diasporunun əsasının qoyulduğunu, bununla da dünya azərbaycanlılarının həm vətənlə, həm də bir-biri ilə sıx ünsiyyətinə şərait yaradıldığını vurğulayıb. Odur ki, xaricdə yaşayan azərbaycanlılar ümummilli liderin bu xidmətlərini minnətdarlıq hissi ilə yad edir. Diaspor nümayəndəsi Heydər Əliyevin Türkiyə və Azərbaycan dövlətləri, eləcə də xalqları arasında daha sıx əlaqələrin yaradılması istiqamətində yürütdüyü siyasəti xüsusi qeyd edib. Məhz bu siyasətin nəticəsidir ki, bu gün onun doğum gününü Almaniyada iki qardaş ölkənin nümayəndələri birlikdə qeyd edir.

Daha sonra söz alan Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov öz çıxışında ulu öndər Heydər Əliyevi Azərbaycanın uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı kimi qiymətləndirib. Səfir qeyd edib ki, Heydər Əliyev çağdaş dünyanın tarixində öz xalqını, onun taleyini, milli mədəniyyətini, mənəviyyatını yaxından hiss edən, öz şəxsiyyəti ilə xalqının simvoluna, dövlətinin təcəssümünə çevrilən rəhbərlərdən biri olub. P.Şahbazov həmçinin mərhum prezidentin ağır bir dövrdə Azərbaycanda rəhbərliyi üzərinə götürməsindən söz açıb və ölkədə vəziyyətin sabitləşməsi sahəsində apardığı fəaliyyəti ilə bağlı maraqlı faktları tədbir iştirakçıları ilə bölüşüb. Daha sonra səfir əsası Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasətin davamı kimi türk və Azərbaycan icmalarının bu gün bir araya gəlməsini, birgə tədbirlər keçirməsini təqdirəlayiq hal hesab etdiyini bildirib.

Sonra Türkiyə Cümhuriyyətinin Almaniyadakı səfiri Hüseyn Avnı Karslıoğlu çıxış edərək hələ Sovet dövründə SSRİ-nin tərkibindəki türk respublikalarında, xüsusilə də Azərbaycanda baş verən hadisələri izlədiyini, Azərbaycan şairlərini mütaliə etdiyini, tariximizi araşdırdığını deyib və Azərbaycanın türk xalqının ürəyində özəl bir yeri olduğunu qeyd edib. Heydər Əliyevin “İki dövlət – bir millət” siyasətinin dərin məna daşıdığını deyən H.A.Karslıoğlu böyük siyasətçini şəxsən tanıdığını, hələ sovetlər dövründə onun Mərkəzi Komitənin Siyasi Bürosuna seçilən yeganə müsəlman olaraq öz kimliyini qorumağa çalışmasından, Azərbaycanı dili, mədəniyyətini saxlaması üçün göstərdiyi səylərdən söhbət açıb. O, ulu öndərin millətsevər, vətənsevər, mədəniyyətinə dəyər verən bir insan olmasının danılmaz olduğunu bildirib. O, Əliyevi xalqı və ölkəsinin rifahı üçün çalışan bir siyasətçi kimi qiymətləndirib. Böyükelçi çıxışının sonunda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edildiyi zaman Heydər Əliyevin ruhunun da rahatlıq tapacağını bildirib.

Tədbirdə çıxış edən Almaniya Türk-Azərbaycan Birliyinin sədri Hakkı Keskin Heydər Əliyevin başladığı yolun, apardığı siyasətin bu gün İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. O, Heydər Əliyevin Türkiyə Cümhuriyyəti ilə qurduğu siyasi münasibətlərə böyük dəyər verdiyini, türk xalqının Dağlıq Qarabağ məsələsinin həllində Azərbaycana dəstək olmasının vacibliyini qeyd edib.

Yubiley gecəsinin bədii hissəsində yerli və Almaniyada yaşayan azərbaycanlı müxtəlif janrlarda musiqilər ifa ediblər. Alman musiqiçi Sebastian Nettanın “Küçələrə su səpmişəm” xalq mahnısını alman dilində ifası alqışlarla qarşılanıb. Musiqiçilər bu mahnını və Müslüm Maqomayevin “Azərbaycan” əsərini xüsusi olaraq Azərbaycan mədəniyyətinin hamisi Heydər Əliyevin xatirəsinə ithaf ediblər.

Yubiley tədbirində Heydər Əliyevin xatirəsinə həsr edilmiş rəsm sərgisi də təşkil olunub. Türk Evinin foyesində Azərbaycan rəssamları Günay Şəmsiyeva, Məhəmməd Orucov, İsa Məmmədov və alman rəssamı Nizaket Sinanovskanın rəsmləri sərgilənib.

Tədbirdə Azərbaycan Respublikasın Diasporla iş üzrə Dövlət Komitəsinin nümayəndəsi Elnur Əliyev, Azərbaycan və Türkiyənin diplomatik nümayəndələri, alman, türk və Azərbaycan cəmiyyətlərinin təmsilçiləri və tələbələr də iştirak edib.

**13 may 2013**

## Diaspor sahəsində mütəşəkkillik artır

**Son illərdə dünyanın müxtəlif ölkələrində diaspor təşkilatlarımız tərəfindən Azərbaycana həsr olunmuş tədbirlərin keçirilməsi bu sahədə nailiyyətlərin artmasına öz müsbət təsirini göstərir. Təbii ki, bu sahədə Diasporla İş üzrə Dövlət Komitəsinin də üzərinə böyük bir iş düşür və adı çəkilən dövlət qurumu həmin tədbirlərin keçirilməsinə dəstək nümayiş etdirməklə Azərbaycan dövlətinin diasporumuzun arxasında olduğunu bir daha təsdiqləyir. Təkcə, keçən il ərzində keçirilən tədbirlərə diqqət yetirdikdə bunu aydın şəkildə girmək mümkündür.**

Diasporla İş üzrə Dövlət Komitəsinin də verdiyi məlumata görə, keçən il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, göstərilən müddət ərzində Azərbaycan diaspor təşkilatları tərəfindən 330 tədbir keçirilmişdir. Bu tədbirlərin bəzisində, o cümlədən Dünya Azərbaycanlı Gənclər Birliyinin Təsis Qurultayı, Avropa Azərbaycanlıları Konqresinin IV Qurultayı, “Azİz”-Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının II Qurultayı, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının III Qurultayı, İsveç Azərbaycanlıları Konqresinin II Qurultayı və digər beynəlxalq əhəmiyyətli tədbirlərdə müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak etmişdir. Azərbaycan dövlətinin dəstəyi ilə keçirilmiş bu tədbirlər ölkəmizin beynəlxalq aləmdə təbliğinə mühüm töhfələr vermiş, dünyanın bir sıra nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlığın inkişafında önəmli rol oynamışdır.

2012-ci il 5 iyul tarixində Diasporla İş üzrə Dövlət Komitəsində Komitənin yaradılmasının 10-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir zamanı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli sərəncamı ilə yaradılmış Dövlət Komitəsinin ötən 10 il ərzində göstərdiyi fəaliyyət barədə geniş məlumat verilmişdir. Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində Azərbaycan diasporunun təşkilatlanaraq Azərbaycanın milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrildiyi xüsusilə vurğulanmışdır. Həmçinin tədbir zamanı ötən dövr ərzində Dövlət Komitəsi tərəfindən və onun dəstəyi ilə 63 kitabın, 13 sənədli filmin hazırlandığı qeyd olunmuş və Azərbaycan diasporunun tarixi, məskunlaşma coğrafiyası, görkəmli şəxsiyyətləri barədə geniş məlumatı əks etdirən “Azərbaycan Diasporu: Ensiklopedik Məlumat” toplusunun təqdimatı olmuşdur.

Qeyd edək ki, topluda Azərbaycan Respublikası Prezidentinin diasporun inkişafına xidmət edən fərman və sərəncamları, müxtəlif vaxtlarda diaspor nümayəndələri ilə keçirdiyi görüşlər, diasporumuzun görkəmli nümayəndələri və dövlət təltiflərinə, fəxri adlara layiq görülmüş xaricdə yaşayan azərbaycanlılar, Azərbaycan diasporunun tarixi, məskunlaşma coğrafiyası, diaspor təşkilatlarının nəzdində fəaliyyət göstərən kütləvi informasiya vasitələri haqqında məlumatlar, həmçinin Dünya Azərbaycanlılarının I, II və III qurultayları, eləcə də diaspor təşkilatlarının iştirakı ilə keçirilmiş yüksək səviyyəli tədbirlər və diasporla əlaqədar digər məlumatlar da öz əksini tapmışdır.

Türkiyənin Kocaeli vilayətinin İzmit şəhərində Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADF) III Qurultayı keçirilmişdir. Qurultayda ötən müddət ərzində həyata keçirilmiş tədbirlər haqqında ətraflı məlumat verilmiş, reallaşdırılmış layihələrin Azərbaycan və Türkiyə münasibətlərinin daha da inkişafına, Azərbaycanın Türkiyədə daha yaxından tanıdılmasına xidmət etdiyi qeyd olunmuşdur. Həmçinin TADF-in hesabat məruzəsi dinlənilmiş və təkliflər əsasında Nizamnaməyə bəzi dəyişiklik və əlavələr edilmişdir. Qurultayda Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının mətbu orqanının yaradılması, internet səhifəsinin təkmilləşdirilməsi, üzv təşkilatların fəaliyyətinin daha yaxşı koordinasiya olunması ilə bağlı tədbirlərin görülməsi və digər qərarlar da qəbul olunmuşdur. Toplantının sonunda qurultay iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə müraciəti qəbul olunmuşdur.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi görülən işlər barədə ictimaiyyətin məlumatlandırılmasının daha operativ və əhatəli şəkildə həyata keçirilməsi məqsədilə “Facebook” və “Twitter” sosial şəbəkələrində rəsmi səhifələrini yaratmışdır. Qeyd edək ki, “Facebook” və “Twitter”də rəsmi səhifələrinin yaradılması sosial şəbəkələrin imkanlarından bəhrələnərək yeni kommunikasiya növlərindən istifadə sayəsində ictimaiyyətin diaspor sahəsi ilə bağlı marağını təmin etməyə şərait yaradacaqdır. Ümumilikdə, 2012-ci il ərzində keçirilmiş tədbirlərdən 133-ü Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədinə xidmət etmişdir. Xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması prioritet məsələ olmuşdur.

Hesabat dövrü ərzində Azərbaycan diaspor təşkilatları tərəfindən yeni kütləvi informasiya vasitələri təsis edilmiş, eyni zamanda ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrində Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə Ermənistanın Azərbaycana təcavüzü, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, “20 Yanvar” faciəsi, Xocalı soyqırımı, 31 mart- Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı İsveç, Almaniya, Rusiya, ABŞ, Kanada, Fransa, Böyük Britaniya, Belçika, Niderland, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna, Bolqarıstan, Çexiya, Rumıniya, Polşa, Macarıstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan, Tacikistan, Estoniya, Latviya, Litva, Belarus, Moldova, Yaponiya, Avstraliya və digər ölkələrdə Azərbaycan icmaları tərəfindən anım mərasimləri, foto və rəsm sərgiləri, təbliğat kampaniyaları, elmi-praktik konfranslar və digər tədbirlər təşkil olunmuşdur.

**“Olaylar”.-2013.-14 may.-№84.-S.15.**

**Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş peşəkar boks çempionatı keçirilib**

Almaniyada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş peşəkar boks çempionatı keçirilib. May ayının 11-də Karlsruhe şəhərinin idman zalında Almaniya, Türkiyə, Avstriya, Macarıstan, Hollandiya və digər ölkələrdən gəlmiş boksçular öz gücünü sınayıb. 2000-ə yaxın tamaşaçının izlədiyi çempionatı yerli Baden TV canlı yayımlayıb. Zalda quraşdırılmış böyük monitorda isə yarış boyu Heydər Əliyevin yubileyinə həsr olunmuş fotoşəkil və slaydlar nümayiş etdirilib. Çempionatın son yarışında ağır çəkidə "Alman palıdı" ləqəbi ilə tanınan Timo Hofmann və "Ağ pələng" ləqəbli Aleksandr Petkoviç mübarizə aparıb. Döyüşdən əvvəl Hannover şəhərində fəaliyyət göstərən "Xəzər" Alman-Azərbaycan cəmiyyətinin sədri Etibar Qəniyev rinqə çıxaraq Heydər Əliyev adına Dünya Boks Komitəsi haqqında məlumat verib, təsisçisi və yaradıcısı Yaşar Niftəliyevin (Millinits) olduğu komitənin məqsəd və vəzifələri barədə danışıb, əsas məqsədlərinin Heydər Əliyevin adını daşıyan Dünya kəmərinin yaxın gələcəkdə daha da məşhurlaşdırmaq olduğunu deyib. Etibar Qəniyevin çıxışından sonra çempionatın son döyüşünə start verilib. Timo Hoffmann və serbiyalı Aleksandr Petkoviçin mübarizəsi maraqlı və gərgin keçib. 12 raund davam edən döyüş sonda "Ağ pələng"in - A.Petkoviçin xal hesablı qələbəsi ilə başa çatıb. Yarışdan sonra Etibar Qəniyev təntənəli şəkildə ümummilli lider Heydər Əliyevin Dünya kəmərini qalibin belinə bağlayıb. Çempionatın sonunda Heydər Əliyev kəməri fonunda xatirə şəkilləri çəkdirilib.

Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş ikinci turnir WBCA boks federasiyasının təsisçisi Yaşar Niftəliyevin iştirakı ilə mayın 11-də Weiswasser şəhərində keçirilib. Bu turnirdə həmyerlilərimiz Azad Əzizov Samir Boukraroya, Bəxtiyar İsgəndərzadə isə alman boksçusu Matthias Pelke qarşı mübarizə aparıb. Bəxtiyar İsgəndərzadə 4-cü raundda əlindən ciddi zədə almasına baxmayaraq döyüsü davam etdirsə də, məşqçisinin məsləhəti ilə 8-ci raundda mübarizəni dayandırmalı olub. Gözəl texnika və döyüş əzmkarlığı nümayiş etdirən Azad Əzizov rəqibini artıq 3-ci raundda nokaut edərək Heydər Əliyevin Dünya kəmərini almağa müvəffəq olub.

Qeyd edək ki, boks turniri Azərbaycanın Almaniyadakı səfirliyinin, Diasporla İs üzrə Dövlət Komitəsinin, "Odlar Yurdu" təşkilatının, Sachsen-Anhalt federal əyaləti üzrə Alman-Azərbaycan Mədəniyyət Cəmiyyətinin, Hannover şəhərində fəaliyyət göstərən "Xəzər" Alman-Azərbaycan cəmiyyətinin, Almaniyada yaşayan Azərbaycanlıların Koordinasiya Mərkəzinin və Avropa Azərbaycanlıları Konqresinin dəstəyi və təşkilatçılığı baş tutub.

**14 may 2013**

## Avstraliyadakı Azərbaycan icmasının rəsmi veb-səhifəsini istifadəyə verilib

Avstraliyadakı Azərbaycan icmasının rəsmi veb-səhifəsini istifadəyə verilib. Bundan sonra Avstraliyadakı Azərbaycan icması ilə bağlı bütün xəbərləri bu saytda (azeri.com.au) izləmək və xəbərlərə abunə yazılmaq mümkün olacaq. Sayt Avstraliya milli domenenində yerləşir və mütəmadi olaraq yenilənəcəkdir.

Veb-səhifədə Avstraliya-Azərbaycan əlaqələrinə həsr olunmuş ayrıca bölmə var. Azərbaycana viza almaq, səfər etmək istəyənlər üçün məsləhətlər, ölkəmiz haqqında geniş məlumat, fotolar və xəbərlər də saytda yer alıb. Bundan başqa Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin təşkil etdiyi tədbirlər, Avstraliyada fəaliyyət göstərən "Azərbaycanın Səsi" radiosunda efirə gedən verilişlər də saytda yerləşdiriləcək.

**15 may 2013**

**ABŞ-dakı Azərbaycan diasporunun qarşısında bir sıra mühüm vəzifələr dayanır**

Son illər ərzində okeanın o tayında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının həyata keçirdikləri bu və ya digər layihələr, tədbirlər ölkəmizin həqiqətlərinin Amerika ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, keçən il ərzində keçirilən tədbirlərin statistikasına nəzər saldıqda bunu aydın görmək mümkündür.

Belə ki, ötən il Amerika ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları yerli siyasi dairələrlə əlaqələrin genişləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin Amerika ölkələrinin ictimaiyyətinə çatdırılması məsələlərinə daha çox diqqət yetirmişlər. 2012-ci ilin aprelin 30-da Vaşinqtonda Birləşmiş Ştatların vitse-prezidenti Cozef Bayden Azərbaycan və türk icmalarının nümayəndələri ilə görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan Respublikasının ictimai və dini qurumlarının rəhbərləri, Türkiyə-Azərbaycan təşkilatı, habelə bir sıra türk və Azərbaycan diaspora qurumlarının təmsilçiləri iştirak etmişdir. Fevralın 6-8-i tarixlərində isə Kanadanın Vaterloo Universitetinin bir qrup professoru və məsul şəxsləri Azərbaycanda səfərdə olmuşlar.

Kanadalı qonaqlar tərəfindən Bakının bir neçə orta məktəblərində riyaziyyat fənni üzrə seminarlar təşkil edilmiş, şagirdlərə riyaziyyat və kompüter texnologiyaları sahələrində uğurlu karyera haqqında məlumat verilmişdir. Kanadanın Kalqari şəhərinin meri Naheed Nenşi Xocalı qətliamının 20-ci ildönümü ilə əlaqədar keçən ilin fevral ayında rəsmi sənəd qəbul etmişdir. Merin qərarı ilə fevralın 25-i və 26-sı Kalqari şəhərində Xocalı qətliamının 20-ci ildönümü kimi tanınmışdır. Merin açıqladığı sənəddə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərini mühasirəyə alıb hücum edərək, oradan qaçmağa çalışmış əhalini qəddarcasına qətlə yetirdiyi qeyd edilmişdir.

Fevralın 28-də Amerika-Azərbaycan Şurası, Amerika Azərbaycan Cəmiyyəti Pax Turcica təşkilatı və Birləşmiş Ştatlarda Türk Amerika Assosiasiyalar Birliyinin birgə kampaniyası nəticəsində isə Amerikanın Corciya ştatının Nümayəndələr Palatası Xocalı qətliamının 20-ci ildönümü ilə əlaqədar 1594 saylı qətnamə qəbul etmişdir. Qətnamədə 1992-ci ildə fevfalın 26-dan 27-ə keçən gecə erməni silahlı qüvvələri Rusiyanın 336-cı moto-atıcı alayının iştirakı ilə Xocalı şəhərinə hücum edərək, şəhərin dinc əhalisini qəddarlıqla qətlə yetirdiyi qeyd edilmişdir.

2012-ci il martın 13-də Birləşmiş Ştatların şimal-şərqində yerləşən Meyn ştatının Nümayəndələr Palatası Xocalı faciəsinin 20 illiyi ilə əlaqədar sənəd qəbul etmişdir. Sənəddə Ermənistan silahlı qüvvələri Rusiyanın 336-cı moto-atıcı alayının iştirakı ilə silahlı təcavüz və etnik təmizləmə siyasətinin bir hissəsi olaraq, Xocalıya hücum etdiyi və şəhəri işğal etdiyi vurğulanmışdır. Qeyd olunmuşdur ki, münaqişədən qaçmağa cəhd göstərən Xocalı sakinləri pusquya salınaraq, erməni və rus əsgərləri tərəfindən atəşə tutulmuş, qətliam nəticəsində 613 mülki vətəndaş həyatını itirmişdir. Aprelin 25-də isə Vaşinqtonda “ABŞ-Azərbaycan Əlaqələri: Gələcəyə Baxış” mövzusunda iki günlük konfrans keçirilmişdir.

Birləşmiş Ştatlar və Azərbaycan arasında diplomatik əlaqələrin yaradılmasının 20 illiyi münasibətilə keçirilən konfransda diqqət iki ölkə arasında əməkdaşlığın əsas istiqamətlərinə yönəlmişdir. Konfransda Azərbaycan və ABŞ tərəfdən yüksək səviyyəli nümayəndələr, Bakı-Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyasının və biznes sektorunun təmsilçiləri iştirak etmişlər.

İyun ayının 12-də Nyu-York ştatının Senatında 31 Mart tarixinin azərbaycanlıların Soyqırımı Günü kimi tanınmasına dair 3784 saylı qətnamə Birləşmiş Ştatlarda fəaliyyət göstərən Amerika-Azərbaycan Cəmiyyətinin səyləri nəticəsində qəbul edilmişdir. İyul ayında isə Florida ştatının Orlando şəhərində Azərbaycandan övladlığa uşaq götürmüş Amerika ailələrinin illik toplantısı keçirilmişdir. Amerika ailələrinin 11-ci belə toplantısı Amerika-Azərbaycan Cəmiyyətinin dəstəyi ilə təşkil edilmişdir.

Oktyabrın 8-də Birləşmiş Ştatların Florida ştatının Hallandale Beach şəhərinin meri Coy Kuper Hanandale azərbaycanlılarla görüşündə oktyabrın 18-ni Azərbaycanın Müstəqilliyi günü elan edilməsi haqqında imzaladığı rəsmi sənədi açıqlamışdır. Şəhər meriyası bu qərarı Hallandale Beach şəhərində yaşayan təxminən 150 amerikalı azərbaycanlının müraciətini nəzərə alaraq və Azərbaycanın müstəqillik qazanmasının 21-ci ildönümü münasibətilə qəbul etmişdir. Oktyabrın 21-də isə Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri "Amerika Yəhudi Komitəsi" İcraçı direktoru David Harrislə görüşmüşlər.

Görüş zamanı Yəhudi diaspor təşkilatları ilə Azərbaycan diaspor təşkilatları arasındakı əməkdaşlıq planları müzakirə olunmuşdur. Qeyd edək ki, dekabrın 10-da Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Amerika Yəhudi Komitəsi" tərəfindən keçirilən “Azad Bazar günü: 25 ilin Uğuru” adlı tədbirdə Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harrisə Azərbaycanın “Dostluq” ordeni təqdim edilmişdir.

Ümumilikdə 2012-ci il ərzində Amerika ölkələrində Azərbaycan diasporunun xüsusi önəm verdiyi əsas istiqamətlər Azərbaycanın zəngin mədəniyyəti və tarixi ilə bağlı yerli ictimaiyyətin daha yaxşı məlumatlandırılması məqsədilə müxtəlif təbliğat kampaniyalarının və mədəni-kütləvi tədbirlərin təşkili, ABŞ-ın aparıcı QHT-ləri, dövlət orqanları və kütləvi informasiya vasitələri ilə əlaqələri genişləndirmək, yerli mətbuatda Azərbaycan haqqında obyektiv məlumatların dərc olunması istiqamətində tədbirlər görmək; Azərbaycanın geosiyasi əhəmiyyəti, ABŞ və Avropanın enerji təhlükəsizliyində rolu barədə bu ölkənin müvafiq siyasi və ictimai dairələrini, habelə kütləvi informasiya vasitələrini daha geniş məlumatlandırmağa xidmət edən layihələr hazırlamaq və həyata keçirmək, eləcə də Amerika ölkələrində yaşayan azərbaycanlılar arasında şəbəkələnmə işini gücləndirmək, müasir informasiya texnologiyalarının diaspor quruculuğu və Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə çatdırılması işinə tətbiqi təcrübəsinin genişləndirilməsindən ibarət olub.

Qeyd olunan faktlar göstərir ki, 2012-ci il ərzində Azərbaycan diaspor təşkilatları əvvəlki illərlə müqayisədə daha fəal olmuş, xarici ölkələrdə Azərbaycan mədəni irsinin və tarixinin təbliği, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi istiqamətində bir sıra uğurlu layihələr həyata keçirilmişdir. Əldə olunmuş uğurlar Azərbaycan diasporunun mütəşəkkil və dinamik bir qüvvəyə çevrildiyini təsdiq edir. Bununla belə diasporun daha da güclənməsi, fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qarşıda bir sıra vəzifələr dayanır.

**“Olaylar”.-2013.-15 may.-№83.-S.15.**

**Almaniyanın Drezden şəhərində VI Transqafqaz festivalı çərçivəsində "Kişi və qadınlar arasında gender bərabərliyi" və "Sərhədsiz dünya" mövzularında iki layihə gerçəkləşmişdir**

Bu il mayın 15-dən iyulun 14-dək Almaniyanın Drezden şəhərində "Kültür Aktiv" təşkilatı tərəfindən keçirilən VI Transqafqaz festivalı çərçivəsində "Kişi və qadınlar arasında gender bərabərliyi" və "Sərhədsiz dünya" mövzularında iki layihə gerçəkləşmişdir. Birinci layihədə altı həftə ərzində Gürcüstan və Ermənistan nümayəndələri ilə yanaşı, Azərbaycanı rəssam Səbinə Şıxlinskaya təmsil etmişdir. Almaniya, Çexiya və Polşanın sərhəddində keçirilən ikinci layihədə isə S.Şıxlinskaya ilə bərabər heykəltaraş Çingiz Babayev də iştirak ediblər. Zaqafqaziyadan olan qadın rəssamların triosu əl işlərini "Qadınların gözü ilə…" adı altında sərgilənmişdir. Yekun sərgi Drezdendə Yohannştadt rayonunun mədəniyyət mərkəzində baş tutmuşdur.

Mərasimə müxtəlif diasporları təmsil edən yüzdən artıq qonaq qatılmışlar. Onlar burada rəssamların əl işləri ilə tanış olmaq imkanı, həmçinin Zaqafqaziya mətbəxi layihəsində təqdim olunan Azərbaycan yeməklərindən dadmaq fürsəti qazanmışlar. Həmvətənimiz Əlihüseyn Babayev və həyat yoldaşı Yuliana Şneyderman tərəfindən təqdim edilən Azərbaycan mətbəxi həm almanlarda, həm də digər xalqların nümayəndələrində böyük maraq doğumuşdur.

**15 may-14 iyul 2013**

**Türkdilli ölkələrin diaspor təşkilatları ortaq strategiya hazırladılar**

**Mayın 14-də Ankarada Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin II toplantısı keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, baş nazirin müavini Bəkir Bozdağın ev sahibliyi ilə keçən toplantıda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin diaspor təşkilatlarının rəhbərləri qatılıblar. Toplantıda Azərbaycan tərəfini Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin 1-ci müavini Valeh Hacıyev təmsil edib.**

İclasda "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası"nın əhəmiyyəti vurğulanıb. İlk çıxış edən Xaricdə Yaşayan Türklər və Əqrəba İcmalar Departamentinin rəhbəri **Kemal Yurtnaç** bu toplantının indiyədək keçirdikləri iclasların ən önəmlisi olduğunu, onun əhəmiyyətinin qarşıdakı illərdə aydın olacağını deyib: "Xüsusilə türk dünyasındakı ölkələrlə bu addımı atmağı çox vacib sayırıq. Özbəkistan və Türkmənistanın da sıramıza qatılacağına inanıram".

Toplantıda çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin 1-ci müavini Valeh Hacıyev də türk dünyasının problemlərini həll etmək üçün türk xalqlarının vahid diaspor altında birləşməsinin vacibliyini vurğulayıb. O deyib ki, soydaş xalqların ortaq fəaliyyəti onların güclü addımlarla irəliləməsini, gələcəkdə türk xalqlarının fərqli mövqedə yer almasını təmin edəcək. Valeh Hacıyev Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun Bakıda keçirilməsini də Azərbaycanın bu məsələni əhəmiyyətli hesab etməsi ilə əlaqələndirib.

Toplantıya sədrlik edən Bəkir Bozdağ da iclasın əhəmiyyətini vurğulayaraq deyib ki, diasporların xaricdə birgə fəaliyyəti bir çox məsələlərin həllində önəmli rol oynayacaq:"Türk respublikaları öz aralarındakı əlaqələri fərqli məcraya yönəltməlidirlər. Əlaqələrimizi daha məhsuldar bir mövqeyə gətirməyə qərarlıyıq. Bu səbəbdən bu addımın daha ciddi bir əhəmiyyəti olduğunu düşünürəm. Dost və qardaş ölkələrlə birlikdə atdığımız addımlarımız kimi Türkiyə Cümhuriyyəti olaraq da atdığımız ciddi addımlarımız var. Xaricdə Yaşayan Türklər və Əqrəba İcmalar Departamenti də bu məqsədlərə xidmət edir. Qurum xaricdəki bütün soydaşlarımızla olan əlaqələrimizi daha fərqli nöqtəyə gətirmək üçün fəaliyyət göstərir. Ortaq olan mədəniyyətimizi daha da ön plana çıxardıqca aramızdakı əlaqələrin fərqli bir yöndə olacağına inanıram. Bu istiqamətdə hər cür fəaliyyəti hökumət olaraq dəstəkləyəcəyik". Sonra Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələri-Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan arasında "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" imzalanıb.

Toplantı çərçivəsində iyunun 21-də Bakıda keçiriləcək Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun proqramına dair müzakirələr də aparılıb. Qərara alınıb ki, forumda ümumi iclasdan əlavə üç istiqamətdə-Amerika, Kanada; Avropa; Asiya və MDB üzrə panel müzakirələr də təşkil olunsun.

Qeyd edək ki, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin ilk iclası bu il yanvarın 24-25-də Bakıda keçirilib.

**“Xalq qəzeti”.-2013.-16 may.-N 105.-S.6.**

**Azərbaycan diaspor təşkilatları Ukraynada səmərəli fəaliyyət göstərir**

***Ukraynanın Donetsk şəhərinin Kirov rayonunun millət vəkili, "Donetsk vilayətinin Azərbaycanlılar Konqresi İctimai Təşkilatının Gənclər Komitəsinin sədri Pərviz Rzayev "Yeni Azərbaycan" qəzetinin qonağı olub***

Bu günlərdə Ukraynanın Donetsk şəhərinin Kirov rayonunun millət vəkili, "Donetsk vilayətinin Azərbaycanlılar Konqresi" İctimai Təşkilatının Gənclər Komitəsinin sədri Pərviz Rzayev Azərbaycana səfər edib. Səfərin təşkilatçısı "Yeni Nəsil Gənclərin İnkişafına Dəstək" İctimai Birliyi olub. Səfər çərçivəsində bir sıra görüşlər keçirilib, Azərbaycan diasporunun və Ukraynada fəaliyyət göstərən "Donetsk vilayətinin Azərbaycanlılar Konqresi" İctimai Təşkilatının Gənclər Komitəsinin fəaliyyəti, mövcud durum, eləcə də, qarşıda duran vəzifələrlə bağlı fikir mübadiləsi aparılıb.

Komitə sədri Pərviz Rzayev və səfərin təşkilatçısı qismində çıxış edən "Yeni Nəsil Gənclərin İnkişafına Dəstək" İctimai Birliyinin sədri Atatürk Kamallı "Yeni Azərbaycan" qəzetinin qonağı olublar.

"Donetsk vilayətinin Azərbaycanlılar Konqresi" İctimai Təşkilatının Gənclər Komitəsinin fəaliyyəti barədə məlumat verən Pərviz Rzayev qeyd edib ki, bəhs olunan təşkilat Ukraynada soydaşlarımızın milli mədəniyyətinin təbliğ edilməsi, Azərbaycan gerçəkliklərin, xüsusilə də, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasət barədə reallıqların ictimaiyyətə çatdırılması, bu istiqamətdə xüsusi maarifləndirmə işinin apçırılması istiqamətində fəaliyyət göstərir. Eyni zamanda, hər il Xocalı qətliamı, 20 Yanvar hadisələri kimi tarixi faciələrimizlə bağlı tədbirlər keçirilir. Həmçinin, milli bayramlarımız və əlamətdar günlər təntənəli surətdə qeyd edilir.

"Donetsk vilayətinin Azərbaycanlılar Konqresi" İctimai Təşkilatının Gənclər Komitəsinin Donetsk şəhərində ən böyük diaspora təşkilatı olduğunu deyən Komitə sədri əlavə edib ki, bu təşkilat Ukraynada fəaliyyət göstərən digər Azərbaycan diaspora təşkilatları ilə sıx təmaslara malikdir: **"Ümumiyyətlə, Azərbaycan diaspor təşkilatları bərabər və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməyə çalışırlar. İl ərzində bir neçə dəfə xüsusi görüşlər keçirilir, məruzələr edilir, hesabatlar dinlənilir və əməkdaşlığa dair məsələlər müzakirə olunur. Hesab edirəm ki, diaspor təşkilatları davamlı surətdə məqsədyönlü və sistemli fəaliyyət göstərməlidir, çünki onların hamısı eyni amala xidmət edir. Başqa sözlə, diaspor təşkilatları eyni amal, ortaq dəyər və məqsəd uğrunda əzmlə çalışırlar".**

Onun sözlərinə görə, Ukraynada mövcud olan demokratik şərait və ictimai-siyasi sabitlik Azərbaycan diaspor təşkilat- larının səmərəli fəaliyyətinə imkan verir. **"Soydaşlarımız ictimai-siyasi proseslərdə aktiv təmsil olunurlar. Həmçinin, təşkilatımız bu istiqamətdə xüsusi maarifləndirmə işləri görür ki, bu da Ukraynada, xüsusilə də, Donetsk vilayətində yaşayan azərbaycanlılarm ictimai-siyasi aktivliyinə müsbət töhfələr verir. Ümidvaram ki, davam etdirilən işlər nəticəsində soydaşlarımızın iştirakı ilə daha böyük nailiyyətlər əldə ediləcəkdir",** - deyə P.Rzayev əlavə edib.

Səfərin uğurla keçdiyini deyən Komitə sədri bildirib ki, səfər çərçivəsində Gənclər və İdman Nazirliyində görüş keçirilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında, o cümlədən, əməkdaşlığa dair müzakirələr aparılıb. **"İnamrıq ki, Gənclər və İdman Nazirliyi ilə əməkdaşlıq çərçivəsində əhəmiyyətli layihələr reallaşdırılacaq".**

**Nurlan, "Yeni Azərbaycan".-2013.-16 may.-N 86.-S.6.**

## Azərbaycan diasporu inkişaf yolunda

**Azərbaycanlıların yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi və mədəni həyatında fəal iştiraklarının təmin olunması istiqamətində ötən müddət ərzində mühüm addımlar atılmışdır. Məhz bu istiqamətdə təkcə keçən il xarici ölkələrdə 104 mədəni-kütləvi tədbir təşkil olunmuşdur.**

Xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız, o cümlədən burada yaşayan həmvətənlərimiz Azərbaycanın əlamətdar tarixi hadisələrinin, milli bayramlarının, milli-mənəvi dəyərlərinin, qədim mədəniyyətinin, zəngin irsinin təbliğ olunması, o cümlədən Azərbaycan tarixində mühüm silinməz izlər buraxmış görkəmli şəxsiyyətlərin yad edilməsi məqsədilə bir sıra mühüm bayram tədbirləri, konsert proqramları təşkil etmiş, milli kinomuzun və teatrımızın təbliği məqsədinə xidmət edən layihələr həyata keçirmişlər. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları tərəfindən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş anma mərasimləri, konfranslar, konsert proqramları, futbol turnirləri təşkil olunmuşdur. Azərbaycanın mədəni irsinin təbliği istiqamətində həyata keçirilmiş mühüm tədbirlərdən biri kimi Türkiyənin Kocaeli vilayətinin İzmit şəhərində Azərbaycan Mədəniyyət Evinin açılış mərasimini qeyd etmək olar. Açılış mərasimində Azərbaycan Respublikasının və Türkiyə Respublikasının dövlət və hökumət nümayəndələri, jurnalistlər, qeyri-hökumət təşkilatları təmsilçiləri, habelə bələdiyyə sədrləri və digər şəxslər iştirak etmişlər. Tədbir zamanı Azərbaycan Mədəniyyət Evinin nəzdində “Soyqırım Muzeyi” və “Heydər Əliyev adına kitabxana” da açılmışdır.

Birləşmiş Ştatların Qarabağ Fondu Vaşinqtonda “Nizami Gəncəvi: XII əsr Azərbaycan şairinin irsi” mövzusunda sərgi təşkil etmişdir. Nizaminin əsərlərinin təxminən 50 orijinal əlyazması və miniatürlərinin nümayiş etdirildiyi sərgi Misirdə İsgəndəriyyə kitabxanası və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəstəyi ilə keçirilmişdir. Nadir əlyazmalar dünyanın ən tanınmış kitabxanaları və muzeyləri tərəfindən təqdim edilmişdir. Noyabr ayının 23-dən 27-dək Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, Ümumrusiya Azərbaycanları Konqresinin (ÜAK) və konqresin yerli nümayəndəliyinin dəstəyi ilə Rusiyanın Çuvaş Respublikasının paytaxtı Çeboksarı şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə silsilə tədbirlər təşkil olunmuşdur. Tədbirdə Azərbaycandan geniş tərkibli nümayəndə heyəti ilə yanaşı, ÜAK-ın Moskva nümayəndəliyi və Rusiyanın müxtəlif regionlarındakı diasporumuzun rəhbərləri də iştirak etmişlər. Səfərin əsas məqsədi dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyinin qeyd edilməsi olsa da, nümayəndə heyəti həm Çeboksarı şəhərinin azərbaycanlı sakinləri, həm də respublikanın dövlət rəsmiləri ilə də görüşlər keçirmişlər.

Ümumilikdə, keçən il ərzində keçirilmiş 24 tədbir xarici ölkələrin ictimai-siyasi xadimləri, dövlət orqanları, siyasi partiyaları, nüfuzlu beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin parlament üzvləri, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulmasına xidmət etmişdir. Məhz bu tədbirlər nəticəsində dünyanın bir sıra ölkələrinin parlament üzvləri, dövlət rəsmiləri, ictimai və siyasi xadimləri, kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşlər keçirilmiş, onların bir çoxunun Azərbaycana səfərləri təşkil olunmuşdur. Xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının müdafiəsi işinə də xüsusi önəm verilmiş, bu istiqamətdə müxtəlif tədbirlər keçirilmişdir. 2012-ci ildə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini qorunması və inkişaf etdirilməsi, beynəlxalq aləmdə inkişaf etmiş və müstəqil bir ölkənin xalqı kimi təmsil olunmaq hüququnu təmin etmək məqsədilə bir sıra tədbirlər, elmi-praktiki konfranslar keçirilmişdir. Azərbaycan ordusunun zabiti Ramil Səfərovun vətənə ekstradisiyası və əfv edilməsi ilə bağlı ermənilərin Azərbaycan əleyhinə anti-təbliğat kampaniyalarının qarşısının alınması, həmçinin Fransa Senatının qondarma “erməni soyqırımı” iddialarını inkara görə cinayət məsuliyyəti müəyyən edən qərarına etiraz əlaməti olaraq bir çox ABŞ və Avropa ölkələrində, o cümlədən Dubayda fəaliyyət göstərən diaspor təşkilatları tərəfindən etiraz aksiyaları keçirilmiş, bəyanatlar qəbul olunmuşdur.

Danimarkada fəaliyyət göstərən “Vətən” Cəmiyyəti ölkədə böyük tirajla nəşr olunan “Metro Xpress” qəzetində Dağlıq Qarabağa turist səfərlərinin təşkili və bunun təbliği barədə məqaləyə etiraz olaraq mətbu orqanın rəhbərliyinə məktub ünvanlamışdır. Danimarka və ingilis dillərində göndərilmiş etiraz məktubunda Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğu, onun ermənilər tərəfindən işğal edildiyi vurğulanmışdır. Nəticədə “Metro Xpress” qəzetinin rəhbərliyi yaydıqları yanlış məlumata görə Azərbaycan diasporundan üzr istəmişdir. Dünya Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı ilə Ermənistanın Fransadakı Səfirliyi qarşısında Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birgə etiraz aksiyası keçirilmişdir. Etiraz aksiyasında təxminən 1500-ə yaxın azərbaycanlı və türk iştirak etmişdir. Aksiyanın məqsədi Azərbaycan torpaqlarının işğalında fəal şəkildə iştirak etmiş, Xocalı soyqırımının təşkilatçılarından olan Sarkisyanın Fransaya səfərinə Azərbaycan diasporunun etirazını çatdırmaq olub. Aksiyada Avropada fəaliyyət göstərən Azərbaycan və Türkiyə diaspor təşkilatları iştirak etmişdir.

Dekabrın 10-da Niderland Krallığında fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) və Avropa Türk Demokratlar Birliyinin təşkilatçılığı ilə Haaqada yerləşən Niderland parlamentinin binasında "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Cənubi Qafqaz regionunun problemləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Azərbaycanın və Gürcüstanın Niderland Krallığındakı səfirləri, Niderland Krallığında akkreditə olunan digər ölkələrin diplomatik korpus nümayəndələri, Milli Məclisin deputatları, ölkəmizin bir çox qeyri-hökumət təşkilatlarının əməkdaşları, Azərbaycan və türk diasporları təmsilçilərinin iştirak etdiyi konfransda Avropa dövlətlərinin və beynəlxalq təşkilatların rəhbərlərinə, dünyanın tanınmış siyasi xadimlərinə müraciət ünvanlanmış və Ermənistanın işğalını pisləyən bəyannamə qəbul edilmişdir.

2012-ci ildə Azərbaycanlıların cəmiyyətə inteqrasiyası və ictimai-siyasi fəallığının artırılması sahəsində 29 tədbir keçirilmişdir. Dünyanın müxtəlif ölkələrində toplumlar halında yaşayan həmvətənlərimiz ictimai-siyasi həyatda fəal iştirak etməklə, Azərbaycan mədəniyyətini, tarixini təbliğ etməklə və digər sahələrdə fəaliyyət göstərməklə yerli cəmiyyətə inteqrasiya etmiş, Vətənimizi mədəniyyət, elm, idman, siyasət və digər sahələrdə uğurla təmsil edərək bir sıra nailiyyətlər əldə etmişlər. Rusiya Federasiyasının Rostov vilayətinin Taqanroq şəhərində bu şəhərin faşistlərdən azad edilməsində qəhrəmanlıqla həlak olmuş döyüşçülərin, o cümlədən əsasən azərbaycanlılardan təşkil olunmuş 416-cı Taqanroq və 130-cu diviziyaların əsgərlərinin xatirəsinə ucaldılmış abidə kompleksinin əsaslı təmirdən sonra təntənəli açılışı, Yakutiya neft və qazını ilk kəşf edənlərdən biri olan azərbaycanlı mütəxəssis Rafiq Qafarov Rusiya Federasiyası Saxa (Yakutiya) Respublikasının neft və qaz sənayesi, həmçinin respublikanın sosial-iqtisadi inkişafı sahəsində uzunmüddətli vicdanlı əməyinə görə "Saxa Respublikasının əməkdar xalq təsərrüfatı işçisi " fəxri adına layiq görülməsi, həmvətənimiz, tanınmış sahibkar və ictimai xadim, Rusiya Federasiyasının əməkdar inşaatçısı Əlizaman Rəhimov "Yedinaya Rossiya" Partiyasının siyahısı üzrə Domodedovo şəhər dairəsinin Deputatlar Sovetinin deputatı seçilməsi və digər mühüm hadisələr Azərbaycanlıların yaşadıqları ölkənin ictimai-siyasi həyatında fəal iştirakının bariz nümunələridir.

Azərbaycanlıların yaşadıqları ölkədə ictimai-siyasi fəallığının artırılması məqsədilə 2012-ci il 5-7 avqust tarixlərində Türkiyənin Bodrum şəhərində "Xarici ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyası: mövcud vəziyyət və perspektiv gözləntilər" mövzusunda forum keçirilmişdir. Forumda Azərbaycanın dövlət, hökumət və parlament nümayəndələri, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri iştirak etmişlər. Forum çərçivəsində keçirilmiş panellərdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Dünya azərbaycanlılarının III qurultayındakı nitqində Azərbaycan diasporunun qarşısında qoyduğu vəzifələrə dair müzakirələr aparılmışdır. Forumda Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan, ABŞ və digər ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyası problemləri, bu ölkələrdə diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi yolları ətrafında fikir mübadiləsi aparılmış, konkret təkliflər irəli sürülmüşdür. Sonda Azərbaycan diaspor təşkilatlarının bəyanatı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunmuşdur.

Ümumilikdə, Diasporla İş üzrə Dövlət Komitəsinin 2012-ci ilin yekunlarına dair hesabatına nəzər salsaq, statistik göstərici baxımdan dünyanın müxtəlif ölkələrində keçirilmiş tədbirlərin sayına görə Avropa ölkələrinin öndə olduğunun şahidi oluruq. Qeyd edək ki, ümumilikdə 2012-ci il ərzində Avropa ölkələri üzrə müxtəlif istiqamətlərdə 183 tədbir həyata keçirilmişdir ki, bu da bütün regionlar üzrə keçirilmiş tədbirlərin 55,45 faizini təşkil edir. 2012-ci ildə Avropa regionuna daha çox diqqət yetirilməsi bir sıra mühüm amillərlə bağlı olmuşdur.

**"Olaylar".-2013.-17 may.-№87.-S.15.**

**Dərbənddə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məqsədilə şəhərin mərkəzi küçələrindən birinə böyük siyasətçinin adı verilib**

Dərbənddə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məqsədilə şəhərin mərkəzi küçələrindən birinə böyük siyasətçinin adı verilib. Ümumrusiya Azərbaycanlıları Konqresinin Dərbənd şöbəsi görkəmli dövlət xadiminin 90 illik yubileyi ilə əlaqədar şəhər rəhbərliyinə müraciət edərək küçələrdən birinin Heydər Əliyevin adını daşımasını təklif edib. Şəhər rəhbərliyi Azərbaycan icmasının müraciətinə baxdıqdan sonra Dərbəndin Sovet küçəsinin adının dəyişdirilərək Heydər Əliyev adlandırılmasına qərar verib. Şəhərin mərkəzində yerləşən və Heydər Əliyevin adını daşıyan küçədə dahi Azərbaycan şairi Nizami Gəncəvi adına park da var.

Qeyd edək ki, Azərbaycan və Dağıstan xalqları arasında tarixən mövcud olmuş dostluq münasibətləri ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə daha da inkişaf edib. Məhz bu qarşılıqlı isti münasibətlərin nəticəsi olaraq Bakının mərkəzi küçələrindən birinə Dağıstan xalqının qəhrəman övladı Şeyx Şamilin adı verilib. Mahaçkaladakı əsas küçələrdən biri isə görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyır.

**17 may 2013**

**Kiyevdə “Ukraynadakı Azərbaycan diasporunun inkişaf perspektivləri” I Ümumukrayna forumu işə başlamışdır**

Mayın 18-i 2013 –cü il tarixində Kiyevdə “Ukraynadakı Azərbaycan diasporunun inkişaf perspektivləri” I Ümumukrayna forumu işə başlamışdır. Forumun təşkilatçısı “Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporu” Ümumukrayna İctimai Təşkilatıdır.

“Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporunun Gəncləri” regional təşkilatlarının rəhbərləri, Ukraynanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr, Ukraynanın azərbaycanlı gənclər təşkilatları və başqaları diaspor quruculuğu işində gənc nəslin fəallaşdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılması və s. məsələləri müzakirə etmişlər.

**18 may 2013**

**Danimarkada fəaliyyət göstərən "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə bu qurumun nəzdində olan Azərbaycan Evində "Ana dili" məktəbinin açılışı olmuşdur**

Danimarkada fəaliyyət göstərən "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə bu qurumun nəzdində olan Azərbaycan Evində "Ana dili" məktəbinin açılışı olmuşdur. Tədbirdə Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin əməkdaşları, Cəmiyyətin üzvləri, Danimarkada yaşayan həmvətənlərimiz ilə yanaşı, türklər və türkmənlər də iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan "Vətən" Cəmiyyətinin sədri Səfər Sadiqi məktəb və onun fəaliyyəti haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycan "Ana dili" məktəbində şahmat və musiqi siniflərinin fəaliyyəti nəzərdə tutulmuşdur.

O, Danimarkada yaşayan azərbaycanlı uşaqların ölkəmizin mədəniyyətini, adət-ənənələrini və doğma dilimizi öyrənməsi baxımından məktəbin əhəmiyyətini vurğulamışdır. Azərbaycançılıq ideyasını yaşatmağın bütün dünyadakı həmvətənlərimizin borcu olduğunu diqqətə çatdıran Cəmiyyətin sədri, Britaniyadakı səfirliyimizə Azərbaycan Evinin açılmasına göstərdikləri dəstəyə görə minnətdarlığını ifadə etmişdir. Skandinaviya Türk Federasiyasının sədri İlhan Esen Danimarkada qardaş ölkə Azərbaycanın "Ana dili" məktəbinin açılmasının qürurverici hadisə olduğunu bildirmişdir. Azərbaycan ilə Türkiyə qardaşlığının əbədi olduğunu qeyd edən İ.Esen dünyanın hansı nöqtəsində olmağımızdan asılı olmayaraq ana dilimizin milliyətimizin, milli kimliyimizin təməli olduğunu vurğulamışdır.

Kopenhagen Tibb Universitetinin professoru Məsud Aşina "Vətən" Cəmiyyətinin fəaliyyətini yüksək qiymətləndirmiş, Cəmiyyətin Danimarkadakı həmvətənlərimizi birləşdirmək baxımından vacibliyini vurğulamışdır. "Ana dili" məktəbinin açılmasının Danimarkada yaşayan azərbaycanlılar üçün böyük əhəmiyyət kəsb etdiyini deyən M.Aşina, Cəmiyyətin uğurlarının gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etmişdir. Azərbaycanın Böyük Britaniyadakı səfiri Fəxrəddin Qurbanov "Ana dili" məktəbinin açılmasının ölkəmiz üçün böyük uğur olduğunu qeyd etmişdir. Doğma dilimizi qoruyub saxlamağın milli hisslərimizin, milli şüurumuzun və mənəvi dəyərlərimizin gələcək nəsillərə çatdırılması baxımından vacib olduğunu vurğulamışdır.

Dilimizi qorumağın həm də ədəbiyyatımızı və tariximizi qoruyub saxlamaq olduğunu qeyd edən səfir, ölkəmizin əsrlər boyu bu vəzifəni şərəflə və uğurla həyata keçirdiyini vurğulamışdır. Bildirmişdir ki, xüsusilə xaricdə yaşayan həmvətənlərimizin ana dilimizi dərindən öyrənmələri ölkəmizin və milli mentalitetimizin təbliği baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycanın xaricdəki nailiyyətlərinin hər birimizi sevindirdiyini bildirən F.Qurbanov ölkəmizin diaspor təşkilatlarına, o cümlədən "Vətən" Cəmiyyətinə minnətdarlığını ifadə etmiş, uğurların davamını arzulamışdır.

Tədbir çərçivəsində "Ana dili" məktəbinin ilk şagirdlərindən Leyla Vahabova dövlət himnimizi səsləndirmiş, Cəmiyyətin fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilmişdir. Daha sonra səfir Fəxrəddin Qurbanov Danimarkada yaşayan azərbaycanlıların problemləri ilə maraqlanmış, onların suallarını cavablandırmışdır. Səfirlik adından Cəmiyyətə rəsm əsəri təqdim olunmuş, müxtəlif dillərdə kitablar və milli mədəniyyətimizi, tariximizi əks etdirən suvenirlər hədiyyə edilmişdir. Sonda Cənubi Azərbaycandan olan Aşıq Abbas qədim musiqi alətimiz olan sazda milli musiqimizdən nümunələr ifa etmişdir.

**20 may 2013**

**Berlin-Bakı Qalereyasında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsinə və Bakı Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yaranmasının 90 illiyinə həsr edilmiş sərgi açılıb**

Berlin-Bakı Qalereyasında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsinə və Bakı Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yaranmasının 90 illiyinə həsr edilmiş sərgi açılıb. Sərgidə İncəsənət Universitetinin üç dosenti – Aytən Rzaquliyeva, Sevda Sadıxbəyova və Aysel Əzizovanın rəngkarlıq əsərləri nümayiş etdirilib. Sərgini açan qalereyanın icraçı direktoru Ebrahim Ehrari ilk dəfə burada rəssamlığı tədris edən müəllimlərin sərgisinin açıldığını deyib.

Daha sonra çıxış edən rəssam Sevda Sadıxbəyova sərginin məhz E.Ehrari və Bakı Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Teymurçin Əfəndiyevin birgə təşəbbüsü ilə təşkil edildiyini bildirib. Bu münasibətlə o, Ebrahim Ehrariyə və digər təşkilatçılara, eləcə də qonaqlara göstərdikləri marağa görə təşəkkür edib. Sərgidə Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyinin, Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin əməkdaşları, Azərbaycan diasporunun təmsilçiləri, jurnalistlər, alman rəssamları və ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

**21 may 2013**

**Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) Türkiyədə ilin qeyri-hökümət təşkilatı seçilib**

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) Türkiyədə ilin qeyri-hökümət təşkilatı seçilib. Qurum Kocaeli qəzetinin hər il təşkil etdiyi "Zirvədəkilər" mükafatının 2012-ci İlin Qeyri Hökumət Təşkilatı nominasiyasında qalib olub. Mükafatların təqdimat mərasimində Kocaeli valisi Ercan Topaca, Kocaelidən seçilmiş millət vəkili Mehmet Hilal Kaplan, Kocaeli Universitetinin rektoru Prof. Dr. Sezer Komsuoğlu, TADEF rəhbəri Bilal Dündar və çox sayda qonaq iştirak edib.

Kocaeli qəzetinin baş redaktoru Erkan Ünalın açılış nitqindən sonra Kocaeli valisi Ercan Topaca İlin QHT-si seçilmiş Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündara mükafatı təqdim edib və ona iki ölkə arasındakı əlaqələrin inkişafında göstərdiyi xidmətlərə görə təşəkkürünü bildirib.

TADEF sədri Bilal Dündar isə öz növbəsində gördükləri bütün işlərin onların vəzifəsi olduğunu deyib və bu layihələrin həyata keçməsində əməyi olan hər kəsə minnətdarlıq edib. Daha sonra çıxışına davam edən B.Dündar Türkiyənin dünya coğrafiyasında arxasında 300 milyona yaxın "türkəm" deyib qürurlanan gücü olduğunu bildirib. TADEF sədri bu günlərdə Ankarada Türkiyə, Azərbaycan, Qırğızıstan və Qazaxıstan dövlətlərinin imzaladığı "Türkdilli ölkələrin diaspor təşkilatları arasında ortaq fəaliyət strategiyası"nı güclərin birləşdirilməsi istiqamətində böyük addım kimi qiymətləndirib. B.Dündarın təqdim olunan mükafatın onların qarşısında yeni vəzifələr qoyduğunu deyib və federasiya adından təşkilatçılara təşəkkür edib.

Qeyd edək ki, Türkiyənin məhşur futbol klubu "Galatasaray"ın rəhbəri Ünal Aysal İlin İş Adamı nominasiyasında, Ford Otosan ve Frito Lay şirkətlərinin müdirləri isə İlin İdarəçisi nominasıyasında Kocaeli qəzetinin mükafatlarına layiq görülüblər.

**22 may 2013**

## Azərbaycanın haqq səsini dünyaya çatdıran diaspor təşkilatları

**Xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması, onların problemlərinin həlli, eləcə də ölkəmizin mədəniyyətinin təbliği, Azərbaycanın üzləşdiyi problemlərin dünya ictimaiyyətinə çatdırılması hər zaman diaspor təşkilatlarımızın diqqət mərkəzində olub. Bu baxımdan son illər ərzində qeyd edilən istiqamətlərdə diaspor təşkilatlarımızın keçirdiyi tədbirlər xüsusi əhəmiyyət kəsb edib.**

**Danimarkanın Kopenhagen şəhərində "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə "Azərbaycanlıların Avropaya inteqrasiyasının perspektivləri"** mövzusunda konfrans keçirilmişdir. Konfransda Azərbaycan diasporunun lobbiçilik istiqamətində fəaliyyəti və dost xalqların diaspor təşkilatları ilə əlaqələrinin gücləndirilməsi yolları müzakirə olunmuşdur. Konfransda həmçinin Kopenhagen şəhərinin kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak etmişdir. Almaniyanın Berlin şəhərində keçirilən Avropa Azərbaycanlıları Konqresinin IV Qurultayında da Avropada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları arasında əməkdaşlığın inkişafı sahəsində qarşıda duran vəzifələr, xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının yeni metod və texnologiyaları müzakirə olunmuş və bu istiqamətdə tədbirlərin həyata keçirilməsinə dair bir sıra mühüm qərarlar qəbul olunmuşdur. Mayssen şəhərində isə Azərbaycan-Alman Dostluq Cəmiyyəti tərəfindən "Etnik konfliktlərin tarixi və psixoloji mexanizmi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Tədbir zamanı Azərbaycanın tarixi, milli-mənəvi dəyərlərinin təbliği, Azərbaycan diasporunun lobbiçilik istiqamətindəki fəaliyyəti və dost xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

**"Xəzər" Azərbaycan İsveç Dostluq Cəmiyyətinin səyləri nəticəsində Malmö şəhəri Mərkəzi Kitabxanasında rəsmi Azərbaycan şöbəsi** açılmışdır. Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri, turizm potensialı haqqında məlumatları əks etdirən 1000 ədəd kitab Malmö şəhəri Mərkəzi Kitabxanasına hədiyyə edilmişdir. Parisdə Ermənistanın Fransadakı Səfirliyi qarşısında Almaniya, İsveçrə, İsveç, Hollandiya, Belçika, Böyük Britaniya, Lüksemburq və digər ölkələrdə fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatlarının birgə etiraz aksiyası keçirilmişdir. Aksiyanın məqsədi Ermənistanın işğalçılıq və soyqırım siyasətinə yerli və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək olmuşdur. Aksiya Avropada fəaliyyətə göstərən kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmışdır. Aksiyanın sonunda qəbul olunmuş bəyanatda Ermənistanın işğalçılıq siyasəti kəskin şəkildə pislənilmiş, azərbaycanlılara qarşı törədilmiş terror və soyqırım aktlarına hüquqi-siyasi qiymət verilməsi tələb olunmuşdur. Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində isə Azərbaycan dili kursları açılmışdır. Bu təşəbbüsün əsas məqsədi Almaniyada böyüyən azərbaycanlı uşaqlarda Azərbaycana qarşı məhəbbət hissi aşılamaq, Azərbaycan mədəniyyəti və incəsənətinə maraq oyatmaq, onlara Ana dilini öyrənmələri üçün şərait yaratmaqdır.

2012-ci il oktyabrın 11-də Berlində Azərbaycanın qaçqın və məcburi köçkünlərinə həsr olunmuş "Evə dönən beş yol" adlı fotosərginin açılışı olmuşdur. Tanınmış fotoqraf Filip Ratmerin (Philipp Rathmer) fotoşəkillərindən ibarət sərgi Avropa-Azərbaycan Cəmiyyətinin (TeAS) təşkilatçılığı ilə keçirilmişdir. Sərgidə nümayiş etdirilən 50 fotoşəkil Azərbaycanın erməni işğalı altında olan Dağlıq Qarabağ və yeddi ətraf rayonundan olan bir milyondan çox qaçqın və məcburi köçkünün həyatını işıqlandırır. Oktyabrın 23-26-sı tarixlərində Fransa Yəhudi İnstitutları Təmsilçilər Şurasının nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Nümayəndə heyəti səfər çərçivəsində Quba rayonundakı "Soyqırım Memorial Abidə Kompleksi"ni ziyarət etmiş, habelə azərbaycanlı məcburi köçkünlərlə görüşmüşlər. Bundan başqa nümayəndə heyətinin bir sıra dövlət orqanlarının rəhbərləri ilə də görüşü olmuşdur.

**Niderland Krallığında fəaliyyət göstərən "Vahid, Bölünməz Demokratik Azərbaycan uğrunda Birlik" cəmiyyətinin təşəbbüsü və Azərbaycan Respublikasının** Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Niderlandın Valkenburq bələdiyyəsinin sədri Martinus Yorlinqsin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur. Səfər Azərbaycanın mədəniyyəti, tarixi, gəzməli-görməli yerləri ilə tanışlıq məqsədi daşımışdır. Niderlandın nümayəndə heyəti Azərbaycanın bir sıra dövlət orqanlarında görüşlər keçirmiş, Azərbaycan-Niderland münasibətlərinin müxtəlif aspektlərinə dair bir çox məsələlər müzakirə edilmişdir. 2012-ci il dekabrın 29-da 26 təşkilatı özündə birləşdirən İsveç Azərbaycanlıları Konqresinin II Qurultayı keçilmişdir. Qurultay zamanı Konqresin iki illik fəaliyyətinə dair hesabat məruzəsi dinlənilmiş, İAK-ın ötən dövrdəki fəaliyyətinə dair fikir mübadiləsi aparılmışdır. Qurultayda Konqresin İdarə heyətinin üzvləri seçilmişdir. Müstəqil Dövlətlər Birliyi məkanının əhatə etdiyi ölkələrdə keçirilən tədbirlərin və diaspor quruculuğu işinin əsas məqsədi burada məskunlaşmış azərbaycanlıların hüquq və azadlıqlarının qorunmasına, onların yerli cəmiyyətə inteqrasiyasına dəstək vermək olmuşdur. 2012-ci il ərzində Ümumrusiya Azərbaycan Konqresi tərəfindən Rusiyanın müxtəlif regionlarında Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə çatırdırılması, soydaşlarımızın cəmiyyətə inteqrasiyası, ictimai-siyasi fəallığının artırılması məqsədilə müxtəlif tədbirlər təşkil edilmişdir.

İyul ayında ÜmumRusiya Azərbaycanlıları Konqresi Mərkəzi Şurası Krasnodar diyarında baş vermiş daşqın fəlakəti ilə əlaqədar zərərçəkənlərə yardım təşkil etmişdir. Sentyabr ayında isə konqresin təşkilatçılığı ilə Azərbaycan diaspor nümayəndələrinin ölkəmizin bir qrup yaradıcı ziyalısı ilə görüşü olmuşdur. Oktyabr ayında Ümumrusiya Azərbaycanlılar Konqresinin mərkəzi ofisində konqresin Rusiyanın Mərkəz Federal dairəsinin regional və yerli bölmələrinin rəhbərləri ilə müşavirə keçirilmişdir. Müşavirənin əsas müzakirə mövzuları azərbaycanlıların Rusiya cəmiyyətinə inteqrasiyasına kömək, regionlarda millətlərarası həmrəylik, yerli hakimiyyət orqanları, həmçinin Moskvanın və Rusiya regionlarının müxtəlif ictimai təşkilatları ilə əməkdaşlıq məsələləri olmuşdur. Həmin müddətdə Ümumrusiya Azərbaycan Konqresinin nümayəndə heyəti Rusiya Federasiyasının Başqırdıstan Respublikasının paytaxtı Ufa şəhərinə səfər çərçivəsində Başqırdıstan Respublikasının Prezident Administrasiyasının siyasi və ictimai əlaqələrin inkişafı idarəsinin əməkdaşları ilə görüşmüşlər. Görüşdə ÜmumRusiya Azərbaycanlıları Konqresinin regional bölməsinin fəaliyyəti, Başqırdıstanın dövlət orqanları ilə əməkdaşlığa dair bir sıra məsələlər müzakirə olunmuşdur.

Qeyd edək ki, 2012-ci ildə xüsusilə Rusiya Federasiyası və Ukraynada azərbaycanlı gənclərin fəallılığının artdığı müşahidə olunmuşdur. Belə ki, Rusiya Federasiyasında fəaliyyət göstərən Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı tərəfindən Azərbaycan mədəni irsinin və tarixinin təbliği, ölkədə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, cəmiyyətə inteqrasiyası, diaspor quruculuğu işinə fəal şəkildə cəlb olunmasına xidmət edən bir sıra uğurlu layihələr həyata keçirilmişdir. Belə ki, 2012-ci ildə Rusiya Azərbaycanlı Gənclər Birliyi Moskvada “Liderlik və fəal vətəndaş mövqeyi” adlı qış məktəbi təşkil etmişdir. Məktəb çərçivəsində Azərbaycanın və Rusiyanın dövlət qurumlarının, ekspertlərin və ictimai xadimlərin iştirakı ilə məşğələlərin, mühazirələrin və ustad dərslərinin təşkil olunması nəzərdə tutulmuşdur.

Bundan başqa, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı Rusiya Dövlət Humanitar Universitetinin Azərbaycan klubu ilə birlikdə “1918-ci il 31 mart azərbaycanlıların soyqırımı: tarixi-hüquqi aspekt” mövzusunda “dəyirmi masa” keçirmişdir. Tədbirin məqsədi 1918-1920-ci illərdə Azərbaycanda baş vermiş qanlı faciəvi hadisələri bir daha təhlil etmək, erməni millətçiləri, xüsusən də “Daşnaksütyun” terror təşkilatı tərəfindən planlaşdırılmış sırf milli mənsubiyyətinə görə azərbaycanlıların kütləvi qətllərinin səbəbləri və nəticələri barədə fikir mübadiləsi aparmaq və bu barədə həqiqətləri Rusiya ictimaiyyətinə çatdırmaq olmuşdur. Moskvada isə Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının dördüncü hesabat-seçki konfransı keçirilmişdir. Konfransda RAGT-nin Moskva və regional bölmələrinin 104 nümayəndəsi iştirak etmişdir. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının fəaliyyətinin yekunları barədə hesabat məruzəsi dinlənilmiş, təşkilatın gördüyü işlər haqqında ətraflı məlumat verilmiş, gələcək planlar ətrafında müzakirələr aparılmışdır. Konfrans iştirakçıları təşkilati məsələləri nəzərdən keçirmiş, nəzarət-təftiş komissiyasının məruzəsini dinləmişlər. Leyla Əliyeva yenidən yekdilliklə Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri seçilmişdir.

Görüş çərçivəsində Azərbaycan və Rusiya gənclərinin gələcək müştərək layihələri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Noyabr ayında Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı Azərbaycan diasporuna ünvanlanmış bəyanatla çıxış etmişdir. Bəyanatda xəbərdarlıq edilir ki, ermənilərin çəkdiyi “Yarımçıq qalmış mahnı” kinofilmi təhrikçilikdir və bu təhrikə uymaq lazım deyildir. Qeyd edək ki, RAGT «Xocalıya Ədalət» təbliğat-təşviqat kampaniyası çərçivəsində də bir sıra ölkələrdə uğurlu tədbirlər həyata keçirməyə müvəffəq olmuşdur Göstərilən müddət ərzində Ukrayna Azərbaycanlı Gənclər Birliyinin təşəbbüsü ilə Odessa şəhərində “Azərbaycan: Qərb ilə Şərqə açılan pəncərə” mövzusunda tədbir keçirilmişdir.

Odessa vilayət administrasiyasının, diplomatik korpus nümayəndələrinin, azərbaycanlı gənclərin və diaspor fəallarının qatıldığı tədbirdə Azərbaycanın Avropaya və dünya birliyinə inamlı inteqrasiya siyasəti, beynəlxalq mədəni, iqtisadi layihələr barədə müzakirələr aparılmışdır..

**“Olaylar”.-2013.-22 may.-№90.-S.15.**

**Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə tanınmış yazıçı-dramaturq Elçin Hüseynbəylinin dörd hekayəsi bu ilin fevral - aprel aylarında Litvanın ədəbiyyat və incəsənət nəşrlərində litvaca işıq üzü görüb**

Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə tanınmış yazıçı-dramaturq Elçin Hüseynbəylinin dörd hekayəsi bu ilin fevral - aprel aylarında Litvanın ədəbiyyat və incəsənət nəşrlərində litvaca işıq üzü görüb.

Müəllifin "Nənəm, babam və kommunizm" adlı hekayəsi Vilnüsdə buraxılan "Şimal Afinası" ("Šiaurės Atenai") ədəbiyyat və incəsənət həftəlik qəzetində, "Sular günəşə nəğmə oxuyanda" əsəri "Ədəbiyyat və İncəsənət" ("Literatūra ir Menas") həftəlik mədəniyyət jurnalında, "Məzar gəlini" hekayəsi "Neman" ("Nemunas") ədəbiyyat və incəsənət həftəliyində, "Gözünə gün düşür" hekayəsi "İlin fəsilləri" ("Metai") adlı ədəbi-bədii jurnalda işıq çap edilib.

"Məzar gəlini" və "Gözünə gün düşür" hekayələri Qarabağ hadisələrinə həsr olunub. Əsərlərin litvaca nəşr edilməsi, yerli oxucuları müasir Azərbaycan nəsrinin nümunələri ilə tanış etmək, həmçinin Qarabağ müharibəsilə bağlı həqiqətləri və onun indiki ağrı-acılarını bədii dillə onlara çatdırmaqla bərabər, yüz illərlə tarixi olan Litva - Azərbaycan ədəbi əlaqələrinin genişləndirilməsi, mədəniyyətlərarası dialoqun gücləndirilməsi və qarşılıqlı anlaşma ənənələrinin zənginləşdirilməsinə xidmət edir.

Elçin Hüseynbəylinin əsərlərini orijinaldan Litva dilinə tanınmış türkoloq alim və diplomat, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, tərcüməçi Halina Kobetskayte və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Azərbaycanın əməkdar jurnalisti Mahir Həmzəyev tərcümə edib.

**22 may 2013**

## Azərbaycan diaspor təşkilatları Amerika qitəsində

**Tarixin müxtəlif dövrlərində Azərbaycanı könüllü və ya məcburi qaydada tərk edən soydaşlarımız dünyanın bir sıra regionları kimi Amerika qitəsində də məskunlaşmışlar. Azərbaycanlıların Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşması prosesi müşahidə edilib. Soydaşlarımızın Birləşmiş Ştatlarda sayı 1 milyona, Argentinada 12, Braziliyada 75, Kanadada 170, Meksikada isə 27 minə çatır. Amerika qitəsi ölkələrindən olan Qonduras, Qvatemala, Peru və digərlərində də azərbaycanlılar məskunlaşıblar. Hazırda onların sayının dəqiqləşdirilməsi istiqamətində də iş aparılır. .Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti İrandan miqrasiya etmiş insanlardır. 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan bir qisim soydaşlarımızın bu qitəyə axını diasporun tərkibinə və sosial-iqtisadi fəaliyyətinə öz təsirini göstərdi.**

Bu qitədə soydaşlarımızın ən sıx və çox sayda məskunlaşdığı ölkə Birləşmiş Ştatlardır. Bu ölkədə yaşayan 1 milyona yaxın azərbaycanlı müxtəlif diaspor təşkilatları ətrafında birləşib. Belə təşkilatlardan biri də ABŞ Azərbaycanlıları Şəbəkəsidir. ABŞ Azərbaycanlıları Şəbəkəsi bütün ABŞ-ın Azərbaycan, türk və digər diaspor və icma təşkilatlarını, qruplar, cəmiyyəti, koalisiyalar, şəbəkələr, assosiasiyalar və klubları bir arada cəmləşdirir. ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycan- Amerika potensial saciçilərinin bir araya gətirilməsinə cəhd edir. USAN seçiciləri səsvermə və seçici qeydiyyatı ilə bağlı maarifləndirmək, Amerika siyasi debatında onların iştirakını təmin etmək, səsvermədə iştirakı fəallaşdırmaq və aktiv seçici potensialına çevrilmək imkanlarının artırılmasına çalışır. Şəbəkə Azərbaycan-Amerika saciçilərinin Vaşinqton və ABŞ ştatlarında güclü qüvvəyə çevrilməsini, geniş nüfuza sahib olmasını, səsinin eşidilməsini qarşıya məqsəd qoyub. Xüsusən də enerji təhlükəsizliyi, dini dözümlülük, irqçilik, NATO, Aİ və UTT-yə siyasi, humanitar yardım və strateji müttəfiqlik, xalqlara vergi, sosial təminat, səhiyyə, texniki yardıma aid məsələlərdə həlledici rol oynamaq əzmindədir. Şəbəkə ABŞ siyasətinə Azərbaycan-Amerika, Türk-Amerika ictimaiyyətini, İran azərbaycanlıları icmalarını, eləcə də yəhudi diasporunu ətrafında cəmləşdirərək yeni bir seçici qüvvəsi kimi nüfuz etmək niyyətindədir. **Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) icracı direktoru Adil Bağırovdur.**

Azərbaycan Amerika Alyansı-Azərbaycan Amerika Alyansı qeyri-hökumət təşkilatıdır. Onun missiyası Azərbaycan və Amerika xalqları arasında qarşılıqlı anlaşma və hörmət atmosferinə yardım etməkdən ibarətdir. Onun həyata keçirdiyi ən irimiqyaslı tədbirlərdən biri 2012-ci ilin fevralında Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı keçirdiyi kampaniyadır.

Amerika Azərbaycanlıları Cəmiyyəti-Amerikada ilk Azərbaycan diaspor təşkilatı 1956-cı ildə ABŞ-ın Nyu-Cersi ştatında yaradılmış Amerika Azərbaycanlıları Cəmiyyətidir. Amerika Azərbaycanlıları Cəmiyyəti yarandığı gündən indiyədək Azərbaycanla bağlı həqiqətləri Amerika ictimaiyyətinə çatdırmaq məqsədi ilə aktiv fəaliyyət göstərir. Ənənəvi olaraq cəmiyyət Azərbaycanın milli və dövlət bayramları (Müstəqillik günü, Respublika günü, Novruz bayramı), Azərbaycan torpaqlarının erməni separatçıları tərəfindən işğal olunan günləri, 20 Yanvar, Xocalı faciəsi kimi digər matəm günlərini hər il qeyd edir.

Amerika-Azərbaycan Ticarət Palatası-1995-ci ildə yaradılan Amerika-Azərbaycan Ticarət Palatası Azərbaycan ilə uzunmüddətli işgüzar əlaqələrin yaradılmasını axtaran Amerika şirkətləri üçün mühüm mənbə olub. "Washington Post" qəzetinin qeyd etdiyi kimi, USACC Amerika investorlarının Azərbaycanda ən güclü müdafiəçisidir. Bu təşkilat iki ölkə arasında işgüzar əlaqələrin inkişafında mühüm rol oynayır. USACC dünyanın ən strateji və iddialı regional enerji layihələri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələrdə əsas hərəkətverici qüvvədir. USACC Azərbaycan və Amerika Birləşmiş Ştatlarının hökumət və qeyri-hökumət təşkilatları, biznes təşkilatları arasında etibarlı informasiya və şəbəkə xidmətləri göstərmək, əməkdaşlıq və məlumat mübadiləsinin inkişafını təmin edir.

Amerika-Azərbaycan Şurası-1994-cu ildən Vaşinqtonda fəaliyyət göstərir. Təşkilat indiyədək müxtəlif siyasi lobbiçilik fəaliyyəti ilə məşğul olmaqla yanaşı, mədəniyyətlə bağlı silsilə tədbirlər, sərgilər, araşdırma mərkəzlərində Azərbaycanla bağlı seminarlar təşkil edib.

Təşkilatın üzvləri Xocalı, 31 Mart Soyqırımı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında, müxtəlif məsələlərlə bağlı məktublar, bəyanatlar hazırlayaraq Amerika prezidentindən tutmuş bütün dövlət nümayəndələrinə, senatorlara, konqresmenlərə, eyni zamanda, mətbuata göndərirlər. Azərbaycan Mədəniyyət Ocağı-1992-ci ildə ermənilərin ən sıx məskunlaşdığı ştatlardan birində, şimali Kaliforniyada təsis edilmiş Azərbaycan Mədəniyyət Ocağı bütün Amerika cəmiyyətinə vətənimizin məruz qaldığı erməni qaniçən xisləti, xalqımızın humanizmi ilə bağlı həqiqətləri çatdırır. Erməni diasporunun gerçəkliyi təhrif edən hiyləgər təcrübəsi həqiqətlərin yayılmasına mane olmağa çalışsa da, azərbaycanlıların vətənlə, milli dövlətlə, Türk diaspor qurumları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərməsi qarşıya qoyulan məqsədləri təmin edir.

Kanada-Azərbaycan diasporunun mövcud olduğu ölkələrdən biri də Kanadadır. Kanada da onlarla Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Bunlardan da biri **Alberta Azərbaycan Mədəniyyət Mərkəzidir.** Alberta Azərbaycan Mədəniyyət Mərkəzi Kanada Azərbaycan Təşkilatları Assambleyasının üzvüdür. Mərkəz 2006-cı ildə təsis edilib. Mərkəzin məqsədi Kanada və Azərbaycan icmaları arasında körpü rolunu oynamaq, bu ölkədə Azərbaycan mədəniyyəti, tarixi və ənənələrini yaşadaraq təbliğ etmək, eyni zamanda, Kanada mədəniyyəti, ənənələr və həyat tərzini öyrənməkdir. Bu baxımdan Mərkəz tərəfindən müxtəlif araşdırmalar aparılır və müvafiq layihələr həyata keçirilir. Mərkəz müxtəlif yerli təşkilatlarla, insan haqları, ekoloji təşkilatlarla sıx əməkdaşlıq edir.

**Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyası**-Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyası 2007-ci ilin yanvarında bir sıra diaspor təşkilatları tərəfindən təsis edilib. Assosiasiyada Kanadanın müxtəlif yerlərində fəaliyyət göstərən 10 diaspor təşkilatı təmsil olunur. Assosiasiya fəaliyyətini Kanadada Azərbaycan həqiqətlərinin yayılması, respublikamız barədə dolğun təsəvvürün formalaşdırılması istiqamətində qurub. Assosiasiya, həmçinin, Azərbaycan cəmiyyətlərinin fəaliyyətlərini koordinasiya edir. Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyası bundan başqa Kanadada təhsil alan azərbaycanlı tələbələrə də xüsusi diqqət ayırır. Burada isə məqsəd soydaşlarımıza kömək etmək, istedadlı gəncləri üzə çıxarmaq, həmin gənclərin ictimai işlərdə yaxından iştirakını təmin etməkdən ibarətdir. Kanadada Azərbaycan həqiqətlərinin yayılması məqsədilə Assosiasiya tərəfindən bu ölkənin universitetlərində konfranslar keçirilir, tələbə cəmiyyətlərinin təşkilatçılığı ilə aksiyalar təşkil olunur. Hazırda assosiasiyanın fəaliyyəti müsbət nəticələr verməkdədir. Dünyanın tanınmış ictimai-siyasi, elm xadimlərinin təşkilatın Kanadada keçirdiyi tədbirlərə qatılması ilə bir sıra uğurlar əldə edilmişdir.

Meksika-Bu ölkədə həm soydaşlarımızın, həm də diaspor təşkilatlarının sayı arzuedilən səviyyədə deyil. Bu ölkədə mövcud olan diaspor təşkilatı yalnız Latın Amerikası Azərbaycanlıları Assosiyasiyasıdır. Meksika Birləşmiş Ştatlarının paytaxtı Mexiko şəhərində Latın Amerikası Azərbaycanlıları Assosiasiyası rəsmi qeydiyyatdan keçərək fəaliyyətə başlayıb. Assosiasiyanın əsas məqsədi Latın Amerikası ölkələrində yaşayan azərbaycanlıları bir araya gətirmək, Quzey Azərbaycan Respublikasını və azərbaycançılıq ideologiyasını yüksək səviyyədə təmsil etməkdən ibarətdir. Bu, Latın Amerikası ölkələrində yaradılan ilk Azərbaycan diaspor təşkilatıdır. Təşkilatın sədri **Natiq Məmməd oğlu Atakişiyevdir**. O, 1939-cu ildə Azərbaycanda anadan olub, fizika-riyaziyyat üzrə professordur. 1994-cü ilədək Milli Elmlər Akademiyasının Fizika İnstitutunda işləyib.

1996-cı ildən isə akademik elmi dərəcəsi almaq uçun Milli Meksika Universitetində işə başlayıb. Həmin vaxtdan Meksikada yaşayan Natiq Atakişiyev bu ölkənin elmi dairələrində yüksək nüfuza malikdir. Fəaliyyəti dövründə assosiasiya bir sıra tədbirlər həyata keçirib, müvafiq addımlar atıb. Belə ki, LAAA Heydər Əliyevin Mexiko şəhərində ucaldılmış abidəsinin əleyhinə Meksika mətbuatında davam edən kampaniya ilə əlaqədar Meksika-Azərbaycan Dostluq Parkında Meksikada yaşayan Azərbaycan və türk icmaları nümayəndələrinin iştirakı ilə kütləvi etiraz aksiyası təşkil olunub. Aksiya Latın Amerikası Azərbaycanlıları Assosiasiyası tərəfindən təşkilatçılığı ilə keçirilib. Aksiya iştirakçıları və mətbuat nümayəndələri qarşısında çıxış edən professor Natiq Atakişiyev Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verib, onun Azərbaycan tarixində, həmçinin beynəlxalq əməkdaşlıq üçün böyük xidmətlər göstərdiyini bildirib, xatirəsinə hörmət və ehtiramla yanaşmağın vacibliyini söyləyib. Kütləvi aksiyanın sonunda N.Atakişiyev Latın Amerikası Azərbaycanlıları Assosiasiyası və Azərbaycan icması adından Mexiko şəhərinin meri Marselo Ebrarda ünvanlandığı açıq məktubu oxuyub və mətbuat nümayəndələrinə təqdim edib. Fəaliyyəti dövründə Latın Amerikası Azərbaycanlıları Assosiasiyasının yeni internet saytı da yaradılıb. Sayt ispan və ingilis dillərində təqdim edilən **www.azerbaijani-association.org** saytında Azərbaycan haqqında ümumi məlumatlar, ölkəmizin tarixi, mədəniyyəti, ədəbiyyatı, musiqisi, mətbəxi barədə ətraflı bilgilər, digər mühüm mühüm xəbərlər yerləşdirilib. Yeni internet səhifəsində Azərbaycan musiqi korifeylərinin əsərləri ilə də tanış olmaq mümkündür. Bundan başqa Azərbaycan dilini öyrənmək istəyənlər üçün sayta müvafiq lüğətlər yerləşdirilib. İnternet səhifəsinin rəsmi təqdimat mərasimi də keçirilib. Tədbirdə Meksikadakı azərbaycanlı icrasının üzvləri,Azərbaycan səfirliyinin əməkdaşları, eləcə də Meksikada fəaliyyət göstərən Ukrayna Cəmiyyətinin nümayəndələri iştirak ediblər.

**“Olaylar”.-2013.-25 may.-№93.-S.15.**

**Diaspor təşkilatları Azərbaycanın problemlərini finlandiyalılara çatdırır**

**Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi, eləcə də ölkəmizin zəngin tarixi-mədəni irsimizin dünya ictimaiyyətinə çatdırılmasında aktiv rol oynayan diaspor təşkilatlarından biri də Finlandiya Azərbaycan Assossiasiyasıdır. 2008-ci ilin mart ayında Helsinki şəhərində təsis edilən təşkilat ötən müddət ərzində yuxarıda qeyd edilən istiqamətlərdə bir sıra tədbirlər, layihələr həyata keçirib. Xüsusilə, Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün assosiasiya bütün mümkün imkanlardan istifadə edib. Bu məqsədlə assosiasiya rəhbərliyi müntəzəm olaraq Finlandiya parlamentində görüşlər keçirir, bu ölkə parlamentarilərini Azərbaycanın üzləşdiyi problemlər, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandırırlar.**

Bir müddət öncə də Finlandiya-Azərbaycan Assosiasiyasının rəhbərliyi bu ölkə parlamentində görüş keçirib. **Belə ki, Finlandiya-Azərbaycan Assosiasiyasının sədri Vasif Muradlı və təşkilat sədrinin müavini Arzu Oqtay Finlandiya parlamentində olublar.** Görüşdən öncə azərbaycanlı qonaqlar və Assosiasiyanın üzvləri Eduskuntanın (Finlandiya Parlamenti) iclasında iştiraka dəvət ediliblər. Parlamentin spikeri Eero Heynyaluomanın sədrliyi ilə keçən iclasda Finlandiyada işçilərin əmək hüquqlarının qorunması, iş yerlərində təhlükəsizlik məsələləri müzakirə olunub. Sonra Finlandiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Eero Lehti ilə görüş olub. Görüşdə Azərbaycan və Finlandiya arasında münasibətlərin inkişafından, ötən ilin noyabrında Finlandiya parlamentində Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan dinləmələrdən danışılıb. Deputat iqtisadi sahədə iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğulayıb. Eyni zamanda parlamentin deputatı ilə Finlandiyada yaşayan azərbaycanlıların təşkilatı məsələlərinin həlli də müzakirə edilib. Eeri Lehti azərbaycanlıların Helsinkidə təşkil edəcəyi tədbirlərdə məmnuniyyətlə iştirak edəcəyini bildirib. Görüşdə Eero Lehtiyə Azərbaycanın mədəniyyəti, tarixi, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı haqqında kitablar təqdim edilib. Deputat bu kitabların Azərbaycanı təbliğ etməkdə zəruri vəsait olduğunu bildirib. Finlandiya-Azərbaycan Assosiasiyası 20 Yanvar və Xocalı faciələrinin dünya ictimaiyyətinə çatdırılması işində də xüsusi fəallıq nümayiş etdirir. Belə ki, assosiasiyanın təşkilatçılığı ilə Helsinki şəhərinin "Caisa" Mədəniyyət Mərkəzində 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş "20 Yanvar 1990-cı il - Azərbaycan xalqının unudulmayan tarixi" adlı seminar keçirilib. Tədbiri Finlandiya-Azərbaycan Assosiasiyasının sədr müavini, Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri Arzu Oqtay açaraq, 1990-ci il yanvarın 19-dan 20-nə keçən gecə Ermənistana havadarlıq edən Sovet Ordusunun dinc Azərbaycan xalqına qarşı törətdiyi qırğın, erməni terrorçularının Azərbaycana qarşı hərbi təcavüzü haqda geniş məlumat verib. Tədbirdə Vaasa universitetinin tələbəsi **Elxan Qəhrəmalı** və **Zakir bəy** işğalçılıq siyasəti və digər məsələlərə dair məruzələrlə çıxış ediblər. Finlandiya-Azərbaycan Assosiasiyasının fəal üzvləri tərəfindən qonaqları maraqlandıran suallara geniş və ətraflı cavab verilib. Tədbirdə təqdim olunan sənədlər, 20 Yanvar hadisələrinə dair müxtəlif dillərdə kitablar, sənədli filmlər qonaqları heyrətləndirib.

**26 Fevral-Xocalı soyqırımının ildönümü** də hər zaman Finlandiya Azərbaycanlıları Assosiasiyası tərəfindən qeyd edilib. Belə ki, Helsinki Caisa mədəniyyət mərkəzində Xocalı soyqrımınının 21-ci ildönümünə həsr olunmuş “XX əsrin ən böyük faciəsi- Xocalı soyqrımı” adlı konfrans keçirilib. Konfransda Helsinki parlamentinə Xocalı soyqrımı tanınması haqda müraciət qəbul olunub. Müraciətdə qeyd olunub ki, Xocalı soyqrımı Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biridir. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaydır. Azərbaycan xalqına qarşı törədilmiş qətliamlardan biri və bəlkə də, ən amansızı Xocalıda quduz ermənilər tərəfindən törədilmiş soyqırımdır. Şəhidlərimizi unutmamaq və birgə anmaq hər birimizin müqəddəs borcudur. Artıq bəşəriyyət XX əsrin ən böyük faciəsi olan-Xocalı soyqrımını tanımalı və buna siyasi qiymət verməlidir.

**Finlandiya-Azərbaycan Assosiasiyası** ölkəmizin zəngin tarixi-mədəni irsinin təbliğində də yaxından iştirak edir. Bu məqsədlə Finlandiya-Azərbaycan Assosiasiyasının təşkilatçılığı ilə Finlyandiyanın paytaxtı Helsinkidə “Novruz” bayramı keçirilib. Helsinkinin mərkəzində yerləşən ən böyük mədəniyyət mərkəzi sayılan CAİSA mədəniyyət mərkəzində keçirilən tədbirdə Finlyandiyanın Mədəniyyət Nazirliyinin, Xarici işlər nazirliyinin, Təhsil Nazirliyinin, Helsinki və Espoo şəhərlərinin meriya nümayəndələri, Finlandiyadakı Türk səfirliyinin diplomatları, Türkiyə Cümhuriyyəti. Başbakanlık Yurd Dışı Türkləri Danışma Kurulu Finlandiya Təmsilçiliyinin nümayəndələri iştirak edib. Finlandiya-Türk cəmiyyəti də Novruz bayramını Finlandiya-Azərbaycan Assosiasiyası ilə birgə qeyd edib. Novruz bayramı və adət ənənələrini bu ölkədə tanıtmaq məqsədi daşıyan “Novruz” bayramında Finlandiya Azərbaycan Assosiasiyasının nəzdində fəaliyyət göstərən Yeniyetmə Gənclər Təşkilatının hazırladığı bayram proqramı nümayiş etdirilib. Milli geyimlərdə olan gənclərimiz gülər üzlə gələn qonaqları qarşılayıblar. Milli geyimlərimiz gələn qonaqları heyran edib. Tədbiri Finlandiya Azərbaycan Assosiasiyasının nəzdində fəaliyyət göstərən Yeniyetmə Gənclər Təşkilatının sədri **Günay Muradlı** və Yeniyetmə Gənclər Təşkilatının sədr müavini **Vəfa Muradlı** aparıb.

Yeniyetmə Gənclər Təşkilatının sədri Günay Muradlı və Yeniyetmə Gənclər Təşkilatının sədr müavini Vəfa Muradlı fin və Azərbaycan dillərində Novruz bayramı və onun adət ənənələri ,Azərbaycanda və digər türk dilli ölkələrdə bu bayramın necə qeyd olunması haqqında maraqlı məlumatlar veriblər. Tədbir zamanı Azərbaycanda Novruz bayramı şənliklərindən bəhs edən video nümayiş etdirilib. Bayramın rəsmi hissəsi bitdikdən sonra səhnəyə **Ülviyyə Cabbarovanın** rəhbərlik etdiyi Azər-Türk uşaq musiqi qrupu dəvət olunub. Onlar Azərbaycan və türk mahnıları ifa ediblər. **Ülviyyə Cabbarova və Leyli Hüseynovanın** ifa etdikləri canlı musiqi bayram şənliyində qonaqları heyran edib. Bütün ifaçılara Finlandiya-Azərbaycan Assosiasiyası tərəfindən Novruz hədiyyələri təqdim olunub.

Finlandiya Azərbaycan Assosiasiyasının mədəniyyət və musiqi işlər üzrə müdiri Ülviyyə Cabbarovanın rəhbərlik etdiyi "AZƏR-TÜRK " uşaq musiqi qrupu isə Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Helsinki mədəniyyət mərkəzində maraqlı konsert proqramı ilə çıxış etdilər. Konsertdə "AZƏR-TÜRK" uşaq qrupu azəri, türk, fin, polyak və digər xalqların mahnılarını ifa ediblər."AZƏR-TÜRK" uşaq qrupunun maraqlı konsert proqramı qonaqların böyük marağına səbəb oldu və alqışlarla qarşılanıb. Helsinki mədəniyyət mərkəzinin rəhbərliyi tərəfindən konsertin sonunda "AZƏR-TÜRK" uşaq musiqi qrupunun rəhbəri, Finlandiya Azərbaycan Assosiasiyasının mədəniyyət və musiqi işlər üzrə müdiri Ülviyyə Cabbarovaya, 2013-cü ildə Helsinkidə keçiriləcək bir neçə konsert proqramlarında çıxış etmək təklif olunub.

Finlandiya-Azərbaycan Assosiasiyası həm yerli, həm də xarici kütləvi informasiya vasitələri ilə də yaxından əməkdaşlıq edir, onlarla birgə layihələr, tədbirlər həyata keçirir. Belə tədbirlərdən biri bir müddət əvvəl baş tutub. Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAC) və Finlandiya-Azərbaycan Assosiasiyasının birgə təşkilatçılığı ilə Helsinkinin "Caisa" mədəniyyət mərkəzində görkəmli oftalmoloq alim, akademik **Zərifə xanım Əliyevanın** 90 illik yubileyinə həsr olunmuş "Qadınların cəmiyyətdə rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə AzərTAC-ın Helsinkiyə ezam edilmiş əməkdaşları, Finlandiya Türk Cəmiyyətinin, Finlandiya Azərbaycan Assosiasiyasının, Finlandiya Türk Dərnəyinin nümayəndələri və bu ölkənin fəal qadınları, həmçinin digər qonaqlar iştirak ediblər. İştirakçılar əvvəlcə AzərTAC-ın görkəmli alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyi münasibətilə hazırladığı videoçarxa baxıblar.

Mərasimdə çıxış edən Finlandiya-Azərbaycan Assosiasiyasının nəzdində fəaliyyət göstərən Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri Arzu Muradlı AzərTAC-la birgə təşkil edilmiş bu tədbirin əhəmiyyətindən danışıb, akademik Zərifə xanım Əliyevanın keçdiyi şərəfli həyat yolu, tibb elminə verdiyi töhfələr barədə söhbət açıb. Bildirilib ki, Zərifə xanım Əliyeva ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Görkəmli dövlət xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində doğulan Zərifə xanım ulu öndər Heydər Əliyevə mənəvi dayaq, arxa olub. Arzu Muradlı akademik Zərifə Əliyevanın timsalında bütün Azərbaycan qadınlarının qazandıqları uğurlar barədə də danışıb. O, bu gün yüksək intellektual düşüncəyə malik, dünya görüşlü Azərbaycan xanımlarının həyatımızın müxtəlif sahələrində çalışdığını diqqətə çatdırıb. Mərasimdə çıxış edən Türkiyənin xaricdə yaşayan türklərlə iş komitəsinin Finlandiyadakı təmsilçisi Mina Eray belə tədbirlərin keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Türkiyə təmsilçisi bunun Azərbaycan, türk mədəniyyətinin, incəsənətinin, tarixi reallıqlarının təbliği baxımdan böyük əhəmiyyət daşıdığını qeyd edib. Eyni mədəniyyətə, incəsənətə, tarixə malik Azərbaycan və Türkiyə birliyinin, qardaşlığının xaricdə daha çox diqqət çəkdiyi bildirilmiş, türk qadınlarının bu gün daha böyük uğurlara imza atdığı diqqətə çatdırıb. Mərasimdə çıxış edən Finlandiya-Türkiyə Körpüsü Cəmiyyətinin İdarə Heyətinin üzvü Anna Liza ölkəsində yaşayan azərbaycanlılar və türklərlə dostluq münasibətindən söz açıb, xalqlarımızın tarixi, mədəniyyəti və mətbəxi ilə yaxından tanış olduğunu diqqətə çatdırıb. Tədbirin əhəmiyyətinə də diqqət çəkən fin xanım, ölkəsində Azərbaycanın tanınmış oftalmoloq alimi Zərifə xanım Əliyevanın 90 illik yubileyi ilə bağlı tədbirin keçirilməsindən məmnunluq ifadə edib. İştirakçılara ölkəmizin tarixi, mədəniyyəti haqqında kitablar, Azərbaycan və türk mətbəxinin nümunələri də təqdim edilib.

**"Olaylar".-2013.-28 may.-№94.-S.15.**

**Diaspor təşkilatlarımız tərəfindən Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə bir çox tədbirlər təşkil edilmişdir**

**Hesabat dövründə** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 21 yanvar tarixli 2679 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 2-ci bəndinə uyğun olaraq Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən diasporları vasitəsilə dünyanın müxtəlif ölkələrində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş müxtəlif formatlı tədbirlər, elmi konfranslar, dəyirmi masalar, fotosərgilər keçirilmişdir.

**4 may 2013-cü il tarixində** Almatı şəhərindəki K.Satpaev adına Qazaxıstan Milli Texniki Universitetində Qazaxıstan Azərbaycanlıları Milli Mədəniyyət Mərkəzləri İttifaqının dəstəyi ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə elmi-praktiki konfrans keçirilmişdir. “Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafında və möhkəmlənməsində Heydər Əliyevin rolu” adlı elmi-praktiki konfransda Universitetin professorları, elmlər doktorları və tələbələri, türk, ərəb, özbək, çeçen, qırğız milli mərkəzlərini təmsil edən alimləri ümummilli lider Heydər Əliyevin Şərq dünyasındakı şəxsiyyətinin dəyəri, onun siyasi baxışları və başqa xüsusi keyfiyyətləri haqqında məruzə ilə çıxış etmişlər. Qazaxıstan Azərbaycanlıları Milli Mədəni Mərkəzləri İttifaqının sədri Vidadi Salahov, Almatıdakı Azərbaycanlıların “Ozan” İctimai Birliyinin sədri Qərib Məmmədov, həmçinin professor və akademiklər, tələbələr Heydər Əliyevin müstəqil, müasir Azərbaycanın yaranması və möhkəmlənməsi istiqamətindəki müstəsna xidmətindən danışmışlar. Tədbirdə iştirak edənlərə Ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən buklet və Qazaxıstan Azərbaycanlılarının milli dərgisi olan “Turan Times” qəzetinin Ümummilli liderə həsr olunmuş xüsusi buraxılışı paylanmışdır.

**5 may 2013-cü il tarixdə** Gürcüstan Azərbaycanlıları Əlillər Assosiasiyası ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar azərbaycanlıların yığcam yaşadıqları Kvemo Kartli-Borçalı bölgəsinin Qardabani rayonunda xeyriyyə aksiyası keçirmişdir. Assosiasiyanın sədri Rövşən Əliyev Ulu öndərin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən söhbət açmış, ölkənin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, əlillərin durumu məsələsinin də daim diqqət mərkəzində saxladığını qeyd etmişdir. Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev diqqəti dünya şöhrətli siyasətçi Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində belə bir xeyirxah aksiyanın keçirilməsinin əhəmiyyətinə cəlb etmiş, Ulu Öndər dühasının çox-çox illər azərbaycanlıların yoluna işıq saçacağına əmin olduğunu bildirmişdir. Sonda tədbir iştirakçıları “Dolu” və “Dostluğa çağırış” filmlərinə baxmışlar. Tədbirdə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin əməkdaşı Qurban Abbaslı, ARDNŞ-in Gürcüstan nümayəndəliyinin əməkdaşı Şövqi Mehdizadə iştirak etmişlər.

**6 may 2013-cü ildə Ümummilli lider Heydər Əliyevin** 90 illik yubileyi ilə əlaqədar Rusiya Federasiyasının Moskva şəhərində “Kolonniy Zal”da Heydər Əliyev Fondunun, Ümumrusiya Azərbaycan Konqresinin və Azərbaycanın RF-də fəaliyyət göstərən Fövqəladə və səlahiyyətli səfirliyinin təşkilatçılığı ilə təntənəli tədbir gecəsi keçirilmişdir. Tədbirdə Rusiya Federasiyasının rəsmi şəxsləri, Rusiya Federasiyasının Dövlət Dumasının sədri Serqey Narışkin, Prezident Administrasiyası başçısının müavini Məhəmmədsalam Məhəmmədov, Mərkəzi seçki komisiyasının sədri Vladimir Çurov, Xarici İşlər Nazirinin müavini Qriqoriy Karasin, MDB icraiyyə komitəsinin direktoru Serqey Lebedev, Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və səlahiyyətli səfiri Polad Bülbül oğlu, Ümumrusiya Azərbaycan Konqresinin rəhbərliyi və iki ölkənin elmi yaradıcı ziyalıları iştirak etmişdirlər.

**2013-cü il may ayının 6-da** Tel-Əviv şəhərində “İsrail-Azərbaycan” Beynəlxalq Asossiasiyasının (AZİZ) rəhbərləri İsrail dövlətinin aparıcı KİV nümayəndələri ilə görüş keçirmişdir. Tədbir Azərbaycan Respublikasının görkəmli dövlət və siyasi xadimi, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur. “İsrail-Azərbaycan” Beynəlxalq Asossiasiyasının (AZİZ) prezidenti Aleks Miller və digərləri tədbirdə çıxış edərək iştirakçılara ümummilli liderin Azərbaycan Respublikasının tarixində oynadığı mühüm rol və siyasi fəaliyyəti haqqında məlumat vermişlər.

**2013-cü ilin may ayının 10-da** Almaniyada Berlin “Azərbaycan Evi”nin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə futbol üzrə mini-turnir keçirilmişdir. Turnirdə Almaniya, Çexiya, Sloveniya, Danimarka təmsilçiləri ilə yanaşı, Almaniyada yaşayan azərbaycanlılardan təşkil olunmuş “Azəri” komandası da mübarizə aparmışdır. On komandanın çıxış etdiyi turnirdə 150 uşaq iştirak etmişdir. Qərara alınmışdır ki, ümummilli lider Heydər Əliyevin anadan olduğu 10 may tarixində hər il Berlin şəhərində analoji turnir təşkil olunsun.

**2013-cü ilin 10 may tarixində “Aydan**” Estoniya Azərbaycan Mədəniyyət Mərkəzi Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə Tallin şəhərində tədbir keçirmişdir. Ulu öndər, dahi insan, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin 90 illiyi ilə bağlı “Aydan” Estoniya Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Tallin şəhərində təntənəli tədbir keçirilmişdir. Tədbirdə çıxış edən Estoniya Parlamentinin deputatı həmyerlimiz E.Əfəndiyev qeyd etmişdir ki, bu dahi şəxsiyyətin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri olmuşdur.

**2013-cü ilin 10 may tarixində tarixində** ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyi, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, Rumıniya-Azərbaycan Sənaye və Ticarət Palatasının, Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının təmsilçiləri, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Rumıniya nümayəndəliyinin kollektivi və bu ölkədə təhsil alan azərbaycanlı tələbələr və başqaları iştirak etmişlər. Buxarestdəki Tey Parkı - Heydər Əliyev xiyabanına toplaşan tədbir iştirakçıları əvvəlcə ulu öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Tədbirdə çıxış edənlər müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, ölkəmizdə dinamik iqtisadi-sosial inkişafın təmin olunmasında, regionda və beynəlxalq aləmdə ölkəmizin mövqelərinin gücləndirilməsində, respublikamızda demokratik, hüquqi və vətəndaş cəmiyyətinin yaradılmasında və dünyəvi dəyərlərə inteqrasiya sahəsində ulu öndər Heydər Əliyevin apardığı cəsarətli siyasətin nəticələrindən danışmış və bu siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirildiyini diqqətə çatdırmışlar.

**Avstraliyanın Sidney şəhərində** 28 May - Respublika Günü münasibətilə tədbir keçirilib. Azərbaycan–Avstraliya - Türk Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirə Azərbaycan və türk diasporunun nümayəndələri, o cümlədən Avstraliyada təhsil alan azərbaycanlı tələbələr qatılıb. Tədbirdə Azərbaycanın tarixi və 1918-1920-ci illərdə müsəlman şərqində ilk demokratiya institutu olan Azərbaycan Demokratik Respublikasının mütərəqqi addımları barədə məlumat verilib. 1918-ci ildə ölkə parlamentinin qərarı ilə qadınlara seçki hüququnun verildiyini xatırladan cəmiyyətin prezidenti İmamətdin Qasımov qeyd edib ki, Azərbaycan qadınlara kişilərlə bərabər siyasi hüquqlar verməklə nəinki şərqdə ilk olmuş, hətta bu sahədə ABŞ (1920), Britaniya (18-28), Fransa (1944) kimi ölkələri qabaqlayaraq qərb ölkələri arasında da birincilər sırasına adını yazdırıb.

Respublika Gününə həsr olunmuş tədbirdə Sidney Texnologiya Universitetinin inşaat və ətraf mühit mühəndisliyi fakültəsinin baş müəllimi və koordinatoru, Dr. Şəmsəddin Nicat Azərbaycan dilində vətənpərvərlik ruhunda yazdığı şeirləri oxuyub. Daha sonra iştirakçılar Azərbaycan Demokratik Respublikasının uğurları, yenidən müstəqillik qazandıqdan sonra Azərbaycanın keçdiyi yol, Ermənistan-Azərbaycan Dağlıq münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı və digər mövzular ətrafında müzakirə aparılıb. Sonda tədbir iştirakçılarına Azərbaycan musiqisi və milli mətbəxindən nümunələr təqdim olunub.

**May 2013**

## 28 may Respublika günü münasibəti ilə bir sıra tədbirlər keşirilmişdir

**May ayının 26-sı 2013-cü il tarixində** Konnektikut ştatında Azərbaycan diasporunun təşkilatçılığı ilə 28 may Respublika günü münasibəti ilə bayraq qaldırma mərasimi təşkil edilmişdir. Mərasimdə iştirak edən Azərbaycanlı nümayəndələr öz aktivliyini nümayiş etdirmişdirlər. Eyni zamanda, qeyd etmək düzgün olardı ki, 2013 cü il aprelin 16-da Konnektikut ştatının Baş Məclisi Şuşanın işğalının ildönümündə Xocalı soyqırımının tanınması haqqında sənəd qəbul edilmişdir. Ştatın Senat və konqresində keçirilən görüşlərdə Azərbaycan haqqında təbliğat materialları onların kitabxanasına hədiyyə edilmişdir. Eyni zamanda onlara Ümummilli Lider Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Diasporla İş üzrə Dövlət komitəsi tərəfindən hazırlanmış film nümayiş olunmuş və disk təqdim edilmişdir.

**28 may 2013-cü il tarixində Niderland Krallığının Assen şəhərində** yaşayan azərbaycanlılar 28 May – Respublika gününü qeyd edilmişdir. "Odlar Yurdu" Cəmiyyəti tərəfindən təşkil edilən tədbir Assen şəhərinin nüfuzlu tədris ocaqlarının birində - Nassau Kollecdə keçirilmişdir. Əsasən kollecin şagird və müəllim heyətinin iştirak etdiyi gecəyə yerli tədris hissənin məsul isçiləri də qatılmışdır.Tədbirdə ilk çıxış edən məktəbin direktoru İ.Meuldijk ötən il keçirilən və Xocalı faciəsinə həsr olunmuş tədbiri yada salınmışdır. O, Assen şəhərinin ICO konsert zalında keçirilmiş həmin gecənin də əsas iştirakçılarının Nassau Kollecinin şaqirdlərinin olmasından və onların tədbirə böyük marağından danışıb. 28 May Respublika gününə həsr olunmuş bu tədbirdə uşaqların çəkdiyi rəsmlər sərgilənib, sonra isə Azərbaycan Respublikası və Ümummilli lider Heydər Əliyev haqqında filmlər nümayiş olunmuşdur. Tədbirin sonunda musiqi nömrələri səsləndirilmişdir.

**Hesabat dövrünün may ayının 31-də** Kaliforniyada İrvin universitetində Azərbaycan Respublikasının 95 illiyi münasibətilə tədbir keçirilmişdir. İrvin universitetinin Azərbaycanlı Tələbə Assosiasiyası tərəfindən təşkil edilmiş tədbirə Azərbaycan, türk və yəhudi icmalarının üzvləri qatılmışdır. Tədbirdə Azərbaycanlı Tələbə Assosiasiyasının üzvü, Dövlət siyasəti üzrə namizədlik dərəcəsi almış Aytən Nəbiyeva və Amerika Azərbaycan Şurasının baş direktoru Cavid Hüseynov çıxış etmişlər.

**Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində (AAKM)** 28 May –Respublika Gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri AAKM-nin icraçı direktoru Samira Patzer-İsmailova giriş sözü ilə açaraq 1918-ci il mayın 28-də qurulan Azərbaycan Demokratik Respublikası, onun tarixi və iki ildən sonra bolşevik Rusiyası tərəfindən süquta yetirilməsi haqqında məlumat verib. Daha sonra o, 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra iqtisadi və sosial sahələrdə qazandığı uğurlar, eləcə də siyasi aləmdə tutduğu mövqedən danışıb. Samira Patzer-İsmailovadan sonra söz alan Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyinin müşaviri Rizvan Nəbiyev Azərbaycanın tarixinə və onun müasir dövrdəki inkişafına dair "Azərbaycan – tarix və müasirlik" mövzusunda çıxış edib. R.Nəbiyev Azərbaycanın 21 ildə qazandığı uğurlardan, suveren bir ölkə kimi Cənubi Qafqaz regionunda tutduğu mövqedən, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına hər bir azərbaycanlının verdiyi töhfədən danışıb. O, Azərbaycanın bu illərdə əldə etdiyi nailiyyətlər, ölkə rəhbərliyinin tarixin araşdırılmasına, mədəniyyətin və milli ənənələrin qorunub saxlanmasına verdiyi əhəmiyyət və Azərbaycanın xarici ölkələrlə, xüsusən də Almaniya ilə qurduğu mədəni-iqtisadi əlaqələrdə qazandığı uğurlar haqqında ətraflı məlumat verib. Məruzəçi sonda müstəqilliyin müsbət tərəflərindən birinin də xaricdə diaspor işinin formalaşması olduğunu deyib. O, Almaniyada yaradılan AAKM-nin diaspor işindəki fəaliyyətinin məqsədəyönlü və səmərəli olduğunu bildirib.Tədbirdə çıxış edən "Sumqayıtda Alman Dili Müəllimləri Birliyi"nin və "Veteranlar şurası"nın sədri Leyla Qasımzadə isə birliyin bir qrup üzvünün hazırda Almaniyada səfərdə olduğunu bildirib. 52 il alman dili müəllimi kimi fəaliyyət göstərən və hazırda təqaüddə olan, lakin hələ də ictimai işlərdə fəal iştirak edən Leyla Qasımzadə məlumat verərək bildirib ki, onun işlədiyi məktəbdə vaxtilə yaratdığı Beynəlxalq Dostluq Klubu Almaniyanın üç şəhərində üç məktəblə dostluq əlaqəsi quraraq müqavilə bağlamış və mütəmadi olaraq şagird mübadiləsi təşkil edir. Mübadilə proqramına əsasən şagirdlər 6 ay müddətinə Almaniyadakı məktəbdə təhsil alaraq alman dilini öyrənir və eləcə də alman şagirdlər Sumqayıt məktəblərindəki dərslərdə iştirak edirlər. Hazırda Almaniyaya səfərinin məqsədi isə Almaniyada Dostluq Klubunun partnyorları ilə görüşərək Azərbaycanı alman ictimaiyyətinə tanıtmaqdır. O, çıxışının sonunda Birliyin fəaliyyətinə həsr etdiyi kitabını AAKM-ə hədiyyə edib. Tədbirin daha bir maraqlı qonağı – Azərbaycanda fəaliyyət göstərən Xəzər TV-nin aparıcısı və prodüsseri Hacı Nuran Hüseynov çıxış edərək hazırda Almaniya səfəri çərçivəsində diaspor nümayəndələri ilə görüşdüyünü bildirib və Almaniyadakı Azərbaycan diasporu ilə payızdan başlayacaq televiziya layihələri haqqında məlumat verib. Tədbirin rəsmi hissəsindən sonra "Hökmdarın taleyi" bədii filmi nümayiş etdirilib. Sonda işriakçılar xatirə şəkilləri çəkdiriblər.

**İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi** və İzmirdə təhsil alan Azərbaycanlı Tələbələrin Zəkəriya Doğan Mədəniyyət Mərkəzində təşkil etdiyi tədbir Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında, daha sonra Azərbaycanın müstəqillik qazanmasında əməyi olanların xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb. Azərbaycan və Türkiyənin himnlərinin oxunmasından sonra iştirakçılara söz verilib.

İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyinin sədri Turqut Arat, Azərbaycan Kültür və Dialoq Dərnəyinin İzmir şöbəsinin rəhbəri İdris Karaahmətoğlu və digəriləri çıxış edərək Azərbaycan Xalq Cümhuriyətinin qurulmasından, AXC–nin Azərbaycan tarixi üçün önəmindən danışıblar və bütün azərbaycanlıları Respublika günü münasibətilə təbrik ediblər.Tədbir konsert proqramı ilə davam edib. Azərbaycanın Respublika günün həsr olunmuş tədbirdə İzmirdə təhsil alan azərbaycanlı və xarici tələbələr, qeyri-hökumət təşkilatlarının nümayəndələri, universitet müəllimləri iştirak etdilər.

Bu gün – mayın 31-də Almaniyanın Maqdeburq şəhərində Azərbaycan Demokratik Respublikasının 95 illiyinə həsr olunmuş tədbir keçirilib. Zakhsen-Anhalt əyaləti üzrə Alman-Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkil etdiyi tədbir Bazar İqtisadiyyatı İnstitutunda baş tutub. Alman-Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədri Yaşar Niftəliyev qonaqları salamladıqdan sonra, Azərbaycanın və Almaniyanın himnləri səsləndirilib. Azərbaycanın diaspor nümayəndələri və yerli ictimaiyyətin təmsilçilərinin iştirak etdiyi tədbirdə çıxış edən Alman dili Müəllimləri Birliyinin sədri Leyla Qasımzadə Azərbaycan Demokratik Respublikası qurulması, qısa vaxtda keçdiyi şərəfli yol, onun süquta uğraması və ölkəmizin yenidən müstəqillik qazanması haqda danışıb. Leyla Qasımzadə qonaqlara Azərbaycanın bu gün üzləşdiyi problemlər, Ermənistanın təcavüzü və Dağlıq Qarabağı işğal altında saxlaması barədə də iştirakçılara məlumat verib.

Daha sonra söz alan Bazar İqtisadiyyatı İnstitutunun rəhbəri, alman dilində çap edilmiş “Xocalı” kitabının müəllifi Rolf Kunş qələmə aldığı Xocalı faciəsi, ermənilərin törətdiyi vəhşiliklər haqda fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.Çıxışlar iştirakçılarda böyük maraq doğurub və onların ölkəmizlə bağlı suallarını Yaşar Niftəliyevlə Leyla Qasımzadə cavablandırıblar.Sonda Respublika Gününə həsr olunmuş tədbirin iştirakçılarına Azərbaycana aid kiçik xatirə hədiyyələri və kitablar təqdim olunub.

**May 2013**

## Teymur Rzayev Rusiya Rəssamlıq Akademiyası tərəfindən Şuvalov medalı ilə təltif olunub

Hazırda Türkiyədə yaşayan azərbaycanlı rəssam Teymur Rzayev Rusiya Rəssamlıq Akademiyası tərəfindən Şuvalov medalı ilə təltif olunub. Akademiyanın yaradıcısı və ilk rəhbəri olmuş (1757) İvan İvanoviç Şuvalov medalını həmyerlimizə təhsil ocağının direktoru Zurab Tsereteli Akademiyanın Ağ zalında təşkil olunmuş təntənəli mərasimdə təqdim edib.Azərbaycanda və Sankt-Peterburqda rəssamlıq təhsili alan Teymur Rzayev 1994-cü ildən Türkiyədə yaşayır. Azərbaycan Rəssamlar İttifaqının üzvü, əməkdar rəssam Teymur Rzayev hazırda Yeditəpə Universiteti İncəsənət fakültəsi Plastik sənətlər şöbəsində müəllim işləyir.

Teymur Rzayev vətəndən kənarda yaşadığı bu illər ərzində hər zaman ölkəmizin təbliği, onun tanıdılması istiqamətində fəaliyyət göstərib. Həmyerlimizin çəkdiyi rəsm əsərlərində ölkəmizin problemləri, Dağlıq Qarabağ münaqişəsinə daim diqqət yetirilib. Azərbaycan diasporunun inkişafında müstəsna xidmətlər göstərmiş Teymur Rzayev 2006-cı ildə Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş Dünya azərbaycanlıları ziyalıları forumunda Türkiyədə yaşayan rəssamların koordinatoru seçilib.

2011-ci il iyulun 4-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə elm, mədəniyyət, incəsənət sahəsindəki nailiyyətlərinə, Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə “Əməkdar rəssam” fəxri adı ilə təltif olunub.

**03 iyun 2013**

**İsrailin Tirat-Karmel şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 95-ci ildönümü qeyd edilmişdir**

İsrailin Tirat-Karmel şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 95-ci ildönümü qeyd edilmişdir.Tədbir "İsrail-Azərbaycan" (AZİZ) Beynəlxalq Assosiasiyası tərəfindən şəhər bələdiyyəsinin dəstəyi ilə təşkil edilmişdir."İsrail-Azərbaycan" Beynəlxalq Assosiasiyasının mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, açılış mərasimində Dağ Yəhudilərinin mədəniyyət və ənənələrinin qorunması mərkəzinin direktoru, "AZİZ"in idarə heyətinin üzvü Şaul Siman Tov AXC-nin Yaxın Şərqdə və müsəlman ölkələri arasında ilk demokratik respublika kimi mütərəqqi əhəmiyyətindən danışmışdır.Beynəlxalq məsələlər üzrə ekspert, "AZİZ"in idarə heyətinin üzvü Arye Qut Şərqdə müsəlman Şərqində ilk demokratik, parlamentli respublika olan AXC-nin tarixi, onun dövlətçilik ənənələri haqqında təqdimat etmişdir. Bildirmişdir ki, müstəqil AXC qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir.

İlk dəfə qadınların seçki hüququnu tanıyan və qadın–kişi bərabərliyini təmin edən cümhuriyyət, həmçinin milli ordu, milli pul, demokratikləşmə, milli bank, azad seçki, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının rəsmi tanınması, Azərbaycanın bütövlüyünün təmin edilməsi istiqamətlərində böyük işlər görmüşdür.Ekspert qeyd etmişdir ki, 23 ay mövcud olmuş AXC-nin hər tarixi səhifəsi bütün azərbaycanlılar, o cümlədən hazırda Azərbaycandan köçüb İsraildə yaşayanlar üçün çox əzizdir. Diqqətə çatdırmışdır ki, AXC-nin ilk hökumətində səhiyyə naziri Yevsey Gindesin olması Azərbaycan xalqının tolerantlığının və yəhudi xalqına sevgisinin daha bir göstəricisidir.

Arye Qut vurğulamışdır ki, Azərbaycanda heç vaxt antisemitizm halları olmamış və biz İsraildə Azərbaycan diasporunun təmsilçiləri olaraq bu faktla qürur duyuruq. Mənə müsəlman, yaxud xristian dövləti olan ikinci bir ölkə göstərin ki, orada ölkə Prezidenti və onun xanımının himayəsi ilə iki sinaqoq və Cənubi Qafqazda ən böyük olan təhsil mərkəzi tikilsin. Düşünürəm ki, sadəcə olaraq tapmayacaqsınız.

Tirat-Karmel şəhərinin meri Arye Tal tədbir təşkilatçılarına minnətdarlığını bildirmiş və bayram münasibətilə Azərbaycan diasporunu təbrik etmişdir. O, diaspor nümayəndələrinin çıxışlarından və filmin təqdimatından aldığı xoş təəssüratını bölüşmüşdür.Arye Talın fikrincə, İsrail Azərbaycanın mühüm geostrateji tərəfdaşıdır. O, Azərbaycan tərəfinə Tirat-Karmel şəhəri ilə real dostluğu təklif edərək öz ehtiramını ifadə etmişdir.İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivak və Azərbaycan diasporunun fəalı Cəmil Məmmədov bu gözəl bayramın keçirilməsində Tirat-Karmel şəhərinin merinə minnətdarlıqlarını bildirmişlər.

**03 iyun 2013**

**Benilüks Azərbaycanlıları Konqresinin (BAK) idarə heyətinin növbədənkənar toplantısı keçirilib**

Əsas ofisi Amsterdamda yerləşən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) idarə heyətinin növbədənkənar toplantısı keçirilib. Yığıncaqda Azərbaycan həqiqətlərini müxtəlif beynəlxalq təşkilatlara, habelə Benilüks məkanındakı ölkələrin ictimaiyyətinə çatdırılması istiqamətində görülmüş işlərdən müzakirə olunub, bu sahədə işlərin təkmilləşdirilməsinin və yeni layihələrin reallaşdırılmasının vacibliyi vurğulanıb.

BAK-ın tərkibində ölkəmizə dair məlumatları operativ şəkildə çatdıran və lobbiçilik məsələləri ilə ciddi məşğul olan senatorluq institutunun yaradılması məqsədəuyğun hesab edilib. Yeni institut Benilüks ölkələrində yaşayan azərbaycanlıları BAK ətrafında daha sıx birləşdirmək və onların fəaliyyətini istiqamətləndirmək məqsədi daşıyacaq, Avropa Parlamentində akkreditə olunan lobbiçilik qrupunun işinə lazımi dəstək verəcək, ən aktual məsələləri idarə heyətinin müzakirəsinə göndərəcək, qəbul olunan qərarların icrasına nəzarət edəcək və konqresin fəaliyyət istiqamətini müəyyənləşdirəcək.Yeddi nəfərdən ibarət senatorluq institutunun üzvləri artıq öz vəzifə səlahiyyətlərinin icrasına başlayıb.

**03 iyun 2013**

### “Azərbaycanın haqq səsinin Belarus ictimaiyyətinə çatdırırıq”

***Sərdar Hüseynov: “Azərbaycanın böyük gələcəyi var”, “Bizim istəyimiz yalnız ondan ibarətdir ki, biliyimizi, ağlımızı, varlığımızı ancaq Azərbaycan üçün sərf edək”***

**Azərbaycan diasporunun inkişaf etdirilməsi, onun dünyada söz sahibinə çevrilməsi istiqamətində dövlətlə yanaşı qeyri-hökumət təşkilatları da uğurlu fəaliyyət göstərərək ölkəmizin haqqı səsinin dünya birliyinə çatdırılmasında yaxından iştirak edirlər. Belə qeyri-hökumət təşkilatlarından biri də Beynəlxalq Diaspor Mərkəzidir.**

Mərkəzin son illərdə müxtəlif ölkələrdə yaradılan nümayəndəlikləri də bu mənada aktiv fəaliyyət göstərirlər. Beynəlxalq Diaspor Mərkəzinin Belarus nümayəndəliyi də fəaliyyət göstərdiyi müddət ərzində sözügedən istiqamətlərdə bir sıra işlər görüb, uğurlu layihələr həyata keçirib. Beynəlxalq Diaspor Mərkəzinin Belarusun Qrodnı şəhərində yerləşən nümayəndəliyinin rəhbəri Sərdar Hüseynov Azərbaycan diasporunun mövcud durumu, bu günə qədər əldə edilən nailiyyətlər, eləcə də digər məsələlər barədə danışıb. Sərdar Hüseynov bu ölkədə yaşayan soydaşlarımızın sayı və onların başlıca məşğuliyyəti barədə də danışıb: “Məlumat üçün qeyd edim ki, Belarusun Qrodnı vilayətində 700-ə yaxın azərbaycanlı ailə yaşayır.

Ümumilikdə isə, Belarusda 6 vilayət var ki, həmin vilayətlərdə qeydiyyatdan keçmiş 5 mindən artıq azərbaycanlı yaşayır”. Sərdar Hüseynovun sözlərinə görə, Belarusda yaşayan azərbaycanlıların ən ciddi problemlərindən biri ondan ibarətdir ki, bu ölkədə yaşayan soydaşlarımız konsulluqlarda qeydiyyatdan keçmirlər. Nəticə etibarilə hansı vilayətdə nə qədər azərbaycanlının yaşadığı dəqiq bilinmir. Bu problemi bir müddət əvvəl diaspor təşkilatları olaraq müzakirə də etmişik”. Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ probleminin Belarus ictimaiyyətinə çatdırılması prosesinə gəlincə BDM-in Belarus nümayəndəliyinin rəhbəri deyib ki, Belarusda yaşayan azərbaycanlılar olaraq Azərbaycanın bayram günləri və hüznlü tarixlərini həmişə qeyd edilir: “Ötən ilin sonunda 31 dekabr- Azərbaycanlıların Həmrəylik Günü, 20 Yanvar faciəsinin ildönümü, Xocalı soyqırmının 20-ci ildönümünü geniş şəkildə qeyd etmişik.

Ümumiyyətlə, çalışırıq ki, Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi, ölkəmizin üzləşdiyi problemlər barədə Belarus ictimaiyyətini ətraflı şəkildə məlumatlandıraq. Ümumiyyətlə, Belarusda yaşayan azərbaycanlılar olaraq Şuşanın işğalının ildönümü, 20 Yanvar, Xocalı faciələrini hər zaman anır, bununla bağlı tədbirlər keçiririk: “Mütəmadi olaraq yaşadığımız ölkələrdə müəyyən tədbirlər keçirir, torpaqlarımızın hələ də erməni işğalı altında saxlanıldığını Belarus ictimaiyyətinə çatdırırıq. Ümumiyyətlə, hər bir rayonun işğalı tarixlərini qeyd edir, bu barədə yerli ictimaiyyətə məlumat veririk”. Sərdar Hüseynov Azərbaycan diasporunun qarşısında duran vəzifələr barədə də danışıb: “Bu gün bizim qarşımızda duran əsas vəzifələr Azərbaycanın tarixi, qarşılaşdığı problemləri həm yaşadığımız ölkə, həm də dünya ictimaiyyətinə çatdıraq.

Xaricdə yaşamağımıza baxmayaraq biz Azərbaycanla nəfəs alırıq. İstənilən zaman Azərbaycanla əlaqədə olur, hər ötən gün əldə edilən uğurlarla fəxr edirik. Məqsədimiz odur ki, hər şey Azərbaycan və azərbaycanlılar üçün olsun. Azərbaycanın böyük gələcəyi var. Bizim istəyimiz yalnız ondan ibarətdir ki, biliyimizi, ağlımızı, varlığımızı ancaq Azərbaycan üçün sərf edək. Məlumat üçün qeyd edim ki, mart ayının 20- də biz Belarusun Qrodnı şəhərində fəaliyyət göstərən diasporamıza yeni rəhbər seçdik. Əvvəlki diaspor rəhbəri son iki-üç ildə Azərbaycanın mədəniyyəti, irsini yetərincə təbliğ etmirdi. Biz də Belarusda yaşayan azərbaycanlılar olaraq xahiş etdik ki, münasib bir şəxsi diaspora rəhbəri seçək və kifayət qədər vətənpərvər, iş adamı Namiq Vəliyev diasporamıza yeni sədr seçildi. Onu da qeyd edim ki, Belarusda yaşayan xalqların iki ildən bir festivalı keçirilir. Əvvəlki diasporamız çox zəif olduğu üçün Azərbaycan olaraq həmin festivalda yüksək səviyyədə təmsil olunmurduq. Çünki həmin tədbirlərdə daha geniş spektrdə iştirak etmək üçün müəyyən dərəcədə maliyyə vəsaitinə də ehtiyac duyulur.

Əvvəlki illərdə festivalda iştirak etmək üçün kifayət qədər vəsait ayrılmırdı. Hazırda isə Belarusda yaşayan azərbaycanlılar olaraq bu işi öz üzərimizə götürmüşük və festivalda iştirak üçün lazım olan vəsait dəyərli soydaşlarımız tərəfindən ayrılacaq. Əsas məqsədimiz odur ki, Belarusda yaşayan azərbaycanlıların tarixi, irsi, adət-ənənələri mədəniyyəti, mətbəxi barədə festivalda ətraflı məlumat verək, həmin tədbirdə ölkəmizi layiqincə təmsil edək. Ümumilikdə Azərbaycan diasporunun Avropa məkanındakı fəaliyyətinə nəzər salsaq bu fəaliyyətin ürəkaçan olduğunu söyləmək mümkündür. Etiraf etmək lazımdır ki, Azərbaycan diasporu bu gün kifayət qədər fəaldır. İstər Avropa məkanında, istər keçmiş SSRİ məkanına daxil olan respublikalarda Azərbaycan diasporu tam formalaşıb, güc mərkəzinə çevrilib. Eyni zamanda Azərbaycan diasporu birlik və bərabərliyə də nail olub. Bu gün ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən konqres və federasiyalarda, assambleyalarda onlarla Azərbaycan diaspor təşkilatı birləşib ki, bu da Azərbaycan diasporunun birlik və bərabərliyinin təcəssümüdür.

Sevindirici hal ondan ibarətdir ki, Azərbaycan dövləti də diaspor fəaliyyətinə yaxından dəstək olur. Müntəzəm olaraq keçirilən dünya azərbaycanlılarının qurultayları bu prosesə təkan verir, diasporumuzun daha aktiv olması, fəaliyyət göstərdiyi ölkələrdə Azərbaycanı layiqincə təmsil etməsinə yardım göstərir. Məlumat üçün qeyd edim ki, 2012-ci il, iyunun 1-dən 3-dək keçirilən həmin festivalda Azərbaycanı yüksək səviyyədə həm Belarus ictimaiyyəti, həm də bu ölkədə yaşayan digər xalqlarınnəzərinə çatdırdıq, Festivalda Azərbaycandan da nümayəndə heyəti iştirak edirdi. Beynəlxalq Diaspora Mərkəzinin sədri İsmayıl Ağayevin rəhbərliyi altında Azərbaycandan Belarusa nümayəndə heyəti gelmişdi.

Nümayəndə heyətinin tərkibinə millət vəkilləri, kütləvi informasiya vasitələrinin nümayəndələri və sənət adamları da daxil idi. Qeyd edim ki, hazırda Belarusda 50-yə yaxın xalq yaşayır. Həmin festival respublikadaxili festival olduğu üçün tədbirdə yalnız Belarusda yaşayan xalqlar iştirak edirdi. Ancaq eyni zamanda, bu ölkədə yaşayan xalqların mənsub olduğu dövlətlərdən də nümayəndələr gəlib festivala qatılır". Beynəlxalq Diaspora Mərkəzinin Belarus nümayəndəliyinin rəhbəri Dünya Azərbaycanlılarının üçüncü qurultayında prezident İlham Əliyev diaspor təşkilatlarına səfirlik və iş adamları ilə yaxından əməkdaşlıq etmək barədə verdiyi tövsiyyələrdən sonra bu 7 sahədə müşahidə edilən irəliləyiş barədə də söhbət açıb: "İlk növbədə qeyd etmək istərdim ki, Dünya Azərbaycanlılarının üçüncü qurultayı Azərbaycan diaspor həyatı üçün mühüm əhəmiyyətə malik bir hadisə idi.

Bu qurultaylar dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının bir araya gəlməsi, onların dövlətlə əlaqələrinin möhkəmləndirilməsinə xidmət edən mühüm toplantılardır. Sonuncu, Dünya Azərbaycanlılarının üçüncü qurultayını da məhz belə xarakterizə etmək olar. Qurultayda cənab prezident İlham Əliyev geniş və əhatəli nitqi ilə diaspor təşkilatları qarşısında yeni vəzifələr qoydu, onlara öz tapşırıq və tövsiyyələrini verdi. Biz də bir azərbaycanlı olaraq cənab prezidentin bizə verdiyi tapşırıq və tövsiyyələrin icrası istiqamətində əlimizdən gələni əsirgəmir, fəaliyyətimizlə millətə, Vətənə xidmət etməyə çalışırıq. O ki, qaldı, dövlət başçısının diaspor təşkilatlarına səfirlik və iş adamları ilə yaxından əməkdaşlıq etmək tövsiyyəsinə, biz müntəzəm olmasa da, mütəmadi şəkildə Azərbaycanın Belarusdakı səfirliyi ilə telefon əlaqəsi yaradır, müəyyən məsləhətləşmələr aparırıq".

Sərdar Hüseynov qeyd edib ki, Belarusda yaşayan azərbaycanlı ailələrin üzləşdiyi hər hansı bir problem barədə müntəzəm olaraq Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfirliyinə məlumat verilir: Sərdar Hüseynov Belarusdakı azərbaycanlı iş adamları ilə mərkəzin nümayəndəliyinin əlaqələrinin yüksək səviyyədə olduğunu da söyləyib: "Onu da qeyd etmək yerinə düşər ki, azərbaycanlı iş adamları Belarusda kifayətqədər nüfuz qazanıb, bu ölkədə müxtəlif sahələrə sərmayələr yatırıblar. İş adamı olan soydaşlarımız tərəfindən Belarusda şadlıq evləri, restoranlar tikilir, müxtəlif iaşə obyektləri inşa edilir. Bir sözlə Belarusda fəaliyyət göstərən azərbaycanlı iş adamları bir-biri ilə sıx əlaqəlidir.

Həmçinin azərbaycanlılar yerli iş adamları ilə də birgə bir sıra işlər görürlər. İri yaşayış binalarının tikintisi zamanı müştərək fəaliyyət göstərilir". BDM-in Belarus nümayəndəliyinin rəhbəri yaxın günlərdə bu ölkədə Azərbaycanla bağlı daha bir neçə tədbirin keçiriləcəyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycandan gələn nümayəndə heyətinin iştirakı ilə keçirilən tədbirlərdə Belarus ictimaiyyətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ermənilərin işğalçılıq siyasəti barədə ətraflı məlumat veriləcək.

**"Olaylar".-2013.-4 iyun.-№98.-S.15.**

## Azərbaycan diasporunda yeni bir mərhələnin başlanğıcı

**XX əsrin 70-ci illərin əvvəllərindən başlayan iqtisadiyyat, mədəniyyət, elm və təhsil sahələrində inkişaf, mənəvi mühitin sağlamlaşdırılması bütövlükdə ölkədə milli özünüdərk prosesinin təkamülünə böyük təkan verdi. 70-80-ci illərdə Heydər Əliyev qətiyyət, müdriklik və cəsarətini xalqın tarixi yaddaşının qorunmasına, mədəniyyətimizin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına yönəltmişdir. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək imkandan tam səmərə ilə istifadə edilirdi.**

Xarici ölkələrlə mədəni əlaqələrin qurulması, bədii tərcümə işinin genişlənməsi, xaricdə yaşayan həmvətənlərimizlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin («Vətən» cəmiyyəti) yaradılması soydaşlarımızın birliyinə və Vətənlə ayrılmaz tellərlə bağlanması mühüm addımlardan biri idi. Eyni zamanda respublikamızın hərtərəfli inkişafı onlarda milli qürur hissi oyadır, Ata yurduna maraq və bağlılığı artırırdı. Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının elmi və intellektual potensialının gücləndirilməsinə həmişə böyük qayğı ilə yanaşırdı. Məhz elə bu qayğı və diqqətin sayəsində yüzlərlə azərbaycanlı gənc SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı qazanmışdır. Belə ki, keçmiş SSRİ məkanının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağında elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələri əhatə edən və Azərbaycanda zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən çox mütəxəssis hazırlanmışdır. Bu kadrların bir çoxu yenidən Azərbaycana qayıdıb respublikanın inkişafına öz töhfələrini versə də onların bir qismi təhsil aldıqları şəhərlərdə məskunlaşmışdır. Bir sözlə, 70-80-ci illərdə sovet dövlətində gedən respublikalararası inteqrasiya prosesləri, gənclərin Azərbaycandan kənarda digər respublikalarda təhsil almaq imkanı azərbaycanlıların təbii miqrasiyasına təkan vermişdir. Respublikamızdan kənarda əmək fəaliyyətinə başlayan həmin mütəxəssislər bir tərəfdən həmvətənlərimizin mütəşəkkilliyinin güclənməsinə, digər tərəfdən elm və mədəniyyətimizin inkişafına əhəmiyyətli yardım göstərmişlər. Heydər Əliyevin Moskvada Sovet dövlətinin rəhbərlərindən biri kimi fəaliyyəti dünya azərbaycanlıları arasında milli təfəkkürün güclənməsində xüsusi rol oynamışdır. Bu gün xarici ölkələrdə «Azərbaycanlı» adını şərəf və ləyaqətlə daşıyan neçə-neçə dünya şöhrətli alimlər, ziyalılar, incəsənət xadimləri, iş adamları vardır və onlar yaşadıqları ölkələrin ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Hər bir azərbaycanlı Rusiya neft sənayesinin qurucularından biri, əfsanəvi neft kəşfiyyatçısı, geoloq Fərman Salmanovun, dünya şöhrətli rəssam Tahir Salahovun, elm aləmində «Zadə» soyadı ilə tanınmış alim Lütfi Əliəsgərzadənin, Fransada yaşayan rəssam Toğrul Nərimanbəyovun, kinodramaturq, «Oskar» mükafatı laureatı Rüstəm İbrahimbəyovun, müğənni, bəstəkar Müslum Maqomayevin adları ilə fəxr edir, qürur duyur. Ötən əsrin 80-ci illərin sonlarında SSRİ məkanında cərəyan edən hadisələr imperiyanın sərhədləri çərçivəsində demokratik düşüncə tərzinin genişlənməsinə və milli azadlıq hərəkatlarının güclənməsinə zəmin yaratmış oldu.

Azərbaycanda milli oyanış daha geniş vüsət almışdır. Təsadüfi deyildir ki, 1989-cu ildə azərbaycanlılar «Dünyanın ən mübariz xalqı» adına layiq görülmüşdülər. Erməni işğalçılarının ölkəmizin ayrılmaz parçası olan Dağlıq Qarabağın ərazisinin qəsb edilməsinə yönəldilmiş terror-təxribat aksiyaları xalqımızın milli özünüdərk hissinin güclənməsində mühüm rol oynadı. 1990-cı il 20 Yanvar faciəsi Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk edilmişdir. Bu faciənin harada, hansı ölkədə yaşamasından asılı olmayaraq, xalqı vahid qüvvə kimi birləşdirdi. Heydər Əliyev belə bir mürəkkəb vəziyyətdə vətəndaş mövqeyi və Vətən təəssübkeşliyi nümayiş etdirərək 20 Yanvar qırğını ilə bağlı Moskvada etiraz səsini ucaltdı, dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini bəyan etdi. Dünya azərbaycanlılarının bir millət kimi mütəşəkkilliyinə təkan verən bu bəyanat həmvətənlərimizi ölkənin, xalqın taleyi üçün tarixi məsuliyyət daşımaq qüdrətində olan yeganə siyasi xadim və milli lider ətrafında birləşdirdi. Lakin həmin məqamda respublikamızda bu imkandan istifadə edilmədi və nəticədə mövcud problemlər daha da dərinləşdi.

**“Olaylar”.-2013.-6 iyun.-№100.-S.15.**

## Azərbaycan diasporu müsəlman ölkələrində

Dünyanın əksəriyyət ölkələri kimi bu gün müsəlman dünyasında da Azərbaycan diasporu formalaşaraq inkişaf edib. Hazırda demək olar ki, əksər müsəlman ölkələrində Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir. Azərbaycan diasporunun ən fəal olduğu müsəlman ölkələrindən biri qardaş Türkiyə Cümhuriyyətidir. Bu gün Türkiyədə onlarla Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir ki, bunlardan da biri Azərbaycan Kültür Dərnəyidir. Azərbaycan Kültür Dərnəyi 1949-cu ildə dünyada ilk Azərbaycan diaspor təşkilatı kimi yaranaraq tarixə düşüb. Bu təşkilat Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məmməd Əmin Rəsulzadə tərəfindən təsis edilmişdir. Dərnəyin ilk sədri Həmid Atanan olmuşdur. 1952-ci ildə dərnək “Azərbaycan” jurnalının nəşrinə başlamış, istiqlaliyyət ideyalarının təbliğinə çalışmışdır. Bununla yanaşı, Azərbaycanın zəngin mədəni irsini və qədim tarixini təbliğ edən bir sıra kitablar da məhz bu dərnəyin yardımı ilə nəşr edilmişdir. Dərnəyin fəaliyyətinə H.Atanandan sonra R.Ünsal, Kərim Odal, Əhməd Yasaf, Cəmil Odeli, İsgəndər Ağuzum, Məhəmməd Kəngərli və Camal Unal rəhbərlik etmişlər. Hazırda Azərbaycan Kültür Dərnəyinin sədri Camal Ünaldır.

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası 2004-cü ildə Kocaelidə təsis edilmişdir. Federasiyanın fəaliyyəti nəticəsində demək olar ki, Kocaeli ictimaiyyəti Azərbaycanın dostluğu, qardaşlığı, tarixi əlaqələrinə yaxşı bələddir. Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının fəaliyyəti nəticəsində 2010-cu il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Kartəpə bələdiyyəsində Heydər Əliyev parkı açılmışdır. 2011-ci il noyabrın 29-da isə Perincedə başqa bir park istifadəyə verilmişdir. Bundan başqa Azərbaycan Mədəniyyət Mərkəzi və Mərkəzin tərkibində Heydər Əliyev kitabxanası, muzeyinin yaradılması da planlaşdırılır. Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri barədə də işlər aparır, dünya ictimaiyyətini Azərbaycanın problemlərinə biganə qalmamağa çağırır. Bu istiqamətdə aparılan səylər nəticəsində Federasiya Balıkesir bələdiyyəsi tərəfindən ermənilərin Xocalıda törətdiyi vəhşiliklərin soyqırım kimi tanınması barədə qərarın qəbuluna nail olmuşdur. Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dundardır.

Türkiyə-Azərbaycan Dostluq Vəqfi-1996-cı ildə görkəmli alim İhsan Doğramacının təşəbbüsü əsasında ulu öndər Heydər Əliyev və Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin fəxri sədrliyi ilə Türkiyə-Azərbaycan Dostluq Vəqfi təşkil olunmuşdur. Vəqfin ilk təşəbbüsü isə Türkiyədə Azərbaycan Evinin açılmasının təşkili olmuşdur. Bununla yanaşı, 2003-cü ildə yaradılmış İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi, Manisa Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Balıkesir Azərbaycan Evi Dərnəyi, İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi, 2004-cü ildə təsis edilmiş Bursa Azərbaycan Evi Dərnəyi, Kocaeli Azərbaycan Evi Dərnəyi, Çanakkale Azərbaycan Evi Dərnəyi, Aydın Azərbaycan Evi Dərnəyi, Muğla Azərbaycan Evi Dərnəyi, Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Antaliya Azərbaycan Evi Dərnəyi, Ankara Azərbaycan Kültür və Dayanışma Dərnəyi, İqdır Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Hatay Azərbaycan Türk Kültür Mərkəzi, Manisa Azərbaycan Kültür və Dayanışma Mərkəzi, Hatay-Durtyol Azərbaycan Türk Kültür Dərnəyi, Ədirnə Azərbaycan Evi Dərnəyi, Azərbaycanlıların Dayanışma Dərnəyi qardaş ölkədə yaşayan soydaşlarımızı öz ətrafında birləşdirərək, ölkəmiz haqqında həqiqətlərin yayılmasında fəal iştirak edir.

Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzi-2006-cı ilin noyabr ayında Türkiyədə təsis edilmiş Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin fəaliyyətinin əsas istiqamətlərindən biri də “erməni soyqırım” iddiaları ilə bağlı elmi-praktik konfranslar təşkil elmək, bu iddiaların reallıqdan tamamilə uzaq olduğunu sübut edən elmi araşdırmaların nəticələri barədə dünya ictimaiyyətini məlumatlandırmaqdır. Mərkəzin nəzdində ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən bölmələr var. Mərkəz Azərbaycanla Türkiyə arasında münasibətlərin inkişafına da töhfə verməyə çalışır, iki qardaş ölkənin dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə xidmət edən tədbirlər təşkil edir. Şimali Kipr Türk Respublikası-Bu ölkədə ilk yaranan diaspor təşkilatı Şimali Kipr Türk Cümhuriyyətində Azərbaycan Dərnəyi olub. Bu ada ölkəsində Azərbaycan Dərnəyi 2005-ci ildə təsis olunub. Şimali Kipr Türk Cümhuriyyətində Azərbaycan Dərnəyinin rəhbəri Fəxrəddin Məmmədovdur. Şimali Kipr Türk Cümhuriyyətində fəaliyyət göstərən ikinci bir təşkilat Azərbaycan-Kıbrıs Dostluq Cəmiyyətidir. Cəmiyyət yaxın vaxtlarda təsis edilib və iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərir. Azərbaycan-Kıbrıs Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğludur. İran İslam Respublikası-İran İslam Respublikasının ərazisində – Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların bir qismi XX əsrdə 5 əsas dalğa ilə xarici ölkələrə mühacirət ediblər. Cənubi Azərbaycanlılar ifadəsi 1813-cu il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra yaranıb. Bu tarixlərə qədər yalnız bir – bütöv Azərbaycan var idi ki, onun sərhədləri geniş idi və burada yaşayan millətlərin bir dili – Azərbaycan dili və bir vətəni Azərbaycan idi. Lakin Gülüstan və Türkmənçay müqavilələrindən sonra ikiyə parçalanan Azərbaycana Rusiya tabeçiliyində Şimali, İran əsarəti altında olan hissəsi isə Cənubi Azərbaycan adlandırılmağa başlandı.

XX əsrin əvvəllərinə qədər Cənubi Azərbaycan Qərb və Şərq ölkələrinə mühacirət prosesləri baş verib. Lakin Cənubi Azərbaycan mühacirət tarixi bizdə lazımi səviyyədə tədqiq edilməyib. Tədqiqatçılar XX əsrdən etibarən Cənubi Azərbaycandan başlanan mühacirət prosesini siyasi və iqtisadi səbəblərlə bağlayırlar. Azərbaycan diasporunun mühüm qanadını təşkil edən cənublular, əsasən ziyalılar və biznesmenlərdən ibarətdir. Mühəndis, inşaatçı, həkim, texnoloq, nəqliyyatçı və s. peşələrdə çalışan soydaşlarımız öz peşələrində mütəxəssislər hesab olunurlar. Akademik təhsilə cənublular içərisində maraq böyük olduğundan, hazırda diasporumuzda ziyalılar təbəqəsi çoxluq təşkil edir. Ədəbiyyat, riyaziyyat, din, tarix, biologiya, iqtisadi elmlər sahəsində daha çox uğurlar əldə edən soydaşlarımız Qərb və Şərq ölkələrinin nüfuzlu ali və orta məktəblərində dərs deyir, elm dairələrində tanınırlar.

Cənublu ziyalılarımızın elmi-bədii əsərləri Qərb və Şərqdə sevilən, oxunulan əsərlər olmaqla elmi araşdırmalar məqsədilə də istifadə olunur. Cənubi azərbaycanlıların böyük bir hissəsi də ticarət sahəsində çalışırlar və əminliklə söyləmək olar ki, kifayət qədər güclü mövqeyə və nəhəng kapital mənbələrinə malikdirlər. Güclü investisiya imkanları olan soydaşlarımızın sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatına xeyir verir. Güclü iqtisadçı və biznesmenlərdən sayılan cənublu soydaşlarımız məskunlaşdıqları ölkələrin yüksək dövlət xadimləri və imkanlı biznesmenləri tərəfindən hörmətlə tutulur, bəzən onlardan məsləhət və kömək istənilir. Birləşmiş Ştatlar, Kanada, Böyük Britaniya, Fransa, Danimarka, İsveç, Avstraliya və digər ölkələrdə cənublular böyük imkanlara malikdirlər.

Misir-Azərbaycanlıların Misirdə məskunlaşması II dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Alman ordusunun tərkibində fəaliyyət göstərən azərbaycanlı mühacirlərin müharibədən sonra köçdükləri ölkələr içərisində Misir də var. Bəzi tarixi mənbələrdə II dünya müharibəsindən sonra əsir düşən azərbaycanlıların ingilis və fransız hərbi qüvvələrindən xilas edilərək Misirdə yerləşdirilməsi barədə məlumatlara rast gəlmək mümkündür. Misir kralı və onun yaxın adamlarının sayəsində xilas olan soydaşlarımız Misirdə evlə, işlə təmin olunmuş və özlərini qorumaq məqsədi ilə pərakəndə və gizli formada yaşamağa məcbur olmuşlar. Cənubi Azərbaycandan da mühacirət prosesinin güclənməsi nəticəsində Misirdə azərbaycanlılar icması yaradıldı. Enerjili, intellektual və sosial baxımdan xeyli fəal və gənc hesab olunan azərbaycanlılar 90-cı illərdən etibarən ictimai həyatda fəal iştirak etməyə başlamışlar. Hazırda Misirdə on minlərlə həmvətənimizin yaşadığına dair təsdiqlənməmiş məlumatlar var. Misirdə təhsil alan gənclərimizin işini qənaətbəxş hesab etmək olar. 1999-cu ildən başlayaraq, Qahirə radiosunda iqtisadi, siyasi, mədəni və dini proqramlar hazırlayan Azərbaycan xidməti yaradılmışdır. Bu ölkədə Azərbaycanı təbliğ edən yeganə təşkilat "Misirdəki Azərbaycan Diasporu" adlı qurumdur. Təşkilatın sədri Ramil Niftəliyevdir.

Birləşmiş Ərəb Əmirlikləri- Birləşmiş Ərəb Əmirliklərindəki Azərbaycan Cəmiyyəti 2004-cü ildən fəaliyyət göstərir. Cəmiyyət Dubay şəhərində təsis edilmişdir. Azərbaycan Cəmiyyəti BƏƏ-də Dağlıq Qarabağ problemi haqda ictimaiyyətə və dövlət orqanlarına məlumat verən yeganə qurumdur. Cəmiyyət rəhbərliyi yerli qəzetlərə bununla bağlı mütəmadi müsahibələr verir, il ərzində dəfələrlə dövlət kitabxanalarına problemlə bağlı ərəb və ingilis dillərində kitablar, jurnallar təqdim edir, hər bir nazirlik və ya komitəni ayrı-ayrı ziyarət edib, rəhbərlərini bu haqda ətraflı məlumatlandırır. Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin sədri Samir İmanovdur.

Küveyt-Bu ölkədə fəaliyyət göstərən yeganə diaspor təşkilatı da Küveyt Azərbaycan Mədəniyyət və Dostluq “Vətənsevər” Cəmiyyətidir. Küveyt Azərbaycan Mədəniyyət və Dostluq “Vətənsevər” Cəmiyyəti 2010-cu il, dekabrın 31də yaradılmışdır. Cəmiyyət burada Azərbaycan mədəniyyətini, tarixini, ölkəmizdəki ictimai prosesləri Küveyt dövlətinə, xalqına layiqincə tanıtmaq, onlara mütəmadi informasiya ötürmək missiyasını yerinə yetirir. Hər il Azərbaycanın Müstəqillik Günü, milli lider Heydər Əliyevin doğum və anım günləri, Novruz bayramı və Azərbaycanın bir çox tarixi-mədəni əlamətdar günləri geniş şəkildə qeyd olunur. “Vətənsevər” Cəmiyyəti tərəfindən qardaş Türkiyənin diaspor təşkilatları ilə güclü əlaqələr qurulmuşdur. Bu məqsədlə burada yaşayan türk diaspor təşkilatları, cəmiyyətləri ilə tez-tez görüşlər keçirilir, tədbirlər təşkil edilir. Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri Könül Hacızadədir.

**“Olaylar”.-2013.-12 iyun.-№104.-S.15.**

**“Ümumrusiya Azərbaycan Konqresi tərəfindən “Rusiya Günü”nü qeyd olunmuşdur**

APA-nın Rusiya bürosunun məlumatına görə, “Bakı” restoranında keçirilən tədbirdə çıxış edən ÜAK nümayəndəsi, professor Manaf Ağayev Rusiya- Azərbaycan münasibətlərindən danışıb. O, Rusiya və Azərbaycan xalqlarını birgə tarix, mədəniyyət və ədəbiyyatın birləşdirdiyini söyləyib. M.Ağayev “Rusiya Günü” münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə ünvanladığı məktubun mətni ilə tədbir iştirakçılarını tanış edib.Tədbirdə çıxış edən Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Vladimir Seryogin Azərbaycan və Rusiya xalqlarının bir dövlətin tərkibində - Sovet İttifaqında yaşadığını bildirib: “Ümumrusiya Azərbaycan Konqresi tərəfindən “Rusiya Günü”nün qeyd olunması iki xalqın bir-birinə olan yaxınlığını göstərir. Rusiyada yaşayan xalqlardan biri də azərbaycanlılardır.

Bu dövlətdə hər bir xalqın inkişaf edə bilməsi üçün hər cür şərait var.”N. Baybakov fondunun prezidenti Vladimir Serov da çıxışında xaqlarımız arasında olan qarşılıqlı münasibətlərdən danışıb: “Xalqlarımız bir-birindən asılıdır. Onlar mədəniyyət, tarix baxımından həmişə bir-birini tamamlayır. Hal-hazırda Rusiyada yaşayan azərbaycanlılar bu dövlətin inkişafına öz töhfələrini verirlər.”“Tarixi suallar” jurnalının baş redaktoru Əhməd İskəndərov, Moskva Dövlət Universitetinin Tarix fakültəsinin dosenti İsmayıl Ağakişiyev, Rusiya Jurnalistlər ittifaqının katibi Rafael Hüseynov və digərləri çıxışlarında azərbaycanlıların Rusiya cəmiyyətindəki önəmli rolundan danışıblar.

ÜAK-nin icraçı direktoru İlqar Hacıyev isə “Rusiya Günü”-nün burada yaşayan azərbaycanlılar üçün də böyük əhəmiyyət daşıdığını söyləyib: “Rusiya azərbaycanlıları yaşadıqları ölkəni ürəkdən sevirlər və bu ölkənin gələcəyinə inanırlar”.Qeyd edək ki, “Rusiya Günü”nə həsr olunmuş tədbirdə Rusiya və Azərbaycan ictimaiyyətinin nümayəndələri və təşkilat rəhbərləri iştirak ediblər.

**13 iyun 2013**

**Qardabani rayonu Qara Təhlə kənd sakini Savalan Mirzə oğlu Mirzəyev Gürcüstanın baş naziri Bidzina İvanişvilinin milli azlıqların məsələləri üzrə köməkçisi təyin edilib**

Qardabani rayonu Qara Təhlə kənd sakini Savalan Mirzə oğlu Mirzəyev Gürcüstanın baş naziri Bidzina İvanişvilinin milli azlıqların məsələləri üzrə köməkçisi təyin edilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, təyinat barədə məlumatı Savalan Mirzəyevin özü də təsdiqləyib. Qeyd edək ki, soydaşımız ixtisasca hüquqşünasdır. 2009-cu ildən Gürcüstanın reinteqrasiya məsələləri üzrə dövlət nazirinin müşaviri vəzifəsində çalışıb, 27 yaşı var, ailəlidir, bir qızı var. APA-nın Gürcüstan bürosunun məlumata görə, 1986-cı il təvəllüdlü S. Mirzəyev 2007-ci ildə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin hüquq fakültəsini bitirib.

O, bu vəzifəyə təyin olunmamışdan əvvəl soydaşlarımızın kompakt yaşadığı bölgələrdə müxtəlif vəzifələrdə çalışıb, Kvemo-Kartli bölgəsində və digər bölgələrdə yaşayan azərbaycanlıların problemləri ilə yaxından tanışdır. S.Mirzəyev hansı vəzifədə çalışmağından asılı olmayaraq, azərbaycanlı gənclərin dövlət strukturlarında vəzifəyə təyin olunmasına çalışıb və gənclərin Gürcüstanın dövlət dili olan gürcü dilinin öyrənməsinə və onların Gürcüstan cəmiyyətinə inteqrasiya olunmaları üçün dövlət layihələrinin həyata keçirilməsinə kömək edib, eyni zamanda azərbaycanlı qeyri-dövlət təşkilatlarının rəhbərləri ilə soydaşlarımızı narahat edən məsələlərin həllinə çalışıb.

**14 iyun 2013**

## Peru parlamentində Xocalı soyqırımını tanıyan qərar qəbul olunmuşdur

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a verilən məlumata görə, qərarda deyilir: “1987-ci ilin sonlarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin son mərhələsi başlamışdır. Xankəndidəki azərbaycanlılara qarşı ermənilər tərəfindən hücumlar daha da kəskinləşmişdir. 1988-ci və 1989-cu illərdə ermənilərin hücumlarının sayının artması və sonrakı illərdə keçmiş SSRİ-də siyasi sabitliyin olmaması yüz minlərlə azərbaycanlının deportasiyasının əsas səbəbi idi.1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində azərbaycanlılara qarşı dəhşətli qətliam törədilmişdir. Qətliam nəticəsində qadın və uşaqlarda daxil olmaqla 613 dinc sakin öldürülmüş, 1275 nəfər girov götürülmüş, 150 nəfər itkin düşmüş, 487 nəfər əlil olmuş, 26 uşağın hər iki, 130 uşağın isə bir valideyni qətlə yetirilmişdir. Soyqırımı kimi qiymətləndirilən və tam şəkildə sənədləşdirilmiş bu hücumun ardınca Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuşdur”.

Qərarda BMT Təhlükəsizlik Şurası tərəfindən bu münaqişə ilə bağlı dörd qətnamənin qəbul olunduğu vurğulanır. Həmçinin qeyd edilir ki, bu qətnamələrlə BMT-nin Təhlükəsizlik Şurası suverenliyə hörmət, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin pozulmazlığı prinsiplərini bir daha təsdiq etmişdir.

Qəbul olunmuş qərarda münaqişə nəticəsində Azərbaycan Respublikasına on milyardlarla dollar məbləğində ziyanın dəyməsi barədə məlumat da əksini tapmışdır. Sənəddə qeyd olunur ki, ATƏT-in Budapeşt Zirvə toplantısının qərarına əsasən, 1994-cü il mayın 12-də atəşkəs elan edilsə də, onun pozulması halları davam etməkdədir. Belə hallar 2003-cü ildən bəri daha da kəskinləşmişdir. Sonda Xarici Məsələlər Komissiyası Konqresin plenar iclasına aşağıdakıları təklif etmişdir:

1. Ermənistan və Azərbaycan xalqlarının suverenliyinə tam hörmətini ifadə edərək Peru Respublikasının Konqresi bu ölkələrin hökumətlərini münaqişəyə son qoymaq məqsədi ilə özlərinin uyğun hesab etdikləri formatda və mümkün olan ən qısa müddətdə razılaşma əldə etməyə çağırır.
2. 

   2. Xocalı qətliamının nümunəsində münaqişə qurbanlarına edilmiş ədalətsizliyin hələ də aradan qaldırılmadığını xatırlayaraq biz bəyan etməliyik ki, xalqlararası əlaqələrin möhkəmlənməsinə töhfə verəcək mümkün tədbirlər istənilən sülh razılaşmasının əsas elementi olmalıdır.

**14 iyun 2013**

## Azərbaycan diasporu dünyadakı gənc diasporlar sırasında

**Azərbaycan diasporu hər keçən il inkişaf edib müəyyən nailiyyətlər əldə etdikcə, zamanın tələblərinə uyğun olaraq prosesə təkan verən yeni-yeni yanaşma və texnologiyalardan istifadə də zərurətə çevrilir. Diasporanın hərəkətverici, daim yeniləşmə və müasirləşmə tələb edən bir hərəkat olduğunu nəzərə alaraq dünyanın fərqli ölkələrində fəaliyyət göstərən Azərbaycan cəmiyyət və təşkilatları da müntəzəm olaraq öz işlərində, fəaliyyətlərində yeniləşməyə, yeni texnologiyalardan istifadəyə üstünlük verirlər. Elə diaspora sahəsində fəaliyyət göstərən əksəriyyət insanlar da bunu təqdir edir, elmi yanaşmalar, yeni texnologiyalardan istifadə etməklə bu sahənin bir qədər də inkişaf etdirilməsini zəruri sayırlar.**

Xaricdə Təhsil Alan və Məzun olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun (ASAİF) baş katibi, Türk Dünyası Tələbə Birliyinin Azərbaycan Respublikası üzrə Koordinatoru Əbülfəz Şeydabəyov da bu qənaətdədir. Əbülfəz Şeydabəyov müxtəlif ölkələrin diaspor təşkilatları, onların sözügedən sahədə əldə etdikləri nailiyyətlər barədə də fikirlərini bölüşüb. Xaricdə Təhsil Almış və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun baş katibi qeyd edir ki, hər millət diaspor ola bilməz. Əbülfəz Şeydabəyovun qənaətincə bunun da müxtəlif səbəbləri vardır: “Müəyyən dövrlərdə öz ana vətənindən xarici ölkələrə köç etmiş insanların bir qismi geri dönmüş, bir qismi isə həmin ölkələrdə qalaraq zamanla immiqrant xalq və ya diaspor statusu almış, daha doğrusu bu adı qazanmışdır.

Diaspor olmaq hər xalqa nəsib deyil. Çünki hər xalq güclü etnik kimliyə və milli mənəvi dəyərləri qürbət eldə nəinki qoruya bilmir, hətta onu bir nəsil sonra ümumiyyətlə itirir. Növbəti nəsil dalğası bir yerə toplanıb hər hansı özəl günü belə qeyd edəndə onları ataları filan ölkədən gələn immiqrant nəsillər adlandırırlar”. Əbülfəz Şeydabəyov bildirir ki, ancaq diaspor olmaq anlayışında fərqli aspektlər də vardır ki, bura da bir etnik qrupun çox güclü milli mənəvi dəyərləri və özünə xas mədəniyyətin xaricdə başqa toplumlar içərisində qoruyub saxlaması, eləcə də tarixi ana vətən ilə sıx bağlantı qurması daxildir: “Xüsusi ilə qeyd etmək istərdim ki, diaspora dedikdə xarici ölkədə yaşayan, o ölkənin vətəndaşı olan, həmin dövlətə rəsmi vergilər verən və atalarının bağlı olduğu vətənin mədəniyyətinin, mövqeyinin təbliğatını aparan insanlara deyilir. Diaspor dedikdə ilk ağla dünyada bir neçə millətlərin adları gəlməkdədir yəhudi, irland, çin, hind, yunan, yapon, çərkəz, türk, rus, erməni və s. Bəli bu adlarını sadaladığım etnik qruplar həqiqətən də tarixin müxtəlif dövrlərində istər kilsə ətrafında ,istər isə ana Vətənlərinin siyasi və iqtisadi dəstəyi ilə ayaqda qalan etnik kimliklərdir. Dünya diasporları köklərinin bağlı olduqları dövlətlərin müsbət imicinin formalaşması üçün çox güclü mexanizm vasitəsidir”. Xaricdə Təhsil Almış və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun baş katibi qeyd edir ki, Azərbaycan diasporunun yaşı o qədər də çox olmadığı üçün, bizim diasporumuz gənc diaspora sırasına daxil edilib: “Araşdırmalar göstərir ki Azərbaycan diasporu da dünyada gənc-diaspora kateqoriyasına artıq daxil edilib. Bu çox sevindirici haldır.

Milli diaspormuzun dünyanın müxtəlif coğrafiyalarında səpələnmə tarixçəsi bizlərə artıq məlumdur. Digər güclü diasporların necə operativ və tarixi vətənləri ilə vəhdət halında olması mexanizmi də dünya diaspor praktikasında mühümdür. Belə ki, bir sıra xalqların kimlik kimi formalaşan torpaqlarında artıq müstəqil dövlətləri mövcuddur və o ölkələrdə diasporla mütəmadi işləyən nazirliklər, şuralar, Xarici İşlər Nazirlikləri nəzdində soydaşlarla iş, miqrasiya şöbələri və komitələr yaradılmışdır. Gəlin nəzərə alaq ki, dünyanın 70 ölkəsində bizim soydaşlarımız yaşamaqdadır. Hamıya məlumdur ki, xarici siyasətdə diaspor və lobbiçilik çox güclü təsir elementidir.

Bu istiqamətdə Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 2002 ci ildə Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Günümüzə qədər hər beş ildə, bir dəfə olmaqla toplam üç böyük miqyasda Dünya Azərbaycanlılarının Qurultayı keçirilmişdir”. Əbülfəz Şeydabəyov onu da vurğulayıb ki, xaricdəki soydaşlarımız Azərbaycanımızın bir parçasıdır və Azərbaycan dövləti səviyyəsində müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla məqsədyönlü iş aparılır, onlara lazımı səviyyədə diqqət, qayğı göstərilir: “Uzaq ölkələrdə azərbaycanlıların məktəblərinin açılması və dolğun təbliğatın aparılması istiqamətində dayanmadan işlər görülməkdədir.

Vətəndən - diasporaya diqqətin möhürü təqvimimizdə bir günün, 31 dekabr tarixinin özəlliklə dünya azərbaycanlılarının həmrəylik günü olması buna ən bariz sübutdur. .Bundan başqa ötən illər ərzində xaricdə yaşayan soydaşlarımız ilə mütəmadi işlərin aparılması zəruriliyi prioritet amilə çevrilmişdir. Digər xalqlarla müqayisədə lobbiçilik istiqamətində qısa zaman ərzində böyük yol qət etməmizin başlıca səbəbi də xaricdəki azərbaycanlılarla bir başa işləyən belə bir qurumun uğurla fəaliyyət göstərməsidir”. ASAİF-in baş katibi deyir ki, müstəqillik öncəsi dağınıq , bir birindən xəbərsiz dünyanın müxtəlif bölgələrində Azərbaycan naminə çalışan xaricdəki soydaşlarımız indi bir-biri ilə hər zaman əlaqə saxlayır. Ana Vətən Azərbaycanın güclü dəstəyi ilə koordinativ şəkildə çalışırlar: “Azərbaycanın müstəqillik əldə etməsi, zamanla güclü dövlətə çevrilməsi öz-özlüyündə milli diasporumuza təsir etməməyə bilməz.

Diasporla İş üzrə Dövlət Komitəsi qürbət ellərdə azərbaycanlı kimliyinin yaşadıqları toplumlar içərisində assimiliyasiya yox, məhz uğurla inteqrasiya etməsini hədəf alaraq, yeni formalaşan nəslin də Vətənlə sıx bağlantı qurmasını başlıca hədəf götürməkdədir. Unutmayaq ki diaspor olmaq kriteriyalarından biri də budur ki, istənilən diasporanın tarixi ana Vətəni olmalıdır. Bu mövzuda çox nümunələr sadalamaq olar. Bir nümunəni vermək istərdim. Belə ki, hind diasporu 1947-48-ci illərədək Birləşmiş Ştatlarda böyük problemlərlə üzləşirdi. Daima sıxışdırılır, arzu olunmaz xalq siyahısına belə salınmışdı. Ancaq Hindistanın müstəqillik əldə etməsi və Asiya regionunda öz sözünü deməsi ilə Birləşmiş Ştatlarda hindlilərin zamanla gözəl status almasından yan ötmədi.

Eyni nümunəni yapon diasporu üçün də verə bilərik. Yaponların çalışqanlıqlarına görə istər Birləşmiş Ştatlarda, istər Latın Amerikası ölkələrində onlara hər zaman qısqanclıqla yanaşılmışdır. Hələ Yaponiyanın 1941-ci ildə Birləşmiş Ştatların Havay adalarındakı hərbi bazalarına olan hücumu və şiddətli İkinci Dünya müharibəsinin acısını müttəfiq ölkələrin yapon diasporundan çıxdığının şahidi olmuşuq. Birləşmiş Ştatlardakı yapon diasporu beş fərqli ştatda gettolarda saxlanılır və ordan çıxmaqlarına belə icazə verilmirdi. Ancaq müharibə sonrası qısa zaman kəsimində Yaponiyanın yenidən dünya iqtisadiyyatında öz sözünü deməsi ilə nəinki Birləşmiş Ştatlarda, hətta Latın Amerika coğrafiyasında bütün yapon diasporunun ən güclü sektorlar sayılan bank, sənaye və siyasətə təsir edəcək böyük yapon əsilli holdinglərin imtiyaz almasına səbəb oldu". Əbülfəz Şeydabəyov erməni diasporu və onun tarixinə də qısa nəzər salıb: "Bir az da, mənfur erməni diasporunu müqayisə edək.

Tarixin hər səhifəsində bizim mədəniyyətimizin təsiri altında yaşamış ermənilər Birinci dünya müharibəsindən də öncə istər Avropa istər Amerika qitələrinə mühacirət etmiş bir etnik qrupdur. Bəli, onların da diasporu və parazitar lobbiçilik fəaliyyəti kifayət qədər məşhurdur. Ancaq beynəlxalq diaspor araşdırmaçılarına müraciət etdikdə görünür ki, hər diasporun formalaşma prosesinin ya dürüstcə, ya da xəyali amilləri var. Misal üçün irland diasporu XVIII-XIX əsrlərdən Amerika və Avstraliya coğrafiyasına mühacirət etmişlərin övladlarıdır. Yüz illərlə əziyyət və zəhmət bahasına Birləşmiş Ştatlar, Kanada və Avstraliyada öz sözünü demiş bir etnik millətdir. Digər xalqlarla müəyyən nigah qarışıqları olsa da öz zəngin mədəniyyət və adətlərini yaşadıqları ölkələrin xalqlarına sevdirməyi bacarmışlar.

Hətta irland mədəniyyəti, folkloru həvəskarlarına yumoristik üslubda "keltomaniya" olmuş da deyirlər. Məsələn İngiltərə ilə Şimali İrlandiya problemində Birləşmiş Ştatlarda güclü lobbiçilik sərgiləyərək rəsmi Londonu sərt mövqe tutmaqdan vaz keçdirə bilmişlər. Gələk erməniləri diaspor edən açar amilə. Burada zəhmət və yüz illərin çətin adaptasiyası yox məhz "əzilmiş","yazıq" faktoru önə çıxmaqdadır. Bəli, kimisi zəhmət və asimilasiyaya tab gətirərək immiqrantdan-diasporaya çevrilmiş, kimisi isə hazır siyasi oyunlara alət olunaraq əzilmiş-yazıqlar maskası taxaraq zamanla güclü lobbiçilik mövqeyi əldə etmişlər.

Beynəlxalq diaspor araşdırmacıları xarici ermənilərin məhz bu kriteriya əsasında diaspor kimi formalaşdığını əsas tuturlar". Əbülfəz Şeydabəyovun sözlərinə görə, müasir gənc və dinamik diasporlar dedikdə isə türk, ukraynalı, əlcəzair, mərakeş, qazax, pakistan, azərbaycanlı diasporlar nəzərdə tutulur: "Təbii ki, bizim milli diaspormuzun yüzdən çox yaşı vardır. Ancaq görünən o ki, müasir diasporçuluq kriteriyalarına görə bizlər də öz sözünü demiş gənc diasporlar sıralarındayıq. Bu uğura güclü Azərbaycan dövlətinin diasporçuluq siyasəti və xaricdə fəal təşkilatlanmış soydaşlarımızın birgə imza atdıqlarını unutmayaq. Çünki beynəlxalq müstəvidə güclü Azərbaycan, güclü diasporumuz deməkdir".

**"Olaylar".-2013.-15 iyun.-№107.-S.15.**

**Sidney şəhərində Avstraliyanın Yeni Cənubi Uels (NSW) ştatının parlament binası qarşısında bu qurumun bu il mayın 8-də yunanlara, assuriyalılara və ermənilərə qarşı 1914-1923-cü illərdə Osmanlı imperiyası tərəfindən soyqırımı törədilməsi iddialarının tanınması barədə qərar qəbul etməsinə qarşı etiraz aksiyası keçirilib**

İyunun 16-da Sidney şəhərində Avstraliyanın Yeni Cənubi Uels (NSW) ştatının parlament binası qarşısında bu qurumun bu il mayın 8-də yunanlara, assuriyalılara və ermənilərə qarşı 1914-1923-cü illərdə Osmanlı imperiyası tərəfindən soyqırımı törədilməsi iddialarının tanınması barədə qərar qəbul etməsinə qarşı etiraz aksiyası keçirilib. Mitinqdə Azərbaycan, Türkiyə, Şimali Kipr və digər türkdilli ölkələrdən olan iki mindən artıq insan iştirak edib.

Sidney şəhərinin mərkəzində ANZAC abidəsinin ziyarəti ilə başlayan aksiyada parlamentin tarixi məsələlərə qərəzli yanaşması pislənilib. Etiraz mitinqində "Tarixi tarixçilər araşdırsın!", "Parlament məhkəmə deyil!", "Yalan və nifrəti yaymağa son qoy!", "Avstraliya çoxmədəniyyətliliyini qorumalıdır!", "8 may tarixini unutmayacağıq" kimi şüarlar səsləndirilib. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin prezidenti İmamətdin Qasımovun sozlərinə görə, etirazın əsas məqsədi ictimaiyyəti məlumatlandırmaq və parlamenti gələcəkdə belə addımlar atmaqdan çəkindirməkdir: "Biz Avstraliyada bütün icma nümayəndələrinin dostluq və sülh şəraitində yaşamasını istəyirik. Uydurma iddialar əsasında parlament tərəfindən hər hansı qərarın qəbul edilməsi və bunun gələcək nəsillər tərəfindən tarixi fakt kimi öyrənilməsi millətlər arasında nifrət hissinin yaranmasına səbəb olur. Biz hesab edirik ki, tarixi hadisələri tarixçilər araşdırmalı və ona düzgün qiymət verməlidilər. Parlamentin işi də millətlərarası nifrət hissini deyil, dostluğu və sülhü təbliğ etmək olmalıdır".

Etiraz aksiyası Avstraliya-Türk Alyansının təşəbbüsü ilə digər türkdilli xalqların yerli diaspor təşkilatları, o cümlədən Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin iştirakı ilə təşkil baş tutub.

**16 iyun 2013**

**Gənc azərbaycanlı yazıçı Gunel Anarqızının fransız dilinə tərcümə edilmiş"Qarabağ hekayələri" kitabının təqdimatı olmuşdur**

Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində Diasporla İş üzrə Dövlət Komitəsinin,"Texnika Bank"ın, Fransada fəaliyyət göstərən"Ulduz" Mədəniyyət Assosiasiyasının təşkilatçılığı və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə gənc azərbaycanlı yazıçı Gunel Anarqızının fransız dilinə tərcümə edilmiş"Qarabağ hekayələri" kitabının təqdimatı olmuşdur.

Fransalı deputatların və ictimaiyyət nümayəndələrinin, Azərbaycanın UNESCO yanındakı Daimi Nümayəndəliyinin əməkdaşlarının, diaspor təmsilçilərinin və yerli jurnalistlərin iştirak etdikləri tədbiri açan"UBİZNEWTV" televiziya kanalının rejissoru Jil Trişar fransız və Azərbaycan xalqlarının dostluğundan, Azərbaycan ədəbiyyatının zənginliyindən, məşhur fransız yazıçılarının əsərlərinin dilimizə tərcümə edilməsindən bəhs etmiş, əsərin müəllifi Günel Anarqızının yaradıcılığı barədə məlumat vermişdir.

Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov xalqımızın mədəniyyətinin qədim və zənginliyini, ədəbiyyat və musiqinin mədəniyyətin ən mühüm tərkib hissəsi olduğunu diqqətə çatdırmış, tanınmış Azərbaycan yazıçılarının öz əsərləri ilə təkcə Azərbaycan ədəbiyyatını deyil, eyni zamanda, dünya ədəbiyyatını zənginləşdirdiklərini qeyd etmişdir.

Bir qədər əvvəl mədəniyyət mərkəzində Xll əsrdə yaşayıb yaratmış görkəmli Azərbaycan şairəsi Məhsəti Gəncəvinin yaradıcılığının 900 illiyinin təntənəli şəkildə qeyd edildiyini xatırladan səfir bu gün onlarla şairə və yazıçının M.Gəncəvi yolunu uğurla davam etdirdiyini bildirmiş, əsərinin təqdimatı keçirilən Günel Anarqızının ölkəmizdə yaxşı tanındığını, səkkiz kitabın müəllifi olduğunu, bir çox əsərlərinin müxtəlif dillərə tərcümə edildiyini vurğulamışdır.

G.Anarqızının təqdimatı keçirilən"Qarabağ hekayələri" əsərinin əsas mövzu qayəsindən bəhs edən E.Əmirbəyov kitabda Qarabağa sevginin təcəssüm etdirildiyini, Şuşa həsrətinin duyulduğunu bildirmişdir.

Kitabın yazılması səbəbindən danışan Günel Anarqızı əsərdəki hekayələrin yalnız Qarabağla bağlı olduğunu, 1981-ci ilin yayını Şuşada keçirdiyini, həmin günlərin onun uşaqlıq yaddaşında əbədi iz buraxdığını, Şuşada keçirdiyi günlərin təsiri altında 22 ildən sonra ilk dəfə"Şuşam" hekayəsini qələmə aldığını, əsrarəngiz təbiətə malik musiqiçilər diyarı Şuşanı cənnətlə müqayisə etdiyini, Parisdə əsərinin təqdimatı keçirilən ilk azərbaycanlı yazıçı olduğunu, fransız ədəbiyyatı və mədəniyyətinin xalqımız tərəfindən sevildiyini, kitabın təqdimatının iki xalq arasında mövcud dostluq körpüsünə öz töhfəsini verdiyini diqqətə çatdırmışdır.

Təqdimatı Azərbaycan ədəbiyyatını uzaq Fransada tanıtmaq istiqamətində bir addım kimi dəyərləndirən müəllif"Qarabağ hekayələri"nin beynəlxalq bir layihə olduğunu, rus və alman dillərinə tərcümə edilən kitabın Rusiyada və Almaniyada təqdimatının keçirildiyini, gələcəkdə isə İsveçrədə, Böyük Britaniyada, Türkiyədə və digər ölkələrdə təqdimatının təşkil ediləcəyini bildirmişdir.

Bundan əvvəl Fransaya səfər etdiyini xatırladan yazıçı mədəniyyət beşiyi hesab edilən ölkədən aldığı təəssüratla bağlı qısametrajlı film çəkdiyini və həmin ekran əsərinin televiziyada nümayiş etdirildiyini, baş redaktor olduğu"Pəncərə" jurnalında silsilə məqalələr çap etdirdiyini diqqətə çatdırmışdır. O, zəngin ədəbiyyatı və mədəniyyəti olan Azərbaycanı Fransada tanıtmaq istiqamətində ölkəmizin birinci xanımı, Mehriban Əliyevanın xüsusi rolunu yüksək qiymətləndirmişdir. Natiq Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun Fransada keçirdiyi möhtəşəm tədbirlərin iki xalq arasında mövcud dostluq əlaqələrinin inkişafında mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Fransanın tanınmış aktyorları Alen Temoliyer və Tierri Bomanvin ifasında yazıçının iki hekayəsi qonaqlara təqdim edilmişdir.

Sonda tanınmış fransalı pianoçu Alber Assayaqın müşayiəti ilə Fransada yaşayan azərbaycanlı müğənni Təranə Monbarbutun ifasında"Alagöz" mahnısı səslənmişdir.

**AzərTAc 17 iyun 2013**

**İsveçrənin Bazel şəhərində Azərbaycan yazıçısı və publisisti, "Ölkəm" jurnalının baş redkatoru Günel Anarqızının alman dilinə çevrilmiş "Qarabağ hekayələri" kitabının təqdimatı olub**

İsveçrənin Bazel şəhərində Azərbaycan yazıçısı və publisisti, "Ölkəm" jurnalının baş redkatoru Günel Anarqızının alman dilinə çevrilmiş "Qarabağ hekayələri" kitabının təqdimatı olub. Bazeldə fəaliyyət göstərən "Azərbaycanın Dostları" Cəmiyyətinin təşəbbüsü və Azərbaycan Respublikasının İsveçrədəki səfirliyinin dəstəyi ilə baş tutan təqdimat mərasimi şəhərin tarixi və nüfuzlu yerlərindən birində - 1787-ci ildə yaradılmış Mütaliəni Sevənlər Cəmiyyətində keçirilib. Tədbirdə Azərbaycan Respublikasının İsveçrədəki fövqəladə və səlahiyyətli səfiri Əkrəm Zeynallı, diaspor nümayəndələri, ictimai xadimlər, tələbələr iştirak edib. Təqdimat mərasimini açan və aparıcılıq edən məşhur jurnalist Markus Bodmer layihə haqqında məlumatdan sonra sözü müəllifə verib. Qonaqları salamlayan Günel Anarqızı da layihənin ideyası və məqsədlərindən, Azərbaycan xalqının uzun illərdir yaşadığı Qarabağ problemindən, torpaqlarımızı Ermənistanın işğal etməsindən və bu problemin ədəbiyyat vasitəsilə bütün dünyaya çatdırılmasının vacibliyindən danışıb. Daha sonra aktrisa Mariya Txorjevskaya Günel Anarqızının kitabından iki hekayəni – "Atama məktub" və "Qadın üzlü şəhər"i səsləndirib.

Tədbirdə isveçrəli jurnalist və fotoreportyor Andre Vidmerin Qarabağa və Azərbaycan torpaqlarının işğalına həsr olunmuş fotoalbomu təqdim edilib. Jurnalist Azərbaycanın işğal olunmuş torpaqlarına etdiyi səfərin təəssüratlarını bölüşüb, Azərbaycan ərazilərində dağıdılıb talan edilmiş və planlı şəkildə məhv edilmiş Azərbaycanın tarixi abidələrinin şəkillərini nümayiş etdirib. İsveçrəli jurnalistin 2010-cu ildə çəkdiyi və ekranda nümayiş olunan fotoları azərbaycanlı yazıçının 2002-ci ildə Qarabağ, Şuşa haqqında qələmə aldığı hekayələri əyani olaraq göstərirdi. Nümayiş və qiraət o qədər təsirli idi ki, tədbirə toplaşanlar göz yaşlarına hakim ola bilmədilər və uzun-uzun erməni işğalını, onun ağır nəticələrini müzakirə etdilər.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı Anar və Azərbaycanın İsveçrədəki səfiri Əkrəm Zeynallı çıxış ediblər. Sonunda Günel Anarqızı prezentasiyanın təşkilatçılarına və qonaqlara təşəkkür edib.

**17 iyun 2013**

## Almaniyanın Aşağı Saksoniya federal əyalətinin paytaxtı Hannover şəhərində Azərbaycan xalqının Milli Qurtuluş Gününə həsr olunmuş həvəskar oyunçular arasında mini futbol turniri keçirilib

Almaniyanın Aşağı Saksoniya federal əyalətinin paytaxtı Hannover şəhərində Azərbaycan xalqının Milli Qurtuluş Gününə həsr olunmuş həvəskar oyunçular arasında mini futbol turniri keçirilib. Yarışda 20 ölkəni və milləti təmsil edən komandalar, o cümlədən Azərbaycan yığması Hannover kuboku uğrunda mübarizə aparıb.

Həmin tarix Hannoverdə daha bir tədbirlə yadda qalıb. Belə ki, mini futbol çempionatının öncə Hannoverdə fəaliyyət göstərən „Xəzər“ Alman-Azərbaycan Dostluq Cəmiyyəti Erika-Fisch stadionunun konfrans zalında növbədənkənar yığıncağını keçirib. Toplantını giriş sözü ilə açan Cəmiyyətinin sədri Etibar Qəniyev Milli Qurtuluş Günü münasibətilə bütün iştirakçıları təbrik edərək, futbol üzrə həvəskar oyunçulardan ibarət Azərbaycan yığma komandasına uğurlar arzulayıb. Daha sonra Etibar Qəniyev 20 il öncə Azərbaycanın yeni tarixini yaradan zəmanəmizin görkəmli şəxsiyyəti ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti haqda məlumat verib. „Xəzər“ Cəmiyyətinin sədri ümummilli liderinin idmanın inkişafına göstərdiyi xidmətləri vurğulayaraq onun Azərbaycanın siyasi səhnəsinə qayıdışının 20-ci ildönümü günündə Hannover şəhərində „Heydər Əliyev idman klubu“nun yaradılması təklifi ilə çıxış edib. Təklifi dəstəkləyən tədbir iştirakçılarının fikrincə, belə bir klubun yaradılması gələcəkdə həmyerlilərimizin müxtəlif idman növlərində məşq etmək, beynəlxalq yarışlara hazırlığını təmin etmək baxımından əvəzsiz rol oynaya bilər. Təklif yekdilliklə qəbul olunduqdan sonra Etibar Qəniyevə qısa bir zamanda “Heydər Əliyev idman klubu”nun təsis olunması məsələlərinin həlli həvalə olunub.

Toplantıdan sonra cəmiyyət üzvləri və qonaqlar turniri izləyiblər. Erika-Fisch stadionunda keçirilən çempionatı Hannover şəhərinin bələdiyyə rəisi Bernd Strauch açıq elan edib və komandalar meydana dəvət olunub.

Yığma komandamızın məşqçisi Samir Abdullayevin rəhbərliyi altında keçirilmiş təlim-məşq toplantılarının nəticələrinə uyğun olaraq 12 oyunçu seçilərək komandaya çağrılmış və çempionata vəsiqə alıb. Qrup oyunlarında İtaliya, Portuqaliya, Fil Dişi Sahili və Latın Amerikasının yığmaları ilə üzləşən həmyerlilərimiz gözəl və əzmkar oyun nümayiş etdirib. „Əsas qələbə deyil, iştirakdır“ devizi altında turnirə qatılan Azərbaycanın bayrağının dalğalanması və himninin səsləndirilməsi həmvətənlərimizi çox sevindirib, onlarda xoş təəssüratlar yaradıb.

Üçüncü dəfə keçirilən „Hannover Cup“ beynəlxalq turniri bu il Yunanıstan yığma komandasının qələbəsi ilə başa çatıb, ikinci yeri isə Türkiyə komandası qazanıb.

**18 iyun 2013**

**“Diaspor quruculuğu sonsuz bir prosesdir”**

***Samira Patzer-İsmailova: “Bu yolda davamlılıq, mütəmadilik saxlanılarsa, sözsüz ki, diaspor işi ildən-ilə yeni və daha keyfiyyətli nailiyyətlər əldə edəcək”***

***"Bu gün də Avropa azərbaycanlıları öz fəaliyyətlərini durmadan kamilləşdirir, yeni səviyyələrə çıxırlar”***

Azərbaycan diasporunun Avropa məkanında təşkilatlanıb genişlənməsi, ölkəmizin həqiqətlərinin təbliğ olunması istiqamətində davamlı və yorulmaz fəaliyyət göstərən diaspor təşkilatlarından biri də Avropa Azərbaycanlıları Konqresidir. Artıq 7 ildir ki, fəaliyyət göstərən konqres ötən müddət ərzində ölkəmizin təbliği, Dağlıq Qarabağ probleminin avropalılara çatdırılması istiqamətində bir sıra uğurlara imza atıb. Avropa Azərbaycanlıları Konqresinin prezidenti Samira Patzer-İsmailova “OLAYLAR”-a verdiyi müsahibədə rəhbərlik etdiyi qurumun ötən müddət ərzində gördüyü işlər barədə danışıb. Eyni zamanda Almanıya Azərbaycanlılarının Koordinasiya Mərkəzinə rəhbərlik edən soydaşımız AAKM-in fəaliyyət istiqamətləri barədə də fikirlərini bölüşüb. Həyatını diaspor fəaliyyəti və Azərbaycanın təbliğinə həsr edən Samira Patzer-İsmailova Almaniyadakı Azərbaycan diasporunun mövcud vəziyyətinə də aydınlıq gətirib.

***-Samira xanım Avropa Azərbaycanlıları Konqresinin cari ilin sonuna qədər əsas fəaliyyət istiqamətləri sırasına nələr daxil edilib və yaxın aylar üçün hansı tədbirlərin keçirilməsi nəzərdə tutulub?***

-Avropa Azərbaycanlıları Konqresi artıq 7 ildir ki, fəaliyyət göstərir və mən konqresin 4-cü prezidentiyəm. Struktur cəhətdən Avropa Azərbaycanlıları Konqresi Avropanın 20-dən çox ölkəsini əhatə edir. AAK-nin sonuncu, IV qurultayı işgüzar şəraitdə keçərək təşkilatımızın yeni qətnaməsinə əsasən öz vəzifələrini müəyyən etdi. Bu vəzifələrin əsas fəaliyyət istiqamətləri və hədəfləri artıq bəllidir. Bunların ən ümdəsi Azərbaycan Respublikasının Avropa ictimaiyyətinə müstəqil bir dövlət kimi tanıdılması, Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi, Xocalı soyqırımı, 20 Yanvar faciəsi, 3 mart soyqırımı haqqında məlumatların yayımlanması və Azərbaycana qarşı törədilən haqsızlıqlara ədalət tələb edilməsidir. Əlbəttə ki, siyasi-coğrafi amillərin hərəkəti bu vəzifələri hər dəfə yenidən istiqamətləndirir, işimizə yeni üslub verir. Bu mənada araşdırma, tədqiqat prinsipi gün-gündən qüvvət alır. Son zamanlar prioritet məsələlər daha çox intellektual, akademik, elmi-mədəni kontekstdə müzakirəyə qoyulur və mübarizə məhz bu səviyyədə aparılır. Daha bir istiqamət də Azərbaycana qarşı çevrilmiş tənqidi kampaniyaların qarşısını almaqdır.

Burada tez və məqsədyönlü reaksiya vermək, çevik düşüncəyə malik olmaq lazımdır. Avropa Azərbaycanlıları Konqresinin işində diaspor fəaliyyəti ilə yanaşı lobbizm böyük yer almalıdır və biz çalışacağıq ki, buna nail olaq. Bu istiqamətdə Azərbaycanın mədəniyyət və incəsənətinin təqdimatı da böyük rol oynayır. Məhz bu istiqamətlərdə Avropa Azərbaycanlıları Konqresi keçən 11 ayda bir sıra tədbir və aksiya həyata keçirib. Bu sıraya həm Xocalı soyqırımının tanınmasına dair Avropa Parlamentinə yazılan petisiya və məktublar, həm də qan yaddaşı günlərinə həsr edilmiş anım mərasimləri daxildir. Eyni zamanda Qarabağ mövzusunda olan mədəni tədbirləri də qeyd etmək yerinə düşər. Məsələn Günel Anarqızının “Qarabağ hekayələri”kitabının alman dilində çap edilməsi, “Rənglərin dialoqu” sərgisinin nümayişi, Berlin şəhərində Xocalı qurbanlarına əklil qoyma prosesinin ilk dəfə keçirilməsi və s.

***-Siz eyni zamanda Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin rəhbərisiniz. İki vəzifəni icra etmək bir qədər çətinlik yaratmırmı?***

-Əlbəttə iki vəzifəni icra etmək daha böyük qüvvə, iş, zaman, ardıcıl diqqət tələb edir. Bu heç də sadə iş deyil. Amma mürəkkəbliklər hər zaman insan potensialının üzə çıxarılmasında bir imtahandır. Bəzən gözləmədiyin imkanlar aşkar edilir və nəinki iki, hətta daha çox vəzifələrin öhdəsindən gəlirsən. Bu da çalışdığın sahədə təcrübəni kamilləşdirir. Etiraf edim ki, bundan əlavə, Türk-Azərbaycan Birliyinin sədr müavini və Alman-Azərbaycan Forumunun da İdarə Heyətinin üzvüyəm.

***-Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi fəaliyyət göstərdiyi 5 il ərzində əsas hansı istiqamətlərə diqqət yetirib?***

-Almaniya Azərbaycanlılarının Koordinasiya Mərkəzi 2008-ci ildə Almaniyadakı Azərbaycan səfirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə təsis edilib. Artıq beş ilə yaxındır ki, Berlində fəaliyyət göstərir. Bu dövr ərzində AAKM Almaniyadakı Azərbaycan diasporunun təşkilatlandırılması, Almaniya ictimaiyyətinə Azərbaycan haqqında həqiqi məlumatların çatdırılması və bütövlükdə Azərbaycanı layiqincə təqdim etməyə xidmət edən bir sıra layihələr həyata keçirib. Ümumiyyətlə, mərkəzin fəaliyyət istiqamətləri və sahələri müxtəlifdir. Bu illərdə 100-dən çox tədbir keçirilib. Bu tədbir və aksiyalar Almaniyadakı Azərbaycan diasporunun vəziyyəti və tələbatlarını nəzərə almaqla təşkilatlanma, lobbiçilik, inteqrasiya, təbliğat, mədəni irs və digər önəmli sahələri əhatə edib. Bu gün isə AAKM üç sütuna əsaslanaraq işləyir. Koordinasiya, kommunikasiya və informasiya. Diaspor fəaliyyətinin demək olar ki, bütün sahələrində AAKM ünsiyyət yaradır, əlaqələndirir.

AAKM bu illər ərzində Almaniyadakı Azərbaycan cəmiyyətləri, Azərbaycan tələbə və doktorantları, ümumilikdə azərbaycanlıların əsas ünsiyyət vasitəsinə və məkanına çevrilib. O, Almaniya üzrə Azərbaycanlıların təkmilləşmiş məlumat bazasını yaradıb. Elektron şəbəkədə öz İnternet və Facebook səhifəsi ilə təmsil olunur. Bundan başqa müntəzəm olaraq diaspor fəaliyyəti barədə elektron poçtla press-relizlər yayımlayır. Bundan başqa AAKM Almaniyadakı səfirliyimizin dəstəyi ilə uşaqlar, Berlin Steqliy-Zelendorf şəhər bələdiyyəsi ilə əməkdaşlıq çərçivəsində isə yaşlılar üçün Azərbaycan dili kursları təşkil edib, Həmçinin "Pozulmuş sülh" cizgi filminin çəkilişi təşəbbüsü ilə çıxış edib. AAKM-nin ən ümdə mövzusu isə əlbəttə ki, Dağlıq Qarabağ məsələsi, qan yaddaşı günləri, Xocalı soyqırımıdır. Bu mövzular Almaniyada həm siyasi, həm də xalq diplomatiyası səviyyəsində diqqət mərkəzindədir. 2012-ci ildə Almaniya üzrə səfirlik başda olmaqla Xocalı soyqırımına həsr edilmiş 30-a yaxın tədbir keçirildi. Klassik nümayiş və anım mərasimləri ilə yanaşı AAKM akademik üsullarla da işləyir. Belə ki, AAKM Xocalı mövzusu ilə bağlı Bundestaqın ayrı-ayrılıqda hər bir üzvünə məktub göndərib və bu da ümumilikdə 624 məktub edir. Almaniyanın yeni seçilmiş prezidentinə göndərilən təbrik məktubunda da Xocalı Soyqırımı haqqında məlumat verilib. Eyni zamanda AAKM petisiya və bəyanatlar verir, mətbuat və media şirkətlərinə etiraz məktubları yazır, AAKM İslam Konfransı Gənclər Forumunun baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyanı təqdim edir. Alman ictimai və ali məktəb kitabxanalarına Azərbaycan haqqında publisistik materiallar təqdim edir. alman siyasətçi və alimlərinin, azərbaycanlı tələbə və elm xadimlərinin məruzə axşamlarını keçirir.

***-Təşkilat rəhbəri olaraq Almaniyada Azərbaycan diasporunun fəaliyyətini necə qiymətləndirirsiniz?***

-Ümumiyyətlə Azərbaycan diaspor fəaliyyətini müvəffəq hesab edirəm. Necə ki, 20 yaşlı gənc dövlətimiz qısa zamanda yüksək nailiyyətlər əldə edib, eləcə də gənc diasporumuz da bu illərdə çox fəallaşıb. 2001-ci ildə Dünya Azərbaycanlıları Konqresinin 1-ci qurultayının çağrılması, mərhum prezident Heydər Əliyev tərəfindən edilən bu təşəbbüs uzaqgörən və müdrik bir addım idi. Məhz həmin ildə "Azərbaycan diasporu" məfhumu həyata vəsiqə almış, "diaspor quruculuğu kimi sonsuz bir prosesə" təkan verilmişdir. Müasir dünyadakı qloballaşma prosesi bir daha bu siyasətin müdrikliyini təsdiq edir və Azərbaycan dövlətinin bu günkü rəhbərliyi- Prezident İlham Əliyev də bu siyasəti layiqincə davam etdirir. Azərbaycan dövlət qurumları da diaspor faktorunu, onun rolunu nəzərə alırlar. Diasporla bilavasitə məşğul olan Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti və qayğısı dünya diaspor fəaliyyətini dəstəkləyir. Almaniyadakı Azərbaycan Səfirliyinin nümunəsində səfirliklərin də diaspor işinə olan diqqətini qeyd etmək istərdim. Bu gün də Avropa azərbaycanlıları öz fəaliyyətlərini durmadan kamilləşdirir, yeni səviyyələrə çıxırlar. Əlbəttə görüləsi işlər hələ çoxdur. Diaspor quruculuğu sonsuz bir prosesdir və hər zaman inkişaf yolunda olması da bu prosesin şərtidir. Bu yolda davamlılıq, mütəmadilik saxlanılarsa, sözsüz ki, diaspor işi ildən-ilə yeni və daha keyfiyyətli nailiyyətlər əldə edəcək.

***-Almaniyada təhsil alan gənclərimiz diaspora həyatında necə iştirak edirlər?***

-Şadam ki, sualınıza müsbət cavabım var. Azərbaycan gənc ölkədir, bəlkə də dünya miqyasında böyük ölkə deyildir. Amma onun yetirmələrinin sorağı hər zaman dünyanın müxtəlif guşələrindən, eləcə də Almaniyadan eşidilir Doğurdan da, Almaniyada gənclərimiz diaspor həyatında fəaldırlar. Xüsusilə də Almaniyada təhsil alan və artıq doktorant, elmi işçi kimi fəaliyyətdə olanlar. Məsələn doktor Azər Babayev Hessen Sülh və Konfliktlər Elmi Araşdırmalar Mərkəzində elmi işçidir, Azərbaycan haqqında illik elmi məcmuəni hazırlayan Ruslana Süleymanova və Mərdan Ağayev. Bundan başqa Almaniyanın müxtəlif universitetlərində elmi araşdırmalarla məşğul olan həmvətənlərimiz var. Doktor Natiq Həsənov, İbrahim Əhmədov, Rüfət Səttarov, Rauf Cəfərov, Orxan Səttarov, Rauf Məmmədxanov və başqa tələbə gəncləri və elmi işçiləri birləşdirən cəmiyyətlər vardır, Məsələn ASN-Azərbaycan Tələbə Şəbəkəsi Avropa məkanında çox fəaldır. VASW-Azərbaycan tələbə və alimlərin birliyi, ASAV-Boxum Azərbaycan Akademik Birliyi, Aserbaidschanischer Akademischer Verein kimi təşkilatlar artıq uzun illərdir ki, fəaliyyətdədirlər. Bu yaxınlarda yeni cəmiyyətlər də yaradılıb Potzdamda Azərbaycan tələbə və gənclər Assosiyasiyası, Nojs şəhərində Alman – Azərbaycan Gənclər Birliyi, Vürzburq Azərbaycan-Alman Dostluq Cəmiyyəti, Ştuttqart Azərbaycan-Alman Dostluq Cəmiyyəti, Kassel "Aşıq Şəmkir" cəmiyyəti, Manhaymda və Berlində təbabət üzrə Doktorant tələbələrimiz çox fəaldırlar.

**"Olaylar".-2013.-20 iyun .-№109.-S.15.**

**Nazim İbrahimov: “Diaspor təşkilatlarının əməkdaşlığı türk dünyasının gücünə güc qatacaqdır”**

Türkdilli xalqların diaspor təşkilatlarının əməkdaşlığı türk dünyasının gücünə güc qatacaqdır.

Bu sözləri Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov iyunun 21-də jurnalistlərə müsahibəsində demişdir.

Komitə sədri bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin arzusu olan ideya artıq gerçəkləşməyə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi və nəzarəti ilə türk dünyasında ardıcıl addımların atılmasına başlanılmışdır. Dünyanın bir sıra ölkələrindən bu Foruma 450-dən çox qonaq gəlmişdir. Tədbirdə həmçinin Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan diaspor təşkilatlarının rəhbərləri də iştirak edirlər.

Komitə sədri demişdir: “2007-ci ildə Türkiyə və Azərbaycan diaspor təşkilatlarının Bakı Forumu keçirilmiş, daha sonra Bakıda türk qurultayı təşkil edilmişdir. Lakin böyük coğrafiyada Qazaxıstan və Qırğızıstanın iştirakı ilə ilk dəfə belə bir Forum keçirilir. Hesab edirəm ki, bu, türk dünyasının birliyi istiqamətində atılan mühüm addımlardan biridir. Bizim dövlətlər üçün bu məsələ əhəmiyyətlidir. Çünki yeni müstəqillik qazanmış ölkələr olaraq dünyada tanınmağımıza böyük ehtiyac vardır”.

N.İbrahimov diqqətə çatdırmışdır ki, tədbirdə prioritet olaraq əvvəlcə strategiya qəbul olunacaqdır. Bu strategiyada ana xətt olaraq diaspor təşkilatlarının daha da inkişafını, birliyini və dünyanın müxtəlif ölkələrində yaşayan diasporların fəaliyyətini təmin etməkdir.

**“Xalq qəzeti”.-2013.-22 iyun.-N 134.-S.4.**

**Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumu keçirilmişdir**

***İyunun 21-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumu keçirilmişdir.***

AzərTAc xəbər verir ki, Forumda diaspor nümayəndələri ilə yanaşı, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə respublikalarının dövlət və hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, mədəniyyət və digər yaradıcı qurumlarının nümayəndələri iştirak etmişlər.

Forum türkdilli dövlətlərin və Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı filmin təqdimatı ilə başlamışdır.

Forumu açan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Xəlil Akıncı tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, sovetlər birliyi dağıldıqdan sonra türkdilli dövlətlər arasında əməkdaşlıq güclənməyə başlamışdır. Bu əlaqələrin genişləndirilməsi, türkdilli ölkələrin beynəlxalq səviyyədə tanıdılması, onların problemlərinin həlli istiqamətində diaspor təşkilatları mühüm rol oynayır.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov tədbir iştirakçılarını salamlamış, Forumun işinə uğurlar arzulamışdır. Diqqətə çatdırmışdır ki, türk dünyasının siyasi coğrafiyası müstəqillik qazanan türkdilli dövlətlər hesabına genişlənmişdir. Ümummilli lider Heydər Əliyevin türkdilli dövlətlərin birliyinə yüksək dəyər verdiyi, Azərbaycan Prezidenti İlham Əliyevin hazırda bu siyasəti layiqincə davam etdirdiyi diqqətə çatdırılmışdır.

N.İbrahimov bildirmişdir ki, bu gün dünyada türkdilli ölkələrin diaspor təşkilatlarının milyonlarla üzvü vardır və türk xalqları arasında birliyin, həmrəyliyin möhkəmləndirilməsi qarşıya qoyulan əsas vəzifələrdən biridir. Türk dünyasının birliyi ideyasının yüz illərdir mövcud olduğunu diqqətə çatdıran N.İbrahimov qeyd etmişdir ki, buna baxmayaraq, həmin ideya XX əsrin sonlarında geniş yayılmağa başlamışdır. O, bu gün türk dünyasının ciddi bir reallıq kimi qəbul edildiyini vurğulamışdır.

Komitə sədri türkdilli ölkələrin siyasi və mədəni birliyi istiqamətində indiyədək həyata keçirilmiş tədbirlər, görülən işlər barədə də məlumat verərək demişdir: "Bu gün dünyanın müxtəlif ölkələrində türkdilli xalqların sayı milyonlarla olan diasporu fəaliyyət göstərir. Bu, kifayət qədər ciddi qüvvədir və bizə qüvvələrimizi birləşdirib, xalqlarımızın maraqları naminə birgə fəaliyyət göstərmək imkanı verir".

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxumuşdur (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Forumda, həmçinin Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentlərinin də iştirakçılara təbrik məktubları oxunmuşdur.

Ümumdünya Qazaxlar Assosiasiyasının İdarə Heyəti sədrinin birinci müavini Talqat Mamaşov Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumunun əhəmiyyətini yüksək qiymətləndirmişdir. T.Mamaşov bütün türk xalqlarını ortaq tarix, mədəniyyət və incəsənətin birləşdirdiyini demişdir. Vurğulamışdır ki, Bakıda keçirilən bu Forum türkdilli dövlətlər arasında əlaqələrin daha da möhkəmlənməsinə imkan yaradacaqdır. T.Mamaşov xaricdə yaşayan türkdilli xalqların nümayəndələrinin öz vətənləri ilə əlaqə yaratmaları baxımından diaspor təşkilatlarının fəaliyyətinin əhəmiyyətini qeyd etmişdir.

Qırğız Respublikasının əmək, miqrasiya və gənclər naziri Alisbek Alımkulov Forumun təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir. Dünyada yaşayan türkdilli xalqların birliyinin vacibliyini diqqətə çatdıran qırğızıstanlı nazir Bakı Forumunun bu istiqamətdə böyük rol oynayacağına ümidvar olduğunu demişdir. O, vətəndən xaricdə yaşayan soydaşların qarşılaşdıqları problemlərin həll edilməsi, ölkələrimizin beynəlxalq arenadakı nüfuzunun daha da artması baxımından türkdilli dövlətlərin birliyinin əhəmiyyətindən danışmışdır. A.Alımkulov bugünkü gənclərin əcdadlarımızın yolunu uğurla davam etdirmələrini qürurverici fakt kimi qiymətləndirmişdir.

Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin sədri Kamal Yurtnaç türkdilli xalqların birliyinin təmin olunması, maraqlarının qorunması, onların haqq səsinin dünyaya çatdırılması istiqamətində Forumun mühüm əhəmiyyətli bir tədbir olduğunu demişdir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumunun əhəmiyyətindən danışmışdır. TÜRKSOY-un baş katibi tədbir iştirakçılarına türkdilli ölkələrin diasporlarının təşkilatlanması və onlar arasında daha yaxın münasibətlərin qurulması istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Forumda çıxış edən Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) baş katibi Ramil Həsənov xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə danışmışdır. TürkPA-nın sədri Bakıda keçirilən bu Forumun türkdilli xalqların yaxınlaşması prosesinin sürətlənməsində mühüm rol oynayacağına əminliyini bildirmişdir.

Daha sonra Forumda çıxış edən Türk Akademiyasının prezidenti, Kokşetau Dövlət Universitetinin rektoru, akademik Şakir İbrayev, Avropa Azərbaycanlıları Konqresinin prezidenti Samira Patzer-İsmailova, Türkdilli Xalqların Assambleyasının sədri Mustafa Camgöz, Dünya Azərbaycanlıları Gənclər Birliyinin sədri Ramin Məmmədov və başqaları Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin Bakıda keçirilən birinci Forumunun əhəmiyyətindən danışmış, tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına və Diasporla İş üzrə Dövlət Komitəsinə minnətdarlıqlarını bildirmişlər.

Forumun yekununda Bakı Bəyannaməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə, Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevə və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə müraciət qəbul olunmuşdur. Bəyannamədə türk xalqları birliyinin möhkəmləndirilməsinin regionda sülhün və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malik olduğu vurğulanmışdır. Sənəddə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının doqquz istiqamətdə fəaliyyətinin koordinasiya olunması tövsiyə edilmişdir. Qeyd edilmişdir ki, Forumun iştirakçıları türkdilli ölkələrin diasporlarının təşkilatlanması prosesinə dəstək verilməsi, türkdilli diaspor təşkilatlarının, icma və qurumlarının fəaliyyətinin koordinasiya olunması məqsədi ilə regional mərkəzlərin yaradılması, eləcə də dünya ictimaiyyətinin türk dünyasının tarixi, mədəniyyəti, müasir həyatı barədə ətraflı məlumatlandırılması istiqamətində tədbirlərin görülməsini vacib hesab edirlər. Türkdilli ölkələrin prezidentlərinə müraciətdə isə Forum iştirakçıları dövlət başçılarını əmin edirlər ki, türkdilli xalqların birliyinin təmin olunması, maraqlarının qorunması, onların haqq səsinin dünyaya çatdırılması istiqamətində üzərlərinə düşən vəzifələrin böyük məsuliyyət və yüksək peşəkarlıqla yerinə yetirilməsi üçün qüvvə və bacarıqlarını əsirgəməyəcək, bu istiqamətdə səylərini daha sıx birləşdirəcəklər.

**“Xalq qəzeti”.-2013.-22 iyun.-N 134.-S.4.**

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumuna**

Hörmətli forum iştirakçıları!

Sizi Azərbaycanda ürəkdən salamlayır və forumun işinə uğurlar arzulayıram.

Fərqli coğrafi məkanda məskunlaşmış, keşməkeşli inkişaf yolu qət etmiş türkdilli xalqlar bəşəriyyətin çoxəsrlik təkamül prosesində daim mühüm rol oynamış, öz zəngin mədəni ənənələri ilə tarix səhnəsində öncül yerlərini qoruyub saxlamışlar. Türkdilli xalqlar və onları təmsil edən dövlətlər bu gün də dünyada sülhün və təhlükəsizliyin təmin olunması, sivilizasiyalararası dialoqun dərinləşməsi, beynəlxalq iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsinə əhəmiyyətli töhfələr verirlər.

Qloballaşan dünyanın diktə etdiyi hazırkı reallıqlar türkdilli ölkələrin xalqlarını və hökumətlərini sıx əməkdaşlığa, qarşılıqlı əlaqələri daha da gücləndirməyə, xarici siyasət fəaliyyətini uyğunlaşdırmağa və birgə taktika müəyyənləşdirməyə sövq edir. Bu istiqamətdə xalqlarımızın diaspor təşkilatları arasında tərəfdaşlıq münasibətlərinin qurulması və inkişafına yönəlmiş təşəbbüslər təqdirəlayiqdir. Türkdilli dövlətlər arasında əlaqələrin inkişafında, ortaq mənafelərimizin etibarlı qorunmasında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarının rolu xüsusi əhəmiyyətə malikdir. Azərbaycan hər zaman həmin təşəbbüsləri dəstəkləmiş və gələcəkdə də bu siyasəti davam etdirmək əzmindədir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Bakı Forumunun keçirilməsi dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, soykökünə, tarixinə, milli mənəvi dəyərlərinə ehtiram, doğma vətənin maraqlarına bağlılıq nümayiş etdirən diasporun formalaşmasının bariz nümunəsidir. Düşünürəm ki, biz bu potensiala güvənərək siyasi çoxqütblülük, iqtisadi, mədəni və informasiya proseslərinin qlobal inkişafı şəraitində xalqlarımızın mənafeyinin müdafiəsi, regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verə bilərik.

Bir daha forum çərçivəsindəki müzakirələrin və qəbul ediləcək qərarların dövlətlərimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına təkan verəcəyinə dərin inamımı ifadə edir və hər birinizə bu yolda uğurlar diləyirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 iyun 2013-cü il**

**"Xalq qəzeti".-2013.-22 iyun.-N 134.-S.3.**

## Diaspor quruculuğu və lobbiçiliyin dünya təcrübəsi və Azərbaycan

**Hazırda diasporun dövlətin dayağı olması bir aksiomdur. Dünya təcrübəsi də, bəzi diasporların fəaliyyəti də bunu təsdiq edir. Diasporlar, faktiki olaraq, dövlət xaricində bir dövlət yaradırlar və öz dövlətlərinə dayaq olurlar. Azərbaycan da böyük potensialı olan diaspora malikdir-dünya azərbaycanlılarının yalnız beşdən biri Azərbaycanda yaşayır.**

Vətəndən xaricdə yaşayan azərbaycanlıların (İran, Gürcüstan və s. ölkələrdə tarixi vətənlərində yaşayan azərbaycanlılar diaspor hesab olunmur) sayı on milyonla ölçüldüyü kimi, onların sərmayəsi də on milyardlarla ölçülür. Bu həm iqtisadi, həm də siyasi cəhətdən böyük qüvvədir. Bu qüvvəni cəmləşdirmək, Azərbaycan Respublikası ətrafında birləşdirmək olarsa, dağı dağ üstə qoymaq olar. Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1991-ci ildə, hələ Naxçıvanda işləyərkən dekabr ayının 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi və diqqəti bu məsələyə yönəltdi.

1. Azərbaycan diasporunun təşkilatlanması

Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, güclü diasporun yaradılması istiqamətində dövlət səviyyəsində əsaslı işlər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan və Azərbaycan Prezidenti seçildikdən sonra başladı. Prezident xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və güclü diaspora çevrilməsi məsələsini Azərbaycanın xarici siyasətində yeni bir istiqamət kimi dəyərləndirdi. Xarici ölkələrə səfərlərində Azərbaycan diasporu ilə görüşməyi, görüşlərdə çıxış etməyi, soydaşlarımızı eşitməyi bir ənənəyə çevirdi. (Bu tarixi həm də Azərbaycan diasporunun inkişafı tarixində birinci mərhələnin başlanğıcı hesab etmək olar). Ümummilli lider bu barədə deyirdi: "Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha sıx əlaqələr qurması, öz həmrəyliyini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır".

Diaspor hərfi mənada "dağılma", "səpələnmə" demək olsa da, hər millətin, xalqın vətəndən ayrılması, dünyaya səpələnməsi diaspor yaratmır. Məsələn, dünyaya ən çox səpələnən xalqlar çinlilər və ərəblərdir, amma dünyanın heç bir yerində ərəb, ya da çin diasporu yoxdur. Diasporun meydana gəlməsi, yaranması vətəndən kənarda yaşayanların vətənə bağlı olmasıdır, vətənin problemləri ilə yaşamasıdır. Ümummilli lider Heydər Əliyev də bu mühüm amilə böyük əhəmiyyət verirdi və 1997-ci ildə ABŞ-da yaşayan azərbaycanlılarla görüşündə çıxışına bu sözlərlə başlamışdı: "Mən on il Moskvada yaşamışam, Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşam və bu rəhbərliyin imkan verdiyi ən yüksək şəraitdə yaşamışam. Bir an da Azərbaycanı unutmamışam, ürəyim daim Azərbaycanla vurub. Sonra qayıtmışam Azərbaycana, Naxçıvanda bir daxmada yaşamışam. Gecəm də Azərbaycan olub, gündüzüm də. Çünki bu, mənim Azərbaycanımdır, mənim Vətənimdir". Azərbaycan Prezidenti soydaşlarımıza müraciət edir, deyir siz düşünməyin ki, Azərbaycan sizin üçün nə edib, düşünün ki, siz Azərbaycan üçün nə etmisiz. Onda Azərbaycan diasporu da irəli gedər, Azərbaycan dövləti də inkişaf edər. Azərbaycanı düşünmək, Azərbaycanla yaşamaq isə ilk nəzərdən göründüyü kimi sadə məsələ deyil, bunun üçün ideya lazımdır, mənəvi və maddi əsas lazımdır.

2.Mənəvi və maddi əsas

Dünya azərbaycanlılarının Azərbaycana bağlanması, Azərbaycanla yaşaması üçün mənəvi əsas ola biləcək bir ideya var - bu, azərbaycançılıqdır. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir. Biz dünyaya inteqrasiya ediriksə, təbii ki, bizim mənəvi dəyərlərimiz də ümumbəşəri dəyərlərə inteqrasiya etməlidir. Deməli, insan hansı ölkədə yaşamasından asılı olmayaraq, öz milliliyini, milli mənsubiyyətini qoruyub saxlamağı bacarmalıdır. Ümummilli lider Heydər Əliyev Dünya Aərbaycanlılarının I Qurultayındakı çıxışında bunu tövsiyə edirdi: "İnsanlar - mən azərbaycanlılar haqqında danışıram - gərək yaşadıqları ölkədə o şəraiti mənimsəyərək orada özləri üçün yaxşı mövqe tutsunlar. Ancaq öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır". Azərbaycan diasporunun yaranması, birləşməsi üçün mənəvi əsas-azərbaycançılıq ideyası vacib olduğu kimi, bu ideyanın yaşaması, inkişaf etməsi üçün maddi əsas - aparıcı qurum lazımdır. Tarix boyu dövlətçiliyi olmayan, amma yaşayan və inkişaf edən yəhudi və erməni diasporları üçün belə bir qurum rolunu, məlum olduğu kimi, kilsə (məbəd) oynamışdır. Xaricdə yaşayan türklərin birləşməsində, güclü türk diasporunun (məsələn, Almaniyada olduğu kimi) yaranmasında aparıcı rol isə Türkiyə dövlətinə məxsusdur. Qeyd etmək lazımdır ki, diasporun yəhudi və türk modellərinin yaranması fərqli olduğu kimi, missiyası da fərqlidir. Yəhudi diasporu müstəqil İsrail dövlətinin yaranmasında maddi və mənəvi əsas rolu oynamışdır, faktiki olaraq, bu dövləti yaratmışdır. Türkiyə dövləti isə xaricdə, əsasən Avropada yaşayan türklərin təşkilatlanmasına dəstək vermiş, güclü türk diasporunun yaranmasına nail olmuşdur (hazırda Amerikada yaşayan türklərin təşkilatlanması və erməni diasporuna qarşı duracaq səviyyəyə çatması istiqamətində iş gedir). Odur ki, yəhudi diasporu İsraili dəstəklədiyi kimi (bu dəstək əsasında ABŞ İsrailə ildə iki milyard dollardan çox yardım ayırır), Türkiyə də türk diasporunu dəstəkləyir.

Azərbaycanda isə tarixi, sosial-siyasi şərait elə gətirib ki, Azərbaycan dövləti gənc olduğu, yenicə qurulduğu kimi, Azərbaycan diasporu da gəncdir, yenicə təşkilatlanır. Yəhudi və türk diasporlarından fərqli olaraq, Azərbaycan dövləti- Azərbaycan diasporu münasibətləri qarşılıqlı kömək, qarşılıqlı dəstək əsasında qurulmalıdır. Məsələn, Azərbaycan dövləti diasporun təşkilatlanmasında mühüm rol oynadığı kimi, diaspor da Dağlıq Qarabağ probleminin Azərbaycanın maraqları çərçivəsində həllində mühüm rol oynaya bilər.

Müstəqil Azərbaycan dövlətinin qurulması və dünya azərbaycanlılarına dayaq olacaq səviyyəyə çatması istiqamətində əsaslı işlər böyük siyasətçi Heydər Əliyev xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra başladı. 1994-cü ilin mayında Azərbaycana zorla sırınmış qanlı müharibə dayandırıldı, Ermənistan - Azərbaycan cəbhəsində atəşkəs elan olundu. 1994-cü ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında Əsrin neft müqaviləsi imzalandı, Azərbaycana xarici sərmayələr gəlməyə başladı. 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və haqlı olaraq "İnsan haqları manifesti" adlanan Azərbaycan Konstitusiyası ümumxalq referendumu yolu ilə qəbul olundu. Elə həmin ildə də müstəqil Azərbaycanın ilk demokratik parlamenti çoxpartiyalı əsasda seçildi və dərhal siyasi və iqtisadi islahatların keçirilməsi üçün qanunvericilik bazası hazırlamaqla məşğul oldu. 1996-cı ildən etibarən iqtisadi tənəzzülün qarşısı alındı, iqtisadi və siyasi islahatlar aparmaq, o cümlədən diaspor quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı.

1997-ci ilin avqustunda Azərbaycan Prezidenti Amerikada bütün dünya azərbaycanlılarına müraciət etdi: "Əgər sən azərbaycanlısansa, bilməlisən: dünya azərbaycanlılarının bir müstəqil dövləti var-Azərbaycan, dünya azərbaycanlılarının bir tarixi Vətəni var-Azərbaycan. Dünya azərbaycanlıları öz tarixi vətənlərini, müstəqil dövlətlərini müqəddəs hesab etməli, onun ətrafında birləşməlidirlər". Elə həmin ildə Prezidentin İcra Aparatında xaricdə yaşayan azərbaycanlılarla iş üzrə xüsusi bölmə yaradıldı. Yaxın və uzaq xaricdə yaşayan Azərbaycan diasporunun təşkilatlanması prosesi vüsət aldı və Azərbaycan Prezidentinin diqqəti və qayğısı altında davam etdi. Amerikada və Avropada de-fakto yaşayan azərbaycanlılar öz təşkilatlarını yaratdılar və de-yure fəaliyyətə başladılar.

Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü və xeyir-duası ilə dünya azərbaycanlılarının ən böyük təşkilatları olan Ümumrusiya Azərbaycan Konqresi və Ukrayna Azərbaycan Konqresi yaradıldı. Sonrakı illərdə bu proses sürətlə davam etdi, postsovet məkanında, Avropada, butun dünyada Azərbaycan diaspor təşkilatlarının yaranması ilə nəticələndi.

3. Diaspordan lobbiyə doğru

Azərbaycan diasporunun təşkilatlanması, azərbaycançılıq ideyası altında müstəqil Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində Heydər Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü işlər tezliklə öz nəticəsini verdi. 1994-cü ildə əsası qoyulan, 1997-ci ildən başlayaraq həyata keçirilən təşkilatlanma prosesi 2001-ci ildə daha yüksək mərhələyə daxil oldu - noyabrın 9-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı açıldı. Qurultayın keçirilməsi həm Azərbaycan dövləti, həm də dünya azərbaycanlıları üçün mühüm əhəmiyyət kəsb edirdi. Qurultayın işində dünyanın 36 ölkəsindən 1050 nümayəndə və 400-dən çox qonaq iştirak edirdi.

Dünya Azərbaycanlılarının I Qurultayı yüksək həmrəylik və işgüzarlıq şəraitində keçdi. Diaspor Azərbaycan üçün nə etməlidir, Azərbaycan diaspor üçün nə etməlidir - bu məsələlər açıq müzakirə olundu, təkliflər verildi və qərarlar qəbul olundu. Qurultayda çıxış edən ümummilli lider elan etdi ki, Azərbaycan dünyada yaşayan hər bir azərbaycanlının Vətənidir, dünyada yaşayan hər bir azərbaycanlı da Azərbaycan üçün, Vətən üçün əlindən gələni etməlidir. Qeyd olundu ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, erməni faşizminin iç üzünün açılması, ifşa olunması əsas prioritetlərdən biridir. Çünki yalnız bundan sonra, Dağlıq Qarabağ probleminin beynəlxalq standartlara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həlli reallaşa bilər.

2002-ci ilin yazında Azərbaycan diasporunun inkişafı üçün dövlət səviyyəsində daha bir addım atıldı. Azərbaycan Prezidentinin fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının təşkilatlanmasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Komitə qısa bir müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycanla əlaqələrinin möhkəmlənməsi istiqamətində mühüm işlər görməyə müvəffəq oldu.

Hazırda ümummilli liderimizin davamçısı, Azərbaycan Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edir, dünyada sözu keçən qüdrətli dövlətə çevrilir. Respublikamızda ictimai-siayasi sabitliyin daha da möhkəmləndirilməsi, dövlətçiliyin gücləndirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, xalqın rifahının yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülür. Azərbaycan iqtisadi tərəqqisinə və adambaşına düşən xarici sərmayələrin həcminə görə nəinki postsovet məkanında, hətta bütün dünyada öncül yerlərin birini tutur. Eyni zamanda, Azərbaycan diasporu da inkişaf edir, təşkilatlanmaq, birləşmək, "çəkici bir yerə vurmaq" istiqamətində böyük nailiyyətlər əldə edir. Bütün bunlar dünya azərbaycanlılarının yenidən bir araya gəlməsini, nailiyyətləri və problemləri birlikdə müzakirə etməsini zərurətə çevirdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə2006-cı ildə Bakıda Dünya Azərbaycanlılarının II, 2011-ci ildə III Qurultayı keçirildi və bu möhtəşəm tədbirlər Azərbaycan diaspor təşkilatlarının güclənməsinə təkan verdi.

Bu gün Azərbaycan dövlətinin dəstəyi ilə Azərbaycan diasporu sürətlə inkişaf edir və dünya azərbaycanlılarının haqlarını bütün dünyada qoruya biləcək bir qüvvəyə çevrilir. Azərbaycan diasporunun türk diasporu ilə qüvvələri birləşdirəcəyi, erməni lobbisinə layiqli cavab verəcək güclü lobbiyə çevriləcəyi gün uzaqda deyil.

Bu, hazırda Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi diaspor siyasətinin əsas prioritetlərindən biridir: "Ermənistan iqtisadi, siyasi baxımdan o qədər də inkişaf etməyib və onun özünün potensialı , əlbəttə, nə Azərbaycanın, nə də Türkiyənin potensialı ilə müqayisə edilə bilməz.

Amma onların dünyada mövcud olan dayaqları, müxtəlif ölkələrdə mütəşəkkil şəkildə fəaliyyət göstərən diasporu, əlbəttə, onlara böyük dəstəkdir, eyni zamanda, bizə qarşı istifadə olunan ən güclü alətdir. Türklər, azərbaycanlılar da dünyanın müxtəlif yerlərində yaşayırlar və əlbəttə, onlar birgə fəaliyyət göstərməlidirlər. Bu yollarla biz dünyada öz mövqelərimizi möhkəmləndirməliyik və məqsədimizə çatmalıyıq".

**Qalib Arif, "Xalq qəzeti".-2013.-23 iyun.-N 135.-S.4.**

**Nazim İbrahimov BMT Baş Katibinin xüsusi nümayəndəsi ilə görüşüb**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Bakıda səfərdə olan BMT Baş Katibinin Qlobal Tərəfdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi və eyni zamanda Qlobal Tərəfdaşlıq Forumunun rəhbəri Amir Dossal ilə görüşüb.Dövlət Komitəsinin sədri Amir Dossalı salamlayaraq onu yenidən Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Amir Dossal isə öz növbəsində bu ilin mayında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Madrid Klubu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi I Cənubi Qafqaz Forumunun yüksək səviyyədə keçirilməsinə görə təşəkkür edib, Azərbaycan Prezidentinin Foruma xüsusi diqqət göstərməsinin təqdirəlayiq olduğunu vurğulayıb.

Daha sonra tərəflər BMT strukturuna daxil olan təşkilatlarla Azərbaycan Respublikası arasında müxtəlif səpkidə və müstəvidə birgə layihələrin həyata keçirilməsi məsələlərini müzakirə ediblər. Nazim İbrahimov və Amir Dossal Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin sentyabr ayında Bakıda keçiriləcək iclasına hazırlıqları barədə də fikir mübadiləsi aparıblar. Görüşdə BMT Baş Katibinin xüsusi nümayəndəsi həm dahi Azərbaycan şairi Nizami Gəncəvinin, həm də Azərbaycanın qlobal müstəvidə tanıdılması üçün dəstək göstərəcəyini bildirib.

**25 iyun 2013**

## Nazim İbrahimov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi ilə görüşüb

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Halil Akıncı ilə görüşüb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunda iştirak etmək üçün Bakıya gələn Halil Akıncı ilə görüşdə türkdilli dövlətlərin diaspor təşkilatlarının əməkdaşlığı və forumla bağlı məsələlər müzakirə olunub. Nazim İbrahimov türkdilli ölkələrin diaspor təşkilatlarının birgə əməkdaşlığının zəruriliyindən danışıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun bu istiqamətdə çox vacib addım olduğunu vurğulayıb. Dövlət Komitəsinin sədri qeyd edib ki, Forum çərçivəsində diaspor rəhbərləri üçün gələcək fəaliyyət istiqamətləri müəyyən ediləcək və onların reallaşdırılması yolları müzakirə olunacaq.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Halil Akıncı isə öz növbəsində mötəbər tədbirin təşkilatçılığını öz üzərinə götürdüyü və bu işləri yüksək səviyyədə həyata keçirdiyi üçün Azərbaycan tərəfinə təşəkkür edib. Forumun önəmindən danışan Halil Akıncı qeyd edib ki, Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan diasporunun birgə fəaliyyəti, bir sıra problemlərin həllində ortaq mövqedən çıxış etməsi gələcəkdə çox səmərəli olacaq.

Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunda müzakirə ediləcək mövzular, qəbul ediləcək sənəd layihələri, çıxışlar və reqlament məsələləri haqqında da fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumu iyunun 21-də Bakıda keçiriləcək. Foruma dünyanın 44 ölkəsindən 500-ə yaxın nümayəndə dəvət edilib. Onların əksəriyyəti Azərbaycan, türk, qazax və qırğız diaspor təşkilatlarının rəhbərləri və təmsilçiləridir. Qonaqların arasında Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət və hökumət nümayəndələri, deputatlar və elm xadimləri də var.

**2013-06-25**

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Lord Freyzerin ailəsinə və İngiltərə-Azərbaycan Cəmiyyətinin üzvlərinə başsağlığı verib**

İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri Lord Freyzer vəfat edib. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Lord Freyzerin ailəsinə və İngiltərə-Azərbaycan Cəmiyyətinin üzvlərinə başsağlığı verib. Başsağlığı məktubunda deyilir: "Lord Freyzer Azərbaycan həqiqətlərinin Böyük Britaniya ictimaiyyətinə çatdırılmasında, bu ölkədə Azərbaycanın dostlarının sayının artmasında, həmçinin iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsində böyük xidmətlər göstərmişdir. Şərəfli həyat yolu keçən Lord Freyzerin vəfatı onun ailəsi, yaxınları, həmsədrlik etdiyi cəmiyyətin üzvləri, hamımız üçün ağır itkidir. Bu ağır itki ilə əlaqədar onun ailəsi və yaxınlarının, İngiltərə-Azərbaycan Cəmiyyətinin üzvlərinin kədərini bölüşür, onlara dərin hüznlə başsağlığı veririk".

Qeyd edək ki, 1997-ci ildə yaradılan İngiltərə-Azərbaycan Cəmiyyəti ölkəmizlə Böyük Britaniya arasında bütün sahələrdə əlaqələri dəstəkləyir, xeyriyyə təşəbbüslərinə yardım edir, Azərbaycan həqiqətlərini Böyük Britaniya əhalisinə çatdırılması istiqamətində xidmətlər göstərir. Cəmiyyətin Azərbaycan tərəfdən həmsədri professor Nərgiz Paşayevadır.

**27 iyun 2013**

**Köln şəhərinin mədəniyyət mərkəzində əslən Azərbaycandan olan və uzun illərdir Almaniyada yaşayan rəssam Marqarita Kərimova-Sokolavanın fərdi sərgisi açılıb**

Almaniyanın Köln şəhərinin mədəniyyət mərkəzində əslən Azərbaycandan olan və uzun illərdir Almaniyada yaşayan rəssam Marqarita Kərimova-Sokolavanın fərdi sərgisi açılıb. "Miniatürlər" adı altında sərgilənən ekspozisiyaya "Karnaval", "Bitkilər" və "İlbizlər" qarfik silsiləsindən 80 əsər daxil edilib. Sərginin açılışında tanınmış incəsənət, elm adamları, jurnalistlər, Almaniyadakı Azərbaycan diasporunun təmsilçiləri, alman ictimayiyyətinin nümayəndələri iştirak edib. Tədbirdə çıxış edən professor Aleksanr Yoffe nitqinə bu sözlərlə başlayıb: "Bu sərgini "Böyük rəssamın kiçik rəsmləri" də adlandırmaq olar. Marqarita Kərimov-Sokolovanın adı və yaradıcılığı təkcə bizim şəhərdə deyil, dünyanın bir çox ölkəsində məşhurdu. Əsərlərindən birinə veridiyi "Hisslər və Ağıl" adını onun bütün rəngkarlıq sisteminə aid etmək olar. Marqaritanın əsərləri dünyanın yaradılışının gözəllik və harmoniyasını açır".

Mərasimdə çıxış edən digər qonaqlar da Marqarita Kərimova-Sokolvanın yaradıcılığını yüksək qiymətləndirərək onun əsərlərinin dərin fəlsəfi mənasını açmağa çalışdırlar. Tədbir boyu fonda Şopen, Mosart, Raxmaninov, Leqran kimi bəstəkarların musiqisinin səslənməsi isə sərgiyə gələnlərdə xüsusi təəssürat yaradıb.

**03 iyul 2013**

## Heydər Əliyev və azərbaycançılıq məfkurəsi

Azərbaycan tarixin müxtəlif mərhələlərində ən ağır sınaqlardan çıxıb və ən ümidsiz vəziyyətlərdə belə özünün varlığını qoruyub saxlaya bilib Bu çərçivədə də Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edərək, onu yenidən qüdrətli dövlət kimi siyasi səhnəyə çıxaran liderlər və onların irəli sürdükləri həmişəyaşar məfkurələr önəmli rol oynayıb.

Bu baxımdan Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz xidmətləri var. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində düşmən güclər tərəfindən Azərbaycanın etnik ərazilərə parçalanaraq məhv edilməsi təhlükəsi meydana çıxmışdı. Belə bir vəziyyətdə isə Azərbaycanı xilas edə biləcək ümummilli bir liderə və onu müstəqil dövlət kimi gələcəyə aparacaq, burada yaşayan xalqları öz ətrafında birləşdirə biləcək bir məfkurəyə ehtiyac duyulurdu.

Belə bir lider isə XX əsr dünya siyasətinin ən qüdrətli simalarından biri olan Heydər Əliyev və onun tərəfindən irəli sürülən azərbaycançılıq məfkurəsi oldu. Təsadüfi deyil ki, Almaniyanın və dünyanın məşhur siyasi xadimlərindən biri olan Bismark hələ 1871-ci ildə yazmışdı: “Hər bir dövlətin dünyanın siyasi səhnəsində uzunömürlü olması, ilk növbədə, onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran liderdən və millətin gələcəyinə xidmət edən vahid məfkurənin olmasından asılıdır”. Bu baxımdan Azərbaycan Heydər Əliyevin simasında onu məhv olmaqdan xilas edərək yenidən dünyanın siyasi səhnəsinə çıxaran qüdrətli bir siyasi xadimini tapmış oldu.

### Azərbaycanı xilas edən məfkurə - azərbaycançılıq

1993-cü ildə Azərbaycanın başı üzərini qara buludlar almışdı və ölkə hər an parçalanaraq dövlət kimi məhv olmaq təhlükəsi qarşısında qalmışdı. Belə bir vəziyyətdə xalqın tələbi ilə yenidən Azərbaycanı idarə etməyə başlayan Heydər Əliyev qısa müddətdə ölkənin parçalanaraq məhv olmasının qarşısını aldı. Amma gələcəkdə Azərbaycanın bir də belə təhlükə ilə üzləşməməsi üçün ölkəmizdə yaşayan bütün xalqları öz ətrafında birləşdirə biləcək və sağlam təməllər üzərində qurulan vahid məfkurəyə ehtiyac vardı.

Belə bir məfkurə isə Heydər Əliyev tərəfindən böyük uzaqgörənliklə gündəmə gətirilərək onu müstəqil dövlətimizin əsas ideologiyasına çevirən azərbaycançılıq məfkurəsi oldu. Təsadüfi deyil ki, SSRİ-nin dağılmasının ideoloji memarlarından biri olan ABŞ Prezidentinin təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri, tanınmış siyasi xadim Zbiqnev Bzejinski Heydər Əliyevin şah əsərlərindən biri olan azərbaycançılıq məfkurəsi haqqında belə demişdi: “Heydər Əliyev mahir bir strateq və siyasətçi kimi azərbaycançılıq məfkurəsini gündəmə gətirərək, onu yeni, gənc müstəqil dövlətin təməl daşlarından birinə çevirdi.

Bununla da o Azərbaycanı etnik ərazilərə bölərək parçalamaq və məhv etmək istəyən güclərin niyyətlərinin qarşısını aldı. Heydər Əliyevin azərbaycançılıq məfkurəsi Azərbaycanı məhv olmaqdan xilas edərək, dünyanın siyasi səhnəsinə güclü və inkişaf etməkdə olan bir Azərbaycan çıxardı”. Onu da deyək ki, Heydər Əliyev tərəfindən Azərbaycanın xilası üçün ortaya atılan azərbaycançılıq məfkurəsinin kökləri əslində ötən əsrin 70-ci illərinin əvvəllərinə gedib çıxır.

Belə ki, 1969-cu ilin yayından Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyevin ilk işlərindən biri milli özünüdərkin, milli ruhun yeni inkişaf pilləsinə qaldırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirməsi oldu. Heydər Əliyev tərəfindən Azərbaycanın gələcəkdə müstəqilliyini əldə etməsinə xidmət edən belə möhtəşəm tədbirlərdən biri də Azərbaycan dilinin dövlət dili elan edilməsi idi.

Bu çərçivədə də SSRİ adlı bir imperiyanın qılıncının dalının da qabağının da kəsdiyi bir vaxtda Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1978-ci ildə qəbul edilən Azərbaycan SSRİ-nin Konstitusiyasında Azərbaycan dili dövlət dili elan edildi. Bununla da Heydər Əliyev tərəfindən ölkəmizi gələcəyə aparan azərbaycançılıq məfkurəsinin təməli atılmış oldu. Necə deyərlər, Heydər Əliyev 1978-ci ildə heç nədən çəkinmədən, cəsarətlə və uzaqgörənliklə Azərbaycan SSR-in yeni Konstitusiyasına Azərbaycan dilini dövlət dili kimi daxil etməklə imperiya tərəfindən həyata keçirilən ruslaşdırma və assimilyasiya siyasətinə böyük bir zərbə vurmuş oldu.

Bu, həm də Azərbaycanın müstəqilliyinin əldə edilməsi yönündə ulu öndər tərəfindən atılan uğurlu bir addım idi. Sonralar Heydər Əliyev o dövrü belə xatırlayırdı: “Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük”. Bu baxımdan da Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin əsasında məhz Azərbaycan dili dayanır. Çünki azərbaycançılıq məfkurəsini Azərbaycan dili olmadan təsəvvür etmək mümkün deyil.

## Azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarını birləşdirdi

Heydər Əliyevin şah əsərlərindən biri olan azərbaycançılıq məfkurəsi müxtəlif səbəblər üzündən dünyanın 100-dən artıq ölkəsinə səpələnən soydaşlarımzın da Azərbaycan dövləti ətrafında sıx birləşməsinə yol açdı. Bu çərçivədə də xaricdəki diasporumuzun təşkilatlanmasında, onların arasında milli həmrəyliyin gücləndirilməsində önəmli rol oynayan və Azərbaycan dövlətçiliyinin onurğa sütununu təşkil edən azərbaycançılıq məfkurəsinin gündəmə gətirilməsi dünya azərbaycanlılarını birləşdirən ən önəmli faktorlardan birinə çevrildi. Heydər Əliyev bu müstəvidə azərbaycançılıq məfkurəsinin dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılıq məfkurəsi qısa müddətdə milli təfəkkür tərzinə çevrilərək dünyanın müxtəlif ölkələrində məskunlaşmış milyonlarla soydaşlarımız üçün milli qürur, mənəvi dayaq və ümid yeri oldu. Azərbaycançılıq məfkurəsinin Azərbaycanın gələcək inkişafı və müstəqil dövlət kimi yüz illər bundan sonra yaşaya bilməsi və xaricdəki soydaşlarımızı ana vətənləri ətrafında daha sıx birləşməsində həlledici rollardan birini oynadığını Heydər Əliyevin 2001-ci il noyabr ayının 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının Qurultayındakı çıxışı da bir daha sübut edir.

Həmin tarixi qurultaydakı çıxışında Heydər Əliyev demişdi: “Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq məfkurəsi aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”. Bu çərçivədə də Heydər Əliyevin şah əsəri olan azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirərək, uğurlu bir gələcəyə, onların daha sıx həmrəyliyinə, güclü və inkişaf etmiş Azərbaycan dövlətçiliyinə aparır. Azərbaycançılıq məfkurəsi Azərbaycanın tarixinin, mədəniyyətinin dünyada təbliği deməkdir. Bu məfkurə Azərbaycanın böyük ədib və mütəfəkkirlərinin, alimlərinin, mədəni irsimizin beynəlxalq miqyasda tanıdılmasında böyük rol oynayır. Heydər Əliyevin azərbaycançılıq məfkurəsi həm də sağlam vətənpərvərlik ideologiyasıdır və onun təməlində başqa xalqlarla sülh içində yaşamaq, milli və dini dözümlülük fəlsəfəsi dayanır. Bu baxımdan mütərəqqi ümumbəşəri dəyərlərin təcəssümü olan azərbaycançılıq məfkurəsi qonşu xalqlara düşmənçilik, milli nifrət aşılayan ermənilik ideyasının tam əksidir. Nəhayət, Heydər Əliyev azərbaycançılıq məfkurəsini gündəmə gətirərkən dövlətçiliyimizin və ideoloji düşüncəmizin tarixi ənənələrindən bəhrələnmiş və onu yeni şəraitdə inkişaf etdirmişdir.

### Həmişəyaşar məfkurə

Heydər Əliyev azərbaycançılıq məfkurəsini Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən, ilk növbədə, tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq məfkurəsi Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq məfkurəsi bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir. Bu baxımdan Prezident İlham Əliyevin təşəbbüsü ilə 2011-ci ildə keçirilən Dünya Azərbaycanlılarının III Qurultayı Heydər Əliyev tərəfindən əsası qoyulan azərbaycançılıq məfkurəsinin təntənəsi idi. Bu qurultay dünyanın müxtəlif ölkələrinə səpələnmiş 50 milyon nəfərdən artıq azərbaycanlının bir araya gəlməsində önəmli rol oynayaraq, azərbaycançılıq məfkurfəsinin böyük tarixi imkanlara, birləşdirmə, səfərbər etmə gücünə malik olduğunu bir daha sübut etmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələyə diqqəti bir daha cəlb edərək, Dünya Azərbaycanlılarının III Qurultayındakı çıxışında: “Axı bura bizim vətənimizdir. Bizim bir dilimiz var- Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var- azərbaycançılıq məfkurəsi!”,-dedi. Bu isə o deməkdir ki, Azərbaycançılıq məfkurəsi gələcək nəsillər üçün hesablanmış, milli dövlətçiliyimizin əbədiyaşarlığına hesablanmış bir ideologiyadır. Beləliklə, azərbaycançılıq məfkurəsinin Azərbaycan dövlətçiliyinin aparıcı xəttinə çevrilməsi Heydər Əliyevin uzaqgörən bir dövlət başçısı, mahir siyasətçi olduğunu bir daha sübut edir. Müstəqil Azərbaycanın dövlət siyasətinin əsasında həmişəyaşar azərbaycançılıq məfkurəsinin dayanmasının müəyyən edilməsi bugünkü sürətli inkişafımızda da aparıcı rol oynamaqda davam edir

**Əziz Mustafa, “Yeni Azərbaycan”.-2013.-4 iyul.-№120.-S.7.**

## Diaspora təşkilatlarımız Azərbaycan həqiqətlərinin carçısıdır

**Bu gün dünyada baş verən proseslər diasporun önəmini daha da artırıb. Xüsusən Ermənistan kimi məkrli düşməni olan Azərbaycan üçün diasporun əhəmiyyəti olduqca böyükdür. Bu səbəbdən də Azərbaycan diasporunun inkişaf etməsi, güclənməsi xüsusilə vacibdir. Belə olduqda ölkə həqiqətlərinin, üzləşdiyimiz faciələrin, eyni zamanda mədəniyyətimizin, tariximizin və digər sahələrdəki uğurlarımızın dünya ictimaiyyətinə çatdırılmasına daha tez nail ola bilərik.**

Bir çox dövlətlər öz milli maraqlarını məhz diasporlar vasitəsilə həyata keçirirlər. Bundan əlavə, regionda nüfuz əldə etmək istəyən qüdrətli dövlətlər diaspor faktoruna böyük diqqət verirlər…

Azərbaycan diasporu ildən-ilə daha da güclənir. Bu, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların cəmiyyətə daha yaxşı inteqrasiya olunması, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında iştirakının artması, onların bu ölkələrin ictimai-siyasi proseslərinə təsir imkanlarının genişlənməsi ilə xarakterizə olunur. İndi azərbaycanlıların ideya-siyasi birliyi yalnız ölkəmizin milli maraqlarından irəli gələn məsələ deyil, həm də müasir dünyada gedən ictimai-siyasi proseslərin tələbi ilə ortaya çıxan zərurətdir.

Bu gün xarici ölkələrdə yaşayan soydaşlarımızın sürətlə təşkilatlanması prosesi müşahidə edilməkdədir. Azərbaycan Respublikası bu prosesə dəstək verir və onu daha da təkmilləşdirməyə, soydaşlarımızın diaspor quruculuğu sahəsində fəaliyyətini koordinasiya edir. Təşkilatlanmış Azərbaycan cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması diaspor quruculuğu işinin ən mühüm məsələlərindəndir. Xaricdə Azərbaycan diaspor təşkilatlarının yaranmasında Avropa ölkələrində yaşayan soydaşlarımız fəallıq nümayiş etdiriblər. Daha sonralar isə kiçik təşkilatların federasiyalar və konqreslər şəklində birləşdirilməsi zərurəti meydana çıxıb.

Azərbaycan diaspor təşkilatlarını ətrafında birləşdirən böyük qurumlardan biri də Almaniyanın Berlin şəhərində təsis olunan Avropa Azərbaycanlıları Konqresidir (AAK). Təşkilatın yaranma zərurəti Avropada pərakəndə Azərbaycan təşkilatlarını birləşdirməkdən irəli gəlir. Diasporla İş Üzrə Dövlət Komitəsinin (DİDK) təşəbbüsü ilə yaradılan AAK Avropada yaşayan azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, onların sosial-siyasi və hüquqi maraqlarını təmin etmək və digər ümummilli maraqları müdafiə etmək məqsədi daşıyır.

Sayına və fəaliyyətinə görə Azərbaycan diasporunun güclü olduğu dövlətlərdən biri Rusiyadır. Rusiyada Azərbaycan diaspor təşkilatları bu ölkənin demək olar ki, bütün bölgələrini əhatə edir. Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan mərkəzlərdən Ümumrusiya Azərbaycanlılar Konqresinin adını çəkmək olar.

Rusiya Azərbaycan Gəncləri Təşkilatının fəaliyyətinin müsbət nəticələr verməsini də vurğulamaq lazımdır. Təşkilatın sədri Leyla Əliyevanın beynəlxalq səviyyədə başlatdığı «Xocalıya Ədalət» kampaniyası effektli nəticələr verdi. Bu təşkilatın mədəniyyət və digər sahələrdə gördüyü işlər təqdirəlayiqdir.

Dünya azərbaycanlılarının ilk təşkilatlarından biri sayılan Amerika-Azərbaycan Cəmiyyəti (AAC) 1958-ci ildə Nyu-Cersi şəhərində təsis olunub. Təşkilatın əsası 1942-ci ildə Türkiyədən ABŞ-a köçən soydaşlarımız tərəfindən qoyulub. Bu ölkədə qeydiyyatdan keçən diaspor təşkilatlarımızın sayı 30-a çatır.

Qeyd edək ki, ABŞ-da uğurlu fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından biri də Adil Bağırovun sədri olduğu ABŞ Azərbaycanlıları Şəbəkəsidir (USAN). Bu təşkilatın fəaliyyəti nəticəsində Xocalı faciəsi əvvəlcə Nyu-Cersidə həm qanunverici orqan səviyyəsində, həm də icraedici orqan olan qubernator səviyyəsində tanınıb. İndiyə qədər ABŞ-ın 6 ştatı Xocalı faciəsini tanıyıb.

Azərbaycan diasporunun təşkilatı strukturunun güclü olduğu dövlətlər içərisində Ukraynanı xüsusi olaraq qeyd etmək olar. Hazırda Ukraynada çoxsaylı Azərbaycan diaspor təşkilatları və milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Onlardan ən böyüyü bir çox regional diaspor təşkilatlarını ətrafında birləşdirən Ukrayna Azərbaycanlıları Konqresidir. 1999-cu ilin 21 martında təsis edilən UAK-ın yaranmasında Ukraynadakı Azərbaycan səfirliyinin və tanınmış azərbaycanlıların rolu böyükdür. Diasporumuzun daha fəal olduğu ölkələr içərisində Türkiyənin özünəməxsus yeri var. 1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlılar Konqresi, 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Qeysəridə I Millətlərarası Böyük Azərbaycan Konqresi və 1990-cı il noyabrın 30-dən 6-dək İstanbulda Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayı bu istiqamətdə keçirilən tədbirlərdəndir.

Azərbaycan diaspor təşkilatlarının aktiv olduğu ölkələrdən Almaniya və İsveçin də adını çəkmək olar. Bu ölkədə ilk təşkilatlar 1985-ci ildən etibarən yaradılmağa başlanıb. Hazırda fəallığına görə Azərbaycan-İsveç Komitəsi xüsusi olaraq fərqlənir. Azərbaycanlıların və isveçlilərin birləşdiyi bu cəmiyyət İsveçdə fəal təşkilatlardan hesab olunur. Azərbaycan-İsveç münasibətlərini normallaşdırmaq üçün iş aparan komitə eyni zamanda lobbiçilik və təbliğat işilə məşğul olur. Bu təşkilatdan başqa biz Azərbaycan-İsveç Federasiyası, «Azər» Cəmiyyəti və digərlərinin adını qeyd edə bilərik ki, onların fəaliyyətləri tək İsveçi deyil, digər Skandinaviya ölkələrini də əhatə edir.

Onu da bildirək ki, Böyük Britaniyada fəaliyyət göstərən «Vətən» Cəmiyyəti də Avropada tanınan qurumlardandır. 2000-ci ildə Londonda təhsil alan tələbələr tərəfindən təsis olunub. Bundan başqa, Avropa Azərbaycan Cəmiyyəti mühüm işlər görür. Bu qurumun sədri Tale Heydərovun rəhbərliyi ilə Azərbaycanın milli maraqları naminə atılan addımları xüsusi qeyd etmək olar. Bu təşkilat Azərbaycanın maraqlarının Avropada müdafiəsi istiqamətində ciddi fəaliyyətilə seçilir.

**Təşkilatların sayı ilbəil artır**

Belçikada Azərbaycan Evi, Avstraliyada öz fəaliyyətilə seçilən Azərbaycanlılar Cəmiyyəti, Fransada 1990-cı ildə təsis edilən Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti diaspor təşkilatları içərisində öz fəallığı ilə tanınır.

Bir sıra ölkələrdə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətini əlaqələndirən və bununla da onların səmərəliliyini artıran müxtəlif qurumlar — federasiya, konqres, assosiasiya, koordinasiya mərkəzləri yaradılıb. Bunlardan Ümumrusiya Azərbaycan Konqresi, Gürcüstan Azərbaycanlıları Konqresi, Ukrayna Azərbaycanlıları Konqresi, Belarus Azərbaycan İcmaları Konqresi, Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi, Qazaxıstan Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının, Kanada Azərbaycan İcmaları Konqresi və digərlərini qeyd etmək olar. Ölkə daxilində fəaliyyət göstərən diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi ilə yanaşı, hazırda qitələr və ayrı-ayrı ölkələr üzrə də birliklərin yaradılması prosesi davam edir. Benilüks Azərbaycanlıları Konqresi, Avropa Azərbaycanlıları Konqresi səmərəli fəaliyyət göstərir. Bu proses hazırda davam etdirilir.

Qeyd edək ki, bu say isə ildən-ilə artmaqdadır. Buraya üzvlərinin sayı az olan xırda təşkilatları da aid etsək, dünyaya səpələnən soydaşlarımızın kifayət qədər təşkilati struktura malik olduğunu deyə bilərik.

Diasporla İş Üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, hazırda dünyanın müxtəlif ölkələrində 450-dən artıq Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Son 4 ildə Azərbaycan diaspor təşkilatlarının sayında ciddi artım tendensiyası müşahidə olunmaqdadır. Belə ki, 2009-cu ildə dünyanın müxtəlif ölkələrində 384, 2010-cu ildə 408, 2011-ci ildə 416, 2012-ci ildə isə 423 diaspor təşkilatı fəaliyyət göstərib.

**Ermənilərin kilsə strategiyası**

Bu yaxınlarda Hollandiya-Azərbaycan Türk Kültür Dərnəyinin Azərbaycan qollarının rəhbəri Elxan Həşimli ilə söhbətimizdə erməni diasporunun fəaliyyəti ilə bağlı ilginc faktlar əldə etdik. Elxan Həşimli bizimlə söhbətində bildirdi ki, Hollandiyada azərbaycanlılar qədər olmasa da, xeyli sayda ermənilər yaşayır. Amma buna baxmayaraq, erməni diasporu bizim diasporla müqayisədə daha fəaldır. Bunun da əsas səbəbi kilsədir. Onlar kilsədən dəstək alırlar, bundan çox məharətlə istifadə edirlər. Təbii ki, burada onların xristian olması faktoru mühüm rol oynayır. Ermənilər Qriqoryan məzhəbindən olmalarına baxmayaraq, onlar protestant kilsələri ilə sıx əlaqə saxlayırlar və onlardan dəstək ala bilirlər. Ermənilər protestant kilsələrinə gedirlər, orada Azərbaycana və Türkiyəyə qarşı təbliğat aparırlar».

Onun sözlərinə görə, kilsələr də bu iş üçün təsadüfi seçilməyib: «Bununla həm də dövlətə təsir etmək imkanı qazanırlar. Orada kilsənin dövlətə təsir imkanları böyükdür və ermənilər də bunu gözəl anlayırlar. Dövlətə kilsə vasitəsilə yol tapmağa üstünlük verirlər. Onların öz qəzetləri var. Kilsəyə gələn hər bir şəxs o qəzeti oxuyur. Ermənilər kilsə qəzetlərində material çap etdirməyə daha çox önəm verirlər. Kilsə xristianların inanc yeridir, ona görə də kilsə qəzetlərində çıxan materiallar müzakirə olunmur, həqiqət kimi qəbul edilir. Təəssüf ki, ermənilər bir çox hallarda öz məkrli yalanları ilə məqsədlərinə nail olurlar. Əksər hallarda Hollandiyaya gələn ermənilər Azərbaycanda milliyətinə görə sıxışdırıldığını bildirir və daha rahat sığınacaq ala bilirlər. Hollandlara izah edəndə ki, Azərbaycanın torpaqları işğal olunub və 1 milyon azərbaycanlı qaçqın düşüb, bundan təəccüblənirlər».

O, həmçinin əlavə etdi ki, ermənilər onlarla kilsə arasında vasitəçilik yaradan qruplardan, lobbi xidmətlərindən da istifadə edirlər. Burdan belə nəticə çıxır ki, uğurlarla yanaşı Azərbaycan diasporu hələ çox işləməli, fərqli və effektli taktikalara üstünlük verməlidir, həmçinin kilsələrlə işləməli və din xadimlərinin Azərbaycana səfərlərini təşkil etməlidir.

**Əli Zülfüqaroğlu, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunu keçirdiyi müsabiqəyə təqdim edilir.**
**"Xalq Cəbhəsi".-2013.-5 iyul.-N 118.-S.6.**

**Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 11 ili tamam olur**

Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 11 ili tamam olur. Komitə ulu öndər Heydər Əliyevin "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədiilə yaradılıb. 2008-ci il noyabrın 19-da isə Azərbaycan Prezidenti İlham Əliyev "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporilə İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzalayıb. Dövlət Komitəsinin yaradılmasında əsas məqsəd Azərbaycan dövlətinin qarşıya qoyduğu prioritet məsələlərdən biri – dünyadakı soydaşlarımızın sıx birliyini təmin etməkdir. Bu sahənin inkişafına dövlət qayğısının daha da artırılması məqsədilə Dövlət Komitəsi yaradıldıqdan az sonra – 2002-ci ilin dekabrında "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" qanun qəbul olunub. Diasporla İş üzrə Dövlət Komitəsi ötən 11 il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirib, Dünya Azərbaycanlılarının Xartiyasını hazırlayıb.

Dünya Azərbaycanlılarının II Qurultayı, Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin Forumu, Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı, Dünya azərbaycanlılarının III qurultayı, Dünya Azərbaycanlılarını əlaqələndirmə Şurasının toplantıları və digər dövlət əhəmiyyətli beynəlxalq əhəmiyyətli tədbirlərdə müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak edib. Azərbaycan hökumətinin dəstəyi ilə keçirilmiş bu tədbirlər ölkəmizin beynəlxalq aləmdə təbliğinə mühüm töhfələr vermiş, dünyanın bir sıra nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlığın inkişafında önəmli rol oynayıb. Bu illər ərzində keçirilmiş 2200-ə yaxın tədbirdən təqribən 1100-ü Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədinə xidmət edib.

Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması prioritetməsələ olub. Bundanbaşqa, Azərbaycan diaspor təşkilatları tərəfindən yeni kütləvi informasiya vasitələri təsis edilib, eyni zamanda ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-də Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində tədbirlər həyata keçirilib. Ötən müddətdə "20 Yanvar" faciəsi, Xocalı soyqırımı, 31 Mart-azərbaycanlıların soyqırımı günü ilə bağlı Amerika, Avropa, Asiya ölkələrində Azərbaycan icmaları tərəfindən anım mərasimləri, foto və rəsm sərgiləri, təbliğat kampaniyaları, elmi-praktik konfranslar və digər tədbirlər təşkil olunub. Müxtəlif ölkələrdə 500-dən artıq mədəni-kütləvi tədbirlər - Azərbaycanın qədim mədəniyyətini, zəngin irsini təbliğ etmək məqsədilə dünyanın müxtəlif ölkələrində azərbaycanlı rəssamların əsərlərindən ibarət sərgilər, mədəniyyət və kino günləri, müxtəlif formatlı bayram tədbirləri, konsert proqramları və s.keçirilib.

Bu tədbirlərin bir çoxu xarici ölkələrin ictimai-siyasi xadimləri, dövlət orqanları, siyasi partiyaları, nüfuzlu beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin parlament üzvləri, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulmasına xidmət edib. Məhz bu tədbirlər nəticəsində dünyanın bir sıra ölkələrinin parlament üzvləri, dövlət rəsmiləri, ictimai və siyasi xadimləri, KİV nümayəndələri ilə görüşlər keçirilmiş, onların bir çoxunun Azərbaycana səfərləri təşkil olunub. Dövlət Komitəsi xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının müdafiəsi işinə də xüsusi önəm verib. MDB məkanında, xüsusən Rusiyada, Ukraynada yaşayan soydaşlarımızın vətəndaş hüquqlarının etibarlı müdafiəsinin təmin olunması məqsədilə hüquq müdafiə mərkəzləri təsis edilib.

Dövlət KomitəsiGürcüstanda yaşayan azərbaycanlıların problemlərini həll etmək, onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə xüsusi tədbirlər həyata keçirib: Gürcüstandakı Azərbaycan məktəblərində «gürcü dili» kursları açılıb və gürcü dilinin tədrisi üçün dərsliklərlə təmin olunub. Nəticədə 2010-2011-ci tədris ilində Gürcüstan ali məktəblərinə qəbul olmuş 458 azərbaycanlı tələbənin 352-si "Gürcü dili" kurslarının dinləyiciləri olub. Dövlət Komitəsitürkdilli xalqların diasporu arasında əməkdaşlığın yaradılmasına nail olub. Bu ilin mayında Ankarada Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq strategiyasının qəbul olunması, iyunun 21-də isə Bakıda keçirilən Türrkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumu bi istiqamətdə atılan vacib addımdır. Qeyd edək ki, ötən 11 il ərzində xarici ölkələrdə ümumilikdə 215 yeni diaspor təşkilatı yaradılıb və hazırda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının sayı 450-yəyaxındır.

**05 iyul 2013**

**Şakir Sadıqova (1919-1951) Litva ordusunun könüllü qurucusu medalının təqdim olunma (ölümündən sonra) mərasimi olmuşdur**

**İyulun 8-i 2013-cü il tarixində** Vilnüsdə Litva Müdafiə Nazirliyinin Ağ zalında 1945-1951-ci illərdə Litva xalqının azadlığı və Dövlət müstəqilliyi uğrunda Litva "meşə qardaşları" sıralarında silahlı mübarizə aparmış azərbaycanlı partizan Şakir Sadıqova (1919-1951) Litva ordusunun könüllü qurucusu medalının təqdim olunma (ölümündən sonra) mərasimi olmuşdur.

Təltifat mərasimində Cəmiyyətin sədri Mahir Həmzəyev çıxış edərək Şakir Sadıqovun mübarizə yolunun tarixi, siyasi və mənəvi əhəmiyyəti barədə danışmış, Litva dövləti və hökuməti tərəfindən həmvətənimizin döyüş fəaliyyəti yüksək qiymətləndirildiyi üçün ölkədə yaşayan azərbaycanlılar adından öz təşəkkürünü bildirmişdir.

**08 iyul 2013**

**“Odlar Yurdu” Boks İdman Klubu təsis edilib**

Dünya Azərbaycanlı Gənclər Birliyinin Almaniyadakı nümayəndəliyinin dəstəyilə Almaniyanın Maqdeburq şəhərində “Odlar Yurdu” Boks İdman Klubu təsis edilib. Yeni qurulan İdman Klubunun rəhbəri hazırda İBO-İnternational, İBO-İnterkontinental və İBF-Avropa versiyaları üzrə dünya çempionu Azad Əzizov seçilib.

Yeni təsis edilən idman klubunun rəhbəri Azad Əzizov bildirib ki, Boks idman növü 2015-ci ildə Bakıda təşkil olunacaq birinci Avropa Oyunlarının proqramına daxil edilib. “Bu qərar Beynəlxalq Boks Federasiyasının (AİBA) İcraiyyə Komitəsinin Qazaxıstanda keçirilmiş iclasında qərara alınıb və artıq bu barədə Avropa Olimpiya Komitəsinə (AOK) müraciət qəbul olunub. Bunu nəzərə alaraq belə bir qərara gəldik ki, Boks İdman Klubu təsis edilsin və Almaniyadakı gənclərin burada məşq etmələri üçün hər cür şərait yaradılsın və naliyyətlərimiz ildən ilə artsın”.

Dünya Azərbaycanlı Gənclər Birliyinin Almaniyadakı nümayəndəliyinin rəhbəri Elnur Rixter də yeni təsis edilmiş təşkilatın Almaniyada yaşayan azərbaycanlı gənclər arasında idmana böyük həvəs və maraq yaradacağını deyib: “İdmanın gənclər üçün maraqlı olan növləri çoxdur və bunlardan biri də boks idman növüdür ki, Almaniyadakı gənclərimizin böyük bir hissəsi məmnuniyyətlə bu idman növü ilə məşğul olardılar. Buna görə yeni qurulan “Odlar Yurdu” Boks İdman Klubuna və onun rəhbəri tanınmış peşəkar boksçu Azad Əzizova uğurlar arzu edirəm”.

**12 iyul 2013**

**UNESCO-nun sabiq baş direktoru Federiko Mayor Saraqosa və Madrid Klubu Katibliyinin Azərbaycana səfəri başlayıb**

UNESCO-nun sabiq baş direktoru Federiko Mayor Saraqosa və Madrid Klubu Katibliyinin Azərbaycana səfəri başlayıb. İsgəndəriyyə Kitabxanasının direktoru İsmayıl Seragəldinin və Roma Klubunun koordinatorunun da bu günlər Bakıya gəlişi gözlənilir. Məqsəd Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birgə 2013-2014-cü il üzrə fəaliyyət proqramının müəyyənləşdirilməsidir. Qonaqlar bu məsələləri müzakirə etmək üçün Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovla görüşəcək. Səfər çərçivəsində həmçinin Dövlət Komitəsi ilə İsgəndəriyyə Kitabxanası arasında əməkdaşlıq memorandumunun imzalanması və Kitabxanada Nizami Gəncəvinin büstünün açılması məsələləri də müzakirə olunacaq.

İsgəndəriyyə Kitabxanasının direktoru İsmayıl Seragəldinin Bakıya səfəri müddətində onun Nizami Gəncəvi haqqında “Böyük dahinin poeziyası” (“The Poetry of the Magnificent Sage“) adlı kitabının təqdimatı da nəzərdə tutulub

**15 iyul 2013**

**Çelyabinskidə Azərbaycan diasporu**

***Rafael Quliyev: "Ozan dilimizin və ənənələrimizin qorunub saxlanmasına kömək göstərir"***

Bu gün Azərbaycan diasporunun ən geniş yayıldığı ölkələrdən biri Rusiya Federasiyasıdır. Hazırda Rusiya Federasiyasının paytaxtı Moskva və digər iri şəhərlərdə deyil, eləcə də bu ölkənin ən ucqar belə subyektlərində Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir. Paytaxt Moskvadan tutmuş uzaq Sibirə qədər şimal qonşumuzun hər bir vilayətində diaspor təşkilatımıza rast gəlmək mümkündür. Rusiya Federasiyasında fəaliyyət göstərən diaspor təşkilatlarımızdan biri də Çelyabinskidə fəaliyyət göstərən "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzidir. Çelyabinskdə mövcud olan çoxsaylı diaspor təşkilatları kimi "Ozan" Mədəniyyət Mərkəzi də öz aktiv fəaliyyəti ilə seçilir. 1999-cu ildə yaradılan "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzi 2000-ci ildə rəsmi qeydiyyatdan keçib. Cəmiyyətə sədrlik edən dəyərli soydaşımız Rafael Quliyev eyni zamanda Ümumrusiya Azərbaycan Konqresi Çelyabinsk regional təşkilatının rəhbəridir. Rafael Quliyev rəhbərlik etdiyi "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzinin ölkəmizin həqiqətlərinin, eləcə də zəngin tarixi-mədəni irsimizin yaşadığı vilayətdə yaşayan insanlara çatdırılması istiqamətində gördüyü işlərdən danışıb. Bildirib ki, "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzinin əsas məqsədi xalqımızın zəngin mədəniyyəti, adət-ənənələrini qoruyub yaşatmaq və təbliğ etmək, soydaşlarımızın müdafiə hüquqlarının təminatına yardımçı olmaqdır: "Eyni zamanda fəaliyyətimiz Rusiyada yaşayan azərbaycanlı ailələrdə böyüməkdə olan yeni nəslin ana dilimizi, tariximizi, mədəniyyətimizi mənimsəmələri və Rusiya demokratik dəyərlərinə uyğunlaşmalarına kömək göstərməkdən ibarətdir. "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzi şəhərin və vilayətin mədəni həyatında yaxından iştirak edir. "Ozan" Azərbaycan diasporunu birləşdirir və möhkəmləndirir, onun vətəndaş hüquqlarının, milli mədəni və sosial mənafelərinin gerçəkləşdirilməsinə, dilimizin və ənənələrimizin qorunub saxlanmasına kömək göstərir. Azərbaycanın dahi oğlu Heydər Əliyevin davamçıları kimi, biz Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin möhkəmlənməsi üçün daim çalışırıq".

Mərkəz sədri qeyd edib ki, "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzi Çelyabinsk Vilayəti Xalqları Assambleyası ilə birlikdə məktəblərdə beynəlmiləlçilik tərbiyəsi sahəsində iş aparılmasına da yardım edir: "Mədəniyyət Mərkəzinin fəaliyyətinin öncül istiqamətlərindən biri də xeyriyyəçilikdir. Uşaq müəssisələrinə, xeyriyyə fondlarına, Böyük Vətən müharibəsi veteranlarına müntəzəm maddi yardım göstərilir. Eyni zamanda bələdiyyə müəssisələrinə, ictimai qurumlara sponsor yardımı, azərbaycanlı idmançıların iştirakı ilə yarışların təşkili, şəhər rəhbərliyi ilə birlikdə məktəblilər arasında rüblük "Kim? Harada? Necə?" bilik yarışmasının keçirilməsi və s. işlər bu qəbildəndir. Onu da qeyd etmək istərdim ki, cəmiyyətin internet saytı (www.ozan.ru) və eyni adlı qəzeti var. "Ozan" qəzetində diasporun həyatında baş verən ən mühüm hadisələr işıqlandırılır. Qəzetimiz Çelyabinskdə kütləvi informasiya vasitələrinin VIII festivalında "Ən yaxşı korporativ qəzet" nominasiyasında 1-ci yerin qalibi olub. Fəaliyyətə başladıqdan sonra hiss etdik ki, yeni vasitədən istifadə etməliyik. Bu məqsədlə də "Ozan" qəzetini təsis etdik. İndi də hiss edirik ki, qəzetdən də artıq bir iş görməliyik. Başladıq kitablar, jurnallar çap etdirməyə". Rəfael Quliyev soydaşlarımızın cəmiyyətə fəal inteqrasiya etdiklərini söyləyib: "Bu gün Rusiyada elə bir ali məclis yoxdur ki, bizim səsimiz eşidilməsin. Biz, çalışırıq ki, azərbaycanlı biznesmenlər Çelyabinskə, onların biznesmenləri isə Azərbaycana sərməyə qoysunlar. Bu gün azərbaycanlı müəllim - professorlarımız, həkimlərimiz, biznesmenlərimiz Çelyabinskdə ilk onluğa düşürlər". Mərkəz rəhbəri Çelyabinskidə yaşayan soydaşlarımızın sayı, onların başlıca məşğuliyyəti, xüsusilə gənclərin nə dərəcədə fəal olmaları barədə danışıb: " Əvvəla onu qeyd edim ki, Çelyabinsk vilayətində 130-dan çox xalqın nümayəndəsi var. Hazırda orada 10 mindən artıq azərbaycanlı yaşayır. Onların ümumi məqsədi xalqlar arasında sülhün və əmin-amanlığın möhkəmləndirilməsidir. Ümumiyyətlə, ölkəmizlə bağlı nə qədər çox informasiya əldə etsək, bu bizim üçün çox önəmlidir.

Biz orada fəaliyyət göstərən Xalqlar Assambleyasının üzvü olan digər diaspor təşkilatları - rus, alman, gürcü, qazax, tacik, özbəklərlə sıx əməkdaşlıq edirik, bir-birimizə dəstək oluruq,köməklik edirik. Bizim işlər nümunəvi olduğu üçün onlar bizə müraciət edir və keçirdiyimiz tədbirlərə onları da dəvət edirik. O ki qaldı, gənclərimizin nə dərəcədə aktiv olmasına, birmənalı olaraq qeyd edərdim ki, tarixi hadisələrin baş verdiyi zaman kəsiyində gənclər həmişə vacib və ciddi rollarını oynayıblar: "Ona görə də hər bir gənc hansı yerdə və proseslərə cəlb ediləcəklərsə, qarşıya qoyulan nəticənin həlli də o strategiyadan aslıdır.

Bu baxımdan "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzinin də ətrafında güclü gənclər toplaşıb və onlar çox fəaldırlar. Çelyabinskidə bizim gənclər Azərbaycan haqqıda obyektiv fikir formalaşdırırlar. "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzinin gənclər üzrə sədr muavini İlkin Musayev ÜmumRusiya Azərbaycanlıları Konqresinin "Molodoy Гvordiya Edinoy Rossii" Çelyabinsk regional bölməsinin "Beynalxalq əlaqələr" layihəsinin rəhbəri kimi əməkdaşlıq əlaqələrini möhkəmləndirərək gənclər təşkilatları ilə milli mədəniyyət mərkəzlərinin gənclərini bir araya toplayaraq, dəyrimi masa arxasında maraqlı mövzular araşdırırlar.

Bunlarla yanaşı Azərbaycanın haqq səsinin yayan layihələrdən "Xocalıya ədalət" kampaniyası çərçivəsində Cənubi Ural Dovlət Universitetində keçirilən tədbir çox yadda qalan olub". Rafael Quliyev deyib ki, Azərbaycanın qədim tarixini və mədəniyyətini təbliğ edən gənclərimiz şəhər və vilayət rəhbərlərinin keçirdiyi tədbirlərdə "Uralın Dostluq Rəngarəngliyi" və "Ictimai-siyasi birliklər" fəal iştirak edirlər: "Onlar hər il Çelyabinsk şəhər administrasiyasi ilə birlikdə Böyük Vətən Müharibəsi veteranları və uşaqların müdafiə günündə keçirilən tədbirlərdə iştirak edirlər. Onu da qeyd edim ki, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının rəhbəri Leyla xanım Əliyeva gənclərimizi daha da fərəhləndirir.

Çelyabinsk gənclərini dəstəkləyir, bütün regionlardakı Gənclər təşkilatlarının qeydiyyatdan keçməsinə çalışır və istəyir ki, onlar güclü bir forum kimi fəaliyyət göstərsin". Mərkəz rəhbəri onu da bildirib ki, ümummilli lider Heydər Əliyevin anadan olmasinin 90 illiyinə həsr olunmuş "Rusiya-Azərbaycan: dostluq qanadlarında" Çelyabinsk vilayətinin uşaq və gənclər festival-müsabiqəsində nəinki azərbaycanlılar, həm də coxmillətli Çelyabinsk gəncləri böyük maraqla iştirak ediblər: "Ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikasının tarixini, mədəniyyətini, iqtisadiyyatını, mətbəxini öyrənərək zəngin bilik topladılar. Gənclərimizin idman sahəsindəki naliyətləri də ürəkaçandır.

Xəyal Canıyev tayboks üzrə dünya çempionu, İsmayıl Rzayev kiqboks üzrə dünya ikincisidir. İdman və bayram tədbirlərində daimi iştirak edən gənclərimiz, mədəniyyətimizi təbliğ etməklə yanaşı xalqlar arasında dostluğun möhkəmlənməsinə nail olurlar. Tədbirlərdə fəal iştirak etməklə, məntiqli çıxışları ilə reallığı təmsil edən gənclər kadr ehtiyatını təmin edirlər. "Gənclər bizim gələcəyimizdir" fikrini ümummilli liderimiz Heydər Əliyev 1996-cı ildə Azərbaycan gənclərinin I forumunda demişdir.

Bir sözlə gənclər adətən yeniliklərin və onların qeyri-adi həllərini tapmaqla diasporun fəaliyyətini dəstəkləyir və yeni stimul verirlər". "Ozan" Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Çelyabinskidə fəaliyyət göstərən erməni diaspor təşkilatlarının Azərbaycan diasporuna təsir edib-edə bilməməsinə də aydınlıq gətirib. Bildirib ki, ermənilər hər zaman azərbaycanlıların arxasınca gəlirlər: "Ancaq çata bilmirlər. Onlar bizimlə rəqabət apara bilmirlər. Ermənilər bizə yalnız paxıllıq edirlər. Sayca 14 minə yaxın olsalar da, onlar siyasi baxımdan bizdən aşağı yerdədirlər. Biz Azərbaycanla bağlı bütün tarixi günlərimizi qeyd edirik.

Məsələn, Çelyabinskdə Xocalı soyqırımının, Azərbaycan həqiqətlərinin təbliğ olunması üçün xeyli işlər görmüşük. Qəzetimiz və internet saytımız vasitəsi ilə də təbliğat aparırıq. Bundan əlavə televiziyalarda materiallar yayırıq. Düzdür, müəyyən tapşırıqlar olur və problemlər yaradırlar. Ancaq biz müxtəlif vasitələrlə televiziyalara yol tapırıq və materiallarımızı yayırıq". Rafael Quliyev rəhbərlik etdiyi mərkəzin cəmiyyətindəki yeri və rolundan da söhbət açıb. Bildirib ki, mərkəz davamlı olaraq işlərini daha da gücləndirir: "İndiyədək bir sıra istiqamətlərdə layihələr həyata keçirmişik. Bunların bir qismi soydaşlarımızın problemləri, onların hüquqlarının qorunması ilə bağlı layihələrdir. Eləcə də dövlət orqanları ilə işbirliyimiz var. Belə ki, Çelyabinsk vilayətində qubernator yanında Milli Şuralar üzrə qurumda bizim təşkilat da təmsil olunur. Qanunvericilik orqanlarının nəzdində milli məsələlər üzrə qurumda, eləcə də Miqrasiya Xidmətinin tərkibində xüsusi şöbə var ki, orada da biz xalqımızı təmsil edirik. Bundan başqa orada yaşayan xalqların nümayəndələrinin təmsil olunduğu Xalqlar Assambleyası var ki, cəmiyyətimiz yarandığı vaxtdan bu assambleyanın fəal üzvüdür.

Ümumiyyətlə, hansı bir qurumun tərkibində fəaliyyət göstərməyimizə baxmayaraq xalqımızı layiqincə təmsil etməyə çalışırıq. Xalqımızın tarixini, mədəniyyətini yaşadığımız ölkənin cəmiyyətinə çatdırırıq ki, bu da böyük rəğbətlə qarşılanır. Ümumiyyətlə, "Ozan" təşkilatı öz fəaliyyəti ilə fərqlənir. Məhz bunun nəticəsidir ki, Moskvada nəşr edilən "Rusiyanın ən yaxşı insanları" adlı kitaba Rusiyanın tanınmış dövlət xadimləri ilə yanaşı bizim təşkilatın nümayəndəsi kimi mən də daxil edilmişəm. Görülən işlər, mənəvi dəyərlərin təbliği istiqamətində həyata keçirdiyimiz tədbirlər bu müddət ərzində təşkilatımızın nümunəvi bir cəmiyyət kimi tanınmasına imkan yaradıb".

**"Olaylar".-2013.-17 iyul.-№127.-S.15.**

**Nazim İbrahimov Bakıda səfərdə olan ABŞ-ın Kaliforniyanın ştatında tanınmış ictimai xadim, yəhudi mənşəli Şeron Nəzəriani ilə görüşüb**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Bakıda səfərdə olan ABŞ-ın Kaliforniyanın ştatında tanınmış ictimai xadim, yəhudi mənşəli Şeron Nəzəriani ilə görüşüb. Dövlət Komitəsinin sədri Y&S Nəzəriani ailə Fondunun (Y&S Nazarians Foundation) rəhbəri, ABŞ-ın tanınmış RAND Corporation beyin mərkəzinin məşvərət şurasının üzvü, Kaliforniya Unuversitetinin professoru Ş.Nəzəriani salamlayaraq ona rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında məlumat verib. Azərbaycan və yəhudi diaspor təşkilatları arasında mövcud əməkdaşlığa toxunan Nazim İbrahimov onun daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Şeron Nəzəryan isə öz növbəsində rəhbərlik etdiyi Y&S Nəzəriani ailə Fondu və Diasporla İş üzrə Dövlət Komitəsi arasında əməkdaşlığa başlanmasının təklif edib.

O bu, əməkdaşlığın gələcəkdə Azərbaycan-yəhudi diaspor təşkilatları arasında əlaqələrin daha güclənməsinə öz töhfəsini verəcəyini deyib. Qonaq iki qurum arasında əməkdaşlığın başlanğıcı olaraq Nazim İbrahimovu ABŞ-ın tanınmış Kaliforniya Universitetində diaspora siyasəti mövzusunda məruzə ilə çıxış etməyi təklif edib. Nazim İbrahimov Şeron Nəzərianinin təklifini müsbət qarşılayaraq, rəhbərlik etdiyi qurumun belə bir əməkdaşlığa hər zaman hazır olduğunu bildirib. Dövlət Komitəsinin sədri erməni lobbisinin güclü olduğu Kaliforniyada Fond ilə əlaqələrin qurulmasının müsbət nəticələr verəcəyinə ümidvar olduğunu vurğulayıb. Onun fikrincə, bu əməkdaşlıq bölgədə Azərbaycan icmalarının fəallığının artmasında, eləcə də erməni lobbisi tərəfindən aparılan təbliğat işlərinin qarşısının alınmasında mühüm rol oynayacaq.

Qeyd edək ki, Şeron Nəzərianinin ailəsi İran inqilabı zamanı ABŞ-a mühacirət edib və onlar ABŞ-ın İran yəhudiləri icmasının aparıcı simalarındandır. Ailənin nümayəndələri Yunis və Pərviz Nəzəriani qardaşları Azərbaycanın yaxın dostları sayılır. Ş.Nəzəriani rəhbərlik etdiyi və atası ilə anasının adını daşıyan (Yunis və Sürəyya) fond isə 2000-ci ildə yaradılıb. Fond əsasən humanitar sahələrdə, o cümlədən təhsil, mədəniyyət və incəsənət, eləcə də ictimai siyasət, enerji sahələrində olan tədqiqatların maliyyələşdirilməsini həyata keçirir. Ş.Nəzəriani Bakıya səfəri çərçivəsində bir sıra dövlət qurumlarında görüşlər keçirib, həmçinin yəhudi icmasının nümayəndələri ilə görüşüb və Qubadakı Qırmızı Qəsəbəyə baş çəkib.

**18 iyul 2013**

## Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov "Yeni Müsavat"a geniş müsahibə verib

**"Abbas Abbasov Söyün Sadıqovla olan münasibətlərinə aydınlıq gətirməlidir""Rüstəm İbrahimbəyov siyasətə bir kino ssenarisi kimi baxır"**

*Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov "Yeni Müsavat"a geniş müsahibə verib. Müsahibəni diqqətinizə təqdim edirik.*

***- Nazim bəy, Söyün Sadıqov Azərbaycan jurnalistlərinə hakimiyyətə sərt mesajların da yer aldığı bayram müraciətində özünü Putinin səlahiyyətli nümayəndəsi kimi təqdim edib. Bu, o anlamı verirmi ki, Sadıqov davamlı mesajları ilə əslində Rusiya prezidentinin sözünü çatdırır, yaxud Putin Azərbaycan hakimiyyətinə ünvanlı mövqeyini onun dili ilə ifadə edir?***

- Bu, Söyün Sadıqovun şəxsi düşüncələridir. Azərbaycan ictimaiyyətində özünə ad, hörmət qazanmaq üçün boş vədlər verməklə məşğuldur. Azərbaycan mətbuat işçilərinə, mətbuatına cənab prezident tərəfindən göstərilən qayğı tam mənada yetərlidir. Bunu cənab prezidentin jurnalistlərə verilən evlərin açılışında iştirak və çıxış etməsi bir daha sübut etdi. Ümumiyyətlə, Azərbaycanda mətbuata il ərzində olan dövlət qayğısı göstərir ki, Azərbaycan mətbuatının heç də kənardakı avantüristlərə ehtiyacı yoxdur və ölkə jurnalistləri heç bir zaman belə avantüristlərdən nə isə qəbul etmək istəməzlər də. Azərbaycan mətbuatında çox vətənpərvər, öz vətənini və dövlətini sevən insanlar çalışır. Söyün Sadıqov isə bu ölkədən çıxmayıb, Azərbaycanı heç dərindən tanımır, bu ölkədə olmayan birisidir. Onun kimlərə, nə şəkildə xidmət etməsi də məlum deyil. Ona görə də gəlib Azərbaycan jurnalistlərinə nəsə vəd etməsi Azərbaycan jurnalistikasına təhqirdən başqa bir şey deyil.

**- Söyün Sadıqovun Putinin səlahiyyətli nümayəndəsi statusundan çıxış etməsi müxtəlif şayiələrə stimul verib. Azərbaycanın rəsmi dairələri, yaxud Ümumrusiya Azərbaycanlıları Konqresi Rusiya hakimiyyətinə Söyün Sadıqovun Putinin adından istifadə etməsi ilə bağlı şikayət, ya müraciət edə bilərmi?**

- Dövlətlərarası məsələlərdə şayiələr əsas götürülə bilməz. Azərbaycan-Rusiya münasibətləri strateji səviyyədədir, biz iki dost ölkəyik. Bizim siyasi səviyyədə və ümumiyyətlə, dövlətlərarası heç bir problemimiz yoxdur. Azərbaycanın həyatının müxtəlif istiqamətlərində Rusiya şirkətləri və təşkilatları çox fəal iştirak edirlər. Azərbaycan-Rusiya münasibətlərində o qədər genişşaxəli bir inkişaf mövcuddur ki, Söyün Sadıqov, yaxud başqa biriləri "Rusiya hakimiyyəti tərəfindən danışdırılır" fikri bir az yanlış kimi də görünə bilər. Çünki inanmıram ki, Rusiya kimi böyük bir dövlətin buna ehtiyacı olsun, yaxud Azərbaycana demək istədikləri mesajı Söyün Sadıqovun dili ilə desinlər. Bu, Söyün Sadıqovun şəxsi ambisiyalarından irəli gələ bilər. Hesab edirəm ki, bu, onun şəxsi təxəyyülünün məhsuludur. Nə dərəcədə ona nail olur, bunu Azərbaycan mətbuatı, ictimaiyyəti görür. Siyasətdən çox-çox uzaq, hətta siyasətdə naşı olan bir adamın birdən-birə çıxıb böyük siyasət haqqında danışması, siyasi fikirlər irəli sürməsi çox yanlış addımdır. Hesab edirəm ki, onun fikirlərini Azərbaycan mətbuatında geniş işıqlandırmağa, onu böyüdüb ölkə mediasının qəhrəmanı etməyə də ehtiyac yoxdur. Hər halda, əgər Söyün Sadıqovun söylədikləri Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin marağında olsaydı, bu dövlətin möhkəmlənməsi istiqamətində fikirlər söyləsəydi, bu, başqa məsələydi. Amma Söyün Sadıqovun söylədiyi bütün fikirlər Azərbaycan dövlətinin zəifləməsinə, müxtəlif dairələrdən asılı vəziyyətə düşməsinə xidmət edir. Ona görə də Azərbaycan ictimaiyyəti həmişə ayıq olub belə avantürist fikirləri heç zaman yaxın buraxmamalıdır.

**- Abbas Abbasov bu yaxınlarda verdiyi açıqlamasında prezident İlham Əliyevə olan sevgisindən danışdı, hakimiyyətlə problemlərinin olmadığını bildirdi. Onun bu mövqeyini yetərli sayıb Abbas Abbasovla hakimiyyət arasında olan problemin bitdiyini demək olarmı?**

- Həqiqətən də uzun müddətdir Abbas Abbasov Azərbaycan dövlətinə, dövlətçiliyinə yaxın olduğunu göstərir, ümummilli lideri özünə ata kimi, cənab prezidenti özünə qardaş kimi qəbul edir, onun siyasətinə sədaqətli olduğunu deyir. Azərbaycan hakimiyyətinin nümayəndəsi, diaspor siyasətini həyata keçirən qurumun rəhbəri olaraq bir şey söyləyə bilərəm ki, əgər söylənilən fikirlər realdırsa, həqiqətə uyğundursa, bunu yalnız alqışlamaq lazımdır. Abbas Abbasov Azərbaycan prezidentinin siyasi kursunu müdafiə etməkdə davam etməlidir. Paralel olaraq gördüyü işlərdə də, öz fəaliyyətində də bu sevgisini, sədaqətini göstərməlidir. Amma bir təşkilatın bayrağı altında bir nəfər Azərbaycan dövlətinə, iqtidarına düşmənçilik edir, başqa bir nəfər Azərbaycan iqtidarına, dövlətinə sevgisini bildirirsə, bu bir az anlaşılmazlıq yaradır. Bir təşkilatın ideologiyası varsa, o ideologiya bütöv olmalıdır, bir olmalıdır. Yəni bu gün eyni təşkilatın içərisindən iki insanın müxtəlif istiqamətlərdə bəyanatlar verməsi ictimaiyyət tərəfindən birmənalı qarşılanmır. Bəzən ziddiyyətlər də elə burdan yaranır. Bizim zaman-zaman söylədiyimiz fikirlər də bundan qaynaqlanır ki, bir təşkilatın bayrağı altında bir-birinə tam zidd ideologiyalı insanların toplaşması suallar yaradır. Abbas Abbasov da öz söylədiyi fikirlərə uyğun olaraq fəaliyyətini Azərbaycanın dövlətçilik maraqlarına uyğun, Azərbaycan prezidentinin siyasətini dəstəkləyərək davam etdirməlidir. Həmçinin Söyün Sadıqovla olan münasibətlərinə bir aydınlıq gətirməlidir. Çünki bu iki bir-birindən köklü surətdə fərqli fikirlərə məxsus insanlardan birinin dağıdıcılıq mövqeyi, o birisinin isə bəyan etdiyi kimi, quruculuq mövqeyində durması ən azı təəccüb doğurur. ona uğurlar arzulamaq və yardımçı olmaq qalır.

Əgər bu münasibətlərdə, təşkilatın ideologiyasında tam mənada bir aydınlıq olarsa, "prezidentə sədaqətliyəm" deyən bir insanı biz də müdafiə edərik. Yəni həmin adamın əməli ilə işi uyğun gəlirsə, bizə ancaq

**- "Milyarderlər ittifaqı" ilə bağlı ideya ortaya çıxan ərəfədə Abbas Abbasovla görüşərək bu barədə ciddi söhbət etdiyinizi demişdiniz. Bu arada necə, şəxsən, yaxud Moskvadakı diaspor təşkilatının rəhbər şəxsləri səviyyəsində görüş, təmas olubmu?**

- Yox, mən Abbas Abbasovla hələ o zaman, bu proseslər başlamamışdan öncə görüşmüşəm. Biz müəyyən fikir mübadiləsi aparmışdıq. Elə Azərbaycan mətbuatında verdiyimiz bəyanatları yada salsanız, görərsiniz ki, hər zaman eyni fikir söyləyirik ki, hər bir diaspor nümayəndəsinin, ümumiyyətlə, siyasətlə, ictimai işlə məşğul olan hər bir insanın fikirlərində bir ardıcıllıq, səlistlik olmalıdır, söylədiyi fikirlərlə əməlləri uyğun gəlməlidir. Biz həmişə bunu arzulamışıq və konkret insanlara da dövlətin mövqeyini, yaxud şəxsi fikrimizi çatdırarkən yenə də bunu vurğulamışıq ki, fikirlərinizin ardıcıllığını təmin edin, sözlərinizlə fəaliyyətiniz uyğun gəlməlidir. Bu zaman özünüzə inam yaradırsınız və Azərbaycan dövləti həqiqətən də sizin saf məramlı olduğunuzu görər, sizin arxanızda durar, gördüyünüz işlərdə yardımçı da olar.

**- Bəlkə onları Azərbaycan hakimiyyətinə qarşı sərt mövqe sərgiləməyə Azərbaycan hakimiyyəti ilə münasibətində çat yaranmış Rusiya hakimiyyətindəki müəyyən dairələr təhrik edir...**

- Hər bir kəs gördüyü işdə, öz istiqamətini seçməkdə azaddır. İnsanlar öz dövlətini, vətəndaşlığını, hətta dinini dəyişməkdə də sərbəstdir. Biz də onu deyirik ki, əgər kimsə təhdid, təzyiqlər vasitəsilə, yaxud başqasının təsiri ilə mövqeyini dəyişirsə, bunu cəmiyyət bilməlidir. O adam bəyanat verməlidir ki, mən artıq bu gündən fikrimi dəyişdim. Mən bu fikirləri Abbas Abbasov haqqında demirəm. Məsələnin fəlsəfi tərəfindən söhbət gedir. Abbas Abbasov indiyə qədərki bəyanatlarında Azərbaycan prezidentinin siyasətini dəstəklədiyini, Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqının milli maraqları uğrunda mübarizə apardığını, diasporu birləşdirmək istiqamətində getdiyini söyləyirsə, əgər görəcəyi işlər dediklərinə uyğun olacaqsa, o halda bizim Abbas Abbasovla heç bir problemimiz yoxdur və onun diaspor fəaliyyətinə də uğurlar arzulayırıq.

**- Deməli, Rusiyada ona təzyiqlər olarsa, qayıdıb Azərbaycana da gələ bilər?**

-Heç bir problem yoxdur.

**- Vahid Ələkbərov da bundan öncə Azərbaycan prezidentinə dəstəyini ifadə etmişdi. Mümkündürmü ki, milyarderlərlə bağlı məsələ ilə bu qaydada həllini tapsın və bir il öncə başlayan prosesin yekununda bu qrup Azərbaycan iqtidarına dəstək versin?**

- Azərbaycan dövlətinin artıq formalaşmış diaspor siyasəti var. Azərbaycan dövlətinin xaricdə yaşayan diaspor təşkilatlarına peşəkar şəkildə baxışı formalaşıb. Bu baxış tam və bütöv bir ideoloji əsasa söykənir. Hər hansı ölkədə müəyyən addımlar atılarkən Azərbaycan dövlətinin diaspor siyasətinə uyğun gəlmirsə, yaxud ona xələl gətirə bilərsə, bu fikirləri çox açıq şəkildə söyləyirik. O zaman da Rusiyada bu yeni ittifaq yaranarkən biz bu qurumun Rusiyada mövcud olan Azərbaycan diaspor təşkilatlarının birliyinə mənfi təsir edə biləcəyini, bunun gələcəkdə diaspor hərəkatını zəiflədəcəyini söyləmişdik. Bu, artıq bizim ideoloji baxımdan formalaşmış fikirlərimiz, Azərbaycan dövlətinin mövqeyi idi. Sonrakı gedişat da göstərdi ki, həqiqətən də bu addım yanlış idi və mövcud Azərbaycan diaspor təşkilatlarının daha da zəifləməsinə, parçalanmasına gətirib çıxara bilərdi. Hətta o zaman bu təşkilatın yaradılması ilə bağlı bəyan olunan ideya da öz yerini tapmadı. Proseslərin gedişi bir daha göstərdi ki, biz tərəfdən olan etirazlar, fikirlər doğru idi, biz çox düzgün mövqe tutmuşduq. Bu hərəkata qoşulan bir çox insanlar da sonradan öz çıxışlarında qeyd etdilər ki, bəlkə də bu, tələsik atılmış addım idi. Biz o zaman da ad çəkmədən demişdik ki, Azərbaycan diasporunun işində iştirak etmək istəyən hər bir şəxs Rusiyada mövcud təşkilatların birinə rəhbərlik edə bilər, biz də ona yardımçı olarıq. Yetər ki, o şəxslər həmin təşkilatların inkişafına xidmət etsin. Hələ bu, çox-çox qabaq, bu söhbətlər çıxmamışdan əvvəl idi. Bir müddət sonra sübut olundu ki, bizim düşüncələrimiz düzgündür. Demək istədiyim odur ki, diaspor quruculuğu sahəsində Abbas Abbasovun da, digərlərinin də fəaliyyətinə heç bir məhdudiyyət, maneçilik yoxdur. Yeganə arzumuz budur ki, hər kəsin bəyan etdiyi fikirlərlə fəaliyyəti bir-birini tamamlasın.

**- "Milyarderlər ittifaqı"ndan ayrılan Rüstəm İbrahimbəyov Milli Şuranın vahid namizədi kimi Avropada görüşlər keçirir. Onun şansını necə qiymətləndirirsiniz?**

- Mən Rüstəm İbrahimbəyov haqqında bir dəfə sizin qəzetə fikrimi söyləmişəm. Rüstəm İbrahimbəyov siyasətə bir kino ssenarisi kimi baxır. Kino ssenarilərində müxtəlif siyasi proseslər, müxtəlif liderlərin fəaliyyət yolu yazıla bilər. Ssenarist burda azaddır, ssenarini istədiyi kimi yaxşı sonluqla da, pis sonluqla da bitirə bilər. Amma real siyasət tamam fərqli bir şeydir. Siyasətdə bütün mövcud reallıqları nəzərə almaq lazımdır. İnsanın siyasi təcrübəsi olmalıdır. Rüstəm İbrahimbəyov isə siyasətdə çox naşı bir adamdır. Siyasi proseslərdə demək olar ki, heç vaxt iştirak etməmiş bir adamdır. Onun söylədiyi fikirlər də, gördüyü işlər də yazıçı təxəyyülünün məhsulu olan ssenariyə daha çox bənzəyir. Mən onun iddialarına tamamilə boş bir xəyal kimi baxıram. Rüstəm İbrahimbəyov yazıçı kimi siyasətdən bəhs edən bir ssenari yazsa, daha çox uğur qazana bilər, nəinki real siyasətdə.

**24 iyul 2013**

**Azərbaycan mədəni irsinin fəal təbliğatçıları-diaspor təşkilatları**

Azərbaycanın mədəni irsinin, klassik ədəbiyyatımızın, folklorumuzun, musiqimizin təbliği ilə bağlı dünyanın müxtəlif ölkələrində zaman-zaman kütləvi tədbirlər təşkil olunur. Belə tədbirlərin təşkili və keçirilməsində həmin ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları xüsusi fəallıq göstərirlər. Azərbaycan mədəniyyəti, klassik ədəbiyyatımızın təbliğində ayrı-ayrı ölkələrdə açılan "Azərbaycan Ev"lərinin də böyük rolu var. Belə ki, 2003-cü ilin may ayında Türkiyənin İzmir şəhərində "Azərbaycan Evi"nin açılışı olmuşdur. "Azərbaycan Evi"ndə xalqımızın mədəni irsi, tarixi ənənələri, ictimai-siyasi və mədəni həyatı ilə bağlı kitablar klassik ədəbiyyatımızın ən sanballı nümunələri, qiymətli incəsənət əsərləri və digər eksponatlar nümayiş etdirilir. "Azərbaycan Evi"ndə Azərbaycan mədəniyyət abidələri ilə bağlı vəsaitlər, kasetlər, disklər saxlanılır və burada milli mədəniyyətimizin, adət-ənənələrimiz təbliğ olunur. Eyni vaxtda İzmir şəhəri yaxınlığında inşa edilməsi nəzərdə tutulan "Azərbaycan parkı"nın təməl daşının qoyulması mərasimi keçirilmişdir. Artıq bu park Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin ən parlaq nümunələrindən birinə çevrilib.

Burada Azərbaycanın müxtəlif sahələrində şöhrət qazanmış mütəfəkkirlərinin büstləri, Azərbaycanın ərazisindəki qədim qalaların kiçik ölçülü modelləri, Azərbaycana dair rəsm və plakatların, tariximizi əks etdirən kitabların nüsxələrinin dəmir döymələri yerləşdirilib. Parkın ərazisində Azərbaycana dair böyük bir sərgi salonu da inşa edilib.

2003-cü ilin may ayında İzmir şəhərində keçirilən daha bir tədbir isə "Azərbaycan diasporuna dövlət qayğısı" kitabının təqdimat mərasiminə həsr olunmuşdur. Tədbirdə Türkiyənin və Azərbaycanın təmsilçiləri, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən 20-dən artıq diaspor təşkilatının nümayəndələri və eləcə də xarici ölkələrdən bir sıra alimlər, tədqiqatçılar iştirak etmişlər.

"Azərbaycan diasporuna dövlət qayğısı" kitabında ümummilli lider Heydər Əliyevin 1993-cü ildən bəri Azərbaycan diaspor təşkilatları nümayəndələri ilə keçirdiyi görüşlər barədə materiallar xronoloji ardıcıllıqla toplanmışdır. Kitabda həmçinin 1993-cü ildən bəri diaspor fəaliyyətinə dair fərman və sərancamlar, qəbul edilmiş dövlət sənədləri, normativ aktlar da öz əksini tapmışdır. Dövlət quruculuğunun mühüm sahələrindən biri olan xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin hazırlanması və həyata keçirilməsində ümummilli liderimizin xidmətləri, fəaliyyəti, diaspor təşkilatları qarşısında qoyduğu məqsəd və vəzifələr kitabın əhatə etdiyi mövzular sırasındadır. Kitabın təqdimat mərasimində Azərbaycan Xalq Cumhuriyyətinin yaradıcılarından olan Fətəli xan Xoyskinin nəvələri Leyla xanım Keykurun və İbrahim Xoyxana, avstriyalı alim Erix Fayqla xatirə hədiyyələri təqdim edilmişdir.

Görkəmli alim, ermənilərin iç üzünü bütün dünyaya çatdıran sanballı tədqiqat əsərlərinin müəlifi məhrum Samuel Vimsin layiq görüldüyü mükafat isə onun həyat yoldaşı Gülnur Uçqan-Vimsə göndərilmişdir. Almaniyanın Mayns şəhərində, Türkiyənin İzmir şəhərinin "Gündoğdu" meydanında, Ankaranın «Bilkənd» otelində, Vaşinqtonun "Fermont" otelində, Berlinin "Hilton" otelində, İsgəndərun, Ceyhan şəhərlərində və Hətay vilayətinin məşhur "Payas" qalasında açıq səma altında Azərbaycan incəsənət ustalarının iştirakı ilə on minlərlə insanın qatıldığı böyük konsert proqramları təşkil edilmişdir.

Mədəni irsimizin, incəsənətimizin, milli adət-ənənələrimizin, xalqımızın qəhramanlıq salnaməsinin təbliği işində Azərbaycan icmalarının da rolu xüsusi qeyd olunmalıdır. Ötən müddətdə məhz onların fəal dəstəyi və təşəbbüskarlığı nəticəsində Moskvada tanınmış alimi Kərim Kərimovun, maestro Niyazinin, görkəmli bəstəkar Fikrət Əmirovun, Rusiya Təhsil Akademiyasının müxbir üzvü Qədriyyə Səlimovanın, Azərbaycanın xalq artisti, Rusiya Federasiyasının əməkdar artisti, professor Tamilla Mahmudovanın və şairə Alla Axundovanın yubileyləri, İsveçin Höteborq şəhərində «Babək» dərnəyinin təşkilatçılığı ilə "Füzüli festivalı" təntənəli şəkildə qeyd edilmişdir.

Ümumrusiya Azərbaycan Konqresinin Çuvaşiya regional təşkilatının təşəbbüsü ilə Çeboksarı şəhərində dahi şairimiz Nizami Gəncəvinin abidəsinin açılışı, Rusiyanın Ulan-Ude, ABŞ-ın Sent-Luis şəhərlərində, Brüsseldə «Azərbaycan günləri»nin keçirilməsi, Moldova Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə Kişinyovda "Nizami" parkının salınması ideyasının dəstəklənməsi bu tədbirlər sırasındadır. Bundan başqa, ötən dövrdə Belçikada "Avropa Azərbaycanlıları Mərkəzi", Özbəkistanın Kaqan və Fərqanə şəhərlərində "Azərbaycan Mədəniyyət Mərkəz"inin, Almaniyanın Berlin və Ukraynanın Dneprepetrovsk şəhərlərində «Azərbaycan evi», Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət İnstitutunun təşkilatçılığı ilə Almaniya-Azərbaycan Ticarət Palatası açılmışdır. Azərbaycan dövlətinin milli bayramları da icma və birliklərimiz tərəfindən böyük təntənə ilə qeyd edilir. İsveçin Stokholm şəhərindəki "Azərbaycan dərnəyi", İspaniyanın Torreviyexa şəhərindəki "Azəri" Cəmiyyəti, Helsinki şəhərindəki Finlandiya- Azərbaycan "Dostluq" Cəmiyyəti, Ukrayna Azərbaycanlıları Konqresi, Moldova Azərbaycanlıları Konqresi, Belarus Azərbaycan İcmaları Konqresi, «Dneprepetrovsk Azərbaycanlılarının Liqası», Estoniyanın Tallin şəhərində «Aydan» Azərbaycan Mədəniyyət Mərkəzi, Litva Azərbaycanlıları cəmiyyəti, Latviya Azərbaycanlılarının «Azəri» cəmiyyəti, «Azəri-Çex» cəmiyyəti, Xarkov şəhərində Ukrayna-Azərbaycan «Dostluq» cəmiyyətinin və digər ölkələrdəki diaspor təşkilatlarımız «Respublika Günü» və digər əlamətdar bayramlar münasibətilə xüsusi təntənəli tədbirlər keçirmişlər.

2004-ci ilin may ayında Leninqradda yaşayan çoxsaylı həmyerlilərimizin iştirakı ilə Azərbaycanın nümayəndə heyəti və Rusiya rəsmləri ilə birgə II Dünya müharibəsi illərində Leninqradın müdafiəsində qəhrəmancasına həlak olmuş həmvətənlərimizin xatirəsini əbədiləşdirmək üçün Piskarev qəbirstanlığında izdihamlı mitinq keçirilmişdir. Sankt-Peterburq şəhərində yaşayan soydaşlarımızın təşəbbüsü və Piskarev memorial fondunun dəstəyi ilə həlak olmuş əsgərlərimizin xatirəsinə həsr edilmiş qranit lövhənin, mart ayında «Ukrayna-Azərbaycan» Dostluq cəmiyyətinin təşəbbüsü ilə Xarkovdakı Grizodubovlar adına şəhər Aviasiya və Kosmonavtika muzeyində Qarabağ müharibəsi zamanı həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin 60-illiyinə həsr olunmuş sərginin, may ayında isə qəhrəmanın vaxtı ilə yaşadığı küçədə xatirə lövhəsinin açılış mərasimləri olmuşdur. Fərəhli haldır ki, Azərbaycanın Milli Qəhrəmanı V.Seryoginin xatirə lövhəsini «Ukrayna-Azərbaycan» Dostluq cəmiyyətinin idarə heyətinin üzvü, Ukraynanın əməkdar heykəltəraşı soydaşımız Seyfəddin Qurbanov şərq ornamentləri ilə işləmişdir. 2004-cü ilin iyun ayında isə Belorus Respublikasında Azərbaycanlıların «Xəzər» İctimai Birliyinin təşəbbüsü ilə Mogilyov şəhərinin faşist işğalçılarından azad olunmasında iştirak etmiş briqada komandiri, Sovet İttifaqı Qəhrəmanı, həmyerlimiz polkovnik Aslan Vəzirov adına küçədə onun xatirə lövhəsinin açılış mərasimi keçirilmişdir.

Londonda gənc şairə Nigar Həsənzadənin «Arazın o tayı, bu tayı» mövzusunda yaradıcılıq gecəsi keçirilməsi müasir ədəbiyyatımızın təbliği sahəsində atılmış uğurlu addımlardan biri kimi yadda qalmışdır. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Ukraynanın Xarkov şəhərində yaşayan 11 yaşlı istedadlı bəstəkar Rəfail Səlimovun «Azəri Oğuz» adlı ilk albomu işıq üzü görmüşdür.

Qeyd olunan faktlar Azərbaycan mədəni irsinin, ədəbiyyatının, milli-mənəvi dəyərlərin təbliği sahəsində görülmüş işlərin ümumi mənzərəsini əks etdirir.

**“Olaylar”.- 2013.- 24 iyul.-N 132.-S11.**

**Diaspor quruculuğu Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir**

***Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin məntiqi olaraq Azərbaycan diasporu dünya ölkələrində yetkin və formalaşmış şəkildə fəaliyyətdədir***

Azərbaycan diasporunun tarixən keçdiyi yol uzun bir zaman məsafəsində tarixi araşdırmalar zamanı aydın və dolğun görünür. Tarixin dönəmlərində dünya ölkələrinə səpələnmiş soydaşlarımız milli düşüncəni, ziyalı mövqeyini ortaya qoysa da diasporun təşkilatlanmasına müvəffəq ola bilməmişdilər. Mənbələrdən bizə məlumdur ki, ümumbəşəri sivilizasiya xəzinəsinə misilsiz töhfələr bəxş etmiş yüzlərlə azərbaycanlı düha dünyanın bir sıra ölkələrində yaşamış və şöhrət tapmışdılar. Azərbaycan dünyaya səpələnmiş ziyalıların qismində elm, sənət ocağı kimi tanınsa da dünya ictimaiyyətinə öz həqiqi ictimai-siyasi-mədəni palitrasını tanıda bilməmişdir.

Ulu Öndər Heydər Əliyev ölkənin ictimai-siyasi həyatının bütün sahələrində sürətli inkişafa aparan köklü islahatlara yol açdı. Azərbaycan qısa vaxt ərzində iqtisadi göstəricilərinə, intellektual potensialına görə SSRİ miqyasında ön sırada yer tutdu. Dahi Öndər Heydər Əliyevin ardıcıl surətdə apardığı islahatlar yalnız iqtisadi sahəni əhatə etmirdi. Bu köklü dəyişikliklər elm və təhsildə, mədəniyyətdə də böyük sıçrayışlarla nəticələndi. Azərbaycanda elmin inkişafının stimullaşdırılması istiqamətində bir çox mühüm addımlar atıldı. Respublikada azad fikirli ziyalıların təqibinə birdəfəlik son qoyuldu. Təsadüfi deyildir ki, məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1969-cu ildən Sovet İttifaqı dağılana kimi Azərbaycanda bir nəfər də olsun dissident qeydə alınmayıb.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olmuşdur. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratmışdır. Ümummilli Lider bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, onları yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı.

Beləliklə, Azərbaycan diasporu yeni bir inkişaf yoluna qədəm qoydu. Bu yolun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirildi və davamlı olaraq həyata keçirilir. Böyük Şəxsiyyət Heydər Əliyevin uzaqgörən müdrik siyasəti dünya ölkələrində Azərbaycanın tanımasına böyük yollar açmış oldu. Dünyanın hər bir nöqtəsində formalaşmış Azərbaycan diasporu məhz Heydər Əliyevin diaspora quruculuğu siyasətinin məntiqidir.

Ümummilli Lider Heydər Əliyev "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzalamışdır. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyyət kəsb edən mühüm tarixi sənəd olmuşdur. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan verdi.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsini və s. nəzərə alaraq Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayın 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətlənmişdir. Bu ideyanın sonrakı mərhələlərdə davam etdirilməsi diaspora quruculuğuna töhfələrini verməkdədir.

Bu gün Azərbaycan diasporu ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Niderland, Almaniya, İspaniya, Norveç, Belarus, İsveç, Özbəkistan, Belçika, İsrail, Polşa, Birləşmiş Ərəb Əmirliyi, İsveçrə, Qazaxıstan, İtaliya kimi onlarla dövlətlərdə fəaliyyət göstərir. Belə ki, dünya ölkələrində "Azərbaycan Evi" Cəmiyyəti, Azərbaycan Fransız Gənclik Assosiasiyası, Azərbaycan Kültür Mərkəzi, Azərbaycanlı Tələbələr Assosiasiyası, Fransa-Azərbaycan Mədəni Əlaqələr Assosiasiyası, Avstraliyada Avstraliya-Azərbaycan-Türk dostluq birliyi, Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, İsveçrə Azərbaycan Türkləri Kültür Dərnəyi, İsveçrə-Azərbaycan Dərnəyi, Azərbaycan Türk Kültür Dərnəyi, Azərbaycan-İsveçrə Əməkdaşlıq Cəmiyyəti, İsveçrədə Azərbaycanın Demokratik Tələbə və Gənclər Birliyi, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Amerika-Azərbaycan Ticarət Palatası, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Qafqaz Yəhudiləri Cəmiyyəti və onlarla belə qurumlar müstəqillik dövründə məhz Ulu Öndərin diaspora quruculuğu siyasətinin məntiqi olaraq təşəkkül tapmışdır. Bu və ya digər qurumlar dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərini çatdırmaqda əhəmiyyətli rola malikdir.

Həqiqətən də Azərbaycan diasporunun məskunlaşma coğrafiyası genişlənir. Dünya azərbaycanlılarının 10 milyondan çoxu hazırda mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir.

Müasir dövrümüzdə diaspor anlayışı beynəlxalq münasibətlərin vacib elementinə çevrilir. Qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində Azərbaycanın qarşısında yeni vəzifələr qoymaqdadır. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirmişdir. Müasir həyatımızda Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi diaspor siyasəti uğurla həyata keçirilir.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması ilə bağlı görülən faktlar da kifayət qədərdir. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. İndiyədək əldə olunan təcrübə diaspor təşkilatlarımızın daha yetkin və nəzərəçarpacaq fəaliyyət göstərməsinə imkan verir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Bu da Ulu Öndərin təməlini qoyduğu diaspora siyasətinin məntiqi nəticəsidir.

**Zümrüd, “Səs”.-2013.-30 iyul.-№121.-S.11.**

## DAK Güney Azərbaycanla bağlı hesabat yayıb

*Fars şovinist rejimi milli fəallara qarşı təqibləri davam etdirir, kütləvi həbslər aparılır*

**Dünya Azərbaycanlıları Konqresi Güney Azərbaycandakı son durumla bağlı hesabat hazırlayıb. DAK Mətbuat Xidmətinin yaydığı hesabatda bildirilir ki, fars şovinist rejimi milli fəalların hüquqlarını pozmaqda davam edir.**

Qeyd olunur ki, iyulun 13-dən Təbriz şəhərinin mərkəzi həbsxanasında aclıq aksiyasına başlamış Yeni GAMOH təşkilatının üzvləri — doktor Lətif Həsəni, Yürüş (Ayət) Mehrəlibəyli, Mahmud Fəzli, Savalan (Səccad) Radmehr və Behbud Quluzadə öz mübarizələrini davam etdirirlər. Milli fəallar barələrində çıxarılmış ümumilikdə 45 illik hökmü ədalətsiz hesab edərək artıq 18 gündür aclıq aksiyası keçirirlər. Ancaq fars şovinist rejimi onların tələbləri yerinə yetirmək əvəzinə, iyulun 20-də Təbriz şəhərinin mərkəzi həbsxanasından Tehran şəhərinin Evin həbsxanasına, daha sonra isə Kərəc şəhərinin Rəcayişəhr həbsxanasına köçürüb. Güney Azərbaycanın Təbriz, Mərənd və digər şəhərlərində onların azadlığa buraxılması üçün bildirişlər yayılıb, divarlara şüarlar yazılıb, eyni zamanda imzatoplama kampaniyası başladılıb.

DAK-ın hesabatında Güney Azərbaycanda çıxarılan ədalətsiz məhkəmə hökmləri barədə də faktlar yer alır. Bildirilir ki, İran islam inqilab məhkəmələrinin milli fəallarla bağlı ədalətsiz hökmləri də səngimir. Ötən həftə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi, Şəhriyarşünas, araşdırmaçı-alim Xalidə Xalidlə birgə və sonra həbs edilmiş azərbaycanlı fəallara hökm oxunub. Hökmə əsasən, 2 azərbaycanlı fəal — İlqar Müəzzinzadə və Məhəmməd (Oxtay) Rəşidi ümumilikdə 31 ay azadlıqdan məhrum ediliblər. İ.Müəzzinzadəyə bir yerə toplaşmaqla milli təhlükəsizliyə xələl vurmağa cəhd göstərmək ittihamına görə 2 il, hakimiyyət əleyhinə təbliğat aparmaq ittihamına görə isə 91 gün həbs cəzası verilib. Məhəmməd Rəşidi isə eyni ittihamlara əsasən 91 gün və 1 ay həbs cəzasına məhkum edilib. Digər azərbaycanlı fəallar — aşıq İsa Qaraxanlu və Əmir Hadiyan isə bütün ittihamlar üzrə bəraət alıblar. Təbriz İnqilab Məhkəməsi azərbaycanlı fəalları X.Xalidlə əlaqə qurduqlarına, Azərbaycan türkcəsində kitab yaydıqlarına və İran İnformasiya, Təhlükəsizlik və Kəşfiyyat Nazirliyinin (ETTELAAT) təqdimatına görə bu şəkildə cəzalandırıb. Məhəmməd Rəşidi aprelin 30-da, İlqar Müəzzinzadə isə mayın 8-də həbs edilib. Məhəmməd Rəşidi 56 gün saxlanıldıqdan sonra 150 milyon tümən zəmanətlə azadlığa buraxılsa da, İlqar Müəzzinzadə tutulduğu gündən həbsdədir.

Təbriz İnqilab Məhkəməsinin üçüncü şöbəsi tanınmış azərbaycanlı bəstəkar Həsən Dəmirçini 6 ay azadlıqdan məhrum edib. Azərbaycanlı bəstəkar Azərbaycan türklərinin problemləri ilə bağlı keçirilən iclaslarda iştirak etmək, İran dövlətinin icazəsi olmadan Qaradağ zəlzələsindən zərər çəkmiş insanlara köməklik göstərmək və ianə toplamaq, musiqi kursları təşkil etmək, Azərbaycan musiqisini tədris etmək, ölkə daxilində və xaricindəki istiqlalçı («separatçı») qüvvələrlə əlaqədə olmaq və həbsxanadan çıxan azərbaycanlı siyasi məhbusların qarşılanma mərasiminə getməkdə günahlandırılıb. Hakim Həmid Purbağır İran İslam Cəza Qanununun 500-cü maddəsini əsas götürərək 60-dan çox yaşı olan azərbaycanlı fəala belə bir cəza verib. Ancaq bu ittihamlara görə həmin maddənin tətbiqi mümkün deyil.

Təbriz İnqilab Məhkəməsinin üçüncü şöbəsi həmçinin azərbaycanlı siyasi fəal Araş Məhəmmədiyə də 6 ay həbs cəzası verib. Solçu tələbə fəal hakimiyyət əleyhinə təbliğat aparmaqda günahlandırılıb. A.Məhəmmədi hazırda Təbriz şəhərinin mərkəzi həbsxanasının maliyyə bölümündə saxlanılır. DAK-ın hesabatına görə, Güney Azərbaycanda həbslər, qeyri-qanuni sorğu-suala çəkilmək də davam edir. Belə ki, daha çox azərbaycanlıların milli-mədəni hüquqları mövzusunda türk dilində səsləndirdiyi tənqidi şeirləri ilə tanınan Əli Cabbari tutulub. Azərbaycanlı şair İran İnformasiya, Təhlükəsizlik və Kəşfiyyat Nazirliyinin (Təbriz) şöbəsinə çağırılmasını səbəbini aydınlaşdırmaq üçün müraciət edərkən həbsə alınaraq Təbriz şəhərinin mərkəzi həbsxanasına salınıb. Əli Cabbari isə öz şeirlərində «pantürkizm» və «separatçılıq» kimi ittihamlardan əsasən azərbaycanlı fəallara qarşı təzyiq üçün ortaya atılan bəhanələr kimi bəhs edir.

Bundan əlavə, milli fəallar Yədulla (Elman) Dəşti, Əli Hidayəti və Ramin Rzayi ifadə vermək üçün avqustun 3, 4 və 5-də Soyuqbulaq İnqilab Məhkəməsinə çağırılıb. Onlar hakimiyyət əleyhinə təbliğat aparmaqda və müxalif qruplarla əməkdaşlıqda günahlandırılırlar. Həmçinin 5 nəfər məhbus yoldaşı ilə birlikdə heç bir dəlil olmadan və saxta ittihamlarla Tehranın Evin həbsxanasının 240-cı bölümünün təkadamlıq kamerasına salınan azərbaycanlı jurnalist Səid Mətinpur zindanın 350-cı bəndinə geri qaytarılıb.

Eyni zamanda bu il iyunun 12-də həbs olunmuş və 40 günə yaxın ETTELAAT-ın Təbriz şəhərindəki təcridxanasında təkadamlıq kamerada saxlanılmış azərbaycanlı fəallar Bəhram Axuni və Nasir Kazımpur Təbriz şəhərinin mərkəzi həbsxanasına köçürülüblər. Onlarla birlikdə tutulmuş Məcid Səfidani isə hazırda ETTELAAT-ın Təbriz şəhərindəki təcridxanasında saxlanılır. Bundan əlavə, azərbaycanlı tələbə fəal Mehdi Həmidi Şəfiq iyulun 22-də Təbriz şəhərinin mərkəzi həbsxanasından ETTELAAT-ın Təbriz şəhərindəki təcridxanasına köçürülüb.

Sənəddə qeyd olunur ki, Güney Azərbaycanın Urmiya gölündəki ekoloji fəlakətlə bağlı da həyacan təbili çalınmaqdadır. Belə ki, Urmiya gölündəki ekoloji fəlakət hövzəsinin ətrafında yerləşən 7 şəhər böyük təhlükəylə üzləşib. İranın Şərqi Azərbaycan vilayətinin Kənd Təsərrüfatı İdarəsinin rəhbəri Məsud Məhəmmədian Urmiya gölünün qurumasının hövzənin ətrafında yerləşən 7 şəhərin artezian quyularına ciddi təsir göstərdiyini və quyuların suyunun şorlaşmasının artmasına gətirib çıxardığını söyləyib. Onun sözlərinə görə, hazırda Urmiya gölü hövzəsi ətrafındakı 600 min hektardan çox əkin və bağ sahəsi ekoloji fəlakətin mənfi təsirilə qarşı-qarşıyadır və ciddi ziyan görməkdədir. Eyni zamanda artezian quyularında da duzluluğun miqdarı getdikcə artır.

Bundan əlavə, İran parlamentinin 10 nəfər deputatı da Urmiya gölü ilə bağlı ölkə prezidenti Mahmud Əhmədinejada məktub yazıb. Deputatlar İran parlamentinin 90-cı komissiyasına da eyni məzmunlu müraciət ediblər. Məktubda Urmiya gölü ətrafında duz tufanları başladığı qeyd olunub və ölkə rəsmilərindən Urmiya gölünü ekoloji fəlakətdən xilas etmək üçün təcili addımlar atmaq tələb olunub. Məktubu Təbriz, Ərdəbil, Urmiya, Tehran, Abadan və Qum şəhərlərini İran parlamentində təmsil edən deputatlar imzalayıblar.

İran rejimi isə zahirən addımlar atdığını göstərmək üçün iyulun 27-də Araz çayının suyunun Urmiya gölünə axıdılması layihəsinin icrasına başlayıb. Layihə Araz çayının suyunun Culfa, Mərənd, Şəbüstər və Təbriz şəhərlərinin çöllərinə, ümumilikdə 15 min hektar əraziyə axıdılmasını özündə ehtiva edir. Ümumilikdə, 22 şəhər və 286 kənd içməli su ilə təchiz olunacaq.

**Turqut**, **“Xalq Cəbhəsi”.-2013.-31 iyul.-N 136.-S.4.**

## Mahir Həmzəyev və "Litva-Azərbaycan" Assosiasiyasının prezidenti İmantas Melyanas Moldova Respublikasının Ombudsmanı Aurelia Qriqoriuya təşəkkür məktubu göndərmişlər

Bu ilin iyul ayında Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev və "Litva-Azərbaycan" Assosiasiyasının prezidenti İmantas Melyanas Moldova Respublikasının Ombudsmanı Aurelia Qriqoriuya təşəkkür məktubu göndərmişlər.

Məktubda Aurelia Qriqoriun iyulun 4-də Ermənistan parlamentindəki çıxışı zamanı Ermənistanım Azərbaycana qarşı təcavüzünü, insanlığa zidd cinayətlər törətdiyini bəyan etməklə göstərdiyi cəsarət və prinsipiallığına görə təşəkkür bildirilmişdir.

**İyul 2013**

**Dünya Azərbaycanlı Gənclər Birliyinin Almaniyadakı nümayəndəliyinin dəstəyi ilə Almaniyanın Maqdeburq şəhərində "Odlar Yurdu" Boks İdman Klubu təsis edilmişdir**

2013-cü ilin iyul ayında Dünya Azərbaycanlı Gənclər Birliyinin Almaniyadakı nümayəndəliyinin dəstəyi ilə Almaniyanın Maqdeburq şəhərində "Odlar Yurdu" Boks İdman Klubu təsis edilmişdir. Yeni qurulan İdman Klubunun rəhbəri hazırda İBO-İnternational, İBO-İnterkontinental və İBF-Avropa versiyaları üzrə dünya çempionu Azad Əzizov seçilmişdir.

Yeni təsis edilən idman klubunun rəhbəri Azad Əzizov bildirmişdir ki, Boks idman növü 2015-ci ildə Bakıda təşkil olunacaq birinci Avropa Oyunlarının proqramına daxil edilib. "Bu qərar Beynəlxalq Boks Federasiyasının (AİBA) İcraiyyə Komitəsinin Qazaxıstanda keçirilmiş iclasında qərara alınıb və artıq bu barədə Avropa Olimpiya Komitəsinə (AOK) müraciət qəbul olunmuşdur.

**İyul 2013**

**Azərbaycan diasporunun gənc siması - Rusiyanin Azərbaycanlı Gənclər Təşkilatı (AMOR)**

Azərbaycan diasporunun inkişafında müstəsna xidmətləri olan təşkilatlardan biri də Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatıdır. Təşkilatın yaranma tarixi və fəaliyyət istiqamətlərinə nəzər salmamışdan əvvəl onu qeyd edək ki, Rusiyada azərbaycanlıların sayının kütləvi şəkildə artması 90-cı illərin əvvəllərində soydaşlarımızın əməkçi miqrant kimi bu ölkəyə işləməyə gəlməsi ilə bağlıdır. Təxminən 20 il əvvəl Azərbaycandan Rusiyaya gəlmiş soydaşlarımız həmin vaxt Rusiya cəmiyyətinə inteqrasiya etməkdə böyük problemlər yaşayırdılar. Dil bilməmək və digər səbəblərdən onlar sıxışdırılır, incidilirdilər. Təəssüf ki, həmin nəslin inteqrasiya problemi indi də qalmaqdadır. Onları bəzən cəmiyyət içinə buraxmır, bəzən də onlar sürətlə yenilənən Rusiya cəmiyyətinə inteqrasiya etməkdə lazımi imkanlara sahib ola bilmirdilər. Soydaşlarımız min bir əziyyətlə qazandıqları pulu övladlarının təhsilinə yatırdılar.

Nəticə bu gün göz qabağındadır. İndi 17-20 yaşında olan gənc soydaşlarımız Rusiyanın ən prestijli ali məktəblərinin tələbələridir. Lakin bu gənclər ayrı ayrılıqda, təklikdə Rusiyada azərbaycanlıların bir çox halda şişirdilmiş bazar adamı, davakar obrazını dağıda bilməzlər. Yeni Azərbaycan, yeni azərbaycanlı simasını Rusiyaya tanıtmaq üçün onları bir araya toplamaq, real qüvvəyə çevirmək lazım idi. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı məhz bu səbəbdən yarandı. Gənc soydaşlarımız AMOR adı altında bir araya toplanaraq Azərbaycan xalqının tolerantlığını, bəşəriliyini, sevgisini dünyaya bəyan etdilər. AMOR-un yaranması ilə Rusiyadakı Azərbaycan diasporunun yeni nəsli yarandı.

Yaxın tarixə nəzər salsaq görərik ki, Rusiya Azərbaycan Gənclər Təşkilatı (AMOR) 2009-cu il aprelin 18-də Moskva şəhərində təsis edilmişdir. Bu təşkilat Azərbaycan həqiqətlərinin Rusiya və dünya ictimaiyyətinə çatdırılmasında xüsusi fəaliyyət göstərir. Təşkilatın məqsədi Azərbaycan mədəni irsinin Azərbaycan milli-mədəni dəyərlərinin qorunması, sosial, bədii, təhsil təşəbbüsləri, Azərbaycan gənclərinin dəstəklənməsi, Azərbaycan gənclərinin inkişafının təbliği, Rusiya cəmiyyətinin mədəni həyatında Azərbaycan gənclərinin daha yaxşı inteqrasiyası, təhsilin inkişaf etdirilməsi, ailə və cəmiyyətin mənəvi və əxlaqi əsasları qorumaq və möhkəmləndirmək, dostluq, etimad və xalqlar arasında anlaşmanın təşviqidir.

Rusiya Azərbaycan Gənclər Təşkilatının Mərkəzi ofisi Moskva şəhərində yerləşir. Bundan başqa təşkilatın bir neçə regional bölmələri – Şimal-qərb, Volqa ətrafı, Şimali Qafqaz, Cənub, Uzaq Şərq və Sibir bölmələri fəaliyyət göstərir. AMOR Rusiya Azərbaycan Gənclər Təşkilatının sədri Leyla Əliyevadır. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilat fəaliyyət göstərdiyi çox qısa bir vaxt ərzində Rusiyada yaşayan və təhsil alan soydaşlarımızı öz ətrafında birləşdirən, onların Rusiya cəmiyyətinə inteqrasiyasına dəstək verən güclü bir quruma çevrilib. Bundan başqa təşkilat Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi və xalqımızın zəngin tarixi-mədəni irsinin Rusiya ictimaiyyətinə çatdırılması istiqamətində də aktiv fəaliyyət göstərib, müxtəlif layihələr, tədbirlər reallaşdırıb.

Belə ki, 2010-cu ildə qurumun sədri Leyla Əliyevanın başçılıq etdiyi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı növbəti dəfə "Qanın milləti yoxdur" xeyriyyə aksiyası keçirmişdir. Həmin vaxta qədər Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı artıq üçüncü il idi ki, İ.M.Seçenev adına Birinci Moskva Dövlət Tibb Universitetinin Azərbaycanlı Gənclər Klubunun dəstəyi ilə "Qanın milləti yoxdur, həyat bəxş et - donor ol!" devizi altında xeyriyyə aksiyası təşkil edirdi. Aksiya azərbaycanlı tələbə klubları üzvlərinin iştirakı ilə universitetin həmvətənimiz Əliheydər Rəhimovun başçılıq etdiyi Kliniki transfuziologiya və hematologiya kafedrasında baş tutmuşdur. Xeyriyyə aksiyasında 60-dan çox azərbaycanlı tələbə iştirak etmişdir. Dünya Qan Donoru Gününə həsr olunmuş aksiyaya ilk dəfə Kaluqa vilayətindəki azərbaycanlı gənclər klubunun nümayəndələri də qatılmışlar. 2011-ci il, may ayının 8-də isə Rusiyanın Rostov vilayətində Azərbaycanlı gənclərin möhtəşəm mitinqi olmuşdur. Belə ki, Rusiya Federasiyası Rostov vilayətindəki ən böyük abidə olan "Sambek memorialı" önündə 9 may faşizm üzərində qələbənin ildönümüylə bağlı möhtəşəm mitinq baş tutmuşdur. Mitinqi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı və "Мир на Земле" millətlərarası təşkilatı keçirmişdir.

Tədbirin təşkilatçısı Taqanroq parlamentinin vitse-spikeri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının Rostov bölməsinin rəhbəri Fuad İbrahimov olub. Tədbirdə əbədi məşələ od vurulmuş,memorialın qarşısına çiçəklər qoyulmuş, Taqanroq şəhərini faşistlərdən azad etmiş, əsasən azərbaycanlılardan ibarət 130 və 416-cı diviziyaların əsgərlərinin ruhuna dua oxunmuşdur. Tədbirin sonunda Taqanroq və Rostov şəhərləri arasında Rusiya və Azərbaycan bayraqlarını dalğalandıraraq avtoyürüş keçirilmişdir. Avtoyürüşün məqsədi Azərbaycan və Rusiya xalqlarını bir-birinə daha da yaxınlaşdırmaqdır. Qeyd edək ki, Taqanroq şəhərindəki Şöhrət Memorialı 1980-ci ildə Heydər Əliyevin rəhbərliyi altında açılmışdır. Rusiya Milli Tədqiqatlar Universitetinin Ali İqtisadiyyat Məktəbində (MTU AİM) Rusiya Azərbaycanlı Gənclər Təşkilatının və Ali İqtisadiyyat Məktəbinin Millətlər Palatasının təşkilatçılığı ilə Azərbaycan mədəniyyəti gecəsi keçirilib. Məktəbin foyesində Azərbaycanın qədim və müasir tarixini özündə birləşdirən sərgi təşkil olunub.

Sərgidə XVI əsrə aid qadın geyimləri, kələğayı, müxtəlif məişət əşyaları, eyni zamanda, Azərbaycan rəssamlarının modern art üslubunda əsərləri nümayiş etdirilib. Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu mədəniyyət gecəsini açaraq bildirib ki, humanitar əməkdaşlıq, o cümlədən mədəni əlaqələr xalqlar arasında dostluq münasibətlərinin inkişafının ən başlıca istiqamətidir.Gənclərin bu sahədə fəaliyyəti olduqca əhəmiyyətlidir və hərtərəfli dəstəklənməlidir. Səfir Rusiya Azərbaycanlı Gənclər Təşkilatının Azərbaycan mədəniyyətinin və incəsənətin təbliğində rolunu yüksək qiymətləndirib. Tədbirin bədii hissəsində “Odlar Yurdu” rəqs ansamblı, Beynəlxalq Muğam Festivalının laureatı Mirpaşa Şükürov və başqaları Azərbaycan incəsənətini ən müxtəlif janrlarda təqdim ediblər. Rusiya Azərbaycanlı Gənclər Təşkilatının əlaqələndiricisi Natiq Əliyev bildirib ki, MTU AİM-in Millətlər Palatası indiyədək müxtəlif millətlərin mədəniyyətinə həsr olunmuş onlarla tədbir keçirib. Azərbaycan mədəniyyətinə həsr olunmuş gecə isə burada ilk dəfə təşkil olunur. Məqsədimiz Azərbaycan mədəniyyətinin təbliği ilə yanaşı, azərbaycanlı abituriyentlərin diqqətini bu ali təhsil ocağına cəlb etməkdir.

Sankt-Peterburq şəhərində isə Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının yaradılmasının ikinci ildönümünə həsr edilmiş təntənəli tədbir keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyeva, Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Prezidenti Administrasiyasının rəsmiləri və Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlunun daxil olduğu nümayəndə heyəti iştirak edib. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatinin sədri Leyla Əliyeva tədbirdə çıxış etmişdir. O, təşkilatın iki illik fəaliyyəti barədə məlumat verərək vurğulamışdır ki, bu dövrdə kifayət qədər yaxşı nəticələr əldə edilmişdir. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri bildirmişdir ki, təşkilatın coğrafiyası genişlənir, indi Moskva və Sankt-Peterburq ilə yanaşı Arxangelsk, Tver, Yekaterinburq və bir sıra başqa regionlarda da azərbaycanlı gənclərin klubları fəaliyyət göstərir. Leyla xanım Əliyeva Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının iki illik fəaliyyəti dövründə keçirilmiş aksiyalar, tədbirlər və görüşlər barədə də məlumat vermişdir. O, “Xocalıya ədalət” kampaniyasına xüsusi diqqət yetirərək qeyd etmişdir ki, bu aksiya sayəsində dünyada insanların getdikcə daha çox hissəsi Azərbaycan xalqına qarşı törədilmiş bu faciədən xəbər tutur. Leyla Əliyeva əmin olduğunu bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ədalətli həllini tapacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Konfransın açılışında MDB Parlamentlərarası Assambleyasının baş katibi Mixail Krotov, Sankt-Peterburq Dövlət Universitetinin prezidenti Lyudmila Verbitskaya da çıxış ediblər. Həmçinin Tavrida sarayında “Azərbaycan: Müstəqilliyin bərpasının 20-ci ildönümü" və "Azərbaycan - Sankt-Peterburq” sərgiləri də təşkil olunub. Sankt-Peterburqdakı konfransın işində Rusiyanın 80 regionundan Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının 400-ə yaxın nümayəndəsi iştirak edib. Axşam isə Petropavlovsk qalasında Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının yaradılmasının ikinci ildönümünə həsr olunmuş bayram konserti keçirilib. Konsertdə "Eurovision 2011" mahnı müsabiqəsinin azərbaycanlı qalibləri Eldar və Nigar, “Eurovision 2010”-un iştirakçısı Safura Əlizadə, “Fabrika” qrupu, Yuliya Saviçeva, Timati, “Quest Pistols” və Azərbaycan və Rusiya estradasının digər ulduzları iştirak ediblər. Konsertin təşkilatçıları Azərbaycan Gənclər və İdman Nazirliyinin və Sankt-Peterburq Administrasiyasının dəstəyi ilə Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi olub. Ertəsi gün isə Tavrida sarayında Rusiya regionlarından olan Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının nümayəndələri “Regionlardakı gənclər: şəxsi artım və sosiallaşma”; “Qloballaşma, informasiya cəmiyyəti, sosial şəbəkələr və gənclik”; “RAGT-nin beynəlxalq fəaliyyətinin inkişaf perspektivləri”; “Mədəniyyət, milli özünüdərk və idman”; “Gənclərin məşğulluğu. Biznes və sahibkarlıq”; "Təhsil, elm və innovasiyalar" seksiyalarında plenar müzakirələrdə iştirak ediblər. Elə həmin gün Nizami Gəncəvinin anadan olmasının 870 illiyi münasibətilə şairin adını daşıyan bağın açılışı keçirilib. Məlumat üçün qeyd etmək yerinə düşər ki, 2002-ci il iyunun 9-da Kamenoostrovski prospektində bağda XII əsrin dahi şairinə qoyulan abidənin açılışında Rusiya Prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti Heydər Əliyev iştirak etmişdi.

**“Olaylar”.-2013.-2 avqust.-№136.-S.7.**

**“Azərbaycana aid bütün məsələlər öz daxilimizdə müzakirə olunsun”**

***“Biz həmişə bu mövqedə olmuşuq ki, Azərbaycanın daxili siyasətinə aid məsələləri Azərbaycandan kənarda müzakirə etmək düzgün deyil”.***

*Bunu Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Milli Şuranın Ukraynada bəzi diaspor üzvlərindən ibarət yaradılan nümayəndəliyinin fəaliyyəti ilə bağlı sualı cavablandırarkən deyib.*

N.İbrahimov bildirib ki, Milli Şura adlandırılan qurumun hansısa xarici ölkələrdə nümayəndəliklərinin yaradılması da ciddi bir hadisə deyil: “Çünki həmin qurumun özü ciddi təşkilat kimi qəbul olunmur. Mövcud siyasi situasiya göstərir ki, Prezident İlham Əliyevin Azərbaycanda və ya Azərbaycandan kənarda heç bir alternativi yoxdur. Ölkəmizin son illərdə diplomatik, siyasi, iqtisadi, sosial sahələrdə əldə etdiyi yüksək nailiyyətlər bu seçkilərdə İlham Əliyevin qələbə qazanacağına şübhə yeri qoymur”.

Komitə sədri qeyd edib ki, Azərbaycan dövləti bu gün dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qayğısına qalır, hüquqlarını müdafiə edir: “Bu siyasət bilavasitə ölkə Prezidentinin rəhbərliyi ilə həyata keçirilir. Ona görə də xaricdə yaşayan soydaşlarımızın böyük əksəriyyəti Prezident İlham Əliyevin siyasətini bəyənir və müdafiə edir. Hansı ölkədə yaşamasından, milliyyətindən, dinindən, vətəndaşlığından asılı olmayaraq, Azərbaycanı az-çox tanıyan hər kəsə bəllidir ki, bu siyasətin alternativi yoxdur. Ona görə də belə kiçik qrupların boğazdan yuxarı bəyanatları heç kimi narahat etmir. Nə qədər təşkilat, birlik yaradırlarsa yaratsınlar, bu onların hüququdur. Sadəcə, bizim arzumuz ondan ibarətdir ki, Azərbaycana aid bütün məsələlər Azərbaycanda müzakirə olunsun, buna bizim ölkəmizdə hər cür şərait və imkan var”.

Qeyd edək ki, Ukraynanın paytaxtı Kiyevdə bir qrup azərbaycanlı kinorejissor Rüstəm İbrahimbəyovun rəhbərlik etdiyi Milli Şuranın nümayəndəliyini yaradıb və təsis forumu keçirilib. Yalçın Qəhrəmanlı nümayəndəliyin təşəbbüs qrupunun rəhbəri seçilib. Ukraynada yaşayan və bəzi diaspor təşkilatlarında təmsil olunan azərbaycanlılardan Mürşüd Məmmədov, Fəhmin Hacıyev, Xaqani Hüseynov, Əbdül Hüseynov, Əli Dəmirov və başqalarından ibarət nümayəndəlik Ukraynanın bir sıra regionlarında Milli Şuraya dəstəklə bağlı tədbirlərə start verib.

**“Zaman”.-2013.-8 avqust.-№145.-S.3.**

## Azərbaycan diasporası hücum taktikasını seçib

### Erməni diasporu küncə sıxılıb

Azərbaycanın diaspora tarixinin nisbətən cavan olmasına baxmayaraq yarandığı müddətdən bu vaxta qədər xeyli nailiyyətlərə imza ata bilib. Bunun əsas səbəbi kimi Azərbaycan dövlətinin diaspora təşkilatları ilə yüksək səviyyədə əməkdaşlığının olmasi göstərilir. Məlumdur ki, ümummilli lider Heydər Əliyev bir çox sahələrdə olduğu kimi diaspora fəaliyyətinin də memarı olub və dövlət səviyyəsində diaspora siyasətinin formalaşmasının əsasını qoyub. Yalnız bundan sonra diaspora qurumlarımız təşkilatlanaraq əməli fəaliyyətə start veriblər.

Bundan fərqli olaraq ermənilərin bu işdə səriştəsi, təcrübəsi yüz illərlə ölçülür. Yüz ildən çoxdur ki, ermənilər diaspora hərəkatı yaradıblar və bizim tarixi torpaqlarımızda Etmənistan dövlətinin yaradılması və təşəkkül tapmasında erməni diasporunun böyük rolu olub. Buna baxmayaraq, Azərbaycanda da dövlət səviyyəsində bu işin qurulması erməni diasporunu çıxılmaz vəziyyətə salıb. Təbii ki, indiyə qədər istər Avropada, istərsə də dünyanın ayrı-ayrı ölkələrində bizim belə kəsərli, sözünü deyə bilən diaspora təşkilatlarımız olmayıb. İndi diaspor təşkilatların hamısı Azərbaycan dövləti tərəfindən koordinasiya olunur, onlar da fəaliyyətində Azərbaycan dövlətinin dəstəyini hiss edirlər.

Ona görə də ürəkli, kəsərli fəaliyyətləri ilə seçilirlər. Məsələn, bir müddət öncə, Fransada azərbaycanlı tələbələrin ermənilərin aksiyasına əngəl törətmələri böyük səs-küyə səbəb olmuşdu. Ermənilərin ən çox təsir imkanına malik olduğu Fransa kimi ölkədə baş verən hadisə bir daha göstərdi ki, soydaşlarımız arxalarında güc hiss etdiklərindən öz haqları uğrunda savaşa belə atıla bilirlər. Bu, doğrudan da bizim diaspora təşkilatlarının çox güclü olmasından xəbər verir. Artıq birmənalı şəkildə deyə bilərik ki, diaspora məsələsində erməniləri dalana dirəmişik və yaxın zamanlarda erməni diasporu bizim diaspora təşkilatları qarşısında heç nə edə bilməyəcək.

Bu istək isə dövlətimiz və Diaspora Komitəmiz qarşısında daha mühüm vəzifələr qoyur. Baxmayaraq ki, bu diaspora qurumları bizim üçün, dövlət üçün yeni bir qurumdur, ancaq fəaliyyəti müddətində xeyli işlər görüb. Bununla yanaşı, dünya, Türkiyə təcrübəsi var ki, onları daha yaxşı öyrənib əxz etmək tələb olunur. Yalnız bu halda daha güclü bir fəaliyyət ortaya qoymaq mümkün olar. O da bir faktdır ki, bizim diaspora hərəkatımız erməniləri üstələyib, dövlətin və millətin haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında diaspora hərəkatımızın töhfələri danılmazdır.

### Ziyalı potensialımız diasporamızı daha güclü edir

Məlumdur ki, Azərbaycanın Rusiya, ABŞ və Fransa kimi ölkələrdə güclü diaspor təşkilatları fəaliyyət göstərir. Təbii ki, bu, qurumların fəaliyyəti digər dövlətlərdəki diaspora təşkilatlarımız üçün bir örnək olmalıdır. Baxmayaraq ki, Fransa ermənilərin ən çox yaşadığı və ən güclü diasporun fəaliyyət göstərdiyi bir ölkədir, Rusiya və ABŞ-da güclü erməni diasporu fəaliyyət göstərir. Bizim bu ölkələrdəki diaspor təşkilatlarımız arasında əlaqələrin yüksək səviyyədə olması ilə heç şübhəsiz ki, həmin ölkələrdəki erməni diaspor təşkilatlarına çox ciddi zərbə vura bilərik. Amma o da faktdır ki, müxtəlif ölkələrdəki diaspora təşkilatlarının atdıqları addımları elə də adekvat hesab etmək düzgün olmazdı. Çünki bir çox hallarda diaspora təşkilatlarımız fəaliyyətlərini yalnız baş verən hadisələrə münasibətdə bəyanat verməklə kifayətlənirlər. Lakin reallıq ondan ibarətdir ki, diaspora fəaliyyətini sadəcə sözlə, bəyanatla məhdudlaşdırmaq olmaz.

Diaspora təşkilatlarımız daim hücum taktikasını seçməli və hücum mövqeyində olmalıdır. Nəzərə almaq lazımdır ki, biz ən azı haqq mövqeyindəyik və beynəlxalq hüququn dəstəklədiyi tərəfdəyik. Beynəlxalq hüquq da imkan verir ki, xalqımızın haqq səsini dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırmaqda sərbəst fəaliyyət göstərə bilək. Bəs, reallıqda necə, Azərbaycan diaspora təşkilatlarının inkişaf səviyyəsini necə dəyərləndirmək olar, diaspora təşkilatlarımız qarşıya qoyulan məqsədlərə nail ola bilirlərmi? Əvvəla onu qeyd edək ki, Azərbaycan diaspora hərəkatı hələ təşəkkültapma mərhələsindədir. Yəni, diaspora təşkilatlarımız hələ tam formalaşmayıb, tam gücü ilə fəaliyyətə başlamayıb.

Buna baxmayaraq bizim diaspora potensialımız indiyə qədər mövcud olmuş bir sıra xalqların diaspora imkanlarından, o cümlədən ermənilərdən qat-qat güclüdür. Biz həm kəmiyyət, həm də keyfiyyət baxımından həmin güclərdən dəfələrlə yüksəkdə dururuq. İstər Rusiya, istər Amerika, istərsə də Fransada bizim potensialımız keyfiyyət baxımından xeyli irəlidədir. Ziyalıların çoxluğu baxımından bizim diaspora təşkilatlarımız ermənilərlə müqayisədə daha güclü və çevik ola bilər. Bizim tanınmış elm adamlarımız təbii ki, Rusiya, Fransa və Amerikada kifayət qədərdir. Bu baxımdan hesab etmək olar ki, diaspora strukturların görə biləcəyi işlər daha çoxdur. Təbii ki, bu işin koordinasiyası Azərbaycandan olmalıdır. Buna isə Azərbaycan dövlətinin və diaspora komitəsinin birgə fəaliyyəti nəticəsində nail olmaq mümkündür.

**İcmalar arasında əlaqələrin genişlənməsi mühüm şərtdir**

Daha konkret desək, diaspora təşkilatlarımızın fəaliyyətinin daha da gücləndirilməsi üçün bir sıra qurumların qarşılıqlı fəaliyyətinə ehtiyac var. Xüsusən, diaspora ilə əlaqədar təcrübənin bir az da artırılmasına diqqət yetirilməlidir.

Dünyanın bir çox xalqları var ki, onlar artıq çoxdan belə strukturlar yaradıblar və xaricdə yaşayan həmvətənləri ilə çox gözəl iş qura biliblər. Biz də digər ölkələrin təcrübəsindən öyrənib, həmən təcrübədən öz işimizdə istifadə etməyi bacarmalıyıq. Diaspora təşkilatlarına tanınmış, dünya şöhrətli alimlərimizi cəlb etmək məqsədilə harada yaşamasından asılı olmayaraq yer üzündə yaşayan bütün azərbaycanlıların hüquq və azadlıqları qorumalıdır.

Xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması üçün maksimum imkanlardan istifadə edilməlidir. Bu işə Azərbaycanda və xarici ölkələrdə fəaliyyət göstərən bütün dövlət və qeyri-dövlət təşkilatlarımız cəlb edilməlidir. Məsələn, harada azərbaycanlıların hüquqları pozulursa, dərhal həmən dövlətlərin hökumət və parlamentlərinə müraciətlər edilməli, onların hüquq və azadlıqlarının beynəlxalq hüquq çərçivəsində qorunmadığı üçün irad bildirilməlidir. Həmin ölkələrdən tələb edilməlidir ki, həmvətənlərimizin hüquq və azadlıqları layiq olduğu səviyyədə qorunsun. Azərbaycanlıların dilimizə, dinimizə, mədəniyyətimizə yadırğamamaları üçün yaşadıqları ölkələrdə soydaşlarımızın yaratdıqları cəmiyyətlərin nəzdində kurslar açılmalı, kitabxanalar yaradılmalıdır ki, onların övladları Azərbaycan dilini unutmasınlar. Ən əsası isə Azərbaycan xalqının övladı olmalarını unutmasınlar.

Nəzərə alınmalıdır ki, yeni nəsil özündən asılı olmayan səbəblərdən yadlaşmağa başlayır ki, buna da imkan vermək olmaz. İndinin özündə də bu işi elə qurmaq lazımdır ki, harada yaşamasından, hansı dövlətdə olmasından asılı olmayaraq hər bir Azərbaycan övladı bilsin ki, onun doğma vətəni Azərbaycandır, atası-babası kimdir, millətinin tarixi nədən ibarətdir. Aparılan təbliğat işi ona hesablanmalıdır ki, harada yaşamalarından asılı olmayaraq azərbaycanlılar öz etnik mənsubiyyətlərini unutmasınlar, əksinə Azərbaycanın elçilərinə çevrilsinlər. Azərbaycanı dəstəkləsinlər, yaşadıqları ölkələrdə Azərbaycanın sözünü desinlər, Azərbaycanın müstəqil dövlət olaraq daha da inkişaf etməsində öz töhfələrini versinlər.

Buna nail olmağın yolu xarici ölkələrdə yaşayan soydaşlarımıza Azərbaycanın üzləşdiyi problemlər haqqında daha dolğun məlumatlar vermək, onlar da yaşadıqları ölkələrdə Azərbaycanda baş verənlər, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumatların çatdırılmasından keçir. Bununla yanaşı, xaricdə yaşayan soydaşlarımızın təhsil problemi diqqət mərkəzində olmalıdır. Milli-mədəniyyətimizin inkişafına hesablanmış proqramlar ortaya qoyulmalıdır. Milli qürurumuzu, milli varlığımızı qoruyub saxlamaq üçün konkret işlər görülməlidir. Elə etmək lazımdır ki, xaricdə yaşayan soydaşlarımız bu işlərdə bir dəstək hiss etsinlər, maddi və mənəvi dəstək görsünlər. Müxtəlif proqramların hazırlanması, onların həyata keçirilməsində sözsüz ki, Azərbaycan dövləti birbaşa iştirak etməlidir. Təbii ki, xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri, milli-mədəniyyət mərkəzləri, icmaları arasında da əlaqələrin qurulması son dərəcədə vacibdir. Onların fəaliyyətini koordinasiya edən regional mərkəzlərin sayının artırılması qarşıya qoyulan hədəflərə çatmağa imkan vermiş olar.

**“Olaylar”.-2013.-13 avqust.-№141.-S.7.**

## Azərbaycan dövləti diaspor fəaliyyətinə lazımi dəstək verir

### Diaspor təşkilatlarımız ölkə həqiqətlərinin carçısına çevriliblər

Azərbaycanın müstəqil dövlət statusuna sahib çıxması və hazırda dünyada baş verən proseslərin müxtəlifliyi diasporun önəmini daha da artırıb. Xüsusən ölkəmizin üzləşdiyi haqsız münaqişə diaspora fəaliyyətinin daha da genişlənməsini zəruri edir. Ermənistan kimi məkrli düşməni olan Azərbaycan üçün güclü diasporun mövcudluğunun əhəmiyyəti olduqca böyükdür.

Bu səbəbdən də Azərbaycan diasporunun inkişaf etməsi, güclənməsi xüsusi əhəmiyyət kəsb edir. Yalnız bu halda ölkə həqiqətlərinin, üzləşdiyimiz faciələrin, eyni zamanda mədəniyyətimizin, tariximizin və digər sahələrdəki uğurlarımızın dünya ictimaiyyətinə çatdırılmasına daha tez nail ola bilərik. Sirr deyil ki, hətta bir sıra inkişaf etmiş dövlətlər də öz milli maraqlarını diasporlar vasitəsilə həyata keçirirlər. Bundan əlavə, regionda nüfuz əldə etmək istəyən qüdrətli dövlətlər diaspor faktoruna böyük diqqət verirlər.

### Diasporaya dövlət dəstəyi öz nəticəsini verməkdədir

Baxmayaraq ki, Azərbaycan diasporunun inkişaf mərhələsi müstəqillik illərinə təsadüf edir, ancaq tarixi sənədlər və faktlar diasporumuzun hələ ötən əsrin əvvəllərindən formalaşmasını inamla söyləməyə əsas verir. Belə ki, 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının süqutundan sonra xarici ölkələrə səpələnən soydaşlarımızın siyasi fəaliyyətini də diaspor adlandırmaq olar.

Nəzərə almaq lazımdır ki, hələ ötən əsrin əvvəllərində bir çox azərbaycanlı ziyalılar öz fəaliyyətləri ilə lobbiçilik funksiyasını yerinə yetiriblər. Ümumilikdə Azərbaycan diasporunun təşəkkülü, formalaşması və inkişaf tarixi bilavasitə xalqın mühacirət tarixi ilə bağlıdır.

Azərbaycanlıların xarici ölkələrə mühacirəti tarixən qədim köklərə malik olsa da, sistemli şəkildə bu proses XIX əsrin birinci yarısındakı siyasi-hərbi münaqişələr, İran-Rusiya müharibələri, Qafqaz regionundakı məcburi miqrasiya prosesləri ilə bağlıdır. Lakin reallıq ondan ibarətdir ki, ümummilli lider Heydər Əliyev də bu sahəyə böyük önəm verirdi. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə diaspora fəaliyyətinin qanunvericilik bazası yaradıldı, icra orqanı olaraq Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (Diasporla İş üzrə Dövlət Komitəsi) təsis edildi.

Yeni qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən etdi. Müvafiq komitənin yaradılması isə xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini müəyyən etdi.

Beləliklə dövlət qarşısına məqsəd qoydu ki, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə və onların öz milli özgürlüyünü qoruyub saxlamasına və inkişaf etdirməsinə kömək göstərsin. Hazırda ölkə Prezidenti İlham Əliyev də diaspor sahəsinə böyük diqqət yetirir. Məlumat üçün qeyd edək ki, indi Azərbaycan diasporu gərgin əməyi və çevikliyi ilə fərqlənir.

Diaspor təşkilatlarımız öz fəaliyyətlərini hamılıqla qəbul edilən beynəlxalq hüquq çərçivəsində qurduğundan mövcud olduqları ölkələrin siyasi rəhbərliyi tərəfindən qəbul edilirlər. Eyni zamanda xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət orqanları, eləcə də qeyri-hökumət təşkilatları ilə sıx əlaqələr qurmasına və inkişaf etdirməsinə, ölkəmizin daxili və xarici siyasəti, iqtisadi, sosial və mədəni həyatı haqqında informasiya almasına şərait yaradılır.

Dövlət diaspora təşkilatlarına öz dəstəyini əsirgəməyərək xaricdə yaşayan azərbaycanlıları Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına və möhkəmləndirilməsinə, iqtisadi, sosial və mədəni inkişafına, cəmiyyətin və dövlətin siyasi həyatına, habelə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsinə cəlb edir.

Paralel olaraq beynəlxalq hüquq normaları və müvafiq dövlətlərin qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə yardım göstərir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bəyan edib ki, artıq Azərbaycan diasporu hücum taktikasına üstünlük verməlidir. Həqiqətən də Azərbaycan diasporunun buna potensialı var və artıq bu istiqamətdə ciddi addımlar atılıb.

**Təşkilatlanma diaspora fəaliyyətinin əsas şərtidir**

Azərbaycan dövləti diasporanın təşkilatlanması məsələsinə də önəm verir. Qeyd edək ki, Dünya Azərbaycanlılarının birinci qurultayının keçirilməsi diasporun təşkilatlanması baxımından önəmli rola malik idi. Məhz bu kimi addımların nəticəsində Dünya Azərbaycanlılarının 3-cü qurultayının keçirilməsi zamanı artıq Azərbaycan diasporu pərakəndə şəkildə deyil, mütəşəkkil formada fəaliyyət göstərirdi.

Qurultaya qatılan təşkilat rəhbəri real konsepsiya ilə çıxış edir və əldə olunan nəticələrdən danışırdılar. Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayı da diasporun təşkilatlanması baxımından önəmli hadisələrdən biri idi. İndi azərbaycanlıların ideya-siyasi birliyi yalnız ölkəmizin milli maraqlarından irəli gələn məsələ deyil, həm də müasir dünyada gedən ictimai-siyasi proseslərin tələbi ilə ortaya çıxan zərurətdir. Bu gün xarici ölkələrdə yaşayan azərbaycanlıların sürətlə təşkilatlanması prosesi müşahidə edilməkdədir. Azərbaycan Respublikası bu prosesə dəstək verir və onu daha da təkmilləşdirməyə, soydaşlarımızın diaspor quruculuğu sahəsində fəaliyyətini koordinasiya edir.

Təşkilatlanmış Azərbaycan cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması diaspor quruculuğu işinin ən mühüm məsələlərindəndir. Bu məqsədlə ötən dövrdə soydaşlarımızın yaşadıqları ölkələrdə keçirilən seçkilərə təsiretmə mexanizmlərinin hazırlanmasına nail olmaq üçün müəyyən işlər görülüb və uğurlu nəticələr qazanılıb. Artıq dünyanın bir sıra ölkələrində diaspora təşkilatlarımız uğuru fəaliyyəti ilə seçilir. Baxmayaraq ki, vaxtilə Azərbaycan diaspor təşkilatlarının yaranmasında Avropa ölkələrində yaşayan soydaşlarımız fəallıq nümayiş etdiriblər. Daha sonralar isə kiçik təşkilatların federasiyalar və konqreslər şəklində birləşdirilməsi zərurəti meydana çıxıb. İndi Azərbaycan diaspor təşkilatlarını ətrafında birləşdirən böyük qurumlardan biri də Almaniyanın Berlin şəhərində təsis olunan Avropa Azərbaycanlıları Konqresidir (AAK). Təşkilatın yaranma zərurəti Avropada pərakəndə Azərbaycan təşkilatlarını birləşdirməkdən irəli gəlir. Diasporla İş Üzrə Dövlət Komitəsinin (DİDK) təşəbbüsü ilə yaradılan AAK Avropada yaşayan azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, onların sosial-siyasi və hüquqi maraqlarını təmin etmək və digər ümummilli maraqları müdafiə etmək məqsədi daşıyır. Sayına və fəaliyyətinə görə Azərbaycan diasporunun güclü olduğu dövlətlərdən biri Rusiyadır. Rusiyada Azərbaycan diaspor təşkilatları 89 obyektin hamısında var. Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan mərkəzlərdən Ümumrusiya Azərbaycanlılar Konqresinin adını çəkmək olar. Rusiya Azərbaycan Gəncləri Təşkilatının fəaliyyətin müsbət nəticələr verməsini də vurğulamaq lazımdır. Təşkilatın sədri Leyla Əliyevanın başlatdığı "Xocalıya Ədalət" kampaniyası effektli nəticələr verir.

**Azərbaycan dilinin və mədəni irsin qorunub saxlanması ənənəsi**

Xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan dövlətinin xaricdə yaşayan soydaşlarımızla bağlı mədəniyyət, dil və təhsil siyasəti mövcuddur və bu siyasət uğurla həyata keçirilməkdədir. Sirr deyil ki, Azərbaycanın dövlət orqanları mütəmadi olaraq xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, öz ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görürlər. Sadalanan məqsədlərə nail olmaq üçün dövlət orqanları digər dövlətlərdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətləri ilə hərtərəfli əməkdaşlıq həyata keçirirlər. Konkret olaraq xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına, kitabxanalarına, arxivlərinə, muzeylərinə, teatrlarına, musiqi ansambllarına və digər yaradıcı kollektivlərinə yardım göstərilir, xarici ölkələrdə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin tədris-metodik və maddi- texniki təminatına və inkişafına, eləcə də həmin məktəblər üçün kadrların hazırlanmasına yardım edilir, soydaşlarımızın öz ana dilini qoruyub saxlamaqda, ana dilinin öyrənilməsinə, təhsil almaq və informasiya əldə etmək üçün bu dildən istifadəyə şərait yaradılmasında kömək göstərilir. Ən əsası xaricdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasında təhsil almaq, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün güzəştli şərtlərlə yardım göstərilir.

**"Olaylar".-2013.-15 avqust.-№121.-S.7.**

**Berlin şəhərində Almaniya Sosial-Demokrat Partiyasının təşəbbüsü ilə "Almaniya bayramı" adlı tədbir təşkil olunmuşdur**

Cari ilin 17-18 avqust tarixlərində Berlin şəhərində Almaniya Sosial-Demokrat Partiyasının təşəbbüsü ilə "Almaniya bayramı" adlı tədbir təşkil olunmuşdur. Bu tədbirdə Almaniyada fəaliyyət göstərən Azərbaycanlı Tələbə və Elmi İşçilər Birliyi (ATEB) də Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin dəstəyi ilə bu tədbirdə Vətənimizi uğurla təmsil etmişdir. Azərbaycana həsr olunmuş stendi sadə vətəndaşlarla yanaşı, Bundestaqın deputatları və deputatlığa namizədlər də ziyarət etmişlər. Bu stend Sosial-Demokrat Partiyasının müxtəlif qurumlarının da xüsusi marağına səbəb olmuşdur.

**17-18 avqust 2014**

**Xalq Artisti Müslüm Maqomayevin anadan olmasının 71-ci ildönümünə həsr olunmuş konsert proqramı təqdim edilmişdir**

2013-cü il avqustun 21-də Azərbaycan Respublikasının Özbəkistandakı Səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli müğənni və bəstəkar, Xalq Artisti Müslüm Maqomayevin anadan olmasının 71-ci ildönümünə həsr olunmuş konsert proqramı təqdim edilmişdir. Tədbir Daşkənddəki Azərbaycan diasporunun gənclər təşkilatı ilə birgə təşkil olunmuşdur.

Tədbirdə çıxış edənlər Müslüm Maqomayevin dünya musiqi xəzinəsinə bəxş etdiyi töhfələrdən danışmışlar. Azərbaycanlı gənclərdən ibarət "Şən və hazırcavablar klubu" üzvlərinin Müslüm Maqomayevin xatirəsinə ithaf edilmiş və çıxışları iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

**21 avqust 2016**

**Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə bu qurumun nəzdində olan Azərbaycan Evində “Ana dili” məktəbinin açılışı olmuşdur**

25 avqust 2013-cü il tarixində Danimarkada fəaliyyət göstərən "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə bu qurumun nəzdində olan Azərbaycan Evində “Ana dili” məktəbinin açılışı olmuşdur. Tədbirdə Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin əməkdaşları, Cəmiyyətin üzvləri, Danimarkada yaşayan həmvətənlərimiz ilə yanaşı, türklər və türkmənlər də iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan "Vətən" Cəmiyyətinin sədri Səfər Sadiqi məktəb və onun fəaliyyəti haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycan “Ana dili” məktəbində şahmat və musiqi siniflərinin fəaliyyəti nəzərdə tutulmuşdur.

Azərbaycanın xaricdəki nailiyyətlərinin hər birimizi sevindirdiyini bildirən F.Qurbanov ölkəmizin diaspor təşkilatlarına, o cümlədən “Vətən” Cəmiyyətinə minnətdarlığını ifadə etmiş, uğurların davamını arzulamışdır. Tədbir çərçivəsində “Ana dili” məktəbinin ilk şagirdlərindən Leyla Vahabova dövlət himnimizi səsləndirmiş, Cəmiyyətin fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilmişdir.

Daha sonra səfir Fəxrəddin Qurbanov Danimarkada yaşayan azərbaycanlıların problemləri ilə maraqlanmış, onların suallarını cavablandırmışdır. Səfirlik adından Cəmiyyətə rəsm əsəri təqdim olunmuş, müxtəlif dillərdə kitablar və milli mədəniyyətimizi, tariximizi əks etdirən suvenirlər hədiyyə edilmişdir. Sonda Cənubi Azərbaycandan olan Aşıq Abbas qədim musiqi alətimiz olan sazda milli musiqimizdən nümunələr ifa etmişdir.

**25 avqust 2013**

**“Azərbaycan diasporunun güclənməsi gənclərimizin gələcəyindən, onların birliyindən çox asılıdır”**

**Afil Hüseynov: " Çalışırıq ki, onları bir araya toplayaq, bir-birinə daha da yaxınlaşdıraq”**

“Deyəsən məqsədimizə yavaş-yavaş nail oluruq”

Azərbaycan diaspor təşkilatları sırasında ən geniş şəbəkəli və çoxsaylı üzvü olan təşkilatlardan biri ÜmumRusiya Azərbaycanlıları Konqresidir ki, hazırda sözügedən konqresin təkcə şimal qonşumuzun mərkəzi şəhərləri deyil, eləcə də ən ucqar vilayətləri, ayrı-ayrı subyektlərində də regional təşkilatları mövcuddur. ÜmumRusiya Azərbaycanlıları Konqresinin regional təşkilatları sırasında Murmansk vilayət bölməsi də öz aktivliyi ilə seçilir. Hazırda ÜmumRusiya Azərbaycanlıları Konqresi Murmansk vilayəti bölməsinə dəyərli soydaşımız Afil Hüseynov rəhbərlik edir. Azərbaycanı Rusiya Federasiyasının Murmanks vilayətində layiqli təmsil edən həmvətənlərimizdən biri olan Afil Hüseynov 1966-cı ildə Şərur rayonunun Kərimbəyli kəndində dünyaya gəlib. A.S.Qriboyedov adına Moskva Beynəlxalq əlaqələr və İqtisadiyyat İnstitutunun hüquqşünaslıq fakültəsini bitirən Afil Hüseynov ÜAK-ın regional təşkilatına rəhbərlik etməklə paralel olaraq hazırda sahibkarlıq fəaliyyəti ilə də məşğuldur.

Lobbiçilik işi ilə də məşğul olan Afil Hüseynov vilayətin yerli icra orqanları ilə də yaxından əməkdaşlıq edir, rəsmi dairələrdə Azərbaycanı layiqincə təmsil edir. Ümumrusiya Azərbaycanlılar Konqresinin Murmansk vilayət bölməsinin sədri olan soydaşımız həmçinin Murmansk vilayəti İctimai Palatasının üzvü, Murmansk vilayətinin qubernatoru yanında Milli Məsələlər üzrə Məşvərət Şurasının üzvüdür. Bir neçə vəzifəni icra etməkdə heç bir çətinlik çəkmədiyini deyən Afil Hüseynov bütün fəaliyyəti boyunca Azərbaycanın haqq işi uğrunda mübarizə apardığını diqqətə çatdırıb. Soydaşımız bildirib ki, icra etdiyi bir vəzifə digərini daha effektli icra etməyə şərait yaradır: “Məsələn, mənim, yerli icra strukturlarında təmsil olunmağım, oradakı əlaqələrim ÜmumRusiya Azərbaycanlıları Konqresinin Murmansk bölməsinin sədri kimi işlərimi daha səmərəli həyata keçirməyə imkan verir. Yəni Murmanskda yaşayan soydaşlarımızın problemlərini həll etməkdə bir növ mənə kömək olur”. Afil Hüseynov qeyd edib ki, hazırda onun yaşadığı vilayətdə on minə, Murmansk şəhərinin özündə isə altı minə yaxın azərbaycanlı yaşayır: “Bu soydaşlarımız bizə ən müxtəlif - qeydiyyat, iş, mənzil, hətta məişət problemləri ilə belə müraciət edirlər. Mən də diaspora rəhbəri olaraq, əlaqələrimdən istifadə edib hər cür yardım göstərməyə çalışıram.

Əsasən də gənc nəslə dəstək olmağı özümə borc bilirəm. Hesab edirəm ki, Murmanskda Azərbaycan diasporunun güclənməsi gənclərimizin gələcəyindən, onların birliyindən çox asılıdır. İndiki gənclik ağıllı, istedadlı, təhsilli və eyni zamanda çox aktivdir. Biz çalışırıq ki, onları bir araya toplayaq, bir-birinə daha da yaxınlaşdıraq. Deyəsən məqsədimizə yavaş-yavaş nail oluruq. Təxminən on il əvvəl bir-birini tanımayan Murmanskın azərbaycanlı gəncləri apardığımız işlərin nəticəsində artıq öz aralarında ünsiyyət yaradıblar. Onlar birlikdə həm əylənirlər, həm də maariflənirlər.

Murmanskda gənclərimizin diskotekası var ki, hər şənbə günü orada görüşüb, əylənir, söhbət edir və fikir mübadiləsi aparırlar. Gənclərimizin ayrıca birliyi də fəaliyyət göstərir ki, burada artıq onlar müxtəlif mövzularda forumlar, tədbirlər keçirir, Azərbaycanı təbliğ edirlər”. Afil Hüseynovun sözlərinə görə, tədbirlər əsasən Azərbaycan üçün əlamətdar olan tarixləri, milli bayramlarımızla əlaqədar əlamətdar günləri özündə ehtiva edir: “Məsələn, hər il mütləq 20 Yanvar, Xocalı, 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü faciələrinin ildönümlərinə həsr olunmuş anım tədbirlərini yüksək səviyyədə keçiririk. Bununla dərdimizi həm yerli əhaliyə çatdırır, təbliğ edirik, həm də azərbaycanlı gənclərin milli faciələrimizdən xəbərdar olması, bu tarixləri unutmaması üçün müəyyən işlər görmüş oluruq. Hesab edirəm ki, Azərbaycan tarixinin bu səhifələrini vətəndən kənarda böyüməkdə olan gənc nəslimizin yaddaşına həkk etmək lazımdır ki, sabah onlar istədiyimiz səviyyədə təbliğat apara bilsinlər.

Biz milli bayramlarımızın keçirilməsinə də xüsusi önəm veririk. Ümumiyyətlə, harada yaşamağımızdan asılı olmayaraq milli adət-ənənələrimizi yaşatmaq bizim borcumuzdur. Bütün bu tədbirlərimizə - istər anım mərasimi olsun, istər bayram şənliyi – biz Murmanskda yaşayan digər millətlərin, eləcə də ictimaiyyətin nümayəndələrini də dəvət edirik. Hazırda vilayətdə altmışa yaxın millətin nümayəndəsi yaşayır. Qeyd edim ki, üzvü olduğum Murmansk vilayəti İctimai Palatasında da paralel olaraq təbliğat işləri görürük”.

Afil Hüseynov yaşadığı bölgədə mövcud olan digər diaspor təşkilatları və onlarla mümkün əməkdaşlıqdan da söhbət açıb: “Bu yaxınlarda Murmanskda millətlərarası forum keçirdik. Məncə bu tədbir özü digər diaspor təşkilatları ilə isti əlaqələrimizin bariz nümunəsidir. Amma Murmanskdakı digər millətlərin nümayəndələri etiraf edir ki, hər hansı problem ortaya çıxanda və ya bir məlumat almaq lazım gəldikdə azərbaycanlılara müraciət edir, onlardan öyrənirik. Biz işimizi layiqli görməyə çalışırıq”. Həmyerlimiz Murmanskda yaşayan azərbaycanlıların Rusiya siyasətinə inteqrasiyasına olan marağı barədə də danışıb:

“Mən özüm həm bizneslə məşğulam, həm də dövlət qurumunda çalışıram və istəyirəm ki, bu, bir və ya bir neçə adamla məhdudlaşmasın. Orada yaşayan gənclərimizə göstərdiyim xüsusi dəstəyin əsas səbəbi də məhz budur ki, onlar tədricən vilayətin ictimai-siyasi həyatında öz yerini tuta bilsin.

Bu, onların gələcəkdə hətta siyasətdə yer ala biləcəyinə böyük zəmin yaradır. Sizə maraqlı bir fakt deyim: şəhərin beş il əvvəlki qubernatoruna dedik ki, ruslar kütləvi şəkildə Murmanskı tərk edir, azərbaycanlıların sayı isə çoxalır. Qubernator isə belə cavab verdi ki, belə davam etsə, şəhəri sizə saxlayıb buradan getməli olacağıq. Mən dedim, etiraz etmirəm, biz özümüz də idarə edə bilərik. Əlbəttə, bu, qubernatorla aramızda bir zarafat idi. Amma mən bu barədə ciddi düşünürəm və bütün səylərimi də bu istiqamətə yönəltmişəm. Orada yaşayan hər bir təhsilli gəncimizi şəhərin ən yuxarı qurumlarına, məsələn, vilayət dumasına və s. inteqrasiya etdirmək fikrindəyəm.

Biz də yeni fəaliyyətə başlamışıq, ictimai birliyimiz 2008-ci ildə yaradılıb. Bu az müddətdə qeyd etdiyim kimi kifayət qədər işlər görmüşük. Mənim niyyətim odur ki, Murmanskda yaşayan hər bir azərbaycanlı, xüsusən də gənclərimiz özünü vətəndən uzaqda yox, elə Azərbaycandakı kimi hiss etsin. Düzdür, əvvəllər gənclərimiz Azərbaycan dilini bilmirdilər, ünsiyyətdə çətinlik çəkirdilər. Amma artıq bu məsələni demək olar həll etmişik, Artıq dili öyrəniblər və ünsiyyət problemi geridə qalıb. Müqayisə edəndə indi vəziyyət daha yaxşıdır”.

**Süleyman İsmayılbəyli**

**“Olaylar”.-2013.-29 avqust.-№153.-S.7.**

**Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Madrid Klubunun təşkilatçılığı ilə keçirilən beynəlxalq toplantı öz işinə başlayır**

Sabahdan – Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Madrid Klubunun təşkilatçılığı ilə keçirilən beynəlxalq toplantı öz işinə başlayır. Latviya, Finlandiya, Hollandiya, Şri-Lanka və digər ölkələrin keçmiş dövlət və hökumət başçıları, həmçinin bir sıra nüfuzlu beynəlxalq qurumların rəhbərlərinin iştirakı ilə keçiriləcək Yüksək Səviyyədə Görüşün məqsədi "Birgə Cəmiyyətlər -2014" forumuna hazırlıqdır. Iki gün – sentyabrın 5-6-da davam edəcək Yüksək Səviyyədə Görüşün iştirakçıları Cənubi Qafqazda münaqişələr, qadınların cəmiyyətdə aktivliyinin artırılması, mədəniyyətlərarası və dinlərarası dialoq, 2015-ci il Minillik İnkişaf Proqramı kimi əhəmiyyətli mövzuları müzakirə edəcəklər.

ToplantıdaDiasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - Vaira Vike-Freiberga (Latviyanın sabiq prezidenti), İsmail Serageldin (İsgəndəriyyə Kitabxanasının Direktoru) və Mərkəzin İdarə Heyətinin üzvləri - prezident Tarja Halonen (Finlandiyanın sabiq prezidenti), Walter Fust (YUNESKO-nun Hökumətlərarası Media Komissiyasının sədri) o cümlədən, Madrid Klubunun prezidenti Wim Kok (Hollandiyanın sabiq Baş naziri) və Jennifer M. Shipley (Yeni Zellandiyanın sabiq Baş naziri), Jorge Quiroga (Boliviyanın sabiq prezidenti) və hər iki qurumun digər üzvləri, o cümlədən tərəfdaş təşkilatlar–Beynəlxalq Dialoq və Əməkdaşlıq Mərkəzinin rəhbəri Petar Stoyanov (Bolqarıstanın sabiq prezidenti), Dünya Elm və Mədəniyyət Akademiyasının prezidenti İvo Slaus, Gürcüstan Universitetinin həmsədri, xanım Giuli Alasaniya və digər nüfuzlu şəxslər iştirak edəcəklər. Tədbir çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun İdarə Heyətlərinin toplantısı keçirilməsi planlaşdırılır.

İclasda Mərkəzin illik hesabatı müzakirə olunacaq və növbəti il üçün fəaliyyət strategiyası müəyyən ediləcək. Toplantının sonunda BMT Baş Katibi Ban Ki Muna və Baş Assambleyaya müraciət olunması planlaşdırılır. Yüksək Səviyyədə Görüşün sonuncu günü – sentyabrın 6-da toplantının yekunlarına, əldə olunan razılaşmalara dair jurnalistlər üçün mətbuat konfransı keçiriləcək.

ABŞ-ın sabiq Dövlət Katibi Hilları Klinton Yüksək Səviyyədə Görüşün iştirakçılarına müraciət edərək onlara toplantının uğurlu və səmərəli keçməsində xoş arzularını bildirib. Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə reallaşan Yüksək Səviyyədə Görüşün davamı olaraq "Müştərək Cəmiyyətlər Forumu 2014" layihəsi çərçivəsində Brisbon (Avstraliya), Afina (Yunanıstan), İsgəndəriyyə (Misir) və Madriddə (İspaniya) toplantıların keçirilməsi nəzərdə tutulub. Xatırladaq ki, Müştərək Cəmiyyətlərə dair gerçəkləşən Açıq Cəmiyyət Forumu Diasporla İş üzrə Dövlət Komitəsi və İsgəndəriyyə Kitabxanasının dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubu tərəfindən 2013-cü il mayın 5-8-də Bakıda təşkil olunub. Tədbirdə 40-a yaxın ölkənin sabiq dövlət və hökumət başçısı iştirak edib.

**4 sentyabr 2013**

**Heydər Əliyev adına Dünya Boks Komitəsi Almaniyanın Aysleben şəhərində növbəti boks çempionatına start verir**

Heydər Əliyev adına Dünya Boks Komitəsi Almaniyanın Aysleben şəhərində növbəti boks çempionatına start verir. Ümummilli lider Heydər Əliyevin adını daşıyan kəmər uğrunda Azərbaycandan ağırçəkili boksçumuz Elçin Əhmədov, Rusiyadan Adam Qadayev, Qırğızıstandan Timur Zaslavskiy, Belarusdan Henadzi Danilyuk, Polşadan Aleh Dymkavets, Artsem Hurbo, Almaniyadan Marko Angermann, Suriyadan Samir Nebo rinqdə öz gücünü sınayacaq. Çempionatın ilk turu sentyabrın 7-də Almaniyanın Aysleben şəhərində, ikinci turu isə Ukraynanın Xarkov şəhərində keçiriləcək.

Boks turnurlərinin təşkilində Almaniyanın Zakhsen-Anhalt Əyaləti üzrə Alman-Azərbaycan Mədəniyyət Cəmiyyəti Heydər Əliyevin adını daşıyan Komitəyə öz dəstəyini gpstərir. Qeyd edək ki, Heydər Əliyev adına Dünya Boks Komitəsi Almaniyanın Maqdeburq şəhərində yaradılıb və həmin şəhərdə fəaliyyət göstərir. Dünya idmançılarını birləşdirmək, başqa millətlərdən olan idmançılarla Avropada yaşayan soydaşlarımız arasında dostluq əlaqələrini möhkəmləndirmək, Heydər Əliyevin adını daşıyan dünya kəmərlərini dünyanın ən məşhur kəmərləri sırasına gətirmək məqsədilə yaradılan komitə fəaliyyət göstərdiyi müddətdə xalqımızın üçrəngli bayrağını uca tutub, Azərbaycan Respublikasının dövlət himnini dəfələrlə səsləndirməyə nail olub. Komitə eyni zaman diaspor fəaliyyətində də bir sıra uğurlara imza atıb. Komitə tərəfindən hər il ümummilli lider Heydər Əliyevin doğum gününün Almaniyanın müxtəlif şəhərlərində qeyd olunması artıq ənənə halını alıb.

Komitə 2013-cü ilin oktyabr ayında Azərbaycanda keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləmək məqsədilə bir sıra kampaniyalar həyata keçirməyi planlaşdırıb.

**4 sentyabr 2013**

**Bakıda konfrans keçirilmişdir**

Cari ilin 4-6 sentyabr tarixlərində "Birgə Cəmiyyətlər - 2014" forumuna hazırlıq məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşəbbüsü və dünyanın bir sıra elm və mədəniyyət qurumlarının iştirakı ilə Bakıda keçirilmiş konfrans mədəniyyətlərarası və dinlərarası dialoq kimi mühüm əhəmiyyət kəsb edən problemlərin müzakirə edilməsi baxımından önəmli tədbirlər sırasındadır. Tədbirdə müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak etmişdir.

**4-6 sentyabr 2013**

## "Azərbaycanlılar artıq Rusiyada öz yerlərini tapıblar"

***Nazim İbrahimov : "Demək olar ki, soydaşlarımızın hamısı bu ölkədə qanuni vəziyyətdə yaşayırlar"***

Rusiya Federasiyasında miqrantlara qarşı həyata keçirilən tədbirlərin bu ölkədə yaşayan soydaşlarımız üçün də problemə yol açacağı istisna edilmir. Hətta miqrantlara qarşı qanunların şərtləşdiriləcəyindən sonra Rusiya Federasiyasında xırda bizneslə məşğul olan azərbaycanlıların böyük bir qisminin məcburiyyət qarşısında qalaraq Vətənə qayıdacağı istisna edilmir. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov isə belə düşünmür. Jurnalistlərə verdiyi müsahibədə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri bildirib ki, Rusiya Federasiyasında yaşayan azərbaycanlıların böyük əksəriyyəti bu ölkədə öz yerlərini tapıb və o mühitə uyğunlaşıblar. Eyni zamanda soydaşlarımız Rusiya Federasiyasının qanunlarına da hörmətlə yanaşaraq müvafiq sənədləşmə işlərini zamanında həyata keçirirlər. Komitə sədrinin sözlərinə görə, bu səbəbdən Rusiyada miqrantlara qarşı həyata keçiriləcək tədbirlər bu ölkədə yaşayan azərbaycanlılar üçün o qədər də ciddi problem yaratmayacaq. Nazim İbrahimov Bakıda keçirilən Ali Səviyyəli Toplantı və dünya dövlətləri tərəfindən Azərbaycana olan maraq barədə də danışıb.

**-Nazim müəllim, Rusiya Federasiyasında miqrantlarla bağlı həyata keçirilən tədbirlər bu ölkədə yaşayan azərbaycanlılar üçün hansısa problemlərə yol aça bilərmi?**

-Hesab edirəm ki, hər bir ölkədə yaşayan insanlar həmin dövlətin qanunları çərçivəsində o dövlətin qanunlarına hörmət edərək yaşamalıdırlar. Əgər bir ölkədə baş verən hər hansı bir proseslər qanuniləşdirilirsə, bu çox normal bir haldır. Bu azərbaycanlılara qarşı yönəlmiş bir proses deyil. Hətta hesab edirəm ki, bu prosesin icrası nəticəsində Rusiya Federasiyasında yaşayan azərbaycanlılara qarşı heç bir problem yaratmayacaq. Çünki Rusiya Federasiyasında miqrasiya məsələləri hazırda o qədər də ürəkaçan deyil. Çünki Vyetnam, Çin Xalq Respublikası, eləcə də Asiya regionunda yerləşən ölkələrdən minlərlə, hətta milyonlarla Rusiya Federasiyasına miqrasiya edən insanlar var. Heç şübhəsiz ki, onların da müəyyən qayda-qanuna uyğunlaşıb yaşamasına ehtiyac var. Azərbaycanlılar artıq Rusiya Federasiyasında öz yerlərini tapıblar. Demək olar ki, soydaşlarımızın hamısı bu ölkədə qanuni vəziyyətdə yaşayırlar. Əgər hansısa azərbaycanlı qanundan kənar fəaliyyət göstərir və ya qanuna uyğunlaşa bilmirsə həmin şəxsə də yardım etməliyik ki, tez bir zamanda Rusiya Federasiyasının qanunlarına uyğun olaraq orada yaşasın.

**-Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən keçirilən reydlər zamanı azərbaycanlılar da hədəfə çevrilirlərmi?**

-Əlbəttə ki, müəyyən reydlər olanda seçim edə bilmirlər. Yaxud onun tacik, özbək, azərbaycanlı olduğu bilinmir. Ancaq hesab edirəm ki, bu tək-tək hallardır. Bunu ümumən azərbaycanlılara qarşı olan bir kampaniya kimi düşünmək düzgün deyil.

**-Bakıda keçirilən Ali Səviyyəli Toplantını necə dəyərləndirirsiniz?**

-Artıq on illərdir ki, Azərbaycanın həyatında bütün istiqamətlərdə olan inkişaf, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, dövlətimizin siyasi həyatında olan inkişaf, iqtisadiyyatın sürətli dərəcədə inkişafı ölkəmizi bütün dünyada hər kəsin marağına səbəb olacaq dövlətə çevirib. Azərbaycanın paytaxtı Bakı şəhəri də beynəlxalq bir mərkəzə çevrilməkdədir. Ona görə də bir neçə illərdir ki, Azərbaycanın paytaxtında çox böyük beynəlxalq tədbirlər keçirilir. Dünyanın çox tanınmiş siyasi xadimləri, dünya iqtisadiyyatında sözü olan insanlar, ümumiyyətlə dünyada ictimai səviyyədə yüksək səviyyədə olan insanlar Bakı şəhərində keçirilən beynəlxalq tədbirlərə çox məmnunluqla qatılırlar. Bakı şəhərinin gələcəkdə böyük bir beynəlxalq mərkəz olaraq dünyanın fikir mərkəzinə çevrildiyi artıq göz qabağındadır.

Məlum olduğu kimi bu ilin may ayında Bakı şəhərində Birinci Qafqaz Forumu keçirildi. 60-dan çox ölkənin birinci şəxsləri, keçmiş prezidentləri, baş nazirləri, öz ölkələrində çox böyük nüfuz sahibi olan insanların iştirakı ilə keçirilən həmin tədbir bir daha göstərdi ki, bundan sonra Bakı şəhərində bu kimi tədbirlər tez-tez olacaq. Bu tədbir də gələn il keçiriləcək növbəti foruma hazırlıq məqsədilə keçirilən bir toplantıdır. Dünyanın bir çox ölkələrin sabiq liderlərinin, prezidentlərinin iştirak etdiyi bu toplantı həm Nizami Gəncəvi adına Mərkəzin gələcək fəaliyyətinə, həm də Bakı şəhərində gələn il keçiriləcək böyük bir tədbirə hazırlıq məqsədi daşıyır.

Məlumat üçün deyim ki, Birinci Qafqaz Forumunda cənab prezident İlham Əliyevin çıxışı forum iştirakçılarının çox böyük marağına səbəb olmuşdu. Forumdan sonra onların söylədiyi fikirlər belə deməyə əsas verir. Dövlət başçısının söyləmiş olduğu fikirlər, dünyada baş verən proseslərə yanaşma tərzi, eləcə də cənab prezidentin ideyaları iştirakçıların hər biri üçün o qədər maraq kəsb edib ki, bundan sonra Azərbaycan prezidentinin şəxsi himayəsi altında keçirilən bütün tədbirlər dünyada çox böyük marağa səbəb olur. Hər kəs Bakı şəhərinə gəlib prezidentimizi, onun fikirlərini eşitmək istəyir. Həmçinin Azərbaycanda baş verən proseslərlə daha yaxından tanış olmaq istəyirlər. Hesab edirəm ki, Bakıda keçirilən bu tədbir dünyada bizə qarşı olan ikili standartlara çox tutarlı bir cavabdır.

Azərbaycanın tanıdılması, ölkəmizdə yürüdülən siyasətin nə qədər müdrik, tolerant, Azərbaycan milləti və dövlətçiliyinə xidmət etdiyini görmək baxımından da bu kimi tədbirlərin mühüm əhəmiyyəti var. O da məlumdur ki, hazırda müsəlman dünyasında çox böyük bir qarışıqlıq, xaos var. Müsəlman ölkələrinin əkksəriyyətində çox böyük qırğınlar törədilir, xaos, dövlət çevrilişləri baş verir.

Belə bir şəraitdə yeganə müsəlman dövləti olaraq bu qədər stabil inkişaf edən Azərbaycan artıq dünyanın bu sahədə də diqqətinə səbəb olur ki, müsəlman dünyasında da sabitlik, inkişaf, yüksək dərəcədə dini dözümlülük, tolerantlıq ola bilər. Bunun üçünsə yalnız düzgün siyasət yeritmək lazımdır. Bu siyasəti də Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev həyata keçirir. Cənab prezidentin yürütdüyü bu müdrik siyasət həqiqətən də Azərbaycanı çox maraqlı, cəlbedici bir dövlətə çevirib. Bura gələn ər kəs bundan məmnundur.

Azərbaycanda baş verən proseslər, inkişaf onları yaxşı mənada heyrətə gətirir. Aradan cəmi bir neçə ay keçməsinə baxmayaraq hər dəfə Bakı şəhərinə gələndə paytaxtımızın bu qədər dəyişdiyi həmin insanları çox təəccübləndirir. Bu da bizim üçün böyük şərəfdir. Həqiqətən fəxr edə bilərik ki, belə bir düzgün siyasət nəticəsində Azərbaycan Respublikası qısa müddət ərzində beynəlxalq aləmdə öz yerini tutacaq.

**“Olaylar”.-2013.-6 sentyabr.-№159.-S.15.**

**Diaspor təşkilatlarını ətrafında sıx birləşdirilən konqreslərin yaradılması diasporun inkişafına təkan verən amillərdəndir**

Bu gün ölkənin xarici siyasət kursunda diasporla iş prinsipinin necə qurulması ilə bağlı müxtəlif yanaşmalar ortaya qoyulur. Mütəxəssislərin bu məsələ ilə bağlı fərqli fikirləri səsləndirilir. Bəs görəsən Azərbaycan Respublikası xarici siyasət kursunda diasporla iş aparmaq prinsipləri necə tərtib olunmalıdır? Bunun üçün ilk olaraq azərbaycanlıların vətəndaşlıq mənsubiyyəti mütləq nəzərə alınmalıdır. Eyni zamanda azərbaycanlıların məskunlaşdığı dövlətlərin siyasi sistemi, Azərbaycan Respublikasına olan münasibəti, burada məskunlaşan soydaşlarımızın mühacirət səbəbi, sosial-iqtisadi durumları, Vətənə münasibətləri və s. səbəblər ciddi olaraq öyrənilməlidir. Dövlət xarici siyasətində tez-tez statistik araşdırmalara diqqət yetirməlidir. İlk olaraq – informasiya sahəsinə xarici siyasət konsepsiyasında mühüm yer ayırmaq lazımdır.

Qeyd etdiyimiz kimi informasiya sahəsində irəlidə olmaq bütün problemlərin həll olunmasına nail olmaq üçün atılan zəruri addımdır. Məlumdur ki, hazırda Azərbaycan diasporuna məxsus 30-dan çox ölkədə informasiya işinin aparılması üçün TV-Radio kanallar, qəzet-jurnallar, internet saytları və s. vasitələr mövcuddur. Lakin saytların primitiv dizaynı, hər bir saytın məğzinin yalnız mədəniyyət və öz-özünü öymələrdən ibarət olan açıqlamalar təşkil etməsi qloballaşan dünyada özünü sübut etməyə yetərli deyil. Bu barədə Danimarkada Azərbaycan diasporunun yaradıcılarından olan Yaşar Azəroğlu maraqlı fikirlər irəli sürür. Onunla bu istiqamətdə aparılan müzakirələr zamanı saytların 4 dildə məlumatları özündə əks etdirməyin zəruri olduğu aşkar olur. Yaşar Azəroğlunun təklif etdiyi Azərbaycan, rus, türk və fars dillərində saytların tərtib edilməsi birbaşa vətəndaşlıq mənsubiyyəti ilə bağlıdır. Azərbaycan diasporunun bir hissəsinin fars, bir hissəsinin isə rus-türk təhsilli olması, onların anlaya bildiyi dildə məlumatlarla onları təmin edilməsinə xidmət edir.

Müasir dünyada təbliğatın ən əsas vasitəsi televiziya kanalları sayılır. Avropa və Amerika ölkələrində televiziya kanalı açmaq çox maliyyə tələb edir. Lakin hər hansı bir kanalda müəyyən vaxt əldə etmək üçün yalnız bu ölkələrdə yaşayan diaspor təşkilatlarının müraciəti yetərli olar. Ancaq bu verilişlərin yayım dairəsi müəyyən şəhərin hüdudları çərçivəsində olur. Hazırda Almaniyanın Boxum şəhərində ASAV təşkilatı yerli TV kanalda vaxt hüququnu əldə edib. Bu TV vasitəsilə yayımlanan verilişlərin bütün Almaniyada baxılması üçün isə mütləq Almaniyada Konfederasiya və ya Federasiya halında birləşən qrupların müraciəti önəmlidir. Televiziyadan fərqli olaraq yerli, yaxud ölkə radiosunda vaxt almaq, daha asandır, sadəcə olaraq təşkilat adından müraciət hazırlamaq və yayımlanan verilişlərin proqramını təqdim etmək bəs edər.

"Diaspor və Lobbi" Elmi Araşdırmalar Mərkəzinin sədri Zaur Əliyev deyir ki, internet saytları açmaqda isə heç bir məhdudiyyət yoxdur. Müəyyən məbləğə satılan domenlər və yaxud pulsuz olaraq xidmətə verilən saytları açmaq üçün yalnız vaxt və səbr lazımdır. Bu gün Azərbaycan diasporuna məxsus 1000-dən çox sayt var və onların saytı gündən-günə artsa da, məzmunda heç bir dəyişikliklər baş vermir. Bunun aradan qalxması üçün dövlət müxtəlif müxtəlif elmi-tədqiqat mərkəzləri və qurumlara xaricdə yaşayan soydaşlarımızın sərbəst çıxışını təmin etməlidir. Azərbaycanla əlaqəli saytı yaratmaq istəyən diaspor təşkilatları və yaxud fərdi şəxslərin üzləşdiyi ən böyük problem tarix, mədəniyyət və s. ilə bağlı dolğun və səhih məlumatların yoxluğudur. Bu səbəbdən də digər saytlardan plagiatlıq nəticəsində informasiyaların götürülməsi saytların bir qrafikasında olan ədəbiyyatların elektron versiyasını müəyyən qrumlar sərbəst olaraq hər bir sayt yaradıcısına təqdim etməlidir. Bu00 saytlarda isə ilk olaraq Dağlıq Qarabağ münaqişəsi ön planda durmalı və bir-birlərinə çıxış-linkləri olmalıdır: "Qəzet-jurnal nəşr etmək də elə çox maliyyə tələb etmir. Bu işdə dövlətin xüsusi fondu olmalıdır ki, diaspor təşkilatlarına qismən yardım etməklə rus, ingilis, fars dilli mətbuat təsis edə bilərlər.

Bu mətbuat orqanlarına hər bir diaspor nümayəndəsinin çıxış əldə etmək hüququ olmalı, burada dərc edilən yazılarda müstəqil fikirlərin əks edilməsində əngəlliklər olmamalıdır. Kitab, broşur və digər məlumatlandırıcı materialların çıxışına da xüsusi yer vermək lazımdır. Azərbaycan barədə dolğun məlumatların əks olunduğu kitabların çap edilməsi diasporla əməkdaşlıq strategiyasında özünəməxsus mövqe tutmalıdır. Hazırda xaricdə yaşayan soydaşlarımız içərisində elə dəyərli alimlər var ki, onların kitabı dövlət səviyyəsində maliyyələşməsi diasporun digər üzvlərinin Azərbaycana münasibətində müsbət dəyişikliklərə nail olmaq olar. Həmçinin incəsənət sahəsində diasporla əməkdaşlığa ciddi fikir verilməklə, onların bu istiqamətdə həmrəyliyinə nail olmaq olar. Etiraf edək ki, son 15 ildə Azərbaycanla bağlı bir-iki sənədli film çıxsa, bu istiqamətdə boşluq hiss olunur. Diaspor təşkilatları incəsənətə çox meyilli olsalar da burdan lazımi səviyyədə istifadə etmək iqtidarında deyillər. Bu günə qədər diaspor nümayəndələri Azərbaycan filmlərinin həftəsini yaşadıqları ölkələrdə təşkil edə bilmirlər. Və yaxud hər hansı bir mükafat təsis edib, onu daha çox seyrçi kütləsi qazanan filmə təqdim etməyiblər. Bunlarla paralel olaraq onların çox hissəsi öz köməkliklərini təklif etməsindən istifadə edərək, bəzi Azərbaycan filmlərinin xarici dillərə tərcümə etməsi işinə onları cəlb etmək olar. Teatrla bağlı isə kiçik bir teatr truppası təşkil edib, diaspor nümayəndələri üçün vaxtaşırı səhnə əsərlərinin təqdim edilməsindən istifadə etmək olar.

Paralel olaraq musiqili-ədəbi gecələrin təşkil edilməsi məsələsinə xarici siyasət konstitusiyasında yer ayırmaq zəruridir. Son zamanlar Azərbaycan təşkilatlarının istifadə etdikləri musiqili gecələrin, konsert turnelərinin, musiqi festivallarının keçirilməsi işini daha da fəallaşdırmaq mütləq addımdır. Çünki musiqidəngüclü təbliğat yoxdur. Azərbaycan barədə güclü təbliğat xaricdə Workshop adlanan istirahət-təbliğat vasitələrindən də məharətlə istifadə etmək olar. Bunun üçün Azərbaycan rəqslərinin bilicilərini bir müddətə xarici ölkələrə səfərinin dövlət tərəfindən maliyyələşdirərək Azərbaycan diasporunun gənc nümayəndələrini bura dəvət edib, onlara milli rəqsləri elmi və ədəbi formada təbliğ etmək olar. Eyni zamanda xarici gəncləri də bu işə cəlb etmək məqsədə uyğun olar. İncəsənət sahəsində təbliğatın başqa bir qolu olan foto-rəsm sərgilərinin keçirilməsidir. Foto festival tərəfindən daha çox yararlanan yəhudi, yunan və irland faktorlarıdır ki, onların tutduqları mövqe bəllidir. Müxtəlif idman yarışlarının təşkili, festivalların başqa millətlərlə birgə keçirilməsi, diaspor nümayəndələrinin həftə sonu görüşlərinin təşkili, dil kursları açmaq, kitabxanalar yaratmaq və bura sərbəst gəliş-gedişi təmin etmək, milli mətbəxin təbliği məqsədilə hansısa bir mərkəzdə müxtəlif xörəklər bişirib, pulsuz olaraq paylamaq, xarici vətəndaşları çay süfrəsi axşamlarına dəvət etmək və s. kimi vasitələrin xarici siyasət konsepsiyasında əks olunmaq Azərbaycan diasporunun güclənməsi ilə yanaşı dövlətimizin təbliği işinə çox böyük yardım olacaq”.

Göründüyü kimi qanunvericilik sahəsində dövlət ilk addımları atıb. Bunu Diasporla İş üzrə Dövlət Komitəsinin yaranması və Qanunun qüvvəyə minməsində görə bilərik. Lakin bəzi nüanslar, xaricdə yaşayan soydaşlarımızın vətənə güzəştli qaydada gəlib-getməsində, torpaq alıb tikinti işi aparmasında, investisiya məsələsində iqtisadi maraqlarının təmin olunmasında hüquqi qaydada bir sıra qərarlar qəbul edilməli və dövlətin birbaşa dəstəyi və nəzarəti onlar üzərində olmalıdır. Təhsil sahəsinə də xüsusi diqqət yetirmək lazımdır. Müşahidələrimizə görə son bir neçə ildə Azərbaycan ali məktəblərinin diplomlarını əldə etmək istəyən soydaşlarımızın sayı artmaqdadır. Onlar üçün güzəştli şərtlər verməklə yanaşı, xaricdə təhsil alan diaspor nümayəndələri ilə sıx bağlı olan tələbələrimiz üçün dəstək verməklə, universitetlərdə Azərbaycanla bağlı guşələr açmaq, kitab sərgisi təşkil etmək, rəsm-foto festivallar keçirmək, Azərbaycanla bağlı bilgi əldə etmək istəyən əcnəbilər üçün köməkliklər göstərilməsinə xarici siyasət konsepsiyasında özünəməxsus diqqət verilməlidir. Dil kursları açmaq və Azərbaycan dili ilə paralel xarici dillərdə çap olunan elmi-bədii ədəbiyyatları nəşr etmək, virtual universitetlər təsis etmək görülməsi zəruri olan işlərdən hesab edilir. Məktəblərarası dostluq və mübadilə proqramından da istifadə edilsə uğurlu nəticələr əldə etmək olar.

Bu bir danılmaz faktdır ki, təşkilati sahədə xarici siyasətdə müəyyən irəliləyişlər hiss olunur. Son zamanlar bir sıra ölkələrdə yeni təşkilatların və bu təşkilatlar ətrafında sıx birləşdirilən konqreslərin yaradılması diasporun inkişafına təkan verən amillərdəndir. Lakin burada bəzi neqativ hallar da var ki, bu da təşkilatlar arasında ayrı-seçkiliyə yol verilməsidir. Bəzən isə yaradılan təşkilatlarda iqtidar-müxalifət meyllərinin təzahür edilməsi diaspordaxili problemləri ortaya çıxarır. Belə neqativ halların aradan qaldırılması üçün mütləq siyasi baxışların müstəqilliyi qorunub saxlanılması, onlara yalnız dövlətçilik mövqeyindən çıxış etməyi təklif etmək düzgün olardı.

**“Olaylar”.-2013.-12 sentyabr.-№121.-S.15.**

**Gənc azərbaycanlı dramaturq, ssenarist Nərgiz Bağırzadənin "Face Book. Post Scriptum" adlı pyesi Latviyanın paytaxtı Riqada səhnələşdirilib**

Gənc azərbaycanlı dramaturq, ssenarist Nərgiz Bağırzadənin "Face Book. Post Scriptum" adlı pyesi Latviyanın paytaxtı Riqada səhnələşdirilib. Tanınmış latviyalı prodüsser Yuris Millersin yenidən nəfəs verdiyi əfsanəvi Qalina Polişuk teatrında səhnəyə qoyulan əsərin premyerası oktyabrın 3-də baş tutacaq.

Bir ildən çoxdur binasız qalan teatr yeni məkanda məskunlaşdıqdan sonra ilk səhnləşdirilən əsər məhz "Face Book. Post Scriptum" olub. Kino və teatr ulduzu Andris Bulis oynadığı monotamaşa mistik dramadır. Pyesdə kiçik Avropa ölkəsində sosial şəbəkələrin insan həyatındakı təzadları təsvir olunur.

Bu, Nərgiz Bağırzadənin xarici rejissorlarla ilk işi deyil. 2009-cu ildə Litvada müəllifin "M.A.M.A" pyesi tamaşaya qoyulub, 2011-ci ildə isə Rusiyada Nərgiz Bağırzadənin ssenarisi əsasında çəkilmiş "Dəlisov yubiley" tammetrajlı bədii filmi ekranlara çıxıb. 2010-cu ildə Nərgiz Bağırzadənin çapdan çıxmış "Birisigün" nağıllar toplusu Azərbaycanda Milli Kitab Mükafatı siyahısında ilk iyirmiliyə düşüb. 2011-ci ildə Nərgiz Bağırzadə Azərbaycanda ədəbiyyat sahəsində prezident təqaüdçüsü olub. O, həmçinin "Bakı, mən səni sevirəm" kino layihəsinin rejissoru və ssenaristlərindən biridir.

**15 sentyabr 2013**

**Nazim İbrahimov: "Diaspor təşkilatları arasında baş verən parçalanma heç zaman bizim xeyrimizə ola bilməz"**

**- Xarici ölkələrdə Azərbaycan diasporunun təşkilatlanması işinin hazırkı vəziyyətini necə qiymətləndirir, onu hansı mərhələdə görürsünüz?**

- Ümumiyyətlə, Azərbaycan Respublikasının diaspora işinə ayırdığı zaman mərhələsini bir neçə hissəyə bölmək olar. İlkin dövrlərə ümummilli lider Heydər Əliyevin hələ 1993-cü ildən Azərbaycan Respublikasına ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra başladığı böyük fəaliyyət, dünya ölkələrinə getdiyi yerlərdə azəbaycanlıların toplanması, onlara azərbaycançılıq ideologiyasını aşılaması, onları Azərbaycanla fəxr etməyə sövq etməsi, birliyə çağırmasını aid etmək olar. İlkin dövrləri 2003-cü ilədək olan dövr əhatə edir. Dahi liderin həmin illərdə bu sahədə gördüyü həqiqətən nəhəng işləri, fəaliyyəti, nəzəriyyələri oldu. Verdiyi göstərişlər, qurduğu ideologiya öz bəhrəsini verdi. Bunun kulminasiya nöqtəsi 2001-ci ildə Bakı şəhərində dünyanın müxtəlif ölkələrindən olan çoxlu sayda Azərbaycan diaspor nümayəndələrinin iştirak etdiyi Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi oldu. Bunu Azərbaycan Respublikasının diaspor fəaliyyətində böyük bir işin başlanğıcı saymaq olar. Bundan əvvəlki dövrü hazırlıq illəri hesab etmək olar. 2001-ci il isə artıq təşkilatlanmağa böyük vüsət verdi.

Çox qısa müddətdə dünyanın müxtəlif ölkələrində yüzlərlə təşkilat yarandı və fəaliyyətə başladı. İlk illərdə həmin insanlardan yüksək səviyyədə hər hansı fəaliyyət tələb etmək düzgün deyildi. Çünki orada yaşayan azərbaycanlılar həmin ölkələrə Azərbaycandan yenicə getmişdilər, digərləri tarixən uzun illər ərzində Cənubi Azərbaycandan, İran Azərbaycanından köçüb gedən azərbaycanlılar isə başqa bir formasiyada böyümüş insanlar idi. Onların prioritetləri, həyat məqsədləri başqa olduğu üçün ilk illərdə onları Azərbaycan Respublikasına mənəvi cəhətdən bağlamaq o qədər də asan deyildi. Bununla yanaşı, insanların diaspor fəaliyyəti göstərməsi üçün mühüm bir ideologiya ətrafında birləşmələri lazım idi.

Bilirsiniz, Azərbaycanın yüz illər ərzində vahid ideologiyası olmayıb. Ümummilli liderin yaratdığı azərbaycançılıq ideologiyası isə azərbaycanlılar tərəfindən vahid ideoloji istinad nöqtəsi olaraq qəbul edildi. Bundan sonra artıq bütün azərbaycanlılar təşkilatlarını yaradaraq həm Azərbaycanın dünyada tanıdılmasında, həm də dövlətçiliyimiz ətrafında sıx birləşərək fəaliyyətə başladılar. Bununla bağlı 2002-ci ildə Dövlət Komitəsi yarandı. O zaman komitə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi adlanırdı. Bu təşkilat yarandığı gündən indiyədək Azərbaycan diasporunun formalaşmasında, onun təşkilatlanmasında mühüm rol oynaya bilib. Komitə dövlətin vahid siyasətini həmin təşkilatlara sirayət etdirə bilib. O, nəinki hər hansı ölkədə diasporun formalaşmasına, həmçinin dünyada olan Azərbaycan diaspor təşkilatlarının bir-biri ilə sıx əlaqəsinin qurulmasına, bir-birindən xəbərdar olmalarına, qarşılıqlı şəkildə bəhrələnərək ümumi fəaliyyət göstərmələrinə nail olub.

Zaman keçdikcə, Azərbaycan diasporunun nümayəndələri xarici ölkələrdə yerləşdikcə, kök atdıqca, təşkilatlar akademik formaya gəlib çıxdıqca, iş fəaliyyətinin dərəcəsi və dairəsi də genişlənib, görülən işlərin keyfiyyəti artıb. Azərbaycan diasporu başqa diasporların yüz illər ərzində gördüyü işləri qısa müddət ərzində görə, özünü göstərə və tanıtdıra bildi. İndi artıq Azərbaycan diasporu bütün dünyada tanınan, sayılan və fəaliyyətini yüksək səviyyədə quran diaspora çevrilib.

**- Dövlət tərəfindən diaspor fəaliyyəti sahəsində qarşıya qoyulan məqsədlərə ümumən nə dərəcədə nail olunub?**

- Hesab edirəm ki, son 10 ildə cənab Prezident İlham Əliyevin Azərbaycanın ümummilli lideri Heydər Əliyevin başladığı böyük siyasəti davam etdirməsi və bu sahəyə qayğısını daha çox artırması, bu sahəyə çox ciddi diqqət yetirməsi Azərbaycan diasporunun uzun illər ərzində keçə biləcəyi yolu qısa müddətdə keçməsinə səbəb oldu. Hesab edirəm ki, biz diaspor təşkilatlarından gözlədiklərimizə tam nail olmuşuq. Təşkilatlar artıq formalaşmış şəkildə fəaliyyət göstərirlər. Təbii ki, müxtəlif ölkələrdə müxtəlif səviyyələrdə. Çünki hər bir ölkənin özünün milli azlıqlarla bağlı xüsusi proqram və siyasəti olur.

Müəyyən ölkələrdə diaspor təşkilatlarının ciddi şəkildə fəaliyyətinə imkan verilmir. Müəyyən ölkələr də var ki, buna daha çox şərait yaradırlar. Həmin ölkənin prioritet istiqamətlərindən biri orada yaşayan milli azlıqların inkişafı, öz milli adət-ənənələrini saxlaması prinsiplərinə söykənir. Yəni, bizim diaspor təşkilatlarımız hər bir ölkənin mili azlıqlara yönəlmiş siyasətinin dərəcəsinə görə inkişaf edə bilib, öz sözlərini deyiblər. Əsas odur ki, Azərbaycanın problemlərini, Dağlıq Qarabağ problemini, Azərbaycanın işğal olunmuş əraziləri, bu işdə Azərbaycanın haqlı olması məsələsini dünyaya çatdıra bilsinlər. Bu işdə azərbaycanlılar çox irəli gediblər.

Təkcə Leyla xanım Əliyevanın "Xocalıya ədalət" kampaniyasının dünyada nə qədər vüsət aldığına diqqət etsək, Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində dünyada Azərbaycanın tanıdılması və azərbaycanlıların da bundan daha çox nümunə götürərək öz fəaliyyətlərini daha akademik səviyyəyə gətirib çıxarmaları hesab edirəm ki, həqiqətən də bizim gözlədiklərimizin bəlkə də olduğundan daha yaxşı olduğunu göstərir. İstərdim ki, diaspor təşkilatlarının bu sahədə olan fəaliyyəti hər kəs tərəfindən təqdir olunsun.

**- Diaspor təşkilatları həm yaşadığı ölkələrdəki Azərbaycan icmasının problemlərinin həllinə çalışır, həm də mənəvi cəhətdən bağlı olduğu Vətəninin - Azərbaycanın maraqlarından çıxış edirlər. Bəs diasporumuzun Azərbaycan naminə lobbiçilik işinin gücləndirilməsində, ölkəmiz üçün həyati vacib olan məqamlarla bağlı siyasi və iqtisadi qərarların qəbuluna lobbiçilik vasitəsilə təsir edilməsində rolunu necə qiymətləndirirsiniz?**

- Diasporumuzun təşkilatlanma dövrü bitmiş hesab olunur. Artıq məqsəd diaspor təşkilatlarının fəaliyyətini daha dolğun, akademik, dünya təcrübəsinə əsaslanan bir səviyyəyə gətirib çıxarmaqdır. Dövlət Komitəsi olaraq bizim əsas vəzifələrimizdən biri də diaspor təşkilatlarına lobbiçilik fəaliyyətində yardımçı olmaqdır və Komitə yarandığı gündən diaspor təşkilatlarına bu sahədə paralel olaraq böyük dəstək verir. Dünyanın müxtəlif ölkələrindən çox yüksək səviyyəli ictimai və siyasi xadimlərlə, iş adamları ilə müəyyən əlaqələrin qurulması, onların Azərbaycana dəvət olunması, burada onlara Azərbaycan həqiqətlərinin daha dolğun çatdırılması, onlarla dost münasibətlər qurmaq, onlarla diaspor təşkilatlarımız arasında sıx əlaqələr yaratmaq, həmin insanlar vasitəsilə Azərbaycanın daha çox tanıdılmasına nail olmaq elə lobbiçilik fəaliyyətinin əsas tərkib hissələrindən biridir.

Bu sahədə, doğrudan da çox böyük işlər görülüb. Bəzən olur ki, mətbuatda bizim lobbiçilik sahəsindəki fəaliyyətimizlə bağlı anlaşılmayan məqamlara, yazılara rast gəlinir. Hesab edirəm ki, gərək mətbuat nümayəndələri də bu sahəni dərindən öyrənsinlər ki, lobbiçilik istiqamətində göstərdiyimiz fəaliyyətin sırf diaspor işi olduğunu bilsinlər. Bilirsiniz ki, biz müxtəlif tədbirlər keçiririk. Ölkəmizə müxtəlif ölkələrin keçmiş və fəaliyyətdə olan dövlət və hökumət başçıları, alimləri, ictimai, siyasi və mədəniyyət xadimləri gəlir. Bəzən söyləyirlər ki, bunun diaspora nə aidiyyəti var? Verdiyiniz suala cavab elə hamıya da bir cavabdır ki, gördüyünüz bu iş lobbiçiliyin ən üst səviyyəli tərkib hissələrindən biridir. Hər hansı bir ölkədə 10 il ərzində demokratik seçilmiş prezidentin, artıq o dövlətdə hər kəsin tanıdığı, hörmət etdiyi bir şəxsin Azərbaycana gəlib, buranı tanıyıb geri dönərkən azərbaycanlıların müraciətinə müsbət cavab verib, bütün işlərində iştirak etməsi lobbiçiliyin ən yüksək səviyyəyə gətirib çıxarılması deməkdir. Bu sahədə geniş fəaliyyətlərimiz var və artıq müəyyən uğurlar əldə edilib.

**- Nazirlər Kabinetində Azərbaycanın şəhər və rayonlarının Ermənistan tərəfindən işğal edildiyi günlərin xüsusi qaydada qeyd olunması ilə bağlı təkliflər hazırlanır. Gələcəkdə işğal günlərinin dünya ictimaiyyətinə fərqli şəkildə çatdırılması nəzərdə tutulur. Bu işin bir tərəfi də yəqin ki, sizin rəhbərlik etdiyiniz komitə ilə bağlı olacaq. Necə düşünürsünüz, xüsusən də güc sahibi olan, dünyanın vacib qərarlarını qəbul edən ölkələrdə Azərbaycanın ərazilərinin işğal olunmasının ictimaiyyətə çatdırılması sahəsində hansı işlər görülə bilər və Azərbaycan diasporu buna hansı töhfələrini verə bilər?**

- Əslində, bu istiqamətdə görüləsi işlər çoxdur. Bu sonu olmayan fəaliyyətdir. Hər hansı bir iş görülüb müəyyən müstəviyə qalxdıqca, işlərin səviyyəsi, həcmi, miqyası, tələbkarlıq daha da artır. Diaspor təşkilatlarının özlərinin iş səviyyəsi yuxarı qalxdıqca işlərin mahiyyəti və miqyası da dəyişir. Ona görə də bu təşkilatlarından daha çox peşəkarlıq tələb olunur. Hesab edirəm ki, gələcəkdə Azərbaycanın diaspor təşkilatları işlərə yerli ictimaiyyəti, yaşadığı dövlətlərin ekspertlərini cəlb etməlidirlər. Ya da o ölkələrdə doğulmuş, oranın vətəndaşları olan azərbaycanlılardan həmin ekspertləri artıq özümüz yetişdirməliyik.

Diaspor təşkilatlarında iş artıq peşəkar səviyyəyə gəlib çatıb. Bu da əlbəttə ki, gələcəkdə işlərin keyfiyyətini artıracaq. Mənim tam subyektiv fikrim belədir ki, xaricdəki diaspor təşkilatlarını Azərbaycan torpaqlarının işğal olunduğu günlərin geniş şəkildə qeyd olunması ilə tam mənada yükləyə bilmərik. Təsəvvür edin ki, il ərzində 1-ci aydan 12-ci aya qədər belə faciə günlərinin qeyd edilməsi bunun əhəmiyyətini nə dərəcədə azalmış olur. Mənim şəxsi düşüncəm budur ki, onların hamısını toplam şəkildə 26 fevral - Xocalı soyqırımı günündə birlikdə qeyd etmək daha effektiv, daha düzgün olardı. Çünki biz bir il ərzində dünya ictimaiyyətini belə faciələr və problemlərlə yükləsək, onda ətrafımızda heç kim qalmaz və bizdən uzaqlaşarlar. Dünya təcrübəsi göstərir ki, belə faciə və problemlər varsa, onlar ildə bir gün geniş, kütləvi şəkildə hər yerdə qeyd olunur, sonrakı aylarda isə daha çox şən, müsbət emosiyalar doğuran tədbirlər keçirməliyik ki, insanlar ətrafımızda toplaşaraq çoxalsın, lakin həm də ildə bir gün başımıza gələn müsibətləri, ağrı-acıları bölüşsün. Çalışırıq ki, fəaliyyətimizə məhz bu istiqamətə daha çox yer verək.

**- Xarici ölkələrdəki diaspor təşkilatlarının formalaşmasına və diasporla bağlı digər işlərə orada təhsil alan azərbaycanlı tələbələrin yaxından cəlb edilməsini necə qiymətləndirirsiniz? Sizə elə gəlmir ki, tələbələr hazırda bu işlərə o qədər də fəal cəlb olunmurlar?**

- Əlbəttə ki, tələbələr çoxsaylı və gənc olduqları üçün böyük qüvvədirlər. Onlar cəmiyyətin savadlı hissəsidir və onların gedib xaricdə Azərbaycan təşkilatlarında aktiv iştirak edib fəaliyyət göstərmələri də normal haldır. Amma mən hesab edirəm ki, xaricdə təhsil alan tələbələri siyasi və yaxud ictimai məsələlərdə yükləmək doğru deyil. Tələbənin əsas vəzifəsi oxumaqdır. Onları təhsildən ayırıb 3-4 il ərzində istifadə etmək sonda tələbələrin dərslərində axsamalara gətirib çıxarır. Bu iki iş paralel aparılmalıdır, onlar həm oxumalı, həm də lazım gələndə diaspor sahəsindəki fəaliyyətə müəyyən dərəcədə yardımçı olmalıdırlar.

Diaspor fəaliyyəti uzun illər, onilliklər və bəlkə də daha çox müddət ərzində yetişən prosesdir. Hər dəfə yeni gələn tələbələrin, hələ formalaşmaqda olan gənclərin aktiv iştirak edib sonra geri qayıtmaları bu prosesə müəyyən çalarlar qatır. Digər tərəfdən də hər bir insanın, vətəndaşın vətənpərvərlik borcudur ki, bu prosesdə iştirak etsin. Lakin mən tələbələri birinci, əsas qüvvə yox, həmişə diaspor təşkilatlarına yardımçı, köməkçi qüvvə kimi qəbul olunmasının daha çox tərəfdarıyam. Yəni biz ümumən çalışmalıyıq ki, diaspor təşkilatlarının fəaliyyətini peşəkar səviyyəyə çatdıraq. Həmin ölkələrdə təhsil alan tələbələrimiz də peşəkar təşkilatların tərkibində fəaliyyət göstərsinlər, onlara yardımçı olsunlar. Bəzən tələbələrlə aparılan geniş işlər sonda lazımi effekti vermir, çünki tələbələrin tərkibi tez-tez dəyişir, onlar Vətənə geri qayıdırlar. Bu məsələlərdə həmin ölkələrdə yaşayan, oranın vətəndaşı olan azərbaycanlıların fəaliyyəti daha səmərəli olur.

**- Bəzi ölkələrdə Azərbaycan diaspor təşkilatları arasında parçalanma məsələsi, xüsusilə də Rusiya və Ukraynadakı təşkilatlar arasında birliyin olmaması gündəmdən düşmür. Bununla bağlı artıq bir neçə də açıqlama da vermisiniz. Son açıqlamalardan birində qeyd etmisiniz ki, əgər onlar bir ola bilmirlərsə, paralel olaraq fəaliyyət göstərmələri də işin ziyanına deyil. Lakin istərdim ki, hansı halda bu parçalanmanın ümumi işin xeyrinə, hansı halda isə ziyanına olduğunu bildirəsiniz?**

- Bu məsələdə ictimaiyyətə də bir aydınlıq və rahatlıq gətirmək lazımdır. Ona görə ki, diaspor sahəsinə ictimai fikirdə o qədər böyük maraq var ki, baş verən istənilən proses ictimaiyyət arasında geniş şəkildə şərh və izah olunur. Əlbəttə ki, diaspor təşkilatları arasında baş verən parçalanma heç zaman bizim xeyrimizə ola bilməz. Yox, əgər hər hansı bir qrupun daxilində birgə yaşam, fəaliyyət mümkün deyilsə, birgə olmaq ümumi mənafeyimizə və strategiyamıza böyük ziyan vurursa, o halda iki paralel hissəyə ayrılıb fəaliyyət göstərmək Azərbaycana, azərbaycançılığa ziyan gətirməz. Ukraynanın timsalında deyə bilərəm ki, onları şəxsən tanıdığım üçün bilirəm ki, onların hər biri Azərbaycan dövləti və dövlətçiliyinə çox sədaqətli, Azərbaycan Prezidentinin siyasətini tam dəstəkləyən insanlardır, əsl vətənpərvərlərdir. Əgər onların arasında müəyyən mənada fikir ayrılığı varsa da, bu Azərbaycan və azərbaycançılıqla bağlı deyil, təşkilatda idarəçilik prinsipləri, yaxud kimin rəhbər olub-olmayacağı ilə bağlıdır.

Biz də fikirləşdik ki, əgər onlar parçalanmalarına baxmayaraq, Azərbaycan dövləti və dövlətçiliyinə xidmət edirlərsə, belə halda tərəf tutmaq olmaz. Çünki belə hallarda tərəf tutmaq böyük bir hissəni itirmək, onların hüquqlarını tapdalamaq, onların vətənpərvərlik hisslərinə toxunmaq deməkdir. Ona görə də orada paralel yaranan hər iki təşkilatı müdafiə edirik. Onların sağlam rəqabətinə böyük hörmətlə yanaşırıq. Onların rəhbərləri ilə görüşdə də elan etmişəm ki, dövlət sizin yanınızdadır. Siz fəaliyyət göstərin. Gələcək özü göstərəcək ki, kim öz işində daha irəli gedə bilib. Bir gün gələcək ki, bir-birinizlə razılaşacaqsınız. Çünki insanlar illər ötdükcə da müdrik olurlar və bir gün bir masa arxasına toplaşaraq razılaşıb gələcəkdə tam birlikdə fəaliyyət göstərmək istəyəcəklər. Mən hesab edirəm ki, bu nəinki faciə, heç böyük bir problem də deyil. Yəni bunu bu qədər qabartmağımız bizim ümumi mənafeyimizə uyğun deyil. Biz tərəf tutduqca orada olan çoxlu insanları incidirik. Xaricdə yaşayan azərbaycanlılar həmişə Vətəndə baş verən hər bir prosesə, onların haqqında yazılan hər hansı bir yazıya çox böyük həssaslıqla yanaşırlar və bunu da həmişə nəzərə almaq lazımdır.

**- Ukrayna təşkilatları haqqında dediklərinizi Rusiyadakı Azərbaycan təşkilatlarına da aid etmək olarmı? Konkret olaraq komitənin ötən ilin sonlarında yaradılmış və xalq arasında daha çox "Milyarderlər İttifaqı" adı ilə tanınan Rusiya Azərbaycan Təşkilatları İttifaqına münasibəti necədir?**

- Sualınızın birinci hissəsinə cavab olaraq deyirəm ki, bəli, eynilə aid etmək olar. Mən bir az öncə bir ifadə işlətdim: "Əgər Azərbaycan dövlətinə və dövlətçiliyinə xidmət edirlərsə". Əlbəttə ki, hər hansı yaranmış təşkilat dövlətçiliyə xidmət etmirsə, bizim dövlətçiliyimizin əsaslarına müəyyən ziyanlar gətirə bilərsə, onların fəaliyyətində müəyyən şübhələr varsa, bütün bunlar bizim tərəfimizdən qəti surətdə qəbul olunmur.

Mətbuatda bu təşkilat "Milyarderlər İttifaqı" adlandılır, lakin biz rəsmi olaraq belə bir ifadə işlətmirik. Hesab edirik ki, indiki dövrdə Rusiyada hər hansı belə bir təşkilatın, bu tipli cəmiyyətin yaranması ümumi diaspor quruculuğu sahəsinə böyük bir ziyan gətirəcək element ola bilər. Məsələn, uzun illərdir ki, orada "AzərRos" təşkilatı, Rusiya Azərbaycanlıları Konqresi var və fəaliyyət göstərirlər. Biz nəinki bunun əleyhinə olmamışıq, əksinə çox normal qarşılamışıq. Bu təşkilatların fəaliyyətləri də daim göz qabağında olub. Kimin daha uğurlu olduğunu isə zaman göstərəcək. Rusiyada baş verən həmin proses, dediyiniz həmin təşkilatın yaranması müəyyən suallar doğurdu və biz bunu açıq şəkildə söylədik və bu həqiqətən də dövlətə və dövlətçiliyimizə böyük ziyan gətirə biləcək məsələ idi. Hansısa qüvvələr belə bir təşkilat yaradıb ondan Azərbaycana təzyiq vasitəsi kimi istifadə etmək planlarını ortaya qoyurdular.

Orada hətta başqa məsələlər də var ki, onların mətbuata və ictimaiyyətə açıqlanması düzgün olmazdı. Ümumən deyə bilərəm ki, bu təşkilatın yaranması heç də təqdirəlayiq deyildi. Bununla bağlı açıq söhbətimiz olmuşdu və bildirmişdik ki, bu yaradılmasaydı, daha düzgün olardı. Əslində Rusiyada yeni nəsə yaradıb mövcud olanları parçalamaqdansa, azərbaycanlıların mövcud təşkilatlarının möhkəmləndirilməsi daha məqsədəuyğun olardı.

**- Həm diaspor təşkilatlarının, həm də dövlətin marağı budur ki, Azərbaycan xarici ölkələrdə daha çox tanıdılsın, oradakı Azərbaycan icmasının problemləri həll edilsin. Lakin bəzi məsələlər var ki, onlar Azərbaycanın və azərbaycanlıların adına ciddi xələl gətirir. Məsələn, etnik kriminal qruplar arasında azərbaycanlıların adının tez-tez hallanması. Sizcə, xüsusilə də Rusiyada azərbaycanlıların adlarının bəzən qərəzli şəkildə kriminal qruplarla və bazarla əlaqələndirilərək aparılan təbliğatın qarşısını almaq üçün nə etmək lazımdır?**

-İctimai fikirdə, mediada səslənən belə ifadələr, əlbəttə ki, dövlət adamına xoş olan şey deyil və əlbəttə ki, mən belə ifadələri işlətməyi özümə rəva bilmərəm. Azərbaycanı sevməyən müxtəlif qüvvələr var ki, azərbaycanlıların adının daha çox kriminal ünsürlərlə və yalnız bazarla bağlamağa çalışırlar. Bunlar azərbaycanlıları alçaltmaq, nüfuzunu aşağı salmaq üçündür. Əlbəttə ki, bunlar bizim dostlarımız tərəfindən edilmir. Çox təəssüf olsun ki, bizim qeyri-dostlarımızın və ya yaxud düşmənlərimizin söylədiyi fikirləri Azərbaycan mətbuatı daha çox verir, nəinki azərbaycanlıların orada gördükləri daha böyük işləri. Ucuz sensasiya xatirinə belə yanlış məlumatlar yazılır, fikirlər səsləndirilir.

Bu da ümumi fikri formalaşdırmağa yönəlir. Azərbaycanlılar xüsusən Rusiyanın həm ictimai, həm siyasi həyatında özünə məxsus yer tutublar. Mədəniyyət, yaradıcılıq sahəsində uğur qazanmış çox görkəmli azərbaycanlılar var. Bazarda baş verən kiçik kriminal məsələdənsə, bu gün daha çox hər hansı mədəniyyət xadiminin uğurundan danışmaq daha yaxşı olardı. Yaxud Azərbaycanın daxilində, hansısa rayonda baş vermiş çox neqativ şeyləri qabardıb manjetlərdə saxlamaqdansa, hər hansı azərbaycanlının əldə etdiyi müvəffəqiyyətdən yazmaq daha yaxşı olardı. Burada da ümumi ictimai rəyi yaradan kütləvi informasiya vasitələridir. Media hansı fikri qabartsa, ictimaiyyətdə də o fikir oyanacaq. Yaxşıları görməyib, daim yalnız neqativ faktlar üzə çıxarılsa, əlbəttə ki, azərbaycanlılar haqqında da neqativ fikir yaranacaq. Sonra da erməni mətbuatı, bizə dost olmayan ölkələrin, qüvvələrin mətbuatı bizim mətbuatdan nümunə götürərək onu dünyaya yayırlar. Bu çox yaramaz haldır. Azərbaycanda mətbuatın üzərindən senzura götürülüb.

Bu, çox düzgün qərardır. Ölkədə mətbuat azadlığı var. Lakin bəzi yazılara baxıram, Azərbaycandakı qədər bu tipli ifadələr, ifrata varmaq dünyanın heç yerində yoxdur. Özü də öz millətinə qarşı. Bəzən olmayan şeylər yazılır. Bununla bağlı çoxlu faktlar sadalamaq olar. Təhlillər göstərir ki, dünyadakı bütün diasporlar bu mərhələləri keçiblər. Bunu 1950-ci illərdə Almaniyada Türkiyə vətəndaşlarına aid etmək olar. İndi həmin şəxslərin övladları hər yerdə, Almaniya hökumətində, parlamentində, bələdiyyələrdə yüksək vəzifələr, onun ictimai-mədəni həyatında layiqli yerlər tuturlar. O cümlədən, vaxtilə ABŞ-a köç edən İrlandiya diasporu haqqında bu sözləri demək olar. İrlandiyadan olanlarla söhbətimizdə irlandların ABŞ-da yaranan mənfi imici bu gün düşmənlərimizin bizim haqqımızda yaratmaq istədikləri imicdən qat-qat aşağı olub.

Sonradan uzun illər ərzində irlandlar həmin imici dağıtmaq üçün proqram şəklində böyük işlər görüblər. Bu iş nədən ibarətdir? Əgər doğrudan da bizim haqqımızda belə bir imic yaradılırsa, xaricdə yaşayan azərbaycanlılar da övladlarını elə böyütməlidirlər ki, gedib həmin ölkənin aparıcı imic yaradan təşkilatlarında və yaxud media orqanlarında yer alsınlar. Özləri daha yaxşı imic yaratsınlar. Təbii ki, bu bir-iki ilin işi deyil. Bu, uzun illər nəticəsində formalaşan bir fikirdir, ictimai rəydir. Güman edirəm ki, çox yaxın gələcəkdə Rusiyada da azərbaycanlılar haqqında çox yüksək fikir formalaşacaq və bu fikir artıq formalaşmaqdadır.

**- Azərbaycan mədəniyyəti və tarixinin dünyada təbliğ edilməsində Diasporla İş üzrə Dövlət Komitəsinin də müstəsna xidmətləri var. Yeri gəlmişkən, bu günlərdə verdiyiniz açıqlamalardan birində bildirmişdiniz ki, baxmayaraq ki, dahi mütəfəkkir Nizami Gəncəvi fars dilində yazıb, yaradıb, onun Azərbaycan şairi olduğunu heç kim şübhə altına ala bilməz. Hətta qeyd etmişdiniz ki, beynəlxalq institutlarla birgə Nizami Gəncəvi irsinin araşdırılıb dünyada oxunan dildə tanıdılması istiqamətində tədbirlər görülür. Lakin məsələ burasındadır ki, İran Əfqanıstan və Tacikistanla birgə hərəkətə gələrək Nizami Gəncəvinin dünyaya fars şairi kimi tanıdılmasına dair işlər həyata keçirir. Nə vaxta kimi bu məsələ intriqalara səbəb olacaq? Olmazmı ki, bununla bağlı beynəlxalq mütəxəssislərdən ibarət birgə komissiya yaradılsın və məsələyə birdəfəlik son qoyulsun?**

- Mən sizin intriqaların yaranması ilə bağlı fikrinizlə razılaşmıram. Dahi şairin hansı millətə, hansı xalqa məxsus olmasının müəyyənləşdirilməsi intriqa deyil. Bu çox böyük tarixi əhəmiyyəti olan şeydir. Biz bu gün bütün dünyaya göstəririk ki, hələ 10 əsr bundan əvvəl bu qədər dahi bir şairi, mütəfəkkiri olan millət bu gün həqiqətən dünyada ən ön cərgələrdə yer tutmağa layiqdir.

Düşmənlərimizin bizim haqqımızda yaydığı "azərbaycanlılar bir yığma komandadır", "hələ formalaşmamış bir xalqdır", "dünən meydana gəliblər", "30-40 il bundan əvvəl onlara tatar deyirdilər", "bu tarixi olmayan xalqdır", "tarixi olmayan xalqın necə ola bilər ki, tarixi torpaqları olsun?" və s. fikirləri əsasən də erməni təbliğatında əsas yerlərdən birini tutur. Bunlar çox böyük prinsipial əhəmiyyəti olan məsələlərdir. Nizami Gəncəvi hələ XI-XII əsrlərdə bütün dünyaya ideya verən bir şəxs olub.

Dünyaya indi yayılan çox böyük ideologiyaların əsasını məhz Nizami Gəncəvi qoyub və Azərbaycan fəlsəfi fikri, fəlsəfi məktəbinin nümayəndəsi kimi dünya irsinə böyük töhfələr verib. Bu çox sadə məsələ deyil ki, nəyinsə xatirinə güzəştə gedə biləsən. Nizami Gəncəvi Azərbaycan torpağında böyüyüb, burada yaşayıb, burada dəfn olunub, deməli o, bu torpağın, bu millətin oğludur, bu xalqın nümayəndəsidir.

Kimlər güzəştə getmirsə, bu o demək deyil ki, biz onlara güzəştə getməliyik. Bundan böyük amalımız ola bilməz. Nizamini Azərbaycan xalqının böyük övladı və böyük irsimizin yaradıcılarından biri kimi qələmə verməkdən azərbaycanlıların daha böyük işi ola bilməz ki, Nizamini onun naminə biz təhvil verək və ya bu məsələdə güzəştə gedək. Yəni onun Azərbaycan şairi olduğuna zərrə qədər də şübhə ola bilməz!

**16 Sentyabr 2013**

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun Yeni Müsavat qəzetinə müsahibəsi**

***"Rusiya dövlətinin belə bir ideyasının olduğu inandırıcı deyil"***

***Nazim İbrahimov: "Biz çox yaxın gələcəkdə Nizami irsini dünyaya yeni bir formada təqdim edə və böyük şairin, mütəfəkkirin həqiqətən də bir azərbaycanlı olduğunu tam mənada hər kəsə çatdırmağa nail olacağıq"; "Mən inanmıram ki, Rüstəm İbrahimbəyov nəyə etiraz etdiyini bilirdi; o, heç Azərbaycanda siyasətə nə üçün qoşulduğunun fərqində deyildi"***

**- Nazim müəllim, bu, yaxşı haldırmı?**

- (Düşünmədən) Yaxşı, pis, bu, reallıqdır. Bir var reallıq, mən buna fikir bildirmək istəmirəm. Əlbəttə, Azərbaycanda siyasi cəhətdən hər kəs yetkin olsa, daha yaxşıdır. O halda heç olmasa ölkədə aparılan siyasətin nə dərəcədə dərin və birmənalı olduğunu başa düşərlər. İnsanların siyasi cəhətdən hazırlığı az olduqca Azərbaycanda aparılan siyasətin də nədən ibarət olduğunu anlamırlar. Hesab edirəm ki, nə qədər yüksək dərəcədə siyasi hazırlıqlı adamlar çox olsa, Azərbaycanda müxaliflərin sayı da bir o qədər azalar, müxalifətdə olanlar öz siyasi mövqelərini dəyişərlər. Çünki ölkədə həyata keçirilən siyasətin alternativsizliyini gördükdə hər kəs başa düşəcək ki, Azərbaycan prezidentinin yanında olmaq, komandasında, ətrafında olub Azərbaycanın dövlət quruculuğunu irəli aparmaq, inkişaf etdirmək lazımdır. Siyasi savadın azlığı səbəbindən bəzən çox naşı adamlar nəyə etiraz etdiklərini də bilmirlər. Məsələn, mən inanmıram ki, Rüstəm İbrahimbəyov nəyə etiraz etdiyini bilirdi. O heç Azərbaycanda siyasətə nə üçün qoşulduğunun fərqində deyildi. Onun bir neçə çıxışından göründü ki, siyasətdən xəbərdar deyil. Böyük ssenarist ola bilər, gözəl yazılar yaza, dəfələrlə mükafatlar da ala, tanınmış ictimai xadim də ola bilər. Siyasət peşədir, siyasətə uzun illər ərzində alışmaq, ona hazır olmaz lazımdır. O zaman siyasətin nə qədər çətin olduğunu bilərsən. Ancaq mən arzu edirəm ki, ölkədə siyasəti nə qədər çox insan bilərsə - mən bunu müxalif tərəfə aid edirəm - bir o qədər də qəbul edərlər ki, həqiqətən də bu gün Azərbaycan üçün alternativsiz siyasət yürüdülür.

**- Putinin səfəri bu məsələyə nə dərəcədə təsir göstərdi? Buna qədər hesab olunurdu ki, Moskva milyarder azərbaycanlılardan Bakıya qarşı təzyiq vasitəsi kimi istifadə edir...**

- İctimai rəydə mövcud olan fikirlərlə dövlət adamının səsləndirdiyi fikirlər arasında fərq olmalıdır. Sizlər müxtəlif fikirlər, mülahizələr, ehtimallar irəli sürə bilərsiniz. Amma biz bir dövlət adamı kimi bir şeyi söyləməliyik: Rusiya-Azərbaycan strateji tərəfdaşdır. Mən heç zaman inanmaram ki, Azərbaycana qarşı istifadə etməklə bağlı belə bir ideya olsun. Çünki yüksək dövlət adamları, dövlətçilik təfəkkürü olan insanlar bu tipli kiçik bir məsələ ilə güclü dövlətə təsir etməyin mümkünsüzlüyünü bilirlər. Rusiyanın dövlətçilik tarixinə nəzər salsaq, bu qədər qədim tarixə malik bir dövlətdə bu qədər bəsit fikirləşə bilən kimsənin olduğuna inanmıram. Kimlərinsə, hansısa dairələrin ideyası ola bilər. Amma dövlətin belə bir ideyasının olduğu inandırıcı deyil.

**- Bu mənada hesab edirsinizmi ki, Rusiyanın Azərbaycana qarşı Gömrük İttifaqı, Avrasiya İttifaqı ilə bağlı basqıları da ötdü keçdi?**

- Azərbaycan heç nəyə baxmadan hər zaman ancaq öz dövlət maraqlarına xidmət edən bir siyasət həyata keçirir. Bütün kiçik dövlətlərə, daim lazım oldu-olmadı iqtisadi, siyasi, ictimai təzyiqlər olur. Bizimsə əsas vəzifəmiz ondan ibarətdir ki, Azərbaycan ancaq öz dövləti maraqlarına, milli maraqlarına əsaslanaraq öz siyasətini yürüdür. Kimlər hansı təzyiq, ya qeyri-təzyiq vasitəsini seçir, kimlər bizi harada görmək istəyir, ya istəmir, bunlar təbiidir. Müxtəlif beynəlxalq institutlar bizi öz sıralarında görmək istəyər. Azərbaycan iqtisadi imkanları, beynəlxalq layihələrdə iştirakı baxımından çox cəlbedici bir dövlət olduğu üçün bir çox beynəlxalq təşkilatlar onu öz sıralarında görmək istəyər. Amma biz Azərbaycanın dövlət maraqlarını qoruyub saxlayaraq, milli maraqlarımıza uyğun olaraq, dövlətçiliyimizi inkişaf etdirməliyik. Bu siyasət çox böyük müvəffəqiyyətlə həyata keçirilir. Bu, kimlərinsə xoşuna gəlməyə bilər, lakin zaman hər şeyi öz yoluna qoyur.

**- Nazim müəllim, bugünlərdə Bakıda sizin təşəbbüsünüzlə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birgə Nizami irsi ilə bağlı keçirilən beynəlxalq tədbirdə çoxsaylı nüfuzlu qonaqlar, xarici dövlət başçıları iştirak etdi. Qonşu İrandan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi ilə bağlı iddiaların artdığı bir dövrdə bu tədbirin keçirilməsini belə iddialara cavab da sayanlar oldu. Əsas məram-məqsədlər sırasında bu da var idimi?**

- Burada bir neçə məram və məqsədlər var idi. Beynəlxalq tədbirlərin belə tez-tez keçirilməsinin Azərbaycan üçün çox böyük bir önəmi var. Biz fəaliyyətimizdə lobbiçilik məsələsinə çox ciddi fikir veririk. Bizim diaspor üzvlərinin yaşadıqları ölkələrin ictimai xadimləri, siyasətçiləri, dövlət adamları ilə yaxınlaşmasına önəm veririk. İstəyirik ki, onlar həmin ölkələrin siyasətində, ictimai həyatında olan insanlarla yaxın əlaqələr qursunlar, bu əlaqələrdən faydalana bilsinlər. Bu tədbirin məqsədlərindən biri də bu idi. Buraya gələn insanlar on illər ərzində öz dövlətlərinə başçılıq ediblər, bu isə o deməkdir ki, öz xalqları tərəfindən gözəl tanınır, hörmətlə qəbul edilir. 70 milyonluq bir ölkənin prezidenti olmuş bir insanın Azərbaycan diasporunun tədbirinə çağırılması sıradan bir hadisə deyil. Belə insanların Azərbaycan diasporunun çağırışlarına reaksiya verməsi, Azərbaycana dəstək ifadə edən hər bir kəlməsi həmin ölkənin bütün ictimaiyyəti tərəfindən qəbul olunur.

Bu insanlar buraya gəlib Azərbaycanın inkişafını görərək, özlərinin dediyi kimi, heyrətə düşüblər. Bunun özü də gələcəkdə diasporumuzun inkişafı, Azərbaycanın tanıdılması üçün xüsusi əhəmiyyət kəsb edir. İkinci tərəfdən, qədim tariximizdən bu günə qədər mövcud olmuş böyük dövlət adamlarımızı, mütəfəkkirlərimizi nə qədər çox üzə çıxardıb tanıtsaq, tariximizin qədimliyini, zənginliyini təbliğ etsək, bu, indiki zamanda bir o qədər xeyirlidir. Yəni bu, ermənilərin yüz illər boyu əleyhimizə apardığı təbliğat işinin qarşısını almağa imkan yaradır. Burada əsas məqsəd ermənilərin iddia etdiyinin əksinə olaraq, azərbaycanlıların dünən, bu gün deyil, min illər öncə tam formalaşmış xalq olduğunu ortaya qoymaqdır.

Ermənilərin əleyhimizə apardığı təbliğat işinin ideoloji əsasını o təşkil edir ki, əgər bu xalqın qədim tarixi yoxdursa, onun qədim torpağı da ola bilməzdi. Mən çox istəyərdim ki, biz Atropatın bu torpaqlarda olan əməyini, uğurlarını ortaya qoyaq. Əgər bir ölkənin hökmdarının qızı böyük Makedoniyalı Aleksandrdan sonra Makedoniya kimi imperiyanın şahzadəsi olubsa-söhbət azərbaycanlı qızından gedir-bu, çox önəmli bir tarixi faktdır. Tarixin mühüm bir mərhələsində indiki Ermənistanın yerləşdiyi ərazilər Atropatın hökmranlığı altında olubsa, bu, çox önəmli məsələdir.

**- Belə çıxır ki, siz tariximizin yenidən yazılmasının tərəfdarısınız...**

- Bütün tariximizi bu kimi faktlarla ortaya qoymaq, onun qədimliyini göstərmək olduqca zəruridir. Mən çox qədim dövrdəki faktlardan danışıram. Nizami isə daha yaxın bir dövrə aiddir. Biz 850 il bundan əvvəl yaşayıb-yaratmış dahi azərbaycanlı mütəfəkkirin, filosofun, Azərbaycanda doğulub-böyümüş, burada dəfn edilmiş böyük bir şairin fikirlərini bir daha aşılamaq zərurəti duyduq. Nizami və onun mistikasının daha geniş şəkildə açıqlanmasını istədik. Dünyanın bir çox yaşam, idarəetmə sahəsindəki ideologiyaları Nizami fəlsəfəsi üzərində qurulub, bunu biz bilmirdik, yeni-yeni öyrənirik. Dünya bunu çox gözəl bilirmiş. Bir çox yerlərdə bu ideologiyalar bizim xəbərimiz olmadan çox geniş analiz olunub.

Bu məsələlərin hamısını ortalığa çıxartmaq Azərbaycanın həqiqətən də qədim köklərə malik bir torpaq, Azərbaycan xalqının, millətinin çox qədim, zəngin tarixinin olduğunu göstərmək bugünkü gün bizim təbliğatımızda Azərbaycanı tanıtmaq işinin çox mühüm bir istiqamətidir. Yəni biz Nizamini, bu qədər dahi bir insanı ortaya qoyduğumuz zaman bir anlığa ondan 500 il sonra Leonardo do Vinçi, yaxud ondan sonrakı dövrlərdə Şekspir, digər millətlərin dünya tarixində xüsusi yer tutmuş simaları arasında paralellik aparaq. Görün bu şəxsiyyətlər hansı dövrdə yaşayıblar, Nizami Gəncəvi isə az qala min il bundan qabaq öz dövrünün görkəmli mütəfəkkiri olmuş dahi bir şəxsiyyətdir. Min il bundan qabaq Avropada dövlətlər formalaşmamışdı. Avropa təzə-təzə formalaşmağa başlayırdı. Yəni hələ o dövr üçün bu qədər böyük bir fikir adamı, mütəfəkkir yetişdirə bilən bir xalq, deməli, böyük xalqdır, dünya da bunu çox rahat bir şəkildə qəbul edir, mən bunu müşahidə edirəm. Hesab edirəm ki, biz çox yaxın gələcəkdə Nizami irsini dünyaya yeni bir formada təqdim edə və böyük şairin, mütəfəkkirin həqiqətən də bir azərbaycanlı olduğunu tam mənada hər kəsə çatdırmağa nail olacağıq.

**16 Sentyabr 2013**

## İlham Əliyevin prezidentliyi dövründə diaspora sahəsində baş verən mühüm hadisələr

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev də Azərbaycan Respublikasına rəhbərlik etdiyi on il ərzində diaspora sahəsi, xarici ölkələrdə yaşayan soydaşlarımızla işə böyük üstünlük verib. Təsadüfi deyil ki, Azərbaycan diasporunun həyatında baş verən ən mühüm hadisələr də məhz İlham Əliyevin prezidentliyinin 10 ilini əhatə edir. Prezident İlham Əliyevin diaspor quruculuğu sahəsində qarşıya qoyduğu vəzifələri yerinə yetirən Diasporla İş üzrə Dövlət Komitəsi də fəaliyyət göstərdiyi bu illər ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, soydaşlarımız arasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması, həmvətənlərimizin hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirib, diasporumuzun təşkilatlanması, ayrı-ayrı qurumların 1 təşkilatda birləşməsi davam etdirib.

Belə ki, 2004- cü ilin aprel ayının 17-də Almaniyanın paytaxtı Berlin şəhərində Avropa Azərbaycanlıları Konqresinin təsis konfransı keçirilib. Tədbirə dünyanın 28 ölkəsində fəaliyyət göstərən 50-dən artıq diaspor təşkilatından 264 nümayəndə qatılıb. Təsis konfransında Avropa Azərbaycanlıları Konqresinin nizamnaməsi qəbul edilib və qurumun rəhbər orqanları seçilib. May ayının 28-də Türkiyə Respublikasının İsgəndərun şəhərində bu ölkədə fəaliyyət göstərən 18 Azərbaycan icma və birliklərini özündə birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransı keçirilib.

2004- cü ilin oktyabr ayında Ümumrusiya Azərbaycan Konqresinin II Qurultayının keçirilməsi isə Azərbaycan diasporunun həyatında ən mühüm hadisələrdən biri oldu. Qurultayda Azərbaycan və Rusiya Prezidentlərinin də iştirakı onun siyasi və tarixi əhəmiyyətini artıran əsas faktlardan biri kimi səciyyələndirilə bilər.

2005-ci ilin aprel ayında Kanadanın Toronto şəhərində Azərbaycan Təşkilatları Federasiyasının təsis konfransının keçirilməsi Azərbaycan icmalarının vahid təşkilatda birləşməsi prosesinin artıq mütəşəkkil xarakter aldığını və bütün dünyanı əhatə etməkdə olduğunu göstərdi. Həmin ildə Ukrayna Azərbaycanlıları Konqresinin İdarə Heyətinin Dnepropetrovskda keçirilən toplantısında Ukrayna Azərbaycanlıları Konqresinin bütün regional təşkilatlarında gənclər birliklərinin yaradılması barədə qərar qəbul edildi.

2006-cı ilin mart ayının 16-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi. Dünya Azərbaycanlılarının II Qurultayı tarixi məzmununa və ictimai əhəmiyyətinə görə, ilk Qurultaydan bir çox cəhətləri ilə seçilirdi. Bu fərqlərdən birincisi Azərbaycanın müstəqil dövlət olaraq keçdiyi inkişaf yolu ilə bağlıdır. Dünya azərbaycanlılarının II qurultayına dünyanın müxtəlif ölkələrindən ümumilikdə 1231 nümayəndə seçilmişdi. Qurultayda 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdi. Ən çox nümayəndə və qonaqlarla təmsil olunan ölkələr Rusiya Federasiyası (200), Türkiyə (116), Ukrayna (85), Almaniya (53), Gürcüstan (40), ABŞ (38), Fransa (27), Qazaxıstan (25), İsveç Krallığı (23), Böyük Britaniya və Şimali İrlandiya Krallığı (16), Belarus (15), Kanada (13), Niderland Krallığı (14), Latviya (14), Estoniya (13) və Avstriya (10) olmuşdu.

2007-ci il noyabrın 17-19-da yenə də Azərbaycan dövlət başçısının təşəbbüsü ilə ilk dəfə Türkiyədən kənarda-Bakıda təşkil olunan Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı da Prezident İlham Əliyevin türk xalqları arasında birliyin möhkəmləndirilməsinə verdiyi xüsusi önəmin göstəricisidir. 30 ölkədən 550 nəfər nümayəndə və qonağın dəvət olunduğu qurultayın işində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Türkiyə Respublikasının Baş naziri cənab Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr Türk xalqının lideri, cümhurbaşqanı Mehmet Əli Tələt, Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl, habelə Türkdilli dövlətlərin yüksək dövlət və hökumət nümayəndələri iştirak etmişdi. Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının açılışında Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev, Qırğızıstanın təhsil və elm naziri Kanıbek Osmonaliyev, Qazaxıstan mədəniyyət və informasiya nazirinin müavini Askar Buribayev də çıxış edərək Qurultayın əhəmiyyəti barədə fikirlərini bölüşmüşlər.

2008-ci il martın 27-də Berlində Dünya Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının iclası keçirildi. Tədbirdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov “Türkdilli dövlətlər arasında münasibətlərin inkişafında diasporların rolu” mövzusunda məruzə ilə çıxış etdi. İclasda qərara alındı ki, Dünya Azərbaycan və Türk Diaspor Təşkilatlarının Koordinasiya Şurasının 9 nəfərdən ibarət idarə heyəti yaradılsın. Eyni zamanda Şuranın katibliyi yaradılsın və bu struktur Avropa dövlətlərinin birində yerləşsin. Toplantının sonunda Berlin Bəyannaməsi və 1918-ci martın 31-də Azərbaycanlılara qarşı törədilmiş soyqırımın 90 illiyi ilə əlaqədar Bəyanat qəbul olundu. Şura üzvləri Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdulla Gülə müraciət qəbul etdilər. Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il noyabrın 19-da imzaladığı sərəncamla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması qloballaşan dünyada xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərmək zərurətindən irəli gəlmişdi. Prezident İlham Əliyevin 2009-cu il 14 may tarixli fərmanı ilə Diasporla Iş üzrə Dövlət Komitəsinin əsasnaməsi və strukturu təsdiqlənmişdi.

2008-ci il dekabrın 18-da Bakıda Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası üzvlərinin iştirakı ilə "Azərbaycan-Şərqin dünyaya açılan qapısı" adı altında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilmiş silsilə tədbirlər keçirildi. Toplantıya şura üzvləri ilə yanaşı dünyanın 17 ölkəsindən nüfuzlu Azərbaycan icma və birlik rəhbərləri, həmçinin türk və yəhudi icmalarının nümayəndələrindən 39 qonaq qatıldı. İclasda "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası"nın layihəsi əlavə və təkliflər nəzərə alınmaqla qəbul edildi. Tədbirdə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvləri adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olundu. 2009-cu il martın 7-də Amsterdamda Benilüks Azərbaycanlıları Konqresinin (BAK) ll qurultayı keçirildi. Qurultayın qətnaməsi qəbul edildi, səsvermə yolu ilə 12 nəfərdən ibarət BAK idarə heyətinin üzvləri seçildi. İdarə heyətinin ilk iclasında isə Elsevər Məmmədov sədr, Sahil Qasımov isə fəxri sədr seçildilər.

2009-cu il aprelin 14-də isə Frankfurtda Avropa Azərbaycanlıları Konqresinin III Qurultayı keçirildi. Avropanın 25 ölkəsindən 79 nümayəndə və qonağın qatıldığı tədbirin qətnaməsinə görə, qurumun Nizamnaməsinə uyğun olaraq 11 diaspor təşkilatı Avropa Azərbaycanlıları Konqresinə yeni üzv qəbul edildi. Avropa Azərbaycanlıları Konqresinin strukturunda da dəyişiklik edildi, iki birinci vitse-prezident və beş vitse-prezident vəzifələri təsis olundu, 27 nəfərdən ibarət İcraiyyə Komitəsinin tərkibi təsdiqləndi. Mayns- Azərbaycan Cəmiyyətinin sədri, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının İdarə Heyəti sədrinin müavini, əvvəlki tərkibdə Avropa Azərbaycanlıları Konqresinin I vitse-prezidenti olan Başar Kömür qurultayda AAK-ın prezidenti seçildi. Qurultay adından Bəyanat və Azərbaycan Prezidentinə müraciət qəbul edildi.

2009-cu il mayın 30-da Toronto şəhərində "Kanada Azərbaycan Təşkilatlar Assambleyası"nın I Qurultayı keçirildi. Tədbirdə 2 təşkilat quruma üzv qəbul edilib və Assambleyaya daxil olan diaspor təşkilatlatlarının sayı 12-yə çatdı. Qurultayda Assambleyanın növbəti müddət üçün iş planı və qurumun rəhbər orqanları seçildi, toplantının qətnaməsi qəbul olundu, tədbir iştirakçıları adından Azərbaycan Prezidenti Ilham Əliyevə müraciət ünvanlandı.

2009-cu ildə baş verən mühüm hadisələrdən biri də Ulyanovsk şəhərindəki mərkəzi meydanlardan birinə ulu öndər Heydər Əliyevin adının verilməsidir. 2008-ci ildə isə Ulyanovskda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi açıldı və bu il həmin abidənin yerləşdiyi və artıq ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan meydanda geniş abadlıq işləri görüldü. Ulyanovsk şəhərinin Zasviyajsk rayonundakı Jiqulyovsk və Fruktovaya küçələrinin kəsişməsində ucaldılmış abidənin müəllifi Azərbaycanın xalq rəssamı, Milli Elmlər Akademiyasının həqiqi üzvü, heykəltəraş, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovdur. Bundan başqa, Ulyanovskdakı 78 nömrəli orta məktəbdə Azərbaycan tarixi və mədəniyyəti muzeyinin açılışı oldu. Burada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, ulu öndərin ailə üzvlərinin, habelə ölkəmizin görkəmli dövlət xadimlərinin həyat və fəaliyyətinə həsr olunmuş ayrıca stend yaradıldı. Ulyanovsk şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin ucaldılması, H.Əliyev muzeyinin yaradılması və ulu öndərin adının həmin meydana verilməsi barədə qərar Ükrayna Azərbaycanlıları Konqresi Ulyanovsk regional bölməsinin vilayət və şəhər rəhbərliyinə müraciətindən sonra qəbul edildi.

**"Olaylar".-2013.-24 sentyabr.-№171.-S.15.**

**İlham Əliyevin 10 illik prezidentlik dövrü-diaspor hərəkatının inkişaf mərhələsi**

Cənab İlham Əliyevin prezidentliyinin on ili ərzində Azərbaycan diasporu milli maraqlarımızın müdafiəsi işində də fəal iştirak edib və bu istiqamətdə müxtəlif ölkələrdə tədbirlər, forum və konqreslər təşkil olunub. Azərbaycana qarşı müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yol verilmiş ədalətsizliklərə diaspor təşkilatları dərhal kəskin etirazlarını bildiriblər. Belə ki, 2009-cu il ərzində regionda baş vermiş bir sıra mühüm hadisələr, xüsusilə də Türkiyə və Ermənistan arasında "Diplomatik münasibətlərin qurulmasına" və 2İkitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair" protokolların imzalanması Azərbaycan və Türk diaspor təşkilatları tərəfindən ciddi narahatlıq və etirazla qarşılandı. Bununla əlaqədar, diaspor təşkilatlarından Diasporla İş üzrə Dövlət Komitəsinə çoxsaylı müraciətlər daxil oldu.

2009-cu ilin noyabr ayında Almaniyanın Frankfurt şəhərində Avropa Azərbaycanlıları Konqresi və Azərbaycan-Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının birgə toplantısı keçirildi. Toplantıda diaspor təşkilatları birmənalı şəkildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən Türkiyə-Ermənistan sərhədlərinin açılmasının yolverilməz olduğunu və bu məsələdə Azərbaycan Respublikasının mövqeyini dəstəklədiklərini bildirdilər. Azərbaycan və türk diaspor təşkilatları nümayəndələri birmənalı şəkildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Türkiyə ilə Ermənistan sərhədlərinin açılmasının yolverilməz olduğunu vurğuladılar. Müzakirələrin yekunu olaraq toplantı iştirakçıları adından Azərbaycan və Türkiyə prezidentlərinə müraciət qəbul edildi.

2009-cu ilin noyabr ayında Avropadakı Azərbaycanlı Qadın Təşkilatları Birliyinin təşəbbüs qrupu yaradıldı. Belə bir qurumun yaradılması ideyası Avropada yaşayan azərbaycanlı xanımları daha da fəallaşdırmaq məqsədilə irəli sürülmüşdü. Bu birlik azərbaycanlı qadınların, eləcə də qadın təşkilatlarının arasında qarşılıqlı əməkdaşlığı inkişaf etdirməyə, onların bir-biri ilə daha sıx ünsiyyətdə olmasına xidmət edirdi/

2009-cu ildə həm də Diasporla İş üzrə Dövlət Komitəsinin yeni internet saytı istifadəyə verildi. Yeni saytda Azərbaycan dövləti və xalqı haqqında geniş məlumat əksini tapdı.

2010-cu ilin əvvəlində "Azərbaycan diasporuna dövlət qayğısı" adlı Azərbaycan dövlətinin diasporumuzun inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs edən III kitab işıq üzü gördü. Burada Azərbaycan Prezidenti İlham Əliyevin diaspor quruculuğu işinin təkmilləşdirilməsinə, xarici ölkələrdə yaşayan soydaşlarımızın problem və qayğılarının həllinə xidmət edən fərman və sərəncamları, dünya azərbaycanlılarına, həmçinin diaspor təşkilatlarının toplantılarına müraciətləri və digər mühüm sənədlər, habelə forum və qurultaylardakı çıxışları, diaspor nümayəndələri ilə görüşlərinə dair məlumatlar əksini tapırdı. 2010-cu ildə Çexiyanın Lidiçe küçələrindən biri Xocalı adının, Xocalı şəhərində küçələrdən birinin isə Lidiçe adının daşıması haqqında qərar verildi. 2010-cu il martın 1-də Xocalı Şəhər İcra Hakimiyyəti ilə Lidiçe Xatirə Kompleksi və onun tabeçiliyində olan NKP Lejaki Memorialı arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalandı.

Memoranduma görə, Lidiçe Xatirə Kompleksi və Xocalı Şəhər İcra Hakimiyyətinin əməkdaşlığı əsasən qarşılıqlı təşviqat- təbliğat işlərinin aparılmasını, hər iki şəhərdə baş vermiş faciəyə dair sərgilərin təşkilini, Lidiçe sakinlərinin və Xocalı faciəsi şahidlərinin görüşlərini, elmi tədqiqatlar üçün arxiv materiallarından istifadə üçün şəraitin yaradılmasını, soyqırıma aid nəşrlərin mübadiləsini, eləcə də birgə nəşrlərin layihəsinin hazırlanmasını və tarixi materialların çap olunmasını, uşaq və gənclər üçün tədris xarakterli yarış və müsabiqələrin təşkilini əhatə edirdi.

2010-cu ilin mayında İsrailin Təl-Əviv şəhərində "KİV və regional münaqişələr" mövzusunda beynəlxalq konfrans keçirildi. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının birgə təşkil etdiyi konfransda dövlət rəsmlərinin, regiondakı prosesləri dərindən bilən politoloqların və mütəxəssislərin, habelə Azərbaycan, İsrail, Birləşmiş Ştatlar, Ukrayna və Rusiyada fəaliyyət göstərən rusdilli Kütləvi İnformasiya Vasitələri rəhbərlərinin iştirakı ilə medianın münaqişələrin həllində roluna dair müzakirələr aparıldı. Mayın 6-da İsrailin Hadera şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyacaq xiyabanın təməlqoyma mərasimi oldu.

2010-cu ildə Ukraynada yaşayan azərbaycanlı gənclərin I forumu keçirildi. Ukraynanın 27 vilayət və şəhərindən 700-dən çox gəncin qatıldığı forumda ermənilərin ideoloji təxribatlarına cavab vermək məqsədilə hər il aprelin 24-ü Ukraynada yaşayan Azərbaycanlı gənclərin həmrəylik günü elan olundu. Tədbirdə Ukraynada yaşayan azərbaycanlı gənclərin əlaqələndirmə şurası yaradıldı.

2010-cu ildə Marneuli şəhərində Gürcüstan azərbaycanlı gənclərinin I qurultayı keçirildi. Tədbirdə Gürcüstan Azərbaycanlı Gənclərinin İttifaqı yaradıldı, qurumun Nizamnaməsi təsdiq edildi. 13 nəfərdən ibarət İdarə Heyəti seçildi. İsveçdə də azərbaycanlı gənclər bir araya gələrək yeni təşkilat yaratdılar. İsveç Krallığında yaşayan azərbaycanlı gənclərin yeni təşkilatı "İsveçin gənc azərbaycanlıları" adlandırıldı. Qeyd etmək lazımdır ki, indi dünyanın əksər ölkəsində 370-dən çox Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir.

2010-cu il, may ayının 15-də Marneuli şəhərində Gürcüstan azərbaycanlı gənclərinin I qurultayı keçirilib. Marneulidəki Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Diasporla İş Üzrə Dövlət Komitəsinin dəstəyilə keçirilmiş qurultayda Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Namiq Əliyev, Milli Məclisin deputatları Qənirə Paşayeva, Rauf Əliyev, Sabir Hacıyev, Gürcüstan parlamentinin üzvü Azər Süleymanov, Kvemo-Kartli qubernatorunun müavinləri Hüseyn Yusifov, Koba Kubiaşvili, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər. Gürcüstan azərbaycanlı gənclərinin I qurultayının təşəbbüs qrupunun rəhbəri Leyda Məmmədova çıxış edərək qurultayın çağırılmasının məqsədi barədə danışıb. O qeyd edib ki, toplantının əsas məqsədi Gürcüstanın azərbaycanlı gənclərini bir araya gətirmək və onların cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl layihələr həyata keçirməkdir.

L.Məmmədova qurultayda 202 nəfər nümayəndədən 165 nəfərin iştirak etdiyini bildirib. O, qurultayın işində Gürcüstandakı azərbaycanlı gənclərin təsis etdiyi 18 təşkilatın nümayəndəsinin iştirak etdiyini diqqətə çatdırıb. Toplantıda Gürcüstanın azərbaycanlıların yaşadığı bütün bölgələr təmsil olunub. Mayın 19-da İsveçdəki Azərbaycan diasporunun gənc fəalları yeni təşkilat yaradıblar.

Stokholmda bir araya gələn gənc soydaşlarımızın keçirdiyi təsis konfransında Linkoping Universitetinin Beynəlxalq Əlaqələr fakültəsinin tələbəsi Mahirə Muxtarlı və Stokholm Universiteti Hüquq və Beynəlxalq Əlaqələr fakültəsinin tələbəsi Fərəc Quliyev təşkilatın nizamnaməsini geniş ekran vasitəsi ilə təqdim ediblər. Konfrans iştirakçılarının yekdil qərarı ilə İsveç Krallığında yaşayan azərbaycanlı gənclərin yeni təşkilatı "İsveçin gənc azərbaycanlıları" adlandırılıb. Konfransda təşkilatın idarə heyəti və rəmzləri təsdiqlənib. İdarə heyətinə həm Azərbaycan Respublikasından, həm də əslən Güney Azərbaycandan olan tələbələr, eləcə də ayrı-ayrı idarələrdə, müəssisələrdə çalışan aktiv gənclər seçiliblər. Konfransa dəvət olunan qonaqlar öz çıxışlarında gənclərin bu təşəbbüsünə və onların gələcək fəaliyyətinə dəstək verəcəklərini bildiriblər. Sonda artıq isveçlilərin rəğbətini qazanmış reper Azərikim konfrans iştirakçıları qarşısında İsveç və Azərbaycan dilində çıxış edib.

İlham Əliyevin prezidentliyi dövründə diaspora sahəsində ən yadda qalan hadisələrdən biri də Dünya Azərbaycanlılarının III qurultayının keçirilməsidir. Belə ki, 2011-ci il, iyulun 5-də Bakıda, Heydər Əliyev Sarayında Dünya azərbaycanlılarının III qurultayı keçirilib. Qurultayda bildirilib ki, Dünya azərbaycanlılarının III qurultayının Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə təsadüf etməsi bu möhtəşəm tədbirin ictimai-siyasi məzmununu daha da zənginləşdirir.

Qeyd edək ki, Dünya azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə keçirilmişdi. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdu. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2006-cı il martın 16-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayı ilə milli diasporumuz inkişafının yeni mərhələsinə qədəm qoydu. Qurultaydan keçən 5 il ərzində 100-dən çox yeni diaspor təşkilatı yaradılmış, bir sıra regionlarda azərbaycanlı icmaların fəaliyyətini əlaqələndirən yeni qurumlar təsis edildi. III qurultayda 42 ölkədən seçilmiş 600 nümayəndədən 579 nəfəri, habelə dünyanın 30 ölkəsindən 211 nəfər qonaq qismində iştirak edib. Ən çox nümayəndə və qonaqlarla təmsil olunan ölkələr sırasında Rusiya Federasiyası 155, Türkiyə 101, Ukrayna 49, Almaniya 43, Gürcüstan 41, ABŞ 28, İsveç Krallığı 23, Niderland Krallığı 21, İsrail 17, Özbəkistan 13, Fransa 12, Böyük Britaniya və Şimali İrlandiya Krallığı 11, Kanada 10 nəfərlə təmsil olunmuşlar. Ümumilikdə qurultayda 1872 nəfər iştirak edib. Qurultay nümayəndələrinin 182 nəfəri xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin rəhbərləri olub. Qurultayda Azərbaycan Respublikasının bütün bölgələrindən olan nümayəndələr də iştirak edib. Azərbaycan Respublikasının dövlət və hökumət strukturları, qeyri-hökumət təşkilatları, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumlar və siyasi partiyalardan 677 nümayəndə və 405 qonaq qurultayda iştirak edib. Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan bu qurultayın işini 21 xarici ölkədən 37 nəfər, eyni zamanda, respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin 163 nümayəndəsi işıqlandırıb. Dünya azərbaycanlılarının III qurultayının iştirakçıları arasında vaxtilə Azərbaycanda yaşamış yəhudi, rus, ukraynalı, bolqar, ahıska türkü və digər xalqların xarici ölkələrə miqrasiya etmiş təmsilçiləri də olub. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib, nümayəndələrin çıxışları dinlənilib. Qurultay Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yenidən Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədri seçilib.

**"Olaylar".-2013.-25 sentyabr.-№172.-S.15.**

**Diasporla İş üzrə Dövlət Komitəsinin hüquq və vəzifələrinin məqsədyönlü şəkildə icrası Diaspora sahəsində yeni nailiyyətlərə yol açır**

Müstəqillik illərində diaspor sahəsində əldə etdiyimiz uğurların artmasına təsir göstərən amillərdən biri də sırf bu sahə ilə məşğul olan dövlət qurumunun yaradılması idi. Ümummilli lider Heydər Əliyevin 2002-ci il, iyulun 5-də imzalamış olduğu müvafiq sənəd əsasında yaradılan Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi sonradan prezident İlham Əliyevin imzalamış olduğu sərəncamla Diasporla İş üzrə Dövlət Komitəsi adlandı. Dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizlə sıx əlaqəli şəkildə işləyən Diasporla İş üzrə Dövlət Komitəsinin əsas məqsəd və vəzifələrinin təfsiri Azərbaycan Respublikası Prezidentinin 2009-ci il 14 may tarixli 95 saylı Fərmanı ilə təsdiq edilmiş "Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də öz əksini tapmışdır. Əsasnaməyə görə, Dövlət Komitəsi xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, onlarla əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatların bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Diasporla İş üzrə Dövlət Komitəsinin əsasnaməsinə görə komitənin əsas vəzifələri xaricdə yaşayan azərbaycanlılara, onların yaratdıqları qurumlara, kütləvi informasiya vasitələrinə beynəlxalq hüquq normaları çərçivəsində öz tarixi Vətəni ilə əlaqə yaratmaq, ana dilini, milli-mənəvi dəyərləri mənimsəmək, yaşatmaq və inkişaf etdirmək, eləcə də Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələr qurmaq, onların təcrübəsini öyrənmək məqsədi ilə müxtəlif yönlü təşkilati, informasiya, maddi və mənəvi yardım göstərmək, Azərbaycan Respublikasında həyata keçirilən müstəqil, hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət quruculuğu, sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişaf haqqında xarici ölkələrdə yaşayan həmvətənləri, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporlarını məlumatlandırmaq, dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək daxildir.

Bununla yanaşı Diasporla İş üzrə Dövlət Komitəsi digər icra hakimiyyəti orqanlarının diaspor işi ilə bağlı fəaliyyətini əlaqələndirir, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin edir, dünya azərbaycanlılarının mənəvi birliyinə və həmrəyliyinə xidmət edən ümummilli ideyaları, milli-mənəvi dəyərləri sistemləşdirir, onların Azərbaycan Respublikasının vətəndaşları və xarici ölkələrdə yaşayan soydaşlarımız arasında yayılmasını təmin edir. Xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına,kitabxana, arxiv, muzey, teatr, musiqi ansambllarına və yaradıcı kollektivlərinə digər dövlət orqanları ilə birgə yardım göstərmək, xaricdə yaşayan həmvətənləri Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar prosesinə yaxından cəlb etmək, onların Azərbaycanın iqtisadiyyatına investisiya qoyması və ölkə ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli şərait yaratmaq, xaricdə yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai, mədəni və digər birliklərin, habelə onların əməkdaşlıq etdiyi digər diaspor təşkilatlarının Azərbaycan Respublikası ilə əlaqələrinin qurulmasına və inkişafına kömək göstərmək də Dövlət Komitəsinin vəzifələri sırasındadır. Komitə xaricdə yaşayan azərbaycanlıların öz milli və vətəndaşlıq hüquqlarının təmin edilməsi ilə bağlı həyata keçirdikləri fəaliyyətə beynəlxalq sənədlərdə təsbit olunmuş insan haqlarının müdafiəsi və qorunması prinsipinə uyğun olaraq dəstək verir, bu məqsədlə azərbaycanlıların sıx yaşadığı dövlətlərin aidiyyəti strukturları ilə səmərəli iş mexanizmi qurur və problemlərin həllinə kömək göstərir. Eyni zamanda xaricdə yaşayan azərbaycanlıların keçirdikləri mühüm tədbirlərdə Azərbaycan Respublikasının müvafiq dövlət və qeyri- hökumət təşkilatlarının nümayəndələrinin iştirakına kömək göstərmək, Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliğ edilməsi və mənafelərinin müdafiəsi işində Azərbaycana ənənəvi müsbət münasibəti olan diasporların imkanlarından istifadə etmək, diasporla iş sahəsinə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək, qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək, diaspor işinin təşkili sahəsində kadr hazırlığını təmin etmək kimi istiqamətlərdə də fəaliyyət göstərir. Komitənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək, onun fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək, xaricdə yaşayan azərbaycanlıların vəziyyəti və onlarla aparılan iş, Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diaspor qurumları ilə əməkdaşlığın inkişafı sahəsində görülmüş işlər haqqında vaxtaşırı hesabatlar, illik məruzələr hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək kimi vəzifələr də Diasporla İş üzrə Dövlət Komitəsinin icra etdiyi məsələlər sırasındadır.

Xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasına, mütəşəkkilliyinin möhkəmlənməsinə yardım etmək, azərbaycanlıların ayrı-ayrı beynəlxalq təşkilatlarda təmsil olunmasına,lobbiçilik fəaliyyətinin gücləndirilməsinə, Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsinə kömək etmək, xaricdə yaşayan azərbaycanlıların problemləri, eləcə də Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı dəyirmi masalar, seminarlar və konfranslar keçirmək, azərbaycanlıların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlər həyata keçirmək, onların sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərini öyrənmək və həllinə dair Azərbaycan Respublikasının dövlət strukturları, eləcə də Xarici İşlər Nazirliyinin vasitəsi ilə müvafiq xarici dövlətlər qarşısında təkliflər irəli sürmək, soydaşlarımızın yığcam yaşadıqları ölkələrdə və regionlarda Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə birgə ana dilində məktəblərin və Azərbaycan mədəniyyət mərkəzlərinin açılmasını və fəaliyyətini təşkil etmək, xaricdə yaşayan azərbaycanlıların, eləcə də Azərbaycana dost münasibət bəsləyən digər xalqların diaspor nümayəndələrinin Azərbaycan dövlətinə və onun vətəndaşlarına maddi, mənəvi və humanitar yardımını təşkil etmək və aidiyyəti üzrə istiqamətləndirmək kimi istiqamətlərdə Dövlət Komitəsi müntəzəm olaraq dünyanın müxtəlif ölkələrində tədbirlər keçirir.

Respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdə xarici ölkələrdə yaşayan azərbaycanlıların və onların ictimai birliklərinin, habelə zərurət yarandıqda, Azərbaycana dost münasibət bəsləyən digər xalqların diaspor qurumlarının iştirakına kömək etmək, xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının tədris müəssisələrində təhsil almasına, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmasına yardım etmək, azərbaycanlılar, onların məktəb və digər mərkəzləri üçün ana dili dərsliklərinin, müvafiq tədris proqramlarının və vəsaitlərinin hazırlanmasında iştirak etmək, fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək kimi məsələlər də qeyd olunan məqsəd və vəzifələrə aiddir.

Diasporla İş üzrə Dövlət Komitəsinin hüquqlarına gəlincə isə diasporla iş sahəsinə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və onların hazırlanmasında iştirak etmək, diasporla iş sahəsi üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüs irəli sürmək, diasporla iş sahəsi üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq, xaricdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsini təmin etmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək kimi məsələlər daxildir.

Bundan başqa xarici dövlətlərin diasporla işin təşkili və aparılması sahəsində təcrübəsini öyrənmək, ümumiləşdirmək və qabaqcıl təcrübənin tətbiq olunmasını təmin etmək, fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək, xaricdə yaşayan azərbaycanlılar, onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə bağlı informasiya və nəşr fəaliyyətini həyata keçirmək, internet saytı yaratmaq və ondan istifadə etmək, diasporla iş aparmaq məqsədi ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə Xarici İşlər Nazirliyi tərəfindən təyin olunan işçilər haqqında təqdimat vermək Dövlət Komitəsinin hüquqları çərçivəsindədir. Həmçinin Dövlət Komitəsi bu hüquqlar çərçivəsində xaricdə yaşayan azərbaycanlılar, onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə iş üzrə komissiyalar, koordinasiya və ekspert şuraları, işçi qrupları yaradır, diasporla iş sahəsində mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görür, müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb edir, fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirir.

**“Olaylar”.-2013.-26 sentyabr.-№173.-S.15.**

**Ukraynanın Xarkov şəhərində Heydər Əliyev adına Dünya Boks Komitəsinin keçirdiyi boks çempionatının ikinci turu baş tutub**

Ukraynanın Xarkov şəhərində Heydər Əliyev adına Dünya Boks Komitəsinin keçirdiyi boks çempionatının ikinci turu baş tutub. Almaniyanın Zakhsen-Anhalt Əyaləti üzrə Alman-Azərbaycan Cəmiyyəti və "Qəbələ" boks klubunun dəstəyi ilə ümummilli lider Heydər Əliyevin adını daşıyan kəmər uğrunda Azərbaycan, Macarıstan, Ukrayna, Belarus, Böyük Britaniyadan olan idmançılar mübarizə aparıb. 2500-dən çox azarkeşin toplaşdığı yarışda Azərbaycan idmançısı Fariz Məmmədov Rəşid Behbudovun "Azərbaycan" mahnısının sədaları altında rinqə çıxıb. Azarkeşlərin dəstəyi və alqış sədaları altında boksçumuz Belarusdan olan rəqibini 3-cü raundda noqdaun vəziyyətinə salaraq vaxtından əvvəl rinqdən kənarlaşdırıb.

Qeyd edək ki, Heydər Əliyev adına Dünya Boks Komitəsinin hər il təşkil etdiyi boks çempionatının ilk turu sentyabrın 7-də Almaniyanın Aysleben şəhərində keçirilmişdi.Heydər Əliyev adına Dünya Boks Komitəsi Almaniyanın Maqdeburq şəhərində yaradılıb və həmin şəhərdə fəaliyyət göstərir. Komitənin məqsədi dünya idmançılarını birləşdirmək, başqa millətlərdən olan idmançılarla Avropada yaşayan soydaşlarımız arasında dostluq əlaqələrini möhkəmləndirməkdir.

**26 sentyabr 2013**

## Qloballaşan dünyada Azərbaycan diasporu

### *Soydaşlarımızın daha sıx şəkildə birləşməsi zərurətə çevrilir*

Qloballaşan dünyanın doğurduğu reallıqlar Azərbaycan diasporunun fəaliyyətinə də öz təsirini göstərməkdədir. Cərəyan edən inteqrasiya prosesləri dünyanın müxtəlif regionlarında yaşayan həmvətənlərimizin daha sıx şəkildə birləşməsini zərurətə çevirir. Başqa sözlə desək, indi azərbaycanlıların ideya-siyasi birliyi yalnız ölkəmizin milli maraqlarından irəli gələn məsələ deyildir, həm də müasir dünyada gedən ictimai-siyasi proseslərin tələbi ilə ortaya çıxan zərurətdir.

Bu gün xarici ölkələrdə yaşayan azərbaycanlıların sürətlə təşkilatlanması prosesi müşahidə edilməkdədir. Azərbaycan Respublikası bu prosesə dəstək verir və onu daha da təkmilləşdirməyə, soydaşlarımızın diaspor quruculuğu sahəsində fəaliyyətini koordinasiya etməyə çalışır. Təşkilatlanmış Azərbaycan cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması diaspor quruculuğu işinin ən mühüm məsələlərindəndir. Bu məqsədlə ötən dövrdə soydaşlarımızın yaşadıqları ölkələrdə keçirilən seçkilərə təsiretmə mexanizmlərinin hazırlanmasına nail olmaq üçün müəyyən işlər görülüb və uğurlu nəticələr qazanılıb. Diasporumuzun daxili strukturunda vahid vətəndaşlıq məhfumunun olmaması, ölkə daxili proseslərin birbaşa xaricdə yaşayan və müxtəlif təşkilatlarda təmsil olunan soydaşlarımızın siyasi baxışlarına təsir etməsi, iqtisadi maraqların önə çəkilməsi bu qitələrdəki təşkilatların konqreslər və federasiyalar halında formalaşmasında ciddi çətinliklər yaradır. “Lobbi və Diaspor” Elmi Araşdırmalar Mərkəzinin rəhbəri Zaur Əliyev deyir ki, Azərbaycan diasporunun təşkilatı sistemində başqa bir mənfi cəhət hər bir qurumun yaranması və fəaliyyəti zamanı onların Azərbaycandakı daxili məsələlərlə bağlılığının olmasıdır. Onlar diaspor təşkilatlarına xas olan təsis olunduqları ölkələrin ictimai fikrində və beynəlxalq təşkilatlar içərisində təmsil etdiyi milləti və dövləti təbliğ eləmək və siyasi-lobbiçilik işi aparmaq əvəzinə daha çox bir-birləri arasında münasibətləri aydınlatmağa çalışırlar. Son zamanlar bəzi neqativ cəhətlərin aradan qaldırılmasına baxmayaraq, verilən bəyanatlarda Azərbaycandakı siyasi partiya və liderlərin mövqeyindən çıxış edilməsi fikirlərinə gəlmək olar.

Xaricdə yaranan Azərbaycan diaspor təşkilatlarının yaranması tarixinin hələ ötən əsrin əvvəllərinə təsadüf etməsinə baxmayaraq müasir mərhələdə bu istiqamətdə canlanma 1988-ci ildən etibarən başlandı. Belə təşkilatlanma prosesi 1993-cü ilə qədər davam etdi. Bu işdə xüsusilə Avropa ölkələrində yaşayan soydaşlarımız fəallıq nümayiş etdiriblər. Bir-birinin ardınca Avropa ölkələrində yaranan təşkilatlar üç mərhələli sistem üzərində fəaliyyət göstərirdilər. Burada diqqəti çəkən əsas məqam yaranan bəzi təşkilatların adlarında fərq olmasına baxmayaraq, onların bir şəxs tərəfindən təsisi edilməsi idi. Belə təşkilatların yaranması isə eyni sxem üzrə bir neçə təşkilatın fəaliyyət göstərməsinə gətirib çıxarırdı. Bu cür təşkilatlar «ailə təşkilatları» adı almaqla, onların kimin mövqeyindən çıxış etməsi və tələblərinin nə olması barədə ortaq fikrə gəlməsinə əngəlliklər törədirdi. İlk olaraq Avropada bu illərdə ardıcıl yaranan təşkilatların apardıqları işlər sırf mədəni xarakterli idi. Bu təşkilatların bir çoxu cənublu soydaşlarımız tərəfindən təsis olunduğundan onların fəaliyyətində sol meylli İran müxalifətçilik mövqeyi daha aşkar görünürdü.

Bəzi təşkilatlar isə iqtisadi maraqlar naminə təsis edilirdi. Belə təşkilatlar digərləri kimi konsert proqramları təşkil etməklə yanaşı, İrana və «yenidənqurma» dövrü yaşayan Azərbaycana gediş-gəliş işlərini əllərində cəmləməyə çalışırdılar. Gəlirli sahə olduğundan bu təşkilatlara rəqib çıxan başqa təşkilatlar da bu istiqamətdə işlər aparmaq qərarına gəldikdə Avropada təşkilatlanma prosesində ziddiyyətlər yarandı və təşkilatların özləri bir neçə yerə parçalanmalı oldu. Beləliklə, kiçik təşkilatların federasiyalar və konqreslər şəkilində birləşdirilməsi zərurəti meydana çıxdı. İlk olaraq bu addımı Birləşmiş Ştatlarda məskunlaşmış soydaşlarımız atdılar və Dünya Azərbaycanlıları Konqresi (DAK) adlı qurumun təsis olunması prosesinə başladılar. Adından göründüyü kimi, ətrafında dünyanın müxtəlif bölgələrində məskunlaşan azərbaycanlıları birləşdirən bu qurumun 1997-ci ilin iyun ayının 27-29-u Birləşmiş Ştatlarda keçirilən ilk toplantı zamanı yaradılması diasporumuzun formalaşması istiqamətində mühüm tarixi addım hesab olunur.

I Konqres dünya azərbaycanlılarının yaratdıqları təşkilatların vahid mərkəzdən idarə olunmasında əhəmiyyətli qurum kimi gözlənilirdi. Konqresdə Şimali və Cənubi Azərbaycanın problemlərinin bərabər səviyyədə götürülməsi nəzərdə tutulurdu. Lakin ilk konqres mövcud problemlərin zahirə çıxmasına sanki təkan verdi. Vətəndaşlıq mənsubiyyəti məsələsində olan neqativ hallar Cənubdan və Şimaldan olan azərbaycanlılar arasında anlaşılmazlıqları üzə çıxartdı. Tədbirin hansı, İran yoxsa Azərbaycan bayrağı altında keçirilməsi məsələsində fikir ayrılıqları yaşanan ilk konqresin növbəti görüşlərində də belə hallara tez-tez təsadüf olunmağa başlandı. Dünyanın müxtəlif bölgələrinə səpələnən azərbaycanlıların müəyyən hissəsini ətrafında birləşdirən DAK-ın fəaliyyətində hazırda da ciddi problemlər var.

DAK-dan başqa onun özünün də daxil olduğu Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası (DAƏŞ) diaspor təşkilatlarını ətrafında birləşdirən II böyük qurum sayılır. Bu qurum 2001-ci ildə Bakı şəhərində keçirilən Dünya Azərbaycanlarının I Qurultayı zamanı yaradılıb. 102 nəfərdən ibarət Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının 23 nəfərlik idarə heyətində xaricdə yaşayan soydaşlarımızla birgə yerli dövlət qurumlarında çalışan vətəndaşlarımız da təmsil olunur.

Azərbaycan diaspor təşkilatlarını ətrafında birləşdirən III böyük qurum 2004-cü ilin aprel aynın 17-də Almaniyanın Berlin şəhərində təsis olunan Avropa Azərbaycanlıları Konqresidir (AAK). Təşkilatın yaranma zərurəti Avropada pərakəndə halında olan, Dünya Azərbaycanlıları Konqresi və Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası kimi qurumlarda təmsil olunan və olunmayan Azərbaycan təşkilatlarını birləşdirməkdən irəli gəlir. Diasporla İş Üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə yaradılan Avropa Azərbaycanlıları Konqresinin Əsasnaməsinə daxil olan məqsəd və vəzifələr Avropada yaşayan azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, onların sosial-siyasi və hüquqi maraqlarını təmin etmək, bu qitədə çoxtirajlı dövrü mətbuat və elektron kütləvi informasiya vasitələrində təbliğat işinin aparılması, müxtəlif mövzulara aid konfrans, seminar, diskussiya, mətbuat üçün brifinqlər, musiqili tədbirlər, sərgilər və başqa istiqamətli tədbirlər həyata keçirmək; Azərbaycan və türk dünyası ilə bağlı elmi işlər və kitabların dəstəklənməsi; lobbiçilik və s idi.

Zaur Əliyev deyir ki, sayına və fəaliyyətinə görə Azərbaycan diasporunun güclü olduğu dövlətlərdən biri Rusiyadır. Rusiyada Azərbaycan diaspor təşkilatları 89 obyektin hamısında var. Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan 13 mərkəz fəaliyyət göstərsə də, bunlardan ikisi Ümumrusiya Azərbaycanlılar Konqresi və Rusiya Azərbaycanlılarının Federal Milli Mədəniyyət Avtonomiyası FNKA-Azerros ətrafında Azərbaycan cəmiyyətləri və təşkilatları toplaşıb və Rusiyanın bir çox bölgəsində filialları var. Azərbaycan diaspor təşkilatlarını bir qədər aktiv olduğu ölkələrdən Almaniyanın adını qeyd etmək olar. Burada hələ II Dünya Müharibəsindən sonra təsis edilən təşkilatların bugünkü sələfi olan qurumlar fəaliyyətinə görə çox geri qalırlar. Almaniyada son zamanlar təsis edilən qurumlar iqtidar və müxalifət yönümü ilə seçilirlər. Bitərəf qalan təşkilatlar isə hər iki tərəfin kölgəsində qalıblar. Məsəl üçün burada fəaliyyət göstərən Dünya Azərbaycanlıları Mərkəzinin üzvlərinin bir çoxunu siyasi mühacirlər təşkil edir, Nizami Gəncəvi adına Mədəniyyət İnstitutu isə bu ölkədə biznes maraqları güdən soydaşlarımızın əsas birləşdiyi təşkilatdır. Diaspor təşkilatlarının fəal olduğu ölkələr içərisində İsveçin də adını çəkmək olar. Bu ölkədə ilk təşkilatlar 1985-ci ildən etibarən yaradılmağa başlanıb. Hazırda bu ölkədə fəallığına görə Azərbaycan-İsveç Komitəsi xüsusi olaraq fərqlənir. Azərbaycan və isveçlilərin birləşdiyi bu cəmiyyət İsveçdə fəal təşkilatlardan hesab olunur. Azərbaycan-İsveç münasibətlərini normallaşdırmaq üçün iş aparan Komitə eyni zamanda lobbiçilik və təbliğat işi ilə məşğul olur. Bu təşkilatdan başqa biz Azərbaycan-İsveç Federasiyası, Azər Cəmiyyəti və digərlərinin adını qeyd edə bilərik ki, onlar öz fəaliyyətləri tək İsveçi deyil digər Skandinaviya ölkələrini də əhatə edir.

Belçikadakı "Azərbaycan Evi"də fəallıq nümayiş etdirən diaspor təşkilatlarındandır. Belçikada əvvəl fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Evinin əsasında qurulan təşkilat 2000-ci ildən fəaliyyətə başlayıb. Əsasən lobbiçilik, təbliğat, mədəni tədbirlər ikitərəfli əlaqələrin yaxşılaşması istiqamətində iş aparır. Hazırda da yeni-yeni diaspor təşkilatlarının yaradılması istiqamətində işlər davam etdirilir ki, bu da diaspora hərəkatının inkişafına öz töhfəsini verir.

**"Olaylar".-2013.-27 sentyabr.-№174.-S.15.**

**“Azərbaycan və özbək xalqlarının mədəni və mənəvi birliyi” adlı tədbir keçirilmişdir**

2013-cü ilin sentyabr ayında Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti tərəfindən paytaxtdakı Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində Özbəkistanın müstəqilliyinin 22-ci ildönümü ilə əlaqədar “Azərbaycan və özbək xalqlarının mədəni və mənəvi birliyi” adlı tədbir keçirilmişdir. Tədbirdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, səfirliyin əməkdaşları, universitetin professor və müəllim heyəti, tələbələr, Azərbaycan diasporunun üzvləri iştirak etmişlər.

Tədbir zamani Universitetin rektoru, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Şavkat Şaripov, Səfir Hüseyn Quliyev, Filologiya elmləri namizədi, dosent Gulbaxor Aşurova və Cəmiyyətin icraçı direktoru Erkin Nuriddinov, Azərbaycan diasporunun fəalı Almaz Məcidova və başqaları Azərbaycan və Özbəkistanın ali məktəbləri arasında əlaqələrin yaradılması və inkişafı məsələlərindən söhbət açmışlar.

**Sentyabr 2013**

## “Vətən” Cəmiyyəti Danimarka Parlamentinə etiraz məktubu göndərimişdir

Cari ilin sentyabr ayında Danimarkada fəaliyyət göstərən “Vətən” Cəmiyyəti bir qrup danimarkalı parlamentarinin Azərbaycanın işğal altındakı torpaqlarına səfər etməsi və qondarma rejimin rəhbərliyi ilə görüşlər keçirməsinə etiraz olaraq Danimarka Parlamentinə məktub göndərimişdir. Danimarkadakı Azərbaycan icması adından Parlamentin Xarici Siyasət Komitəsinin sədri Mette Gjerskova ünvanlanan etiraz məktubunda ölkə parlamentinin iki üzvünün Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə səfər etməsi haqda Ermənistan kütləvi informasiya vasitələrində yayılan xəbərlərdən narahatlıq bildirilir.

Məktubda Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verilərək, 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələrinin işğalı altında olan bölgənin Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması və bu faktın beynəlxalq hüquqla təsbit edildiyi, Azərbaycanın ərazi bütövlüyünün BMT və digər qurumlar, eləcə də Danimarka hökuməti tərəfindən tanındığı diqqətə çatdırılmışdır.

**Sentyabr 2013**

**Diaspor fəalları mövqelərini açıqladı**

***Ümumrusiya Azərbaycan Konqresinin Rusiyanın Mərkəzi Federal Dairəsi üzrə regional bölmələri qarşıdakı seçkilərdə İlham Əliyevi dəstəkləyir***

Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) nümayəndə heyəti İvanovo şəhərində bir sıra görüşlər keçirib, vacib tədbirlərin iştirakçısı olub. Nümayəndə heyəti tədbirlər proqramına xeyriyyə aksiyası ilə start verib. Trend-in məlumatına görə, İvanovo şəhərinin Qocalar Evinə gələn diaspor fəalları Beynəlxalq Qocalar Günü münasibətilə İvanovo veteranlarını təbrik edib, onlara hədiyyələr təqdim ediblər.

"Böyük Vətən Müharibəsində həlak olmuş qəhrəmanlar"ın abidəsi önünə əklil qoyduqdan sonra İvanovo şəhərinin Millətlər Evində Ümumrusiya Azərbaycan Konqresinin Rusiyanın Mərkəzi Federal Dairəsi üzrə nümayəndəliklərinin toplantısı keçirilib. ÜAK-ın Moskvadan gəlmiş nümayəndə heyəti, İvanovo vilayətinin əksər rayonlarının diaspor fəalları, adıçəkilən təşkilatın Kostroma, Smolensk, Vladimirdəki nümayəndəliklərinin rəhbərləri və aktivləri toplantının əsas kontingentini təşkil edib.

Tədbiri giriş sözü ilə açan nümayəndə heyətinin rəhbəri, Ümumrusiya Azərbaycan Konqresinin icraçı direktoru İlqar Hacıyev regiona olan səfərin baş məqsədi kimi qarşıdakı prezident seçkilərinin olduğunu vurğulayıb. ÜAK təmsilçisinin fikrincə, diaspor üzvləri vətəndaşlığından asılı olmayaraq, qarşıdakı məsuliyyətli siyasi hadisədə yaxından iştirak etməlidir. Çünki bu gün Azərbaycan diasporunun Rusiyada fəaliyyət göstərməsi, milli özünəməxsusluğunu qoruyub saxlaması və inkişaf etdirməsi üçün tam şərait var ki, bu da ilk növbədə Rusiya və Azərbaycan prezidentlərinin düzgün milli siyasəti nəticəsində mümkün olub.

Konqresin İvanovo vilayəti üzrə regional bölməsinin rəhbəri, İvanovo şəhər Dumasının deputatı Sərraf Məmmədov öz nitqində qeyd edib ki, ÜAK-ın Rusiyanın Mərkəzi Federal Dairəsi üzrə regional bölmələri qarşıdakı prezident seçkiləri ilə əlaqədar yekdil fikir formalaşdırıb. Diaspor fəalının fikrincə, regiondakı soydaşlarımız Azərbaycan Respublikasının prezidentlik kürsüsünə cənab İlham Əliyevi layiq bilir və onunla müqayisə ediləcək alternativ namizəd görmür. Bu fikri tədbirə digər regionlardan qatılmış diaspor rəhbərləri də təsdiqləyiblər. Diaspor fəallarının fikrincə, regionlarda bu vacib siyasi hadisə ilə bağlı "dəyirmi masa"lar təşkil edilib, toplantılar keçirilib.

İvanovo vilayətinə səfərin yekun tədbiri kimi nümayəndə heyəti İvanovo Dövlət Filarmoniyasında möhtəşəm konsert təşkil edib. Azərbaycan diasporunun mədəni kütləvi tədbirinə İvanovo şəhərinin meri Vyaçeslov Sverçkov, İvanovo Şəhər Dumasının deputatları, şəhərin və vilayətin müxtəlif instansiyalarının rəhbərləri də qatılıblar.

Tədbiri giriş sözü ilə açan İvanovo şəhərinin meri V.Sverçkov qeyd edib ki, Ümumrusiya Azərbaycan Konqresinin İvanovo şəhərində qarşıdakı mühüm siyasi hadisə ilə bağlı konsert təşkil etməsi bir daha İvanovodakı Azərbaycan diasporunun həm Rusiya, həm də Azərbaycanın həyatında yaxından iştirak etdiyini sübut edir.

Merin fikrincə, Azərbaycan diasporunun Azərbaycan Prezidentinin daxili və xarici siyasəti ilə həmrəy olmasının çox vacib əsasları var. "3 ildir ki, ardıcıl olaraq mən öz ezamiyyətimi Azərbaycanda keçirirəm və ildən-ilə Azərbaycanın çiçəkləndiyini, dəyişdiyini, qüdrətləndiyini öz gözümlə görürəm. Deməliyəm ki, təkcə Azərbaycanın paytaxtı Bakı şəhəri deyil, Şəki, Gəncə, Naftalan kimi şəhər və regionlarda da əsaslı inkişafın olduğunu görürəm. Azərbaycanın və Rusiyanın inkişafı yalnız bizim dostluq münasibətlərimizin inkişaf etməsinə müsbət təsir edə bilər".

Tədbirin qeyri-rəsmi hissəsində Azərbaycandan gələn müğənnilər musiqi proqramı ilə çıxış ediblər.

**"Şərq".-2013.-2 oktyabr.-№179.-S.5.**

## Rusiya azərbaycanlılarının doğru seçimi

***Soydaşlarımızın İlham Əliyevi dəstəkləməsinin kifayət qədər əsasları var***

Prezident seçkiləri yaxınlaşdıqca ölkənin bir nömrəli postu uğrunda mübarizə aparan namizədlər arasında gərginlik də artır. Əksər namizədlər bir-birinə qarşı “qara piar” kampaniyasından istifadə etməklə cəmiyyətin diqqətini özünə cəlb etməyə, bu yolla xalqın səsini qazanmağa çalışır. Həmin namizədlərdən fərqli olaraq hakim Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş hazırkı dövlət başçısı İlham Əliyevin təbliğat-təşviqat kampaniyası isə sırf seçki qanunvericiliyinin tələblərinə uyğun şəkildə həyata keçirilir. Məhz bunun nəticəsidir ki, hakim partiyanın namizədi İlham Əliyevi dəstəkləyən və seçkilərdə ona səs verəcəyini açıqlayan insanların sayı durmadan artır.

Bu bir tərəfdən İlham Əliyevin prezidentliyinin on ilində ölkənin inkişafı istiqamətində gördüyü işlərlə bağlıdırsa, digər tərəfdən onun siyasi liderə xas xüsusiyyətlərə malik olması ilə əlaqədardır. Sevindirici hal ondan ibarətdir ki, təkcə ölkə daxilində yaşayan Azərbaycan vətəndaşları deyil, eləcə də dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız İlham Əliyevə öz dəstəyini nümayiş etdirir, oktyabrın 9-da keçiriləcək seçkilərdə ona səs verəcəklərini açıq şəkildə ifadə edirlər. Bu günlərdə prezident İlham Əliyevə daha bir dəstək şimal qonşumuz olan Rusiya Federasiyasında yaşayan soydaşlarımız tərəfindən gəlib. Xəbərlərdən də aydın olduğu kimi Ümumrusiya Azərbaycan Konqresi və Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGT) Azərbaycan Prezidenti İlham Əliyevin prezident seçkilərində namizədliyinə dəstək məqsədilə Moskvada mədəni-kütləvi tədbir keçirib. 1000-dən artıq soydaşımızın iştirak etdiyi tədbirdə çıxış edən ÜmumRusiya Azərbaycanlıları Konqresinin prezidenti, akademik Məmməd Əliyev bildirib ki, ölkəmizin ən tarixi və məsuliyyətli gününə diaspor yekdil seçimlə gedir: "İlham Əliyev - ona alternativ yoxdur". Məmməd Əliyev deyib ki, Azərbaycan və Azərbaycan xalqı vacib siyasi hadisə astanasındadır: “Rusiyada yaşayan azərbaycanlılar artıq öz seçimlərini ediblər. İnanıram ki, Azərbaycan xalqı düzgün seçim edəcək və öz liderini seçəcək. Düşünürəm ki, bu, İlham Əliyev olacaq".

Məlumat üçün qeyd edək ki, Moskva diasporumuzun öz seçimində İlham Əliyevi dəstəklədiyi 4-cü Rusiya şəhəridir. Buna qədər Ulyanovsk, Tomsk və Pyatiqorsk şəhərlərindəki diaspor fəallarımız kütləvi tədbirlər keçirməklə yerlərdə yaşayan Azərbaycan vətəndaşlarının mövqeyini açıqlayıblar. Qarşıda isə İvanovo, Domodedovo, Yekaterinburq, Peterburq, Murmansk şəhərlərində yaşayan soydaşlarımız vahid namizədini aksiyalarla dəstəkləyəcəklər. Dünyanın ən çoxsaylı Azərbaycan diasporunun yaşadığı Moskvada ölkə prezidentinə olan rəğbətin səbəbləri isə çoxdur.

Birincisi, Azərbaycan Hökuməti hər zaman Rusiya Federasiyasında yaşayan azərbaycanlılara qarşı xüsusi diqqət göstərib. Hələ ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə Rusiya Federasiyasına etdiyi hər bir səfər zamanı orada yaşayan soydaşlarımızla xüsusi maraqlanır, Rusiyadakı Azərbaycan diasporu ilə görüşlər keçirirdi. Təsadüfi deyil ki, şimal qonşumuzdakı ən iri diaspor təşkilatımız sayılan ÜmumRusiya Azərbaycanlıları Konqresi də məhz Heydər Əliyevin zamanında təsis edilib. Belə ki, ÜAK-ın təsis qurultayı 2001-ci il, mart ayının 5-də Heydər Əliyev və Vladimir Putinin dəstəyi ilə baş tutub. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev də dünyada yaşayan bütün soydaşlarımıza, eləcə də Rusiya azərbaycanlılarına hər zaman xüsusi diqqətlə yanaşıb. Cənab İlham Əliyev də Rusiya Federasiyasına səfərləri zamanı vaxt taparaq bu ölkədəki diaspor nümayəndələrimizlə görüşüb, onların fəaliyyəti ilə tanış olub. Azərbaycan Hökumətinin diaspor siyasətinə xüsusi diqqət və qayğısının İlham Əliyevin zamanında da davam etməsi ötən müddət ərzində şimal qonşumuzda yeni-yeni diaspor təşkilatlarının təsis olunmasına gətirib çıxarıb. 2009-cu il, aprelin 18-də Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının təsis olunmasını buna örnək olaraq göstərmək mümkündür.

Xaricdə yaşayan soydaşlarımızın, xüsusilə Rusiyadakı həmvətənlərimizin İlham Əliyevi dəstəkləməsinin digər bir səbəbi ölkə başçısının ötən on il ərzində hər bir azərbaycanlının prezidenti olmasıdır. Dünyanın istənilən bölgəsində yaşayan azərbaycanlının probleminə şərik çıxan, onun aradan qaldırılması istiqamətində konkret addımlar atan İlham Əliyev 2007-ci ildə bunu bir daha sübut etdi. Belə ki, Rusiya Federasiyası hökumətinin 15 noyabr, 2006-cı il tarixli 683 saylı məlum qərarına əsasən, 2007-ci il, yanvar ayının 15-dən etibarən ölkə ərazisində miqrantların ticarətlə məşğul olmasına məhdudiyyətlərin tətbiq edilməsi nəzərdə tutulurdu. Həmin qərar müvafiq olaraq bu ölkədə ticarətlə məşğul olan çoxsaylı Azərbaycan vətəndaşlarına da şamil olunduğundan noyabr ayının 22-də prezident İlham Əliyev “Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında” sərəncam imzaladı. Dövlət başçısının imzaladığı sərəncama uyğun olaraq sözügedən məsələ ilə bağlı Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyasının həmin il, dekabrın 2-də keçirilmiş iclasında komissiyaya daxil olan qurumların məsul şəxslərindən ibarət işçi qrupu formalaşdı.

Qərara uyğun olaraq Rusiya Federasiyasında ticarətlə məşğul olan azərbaycanlıların problemlərinin öyrənilməsi, həmin problemlərin ümumiləşdirilməsi və müvafiq tədbirlər planının hazırlanması həyata keçirildi. Həmçinin soydaşlarımıza operativ köməyin göstərilməsi məqsədilə Rusiya Federasiyasının müxtəlif regionlarında Azərbaycan diaspor təşkilatlarının, ölkəmizin Rusiyadakısəfirliyinin və konsulluqların adı çəkilən Dövlət Komissiyasında təmsil olunan nümayəndələrindən ibarət operativ qərargah yaradıldı.

Məhz prezident İlham Əliyevin birbaşa nəzarəti altında Azərbaycan dövlətinin həyata keçirdiyi operativ tədbirlər nəticəsində soydaşlarımızın Rusiya Federasiyasından kütləvi şəkildə köçürülməsi ehtimalının qarşısı alındı. Bu ölkədə yeni qanunun qəbulu azərbaycanlıların öz iş və yaşayışlarını leqallaşdırmasına stimul verdi. 2007-ci il, fevralın 20-dən etibarən Azərbaycanın Moskvadakı səfirliyində Rusiyada yaşayan həmvətənlərimizə ümumvətəndaş pasportlarının verilməsinə başlandı.

Yuxarıda qeyd edilən faktlar Azərbaycan Prezidenti İlham Əliyevin dünyada yaşayan soydaşlarımıza, eləcə də Rusiya azərbaycanlılarına olan diqqət və qayğısının cüzi bir hissəsidir. Bütün bunlar da öz-özlüyündə soydaşlarımıza doğru-düzgün seçim etməyə və oktyabrın 9-da keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə sövq edir.

**Süleyman İsmayılbəyli**
**“Olaylar”.-2013.-2 oktyabr.-№177.-S.8.**

**Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avropada yaşayan azərbaycanlılar Brüsseldə Avropa Parlamenti qarşısında etiraz aksiyası keçirilmişdir**

2013-cü il 3 oktyabr tarixində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avropada yaşayan azərbaycanlılar Brüsseldə Avropa Parlamenti qarşısında etiraz aksiyası keçirilmişdir.

Aksiyaçılar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasına etiraz bildirmiş, münaqişə nəticəsində azərbaycanlılara qarşı törədilmiş qırğın, terror aktları, bir milyondan çox adamın məcburi köçkünə çevrilməsi, və Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olması ilə bağlı şüarlar səsləndirmişdilər. Aksiyanın sonunda işğal edilmiş ərazilərinin azad edilməsi və məcburi köçkünlərin öz torpaqlarına qayıtması üçün Ermənistana qarşı sanksiyalar tətbiq olunmasını tələb edən bəyanat qəbul etmişdilər.

**3 oktyabr 2013**

## Azərbaycan diasporu dünyada ideoloji taktika ilə işləyir

### *Erməni diasporu Azərbaycan diasporunun dünyada möhkəmlənməsindən ciddi narahatçılıq keçirir*

Təxminən on ildən artıq bir müddət ərzində yaranmaq və təşkilatlanmaq səviyyəsində olan Azərbaycan diasporu bu gün dünyada aparıcı mövqedə olan diaspor təşkilatları səviyyəsindədir və ayrı-ayrı ölkələrin diasporları ilə yaxından əməkdaşlıq edir. Bu gün Azərbaycan icmaları fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatına inteqrasiya edir, siyasi partiya və təşkilatlarla əlaqələr qurur. Müşahidə edilən bu müsbət tendensiya lobbi quruculuğu istiqamətində də uğurlar əldə etmək üçün zəmin yaradır. Qurulan əlaqələr xarici siyasi dövlət xadimlərinin, parlament üzvlərinin, kütləvi informasiya vasitələrinin nümayəndələrini Azərbaycana dəvət etməyə və onları respublikamızda gedən iqtisadi inkişaf prosesləri, quruculuq işləri ilə yaxından tanış etməyə imkan yaradır.

Bu gün qətiyyətlə demək mümkündür ki, Azərbaycan diasporu özünün çox geniş inkişaf mərhələsinə qədəm qoyub. Biz artıq bütün dünyada Azərbaycan diasporunun fəaliyyətində çox müsbət meyillər və strateji əhəmiyyətə malik inkişaf istiqamətləri görürük. Bu sahədə çalışan ekspertlər, analitik təhlilçilərin də söylədiyi fikirlərdən aydın olur ki, yaxın illərdə Azərbaycan diasporu dünyada tanınmış diasporların sırasında önə çıxacaq. Bunun işartılarını artıq bu gün görmək mümkündür. Buna ən bariz nümunə bütün dünyada olan azərbaycanlıların və diaspor təşkilatlarımızın fəaliyyətini istiqamətləndirəcək bir sənədin - xartiyanın qəbul edilməsini göstərmək olar. Heç şübhəsiz ki, həmin sənəd xaricdə yaşayan soydaşlarımızın sıx birliyinin yaranmasına, diasporlararası münasibətlərin güclənməsinə, onların ümumi iş fəaliyyətinin istiqamətlənməsinə, yaşadıqları ölkələrdə ictimai-siyasi həyata inteqrasiya olmalarına imkan verəcək.

Bir məqamı da qeyd etmək yerinə düşər ki, Azərbaycan diasporunun inkişaf etməsi, soydaşlarımız arasında birlik və bərabərliyin təmin olunmasında Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası da məqsədyönlü iş aparır. 2001-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayının yekunları əsasında yaradılan Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının əsas vəzifəsi xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesini gücləndirmək, onların ictimai-siyasi həyatda iştirak səviyyəsini yüksəltməkdir. Bu illər ərzində Şuranın apardığı gərgin iş nəticəsində Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması, dünya azərbaycanlılarının milli birlik və həmrəyliyinin möhkəmləndirilməsi, mədəni irsimizin təbliği, dünyanın tanınmış diaspor təşkilatları ilə əlaqələrin inkişafı, türk dünyasının birliyi istiqamətində mühüm nailiyyətlər əldə olunub. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının fəaliyyəti dünyaya səpələnmiş diaspor təşkilatlarını bir araya gətirmək və istiqamət fəaliyyətlərini müzakirə etmək nöqteyi nəzərindən də çox önəmlidir. Əlbəttə, bu yolda görüləsi işlər hələ çoxdur. Çalışılır ki, gələcəkdə diaspor təşkilatlarımız sıx əlaqədə olsunlar. Yeni informasiya-kommunikasiya vasitələri də buna imkan verir.

Müsbət qiymətləndirilməli olan məqamlardan biri ondan ibarətdir ki, Azərbaycan diasporu dünyada ideoloji taktika ilə işləyir. Diasporumuz Dağlıq Qarabağ münaqişəsi məsələsində də olduqca həssasdır və təşkilatlarımız artıq əvvəlki illərdə olduğu kimi yalnız müdafiə taktikası ilə kifayətlənmir. Paralel olaraq hücum taktikası da diasporumuzda əsas prioritet hesab edilir. Elə bunun nəticəsidir ki, erməni diasporu Azərbaycan diasporunun dünyada möhkəmlənməsindən ciddi narahatçılıq keçirir. Hələ bir neçə il əvvəl erməni tərəfi bunu açıq şəkildə etiraf etmək məcburiyyətində qalıb. Belə ki, Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının toplantısı ərəfəsində Azərbaycan diasporunun fəaliyyətinə, onun getdikcə güclənməsinə diqqət çəkən Ermənistanın kütləvi informasiya vasitələri Azərbaycan diasporunun güclənməsini real təhlükə mənbəyi kimi qələmə vermişdilər. Belə ki, "PanArmenian" agentliyi "Azərbaycan diasporuna qarşı Ermənistanın dövlət siyasəti gərəkdir" başlığı altında məqaləsində qeyd edilirdi: “Bəzi analitiklər Azərbaycan diasporunun süni yaranan bir qurum olduğunu və heç vaxt erməni lobbisinin səviyyəsinə çatmayacağını söyləyirlər. Azərbaycandan gələn xəbərlər bunun əksini söyləməyə vadar edir". Agentlik yazırdı ki, hazırda Azərbaycan diaspor təşkilatları Birləşmiş Ştatlar, Kanada və Avropada türk diaspor təşkilatları ilə sıx əlaqə yaradıblar: "Düzdür, hələ ki, bu təşkilatlar lobbiçilik fəaliyyətində erməni diasporu ilə müqayisə oluna bilməz. Amma düşünürük ki, bu, müvəqqəti bir haldır. Türk və Azərbaycan diaspor təşkilatları bütün məsələlərdə ümumi fikrə gəlsələr, çox güclü olacaqlar. Əslində, hər ikisinin hədəfi 100 ilə yaxın xaricdə uğurla fəaliyyət göstərən erməni diasporunun dünyada siyasi təsirini neytrallaşdırmaqdır". Agentlik yazır ki, bunu həyata keçirmək üçün Azərbaycanın hər cür maddi imkanları var: "Neftdən və qazdan əldə etdikləri vəsait hesabına Azərbaycan hökuməti yüksək səviyyədə sərgilər təşkil edir, xarici dillərdə nəfis tərtibatlı kitablar yayır və konfranslar keçirir". Ermənilərin ehtiyat etdiyi amillərdən biri də 90-cı illərdə xarici ölkələrə miqrasiya etmiş azərbaycanlıların ermənilərə qarşı ideoloji mübarizəsi və buna olan əzmidir.

"PanArmenian"ın müxbiri ilbəil güclənən "Azərbaycan diasporu faktoruna" qarşı Ermənistanda dövlət siyasətinin həyata keçirilməsini təklif edir və fikrini: "Rəsmi Bakı erməni lobbisinə qarşı öz siyasətini məhz bu cür yürüdür", -qənaəti ilə yekunlaşdırmışdı. Ermənistandakı "Noravank" fondu isə Azərbaycan diasporunun güclənməsində dünyanın aparıcı ölkələrinin və beynəlxalq təşkilatlarının rolu olduğunu qeyd edirdi. Fond belə zənn edir ki, Azərbaycan diasporu bölgədə strateji mövqeyi artan ölkəsinin xarici dövlətlərlə əlaqələrinin qurulmasında və iqtisadi layihələrin həyata keçirməsində vasitəçi missiyasını yerinə yetirir. Fondun qənaətinə görə, bu səbəbdən diaspora həm beynəlxalq, həm də yerli nüfuz dairələrinin marağına səbəb olur. Göründüyü kimi, Azərbaycanın bölgədə lider ölkəyə çevrilməsi Ermənistanı rahat buraxmır.

Qazanılan uğurlar, əldə edilən nəticələrlə yanaşı, unutmaq lazım deyil ki, hələ görüləsi işlər irəlidədir və Dağlıq Qarabağ problemi ilə bağlı haqlı mövqeyimizi dünyaya daha geniş mənada çatdırmaq üçün ayrı-ayrı ölkələrin diaspor təşkilatları ilə sıx əməkdaşlıq etmək lazımdır. Yalnız birləşərək məqsədimizə nail ola bilərik. Xüsusilə, türk dünyasını bu prosesə səfərbər etmək zəruridir. Unutmaq lazım deyil ki, Dağlıq Qarabağ problemi təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının problemidir. Eyni ilə Türkiyə, Şimali Kipr, Qazaxıstan, ümumilikdə dünya türklərinin problemi və acısı bizim problemimiz, bizim acımızdır. Sevindirici hal ondan ibarətdir ki, bu gün Azərbaycan tək deyil, bu gün Azərbaycanın arxasında böyük türk dünyası var. Yeni daha mütəşəkkil qüvvənin siyasi arenaya çıxdığı, istər Qərbdə, istərsə də Şərqdə cərəyan edən proseslərə təsir etmək imkanında olduğu göz qabağındadır. Həqiqətən də, 200 milyondan çox insanı birləşdirən türk dünyası böyük gücə malikdir. Son illər türk dünyasının əzəməti, dünyadakı rolu daha da artıb. Beləliklə, bütün türk toplumlarının, diasporların fəaliyyətinin birləşdirilməsi, bir nöqtəyə vurması zərurətə çevrilib. Amerikada, Kanadada, Almaniyada və başqa ölkələrdə Türk-Azərbaycan diaspor təşkilatları bir araya gələrək fəaliyyətlərini qurmağa çalışırlar. Məlumdur ki, Azərbaycandan xarici ölkələrə pənah aparan soydaşlarımızın əksəriyyəti vətənlərini 90-cı illərdə tərk ediblər. Həmvətənlərimizdən fərqli olaraq türklərin xarici ölkələrdə, məsələn, Birləşmiş Ştatlarda, Almaniyada artıq üçüncü nəsil nümayəndələri yaşayır. Bunlar yaşadıqları ölkələrdə assimilyasiya olub və həmin ölkələrin ictimai-siyasi həyatına fəal qatılıblar. Türk icmalarının bu kimi təcrübəsi xarici ölkələrdə yeni məskən salan həmvətənlərimiz üçün çox əhəmiyyətli və faydalıdır.

Diqqət yetirməli olan məqamlardan biri ondan ibarətdir ki, diaspora sahəsində ictimai və siyasi baxımdan fəal adamlara ehtiyacımız var. Bu gün həm Azərbaycan, həm də Türkiyə, ümumilikdə Türk dünyası üçün həllini gözləyən problemlər var ki, bunlar hökumətin deyil, diasporun üzərinə düşür. Məsələn, 907-ci maddənin qaldırılması, Xocalı soyqırımının tanınması. Bu məsələlərin həlli üçün diasporumuz daha fəal olmalıdır. Bunun üçün güclü ideoloji iş aparmalıyıq. Hər bir türkün, hər bir azərbaycanlının ölkəsindən kənarda uğurlu fəaliyyəti dolayısı ilə uzaq düşdüyü Vətəninin uğurudur. Uğur qazanmış hər bir şəxs öz adı ilə əcnəbilərə ölkəsini tanıdır və sevdirir.

**“Olaylar”.-2013.-9 oktyabr.-№182.-S.15.**

**Ukraynadakı Azərbaycan diaspor təşkilatları vahid qurumda birləşib**

**Ukraynada fəaliyyət göstərən regional azərbaycanlı diaspor təşkilatları birləşərək keçmiş Ukrayna Azərbaycanlıları Konqresinin əsasında yeni Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin (BUAK) yaradılmasını rəsmən elan ediblər.**

BUAK-dan APA-ya verilən məlumata görə, təşkilat oktyabrın 5-də Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətlinin, Ukrayna Yəhudiləri Konqresinin, Ukrayna Türk Xalqları Konqresinin, Ukrayna regional diaspor rəhbərlərinin, müxtəlif millətlərdən olan yerli deputatların və ictimai xadimlərin iştirakı ilə təşkil edilən konfransda elan olunub.

BUAK vaxtilə keçmiş Ukrayna Azərbaycanlıları Konqresində (UAK) toplaşan 20-yə yaxın regiondan və yeni yaradılmış, azərbaycanlılardan ibarət diaspor təşkilatların birləşməsindən yaranıb. Əvvəllər UAK-a müvəqqəti rəhbərlik edən Rövşən Tağıyev yeni təşkilatın sədri seçilib. Təşkilat Ukrayna Ədliyyə Nazirliyində qeydə alınıb. Səfir Eynulla Mədətli konfransda çıxış edərək yeni təşkilata fəaliyyətində uğurlar arzulayıb və bildirib ki, son illər rəsmi durumunda problem yaranmış UAK-dan sonra yaranan BUAK bu boşluğu layiqincə dolduracaq. O, diasporun Azərbaycanla Ukrayna arasında əlaqələrdə mühüm rol oynayacağını söyləyib. Türk Xalqları Konqresinin sədri Timur Masautov, Ukrayna Yəhudiləri Konqresinin sədri Arkadi Monastırski, Azərbaycan Ağsaqqallar Şurasının Ukrayna üzrə təmsilçisi Firudin Məmmədov, keçmiş UAK – ın eks sədri İlqar Abbasov "Qubernator" jurnalının baş redaktoru Boqdan Bileyçuk, Dnepropetrovsk Vilayət Şurasının deputatı Fəxrəddin Muxtarov və digərləri çıxış edərək Azərbaycan – Ukrayna əlaqələrində diasporun rolundan danışıblar. Onlar yeni təşkilatda birləşən şəxslərin bundan əvvəl olduğu kimi, bundan sonra Azərbaycan dövlətinin və hakimiyyətinin ətrafında sıx birləşəcəyinə ümidvar olduqlarını bildiriblər. BUAK sədri R. Tağıyev də çıxış edərək xatırladıb ki, məhz Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə Rusiyadan sonra ən çox azərbaycanlıların yaşadığı ikinci MDB dövləti olan Ukraynada dünyada ilk vahid azərbaycanlılar konqresi yaranıb və hazırkı diaspor fəaliyyəti də o ənənənin davamıdır.

**"Palitra".-2013.-8 oktyabr.-№184.-S.8.**

**“Xocalıya ədalət” kampaniyası çərçivəsində 2013-cü ilin fevralında Tel-Aviv universitetinin Diaspor Muzeyində açılan fotosərgi İsrailin digər bir böyük şəhəri Netanyada davam edir**

“Xocalıya ədalət” kampaniyası çərçivəsində 2013-cü ilin fevralında Tel-Aviv universitetinin Diaspora Muzeyində açılan fotosərgi İsrailin digər bir böyük şəhəri Netanyada davam edir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə aparılan “Xocalıya ədalət” kampaniyası çərçivəsində İsraildəki fotosərgilərin təşkilini Heydər Əliyevin Fondunun və "STMEGİ" Dağ Yəhudilərinin Beynəlxalq Təşkilatının dəstəyi ilə “İsrail-Azərbaycan” Beynəlxalq Assosiasiyası (Azİz) həyata keçirir.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı əks etdirən sənədli fotolar Netanya şəhərinin mərkəzi kitabxanasında sərgilənir. Sərginin açılış mərasimində Netanya şəhərinin bələdiyyə üzvləri, ictimai təşkilatların rəhbərləri, müxtəlif cəmiyyətlərin təmsilçiləri, şəhər sakinləri və İsrail kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib. Azİz-in idarə heyətinin üzvü, beynəlxalq münasibətlər üzrə ekspert Arye Qut tədbiri açaraq Dağlıq Qarabağ münaqişəsindən, 1992-ci il fevralın 25-dən 26-na keçən gecənin dəhşətlərindən danışıb. Arye Qut bildirib ki, misli görünməmiş vəhşiliklə törədilmiş Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir: “Bu fotosərgidə gordüyünüz sənədli şəkillər dəhşətli dərəcədə dözülməz səhnələr Azərbaycan xalqının ürəyində sağalmaz yara açıb. Azərbaycanın ən qədim yaşayış məntəqələrindən biri – Xocalı şəhəri bir gecədə yerlə-yeksan edilərək yandırılıb, dinc əhalisi qətliam edilib. Erməni silahlı qüvvələri və muzdlu dəstələri şəhəri tərk etməyə macal tapmaayan əhaliyə aman verməyib. Erməni silahlı birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər qətlə yetirilib, 487 nəfər əlil olub, 1275 dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək görünməmiş işgəncələrə, təhqirlərə və həqarətə məruz qalıb".

Arye Qut deyib ki, dünya bu cinayətin təkcə Azərbaycan xalqına deyil, həm də bütün bəşəriyyətə qarşı yönəldiyini bilməlidir: “Faktlar təsdiq edir ki, Xocalı şəhərinin dinc əhalisinin düşünülmüş şəkildə qətlə yetirilməsi bu insanlara təkcə azərbaycanlı olduqlarına görə kütləvi divan tutmaq məqsədi daşıyıb. Bu gün Ermənistanda yüksək vəzifə tutan insanlar - Seyran Ohanyan, Serj Sarkisyan, habelə Robert Koçaryan və başqaları törədilmiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir. Cinayət cəzasız qalmamalıdır. Dünya ictimaiyyəti hərbi-siyasi təcavüzə görə Ermənistana qarşı ittiham irəli sürməlidir. Beynəlxalq qurumlar, dünya ölkələrinin parlamentləri Ermənistanın Azərbaycan ərazisində törətdiyi Xocalı soyqırımına beynəlxalq hüquqi, siyasi qiymət verməlidir”.

Tədbirdə çıxış edən Netanya şəhərinin bələdiyyə üzvü, vəkil Vaqif Əliyev qeyd edib ki, Xocalı qətliamı təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı yönəldilib: “Xocalıdakı qanlı qırğınalara həsr olunmuş bu fotosərgi məni çox sarsıtdı. Bu soyqırımın hərbi cinayət və etnik təmizləmə olmasına heç bir şübhə yoxdur”.

Netanya şəhəri bələdiyyə şurasınn üzvü, "Bizim ev Netanya" təşkilatının sədri Boris Tsirulnik də səyyar fotosərgidəki şəkilləri görüncə sarsıldığını bildirib: "Biz yəhudilər 70 il öncə Holokostu yaşadıq və düşünürdük ki, heç kim daha belə qətliamları yaşamayacaq. Fəqət 20 il öncə bu qanlı faciəni Xocalı sakinləri yaşadı. Azərbaycanlıları Holokost soyqırımını yaşamış yəhudilər hamıdan yaxşı anlaya bilər”.

“İsrail-Azərbaycan” Assosiasiyasının baş direktoru Lev Spivak tədbirdə iştirak etdiklərinə görə hamıya minnətdarlığını bildirib. Spivak Azərbaycan icmasına daim diqqət yetirdiyinə və Xocalı qətliamı ilə bağlı çıxışına görə Netanya şəhər bələdiyyə şurasına təşəkkür edib.

**10 oktyabr 2013**

**Uğurlu inkişaf yolunda olan Azərbaycan diasporu**

XX əsrin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, II Dünya Müharibəsi və əsrin sonlarında müstəqil Azərbaycan Respublikasının yaranması ictimai-siyasi prosesləri daha da gücləndirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli Heydər Əliyev Azərbaycanın üzləşdiyi bəlalardan onu xilas etmək missiyası ilə bərabər illərdən bəri Vətəndən kənarda məskunlaşmağa məcbur olan soydaşlarımızın təşkilatlanmaq arzusunu da gerçəkləşdirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində olarkən Heydər Əliyevin təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik və birlik gününün qeyd olunması məqsədi ilə 16 dekabr 1991-ci il tarixdə əhəmiyyətli qərar qəbul edildi. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin 10-cu ildönümü günlərində, 2001-ci ilin noyabr ayında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayını təşkil etməklə bütün türk dünyasının arzularını həyata keçirdi.

Həmin qurultayda milli mənəvi dəyərlərin qorunub saxlanması üçün başlıca amil olan azərbaycançılıq ideyasını gücləndirmək əsas məsələ kimi qarşıya qoyuldu. Eyni zamanda bildirildi ki, azərbaycanlıların vətəndaşlığını qəbul etdikləri ölkələrin iqtisadi, siyasi həyatında fəal iştirak etmələri, siyasi partiyalarda təmsil olunmaları, qanunvericilik orqanlarında çalışmaları Azərbaycanın dünya birliyində tanınmasına imkanları artıran başlıca məsələdir. Bu isə hər bir soydaşımızın əsas vəzifəsi olmalıdır. Çünki Dağlıq Qarabağ kimi qlobal münaqişəyə cəlb olunan Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün bu məsələyə diqqət yetirilməlidir. Qurultayda Heydər Əliyevin nitqində belə bir fikir səsləndirildi ki, müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... Ona görə də mən arzu edirəm ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy bir-birlərinə dayaq olsunlar, bir-birlərinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər.

Qurultaydan sonra bu məqsədə çatmaq üçün dünya azərbaycanlılarının həmrəyliyinin genişləndirilməsi, inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaradılması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi qarşıya qoyuldu. Bu sahədə məqsədyönlü, böyük əhəmiyyətli iş aparılması üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Həmin komitənin yaxından iştirakı və təşkilatçılığı ilə qısa zamanda soydaşlarımızın ən çox məskunlaşdığı ölkələrdə azərbaycanlıların icmaları, mədəniyyət ocaqları, dərnəkləri yaradıldı. Diaspor təşkilatları arasında əlaqələrin möhkəmləndirilməsinə başlandı.

Dünya azərbaycanlılarının təşkilatlanması, milli həmrəyliyin möhkəmlənməsi ulu öndər Heydər Əliyev tərəfindən başlandısa, soydaşlarımızın təşkilatlanmasının keyfiyyətcə yeni mərhələ üzrə inkişafı, diaspor fəaliyyətinin əsas prinsipləri strateji məqsədlərdən biri kimi qarşıya qoyuldu. Bu ideyaların zərurəti nəzərə alınaraq 2003-cü ilin aprelində Almaniyanın Maynts şəhərində Dünya Azərbaycanlıları diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirildi, problemlər təhlil olundu.

2006-cı il, mart ayının 16-da keçirilən Dünya Azərbaycanlılarının II Qurultayında çıxış edən Prezident İlham Əliyev I Qurultaydan ötən müddət ərzində görülən işləri Azərbaycan icmalarının formalaşması istiqamətində mühüm mərhələ adlandırdı, perspektivləri bu sözləri ilə müəyyənləşdirdi: "Bizim hamımızın bir Vətəni var - Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək." Türkiyə ilə dostluğumuza böyük önəm verən, "biz bir millət, iki dövlətik" söyləyən ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirir ki, bir millətin iki diasporu ola bilməz. Buna görə də Türkiyə-Azərbaycan diaspor təşkilatlarının birgə fəaliyyəti əsas vəzifədir. Bu birliyə böyük əhəmiyyət verən, diaspor hərəkatının inkişafının yeni istiqamətlərini müəyyənləşdirən möhtərəm Prezidentimiz İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının VIII Zirvə görüşündə vurğuladı ki, birgə fəaliyyətimiz bölgəni inkişaf etdirmək, sülhün, təhlükəsizliyin, sabitliyin tam şəkildə bərqərar olması üçün böyük əhəmiyyət kəsb edir.

Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda isə cənab İlham Əliyev qeyd etmişdir ki, xarici ölkələrdə yaşayan soydaşlarımızın fəallığı bizi çox sevindirir. "Azərbaycanlılar yaşayan bütün xarici ölkələrdə təşkilatlanma prosesi gedir və bu gün Azərbaycan diaspor təşkilatları artıq böyük gücdür. Bu fəaliyyətin daha da canlanması üçün onlara dəstək göstərilməsi daimi proses kimi diqqətdə saxlanmalıdır". Azərbaycan diasporunun tarixində yeni bir mərhələnin başlanması üçün ideoloji bazanın yaradılması başlıca amil hesab edilirdi. Prezidentimiz, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədri İlham Əliyevin tövsiyələri dünyanın siyasi reallıqlarını nəzərə alaraq diaspor quruculuğunu müasir tələblər səviyyəsinə qaldırmaq baxımından proqram sənədi oldu. İcmalar arasında əlaqələri daha da genişləndirmək, onların Vətənə bağlılığını artırmaq, xaricdə yaşayan azərbaycanlılar arasında mənəvi-psixoloji, siyasi-ideoloji əlaqələri daha da möhkəmləndirmək istiqamətində konseptual qərarlar qəbul olundu, önəmli addımlar atıldı.

Azərbaycan və türk icmaları arasında əməkdaşlığın inkişafı, türkdilli xalqların birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edən mühüm tədbirlərin sayı kimi coğrafiyası da genişləndirildi. Azərbaycan icmaları fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında daha fəal iştirak etməklə siyasi partiya və təşkilatlarla əlaqələr qurur. Bu tendensiya lobbi quruculuğu istiqamətində də uğurlar əldə etmək üçün zəmin yaradır. Belə ki, dünyanın müxtəlif ölkələrində yaşayan tanınmış siyasət adamları, ictimai xadimlər, ziyalılarla əlaqələrin möhkəmləndirilməsi, Azərbaycana dost münasibət bəsləyən insanlarla əməkdaşlığın genişləndirilməsi, güclü Azərbaycan lobbisinin formalaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirildi. Bir sıra ölkələrin siyasi dövlət xadimləri, parlament üzvləri, kütləvi informasiya vasitələrinin nümayəndələri Azərbaycana gəlib, respublikamızda gedən iqtisadi inkişaf prosesləri, quruculuq işləri ilə yaxından tanış oldular. İndi tam mənada demək olar ki, diaspor hərəkatı davamlı, eyni zamanda dinamik sürətlə inkişaf edir.

Bu gün xarici ölkələrdə yaşayan soydaşlarımızın birliyi naminə həyata keçirilən tədbirlər Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması yönümündə atılan ən mütərəqqi addımlardır. Arxada qalan illər ərzində diaspor təşkilatları formalaşmış, fəaliyyətləri sürətlənmiş, nüfuzları artmışdır. Dövlət siyasətinin əsas prioritetlərindən olan diaspor işinin təkmilləşdirilməsi 50 milyondan artıq soydaşımızın vahid ideya ətrafında sıx birləşməsi deməkdir. Bakıda Türk dövlət və cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurası üzvlərinin iştirakı ilə "Azərbaycan-Şərqin dünyaya açılan qapısı" adlı silsilə tədbirlərin keçirilməsi diasporun inkişafına təkan verən mühüm tarixi hadisələrdir. Təşkilatlanma işinin sistemli fəaliyyətini müəyyənləşdirən "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" sənədi bəşəri və milli-mənəvi ideyalar əsasında hazırlanmışdır. Əsas odur ki, bu sahədəki strategiyamızı düzgün müəyyənləşdirək. Bu yolu bizə Prezidentimiz İlham Əliyev bir daha göstərdi. Müdafiə taktikasını ideoloji hücum taktikası ilə əvəz etməyi tövsiyyə edən cənab İlham Əliyevin diaspor təşkilatlarına göstərdiyi qayğı bu strategiyanın əsas istiqamətlərindən biridir. "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" diaspor təşkilatları üçün proqram sənədi olmaqla soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmlənməsinin yeni mərhələ üzrə davamını aktual məsələ kimi qarşıya qoyur. Eyni zamanda ortaq dil, əlifba, televiziya kanalının yaradılması istiqamətində də birgə fəaliyyətə üstünlük verilir. Azərbaycançılıq ideologiyasına əsaslanan vahid konsepsiya kimi hazırlanan layihələr, həmçinin, soydaşlarımızın məskunlaşdıqları ölkələrdə hüquq və azadlıqlarının yerli qanunvericilik, xüsusilə beynəlxalq hüquq normaları çərçivəsində təmin edilməsinin prinsip və mexanizmlərini müəyyənləşdirəcək. Azəbaycanlıların ictimai-siyasi fəallığının yüksəldilməsi, cəmiyyətə inteqrasiya prosesində qarşıya çıxan problemlərin aradan qaldırılması, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təbliği metodologiyasını müəyyən etmək də Xartiyanın məqsədləri sırasına daxildir. Həmrəylik Xartiyası xarici ölkələrdə yaşayan həmvətənlərimizin Azərbaycan dövlətçiliyi və Vətənin milli maraqları ətrafında daha sıx birliyinə nail olunmasını, diasporumuzun digər xalqların diasporları ilə əməkdaşlıq imkanlarının genişləndirilməsini, gələcəkdə güclü Azərbaycan lobbisinin formalaşdırılması üçün real zəminin yaradılmasını tənzimləyəcək.

Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar yeni əsrdə ümummilli ideallar əsasında mütəşəkkil bir xalq kimi birləşmək imkanı qazanmışlar. Son illər ərzində Azərbaycan dövlətinin xaricdəki soydaşlarımızla yaratdığı əlaqələr öz bəhrəsini verir, təşkilati və ideoloji sahədə böyük uğurlar qazanılır. Bizim yaşadığımız günlərdə dünyanın müxtəlif ölkələrində məskunlaşan soydaşlarımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi özlərinə lider, ümid yeri və mənəvi dayaq bilir.

**“Olaylar”.-2013.-11 oktyabr.-№184.-S.15.**

**Yazep Vitola adına Latviya Musiqi Akademiyasında Azərbaycan muğamının mahir ifaçısı, Xalq Artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi kollektivin ifasında Azərbaycan muğamı gecəsi olmuşdur**

Oktyabrın 16-da Yazep Vitola adına Latviya Musiqi Akademiyasında Azərbaycan muğamının mahir ifaçısı, Xalq Artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi kollektivin ifasında Azərbaycan muğamı gecəsi olmuşdur.

Latviya Prezidenti Andris Berzinş ali qonaq qismində konsertə dəvət olunmuşdur. Azərbaycanın Latviyadakı səfiri Elman Zeynalov, Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kərimi, Latviya Musiqi Akademiyasının rektoru Artis Simanis, ölkə Seyminin deputatları, Latviyanın görkəmli ictimai-siyasi xadimləri, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri də gecədə olmuşlar. Latviya Prezidenti Andris Berzinş çıxışında prezident seçkilərində qələbə münasibətilə Azərbaycanın dövlət başçısı İlham Əliyevi təbrik edərək bildirmişdir ki, Azərbaycan bununla sabit dinamik inkişaf yolu seçmişdir.

İki ölkə arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışan A.Berzinş Roman Əliyevin başçılıq etdiyi “Ocaq” Azərbaycan Mədəniyyəti Mərkəzinin ölkələrimiz arasında mədəni dialoqun inkişafına xüsusi töhfəsini vurğulamışdır. A.Berzinş Latviya Prezidenti yanında Milli Azlıqların İşləri üzrə Məsləhət Şurasının da sədri olan Roman Əliyevi bu yaxınlarda qeyd olunmuş yubileyi münasibətilə təbrik etmiş, ona xatirə hədiyyəsi vermişdir. Latviya Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevi prezident seçkilərində qələbə münasibətilə ilk təbrik edənlər arasında olmuşdur.

Azərbaycanın Latviyadakı səfiri Elman Zeynalov demişdir ki, bu gecə Latviyada Azərbaycan diasporunun mədəni həyatında əlamətdar hadisədir. Bu hadisə Azərbaycanın dövlət başçısı İlham Əliyevin prezident seçkilərində qələbəsinə həsr olunmuşdur. Azərbaycan xalqı öz səsini bu müdrik siyasətçi və dövlət xadiminə verməklə işıqlı gələcək və respublikanın inkişaf yolunu seçmişdir. Səfir bildirmişdir ki, Latviya Respublikası müstəqilliyini əldə etdikdən sonra Azərbaycan diasporu onun inkişafına töhfə vermişdir. Həmvətənlərimiz ötən il Latviyada keçirilən referendumda ölkənin yeganə dövlət dili kimi latış dilinə səs vermişlər.

Diplomat Azərbaycan ziyalılarının görkəmli nümayəndəsinin-“Ocaq” Azərbaycan Mədəniyyəti Mərkəzinin başçısının fəaliyyətindən də danışmışdır. Latviya Musiqi Akademiyasının rektoru Artis Simanis Azərbaycan-Latviya mədəni əlaqələrinin inkişafı tarixinə qısa ekskurs etmişdir. Tədbirin rəsmi hissəsindən sonra Azərbaycan muğamı konserti olmuşdur. Xanəndə Mənsum İbrahimov əməkdar artistlər – tarzən Elçin Həşimovun və kamança çalan Elnur Əhmədovun müşayiəti ilə Azərbaycan xalq mahnıları və muğam ifa etmişdir. Tamaşaçılar “Qarabağ şikəstəsi”ni ayaq üstə gurultulu alqışlarla qarşılamışlar. Azərbaycan musiqiçilərinin çıxışları sürəkli alqışlarla müşayiət olunmuşdur.

**AzərTAc 16 oktyabr 2013**

**ABŞ-ın Texas Ştatının senatı, Amerika Azərbaycanlıları Şəbəkəsi ilə birgə Azərbaycanın müstəqillik günü ərəfəsində qətnamə qəbul edib**

ABŞ-ın Texas Ştatının senatı, Amerika Azərbaycanlıları Şəbəkəsi ilə birgə Azərbaycanın müstəqillik günü ərəfəsində qətnamə qəbul edib. Qətnamədə deyilir: "70 il Sovet Birliyinin tərkibində qaldıqdan və 1991-ci il 18 oktyabrda müstəqilliyini elan etdikdən sonra Azərbaycan ABŞ tərəfindən tanındı, təhlükəsizliyin, suverenliyin, əmin-amanlığın və sülhün qorunub saxlanılmasında ölkəmizin dəyərli müttəfiqi oldu".

Sənəddə həmçinin qeyd olunur ki, Amerika Azərbaycanlıları millətin və dövlətin etnik müxtəlifliyində mühüm rol oynayaraq, öz cəmiyyətlərinin inkişaf və tərəqqisinə müstəsna töhfələr verib.

Son 22 ildə, 400 min Amerika azərbaycanlıları da daxil olmaqla dünyada yaşayan 40 milyon azərbaycanlının 18 oktyabr tarixini Azərbaycanın müstəqillik günü kimi qeyd etməsini nəzərə almış Texas ştatının senatı Qafqazda azadlıq və demokratiyanın yayılması üçün azərbaycanlıların fəaliyyətinə öz töhfəsini verərək, Azərbaycanın müstəqillik günü ilə əlaqədar ən səmimi və xoş arzularını çatdırıb. Qeyd edək ki, qətnamə layihəsini Texas senatına senator Con Uaytmayə təqdim edib.

**17 oktyabr 2013**

**Dövlət Komitəsi Rusiyada yaşayan azərbaybaycanlılarla əlaqədar yaranmış situasiya haqqında öz mövqeyini rəsmi şəkildə bildirib və bu barədə kütləvi informasiya vasitələrində də geniş məlumat verilib**

Dövlət Komitəsi Rusiyada yaşayan azərbaybaycanlılarla əlaqədar yaranmış situasiya haqqında öz mövqeyini rəsmi şəkildə bildirib və bu barədə kütləvi informasiya vasitələrində də geniş məlumat verilib. Bir daha qeyd edirəm ki, Orxan Zeynalova münasibətdə təqsirsizlik prezumpsiyasının tələbləri pozulub və məişət zəminində baş vermiş bir cinayət hadisəsinin etnik kontekstdə ictimailəşdirilməsi narahatlıq doğurur. Hesab edirəm ki, Azərbaycan dövlətinin və ictimaiyyətinin narahatlığı tamamilə təbiidir. Lakin çox təəssüf hissi ilə vurğulayıram ki, bu qədər böyük ajiotajın yaradıldığı, kütləvi informasiya vasitələrində azərbaycanlılar əleyhinə açıq-aşkar kampaniyanın aparıldığı bir vaxtda bəzi diaspor təşkilatlarının, konkret olaraq Rusiya Azərbaycanlılarının Milli Mədəni Muxtariyyatı (AzərRos) və özünü Rusiyanın Azərbaycanlı Təşkilatlar İttifaqı adlandıran qurumun nümayəndələrinin mövqeyi anlaşılmazdır.

Bir daha xatırlatmağı zəruri bilirik ki, bu təşkilatların rəhbərliyində təmsil olunan şəxslərin bir çoxu Rusiyanın müvafiq dövlət orqanları, kütləvi informasiya vasitələri ilə çox yaxşı əlaqələrə malikdirlər, ancaq nədənsə indi – zərurət yarandığı bir məqamda bu əlaqələrdən azərbaycanlıların maraqlarının müdafiəsi üçün istifadə etməyə lüzum görmürlər. Əksinə, bu təşkilatların rəhbərliyində təmsil olunan, azərbaycanlıların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində qətiyyətlə fəaliyyət göstərəcəyini bəyan edənlərin bəziləri, o cümlədən Rüstəm İbrahimbəyov kimi şəxslər sadəcə mətbuata açıqlama verməklə kifayətlənir. Rusiyanın Azərbaycanlı Təşkilatlar İttifaqı adlandıran qurumun yaradılmasının əsas təşəbbüskarlarından biri olan AzərRosun keçmiş rəhbəri Söyün Sadıqov isə yenidən baş verənləri siyasiləşdirərək, Azərbaycan dövlətini və Rusiyada yaşayan sadə azərbaycanlıları ittiham etməyə çalışır. Bu cür mövqe Azərbaycan ictimaiyyətində də haqlı olaraq müəyyən suallar doğurur. Son hadisələr Rusiya Azərbaycan Təşkilatları İttifaqının yaradılmasının Azərbaycanın milli maraqları baxımından tamamilə əhəmiyyətsiz təşəbbüs olduğunu bir daha sübut etdi. Hesab edirəm ki, yaranmış vəziyyətdə özünü həqiqətən azərbaycanlı hesab edən hər bir kəs azərbaycanlı icmasının maraqlarını müdafiə etmək üçün çalışmalıdır, real iş görməlidir, məsuliyyətsiz bəyanatlar verməklə məşğul olmalı deyil.

Xatırlatmaq istrdim ki, Dövlət Komitəsində Rusiyada yaşayan soydaşlarımız arasında hüquqi maarifləndirmə işini gücləndirmək görmək məqsədilə İşçi qrup yaradılmışdır. Bundan başqa, Dövlət Komitəsi soydaşlarımızın cəmiyyətə inteqrasiyasına dəstək vermək, azərbaycanlı icması ilə yerli xalq arasında qarşılıql dialoq mühitini inkişaf etdirmək məqsədilə Moskva hökuməti ilə bəzi birgə layihələr də həyata keçirməyi planlaşdırır. Bu barədə ilkin razılıq əldə olunmuşdur. Hesab edirik ki, bu cür birgə tədbirlər azərbaycanlı icması ilə Rusiya cəmiyyəti arasında münasibətlərdə pozitiv istiqamətdə inkişafına təkan verəcək və bizim ölkələrimiz arasındakı münasibətlərin ruhuna uyğundur.

**18 oktyabr 2013**

## Diaspor tarixinin görkəmli şəxsiyyətləri

Tarixin müxtəlif dövrlərində yaşamış alim və nasirlər, tanınmış şəxsiyyətlər olub ki, onlar da öz fəaliyyətləri ilə Azərbaycanın diaspor tarixində iz qoyublar. Təsadüfi deyil ki, həmin insanlar Azərbaycan diasporunun görkəmli şəxsiyyətləri hesab edilirlər. Belə şəxsiyyətlərdən biri də Almas İldırımdır. 1907-ci ildə Bakı şəhərində dünyaya gələn Almas İldırımın əsl adı İldırım, ailə ləqəbi isə Almaszadədir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Almas İldırımın bəy nəslinə mənsubluğu onu Sovet totalitar rejimi tərəfindən həyata keçirilən cəza tədbirlərinin hədəfinə gətirir. Daha sonra isə varlı tacir oğlu olduğuna görə o, Azərbaycan Dövlət Universitetinin Şərq ədəbiyyatı fakültəsindən xaric edilir. O, 1926-cı ildə şair Süleyman Rüstəm ilə birlikdə “Dün bugün” adlı şer məcmuəsinin müəllifi olur.1928-ci ildə şerlərində ifadə olunan millətçi ismarıclarına görə İldırım Dağıstana sürgün edilir. Almas İldırım sürgündə olarkən "Dağlardan xatirələr", "Ləzgi elləri", “Krımda axşamlar”, “Səlimxan” və “Günah kimdədir?” adlı şerlərini yazır. Dağıstanda qaldığı ikiillik sürgündə onun şairlik ilhamı sönməmiş, şerləri Dağıstanın yüzlərlə vətənpərvərlərinin əllərində dolaşmışdır. Şairin şeirləri “Dağlara səslənirkən” adı altında kitab kimi nəşr edilmiş, lakin əks-inqilabi fikirlər daşıdığı üçün qadağan olunmuş və tirajı müsadirə edilmişdir. Bundan sonra onu Türkmənistana sürgün etmişlər. Əslində bu sürgünlər türk dünyasını tanımaqda şairə kömək etmiş və onun bu baxımdan dünyagörüşünü genişləndirmişdir. Almas İldırımı Türkmənistanda da yaşamağa qoymamışlar. 1933-cü ilin iyun ayında o, yenicə evləndiyi arvadı Zivər xanım və üç aylıq körpəsi Azəri də götürüb İrana köçmüş, lakin burada da “bolşevik casusu” damğası ilə təqib və təzyiqlərə məruz qalmışdır. Bir müddət həbsdə yatdıqdan sonra Almas İldırım İranda qala bilməyərək tezliklə Türkiyəyə getmiş və 1934-cü ildə Türkiyə vətəndaşlığına qəbul edilmişdir. O, 1952-ci ilin 14 yanvarında böyrək xəstəliyindən vəfat etmişdir.

**Cahangir Kazımbəyli**-Dərin hərbi biliyə malik olan polkovnik Cahangir Kazımbəyli 1888-ci ildə Gəncədə anadan olmuşdur. İlk təhsilini doğulduğu şəhərdə alan Cahangir Kazımbəyli ali təhsil almaq üçün Sankt-Peterburq şəhərinə getmiş və burada Hərbi Hava Akademiyasına daxil olmuşdur. Beş il orada oxuduqdan sonra ali təhsilli mütəxəssis kimi orduda xidmət etməyə başlamışdır. Birinci dünya müharibəsi başlayan kimi o, könüllü olaraq cəbhəyə getmişdir. Bu müharibədə hərbin bir sıra sirlərini öyrəndikdən, müəyyən təcrübə topladıqdan sonra Cahangir Kazımbəyli cəbhədən tərxis olunub doğma vətəni Azərbaycana – Gəncəyə qayıtmışdır. Burada bir müddət Gəncə alayında briqada komandiri vəzifəsində çalışmışdır. Cahangir Kazımbəyli rəşadətli hərbiçi kimi Gəncə qiyamına rəhbərlik etmişdir. O, 1920-ci ilin mayında, bolşeviklərin hakimiyyəti ələ aldığını eşidən günü Gəncədə bir yandan XI Orduya, digər yandan Yelendorf (indiki Göygöl) tərəfdən gələn daşnak və bolşevik qüvvələrinə amansız zərbələr vurmuşdur. May ayının 24-dən 25-nə keçən gecə artıq şəhərdəki bolşevik ordusunu tərksilah etmiş, burada hakimiyyəti ələ almışdır. Bir qədər sonra qiyamın yatırılacağını hiss edən Cahangir Kazımbəyli bədbinliyə qapılmamış, əksinə nikbinliklə demişdir: “Qoy biz məğlub olaq, lakin qoy düşmən də öz qələbəsinə yüzlərlə, minlərlə meyitlərin üzərindən addımlayıb keçsin. Qoy 28 may günü tariximizə təkcə müstəqilliyimizin elan olunduğu bir gün kimi yox, həm də vətən mehrabında böyük qurbanlar günü kimi həkk olunsun. Qoy 28 may günü düşmən amansız müqavimətlə qarşılaşsın. 28 may gününün ləyaqətli müqaviməti bizim mənəvi qələbəmizi sübut etsin”. Düşmənlər bir həftə gecə-gündüz hücum etdikdən, qədim Gəncəni dönə-dönə artilleriya və pulemyot atəşinə tutduqdan və minlərlə itki verdikdən sonra artıq müqavimətin mənasız olduğunu görən Cahangir bəy və silahdaşları 5 iyun gecəsi döyüş mövqelərini tərk etmişlər. Bundan sonra Cahangir Kazımbəyli canından artıq sevdiyi doğma vətənindən mühacirət etmək məcburiyyətində qalmışdır. O, bir müddət Türkiyədə yaşamışdır. Burada hərbi işlərdə çalışmış, hərbi məktəbdə dərs demişdir. Sonra isə öz yaxınları və dostları ilə birlikdə Polşaya köçmüşdür. Vətənpərvər polkovnik Cahangir Kazımbəyli 1955-ci ildə vəfat etmişdir.

**Əbdürrəşid Əl-Bakuvi -**Tanınmış səyyah, coğrafiyaşünas, iqlimşünas Əbdürrəşid ibn-Saleh ibn-Nuri əl-Bakuvi XIV əsrin ikinci yarısında – XV əsrin əvvəllərində yaşamışdır. Əbdürrəşidin atası Bakıda doğulmuş və dövrünün yüksək təhsil görmüş adamlarından biri olmuşdur. Bakuvi özü yazmışdır ki, “Bakı – mənim atam, alim İmam Saleh ibn Nurinin vətənidir. O, ləyaqət meyarı idi. Bakuvi 1335-1360-cı illər arasında Bakıda doğulmuş və təqribən 1425-1430-cu illərdə Qahirədə vəfat etmişdir. Əbdürrəşid əl-Bakuviyə böyük şöhrət gətirən“ Kitab Təlxis əl-asap və əcaib əl məlikəl qəhhar” (“Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri”) əsəri o zaman Şərqdə məlum olan ölkə və millətlər haqqında məlumat verir. Tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, kitab XV əsrin birinci yarısında yazılmış, əlyazma nüsxəsi isə 1614-cü ildə köçürülmüşdür. Bu kitabın və onun fars dilinə tərcüməsinin başqa nüsxələri də vardır ki, dünyanın müxtəlif kitabxanalarında saxlanılır. Kitab hələ 1789-cu ildə De Ginem tərəfindən fransız dilinə tərcümə olunmuşdur. Sonra əsər bir çox digər Avropa dillərinə çevrilmişdir. Bu kitab rus dilinə akademik Ziya Bünyadov tərəfindən tərcümə olunaraq Moskvada nəşr edilmişdir. Qeyd edilən kitabda Əbdürrəşid Bakuvi yaxşı tanıdığı Azərbaycan və xüsusilə də Bakı haqqında daha çox orijinal məlumatlar vermişdir. O, Azərbaycanı dördüncü və beşinci iqlim qurşaqları zonasına aid edir: “Azərbaycan Kuhistan, Arran və Ərməniyyənin arasında geniş məskunlaşmış bir vilayətdir. Orada çoxlu şəhər, kənd və çaylar vardır”.

Araz çayı barədə o yazır: "Bu çay bir çox ölkələrdən keçərək, Naquçevan (Naxçıvan) yaxınlığındakı Diya əl-mülk körpüsünə çatır. Bu körpü daşdan tikilib və dünyadakı möcüzələrdən biridir". Əlbəttə ki, o, Bakı (Bakuya) haqqında daha ətraflı məlumat verir. "Bu bir şəhərdir ki, əl-Xəzər dənizinin sahillərində daşdan tikilib. Onun divarları dəniz suyu ilə yuyulur. İndiyəcən su çoxlu qala qüllələrini aparmış və məscidə yaxınlaşmışdı... Evlərin çoxusu qayalar üzərində tikilib. Havası gözəldir, qayalıqdan axıb gələn içməli su isə çox xoşdur. Burada buğda az yetişir və əsasən taxılı şəhərə Şirvan və Muğandan gətirirlər. Burada əncir, nar və üzüm bol olur. Bağlar şəhərdən uzaqdır və şəhərlilərin çoxu yayda bağa köçür, bir müddətdən sonra isə şəhərə qayıdırlar. Hər il bu təkrar olunur".

**Xəlilbəy Hacıbaba oğlu Xasməmmədov**-1875-ci ildə Gəncədə anadan olmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra Moskva Universitetinin Hüquq fakültəsinə daxil olmuş və 1902-ci ildə həmin ali məktəbi bitirmişdir. O, 1902-1907-ci illərdə Yekaterinodar dairə məhkəməsində müstəntiq işləmişdir.1907-ci il fevralın 20-də Peterburqda açılan II Dövlət Dumasına Yelizavetpol quberniyasından deputat seçilmişdir. Xəlilbəy həmin illərdə III Dövlət Dumasında Azərbaycanı təmsil edən yeganə deputat idi. 1917-ci ilin martında isə Nəsibbəy Yusifbəylinin rəhbərliyi altında yaradılmış "Türkədəbi mərkəziyyət partiyası"nı yaradanlardan biri də Xəlilbəy Xasməmmədov olmuşdur. Bu partiya Rusiyanı federativ şəkildə qurmaq və onun tərkibində Azərbaycana muxtariyyət vermək uğrunda mübarizə aparmışdır. Xəlil bəy Xasməmmədov 1917-ci ildə keçirilmiş Qafqaz və Rusiya müsəlmanlarının qurultayının iştirakçısı olmuşdur. İyun ayında Məmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə, Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk ədəbi-mərkəziyyət" partiyası birləşmişdir. Xəlil bəy Xasməmmədov birləşmiş partiyanın I qurultayında (26-31 oktyabr 1917-ci il) Mərkəzi Komitənin üzvü seçilmiş, 1917-ci il, noyabrın 15-də yaranmış Zaqafqaziya Komissarlığında Dövlət nəzarəti işləri üzrə komissar və Seymin üzvü olmuşdur. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası elan olunandan sonra Xoyskinin təşkil etdiyi kabinetdə ədliyyə naziri vəzifəsini tutmuşdur. 1920-ci ildə isə kabinetin tərkibində tam heyətlə istefaya çıxmışdır. Xəlilbəy Xasməmmədov 1920-ci ilin aprelində Türkiyənin paytaxtı İstanbula getmiş və Azərbaycan Demokratik Respublikasının səfiri təyin olunmuşdur. 1920-ci il aprelin 27-də Azərbaycanda baş verən hadisələrdən sonra vətənə qayıtmayan Xəlil bəy Xasməmmədov İstanbulda yaşamış və burada nəşr olunan "Yeni Qafqasiya" (1923-1927),"Azəri türkü" (1928-1931), "Odlu yurd"(1920-1930)jurnallarında Azərbaycanın siyasi məsələləri ətrafında çıxış etmişdir. Xəlil bəy Xasməmmədov 1936-cı ilin avqustunda Polşanın paytaxtı Varşavada keçirilən "Milli Azərbaycan Müsavat partiyası"nın III qurultayının iştirakçısı olmuşdur. Öz dövrünün görkəmli siyasi və ictimai xadimi olan Xəlilbəy Xasməmmədov 1947-ci ildə İstanbulda vəfat etmişdir.

**Rüstəmxan Xoyski**-Azərbaycan Xalq Cümhuriyyətinın elan olunduğu ilk gündən dövlət qanunlarının yazılmasında yaxından iştirak edən, bir sıra məsul vəzifələr (nazir, nazir müavini və s.) daşıyan Rüstəmxan İskəndər oğlu Xoyski 1888-ci ildə Şəkidə anadan olmuşdur. Onun atası rus ordusunun general leytenantı idi. O, öz dövrünün görkəmli siyasi və ictimai xadimi Fətəlixan Xoyskinin kiçik qardaşıdır. Onların əsli-nəsli Cənubi Azərbaycandan, Xoy şəhərindəndir. Rüstəmxanın böyük qardaşı Hüseynqulu Ağanın oğlu Zahidxan Xoylunun 1989-cu il avqustun 18-də Nyu-Yorkdan yazdığı məktubdan məlum olur ki, Xoyskilərin nəslinin adı Dünbüllü Batman Qılıncdır. 1803-1806-cı illərdə Azərbaycanı işğal edən rus ordusunun başçısı general Sisianov Peterburqa göndərdiyi reportda Rüstəmxanın ulu babası Xoy xanı Cəfərqulunu – Xan Xoyski kimi təqdim etmişdir. Həmin illərdən bu nəsil Xoyski soyadı ilə məşhurdur. Rüstəmxan Xoyski orta təhsilini Gəncə klassik gimnaziyasında almış, sonra Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Rüstəmxan 1913-cü ildə ali hüquqşünas diplomu alaraq, Gəncəyə qayıtmış, dairə məhkəməsində müvəkkil işləmişdir.1917-ci ildə Rusiyada burjua inqilabı baş verərkən Rüstəmxan Xoyski siyasi hadisələrə qoşulmuşdur.

Azərbaycan Demokratik Respublikasının dövründə Rüstəmxan Xoyski hökumətinin dəftərxana müdiri təyin olunmuşdur.1918-ci ildə dekabrın 22-də Fətəli xan Xoyskinin üçüncü hökumət Kabinetində Rüstəm xan Xoyski sosial-təminat naziri təyin edilmişdir. Həmin illərdə Ermənistandan qovulmuş azərbaycanlıların yerləşdirilməsi və onlara kömək göstərilməsi Rüstəm xan Xoyskiyə tapşırılmışdır. 1919-cu ilin martında Fətəli xan Xoyskinin kabinetindən istefaya çıxdığı üçün Rüstəm xan Xoyski tutduğu vəzifəni tərk etmişdir. Rüstəm xan Xoyskinin, daha sonra Nəsibbəy Yusifbəylinin təşkil etdiyi birinci kabinetdə sosial-təminat, ikinci (1919) kabinetdə isə səhiyyə nazirinin müavini olmuşdur. Sovet işğalından sonra Rüstəm xan Xoyski Azərbaycan SSR plan komitəsində hüquq məsləhətçisi vəzifəsində işləmişdir.1920-ci ilin axırında Moskvaya köçən Rüstəm xan Xoyski burada ailə həyatı qurmuş, müxtəlif dövlət idarələrində çalışmışdır. Rüstəmxan Xoyski 1948-ci ildə Moskvada vəfat etmiş və sonralar dövlət tərəfindən Fəxri Xiyabana çevrilən Novodeviçye qəbristanlığında dəfn edilmışdir.

**"Səs".-2013.-18 oktyabr.-№198.-S.15.**

**Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr edilmiş bir çox tədbirlər təşkil edilmişdir**

2013-cü il oktyabrın 18-də Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində (AAKM) 18 oktyabr - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr edilmiş axşam təşkil edilmişdir. Tədbir Azərbaycanın inkişafını, ənənə və müasirliyini göstərən sənədli filmin nümayişi ilə başlamışdır. Daha sonra tədbirin rəsmi hissəsini AAKM-nin icraçı direktoru Samira Patzer-İsmailova giriş sözü ilə açaraq, qonaqları hər bir xalqın tarixində önəmli gün olan müstəqillik bayramı münasibətilə təbrik etmiş və Azərbaycanın artıq 22 ildir ki, müstəqillik yolunda inamla və şərəflə addımladığını, əldə etdiyi nailiyyətləri qeyd etmişdir. Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyinin müşaviri Rizvan Nəbiyev Azərbaycanın tarixinə və müasir dövrdəki inkişafına dair çıxış edərək, Azərbaycan dövlət quruculuğu işində iqtisadi və sosial dəyişikliklərin həyata keçirilməsindən, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsindən, digər uğurlarından bəhs etmişdir. O, Avropanın Azərbaycanla əlaqələri, eyni zamanda mədəniyyətin inkişafı və diasporun səmərəli fəaliyyətinə toxunmuşdur. Tədbirin bədii hissəsində Azərbaycanın tarixindən bəhs edən “Cavad xan” bədii filmi nümayiş etdirilmişdir. Qəhrəmanlıq mövzusunda olan filmi tamaşaçılar maraqla qarşılayıb. Tədbirdə Səfirliyin birinci katibi Fikrət Axundov, Berlində yaşayan azərbaycanlılar, gənclər və tələbələr iştirak etmişlər. Oktyabrda İsrailin müxtəlif şəhərlərində “Azərbaycan günləri” uğurla keçirilib və təkcə keçmiş SSRİ-dən çıxanların yox, İsrailin köklü sakinlərinin də böyük marağına səbəb olub. “Azərbaycan-İsrail” Beynəlxalq Assosiasiyasının (Azİz) təşkil etdiyi “Azərbaycan günləri” Afula şəhərində də keçirilib. Yüzlərlə iştirakçı şəhərin Mədəniyyət sarayına toplaşaraq Azərbaycanın Müstəqillik Gününü qeyd ediblər. Bayram tədbirində İsrail parlamentinin xarici işlər və müdafiə məsələləri üzrə komissiyasının sədri, “Bizim Evimiz – İsrail” Partiyasının lideri Aviqdor Liberman iştirakçılara videomüraciət edib. O, Azərbaycanın dünya siyasətində artan rolundan və İsrail-Azərbaycan münasibətlərinin inkişafının vacibliyindən danışıb.

Mədəniyyət sarayının foyesində Azərbaycandan çıxmış rəssamların Azərbaycan təbiətinə həsr olunmuş əsərləri sərgilənib. Tədbirdə həmçinin ənənəvi Şərq şirniyyatının dequstasiyası da təşkil olunub. Bayram konsertində musiqi nömrələri və Azərbaycanla bağlı çıxışlar bir-birini əvəzləyib. Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Yeganə Salman həmvətənlərini Azərbaycanın müstəqillik günü münasibətilə təbrik edib. Bayram konsertində "Jemçujina" qafqaz rəqs ansamblı, İsrail operasının doğan günəşi Məryəm Hacıyeva, İsraildə yaşayan və Azərbaycan əsilli Liora Safanova, Manuel İsakov, Hava Dolev, Fərid Aloni, Tomer Əliyev hər bir azərbaycanlının ürəyini oxşayan mahnılar ifa ediblər. Azərbaycanın Müstəqillik bayramına əməkdar artist Ədalət Şükürov da qatılıb. İsraildə Azərbaycanın Müstəqillik gününün qeyd olunmasında Azİz`ə Heydər Əliyev Fondu, STMEQİ Dağ Yəhudilərin Beynəlxalq Fondu, Afula meriyası dəstək göstərib.

ABŞ-ın Texas Ştatının senatı, Amerika Azərbaycanlıları Şəbəkəsi ilə birgə Azərbaycanın müstəqillik günü ərəfəsində qətnamə qəbul edib. Qətnamədə deyilir: “70 il Sovet Birliyinin tərkibində qaldıqdan və 1991-ci il 18 oktyabrda müstəqilliyini elan etdikdən sonra Azərbaycan ABŞ tərəfindən tanındı, təhlükəsizliyin, suverenliyin, əmin-amanlığın və sülhün qorunub saxlanılmasında ölkəmizin dəyərli müttəfiqi oldu”. Sənəddə həmçinin qeyd olunur ki, Amerika Azərbaycanlıları millətin və dövlətin etnik müxtəlifliyində mühüm rol oynayaraq, öz cəmiyyətlərinin inkişaf və tərəqqisinə müstəsna töhfələr verib. Son 22 ildə, 400 min Amerika azərbaycanlıları da daxil olmaqla dünyada yaşayan 40 milyon azərbaycanlının 18 oktyabr tarixini Azərbaycanın müstəqillik günü kimi qeyd etməsini nəzərə almış Texas ştatının senatı Qafqazda azadlıq və demokratiyanın yayılması üçün azərbaycanlıların fəaliyyətinə öz töhfəsini verərək, Azərbaycanın müstəqillik günü ilə əlaqədar ən səmimi və xoş arzularını çatdırıb. Qeyd edək ki, qətnamə layihəsini Texas senatına senator Con Uaytmayə təqdim edib.

**18 oktyabr 2013**

**Benilüks Azərbaycanlıları Konqresi (BAK) son günlər Moskvadakı hadisələrlə əlaqədar Rusiyada azərbaycanlılara qarşı yürüdülən diskriminasiya siyasətinə etiraz bəyanatı qəbul edib**

Benilüks Azərbaycanlıları Konqresi (BAK) son günlər Moskvadakı hadisələrlə əlaqədar Rusiyada azərbaycanlılara qarşı yürüdülən diskriminasiya siyasətinə etiraz bəyanatı qəbul edib. Bəyanatda deyilir: "Tarixdə "xalqlar həbsxanası" kimi tanınan Çar Rusiyasının, sonralar isə özünü Sovet İmperiyasının varisi elan etmiş Rusiya bu missiyanı indi də davam etdirir".

Daha sonra bəyanatda bildirilir ki, Rusiya Federasiyasında yaşayan qeyri-rus xalqlar daim qatı millətçi və şovinist ünsürlərlə üz-üzə gəliblər: "Artıq bu hal bir dövlət siyasətinə çevrilib desək, daha doğru olardı. Bütün qeyri-rus xalqlara kəskin münasibətilə seçilən Y.Jirinovski, hazırda azərbaycanlıların Rusiyadan deportasiya olunması üçün imzatoplama kampaniyasına başlamış müxalifət lideri, qatı şovinist A.Novalninin hərəkətləri şovinist rejimin bariz nümunəsidir. Məhz bunun nəticəsidir ki, ölkə boyu kriminal mühit fəallaşır, qeyri-rus xalqlara qarşı dözülməz münasibət, diskriminasiya, qatı milliyyətçilik, irqçilik daha da intensivləşir".

Qeyd olunur ki, son günlər Orxan Zeynalovla Yuri Şerbakov arasında baş vermiş və Y.Şerbakovun ölümü ilə nəticələnən adi bir məişət insidentindən bir bəhanə kimi istifadə olunur: "Belə hadisələr dünyanın hər bir ölkəsində, hətta eyni millətdən olan fərdlər arasında yüzlərlə və minlərlə baş verir. Əlbəttə ki, istənilən halda ortada bir ölüm hadisəsi, bir cinayət var və cinayətkar cəzasını almalıdır. BAK hər cür qanun və hüquq pozğunluğunu, cinayətkarlığı, eyni zamanda rus rəsmilərin xüsusən də azərbaycanlılara qarşı apardığı siyasi kampaniyanı qəti şəkildə pisləyir. Dünyanın heç bir hüquqi dövlətində bir nəfərə görə bütün xalq günahlandırılmır və diskriminasiyaya uğramır. Avropa və Amerikanın müxtəlif ölkə və şəhərlərində rus millətinin nümayəndələrindən ibarət yüzlərlə kriminal qruplaşma mövcuddur. Bu qruplaşmaların törətdikləri cinayətlərə görə heç bir vaxt rusların digər nümayəndələri cavab vermir, onlara qarşı antipatiya hiss olunmur, hücumlara və diskriminasiyaya məruz qalmırlar".

Bəyanatda deyilir ki, Moskvanın "Biryuzova" ticarət mərkəzinə və "Pokrovka" meyvə-tərəvəz bazasına "skinhedlər"in hücumları, Tverdə 100-dən çox azərbaycanlının saxlanılması və həbsi, 27 yaşlı günahsız bir azərbaycanlının məhz azərbaycanlı olduğuna görə öldürülməsi faktı Rusiya kimi böyük bir dövlətə başucalığı gətirmir. BAK özünü Rusiyaya varis hesab etdiyinə görə asağıdakı tarixi faktları xatırlatmağı borc bilir: "Azərbaycanın II Dünya müharibəsində verdiyi şəhidlər milliyətcə azərbaycanlılar idilər. Böyük Vətən müharibəsi zamanı sovet texnikasını yanacaqla təmin edən, arxa cəbhədə yarıac, yarıtox, gecə-gündüz çalışan məhz indi deportasiyaya məruz qalan azərbaycanlıların ata-anaları, baba və nənələri olublar. Müharibəni yanacaqla təmin edən məhz Qəhrəman Bakı olub. Halbuki indinin özündə belə bu şəhər Qəhrəman Şəhərlər siyahısına daxil edilməyib. Sovet Rusiyası üçün vuruşan yüzlərlə azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adını alıb: General Həzi Aslanov, "Mixaylo" ləqəbli əfsanəvi Mehdi Hüseynzadə, Leninqrad göylərini faşist bombardmanından qoruyan Hüseynbala Əliyev, sinəsini məhz rus komandiri üçün sipər edərək onu ölümdən qurtaran, lakin özü şəhid olan Qafur Məmmədov və minlərlə döyüşçü də Azərbaycan xalqının nümayəndələri idilər. Rusiyaya xatırlatmaq istəyirik ki, 444-cü Diviziyada vuruşan və qəhrəmanlıqlar göstərənlər də azərbaycanlılardan ibarət diviziya olub. Müharibədə on minlərlə həlak olan, itkin düşən və şikəst olan da azərbaycanlılar idilər".

Bəyanatın sonunda bildirilir ki, bu yaxınlarda Niderlandın Haaqa şəhərində rus diplomatın etdiyi qanun pozuntusuna görə polislər tərəfindən saxlanılması Rusiyada böyük səs-küyə səbəb olmuşdu: "Rəsmi Moskvanın təkidi ilə Niderland XİN bu insidentə görə Rusiyadan üzr istəmişdi, lakin Moskva daha irəli gedərək həmin polislərin həbs olunmasını hələ də tələb etməkdədir. Görəsən, Prezident Putin dünən Moskvada naməlum şəxslər tərəfindən öz evində döyülmüş Niderland diplomatı və küçədə qətlə yetirilmiş 27 yaşlı günahsız azərbaycanlı üçün Niderland və Azərbaycan dövlətlərindən üzr istəyəcəkmi, cinayətkarları həbs edəcəkmi?"

BAK, eyni zamanda, Rusiyada fəaliyyət göstərən azərbaycanlı icma və təşkilatların, həmçinin uzun illər Rusiyada yasayıb yaradan ayrı-ayrı ictimai şəxslərin səslərinin eşidilməməsindən çox təəssüf hissi keçirir: "BAK bütün bunları nəzərə alaraq, Rusiyanın bu cür şovinist addımlarını qətiyyətlə pisləyir və bunun beynəlxalq gərginliyə səbəb ola biləcəyindən narahat olduğunu dilə gətirir və baş verənləri Azərbaycan dövlətinə qarşı siyasi təzyiq kimi qiymətləndirir".

**18 oktyabr 2013**

**Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzi**
**Prezident İlham Əliyevə məktub ünvanlamışdır**

Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzinin Prezident İlham Əliyevə ünvanlandığı məktubda deyilir: “Hörmətli cənab Prezident, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik. İnanırıq ki, bu qələbə dünyaya dahi Nizami Gəncəvi kimi filosof bəxş etmək fəxarətinə sahib və bizim üçün olduqca dəyərli bir ölkə olan Azərbaycanda demokratiya, dünyəvilik və vətəndaş azadlıqları institutlarını daha da gücləndirəcəkdir.

Zati-alinizə ən dərin ehtiramımızla bərabər, Sizə möhkəm cansağlığı və Azərbaycanın daha da çiçəklənməsi və inkişafında böyük uğurlar arzulayırıq.

Əminik ki, Sizin davamlı dəstəyinizlə Azərbaycanın mədəni irsini dünyaya uğurla tanıtdıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzi elm, maarif və beynəlxalq dialoqu təbliğ edən əsas regional mərkəzlərdən birinə çevriləcəkdir.

Hörmətli Prezident, Sizə ən dərin ehtiramımızı, möhkəm cansağlığı arzumuzu və Azərbaycanın daha da çiçəklənməsi və davamlı inkişafına yönəlmiş səylərinizdə uğurlar diləyimizi qəbul etməyinizi xahiş edirik”. Təbrik məktubu Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin həmsədri Vayra Vike-Freyberqa, Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Seragəldin, Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin İdarə heyətinin üzvü Tarja Halonen, Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin İdarə heyətinin üzvü Petar Stoyanov, Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin İdarə heyətinin üzvü Giuli Alasaniya, Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin İdarə heyətinin üzvü Valter Füst və digərilərinin adından ünvanlanıb.

**21 oktyabr 2013**

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin kolleksiyasına Quran kitabının Al Baqarah və Al Fatiha surələrinin 14sm x 20sm ölçüsündə olan qızılla işlənilmiş əlyazması təqdim olunmuşdur

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaydığı məlumata görə, bunlar əsasən 1126 AH (1709 AH) dönəminə aid olan Quran kitabının Al Baqarah və Al Fatiha surələrinin 14sm x 20sm ölçüsündə olan qızılla işlənilmiş orijinallarıdır. Təqdim olunan əlyazmaların ən önəmlisi isə Osmanlı dönəminin ən məşhur xəttatı olan Şeyx Həmdullah (1436-1520) tərəfindən yazılmış Qurani-Kərimdir. Şeyx Həmdullah bütün həyatını 47 heyrətamiz gözəllikdə Quran kitabını yazmağa həsr edib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Şərqin mədəniyyəti və tarixinin ən nadir inciləri sayılan Nizami Gəncəvi “Xəmsə”sinə həsr olunmuş orijinal əlyazma və illüstrasiyalardan ibarət arxivin artıq Bişkek, Vaşinqton, İsgəndəriyyə, Tbilisi daxil olmaqla 15-ə yaxın sərgisini təşkil edib. 2014-cü ildən başlayaraq isə İsgəndəriyyə Kitabxanası, Türkiyə Milli Kitabxanası və Küveyt Fondu ilə birgə “İpək Yolu” layihəsi çərçivəsində mövcud orijinal əlyazma və illüstrasiyaları daha geniş kütləyə təqdim edəcək.

**22 oktyabr 2013**

**Benilüks Azərbaycanlıları Konqresi qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Bako Sahakyanin Brüsseldə "Avropa Birliyi və Dağlıq Qarabağ arasındakı əməkdaşlıq" mövzusunda keçirilən görüşdə iştirakı ilə əlaqədar bəyanat yayıb**

Benilüks Azərbaycanlıları Konqresi qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Bako Sahakyanin Brüsseldə "Avropa Birliyi və Dağlıq Qarabağ arasındakı əməkdaşlıq" mövzusunda keçirilən görüşdə iştirakı ilə əlaqədar bəyanat yayıb. Bəyanatda deyilir: "2013-cü il oktyabrın 15-də Brüsseldə baş tutan görüşün gündəliyinə salınmış "Soyqırım və beynəlxalq hüquq", "Avropa Birliyi və Dağlıq Qarabağ arasındakı əməkdaşlıq" mövzularının adlarından bəlli olur ki, işğalçı Ermənistan həm Türkiyəyə, həm də Azərbaycana qarşı tutduğu destruktiv və işğalçı mövqeyini davam etdirməkdə israrlıdır".

Benilüks Azərbaycanlıları Konqresi bəyan edir ki, Avropa Birliyi qondarma Dağlıq Qarabağ Respublikasının qondarma prezidenti ilə görüşmək əvəzinə Ermənistana təzyiqlər göstərməli, BMT qətnamələrinə qeyd-şərtsiz əməl edərək işğala son qoymağa məcbur etməlidir.

Benilüks Azərbaycanlılar Konqresi bildirir ki, Avropa Parlamentinin üzvləri işğal nəticəsində öz ərazisindən qaçqın və məcburi köçkün düşmüş bir milyon azərbaycanlının pozulmuş hüquqlarının bərpası üçün fəaliyyətə keçməlidir. Benilüks Azərbaycanlıları Konqresi 2013-cu il oktyabrın 15-də Avropa Parlamentində qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Bako Sahakyanla görüşlər zamanı bəzi deputatların ermənipərəst çıxışlarını pisləyir və birmənalı şəkildə BMT-nin Beynəlxalq Ədalət Şurasının təmsilçisinin qərəzli çıxışına və anti-Azərbaycan mövqeyinə qətiyyətlə etiraz edir: "Görüşdə Bako Sahakyanın Xankəndi əməliyyatı ilə Drezdenin bombalanmasını müqayisə etməsi və ərazi bütövlüyü prinsipini yanlış şərh etməyə çalışması, Qarabağın Azərbaycana Stalin tərəfindən verilməsi bəyanatını səsləndirməsi ən azından tarixi saxtalaşdırmaq məqsədi daşıyır. Dağlıq Qarabağa sərnişin təyyarələrinin uçuşuna Azərbaycanın imkan verməməsinin beynəlxalq terror adlandırılması isə bütün sərhədləri aşmaq və ermənipərəst siyasət yürütməkdən başqa bir şey deyildir". Benilüks Azərbaycanlıları Konqresi bütün bunları nəzərə alaraq bildirir ki, bu cür qərəzli çıxışlar bizə BMT-nin Beynəlxalq Ədalət Şurasının bəzi üzvlərinin ermənipərəst mövqe tutduğunu, ikili standartlardan çıxış etdiyini və beynəlxalq ictimaiyyəti aldatmaqla məşğul olduğunu deməyə əsas verir.

Benilüks Azərbaycanlılar Konqresi qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti ilə Avropa Parlamentinin görüş keçirməsini şiddətlə qınayır, ermənipərəst millət vəkillərinin və siyasətçilərin anti-Azərbaycan mövqeyini pisləyir və onları haqq-ədalətin yanında olmağa çağırır.

BAK bəyan edir ki, bu səpkidə görüşlər və müzakirələr, düşünülmüş şəkildə səslənən fikirlər Azərbaycan Dövlətçiliyinə qarşı siyasi təxribat, təzyiq vasitəsi kimi qəbul olunur, sülh danışıqlarına mane olur və münaqişənin həllini dalana dirəyir. "Bu qəbildən olan beynəlxalq görüşlər Azərbaycanın ərazi bütövlüyünə hörmət çərçivəsində keçirilməlidir" bəyanatda belə deyilir.

**23 oktyabr 2013**

**Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin**
**20 yaşı tamam olur**

Bu il Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin 20 yaşı tamam olur. Dərnək bu illər ərzində bir çox layihələrə imza atıb. Bura Azərbaycanın çətin vaxtlarında təşkilat tərəfindən cəbhə bölgəsinə edilən yadımlar, müxtəlif dövrlərdə ölkəmizin üzləşdiyi haqsızlıqlara etiraz olaraq mitinq və yürüşlərin keçrilməsi və.s. daxildir. Lakin Hollandiya Azərbaycan- Türk Kültür Dərnəyinin başqanı İlhan Aşqın hesab edir ki, təşkilatın ən uğurlu layihəsi Xocalı soyqırımına ucaltıdqları abidədir: "Mən bütün bizim fəaliyyətimizin başında təşkilatımız tərəfindən Niderlandın Den Haaq şəhərində Xocalı soyqrımı abidəsinin ucaldılmasını görürəm. Biz bu abidəni qoyulmasında çox çətinliklərlə üzləşdik. Amma nə ermənilərin bizə qarşı olan təpkiləri, nə də başqa səbəblər bizi çəkindirmədi. Abidə qoyulduqdan bəri yerli ictimaiyyətin nümayəndələri, o cümlədən keçmiş millət vəkilləri buranı ziyarət edib və soyqırımla bağlı münasibətlərini bildirib. Biz bundan sonrakı fəaliyyətimizdə niderlandlı söz sahiblərinin abidənin ziyarət etmələrinə çalışacağıq."

Təşkilat bir qayda olaraq hər il Novruz və digər milli bayramlarımızın keçrilməsini yüksək səviyyədə təşkil edir. Soydaşlarımızın bayram tədbirlərində bir yerə toplannası, şənlənməsi, onların arasında ünsiyyətin yaranması və möhkəmlənməsi ilə nəticələnir.

Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin 20 yaşını qeyd etmək və bu müddət ərzindəki fəaliyyətinə nəzər salmaq məqsədilə Den Haaq şəhərində geniş yubiley tədbiri keçirməyi planlaşdırır. Tədbirdə təşkilatın rəhbəri İlhan Aşqının hesabatı dinləniləcək, qarşıda görüləcək işlər haqqında müzakirələr aparılacaq. Yubiley tədbirində bədii hissənin olması da nəzərdə tutulub.

**23 oktyabr 2013**

**Rusiyanın Perm vilayətinin Krasnokamsk bələdiyyəsinin nümayəndələri, "İkinci Bakı" layihəsinin müəllifləri Timofey Çudinov və Qalina Palkina-Vedova bu gün Dövlət Komitəsinin sədr müavini Valeh Hacıyevlə görüşüblər**

Bakıda səfərdə olan Rusiyanın Perm vilayətinin Krasnokamsk bələdiyyəsinin nümayəndələri, "İkinci Bakı" layihəsinin müəllifləri Timofey Çudinov və Qalina Palkina-Vedova bu gün Dövlət Komitəsinin sədr müavini Valeh Hacıyevlə görüşüblər. Görüşdə Bakı və Perm şəhəri arasında dostluq əlaqələrinin inkişaf etdirilməsi, "İkinci Bakı" layihəsi müzakirə olunub.

Layihə haqqında məlumat verən Qalina Palkina-Vedova bildirib ki, Bakı ilə Perm arasında olan dostluğun 75 illik tarixi var. 75 il öncə, Krasnokamskda neft aşkarlandığı zaman 200 nəfərdən çox azərbaycanlı mütəxəssis bu şəhərə göndərilib və onlar Krasnokamskda neft sənayesinin əsasını qoyub. Xüsusilə, 1942-ci ildə ikinci dünya müharibəsi zamanı neft istehsal edən bütün müəssisələrin Qafqazdan Urala köçürüldüyü bir vaxtda azərbaycanlı neftçilərin əməyi, yardımı əvəzsiz sayılır. Sonradan nefti ilə məşhurlaşan Krasnokamsk hətta Uralın Bakısı da adlandırılırdı. Bütün bunları nəzərə alan krasnokamsklılar bu gün iki şəhər arasında dostluq əlaqələrini əbədiləşdirmək təşəbbüsü ilə çıxış edir.

Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Valeh Hacıyev isə öz növbəsində qonaqların bu təşəbbüsünün təqdirəlayiq olduğunu bildirib. V.Hacıyev deyib ki, "İkinci Bakı" layihəsi təkcə Bakı və Krasnokamsk şəhərləri arasında əlaqələrin inkişafına, eyni zamanda Permdəki Azərbaycan diasporunun fəaliyyətinin genişlənməsinə də öz töhfəsini verəcək. Görüşdə "İkinci Bakı" layihəsinin reallaşması istiqamətində atılacaq növbəti addımlar, görüləcək işlər müzakirə edilib. Qeyd edək ki, "İkinci Bakı" layihəsinin müəllifləri Timofey Çudinov və Qalina Palkina-Vedova səfər çərçivəsində bir sıra rəsmi şəxslərlə də görüşüblər, Neft Daşlarında olublar.

**25 oktyabr 2013**

**Ukraynanın Krım Muxtar Respublikasının Sudak şəhərində beynəlxalq "Serebrennoe pero" mükafatının təntənəli təqdimat mərasimi keçirilib**

Ukraynanın Krım Muxtar Respublikasının Sudak şəhərində beynəlxalq "Serebrennoe pero" mükafatının təntənəli təqdimat mərasimi keçirilib. Mərasimdə "İlin ən yaxşı çap materialı", "İlin ən yaxşı televiziya proqramı", "İlin ən yaxşı radioproqramı" kimi on nominasiya üzrə diplom və medallar jurnalistlərə təqdim edilib. "İlin ən yaxşı radioproqramı" nominasiyasında mükafatlandırılanlar arasında Azərbaycan radiosu "Qobustan" da var. Sevastopol televiziya və radio şirkəti nəzdində, jurnalist Həbib Əliyevin redaktorluğu ilə fəaliyyət göstərən "Qobustan" beynəlxalq diploma və medala layiq görülüb. Krımda fəaliyyət göstərən "Qobustan" radiosu Azərbaycan dövləti tərəfindən maliyyələşdirilir.

Qeyd edək ki, Ukrayna Jurnalistlər Birliyinin ənənəvi olaraq hər il keçirdiyi "Serebrennoe pero" müsabiqəsinə bu il 14 – Ukrayna, Belarus, Qazaxıstan, Qırğızıstan, Polşa, ABŞ və digər ölkələrdən olan 300 jurnalist qatılıb. Onlar müsabiqəyə 700-dək material təqdim ediblər. Münsiflər heyəti göndərilən materialların əksəriyyətinin yüksək peşəkarlıqla hazırlandığını bildirərək, onların arasından 80 işi diplom və medala layiq görüb.

**28 oktyabr 2013**

## Qırğızıstandakı Azərbaycan diasporu birdir

*Çingiz Ələsgərov: "Dağlıq Qarabağ problemi dünyada yaşayan hər bir azərbaycanlı kimi bizim də ağrılı yerimizdir"*

Qırğızıstanda fəaliyyət göstərən çoxsaylı diaspor təşkilatlarından biri də Qırğızıstan Azərbaycanlıları Konqresidir. Fəaliyyət göstərdiyi qısa müddət ərzində Azərbaycanın təbliği, xalqımızın üzləşdiyi problemlər barədə bir sıra mühüm addımlar atan təşkilat qarşıdakı müddətdə də qeyd edilən istiqamətlərdə çalışmağı nəzərdə tutub. Qırğızıstan Azərbaycanlıları Konqresinin sədri Çingiz Ələsgərov "OLAYLAR"-a verdiyi müsahibədə rəhbərlik etdiyi qurumun bundan sonra atacağı addımlar barədə danışıb. O, Qırğızıstandakı Azərbaycan diasporunun durumu və ayrı-ayrı təşkilatların birlik, həmrəylik istiqamətindəki fəaliyyətinə də toxunub.

**-Çingiz müəllim, rəhbərlik etdiyiniz Qırğızıstan Azərbaycanlıları Konqresi nə zamandan fəaliyyət göstərir və konqresin əsas fəaliyyət istiqamətləri hansılardır?**

-Qırğızıstan Azərbaycanlıları Konqresi 2012-ci ilin may ayında yaradılmışdır. Konqres Qırğızıstanda yaşayan azərbaycanlıların təmsil olunduğu 4 ictimai təşkilatdan ibarətdir. Bura Cəbi Rəsulovun rəhbərlik etdiyi Qırğızıstandakı Azərbaycanlıların Koordinasiya Mərkəzi, Ziyəddin Hüseynovun sədri olduğu Azərbaycanlıların "Xəzər" İctimai Assosiasiyası, Mirzə Əli Mirəhmədovun Regional Əməkdaşlıq Şurası və Nüsrət Məmmədovun sədri olduğu Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu daxildir. Qırğızıstan Azərbaycanlıları Konqresinin tərkibinə daxil olan bütün bu təşkilatları ortaq platforma və həmrəylik birləşdirir.

**-Konqresi olaraq fəaliyyət göstərdiyiniz bu illər ərzində Azərbaycanın üzləşdiyi problemlər, Dağlıq Qarabağ münaqişəsi kimi məsələni qırğız cəmiyyətinə tam mənada çatdıra bilmisinizmi?**

-Təbii ki, Qırğızıstan Azərbaycanlıları Konqresi yaranarkən ölkəmizin üzləşdiyi problemlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qırğız ictimaiyyətini məlumatlandırmağı qarşısına başlıca məqsədlər olaraq qoymuşdu. Paralel olaraq Azərbaycanın zəngin tarixi mədəni irsinin təbliği, birlik və həmrəyliyin daha da möhkəmləndirilməsi istiqamətində müvafiq addımların atılması da Qırğızıstan Azərbaycanlıları Konqresinin başlıca prioritetlərinə aiddir. Məlumat üçün qeyd edim ki, Qırğızıstan Azərbaycanlıları Konqresi olaraq fəaliyyət göstərdiyimiz qısa zaman ərzində qeyd etdiyim istiqamətlərdə bir sıra mühüm tədbirlər keçirmişik. Cari ilin fevral ayında Xocalı soyqırımının ildönümü ilə bağlı konqres olaraq anım tədbiri keçirmişik. Bundan əvvəl isə 20 Yanvar faciəsinin ildönümü konqres səviyyəsində keçirilib. Eyni zamanda konqresimiz 31 mart-Azərbaycanlıların Soyqırım Günü ilə bağlı da qırğız cəmiyyəti, əməkdaşlıq etdiyimiz təşkilatları məlumatlandırıb. Qeyd etdiyim kimi zəngin tarixi-mədəni irsimizin təbliği, mədəniyyətimizin tanıdılması sahəsində də qısa müddət ərzində bacardığımız qədər işlər görmüşük. Keçən ilin dekabrında 31 dekabr-Dünya Azərbaycanlıların Həmrəylik Günü ilə bağlı bayram tədbiri keçirmişik. Həmçinin Novruz bayramı da tərəfimizdən qeyd edilib, bu bayramın tarixi, zənginliyi barədə Qırğızıstanda yaşayan digər xalqların nümayəndələrinə məlumat verilib.

**-Qırğızıstan Azərbaycanlıları Konqresinin tərkibində əsasən kimlər təmsil olunur? Konqresdə hər bir təbəqənin nümayəndəsi varmı?**

-Qırğızıstan Azərbaycanlıları Konqresinin tərkibi olduqca rəngarəngdir desək yanılmarıq. Konqresin üzvləri arasında həm ziyalılar, həm biznesmenlər, həm də dövlət qulluqçuları, hüquqşünaslar və gənclər var. Demək olar ki, konqresin tərkibində bütün təbəqələrin nümayəndələri təmsil olunur. .

**-Qırğızıstanda fəaliyyət göstərən Azərbaycan təşkilatları birlik və bərabərlik şəraitində fəaliyyət göstərib vahid mövqedən çıxış edə bilirlərmi?**

-Mən rəhbərlik etdiyim Qırğızıstan Azərbaycanlıları Konqresi adından deyə bilərəm ki, bizim konqresin tərkibində fəaliyyət göstərən bütün təşkilatlar vahid mövqedən çıxış edirlər. Bizim konqres daxilində möhkəm həmrəylik mövcuddur. Qırğızıstan Azərbaycanlıları Konqresinin üzvü olan hansısa bir təşkilat tədbir keçirdikdə hamılıqla həmin tədbirə qatılır, öz dəstəyimizi veririk. Məsələn, konqresin üzvü olan Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu və onun rəhbəri Nüsrət Məmmədov müntəzəm şəkildə Azərbaycan, həmçinin iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsinə yönəlik tədbirlər təşkil edir ki, biz də həmin tədbirlərin yaxından iştirakçısı oluruq. Adıçəkilən fondun Azərbaycan və Qırğızıstanın görkəmli şəxsiyyətləri, yazıçı və şairlərinin kitablarının qırğız dilinə tərcümə edilmiş variantının təqdimat mərasimində konqres üzvlərinin əksəriyyəti iştirak edir. Bu da öz-özlüyündə Qırğızıstan Azərbaycanlıları Konqresinin birlik və bərabərlik şəklində fəaliyyət göstərdiyinin bir nümunəsidir. Ümumiyyətlə, ölkədən kənarda fəaliyyət göstərən istənilən diaspor təşkilatı ümummilli mövqelərdən çıxış etməli, birlik və həmrəyliyimizin daha da möhkəmləndirilməsi istiqamətində çalışmalıdır.

**-Qırğızıstan Azərbaycanlıları Konqresi qısa müddətli fəaliyyəti dövründə Azərbaycanın haqq səsinin dünyaya çatdırılması istiqamətində konkret hansı tədbirlər keçirib?**

-Əvvəla onu qeyd edim ki, Dağlıq Qarabağ problemi, ərazilərimizin erməni separatçıları tərəfindən işğalı dünyada yaşayan hər bir azərbaycanlı kimi bizim də ən ağrılı yerimizdir. Biz də Qırğızıstan Azərbaycanlıları Konqresi olaraq problemin yaranma səbəbi, ermənilərin işğalçılıq siyasəti barədə qırğız ictimaiyyətini məlumatlandırmağı özümüzə borc bilirik. Dağlıq Qarabağ problemi ilə bağlı indiyə qədər bir sıra kitabıar, tarix faktlar əks olunan materiallar çap edilib ki, biz də həmin materialların qırğız dilinə tərcüməsini təşkil edirik. Bundan başqa faciəli günlərimizdə, xüsusilə Xocalı soyqırımı ərəfəsində tariximiz, başımıza gətirilən müsibətlər, ermənilərin deportasiya və soyqırım siyasətini əks etdirən filmlər nümayiş olunur.

**-Qırğızıstanda təxminən nə qədər azərbaycanlı yaşayır? Soydaşlarımızın Qırğızıstana mühacirəti hansı dövrə təsadüf edir?**

-Məlumat üçün qeyd edim ki, Orta Asiya regionunun bu dövləti ilə Azərbaycan arasında münasibətlər əsasən XX əsrin əvvəllərindən inkişaf etməyə başlayıb. Təqribən 16 min nəfərə yaxın soydaşımızın yaşadığı Qırğızıstana azərbaycanlıların ilk mühacirəti 1929-1930-cu illərə təsadüf edir. Bu mühacirət, əslində, məcburi köçürülməsi sayəsində baş vermişdir ki, bunun əsas səbəbi Azərbaycanda baş verən repressiya və təzyiqlər idi. Buraya köçürülən azərbaycanlılar kənd rayonları olan Cuy vadisi və onun əyaləti Arovan rayonunda yerləşdirilmişlər. Burada heç bir yerə köçmək hüququ olmadan çətin şəraitdə yaşayan azərbaycanlılar taxılçılıq, pambıqçılıq və digər kənd təsərrüfatı sahələrində çalışırdılar. Bu cür ağır şəraitə baxmayaraq, soydaşlarımız Centi- Cer, Centi-Paxta sovxozları, Sonkul rayonunda Qırğızıstan elektrik stansiyasını tikib başa çatdırmışlar. İlk zamanlar ağır iş şəraiti və soyuq iqlimə dözməyən yüzlərlə soydaşımız vəfat edirdi. Yerli əhalinin dəstəyi və yerli şəraitə çətinliklə də olsa adaptasiya olunmaları azərbaycanlıların tamamilə məhvinin qarşısını almışdır. II dünya müharibəsindən sonra Qırğızıstan azərbaycanlıları elm və təhsil almaq üçün ölkənin ali məktəblərinə daxil olmağa başladılar. Bunun sayəsində Qırğızıstanda Azərbaycan diasporunun ziyalı təbəqəsi yarandı. Müəllim, zootexnik-veteranlar, mühəndis, həkim və digər peşələr üzrə təhsil alan soydaşlarımızın bir çoxu öz sahələri üzrə peşəkar mütəxəssis kimi tanınırdılar. Tədricən Qırğızıstanda yaşayan soydaşlarımızın ölkənin ictimai-mədəni həyatında rolu artmağa başlayıb.

**-Bəs soydaşlarımızın qırğız cəmiyyətinə inteqrasiyası hansı səviyyədədir?**

-Paytaxt Bişkek başda olmaqla, digər şəhərlərə köçməyə başlayan soydaşlarımız öz milli adət-ənənələrini qoruyub saxlamaqla yerli cəmiyyətə sürətlə inteqrasiya olunur. Burada öz milli bayramlarını daim təmtəraqla qeyd edən azərbaycanlılar milli mətbəximizi qırğızlara təbliğ edirlər.

**-Qırğızıstan Azərbaycanlıları Konqresi olaraq azərbaycanlıların üzləşdiyi problemlərin həllinə köməklik göstərirsinizmi? Ümumiyyətlə, soydaşlarımızın Qırğızıstanda üzləşdiyi başlıca problemlər hansılardır?**

-Qırğızıstan Azərbaycanlıları Konqresi bacardığı qədər soydaşlarımızın üzləşdiyi hər hansı bir problemin həllinə yardım etməyə çalışır. Əsasən bu ölkədə təhsil alan bir qədər imkansız gənclərə yardım edir, onlara dəstək oluruq. Eyni zamanda soydaşlarımıza müəyyən hüquqi yardım göstəririk. Bundan başqa ana dilimizin qorunub saxlanılması, onun inkişaf etdirilməsi, yetişməkdə olan gənc nəslimizin tariximiz barədə ətraflı bilgiləndirilməsi istiqamətində çalışırıq. Bizim kifayət qədər dəyərli vəkillərimiz var ki, onlar soydaşlarımıza hüquqi və digər yardımlar edirlər.

**-Ümumilikdə hazırda Qırğızıstanda Azərbaycan diasporunun durumunu necə qiymətləndirirsiniz? Azərbaycan diasporu bu ölkədə vahid bir mövqe ortaya qoya bilirmi?**

-Qırğızıstandakı Azərbaycan diasporası müxtəlif fəaliyyətlərə baxmayaraq birlikdədir, biridir. Düzdür, diaspor təşkilatları vahid bir təşkilat daxilində cəm olmasalar da, lakin vahid mövqedən çıxış edirlər.

**-Bir sıra Avropa ölkələrində diaspora daxilində parçalanma yaratmağa cəhdlər göstərilir. Qırğızıstanda da bu kimi mənfi hallar varmı?**

-Biz qətiyyətlə bu kimi halları pisləyirik. Azərbaycan diasporu daxilində parçalanma yaratmaq istəyən insanlar Azərbaycanı sevməyən qüvvələrdir. Belə hallara qətiyyətlə yol vermək olmaz. Bu düşmən dəyirmanına su tökmək deməkdir.

**-Siz bir diaspor təşkilatı kimi Qırğızıstandakı Azərbaycan səfirliyi ilə necə əməkdaşlıq edirsiniz? Səfirlik sizə öz dəstəyini verirmi?**

-Çalışırıq ki, diaspor təşkilatı olaraq səfirliklə sıx əlaqə yaradaq, onlarla əməkdaşlıq edək. Ancaq eyni zamanda səfirlik də buna maraqlı olmalıdır. Ümumiyyətlə, cənab prezident İlham Əliyevin də qeyd etdiyi kimi hər bir ölkədə fəaliyyət göstərən Azərbaycan səfirliyi o ölkədəki diaspor təşkilatı ilə əlaqəli şəkildə işləməlidir.

**-Qırğızıstan Azərbaycanlıları Konqresinin yaxın vaxtlar üçün qarşısına qoyduğu başlıca vəzifələr hansılardır?**

-Qırğızıstan Azərbaycanlıları Konqresi qurumun üzvü olan Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu və onun rəhbəri Nüsrət Məmmədovun təşəbbüsü və dəstəyi ilə yaxın vaxtlarda uşaqlar üçün bazar günü məktəbi açmağı düşünür. Burada məqsəd Qırğızıstanda yaşayan azərbaycanlı ailələrin uşaqlarına öz doğma dilimizi öyrətmək, tariximizi təbliğ etməkdir. Bundan başqa bir mədəniyyət mərkəzinin tikintisi planımız da var.

**“Olaylar”.-2013.-30 oktyabr.-№195.-S.15.**

**Hyuston şəhərindəki Azərbaycan mərkəzinin direktoru İradə Axundova konqresmen Cim Braydenstayn ilə görüşmüşdür**

2013-cü il oktyabr ayının 2-də Hyuston şəhərindəki Azərbaycan mərkəzinin direktoru İradə Axundova konqresmen Cim Braydenstayn ilə görüşmüşdür. Görüşdə ABŞ və Azərbaycan arasında münasibətlər müzakirə edilmişdir. Cim Braydenstayn Oklahoma ştatının ikinci ən iri şəhəri Talsanın da daxil olduğu birinci seçki dairəsini təmsil edir. Konqresmen 2012-ci ildə seçkilərdən sonra ilk dəfə ABŞ Konqresində fəaliyyətə başlamışdır.

**2013-cü il oktyabr**

**Fransanın Oloron şəhərində beynəlxalq foto kulinariya festivalı keçirilmişdir**

Cari ilin oktyabr ayında Fransanın Oloron şəhərində keçirilən beynəlxalq foto kulinariya festivalında ilk dəfə Azərbaycan da təmsil olunmuşdur. Festivalda müxtəlif ölkələri təmsil edən fotoqraf və aşpazlardan ibarət cütlüklər birinci yer uğrunda mübarizə aparmışdır. Ölkəmizin yarışda təmsil olunması Parisdə fəaliyyət göstərən Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva və Jalə Babayevanın təşəbbüsü ilə reallaşmışdır.

İki gün davam edən festivalın məqsədi müxtəlif mədəniyyətlərin mübadiləsi, yerli məhsulların və istehsalçıların tanıdılmasıdır.Azərbaycanlı cütlüyün - Azərbaycan Fotoqraflar Birliyinin üzvü Etibar Cəfərov və Azərbaycan Milli Kulinariya Assosiasiyasının üzvü Ağa Aşurovun təqdim etdiyi “Odlar Yurdu” adlı fotoda milli mətbəximizə aid yemək və odla dalğavarı tüstü əks olunmuşdur.

**2013-cü il oktyabr**

## Azərbaycançılıq konseptual ideya kimi

*Natəvan Dəmirçioğlu,*
*yazıçı, filologiya üzrə fəlsəfə doktoru*

Azərbaycançılıq ümummilli məfkurə olaraq, milli birliyin təminatı, Azərbaycanın dünyaya inteqrasiyası, mədəniyyətimizin bütövləşməsi, vahid Azərbaycan ideyasının yayılması, ümumtürk dəyərlərinə sədaqət kimi mühüm məsələləri özündə birəşdirir. Ölkəmizdə azərbaycançılıq ideyası istiqlal və dövlətçilik təfəkkürünə əsaslanır. Milli konsepsiyanın əsasını isə dövlət müstəqilliyinin qorunması, Azərbaycan Respublikasının, harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların Vətəni kimi dərk edilməsi prinsipi təşkil edir.

Azərbaycançılıq diaspor siyasətinin də mühüm tərkib hissəsidir. Azərbaycanın diaspor siyasətinin əsas istiqamətləri xarici ölkələrdə azərbaycanlıların təşkilatlanmasını formalaşdırmaqdan, onların yaşadıqları cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakına yardımçı olmaqdan, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsinə şərait yaratmaqdan və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında imkan və səyləri səfərbər etməkdən ibarətdir.

Azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq, respublikamızın ərazisində yaşayan və ya başqa ölkələrə köçmüş bütün vətəndaşlara hüquqi və mənəvi cəhətdən bərabər münasibət göstərilir. Məlumata görə, mühacirətdə yaşayan qeyri-azərbaycanlı — ölkəmizdə doğulmuş ruslar, yəhudilər və başqaları Azərbaycan diaspor təşkilatları ilə əlaqələr qurur və onların işində iştirak edirlər.

Azərbaycançılıq konseptual ideya olaraq xaricdə yaşayan azərbaycanlılarla işi dövlət səviyyəsində uğurla həyata keçirməyə, onları ölkəmizdəki müxtəlif layihələrə cəlb etməyə və Vətənə daha sıx bağlamağa imkan vermişdir. Ulu öndər Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I qurultayında dövlət siyasətini izah edərkən, onun vacib xüsusiyyətlərini belə göstərmişdir: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır.Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı- Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”. Dövlət siyasətinin mühüm strategiyası olan azərbaycançılıq, müasir ideologiyamızın əsas xəttidir.

Heydər Əliyev həmişə bildirirdi ki, dövlət müstəqilliyimiz əldə ediləndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas meyardır. Ulu öndərin fikrincə, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın sivil inkişafının təmin olunması deməkdir. Azərbaycançılıq ideologiyası Azərbaycan lobbisini formalaşdıran qüvvələrin, xalqımızın mənafeyinə xidmət etməyi qarşısına məqsəd qoyan təşkilatların, şəxslərin fəaliyyətinin mühüm siyasi-ideoloji, mənəvi əsasını da təşkil edir. Lobbiçilik hərəkatında onun səfərbəredici təsir gücündən səmərəli istifadə olunmaqdadır.

Ümummilli lider Heydər Əliyev ölkəmizin dünya birliyində layiqli yer tutmasında güclü amil olan Azərbaycan diasporunun formalaşmasını, azərbaycanlıların milli həmrəyliyini və azərbaycançılıq ideologiyasının dünya miqyasında reallaşması zəruriliyini önə çəkirdi. Azərbaycançılıq ideyası milli-mənəvi dəyərlər sistemimizlə də yaxınlıq təşkil edir. Azərbaycan xalqına məxsus ailəyə bağlılıq, yurda bağlılıq, qohumluq münasibətlərinin möhkəmliyi, inam və əxlaqi keyfiyyətlərdə bütövlük, sadiqlik kimi cəhətlər zamanın sınaqlarından çıxıb. Bu gün isə azərbaycançılıq, dövlətçilik keyfiyyətləri ilə birləşir.

Azərbaycan xalqının tarix boyu qazandığı milli-mənəvi dəyərlərin azərbaycançılıq ideyalarının yaranmasında əvəzsiz rolu var. Azərbaycançılıq ideyasının formalaşmasında mühüm rol oynayan bu amillər özünün əxlaqi və etik keyfiyyətlərinə görə bəşər mədəniyyətinin də tərkib hissəsini təşkil edir.Azərbaycanlıların milli-mənəvi dəyərləri ümumtürk ruhunun və Şərq ənənələrinin dərin kökləri üzərində inkişaf edir. Azərbaycançılıq bu xüsusiyyətləri bir-birindən ayırmır, əksinə, daha da birləşdirir və zənginləşdirir. Hazırda qloballaşan dünyada Türk, Şərq, Azərbaycan milli-mənəvi dəyərləri Qərb- Avropa mədəniyyəti ilə yaxınlaşaraq yeni keyfiyyət qazanır. Azərbaycançılıq bu məqamda daha çox gərəkli görünür. Bu ideya inkişaf edərək, milli-mənəvi dəyərlərlə birləşərək, Azərbaycan xalqının siyasi, dövlətçilik şüurunda, mədəni-mənəvi həyatında əsas amilə çevrilməkdədir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan diasporu nümayəndələrinə tövsiyyələri də azərbaycançılığın inkişafında müstəsna əhəmiyyət daşıyır.Ümummilli lider dünyanın müxtəlif ölkələrində rəsmi səfərlərdə olarkən Azərbaycan diaspor nümayəndələri ilə görüşmüş, onlara öz tövsiyyələrini vermişdir. Bu gün bu tövsiyyələr Heydər Əliyev irsinin qiymətli nümunələridir və dünyanın hər bir tərəfinə səpələnmiş azərbaycanlılar üçün proqram xarakterli vəsiyyətlərdir.

Heydər Əliyev Prezident kimi Fransanın paytaxtı Parisdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə onların nəinki bir ölkə daxilində birləşməsini, təşkilatlanmasını tövsiyyə etmişdi, eyni zamanda, ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın birliyinin vacibliyini vurğulamışdı: “Mən müxtəlif ölkələrə səfərlərə gedəndə həmişə azərbaycanlılarla görüşürəm. Soruşuram: niyə bəs az görünürsünüz? Cavab verirlər ki, bir-birimizlə əlaqələrimiz o qədər yaxşı deyil. Nədənsə, millətimiz hələ bir-biri ilə sıx əlaqələr qurmağa nail ola bilməyib”.

Ulu öndər daha sonra bildirirdi ki, yaşadığı ölkə daxilində və qeyri ölkələrdə azərbaycanlıların bir-biri ilə sıx əlaqələri vacibdir. Bu əlaqələr onların milli problemlərimizin həllində yaxından iştirak etməsinə yardım göstərə bilər. Bu isə çox vacibdir. Ulu öndər bu tövsiyyələri verəndə Azərbaycan cəmi bir neçə il idi ki, müstəqillik qazanmışdı, problemləri də həddindən artıq çox idi. İndi isə Azərbaycan dünya birliyinin müstəqil üzvü kimi artıq möhkəmlənmiş, varlanmış və problemlərinin xeyli hissəsini çözmüş ölkədir. O indi daha çox imkanlara malikdir.

Ulu öndər Heydər Əliyev İsveçrədə yaşayan soydaşlarımızla görüşəndə söyləmişdi: “Siz İsveçrədə yaşayırsınız. Burada yaşayışınız rahatdır. Azərbaycanlıların cəmiyyəti var, lobbisi var. Deməli, Azərbaycanın dayağı var. Amma onu da bilin ki, Azərbaycan da sizin dayağınızdır. Sizin arxanızda Azərbaycan Respublikası kimi müstəqil bir dövlət var. Ona görə burada yaşayın, işləyin, amma Vətən həmişə qəlbinizdə olsun. Onu unutmayın.İndi yollar açıqdır. Həmişə Vətənə gələ bilərsiniz. Müstəqil Azərbaycanın ana kimi qolları üzünüzə açıqdır ”. Bu fikirlər müxtəlif vaxtlarda Azərbaycan diasporu nümayəndələri ilə görüşlər zamanı ulu öndərin söylədiyi fikirlər idi. Onun fikirləri proqram xarakteri daşıyaraq bütün illərdə aktuallığını qoruyub saxlayır.

Bu gün dünyanın müxtəlif ölkələrində mövcud olan milli diasporumuzun möhkəmlənməsi, təşkilatlanması məhz soydaşlarımızın vahid məqsəd, ideya ətrafında səylərini birləşdirməsi nəticəsində mümkün olub. Ümummilli liderin Azərbaycan diasporu ilə bağlı ideyalarının həyata keçməsi sonralar Prezident İlham Əliyevin də başlıca vəzifələrindən birinə çevrildi. 2006-cı ilin mart ayında Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi. Bu forumda ulu öndərin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlıları ilə kifayətlənməmək, Azərbaycan və Türk diasporlarının gücünü birləşdirərək məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmaq ideyası irəli sürüldü. Beləliklə, Ümummtürk Diasporu ideyasının əsası qoyuldu.

Azərbaycan Prezidenti dünya azərbaycanlılarına müraciətində qeyd etdi: “Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu, bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Biz yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan – Azərbaycan , Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipal mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsndə həllini tapmalıdır. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyər kimi hər birimizin düşüncəsinə hakim kəsilməlidir”.

Hazırda azərbaycançılıq konseptual ideya kimi dövlətçiliyimizin əsaslarından biridir. Dünya azərbaycanlıları bu ideya ətrafında daha sıx, məqsədli şəkildə birləşməklə daha böyük gələcəyə yön alacaq.

**“Xalq qəzeti”.-2013.-2 noyabr.-№ 242.-S. 8.**

**“Odlar Yurdu” Cəmiyyətinin təşkilatçılığı ilə Rotterdam şəhərində yerləşən “Bakı” restoranında “9 noyabr- Azərbaycan Respublikasının Dövlət Bayrağı günü” münasibətilə tədbir keçirilmişdir**

Noyabrın 2-də Niderland Krallığında fəaliyyət göstərən “Odlar Yurdu” Cəmiyyətinin təşkilatçılığı ilə Rotterdam şəhərində yerləşən “Bakı” restoranında “9 noyabr- Azərbaycan Respublikasının Dövlət Bayrağı günü” münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin nümayəndələri, “Ana Vətən” Niderland Azərbaycanlı Qadınlar Birliyi və Niderland Azərbaycan-Türk Kültür dərnəyinin üzvləri, “Medikal Park”-ın həkimləri, Hollandiya, Belçika və Almaniyada yaşayan soydaşlarımızla yanaşı, hollandiyalılar da iştirak etmişdir.

“Odlar Yurdu” Cəmiyyətinin rəhbəri Firəngiz Bağırova tədbir iştirakçılarını salamlayaraq Dövlət Bayrağının yaranma və təşəkkül tarixi barədə qonaqlara ətraflı məlumat vermişdir. “Sovet Hakimiyyəti dövründə Azərbaycanda bu bayraqdan imtina edilməsinə baxmayaraq 1990-cı ilin 17 noyabr tarixində Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmişdir”- deyə Firəngiz Bağırova öz çıxışında vurğulamışdır.

Daha sonra 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının qəbul olunduğunu və üçrəngli bayrağımızın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi yenidən dalğalanmağa başladığını qeyd etmişdir. O, həmçinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda Dövlət Bayrağı Gününün elan edilməsi barədə Sərəncamına əsasən hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edildiyini də tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Çıxışlardan sonra tədbir konsert proqramı ilə davam etmişdir. Tədbirdə Hollandiyada yaşayan və fəaliyyət göstərən müğənni Elxan Rzayev və Firəngiz Bağırova klassik və müasir Azərbaycan musiqilərini ifa etmişlər.

**05 noyabr 2013**

**Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) icraçı direktoru Adil Bağırov ABŞ-ın Ohayo ştatının Deyton şəhərində Deyton Dövlət Məktəbləri Təhsil Şurasına üzv seçilmişdir**

ABŞ-ın Ohayo ştatının Deyton şəhərində Deyton Dövlət Məktəbləri Təhsil Şurasına üzvlüyə keçirilmiş seçkilərə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) icraçı direktoru Adil Bağırov öz namizədliyini irəli sürmüşdür. 5 noyabr tarixində yekunlaşan səsvermədə Adil Bağırov və digər 3 namizəd seçkilərdə qalib gələrək növbəti 4 illiyə Təhsil Şurasına üzv seçilmişlər. Şuraya namizədliyini irəli sürmüş 5 nəfər içərisində həmyerliyimiz 6,728 səs çoxluğu ilə qalib gəlmişdir.

Qeyd edək ki, Deyton Dövlət Məktəbləri Təhsil Şurası 1831-ci ildən fəaliyyət göstərir. Şuraya ilk seçkilər 1855-ci ildə keçirilmişdir. Şura 7 üzvdən ibarətdir və hər 4 ildən bir yeni üzvlər seçilir. Şuranın yaradılmasında məqsəd ictimaiyyət nümayəndələrinin və vətəndaşların təhsil prosesində fəal iştirakının təmin olunmasıdır. Hazırda 15313 tələbə burada təhsil alır.

**05 noyabr 2013**

**Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu**

Ukrayna da postsovet məkanında Azərbaycan diasporunun fəal olduğu ölkələrdən hesab edilir. Ukraynaya azərbaycanlıların mühacirəti XIX əsrin sonu – XX əsrin əvvəllərində başlayıb. XX əsrin əvvəllərindən buraya təhsil almağa gələn azərbaycanlı tələbələr ictimai fəallıq göstərməyə başlayıblar. Onların fəallığı sayəsində paytaxt Kiyev şəhərində Azərbaycan Milli Mədəniyyət Mərkəzi yaranmış və burada yığılan azərbaycanlılar Azərbaycan mədəniyyəti, poeziyası, ədəbiyyatı barəsində müzakirələr aparmışlar. Kiyevdən başqa, digər böyük şəhərlər - Xarkov və Lvovda da azərbaycanlı gənclər təhsil aldıqları müəssisələrdə eyni istiqamətdə iş aparırdılar.

Ukraynada 1917-1918-ci illərdə tanınmış yazıçı Tağı Şah bazi Simurq Xorvak şəhərində məskunlaşaraq "Cənub səsi" adlı qəzet nəşr etmişdir. Ukraynada 1920-ci ildə bolşevik işğalına məruz qalandan sonra Azərbaycan-Ukrayna münasibətlərində xeyli irəliləyişlər yarandı. O, dövrdə Ukrayna-Azərbaycan arasında, eyni zamanda, tələbə-mütəxəssis mübadiləsi də aparılırdı. Müxtəlif sahələr üzrə mütəxəssis hesab olunan yüzlərlə azərbaycanlı Ukraynaya köçərək buranı özlərinə daimi yaşayış məskəni seçirdilər. Bunun nəticəsində Kiyev, Xarkov, Odessa, Lvov, Krım şəhərlərində və Valın, Vinnitso, Dnepropetrovsk, Donetsk, Zakarpatye, Zaparodce, Jitomir, İvano-Frankovsk, Kirovoqrad, Nikolayev, Poltava, Rovina, Ternopol, Suşk, Xerson, Xmelnitski, Cerkask, Cerniqo, Cernovisti vilayətlərində soydaşlarımız məskunlaşırlar. Məskunlaşdığı şəhər və vilayətlərin ictimai işində fəallıq göstərən azərbaycanlılar Ukrayna dövlət idarələrində də irəli çəkilməyə başlayırlar. 1991-ci ildə Sovetlər Birliyinin dağılmasından sonra müstəqillik əldə edən Ukrayna və Azərbaycan arasında ikitərəfli diplomatik münasibətlər quruldu. Artıq beynəlxalq birliyin bərabər hüquqlu üzvü olan Ukrayna və Azərbaycan bütün sahələr üzrə münasibətləri inkişaf etdirirlər.

Hazırda Ukraynada 500 min azərbaycanlı yaşayır. Bu şəxslər ötən əsrin əvvəllərindən ta bu günə qədər davam edən intensiv mühacirət nəticəsində buraya gələnlərdir. 500 min azərbaycanlının bir-biri ilə əlaqə saxlaması və ictimai fəaliyyəti bəzi ölkələrdəki azərbaycanlıların fəaliyyətindən nisbətən daha fəaldır. Bu ölkədə onlarla Azərbaycan diaspor təşkilatı, mədəniyyət mərkəzi, kütləvi informasiya vasitəsi olmaqla yanaşı, ana dilimiz həm Ukrayna ali məktəblərində, həm də Azərbaycan dilli “Həftə sonu” məktəblərində tədris edilir. Azərbaycan folklor ansambllarının yaradılması isə Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edir. Hazırda Ukraynada çoxsaylı Azərbaycan diaspor təşkilatları və milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Onlardan ən böyüyü bir çox regional diaspor təşkilatlarını ətrafında birləşdirən Ukrayna azərbaycanlıları Konqresidir.

Müstəqillik illərində Ukraynada Azərbaycan diasporunun formalaşması və ictimai qüvvəyə çevrilməsində ümummilli lider Heydər Əliyevin xüsusi xidməti olub. Məhz Heydər Əliyevin tapşırığı və xüsusi diqqəti sayəsində Ukraynada Azərbaycan diasporu təşkilatlanmış və inkişaf yolu tutmuşdu. 1997-ci ildə Ukraynaya rəsmi səfər edən Prezident Heydər Əliyev burada yaşayan azərbaycanlılarla görüşdə deyirdi: "Harda yaşamasından asılı olmayaraq heç bir azərbaycanlı öz Vətənini, ulu babalarını, dilini unutmamalıdır. Harda yaşayırsansa yaşa, yaxşı da, pis də yaşasan, gərək ürəyin öz vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin vətənin nəbzi ilə vursun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır. O cümlədən, respublikamızdan kənarda, Ukraynada yaşayan azərbaycanlılarda da olmalıdır."

Azərbaycan və Ukrayna münasibətlərinin dostluq və qarşılıqlı etimad əsasında inkişafında Ukraynadakı Azərbaycan icması fəal iştirak edir. Ukrayna Prezidenti cənab Viktor Yanukoviçin 28 aprel 2011-ci ildə Azərbaycan Respublikasına rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Diasporlarımız ölkələrimizi, xalqlarımızı birləşdirən təbii körpüdür. Mənə çox xoşdur ki, həm Azərbaycanda yaşayan ukraynalılar, həm də Ukraynada yaşayan azərbaycanlılar özlərini rahat, inamlı, öz evlərindəki kimi hiss edir, öz dövlətlərində bir ailə kimi yaşayır, eyni zamanda, Ukrayna ilə Azərbaycan arasında münasibətlərin, indi olduğu kimi, fəal inkişaf etməsinə çalışırlar.” Ukraynada yaşayan bir neçə yüz minlik Azərbaycan diasporu bu gün də ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayır.

Ukraynada son illərdə diaspor təşkilatları arasında baş verən ziddiyyətlər bir sıra adekvat addımların atılmasını zəruri edib ki, belə tədbirlərdən biri də Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun yaradılmasıdır. Müəyyən mənada Ukraynadakı diaspor təşkilatları arasında yaranan gərginlik və ziddiyyətləri aradan qaldırmağa nail olan qurum qarşıdakı müddətdə də əsas diqqəti birlik və həmrəyliyin təmin olunmasına yönəltməyi nəzərdə tutub. Elə bir müddət əvvəl paytaxt Kiyevdə “Prezident” mehmanxanasında Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun II Forumunun keçirilməsi və forumda qəbul edilən mühüm qərarlar da belə deməyə əsas verir. Belə ki, Azərbaycan Respublikasının Ukraynadakı Səfirliyinin dəstəyi ilə “Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporu” (UABD) Ümumukrayna ictimai təşkilatı tərəfindən keçirilən tədbir “Ukraynada Azərbaycan Diasporunun inkişaf perspektivləri” mövzusuna həsr edilib.

Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov tədbiri giriş sözü ilə açaraq rəhbərlik etdiyi təşkilatın 2012-ci ilin iyun ayında Ukrayna Azərbaycanlıları diasporunun I Forumundan sonrakı müddətdə keçirdiyi çoxsaylı tədbirlər haqqında məlumat verib, rəhbərlik etdiyi qurumun taktiki və strateji planları, o cümlədən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə birlikdə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizlə telekörpülər təşkil edilməsi barədə danışıb. UABD rəhbəri Ukrayna Azərbaycanlılarının bundan sonra da həmrəy olması, bir neçə təşkilatın vahid sağlam ictimai qüvvə şəklində birləşməsi məsələsinə daimi dəstək və hərtərəfli köməyə görə Azərbaycanın Ukraynadakı Səfirliyinə və Səfir Eynulla Mədətliyə təşəkkürünü bildirib.

Sonra Səfir Eynulla Mədətli çıxış edib. O, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun və onun sədrinin fəaliyyətini müsbət qiymətləndirərək Hikmət Cavadova işində yeni uğurlar arzulayıb. Səfir həmvətənlərimizin təşkilatları arasında nəzərə çarpan fəallığı və sağlam rəqabəti, onların birləşməyə yönəlmiş müxtəlif tədbirlər keçirmələrini vurğulayıb. Eynulla Mədətli diasporun indiyə qədər keçirdiyi forumları xatırladaraq, Dünya Azərbaycanlıları Konqresi (DAK) tərəfindən Donetskdə və Sumı vilayətində, “Azərbaycançılıq İnstitutu” tərəfindən Kiyevdə keçirilmiş forumları, habelə oktyabrın 5-də Ukrayna paytaxtındakı “Kiyevskaya Rus” mehmanxanasında formalaşma mərhələsində olan Ukrayna Azərbaycanlılarının Birləşmiş Konqresini nümunə göstərib. Səfir Azərbaycanın daxili və xarici siyasətdə möhtəşəm uğurları, cari ilin oktyabr ayının 1-dən etibarən ölkəmizin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasında sədrliyə başlaması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində vəziyyət məsələləri barədə ətraflı danışıb. Eynulla Mədətli çıxışının sonunda xalqımızın öz iradəsini demokratik, azad və şəffaf ifadə etməsi üçün Azərbaycanın diplomatik nümayəndəliyində hər cür şərait yaradıldığını vurğulayıb.

Ölkəmizin Ukraynadakı keçmiş səfiri Tələt Əliyev, Ukrayna Azərbaycanlıları Konqresinin keçmiş sədri İlqar Abbasov, Nikolayev vilayətindəki Azərbaycan Diasporunun liderlərindən biri olan Ələddin Məhərrəmov və başqaları Ukraynadakı həmvətənlərimizin daha sıx birləşməsi, tarixi vətənlə əlaqələrin möhkəmləndirməsi mövzusunu davam etdirərək hamını öz vətəndaş borcunu yerinə yetirməyə çağırıblar. Məşhur ukraynalı siyasətçi, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun tərkib hissəsi olan Ukrayna Türk Xalqları Konqresinin rəhbəri Yuri Zbitnev etnik azərbaycanlıların ictimai fəallığını yüksək qiymətləndirərək əmin olduğunu bildirib ki, bu insanlar yaşadıqları ölkənin böyük siyasətində, Ukrayna hakimiyyət orqanlarının bütün şaxələrində sanballı mövqelər tutacaqlar.

Sonra hüquq elmləri doktoru, Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq hüquq kafedrasının professoru, Ukraynanın əməkdar təhsil işçisi Arif Quliyev Azərbaycan diasporunun Ağsaqqallar Şurası və Alimlər Şurası kimi ictimai təşkilatlarının yaradılmasını, sahibkar Murad Cəfərov, tanınmış hüquq müdafiəçisi Eduard Bağırov, Kiyevdəki bir sıra ali məktəblərin müəllimi, dosent Fərhad Turanlı öz profillərinə uyğun strukturlar yaradılmasını təklif ediblər. Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin sədri, Ukraynanın xalq artisti Qurban Abbasov Ukrayna Azərbaycanlılar Diasporunun I Forumundan sonra keçirilmiş çoxsaylı mədəni tədbirlər haqqında danışıb. Xarkov vilayətində həmvətənlərimizin liderlərindən Fəxrəddin İsmayılov, diaspor sahəsində qadın hərəkatının fəal üzvü Mətanət Rzayeva, Dnepropetrovsk Vilayəti Azərbaycanlıları Liqasının nümayəndəsi Eldar Tağıyev, Odessa vilayətindəki Gənclər Təşkilatının fəal üzvü Elsevər Paşayev və başqaları Ukraynada Azərbaycan diasporunun inkişaf perspektivləri barədə fikirlərinin bölüşüblər. Çıxışlardan sonra Azərbaycan diasporunun tanınmış nümayəndələrinə Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun fəxri mükafatları təqdim edilib.

**“Olaylar”.-2013.- 8 noyabr.-№ 202.-S.15.**

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Portuqaliyanın sabiq prezidenti Jorge Sampaionun Qlobal Platforması arasında əməkdaşlıq memorandumu imzalanmışdır**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Portuqaliyanın sabiq prezidenti Jorge Sampaionun Qlobal Platforması arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

Memorandum əsasında hər iki təşkilat arasında əməkdaşlığın genişləndirilməsi və dünyada təhsilin inkişaf etdirilməsi istiqamətində birgə layihələrin reallaşdırılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, sabiq prezident Jorge Sampaio Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəvətini qəbul edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə üzv olmuşdur. Qeyd edək ki, dünyanın 25-dən çox nüfuzlu sabiq ölkə rəhbərləri və tanınmış ictimai xadimləri Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvüdür. Dahi Azərbaycan şairi Nizami Gəncəvi irsini daim təbliğ edən mərkəz qısa müddətdə dialoq, tolerantlıq və qarşılıqlı anlaşmanın müzakirə olunduğu nüfuzlu beynəlxalq platform kimi özünü təsdiq etmişdir.

**15 noyabr 2013**

## Diasporçuluqda ilk məsələ təşkilatçılıqdır

Tarixən başı bəlalı Azərbaycan türkləri zorla, işgəncə ilə torpaqlarını tərk edib, nə qədər ağır olsa da, xaricdə yaşamağa üz tutublar. Xaricdə yaşayan soydaşlarımız uzun illər boyu vətən həsrəti çəkib, el-oba, doğmaları haqqında məlumat almaq üçün min cür əzab-əziyyətlərə qatlaşıblar. Minlərlə soydaşlarımız qürbət ellərdə, öz yurduna, obasına, doğmalarına qovuşmadan ömürlərini başa vurublar. Sovet totalitar rejimi onların qarşısında alınmaz qala rolunu oynayıb. Onların vətənlə əlaqələri olmadığından çoxlu çətinliklərlə üzləşib, ağır mənəvi məhrumiyyətlərə düçar olublar.

"Diaspor və Lobbi" Elmi Araşdırmalar Mərkəzinin direktoru Zaur Əliyev deyir ki, diaspora mədəniyyət obyekti kimi deyil, qlobal faktor kimi baxmaq lazımdır. Onun sözlərinə görə, 3 kateqoriya diaspor fəaliyyət göstərir ki, bu sıraya dünyəvi proseslərə təsir göstərən – dünyəvi (çin, yəhudi, erməni), region (Cənub-Şərqi Asiyadakı hindlilər, Afrika) və nəhayət, dövlətlərin ikitərəfli münasibətlərində böyük rol oynayan sərhədyanı azlıq- Danimarka ilə sərhəd Almaniyada yaşayan danimarkalılar, Rusiya və Azərbaycanla sərhəddə yaşayan ləzgilər aid edilə bilər. Mərkəz rəhbərinin qənaətincə yuxarıda sadalanan üç kateqoriya ilə diferensial şəkildə işləmək lazımdır: "Beləliklə, diasporçuluqda ilk məsələ təşkilatçılıqdır. Ikinci- elmidir. Yəni, ictimai fikrin formalaşması üçün optimal siyasət və qaydalar işləyib hazırlamaqdan ibarətdir. Üçüncü – diaspor birliklərinin (təşkilatlarının) liderlərində siyasi mədəniyyətin olmasıdır. Sadalanan prinsiplər daim diqqət mərkəzində olarsa, onda effektli nəticə əldə olunacaq". Zaur Əliyev bildirib ki, bu gün diasporun potensialını milli maraqların müdafiəsi və dövlətlərarası münasibətlərin inkişafında istifadə etmək dövlətlərin müraciət etdiyi modellərdən biridir: "Bu modeli geniş istifadə edərək Çin, Yaponiya, Macarıstan çox gözəl işləyir. Yeni, gənc misal isə Hindistandır. Xatırladaq ki, Braziliya artıq bu konsepsiyanı qəbul edib. Bu üç modelin hər biri mövcuddur, ancaq tendensiya əsasən üçüncünün xeyrinə inkişaf edir. Hər yerdə iş dəqiq hesablanıbdır. Çində dövlət kargüzarlığında ictimai təşkilat və fondları istiqamətləndirən xüsusi struktur vardır. Macarıstanın Xarici İşlər Nazirliyində böyük departament, Azərbaycanda diasporla işləyən komitə vardır. Belə demək mümkünsə dünyanın əksər inkişaf etmiş ölkələrində bu sahə prioritet sayılır". Mərkəz rəhbərinin sözlərinə görə, ancaq təkcə dövlət orqanları deyil, həm də qeyri-hökumət sektorunu bu istiqamətə yönəltmək vacibdir: "Bununla yanaşı kağızlar üzərində deyil əməli iş görülməlidir. Bir çox ölkələrin, xüsusən də anqlo-sakson hüquq sisteminin mövcud olduğu ölkələrdə Qeyri hökumət və qeyri kommersiya təşkilatlarının dəqiq müəyyən olunmuş hüquqi anlayışı yoxdur.

Belə hüquqi müəyyənləşmənin olmaması həmçinin kontinental hüquq sisteminə malik olan bəzi ölkələrdə də yoxdur. Bu baxımdan müxtəlif ölkələrdə bizdə QHT adlanan təsisatlar "qeyri kommersiya assosiasiyaları", "fond", "könüllü təşkilatlar", "xeyriyyə təşkilatları", "Gəlirsiz təşkilatlar" və s. adlandırılırlar. Bu adlar ya daxili qanunvericilik aktları ilə, ya da həmin ölkələrdə təşəkkül tapmış praktika əsasında bu cür adlandırılırlar. Fikrimizcə Non-governmental organization (NGO) – Qeyri-Hökumət Təşkilatı kimi tərcümə edilən termin bir çox ölkələrin qanunvericiliyində, həmçinin beynəlxalq praktikada ümumiləşdirici ad kimi istifadə olunur. Müasir qloballaşan dünyamızda vətəndaş cəmiyyət təşkilatları kimi qəbul olunan Qeyri Hökumət Təşkilatları ölkə rəhbərliyindəki məsuliyyətlərin xalqla paylaşma vasitəsidir. Üçüncü sektor adını daşıyan bu təşkilatlar hökumət və biznes sferasına aid olmamaqla cəmiyyətdə fərqli və müstəqil rola malikdirlər". Zaur Əliyev deyir ki, yaşadığımız əsrdə prioritet sayılan, daim gündəmdə yer alan diaspor fəaliyyəti dünyanın hər yerində aktual məsələyə çevrilib: "Diaspor vətəndən kənarda yaşayan hər bir xalqın milli ordusudur. İstər Şərq-Qərb, istərsə də okeanın o tayı Amerikada, bu sahə üzrə fəaliyyət göstərən instansiyalar, istər dövlət, istərsə də qeyri-hökumət orqanları diasporlarla bu istiqamətdə işləyirlər. Diaspor yaşadığımız dünyada hətta beynəlxalq münasibətlərdə əməkdaşlığın bir hissəsi hesab olunur. Bu artıq xüsusi dövlət proqramı kimi qəbul olunur. Bu proqramda diaspor, əsasən başqa ölkədə mədəniyyət və informasiya, eyni zamanda beynəlxalq münaqişələrin həlli faktoru kimi böyük diqqət yetirilir". Zaur Əliyev onu da vurğulayır ki, bu gün dünyanın bütün bölgələrinə səpələnərək 50 milyonluq azərbaycanlı adını daşıyan soydaşlarımızın birlik, həmrəylik anlayışlarında ciddi problemlər var: "Diaspordaxili ziddiyyətlər, qarşılıqlı anlaşmazlıq, liderlik uğrunda mübarizə və digər problemlər azərbaycanlıların vahid bir mərkəzə çevrilməsində əngəlliklər yaradır. Bu problemlərin kökündə isə maarifçilik və əməkdaşlıq qurulması ilə bağlı istəklərin zəif olması durur. Azərbaycanda reallıq budur ki, hələ də xaricdəki diaspor qurumları ilə ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları arasında əlaqə çox zəifdir. Qeyd edək ki, nəzəri baxımdan hər ikisinin məqsədi Azərbaycanın dünya miqyasında təntənəsinə nail olmaq olsa da, onların bu prosesdə birgə fəaliyyəti hiss olunmur. Erməni diasporu öz ölkəsinin QHT-lərini maliyyələşdirir və bu yolla öz millət və dövlətlərinə aid olan bir sıra layihələrin gerçəkləşməsinə töhfələrini verir. Amma xaricdəki Azərbaycan diaspor təşkilatları bu işdə elə də fəal deyil. Nəinki fəal deyil, ümumiyyətlə onların ölkə QHT-ləri ilə əlaqələri çox aşağı səviyyədədir. Bu gün Azərbaycan diasporu müxtəlif ölkələrdə məskunlaşmışdır.

Diasporun məskunlaşdığı ölkələr əsasən Azərbaycandan fərqli olaraq demokratik idarəçilik sisteminə malik, insan haqlarına sayğı ilə yanaşan, hüquqi dövlətlərdir. Uzun illər mühacirət həyatı yaşaması soydaşlarımızın mənsub olduğu ölkələrin həyat tərzini, qanunçuluğunu mənimsəməsinə, ab-havasına uyğunlaşmasına şərait yaratmışdır. Ona görə də bu dövlətlərdə yaşayan, bir çoxları onun vətəndaşı olan Azərbaycan diasporunu təmsil edən insanları milli prorblemlərimizin həlli məsələlərinə cəlb edərkən fərqli yanaşma tərzi, plüralizm, demokratik prinsiplər nəzərə alınmalıdır. Bu prinsiplərin müəyyən edilərək icra olunmasında isə vətəndaş cəmiyyətinin siması olan Qeyri Hökumət Təşkilatları ola bilər. Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının Maddə III maddəsində azərbaycançılıq ideyasının təşviq olunması və Azərbaycanın dünya birliyinə inteqrasiya olunması əsas fəaliyyət kimi göstərilir". Mərkəz rəhbəri deyir ki, ölkənin hüdudlarından kənarda Azərbaycanın mədəni təsirini dəstəkləməyə qabil olan üç sahə məlumdur ki, bunlardan birincisi çoxsaylı Azərbaycan diasporunun özüdür: "Burada bir neçə mədəniyyət və informasiya istiqamətini fərqləndirmək lazımdır. Əvvəla, öz mədəni irsinə biganə qalmayan hər hansı ölkə kimi Azərbaycan da diasporun özündə ana dilinin öyrənilməsinə kömək etməyə yönəlmiş təşəbbüsləri dəstəkləməyə çalışır.

Doğma Vətənlə əlaqə saxlamaq hər bir milli diaspora münasibətdə istənilən dövlət üçün ənənəvi vəzifədir. Diasporda olan gənclərlə iş isə öz məntiqinə görə gec-tez inkişaf edərək konstruktiv vətəndaş fəallığına çevriləcək, yalnız bu əsasda həmin iş uğurlu ola bilər. Azərbaycanın bir çox gənclərlə işləyən QHT-ləri də məhz özünün güclü təşkilati resurslarından istifadə etməklə gənclərə bu cür təkan vermək, onlardan əsl vətəndaşlar yetişdirmək, müsbət həyat mövqeyi, real işlər görmək üçün əsl vətəndaş istəyi formalaşdırmaq, onları dünyanı yaxşılığa doğru dəyişməyi bacaracaqlarına inandırmaq əzmindədir". Zaur Əliyevin bildirir ki, son 10 ildə dünyada azərbaycançılığın təbliği, ermənilərin zaman-zaman yanlış informasiyaları nəticəsində yaranmış rəyin dağıdılması istiqamətində dövlət tərəfindən ardıcıl və birbaşa hədəflərə hesablanmış iş aparılır: "Azərbaycan üçün vacib olan bu işdə dövlətlə yanaşı, vətəndaş cəmiyyəti də mühüm rol oynayır. Bunu həyata keçirilən işlərə nəzər yetirdikdə görmək olur. Vətəndaş cəmiyyətini təşkil edən qeyri-hökumət təşkilatlarının Azərbaycanın təbliği, Qarabağ həqiqətlərinin yayılması istiqamətində gördükləri işlər isə Heydər Əliyev Fondu ilə yanaşı Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maddi və mənəvi dəstəyi sayəsində baş verib. Müasir beynəlxalq münasibətlərdə isə söz sahibi olmaq üçün diaspora quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəylini təmin etmək lazımdır. Bunu üçün isə mütləq "dövlət-QHT-lər, dövlət- diaspora təşkilatları və dövlət – beynəlxalq təşkilatlar " üçbucağı çərçivəsində çalışmaq lazımdır. Ancaq burada bəzi nöqsanlara rast gələ bilərik.

Bu Diasporla İş üzrə Dövlət Komitəsinin yerli QHT-lərlə əməkdaşlıqdan çəkinməsidir. Bu isə vətəndaş cəmiyyəti-diaspor münasibətlərinin tənzimlənməsi prosesini ləngidir. Fikrimizi əsaslandırmaq üçün qeyd etmək olar ki, QHT Şurasından fərqli olaraq Komitə yerli QHT-lər üçün qrant proqramları elan etmir. Beləliklə, Azərbaycanın üzləşdiyi böyük problemlərin beynəlxalq səviyyədə həll olunması və dünyanın bir çox dövlətləri, xüsusi ilə Qərb ölkələri ilə sıx əməkdaşlıq və perspektivdə müttəfiqlik münasibətlərinin qurulması yolunda kifayət qədər nəhəng bir qüvvə olan diasporumuzdan yüksək səviyyədə istifadə edilərək onun Azərbaycan dövləti faktoruna doğru yönəldilməsi vacibdir. Beynəlxalq təcrübəyə əsaslanaraq biz bu istiqamtə bir neçə təklif irəli sürmək istərdik. Bu təkliflərin icra edilməsi diaspor-QHT münasibətlərini tənzimləyə və birgə əməkdaşlığa təkan verə bilər: Birincisi, Diaspor-Milli Fondu yaradılması. Hesab edirik ki, bu Fond hər iki tərəfə maddi və mənəvi dəstək ola bilər. Həmçinin QHT- lərin xaricdəki təşkilatlarla əməkdaşlıq memorandumun imzalanması ikitərəfli iş istiqamətlərini müəyyən edə bilər. Bundan başqa diaspor və QHT əməkdaşlıq Xartiyası hazırlana bilər".

**"Olaylar".-2013.-15 noyabr.-№ 206.-S.15.**

## Bolqarıstanda diaspor təşkilatları

Avropa məkanında Azərbaycan diaspor təşkilatlarının fəaliyyət göstərdiyi ölkələrdən biri də Bolqarıstandır. Almaniya kimi bu ölkədə türklərin çox olmasına baxmayaraq Azərbaycan diasporu o qədər də aktiv deyil. Bu ölkədə yalnız məhdud sayda Azərbaycan diasporu fəaliyyət göstərir ki, onların da kifayət qədər aktivliyi müşahidə edilmir. Ümumiyyətlə, bu ölkədə yaşayan soydaşlarımızın tərkibinə və onların bolqar cəmiyyətindəki mövqeyinə nəzərə salsaq görərik ki, Bolqarıstan azərbaycanlıları bu ölkədə yaşayan etnik qruplardan biridir. Azərbaycanlılar bir qayda olaraq rəsmi siyahıyaalınma zamanı sadəcə türk olaraq qeydə alınır və Türkiyə türklərinin tərkibində hesablanırlar. Bolqarıstanda yaşayan həmvətənlərimizin dilləri Azərbaycan dilinin Qars ləhcəsi olsa da, təhsillərini bolqar və Türkiyə türkcəsində alırlar. Bu ölkədəki azərbaycanlıların müəyyən bir hissəsi şiə qızılbaşdırlar. Dünya Azərbaycanlıları Konqresinin-DAK-bütün dünyada yaşayan azərbaycanlıların sayına dair 2006-cı ildə yayınladığı məlumatlara əsasən isə, Bolqarıstanda 65,000 nəfər etnik azərbaycanlı yaşamaqdadır. 2001-ci ildə aparılmış rəsmi əhali siyahıyaalınmasına əsasən Bolqarıstan Respublikasının ümumi əhalisi 7 milyon 928 min 901 nəfər təşkil edib. Onlardan: dini inancına əsasən müsəlmanların ümumi sayı 966,978 nəfərdir. Bolqarıstanda yaşayan müsəlmanların 913,957 nəfəri sünni, 53,021 nəfəri isə qızılbaş-şiədir. Bu ölkədə öz milliyyətini türk olaraq qeyd edənlərin sayı 746,664 nəfər təşkil edir ki, onlardan: Ana dilini türkcə olaraq qeyd edənlərin ümumi sayı isə 720,136 nəfərdir. Bu sırada bolqarca olaraq qeyd edənlərin ümumi sayı 26,147 nəfərə çatıb. 2001-2011-ci illər arası yəni son iki siyahıyaalınma tarixləri arası zaman intervalında 131,539 nəfər Bolqarıstan sakini daimi yaşamaq üçün ölkəni tərk edərək digər ölkələrə köç etmişdir.

**Bolqarıstanda Azərbaycan diaspor təşkilatları-**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatlarında da qeyd olunur ki, Bolqarıstanda azərbaycanlılara aid diaspora təşkilatlarının sayı məhduddur. Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytında Bolqarıstanda yalnız 3 diaspor təşkilatının fəaliyyət göstərdiyi əksini tapır. Burada maraqlı məqamlardan biri isə ondan ibarətdir ki, bu ölkədəki 3 diaspor təşkilatının hər üçü eyni adla-Bolqarıstan Azərbaycan Dostluq Cəmiyyəti adı altında fəaliyyət göstərir. Bir neçə təşkilatın eyni ad altında fəaliyyət göstərməsinin nə dərəcədə doğru olub-olmadığını isə yəqin ki, bu sahəyə cavabdeh olan müvafiq qurumlar daha yaxşı bilər.

**Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti-**2003-cü ildə yaradılıb. Cəmiyyət əsasən ölkənin Blaqoevqrad şəhərində fəaliyyət göstərir. Balaqardaş Sultanovun sədrlik etdiyi təşkilatın əsas məqsəd və vəzifəsi Azərbaycanla Bolqarıstan arasında dostluq əlaqələrinin inkişaf etdirilməsidir. Fəaliyyət göstərdiyi 10 il ərzində cəmiyyət sözügedən istiqamətdə bir sıra uğurlu addımlar atıb. Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi və Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması prosesində də fəal iştirak edir.

**Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti**-2004-cü ildə Bloqoevqrad şəhərində təsis edilib. Cəmiyyət sözügedən şəhərdə yerləşən Amerika Universitetində təhsil alan azərbaycanlı tələbələr tərəfindən yaradılıb. Təşkilatın daimi sədri olmur. Hər üç aydan bir qurumun toplantısı keçirilir və cəmiyyətə yeni sədr seçilir. Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti əsasən bolqar tələbələrlə azərbaycanlı tələbələr arasında münasibətlərin inkişaf etdirilməsi, hər iki ölkənin təhsil ocaqları arasında əlaqələrin qurulması istiqamətində çalışır. Bundan başqa cəmiyyət mütəmadi olaraq Bloqoevqrad şəhərindəki Amerika Universitetində Azərbaycanla bağlı tədbirlər təşkil edir, ölkəmizin həqiqətlərini həmin təhsil ocağında oxuyan xarici ölkələrin gənclərinə çatdırır. Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyətinə təkcə bu ölkədə təhsil alan azərbaycanlı tələbələr deyil, eləcə də bolqar gənclər də üzvdürlər.

**Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti-** 2005-ci il, iyul ayının 5-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Bolqarıstan-Azərbaycan dostluq cəmiyyəti yaradılıb. Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti də Bakı ilə Sofiya arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinə öz töhfəsini vermək üçün təsis edilib. Cəmiyyət Azərbaycan tarixində olan əlamətdar günlər, eləcə də 20 Yanvar, Xocalı soyqırımı kimi tarixləri hər il qeyd edir. Müsbət dəyərləndirilməli olan məqamlardan biri ondan ibarətdir ki, Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyətinə sədrliyi əslən Bolqarıstandan olan N. Petev edir. Həmçinin **Bolqarıstanın Yazıçılar Birliyinin sədri** vəzifəsini cira edən N. Petev iki ölkənin şair və yazıçıları arasında əlaqələrin inkişaf etdirilməsinə də maraq göstərir. Fəaliyyət göstərdiyi 8 il ərzində Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti bu ölkənin bir sıra rəsmi və qeyri-rəsmi qurumları ilə də normal əməkdaşlıq mühiti yaradılıb. Məhz yaradılmış qarşılıqlı münasibətlər Azərbaycanın Bolqarıstanda daha yaxından tanınmasına yardımçı olub.

**“Olaylar”.-2013.-16-18 noyabr.-№ 207.-S.15.**

**Berlində 17 noyabr - Milli Dirçəliş gününə həsr edilmiş "Əlimərdan bəy Topçubaşov – publisist, siyasətçi, diplomat" mövzusunda elmi seminar keçirilmişdir**

2013- cü il noyabrın 18-də Berlində 17 noyabr - Milli Dirçəliş gününə həsr edilmiş "Əlimərdan bəy Topçubaşov – publisist, siyasətçi, diplomat" mövzusunda elmi seminar keçirilmişdir. Elmi seminar Humbold Universitetində fəaliyyət göstərən Azərbaycan tarixi kafedrası və Almaniyadakı Azərbaycanlıların Koodinasiya Mərkəzinin əməkdaşlığında gerçəkləşmişdir.

Elmi seminarı giriş sözü ilə açan Azərbaycan tarixi kafedrasının müdiri professor Eva-Maria Aux iştirakçılara Milli Dirçəliş günü haqqında danışmış və daha sonra Əlimərdan bəy Topçubaşov haqda geniş məlumat verərək qeyd etmişdir ki, Topçubaşov Azərbaycanın klassik ziyalılığını təcəssüm etdirən şəxsiyyətlərdən biridir. O, 1918-ci ilə qədər Rusiya İmperiyasında fəaliyyət göstərən "Müsəlmanlar Təşkilatı"nın yaradıcılarından və 1918-1920- ci illərdə mövcud olan Azərbaycan Demokratik Respublikasının qurucularındandır.

Çıxışdan sonra mövzu ətrafında müzakirələr aparılmışdır. Elmi seminarda Alman ictimaiyyətinin nümayəndələri ilə yanaşı, Berlin Humbold Universitetinin professor və tələbə heyəti, Azərbaycan və Türk diaspor nümayəndələri də iştirak etmişlər.

**18 noyabr 2013**

## Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi

Azərbaycan xalqı bütün tarixi boyu böyük sınaqlardan keçib. Tarixi Azərbaycan torpaqlarının şimal hissəsinin Rusiyaya birləşdirilməsindən sonrakı dövr ərzində, eləcə də bütün iyirminci əsr boyu belə sınaqlar daha çox olub. Əsrin əvvəllərində, hələ erməni dövlətinin mövcud olmadığı zamanlarda ilk erməni-azərbaycanlı ziddiyyətləri yaradılıb, xalqımız günahsız qurbanlar verib. 1918-ci ildə Azərbaycanın əzəli torpağı olan İrəvanda qondarma erməni dövləti yaradılıb, bu ərazinin azərbaycanlı - türk əhalisinə qarşı genişmiqyaslı soyqırım və etnik təmizləmə siyasəti aparılıb, türksüz Ermənistan formalaşdırılmasına başlanılıb. Ermənistanın böyük himayədarı Rusiya sonrakı illərdə də ermənilərlə birgə azərbaycanlılara qarşı milli diskriminasiya siyasəti aparıb. 1923-cü ildə yerli əhalinin iradəsinin ziddinə olaraq münbit torpağı və əlverişli təbii şəraiti olan Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Nəhayət, 1988-ci ildə özünün güclü himayədarlarına arxalanan Ermənistan yenidən Azərbaycandan torpaq qoparmaq iddiasına düşərək Dağlıq Qarabağda separatçı hərəkata başlayıb. Münaqişə genişlənərək müharibəyə çevrilib və Azərbaycan ərazilərinin 20 faizinin işğalı ilə nəticələnib. Amma bu, Azərbaycanın hələ yenicə müstəqillik qazandığı, özünün silahlı qüvvələrinin olmadığı bir dövrə təsadüf edib. Kəmfürsət düşmənlər məhz bu vəziyyətdən isitifadə edərək Azərbaycan torpaqlarını işğal edə biliblər.

Ancaq tarix iyirminci əsrdə Azərbaycana iki dəfə müstəqil dövlət qurmaq imkanı da yaradıb. Doğrudur, birinci dəfə - 1918-ci ildə binası qoyulan müstəqil Azərbaycan uzun müddət yaşaya bilməyib, 23 aydan sonra Rusiyanın işğalına məruz qalıb. Xalqımızın 1991-ci ildə qazandığı ikinci müstəqillik şansı isə olduqca müqəddəs bir nemət kimi qorunmaqdadır. Həqiqətdir ki, bu müstəqillik çox çəkmədən - 1993-cü ildə bir tərəfdən erməni təcavüzü, digər tərəfdən isə xarici qüvvələr tərəfindən qızışdırılan daxili qarşıdurmalar nəticəsində az qala itirilmək təhlükəsi ilə üzləşmişdi. Amma xalqımızın dahi oğlu, ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə ölkə böyük bir fəlakətdən xilas edildi.Azərbaycan müstəqilliyini qoruyub saxlaya bildi. Bu, şübhəsiz ki, Heydər Əliyevin milli maraqların konturlarını dəqiq cızan uzaqgörən siyasəti, şəxsi cəsarəti və müdrikliyi sayəsində mümkün oldu. Heydər Əliyevin xalq qarşısında ən böyük xidmətlərindən biri Azərbaycanın müstəqilliyini təhdid edən erməni təcavüzünü dayandırması, 1994-cü ilin mayında atəşkəs haqqında müqavilənin imzalanmasına nail olmasıdır. Məhz bundan sonra Prezident Heydər Əliyev Azərbaycanda ictimai-siyasi sabitliyin qurulub möhkəmləndirilməsinə, iqtisadi tərəqqi yaradılmasına və sosial-mədəni problemlərin həllinə başladı. Uzaqgörən siyasətçi bu illərdə Azərbaycanın taleyüklü problemlərinin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində milli birlik və həmrəyliyin böyük rol oynaya biləcəyini nəzərə alaraq dünyanın müxtəlif ölkələrinə səpələnmiş, bir-biri ilə lazımi əlaqələrə malik olmayan soydaşlarımızın milli dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında cəmləşdirilməsini vacib hesab etdi. Bu, həm də ona görə vacib idi ki, təxminən bir əsrlik təcrübəyə malik erməni diasporu bütün dünyada, əsasən də Qərb ölkələrində tarixi saxtalaşdıraraq sülhsevər Azərbaycan dövləti, eləcə də türk dünyası əleyhinə qarayaxma siyasəti aparırdı. Yenicə müstəqillik qazanmış, hələ daxili problemlərini belə yoluna qoymağa macal tapmamış Azərbaycan Respublikası ayrı-ayrı Avropa ölkələrində, ABŞ-da nüfuzdan salınır, erməni məkri hər şeyi özünün eybəcər rənginə boyayıb təqdim edirdi. Məhz bunun nəticəsi idi ki, 1992-ci ildə Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan ABŞ Konqresinin embarqosuna məruz qalmışdı. ABŞ Konqresi qəbul etdiyi "Azadlığa dəstək aktı"na 907-ci düzəliş əlavə edərək Azərbaycanı müstəqilliyin, azadlığın möhkəmləndirilməsi üçün ABŞ-ın maddi və mənəvi dəstəyindən məhrum etmişdi. Ulu öndər Ermənistanın təcavüzünə, erməni diasporunun təxribatlarına layiqincə cavab vermək üçün Azərbaycan diasporunun yaradılması ideyasını irəli sürür və səfər etdiyi xarici ölkələrdə mütləq azərbaycanlılarla görüşür, milli himrəylik, milli birlik naminə birləşmənin labüdlüyünü təbliğ edirdi. Əslində milli birliyin yaradılması məsələsi Heydər Əliyevi daim düşündürürdü. O, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən, 1991-ci il dekabrın 16-da imzaladığı fərmanla 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik və Milli Birlik günü elan etmişdi. Sonradan xalqın tələbi ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə gələn Heydər Əliyev bu ideyanı daha geniş şəkildə həyata keçirməyə başladı. Bu gün cəsarətlə demək olar ki, dünya azərbaycanlılarının həmrəyliyi, onların vahid təşkilatlar çərçivəsində cəmləşməsi və təşkilatlanaraq milli diaspora çevrilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev bu müqəddəs ideyanın gerçəkləşməsi naminə vaxtını və imkanlarını əsirgəməmiş, dünya azərbaycanlılarının ümummilli ideyalar, Azərbaycan dövlətçiliyi kimi müqəddəs qayə ətrafında sıx birləşməsi üçün hər şeyi etmişdi. Sonralar ümummilli lider 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününun dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır.

Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir". Heydər Əliyev dünya azərbaycanlılarının qarşısında duran vəzifələri dəqiq və aydın müəyyənləşdirirdi: onlar ilk növbədə öz milli kimliklərini dərk və hifz etməli, Azərbaycanın dilini, mədəniyyətini, mütərəqqi adət-ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidirlər. Dünyada yaşayan soydaşlarımız, eyni zamanda, ana Vətənlə əlaqələrini möhkəmləndirməli, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət daşımalı, Azərbaycanın ən böyük problemi olan Ermənistanın təcavüzü məsələsinin dünyada ədalətli mövqedən, obyektiv təbliği istiqamətində ardıcıl işlər görməlidirlər. Azərbaycan hökuməti də Vətənimizin get-gedə artan maddi və mənəvi potensialından, siyasi nüfuzundan bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir. Bu vəzifələrin uğurla icrasını təmin etmək üçün ulu öndər ilk növbədə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (sonradan Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması haqqında fərman verdi, 2001-ci ilin noyabrında isə Dünya Azərbaycanlılarının birinci qurultayını keçirdi. Bu tədbir xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması, ümummilli ideyalar ətrafında birləşməsi və təcavüzkar düşmənə qarşı mübarizəsinin təşkili baxımından böyük hadisə idi. Məhz bundan sonra dünya ölkələrində saxtakar erməni təbliğatına ilk sarsıdıcı zərbələr endirilməyə başlandı. Ümummilli liderin Azərbaycan diasporu ilə bağlı ideyalarının həyata keçirilməsi sonralar Prezident İlham Əliyevin də başlıca qayğılarından birinə çevrildi. Prezident ulu öndərin işini davam etdirərək ardıcıl və qətiyyətli addımlar atdı. 2006-cı ilin martında Dünya Azərbaycanlılarının ikinci qurultayı keçirildi. Bu tədbirdə Prezident İlham Əliyev Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməməyi, Azərbaycan və türk diasporlarının birləşərək amansız və məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmasını tövsiyə etdi. Məhz bu yeniləşən və zənginləşən diaspor siyasətinin nəticəsi idi ki, ikinci qurultayın dünya ictimaiyyətinə və dövlətlərinə müraciətində erməni təcavüzü və vəhşiliyinə layiqli qiymət verildi. Sənəddə deyilirdi: "1992-ci ilin fevralında azərbaycanlıların qədim tarixi məskənlərindən biri olan Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən mühasirəyə alınmış, qocalar, qadınlar və uşaqlar da daxil olmaqla min nəfərə yaxın insan xüsusi amansızlıq və işgəncələrlə qətlə yetirilmişdir. Xocalı soyqırımı daim özünü dünya xalşqlarına məzlum göstərməyə çalışan erməni millətçilərinin riyakarlığını, insanlıq və bəşəriyyət əleyhinə yönəlmiş mahiyyətini bir daha açıb göstərmişdir". Sonrakı mərhələdə Prezident İlham Əliyevin riyakar və saxta erməni siyasətinə qarşı müdafiə deyil, hücum mövqeyindən çıxış etmək siyasəti diaspor təşkilatlarımız tərəfindən də uğurla icra edilməyə başlandı. Bununla da 2003-cü ildən etibarən istər Azərbaycan diplomatiyası, istərsə də diaspor təşkilatlarımız ermənilərin yalançı təbliğatına bir-birinin ardınca ağır zərbələr endirməyə başladı. Bu sahədə dövlətmizin başçısı hələ Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri olarkən ciddi addımlar atmışdı. AŞPA-nın, demək olar ki, hər bir iclasında yeni bir erməni məkr və hiyləsinin üstü açılır, bu və ya digər erməni saxtakarlığına tutarlı cavab verilir, müvafiq qətnamə və qərar qəbul edilirdi. Sonradan erməni hiyləgərliyinin, Avropa xalqlarına yalan və böhtan dolu saxta tarix sırınması faktlarının ifşası İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyası və diasporunun bir nömrəli vəzifəsinə çevrildi. Bu uğurlu siyasət dünya ermənilərinin saxta "erməni soyqırımı" ilə bağlı iddialarının ayrı-ayrı ölkələrin, xüsusən də ABŞ-ın parlamentindən üzüqara şəkildə geri qayıtmasında da mühüm rol oynadı. Azərbaycan və türk diasporunun erməni uydurmalarına qarşı birgə mübarizəsi bu məsələdə də öz gücünü göstərmiş oldu. Birləşmiş diaspor təşkilatlarımızın ABŞ-da "erməni soyqırımı"nın müzakirəyə çıxarılmasına qarşı keçirdiyi birgə etiraz tədbirləri, şübhəsiz ki, təsirsiz ötüşmədi. Ulu öndər öyrədirdi ki, gücümüz birliyimizdədir. Birliyimiz, həmrəyliyimiz ən kəsərli silahımızdır. Azərbaycan torpaqları üzərində özlərinə oyuncaq dövlət yaradıb tarixi ərazilərimizə qarşı yeni iddialar irəli sürənlərə cavabı da bu silahla verəcəyik. Prezident İlham Əliyev dünya azərbaycanlılarına müraciətində qeyd edib: "Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu, bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Biz yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır... Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür.Ona görə də harada yaşamağımızdan asılı olmayaraq milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir."

**Paşa Əmircanov**, **"Xalq qəzeti".-2013.-19 noyabr.-№ 254.-S. 8.**

## Diaspordan lobbiçiliyə doğru

Son zamanlar poli-etnik cəmiyyətdə yaşayan milli azlıqlar arasında öz etnik mənsubiyyətinə, mədəniyyətinə maraq artıb, qrupdaxili inteqrasiya prosesləri güclənib. Bu proseslərin nəticəsi kimi bir çox hallarda müxtəlif etnik qruplar diasporlarda birləşiblər. Ekspert Ceyhun Mahmudov deyir ki, diaspora ilə əlaqədar elmi ədəbiyyatda iki mövqe vardır. Bir qrup tədqiqatçı bu anlayışı yunanlarla əlaqələndirsə də, başqa bir qrup isə onu yəhudilərlə əlaqələndirir:

"Linqvistik yöndən yanaşsaq görərik ki, diaspora yunan sözü olub, səpələmə deməkdir. Elmi ictimaiyyət arasında bu anlayışın leksik mənası ilə əlaqədar fikir ayrılığı olmasa da, bu terminin hansı şəraitdə, kimlər üçün işlədilməsi barədə ortaq fikir yoxdur. Bir qrup alim bu sözün yaranma tarixini yunanların eramızdan xeyli əvvəl başladıqları işğal və köçürmə dövrünə təsadüf etdiyini bildirir. Başqa bir qrup tədqiqatçı isə "diaspor" anlayışını yəhudi tarixi ilə əlaqələndirir. Hətta bir çox lüğətlərdə və ensiklopediyalarda bu termin birbaşa yəhudilərin öz vətənlərindən qovulub dünyanın müxtəlif yerlərinə səpələnmələri kimi izah edilir. İncilin yunan dilinə tərcuməsi olan "Septuaqinte" ilk dəfə olaraq diaspora anlayışını yəhudilərin öz yerlərindən qovularaq, müxtəlif ölkələrə səpələnmələrini bildirmək üçün istifadə edilmişdir. Bunun ardınca Plutarx, Filana Aleksandriski və daha sonra xristian alimləri bu termini yəhudi tarixi ilə əlaqələndirirlər". Ceyhun Mahmudov bildirir ki, son dövrlərdə "diaspora, anlayışı müxtəlif proseslərlə əlaqələndirilərək kəsb etdiyi mənanın sərhədləri genişləndirilib: "Q. Şefferə görə diaspora etnik qrupların könüllü və ya məcburi miqrasiya prosesləri nəticəsində ortaya çıxır. Onlar mühacirət etdikləri ölkələrdə milli azlıq statusunda yaşayırlar, etnik və etno-dini mənsubiyyətlərini, qrup daxili həmrəyliklərini mühafizə ediblər. J.T. Toşenka və T.İ. Capitkovun da diasporaya verdiyi tərif Şefferin tərifinə yaxındır. Onlara görə diaspora, öz tarixi vətənlərindən kənarda yaşayan, mövcud cəmiyyətdə fəaliyyət göstərmək və inkişaf etmək üçün müvafiq sosial institutlara sahib, eyni etnik qrupa aid insanlardan ibarətdir. Bundan başqa diaspora anlayışı imiqrasiya və milli azlıqlar sözləri ilə sinonimlik təşkil edir". Ekspertin sözlərinə görə, son dövrdə rus dilində "diaspora" kəlməsi istənilən etnik qrupu ifadə etmək üçün işlədilir: "1945-ci ilə qədər diaspora fenomeni tamamilə yəhudilər ilə əlaqələndirilsə də, bu dövrdən sonra dünyada baş verən proseslər nəticəsində şimali afrikalılar, hindlilər, türklər öz tarixi torpaqlarını tərk edərək, yeni diasporlar formalaşdırdılar. Məhz həmin hadisələrin axarında "diaspora" anlayışı yeni mənalar kəsb etməyə başladı. Müasir beynəlxalq sistemdə dövlətlərin xarici siyasətində prioritet təşkil edən mənsəblərdən biri də diaspor quruculuğu və diasporla əməkdaşlıq məsələsidir. Bunun əsas səbəblərindən biri diaspora təşkilatlarının beynəlxalq sistemə təsir edə bilən beynəlxalq aktyorlara çevrilməsidir".

Ekspert qeyd edir ki, diaspora təşkilatları əsasən Birləşmiş Ştatlar, Avropa İttifaqı ölkələri, Rusiya və digər dünya siyasətinə təsir edə bilən dövlətlərdə fəaliyyət göstərirlər. Həmin qrupların əsas məqsədləri öz etnik qruplarının və tarixi vətənlərinin lehinə qərarlar qəbul etdirməkdir: "Dünyada təsir imkanlarına görə yəhudi, yunan və erməni diasporlarını göstərmək olar. Adı çəkilən etnik qruplar xüsusilə dünyanın super dövləti olan Birləşmiş Ştatlarda fəaliyyət göstərir və tarixi vətənlərinin lehinə əhəmiyyətli qərarların verilməsində müstəsna rol oynayırlar. İstər yəhudi, istər yunan, istərsə do erməni diasporu qrup daxili həmrəyliyə əsaslanaraq müxtəlif ölkələrdə təşkilatlanaraq öz etnik birliklərini qurmuşlar. Amma son dövrlərdə diasporların təşkilatlandırılmasına dövlətlər özləri nəzarət edirlər. Məsələn, dünyanın onlarla ölkəsinə səpələnmiş Azərbaycan diasporu uzun tarixə sahib olsa da, bir müddət pərakəndə fəaliyyət göstərərək, qarşısına qoyduğu məqsədlərə çata bilməmişdir. Məsələnin ciddiyyətini anlayan Azərbaycan dövləti bu prosesi öz nəzarətinə götürmüş milli diaspora quruculuğunda birbaşa iştirak etməyə başlamışdır. Hazırda bu məsələ ilə məşğul olan xüsusi komitə fəaliyyət göstərməkdədir". Ceyhun Mahmudovun sözlərinə görə, diasporların fəaliyyətinin səmərəliyi həmin cəmiyyətlərdə mövcud olan sosial- iqtisadi vəziyyətindən, siyasi sistemindən asılı olur: "Yaxşı təşkilatlanmış diaspora təşkilatları öz tarixi vətənlərinin xeyrinə lobbiçilik fəaliyyəti ilə də məşğul olurlar. Lobbiçilik bu gün yəhudi, yunan və erməni diasporlarının müvəffəq olduqları fəaliyyət növündəndir. Lobbiçilik fəaliyyətini təhlil etməzdən əvvəl "lobbi" sözünün etimologiyasına diqqət etmək lazımdır. Lobby ingilis dilindən tərcümədə gözləmə salonu adlanır. "Lobbiçilik" isə bir fəaliyyət növüdür, "lobby" sözü zamanla öz mənasını dəyişməsi nəticəsində formalaşmışdır. Ehtimal olunur ki, bu ifadənin işlədilməsinin tarixi Birləşmiş Ştatların 1869-1877-ci illərdə 18-ci prezidenti olmuş Ulysses S. Granta aiddir. General Grant Villard hotelinin lobbisində siqar çəkməyi sevərdi. Mövcud şəraitdən istifadə edən siyasi alverçilər müəyyən məsələləri həll etmək ucun onunla danışıqlara girib müvafiq qərarın qəbul olunmasına çalışırdılar. Bu işlə məşğul olan siyasi alverçilərə "lobbiçi" bu fəaliyyətə isə "lobbiçilik" fəaliyyəti adı verildi.

BBC-nin məlumatına görə "lobbiçilik" ifadəsi İngiltərə parlamentində palataların iclaslarından əvvəl və sonra parlament üzvlərinin parlament binasının lobbisində ənənəvi olaraq toplanması və burada bəzi məsələlər barədə müzakirələr aparmasından ortaya çıxıb. İngilis dilinin izahlı lüğəti, Longmanda "lobbiçiliyin" lüğəti mənası hökumət qərarlarına təsir etmək məqsədi ilə planlanan və həyata keçirilən fəaliyyət kimi izah edilir.

Təyyar Arı "Amerikada siyasi yapı: Lobbilər və xarici siyasət" adlı kitabında "Lobbiçilik" fəaliyyətinə tərif verərək qeyd edir ki, lobbiçilik bir qrup hökumətin qərarlarına təsir etmək məqsədi ilə planlanan və bu məqsədləvətəndaş ilə qərarverici arasında ünsiyyət vasitəsidir". Ekspert vurğulayır ki, Birləşmiş Ştatlarda "lobbiçilik" qanunla müəyyənləşdirilmiş ölçülər çərçivəsində fəaliyyət göstərir. Bu fəaliyyəti tənzimləmək üçünsə 1946-cı ildə Federal Lobbi qanunu qəbul edilmişdir: "Bu qanunda lobbiçinin kim olduğu müəyyənləşdirilir və onun maliyyə imkanları nəzarət altına alınırdı.

Bu qanunda deyilir ki, "Birləşmiş Ştatlar Konqresindəki qanunlara təsir etməyə və ya müvafiq qanunun çıxmasına çalışan, bunun üçün birbaşa və ya dolayı yolla pul və digər qiymətli əşyalar toplayan və ya əsl məqsədi bu olan şəxslər lobbiçi olaraq adlandırılır. Bu sadalananlara sahib olan şəxslərin məsrəfləri incəlməlidir". Lobbiçilik növlərinə görə iki yerə bölünür. 1) Birbaşa lobbiçilik; 2) İctimaiyyət arasında təşviqat aparılaraq qurulan lobbiçilik. Birləşmiş Ştatlarda lobbiçiliklə xüsusi maraqlı qruplar və etnik diaspora təşkilatları məşğul olur. Etnik diaspora təşkilatları ya özləri birbaşa olaraq bu işlə məşğul olur, ya da ixtisaslaşdırılmış lobbi şirkətləri vasitəsi ilə öz fəaliyyətlərini həyata keçirirlər. Özəl lobbi şirkətləri çox bahalı olduğu üçün adətən etnik biznes təşkilatları bu işi özləri həyata keçirməyə üstünlük verirlər. Lobbilər öz məqsədlərinə çatmaq üçün bir çox üsuldan istifadə edirlər.

Bu üsullardan üz-üzə görüşmə, Konqresin komitələrinin iclaslarında iştirak etmə, məktub göndərmə, ictimaiyyətlə əlaqələr (PR) kompaniyalarının keçirilməsi, lobbilər arası əməkdaşlıq və koalisiyaların qurulması, namizədin seçki kompaniyasına pul yardımı göstərilməsi və. s. daxildir". Ekspert deyir ki, üz-üzə görüşmə ən təsirli üsullardan biridir. Bu zaman lobbiçi Konqresin üzvü və ya başqa bir bürokratla birbaşa ünsiyyətə keçir, bacardığı qədər təsir etməyə çalışır: "Bu üsuldan istifadə edərkən lobbiçinin şəxsi keyfiyyəti çox əhəmiyyətli rol oynayır. Hər hansısa bir seçici qrupunun birbaşa olaraq əlaqədar şəxsə məktub yazması çox təsirli ola bilər. Adətən seçicilərdən asılı olan şəxslər bu məzmunda olan məktublara çox ciddi yanaşırlar. Mümkün qədər məktubda göstərilən tələbi yerinə yetirməyə çalışırlar. Lobbi qrupları bəzi xüsusiyyətlərinə görə bir-birindən güclü və ya zəif ola bilərlər. Təcrübə göstərir ki, maraqlar üst-üstə düşdüyü zaman zəif lobbilər güclü lobbilərin imkanlarından geniş istifadə edir. Erməni lobbisinin bir çox hallarda yunan lobbisinin imkanlarından istifadə etdiyi məlumdur.

Lobbiçilik fəaliyyətinin ən təsirli üsullarından biri də Konqresə keçirilən seçkilərdə namizədlərin kompaniyalarında aktiv iştirak etməkdir. Seçki kompaniyasında maliyyə və insan resursları ilə iştirak edən hər hansısa etnik lobbi qrupu seçkilərdə qalib gələn konqresmenə fəaliyyəti dövründə təsir etmək imkanına sahib olur". Ceyhun Mahmudov bildirir ki, son dövrlərdə Azərbaycan diasporu da dirçəliş dövrünü yaşamaqdadır: "Bir çox ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspora təşkilatları artıq lobbiçilik fəaliyyətləri ilə də məşğul olurlar. Hazırda Birləşmiş Ştatlar Konqresində fəaliyyət göstərən Azərbaycan dostluq qrupuna artıq 40 konqresmen daxildir. Adı çəkilən fəaliyyətlər ümid verir ki, ölkə xaricində Azərbaycanın dövlət və milli maraqlarına xidmət edən qərarların qəbul edilməsində Azərbaycan diaspora təşkilatları daha müvəffəq olacaqlar".

**"Olaylar".-2013.-20 noyabr.-№ 209.-S.15.**

**Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi açıqlaması**

Son günlər Azərbaycanın bəzi kütləvi informasiya vasitələrində Ukraynada yaşayan azərbaycanlılara qarşı milli zəmində təzyiqlərin olduğuna dair əsası olmayan məlumatlar yayılmaqdadır. Diasporla İş üzrə Dövlət Komitəsi rəsmi olaraq bildirir ki, Ukraynada azərbaycanlılara qarşı milli zəmində heç bir təzyiq, təhdid, yaxud soydaşlarımızın həyatına təhlükə yaradan digər hərəkətlər baş verməmişdir.Dövlət Komitəsi Azərbaycan Respublikasının Ukraynadakı Səfirliyi, habelə bu ölkədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə müntəzəm əlaqə saxlayır, azərbaycanlıların vəziyyəti, qarşılaşdıqları çətinliklər barədə mütəmadi məlumatlar alır. Son günlər bəzi azərbaycanlıların da adının hallandırıldığı kriminal xarakterli hadisələrin milli, irqi, yaxud dini ayrı-seçkiliklə bağlı olduğuna dair iddiaları təsdiqləyən heç bir fakt, yaxud rəsmi məlumat yoxdur.

Azərbaycanlıların təhlükəsizliyinə təhdid xarakteri daşıyan etnik ayrı-seçkilik tendensiyaların mövcud olduğuna dair KİV-də əksini tapmış məlumatlar həqiqətə uyğun deyil.

Dövlət Komitəsi bütün KİV nümayəndələrini bu cür yoxlanılmamış məlumatlara olduqca diqqətli və ehtiyatlı yanaşmağa çağırır, bir daha diqqətə çatdırır ki, belə informasiyaların yalnız müvafiq dəqiqləşdirilmələrdən sonra yayılması daha məqsədəuyğun olardı. Bu sahədə Dövlət Komitəsi bütün KİV nümayəndələri ilə əməkdaşlığa hazırdır. Xüsusi olaraq vurğulamaq istərdik ki, kriminal xarakterli hadisələrin soydaşlarımıza qarşı milli zəmində təhdidlərin "sübutu" kimi ictimaiyyətə təqdim olunması Ukraynada yaşayan azərbaycanlılar arasında təşviş və narahatlıq yaradır, eyni zamanda Azərbaycanın milli maraqlarına qətiyyən uyğun deyil.

**21 noyabr 2013**

## Moldovada Azərbaycan diaspor təşkilatları

Azərbaycan diasporunun fəaliyyət göstərdiyi ölkələrdən biri də Moldova Respublikasıdır. Keçmiş SSRİ məkanına daxil olan ölkələrdən sayılan Moldovada təxminən 6 mindən çox soydaşımızın yaşadığı barədə məlumatlar var. Yaxın tarixə nəzər salsaq görərik ki, Azərbaycanlıların bu ölkədə məskunlaşması XX əsrin ilk onilliyindən başlayıb. Bu illərdə azərbaycanlılar Moldovaya işləmək və təhsil almaq üçün köçürdülər. Sözügedən proses xüsusilə XX əsrin 60-80-ci illərində daha intensiv xarakter almağa başladı. Moldovanın paytaxtı Kişinyov başda olmaqla, digər şəhər və rayonlarına səpələnən azərbaycanlıların əsas iş yerləri ticari obyektlər və elm təhsil müəssisələri idi. Onu qeyd etmək yerinə düşər ki, burada 1993-cu ilə qədər pərakəndəlik və passivlik hökm sürürdü. Artıq həmin tarixdən etibarən təşkilatlanmaq, Vətənlə əlaqə qurmaq, birləşmək fikri Moldovada yaşayan soydaşlarımız arasında tez-tez səslənməyə başladı. İlk zamanlar təbliğat sahəsində bir sıra uğurlar əldə edən Moldova azərbaycanlıları "Araz" adlı qəzet nəşr edirdilər. Həmçinin bu müddət ərzində Moldova dovlət televiziya kanallarında, radio proqramlarında və qəzetlərdə Azərbaycan və azərbaycanlılar barəsində bir sıra məlumatlarda dərc olunmuş və yayımlanmışdı. Hazırda Moldovada bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir ki, həmin təşkilatlar da Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ problemi, Ermənistanın işğalçılıq siyasəti, eləcə Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində zaman-zaman bu və ya digər tədbirlər həyata keçirirlər. Moldovada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından ən fəalı isə Moldova Azərbaycanlıları Konqresi hesab edilir. Konqres Moldovada fəaliyyət göstərən ən böyük diaspor təşkilatlardan sayılır.

**Moldova Azərbaycanlıları Konqresi**-Moldova Azərbaycanlıları Konqresi 2001-ci ildən Kişinyov şəhərində fəaliyyət göstərir. Moldova Azərbaycanlıları Konqresinin Moldovada yaşayan bütün azərbaycanlıların vahid ideya ətrafında birləşməsi, soydaşlarımızla əlaqələrin genişləndirilməsi, onlar arasında birlik və həmrəylik hisslərinin gücləndirilməsində müstəsna rolu var. Moldovada yaşayan soydaşlarımız daim bəşəri dəyərlərin və mütərəqqi milli ənənələrimizin, dilimizin, mədəniyyətimizin daşıyıcısı olmuş, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında öz fəallıqları ilə seçilmişlər. Hazırda Moldova Azərbaycanlılar; Konqresinın nəzdində Azərbaycan dilini və tarixini tədris edən “Həftəsonu” məktəbi fəaliyyət göstərməkdədir. Bununla yanaşı, Moldova Azərbaycanlıları Konqresində Azərbaycan mədəniyyətini və musiqisini təbliğ edən rəqs ansamblı da yaradılıb. Moldova Azərbaycanlıları Konqresinın mətbu orqanı olan“Araz” qəzeti isə buradakı Azərbaycan diasporunun həyatı ilə bağlı yenilikləri, habelə Azərbaycanda gedən sosial-iqtisadi inkişaf prosesləri ilə bağlı məlumatları yerli ölkə ictimaiyyətinə çatdırır. Konqres Mərkəz, Cənub, Şimal, Şərq və Qərb regionları olmaqla 5 regional təşkilatı özündə birləşdirir. Moldova Azərbaycanlıları Konqresinin sədri Vuqar Novruzovdur. Moldova Azərbaycanlıları Konqresinin sədri olan Vüqar Novruzov 1962-ci ildə Azərbaycanda anadan olub. 1980-ci ildən isə o, Moldovada yaşayır. Vüqar Novruzov 1988-ci ildə Kişinyov Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. 1992-ci ildən soydaşımız bizneslə məşğuldur. Vüqar Novruzov “Aztol Company” şirkətinin baş direktorudur və 2004-cü ildən Moldova Azərbaycanlıları Konqresinin sədridir. Moldova Azərbaycanlıları Konqresi 2001-ci ildə təsis edilən zaman qarşısına bir sıra məqsədlər qoyub ki, hazırda həmin vəzifələrin icrası istiqamətində müntəzəm addımlar atır, layihələr, tədbirlər həyata keçirir. Moldova Azərbaycanlıları Konqresinin əsas məqsədlərinə Moldova Respublikasında yaşayan azərbaycanlıların və onların cəmiyyətlərinin qüvvələrini birləşdirərək öz vətəndaş hüquqlarının həyata keçirilməsində və həmvətənlərimizin ictimai, mədəni inkişafında birgə fəaliyyət göstərmək, azərbaycanlıların milli ənənələrinin, dilinin, mədəni irsinin qorunub və inkişaf etdirilməsi daxildir. Bundan başqa konqres Azərbaycan və Moldova xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsinə köməklik göstərməyi də başlıca məqsəd olaraq qarşısına qoyub. Konqresin qarşısına qoyduğu məqsədləri sırasına Moldovada yaşayan azərbaycanlılara sosial-müdafiə işlərində hüquqi yardımın göstərilməsi də daxildir. Bir məqamı da qeyd etmək yerinə düşər ki, Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzov istər diaspor fəaliyyəti, istərsə də iki dövlət arasında əlaqələrin inkişaf etdirilməsindəki xidmətlərinə görə dəfələrlə yüksək səviyyədə təltif olunub. Belə ki, konqresin sədri Moldova Prezidenti tərəfindən "Gloria Muncii" ordeni, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən isə 2011-ci ildə “Tərəqqi” medalı ilə təltif edilib.

Moldovadakı Azərbaycan diasporunun rəhbəri millətlərarası dostluğun möhkəmləndirilməsi, inkişafı və milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsi sahəsində, həmçinin, məhsuldar təşkilati və ictimai fəaliyyətinə görə bu yüksək mükafatlara layiq görülüb. Vüqar Novruzov Moldova Respublikasının dövlət mükafatı «Gloria Muncii» ordeni və Moldova Respublikası Hökumətinin II dərəcəli Diplomu ilə də təltif olunub. 2011-ci ildə isə “Dədə Qorqud” Fondu və “Azərbaycan Dünyası” Beynəlxalq jurnalı Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzovu “Vətən övladı” ordeni ilə təltif ediblər. Konqres sədrinə mükafatın təltifetmə mərasimi 2011-ci il, fevral ayının 10-u tarixində Moldovanın paytaxtı Kişinyov şəhərində “Moldexpo”nun «Casa vinului» sərgi salonunda keçirilib.

Ordeni Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzova təqdim etmək üçün “Dədə Qorqud” Fondunun Ağsaqqallar Şurasının sədri Rəhim Sultanov və Avrasiyada tanınmış “Azərbaycan Dünyası” Beynəlxalq jurnalının baş redaktoru Eldar İsmayılov Kişinyovda olublar. Eldar İsmayılov Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzovun bu ordenə xeyriyyəçilik fəaliyyətinə, dostluq münasibətlərinin, əməkdaşlığın, milli mədəniyyətlərin yaxınlaşması və qarşılıqlı bəhrələnməsinə verdiyi əhəmiyyətli töhfə, eləcə də məhsuldar ictimai fəaliyyətinə görə layiq görülüb. Təltifetmə mərasimində çıxış edən Moldova Azərbaycanlıları Konqresinin prezidenti Vüqar Novruzov onun fəaliyyətinə bu cür yüksək qiymət verilməsindən şərəf duyduğunu bildirib. “Mənim və Konqresin fəaliyyətinə bu cür yüksək qiymət verilməsi mənim üçün böyük şərəf, Azərbaycan və Moldova xalqlarının maraqları naminə yorulmadan xidmət etmək işində daha böyük nailiyyətlərin əldə edilməsi üçün ciddi stimuldur”, - deyə Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzov qeyd edib. “Dədə Qorqud” Fondu və “Azərbaycan Dünyası” Beynəlxalq jurnalı Moldova Elmlər Akademiyası Universitetinin rektoru, genetika və molekulyar biologiya sahəsində tanınmış alim, professor, Moldova Elmlər Akademiyasının müxbir üzvü, doktor habilitat Mariya Vasilyevna Duku da ordenlə təltif edib. Mariya Vasilyevna Duka Moldova ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə, Moldovanın elmi-tədris potensialının gücləndirilməsinə, milli təhsilin nüfuzunun yüksəlməsinə verdiyi töhfəyə və çoxillik humanitar və xeyriyyəçilik fəaliyyətinə görə “Mehriban ana” ordeni təqdim olunub.

Vüqar Novruzovun rəhbərlik etdiyi Moldova Azərbaycanlıları Konqresinin bilavasitə iştirakı sayəsində Moldovada böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin, Kişinyov şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Komrat şəhərində dünya ədəbiyyatının görkəmli klassiki Mixay Yemineskuya abidələr ucaldılıb. Konqres Moldovada yaşayan bütün azərbaycanlıların birləşməsində, iki ölkə xalqları arasında əlaqələrin genişlənməsində, Moldovanın polietnik xalqının birliyinin möhkəmlənməsində və həmrəyliyində mühüm rol oynayır. Qeyd edək ki, Moldova Azərbaycanlıları Konqresinin ölkənin azərbaycanlılar yaşayan regionlarında bölmələri fəaliyyət göstərir. Moldova Azərbaycanlıları Konqresi Azərbaycan həqiqətlərinin Moldova ictimaiyyətinə çatdırılması, ölkəmizin milli maraqlarının qorunması istiqamətində hazırda da fəal iş aparır.

**Moldovada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından biri də “Araz” Cəmiyyətidir.** 1991-ci ildə Kişinyov şəhərində fəaliyyətə başlayan “Araz” Cəmiyyəti Moldova azərbaycanlılarının sosial hüquqlarının müdafiəsi, Azərbaycanla Moldova arasında əlaqələrin inkişaf etdirilməsi ilə məşğul olur. Hazırda da işıq üzü görən və Moldovada yaşayan azərbaycanlıları öz oxucu kütləsinə çevirən “Araz” qəzeti də məhz sözügedən cəmiyyətin himayəsi ilə nəşr edilməkdədir.

Moldovada fəaliyyət göstərən digər bir Azərbaycan diaspor təşkilatı **“Azəri” Mədəniyyət Mərkəzidir**. 1995-ci ildə Kişinyov şəhərində yaradılmış “Azəri” Mədəniyyət Mərkəzi Moldovada Azərbaycanın mədəniyyətinin, dilinin, elminin təbliği istiqamətində fəaliyyət gostərir. “Azəri” Mədəniyyət Mərkəzi müntəzəm olaraq Moldovada Azərbaycan mədəniyyəti, incəsənəti, mətbəxinin təbliğinə xidmət edən tədbirlər həyata keçirir.

**Moldova-Azərbaycan Əməkdaşlıq Cəmiyyəti-** Moldova-Azərbaycan Əməkdaşlıq Cəmiyyəti də aktiv Azərbaycan diaspor təşkilatlarından hesab edilir. 2000-ci ildə Kişinyov şəhərində təsis edilmiş Moldova-Azərbaycan Əməkdaşlıq Cəmiyyəti iki dövlət arasında hərtərəfli əlaqələrin qurulması və inkişaf etməsi üçün prinsipial mübarizə aparır.

**“Olaylar”.-2013.-21 noyabr.-№ 210.-S.15.**

## Rumıniyada Azərbaycan diasporu

Azərbaycan diasporunun fəaliyyət göstərdiyi Avropa ölkələrindən biri də Rumıniyadır. Bu ölkəyə azərbaycanlıların mühacirəti heç də yaxın tarixə təsadüf etmir. Belə ki, tarixi mənbələrə də nəzər salsaq görərik ki, ölkələrimiz arasındakı əlaqələr dərin tarixi köklərə malikdir. Belə ki, Azərbaycanın Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsən Rumıniya və Moldova hökmdarı Ştefan Çelmare ilə hələ 1473-cü ildə müttəfiqlik haqqında müqavilə imzalayıblar. Qardaş Türkiyə Respublikasından sonra Rumıniya Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ikinci dövlət olub. Azərbaycan Respublikası da Şərqi Avropadakı ilk səfirliyini məhz Rumıniyada açıb. Hazırda da ölkələrimiz arasındakı əməkdaşlıq möhkəm təməl üzərində qurulub.

İki ölkə arasındakı ikitərəfli əməkdaşlıq ilə yanaşı, münasibətlərimiz hər iki dövlətin üzv olduğu beynəlxalq təşkilatlar nəzdində də qarşılıqlı dəstək şəklində aparılmaqdadır. Rumıniya birmənalı şəkildə Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır. Sərhədlərin toxunulmazlığı prinsipini əsas götürür. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin obyektiv, ədalətli və beynəlxalq hüquq normaları çərçivəsində həllini tapmasının tərəfdarıdır. Azərbaycan Respublikasının Avro-Atlantik strukturlara inteqrasiya prosesini dəstəkləyən ölkədir. Müasir dövrdə iki ölkə arasındakı əlaqələrin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xüsusi rolu vardır. 2004-cü ildə Rumıniyanın paytaxtı Buxarest şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün ucaldılması rumın xalqı tərəfindən bu böyük tarixi şəxsiyyətin xatirəsinə göstərilən dərin hörmət və ehtiramın əyani nümunəsidir. Qeyd etmək lazımdır ki, 1989-cu il inqilabından sonra Rumıniyada yalnız üç nəhəng dövlət xadiminin - Şarl de Qol, Mustafa Kamal Atatürk və Heydər Əliyevin büstləri ucaldılmışdır. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin göstərişi ilə ulu öndərimiz Heydər Əliyevin adını daşıyan və büstü ucaldılan parkda yenidənqurma, bərpa, abadlıq, inşaat işləri aparılıb. Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan park hazırda Buxarest şəhərinin ən gözəl guşələrindən birinə çevrilib.

Son illər ərzində Azərbaycan ilə Rumıniya arasındakı tarixi dostluq münasibətləri diplomatik dillə desək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan Respublikasının Rumıniyadakı fövqəladə və səlahiyyətli Səfiri Eldar Həsənov iki ölkə arasındakı münasibətlərin belə yüksək səviyyəyə çatmasında başlıca rolu Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan doğru və düzgün xarici siyasət kursu ilə izah edir. Dilimiz, dinimiz fərqli olsa da, adət və ənənələrimizdə, mənəvi dəyərlərimizdə bir çox müştərək nöqtələr mövcuddur.

Rumıniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından biri Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətidir**.** Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti 2001-ci ildə təsis olunub və həmin il, oktyabrın 31-də Rumıniyanın Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti elə həmin il noyabrın 28-də birinci toplantısını keçirib. Toplantıda Rumıniya parlamentinin senatoru, Avropada tanınmış kardioloq, akademik İon Pop de Popa Cəmiyyətin baş katibi, Buxarest Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Simion Yurak cəmiyyətin İdarə Heyətinin sədri, Rumıniyanın Türk İş Adamları Birliyinin sədri Dursun Altınişık İdarə Heyətinin sədr müavini seçiliblər. Həmçinin, Cəmiyyətin idarə heyətinin tərkibinə Rumıniya Parlamentinin üç deputatı – Necat Sali, Kornel Boyancı və Corc Roşkulet, Rumıniyanın ən nüfuzlu iş adamlarından Corc Qeora və Rumıniyanın vətəndaşı, mənşəcə türk olan Nezih Kavsak, ölkədə fəaliyyət göstərən azərbaycanlı iş adamı Bəhruz Əsədbəyli, Rumıniya Qadınlar Cəmiyyətinin sədr müavini xanım Kristina Andritsoyu da seçiliblər. Cəmiyyətin məqsədi Azərbaycanla Rumıniya arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsi, iki ölkə arasında siyasi, iqtisadi, elmi və mədəni sahədə əlaqələrin perspektivləri haqqında fikir mübadiləsi aparılmasıdır. Xüsusilə, Rumıniya kütləvi informasiya vasitələrində Azərbaycan haqqında, onun tarixi, mədəniyyəti, incəsənəti, müstəqillik yolu, son illərdə Azərbaycan dövlətinin apardığı siyasi-iqtisadi, hüquqi islahatlar, əldə olunan nailiyyətlər və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə obyektiv və dolğun məlumatların yayılmasında Cəmiyyət aktivlik göstərir. Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Buxarest Universitetinin professoru Dumitru Balandır.

Rumıniyada Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti ilə yanaşı Rumıniya-Azərbaycan Gənclər Assosiasiyası, Rumıniya-Azərbaycan Ticarət Palatası da fəaliyyət göstərir. Bununla yanaşı, 2007-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin bu ölkədə nümayəndəliyi açılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Rumıniyanın dövlət başçısı Trayan Basesku, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın iştirakı ilə Buxarest şəhərində Heydər Əliyev Fondu-Rumıniya Nümayəndəliyinin təntənəli açılış mərasimi keçirilib. Bu illər ərzində Füzulinin qəzəlləri, "Leyli və Məcnun" poeması, "Kitabi-Dədə Qorqud" rumın dilində çapdan çıxmışdır. Görkəmli şair və yazıçılarımız B. Vahabzadə, Anar, Elçin, Ç. Abdullayevin əsərləri rumın dilinə tərcümə olunaraq nəşr edilib. Rumıniyanın paytaxtı Buxarest şəhərində vaxtaşırı musiqiçilərimizin konsertləri, rəssamlarımızın fərdi sərgiləri təşkil edilir.

Bütün bu işlərin baş tutmasında ölkəmizin Rumıniyadakı səfiri Eldar Həsənovun və Rumıniyadakı Azərbaycan diaspor təşkilatlarının müstəsna xidməti var. Bütün bunlar iki ölkə arasındakı mədəniyyət sahəsindəki əlaqələrimizin inkişafına müsbət təsir göstərir. Rumıniyanın müxtəlif universitetlərində Azərbaycanlı tələbələr təhsil alır ki, onlar da sözügedən ölkədə Azərbaycan diasporunun inkişafına öz töhfələrini verirlər. Azərbaycan Respublikasının Rumıniyadakı Səfirliyinin dəstəyi, Heydər Əliyev Fondunun Rumıniya Nümayəndəliyi və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin bilavasitə iştirakı ilə Rumıniyanın Kluc şəhərində yerləşən Qocalar Evi himayəyə götürülüb, buraya mütəmadi şəkildə maddi köməklik göstərilir. 2005-ci ilin iyun ayında sel nəticəsində sular altında qalan Rumıniyanın Qalats vilayətinin İveşt kəndinin sakinlərinə ilk yardım əlini uzadan da məhz Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyi olub. Bütün bu sadaladıqlarımız ölkəmizin, xalqımızın təbliğinə xidmət göstərir.

Onu da qeyd edək ki, 2001-ci ildən etibarən Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin təşəbbüsü və Azərbaycanın Rumıniyadakı səfirliyinin dəstəyi ilə iki xalqın ədəbiyyatının görkəmli nümunələrindən 50-dən çox kitab Azərbaycan və rumın dillərində nəşr olunub; 2003-cü il, may ayının 9-da ümummilli lider Heydər Əliyevin siyasi həyat və fəaliyyətinə, Azərbaycan-Rumıniya əməkdaşlığının inkişafına həsr olunmuş "Azərbaycanın dirçəlişi" kitabı Rumıniyada ingilis dilində çap olunub. 2007-ci il, aprelin 24-25-I tarixlərində Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti diaspor quruculuğu sahəsində əməkdaşlığın genişləndirilməsi və Rumıniyada Azərbaycan və türk diaspor təşkilatlarının fəaliyyətinin səmərəliyinin artırılması məqsədilə Rumıniyada səfərdə olub. 2008-ci il, iyulun 31-də Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin kollektivi, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin direktoru, Rumıniya-Azərbaycan Ticarət və Sənaye Palatasının üzvləri və Rumıniyada yaşayan Azərbaycan icmasının nümayəndələri Rumıniyanın şimalında yerləşən və güclü daşqından ağır zərər çəkən Suçava bölgəsinə səfər edib və yerli əhaliyə zəruri humanitar yardım göstəriblər.

2010-cu il, iyun ayının 17-18-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun, Azərbaycan millət vəkillərinin, Rumıniyadakı Türkologiya və Mərkəzi Asiya araşdırmaları İnstitutunun və Rumıniyadakı Səfirliyimizin təşkilatçılığı və dəstəyi ilə Rumıniyanın Kluj-Napoka şəhərində “Şərq və Qərb arasında dialoq” mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə millət vəkilləri iştirak ediblər və Türkologiya və Mərkəzi Asiya araşdırmaları İnstitutu ilə akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb. 2011-ci ilin oktyabr ayında Buxarestdə Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə rumın dilində çapdan çıxmış “İrəvan xanlığı” kitabının təqdimat mərasimi keçirilib.

2012-ci il, oktyabr ayının 9-da Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin təşəbbüsü və Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin dəstəyi ilə Ermənistanın Azərbaycana qarşı təcavüzü, eləcə də onun köklərindən bəhs edən, Kanadanın “Escript de Corps” dərgisinin redaktoru, hərbi jurnalist Skot Teylorun müəllifi olduğu “Barışmaz fərqliliklər: Türkiyə, Ermənistan, Azərbaycan” və Quram Marxulia və Şəbnəm Hacıyevanın birgə müəllifi olduqları “Əzabkeş Ermənistan: mif və gerçəkliklər” kitablarının rumın dilinə tərcüməsinin təqdimatı keçirilib. Həmin il, may ayının 25-də Azərbaycan Respublikasının müstəqilliyinə həsr olunmuş rəsmi qəbul keçirilib və ziyafətdə Rumıniya prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Yulian Fota iştirak edib.

**“Olaylar”.-2013.-22 noyabr.-№ 211.-S.15.**

**Bişkekdəki Aytmatov adına kitabxanada yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun rus dilinə tərcümə edilmiş "Əmir Teymur-Dünyanın hakimi" və "Əmir Teymur-Zirvəyə doğru" kitablarının təqdimat mərasimi keçirilmişdir**

Bişkekdəki Aytmatov adına kitabxanada Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun təşkilatçılığı ilə yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun rus dilinə tərcümə edilmiş "Əmir Teymur-Dünyanın hakimi" və "Əmir Teymur-Zirvəyə doğru" kitablarının təqdimat mərasimi keçirilmişdir.

Təqdimat mərasimində hər iki ölkədən çoxlu sayda nümayəndə, məşhur qırğız yazıçısı Çingiz Aytmatovun qardaşı, akademik, SSRİ Dövlət mükafatı laureatı İlgiz Aytmatov, professor Rosetta Aytmatova, SSRİ xalq artisti Bolot Şamşiyev, Qırğızıstanın xalq şairi Oqtay Abakirov, şair, tərcüməçi Mukan Asanaliyev, Bişkek kitabxanasının direktoru Dandıbaeva Gulsayra, Qırğızıstan Azərbaycanlıları Konqresinin prezidenti Çingiz Ələsgərov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, Jurnalist Qadınlar Assosiasiyasının sədri Sevil Yusufova, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli və İlqar Qafarlı iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun prezidenti Nüsrət Məmmədov rəhbərlik etdiyi təşkilat tərəfindən bu günə qədər Azərbaycanın bir çox tanınmış qələm əhlinin kitablarının Qırğızıstanda təqdimat mərasiminin keçirildiyini diqqətə çatdırmışdır. Fondun rəhbəri bildirmişdir ki, yazıçı-publisist Yunus Oğuzun qələmə aldığı tarixi romanlara Qırğızıstanda da böyük maraq olduğunundan rəhbərlik etdiyi fond Yunus Oğuzun müəllif olduğu "Əmir Teymur-Dünyanın hakimi" və "Əmir Teymur-Zirvəyə doğru" kitablarının Qırğızıstanda rus dilində nəşrini və təqdimatını zəruri hesab etmişdir.

Təqdimat mərasimində çıxış edən kitabın müəllifi, yazıçı-publisist Yunus Oğuz bildirmişdir ki, Azərbaycan dilində yazılmış kitab tezliklə Qırğız dilinə də tərcümə olunacaq. Əmir Teymurun idarəçiliyindən danışan yazıçı 35 il hökmdar olan Əmir Teymurun həm güclü sərkərdə, həm də strateq olduğunu vurğulamışdır.

Təqdimat mərasimində çıxış edən digər natiqlər də əsəri yüksək dəyərləndirmişlər. Mərasimin sonunda yazıçı-publisist müəllifi olduğu kitabları iştirakçılara hədiyyə edilmişdir.

Qeyd edək ki, sözügedən kitab hazırda Mukan Asanaliev tərəfindən qırğız dilinə tərcümə edilir. Bundan əvvəl isə Yunus Oğuzun müəllif olduğu kitabların London, Moskva, Ankara, İstanbul, Daşkənd, Kiyev, Almatıda təqdimat mərasimləri keçirilmişdir.

**22 noyabr 2013**

**Milanın "Chiesa Rossa" kitabxanasında gənc rəssamlarımızın sərgisi açılmışdır**

**23 noyabr 2013-cü il tarixində** Azərbaycanın İtaliyadakı Səfirliyi, Milan Bələdiyyəsi, Milandakı Azərbaycan Mədəniyyət Assosiasiyası və "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin birgə təşkilatçılığı ilə noyabrın 23-də Milanın "Chiesa Rossa" kitabxanasında gənc rəssamlarımızın sərgisi açılmışdır.Serginin keçirilməsində, həmçinin Azərbaycanın Xarici İşlər, Mədəniyyət və Turizm nazirlikləri, "Azal-Azərbaycan" Qapalı Səhmdar Cəmiyyəti də təşkilatı dəstək vermişdir. Milanda ilk dəfə keçirilən Azərbaycan rəssamlarının sərgisini giriş sözü ilə açan ölkəmizin İtaliyadakı səfirliyinin nümayəndəsi Zaur Fərhadov tədbir iştirakçılarına mədəniyyətimiz haqqında ətraflı məlumat vermişdir.

**23 noyabr 2013**

**Yazıçı Kamal Abdullanın həm Azərbaycanda, həm də xarici ölkələrin mətbuat səhifələrində geniş müzakirələrə və polemikalara yol açmış məşhur “Yarımçıq əlyazma” romanı Bişkekdə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə qırğız dilinə tərcümə olunmuşdur**

Yazıçı Kamal Abdullanın həm Azərbaycanda, həm də xarici ölkələrin mətbuat səhifələrində geniş müzakirələrə və polemikalara yol açmış məşhur “Yarımçıq əlyazma” romanı Bişkekdə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə qırğız dilinə tərcümə olunmuşdur. Roman bu yaxınlarda qırğız dilində işıq üzü görəcəkdir. Romanın tərcüməsi tanınmış şair və tərcüməçi Mukan Asanaliyevin tərcüməsində reallaşdırılmışdır.

Qeyd edək ki, yazıçının bu əsəri indiyədək ingilis, rus, ərəb, fransız, türk, qazax, portuqal və digər dillərə tərcümə edilərək, ABŞ, Rusiya, Misir, Fransa, Polşa, Qazaxıstan, Braziliya və s. ölkələrdə çap edilmişdir. İndi isə roman qırğız dilində Bişkekdəki “Biyiktik” nəşriyyatında işıq üzü görəcək bu roman yazıçının qırğızdilli məkanda debütü sayılacaq.

Xatırladaq ki romanın əsas mövzusu, onun aid olduğu tarixi dövrlər, Azərbaycanda cərəyan edən hadisələrdən bəhs edir, yazıçının əsərin ana qayəsini təşkil edən tarixi şəxsiyyətlər və hadisələrə yanaşma tərzi, onları öz dili ilə ifadə üslubu diqqəti çəkmişdir.

**25 noyabr 2013**

## Dövlət Komitəsinin sədri: "Rusiyadakı azərbaycanlılar belə münasibətə layiq deyillər"

***Nazim İbrahimov: "Azərbaycanlı miqrantlara qarşı yol verilmiş hüquq pozuntuları ciddi araşdırılmalı, onlar haqqında mənfi ictimai rəyin formalaşdırılması cəhdlərinin qarşısı alınmalıdır"***

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun Rusiyada yaşayan azərbaycanlı miqrantların son durumundan danışıb.

Komitə sədri APA-ya eksklüziv açıqlamasında deyib ki, Rusiyada yaşayan azərbaycanlı miqrantların qarşılaşdığı problemlər olduqca narahatlıq doğurur, bu problemlərin həlli istiqamətində Dövlət Komitəsi öz səlahiyyətləri çərçivəsində bütün zəruri tədbirləri həyata keçirir.

N.İbrahimov bildirib ki, Dövlət Komitəsi mütəmadi olaraq Azərbaycan diaspor təşkilatları ilə əlaqə saxlayır: "Hazırda qarşımızda duran prioritet vəzifələrdən biri Rusiyada yaşayan azərbaycanlıların hüquqi maarifləndirilməsi işini təkmilləşdirmək və Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının güclənməsinə nail olmaqdır. Bu sahədə də müəyyən planlarımız var. Yaranmış problemlərin həllini nəzərdə tutan bütün ideyalar, təkliflər əlbəttə ki, dərindən öyrənilməli, müzakirə olunmalı və həm Rusiyanın maraqlarına, həm də orada yaşayan miqrantların hüquq və azadlıqlarına xələl gətirməyən həll modeli tapılmalıdır. Hər bir ölkə əlbəttə ki, öz qanunlarını özü müəyyən edir və bu qanunların icrasının təmin olunması da onun suveren hüququdur. Lakin bu qanunların həyata keçirilməsi prosesinin miqrantların insan hüquq və azadlıqlarının pozulması halları ilə müşayiət edilməsi də yolverilməzdir. Təəssüf ki, indiki situasiyada biz bu cür halları tez-tez müşahidə edirik. Bu mənada Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun Rusiya Federal Miqrasiya Xidmətinin direktoru Konstantin Romodanovskiylə görüşdə söylədiyi fikirləri bölüşürük".

Komitə sədri hesab edir ki, Rusiyada azərbaycanlı miqrantlara qarşı yol verilmiş hüquq pozuntuları ciddi araşdırılmalıdır: "Azərbaycanlılar haqqında mənfi ictimai rəyin formalaşdırılması cəhdlərinin qarşısı alınmalıdır. Azərbaycanlılar belə münasibətə layiq deyillər. Çünki Rusiyanın tarixində, müasir dövrdə iqtisadi, mədəni və ictimai-siyasi həyatında çox mühüm rol oynamış yüzlərlə azərbaycanlının adını çəkmək olar. Digər tərəfdən, azərbaycanlılara qarşı təzyiqlər həm də iki ölkə arasında münasibətlərin ruhuna ziddir. Biz qarşılıqlı şəkildə bütün məsələləri müzakirə edə, problemləri birgə aradan qaldıra bilərik. Bunun üçün hər cür imkan var".

**APA, 25 noyabr 2013-cü il**

## "Çingiz Aytmatov: mən Manas oğluyam" kitabının təqdimatı keçirilmişdir

İssık-Kul vilayətinin Çolpon-Ata şəhərində "Çingiz Aytmatov və İssık-Kul forumu: Mədəniyyətlərin dialoqu və sivilizasiyaların yaxınlaşması" adlı beynəlxalq forumu çərçivəsində Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi və maliyyə dəstəyi ilə Azərbaycan və rus dillərindən qırğız dilinə tərcümə edilmiş "Çingiz Aytmatov: mən Manas oğluyam" kitabının təqdimatı keçirilmişdir. İssık-Kul forumu çərçivəsində baş tutan təqdimat mərasimində dünyanın 17 dövlətindən tanınmış şəxslər və qırğız rəsmiləri də iştirak etmişdir.

Kitabda dahi yazıçının qardaşı İlgiz Aytmatovun, bacısı Roza Aytmatovanın, Lui Araqonun, Muxtar Şaxanovun, Anarın, Dürdanə Tahirovanın və başqalarının yazıları öz əksini tapmışdır. Azərbaycan Yazıçılar Birliyinin məhsulu olan kitabı Azərbaycan və rus dillərindən qırğız dilinə tanınmş şair və tərcüməçi Mukan Asanaliyev tərcümə etmişdir. Kitabın tərtibatçısı və önsözün müəllifi Südabə Sərvidir.

Bir gün əvvəl Qırğızıstan dövlət filarmoniyasında start götürən "Çingiz Aytmatov və İssık-Kul forumu: Mədəniyyətlərin dialoqu və sivilizasiyaların yaxınlaşması" adlı beynəlxalq forumun münsiflər heyətinin üzvlərinə- Adaxan Madumarov, Askar Aytmatov, Qırğızıstan Parlamentinin sədri A. Jeyinbekov və Baş nazirin birinci müavini C. Otorbayevə kitabın ilk nüxsələri hədiyyə edilmişdir.

Tədbirin sonunda münsiflər heyətinin üzvü, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədrinin müavini Adaxan Madumarov belə bir kitabın işıq üzü görməsini yüksək qiymətləndirmiş və Fondun rəhbərinə minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, "Çingiz Aytmatov-mən Manas oğluyam" kitabı məşhur yazıçı Çingiz Aytmatovun 85 illiyinə hədiyyə olaraq tərcümə olunmuş və nəşr edilmişdir. 500 nüxsə ilə nəşr edilən kitabın Qırğıstanın kitabxanalarına və təhsil ocaqlarına verilməsi nəzərdə tutulmuşdur.

**25 noyabr 2013**

**Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) icraçı direktoru İlqar Hacıyev iclasda çıxış edərək ÜAK-ın tələbələrlə iş sahəsində təcrübəsindən danışmışdır**

Rusiya paytaxtında Moskva hökuməti yanında Millətlərin İşləri üzrə Şuranın rəyasət heyətinin iclası keçirilmişdir. İclasda etnoslar və konfessiyalar arasında münasibətlərin nizama salınması sahəsində dünya təcrübəsi, Moskvanın milli ictimai birliklərinin müxtəlif millətlərdən olan gənclər arasında mədəni dialoqun yaradılmasında rolu və digər məsələlər müzakirə olunmuşdur.

Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) icraçı direktoru, Moskva hökuməti yanında Millətlərin İşləri üzrə Şuranın rəyasət heyətinin üzvü İlqar Hacıyev iclasda çıxış edərək ÜAK-ın tələbələrlə iş sahəsində təcrübəsindən danışmışdır. O bildirmişdir ki, konqres gənclərin qarşılıqlı fəaliyyətinə xüsusi diqqət ayırır, tələbələrlə mütəmadi görüşlər keçirir. Bu isə gənc nəslin nümayəndələri ilə birbaşa dialoq qurmağa imkan verir.

Tələbə təşkilatları ilə birlikdə təşkil olunan elmi-praktik konfransların, dəyirmi masaların, idman yarışlarının maraqla qarşılandığını diqqətə çatdıran ÜAK-ın icraçı direktoru vurğulamışdır ki, gənclərin ölkənin ictimai həyatına cəlb olunması xüsusilə vacibdir. İctimai proseslərdə iştirak onların vətəndaşlıq mövqeyinin formalaşmasına kömək edir. Belə gənclər dövlət üçün faydalı olmağın vacibliyini anlayırlar.

İclasda “AvrAzES” İnstitutunun baş direktoru Vladimir Lepexin, Ümumrusiya Millətlərarası Gənclər İttifaqının sədri Kantemir Xurtayev, Rusiya Xalqlar Dostluğu Universitetinin prorektoru Aleksandr Qladuş və başqaları çıxış etmişlər.

**Fəridə Abdullayeva, AzərTAc-ın xüsusi müxbiri**
**Moskva, 25 noyabr 2013**

## Macarıstanda Azərbaycan diasporu

Bu gün əksər Avropa ölkələrində olduğu kimi Macarıstanda da Azərbaycan diasporu fəaliyyət göstərir. Düzdür, bu ölkədə Azərbaycan diaspor təşkilatları çox məhdud sayda olsa da, lakin bu sahədəki fəaliyyət qənaətbəxş hesab edilə bilər. Hazırda Macarıstanda fəaliyyət göstərən yeganə diaspor təşkilatı Macar-Azərbaycan Dostluq Cəmiyyətidir desək yanılmarıq.

Məlumat üçün qeyd edək ki, Macar-Azərbaycan Dostluq Cəmiyyəti (MADC) – 1994-cü ildən Macarıstanın paytaxtı Budapeştdə fəaliyyət göstərir, Macar-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Svetlana Abdullayevadır. Macar-Azərbaycan Dostluq Cəmiyyətinin bu ölkədə yeganə diaspor təşkilatı olmasına baxmayaraq uğurlu fəaliyyət göstərməsinin başlıca amillərindən biri ondan ibarətdir ki, cəmiyyət üzvlərinin 90 faizi macarlardan ibarətdir. Macar-Azərbaycan Dostluq Cəmiyyəti təsis edilərkən Azərbaycanın tarixi və bu günü, qədim adət-ənənələri, milli bayramları, dövlətimizin qazandığı nailiyyətlər barədə informasiya yaymağı qarşısına məqsəd qoyub. Etiraf etmək lazımdır ki, ötən müddət ərzində Macar-Azərbaycan Dostluq Cəmiyyəti qarşısına qoyduğu məqsədlərin reallaşması istiqamətində bir sıra uğurlara imza atıb və qeyd edilən istiqamətlərdə məqsədyönlü tədbirlər həyata keçirib. Macar-Azərbaycan Dostluq Cəmiyyəti zəngin tarixi-mədəni irsimizin təbliği, bu istiqamətdə çap materiallarının hazırlanıb macar cəmiyyətinə çatdırılması işində də fəal olub. Belə ki, 2010-cu ildə Azərbaycan Respublikasının Diaspora İlə İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə macar dilində çapdan çıxmış üçcildlik topluda Macarıstanda tanınan gənc Azərbaycan müəlliflərinin qələminə məxsus, onların keçmiş və gələcəklə bağlı mülahizələrini, Vətənin ağrılı-acılı və şad günlərini əks etdirən hekayə, povest və esselər, habelə qədim Azərbaycan diyarı olan Qarabağın zəngin mədəniyyəti barədə sənədli materiallar yer alıb.

Macar-Azərbaycan Dostluq Cəmiyyəti Azərbaycan Respublikasının Macarıstandakı səfirliyi ilə öz üzvləri arasında görüşlər keçirərək iki ölkə arasında yaxınlığa öz töhfəsini verir. Həmçinin Macarıstan rəsmiləri ilə müntəzəm şəkildə görüşlər təşkil edərək Azərbaycan həqiqətlərini, Dağlıq Qarabağ problemini onların diqqətinə çatdırır. Cəmiyyət rəsmi Bakı ilə Budapeşt arasında dostluq, qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinə də zaman-zaman öz töhfəsini verir.

Macar-Azərbaycan Dostluq Cəmiyyəti həmçinin Macarıstanda yaşayan azərbaycanlıların ölkəmizin mədəniyyəti, tarixi və s. barədə məlumat yaymasına dəstək verir. Məsələn, cəmiyyət 2011-ci ilin yanvar ayında Mərkəzi Avropa Universitetində keçirilən Beynəlxalq Mədəniyyət Festivalında Azərbaycanın da tələbələr tərəfindən təmsil olunmasına dəstək verib. Təşkilat Azərbaycanın milli bayramları zamanı həm azərbaycanlı, həm də macar üzvləri ilə birlikdə bayram süfrəsi açır. Macar-Azərbaycan Dostluq Cəmiyyəti həmçinin Azərbaycanın problemləri, Dağlıq Qarabağ münaqişəsi barədə macarlara məlumat verir. Matəm günlərində-20 Yanvar, 31 Mart, 26 Fevral-dünyasını dəyişmiş azərbaycanlıların xatirəsi anılır, bu hadisələr barədə məlumatlandırma işləri aparılır. Macar-Azərbaycan Dostluq Cəmiyyət həmçinin hər il ənənəvi olaraq Azərbaycan və macar dillərində görkəmli azərbaycanlılara həsr olunmuş təqvimlər hazırlayır. 2011-ci ilin təqvimi məşhur rəssam Tahir Salahova, 2012-ci ilin təqvimi isə Toğrul Nərimanbəyova həsr olunub.

Macar-Azərbaycan Dostluq Cəmiyyəti mədəni kütləvi tədbirlərin keçirilməsində də yaxından iştirak edir. Belə tədbirlərdən biri 2008-ci ildə təşkil olunub. Belə ki, 2008-ci ilin noyabr ayının 18-20-də paytaxt Budapeştdə "Macarıstan-Azərbaycan: mədəniyyətlərin dialoqu" mövzusunda III beynəlxalq elmi konfrans keçirilib. Konfransda Macarıstanın dövlət orqanlarının, ictimai təşkilatların, elmi müəssisələrin, aparıcı universitetlərin müəllim və tələbələri, Azərbaycan diasporunun üzvləri iştirak ediblər. Konfrans Azərbaycanın Macarıstandakı Səfirliyinin, Azərbaycanın Milli Elmlər Akademiyasının, Macarıstan Elmlər Akademiyasının, Etves Lorand adına Budapeşt Universitetinin, Macar-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı və Azərbaycan Respublikasının Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilib. Üç gün davam edən konfransda Azərbaycan və Macarıstan alimlərinin 40-dan çox məruzəsi dinlənilib. Məruzələr tarix, arxeologiya, etnologiya, ədəbiyyat, dilçilik, folklor, politologiya, iqtisadiyyat, hüquq və memarlıq məsələlərinə həsr olunub. Konfrans başlanarkən Macarıstan parlamentinin spikeri Katalin Sillinin konfrans iştirakçılarına müraciəti oxunub. Konfransda Azərbaycanın Macarıstandakı səfiri Həsən Həsənov, Macarıstan Elmlər Akademiyasının həqiqi üzvü Xazai Dyerd, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Nailə Vəlixanlı, Macarıstan Etnologiya və Avropa Folkloru İnstitutunun direktoru Mixay Xoppal və başqaları çıxış edərək, bu konfransların keçirilməsinin artıq ənənə halını almasını və xalqımız arasında bütün sahələrdə əlaqələrin genişlənməsinə kömək etdiyini vurğulayıblar. Konfransın noyabrın 18-də keçirilən birinci iclasında macar dilinə tərcümə edilərək nəşr olunan "Dədə Qorqud" və "Koroğlu" dastanlarının təqdimat mərasimi keçirilib. Ekspertlər bu əsərlərin nəşrini Azərbaycan-Macarıstan humanitar münasibətlərin tarixində əlamətdar hadisə adlandırıblar. Təqdimat mərasimindən sonra məruzələr dinlənilib. Konfransın ikinci günündə macar alimlərinin dinlənilən məruzələrinin əksəriyyəti hüquq məsələlərinə, Azərbaycanın Konstitusiyasına, ölkəmizin hüquq sahəsində əldə etdiyi nailiyyətlərə həsr olunub.

Konfransda, həmçinin tanınmış macar türkoloqu, musiqişünas, Azərbaycan xalq musiqisi haqqında kitab yazan Yanoş Şipoşun Azərbaycan, macar, Anadolu türk mərasim mahnıları haqqında məruzəsi də böyük maraqla dinlənilib. Cari il, iyul ayının 13-də isə paytaxt Budapeştin Ybl Sarayında azərbaycanlı rəssam Çingiz Mehbalıyevin ən son rəsmlərindən ibarət "Həyatınızı rəngləyərək" adlı fərdi sərgisi təşkil olunub. Sərginin açılışında Azərbaycan Respublikasının Macarıstandakı səfiri Cənab Vilayət Quliyev, Macarıstan Parlamentinin, eyni zamanda Macarıstan-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvü Tamaş Hegedüş çıxış edib. Səfir Vilayət Quliyev sərgidə istedadlı rəssam Çingiz Mehbalıyevin rəsmlərindən aldığı təəssüratları bölüşüb, bu cür mədəni tədbirlərin keçirilməsinin müasir Azərbaycan mədəniyyətinin tanıdılmasındakı xüsusi rolunu qeyd edib. Macarıstan Milli Assambleyasının üzvü T. Hegedüş Azərbaycan mədəniyyəti və istedadlı rəssam haqqında fikirlərini bildirərək Azərbaycan və Macarıstan arasında getdikcə genişlənən ictimai və mədəni əlaqələrdən məmnun qaldığını deyib. Sərgidə həmçinin Azərbaycandakı Macarıstan Ticarət Evinin rəhbəri Ceyhun Abdullayev, Macarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Svetlana Abdullayeva, Macarıstan- Azərbaycan Gənclər Təşkilatının təsisçiləri və üzvləri, Macarıstanın ictimai xadimləri, aparıcı siyasi partiyalarının gənclər təşkilatlarının liderləri, eləcə də yerli və əcnəbi iş adamları və digər şəxslər iştirak edib. Beş gün davam edən sərgidə rəssamın 30-a qədər rəngkarlıq və qrafika işləri nümayiş olunub. Xatırladaq ki, Çingiz Mehbalıyevin 2007-ci ildə UNESCO-nun keçirdiyi və Mövlanə Cəlaləddin Ruminin anadan olmasının 800 illiyinə həsr olunan beynəlxalq sərgidə iştirak edən ən gənc rəssam olub. Bir il sonra "Molla Nəsrəddin - Azərbaycan" beynəlxalq karikatura müsabiqəsində iştirak edib və Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinə üzv qəbul olunub. 2010-cu ildə isə Türkiyənin Bartın şəhərində keçirilən sərgidə uğurla iştirakından az sonra SESAN (Serbest Sanatçılar) beynəlxalq rəssamlar ittifaqına üzv qəbul olunub.

Macar-Azərbaycan Dostluq Cəmiyyətinin səmərəli fəaliyyətinin nəticəsi olaraq bu ölkənin parlamentinə Dağlıq Qarabağda ermənilərin azərbaycanlılara qarşı törətdiyi kütləvi qətllərlə bağlı qərar layihəsi təqdim edilib. Layihə parlamentdəki üçüncü böyük partiya olan Daha Yaxşı Macarıstan Uğrunda Hərəkat (Jobbik) tərəfindən təqdim olunub. Parlamentin Xarici Əlaqələr Komitəsinin sədr müavini Marton Gyöngyösi Ermənistanın 1992-ci ildə Dağlıq Qarabağda başladığı hücumlar nəticəsində Azərbaycan torpaqlarının beşdə birini işğal etdiyini deyib. O bildirib ki, 1992-ci ildə baş verən Xocalı qətliamında çoxu qadın və uşaq olan 613 nəfər öldürülüb. Marton Gyöngyösi BMT Təhlükəsizlik Şurasının, ATƏT və NATO-nun Ermənistanın həyata keçirdiyi soyqırımı pislədiyini xatırladıb. Bir milyon qaçqın və məcburi köçkünün problemlərinin hələ də həllini tapmadığını vurğulayan parlamentar qeyd edib ki, beynəlxalq ictimaiyyət bəzi faciələrə diqqət göstərsə də, Azərbaycan xalqının dramına fikir vermir. Müxalifətdəki Jobbik Partiyasının nümayəndələri də parlamenti Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləməyə çağırıblar. Qeyd edək ki, Jobbik Partiyası 227 yerlik parlamentdə 47 yerə malikdir.

Macarıstandakı Azərbaycan diasporunun ən uğurlu fəaliyyətindən biri azərbaycanlı zabit Ramil Həsənovun Azərbaycana ekstradisiyası zamanı özünü göstərdi. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bilavasitə gərgin əməyi nəticəsində baş tutan bu proses erməni lobbisində dərin hiddətə səbəb olmuşdu. O, ərəfədə erməni lobbisi maksimum dərəcədə çalışaraq Macarıstan rəsmilərini bu addımdan çəkindirməyə və Ramil Səfərovun həbsxanada saxlanılmasına cəhd etsələr də, lakin başda Macar-Azərbaycan Dostluq Cəmiyyəti olaraq bu ölkədə fəaliyyət göstərən diaspor nümayəndələrimiz erməni təbliğat maşınını zərərsizləşdirməyə nail oldular.

**"Olaylar".-2013.-26 noyabr.-№ 213.-S.15.**

## Norveçdə Azərbaycan diaspor təşkilatları

Azərbaycan diasporunun fəaliyyət göstərdiyi xarici ölkələrdən biri də Norveçdir. Avropanın bu ölkəsində təqribən 3 minə yaxın soydaşımız yaşayır. Əsasən XX əsrin əvvəllərindən bu günə qədər buraya köçən azərbaycanlı Norveçə məxsus adalarda yaşayırlar. Norveç dövlətinin daxili qanunvericiliyi bura köçən ilk mühacirlərə iri şəhərlərdə yaşamaq imkanı vermir.

Norveç-Azərbaycan arasında münasibətlərin günü-gündən inkişaf etməsi buradakı soydaşlarımızın fəaliyyətinə ciddi təsir göstərir. Norveç Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə norveçli musiqiçilər Bakıda, azərbaycanlı müğənnilər isə Osloda konsert proqramları ilə çıxış edirlər. Tarixi mənbələrə nəzər saldıqda aydın olur ki, məşhur Norveç tədqiqatçısı Tur Heyerdalın qənaətinə görə, bir sıra çağdaş Avropa tayfalarının və xalqlarının, o cümlədən Skandinaviyada yaşayan xalqların ulu əcdadları vaxtilə Qobustan ərazisində yaşayıb, lakin sonralar naməlum səbəblər üzündən köç edərək Avropaya gediblər. Alimin Qobustanşünaslıq sahəsində yeni olan bu mülahizəsi çağdaş Azərbaycan xalqı ilə Skandinaviya xalqları arasında etnik, bioloji, antropoloji, tarixi, mədəni əlaqələrin mövcud olmasından xəbər verir. Öz fikirlərini elmi-tarixi, maddi dəlillərlə əsaslandıran alim Qobustandakı qayaüstü rəsmlərin tam oxşarının Skandinaviyadakı daş mağaralarda da olduğunu söyləyib. 1981-1994-cu illərdə bu qayaüstü rəsmləri tədqiq etmək üçün Qobustana xüsusi səfərlər təşkil edən Tur Heyerdal Xəzər sahillərini sonralar su yolları vasitəsilə şimala və cənuba doğru yayılan böyük bir sivilizasiyanın beşiyi hesab edib. Heyerdal öz ehtimallarını təkcə Qobustandakı qamış qayıq təsvirlərinin əsrlərlə sonra vikinqlər tərəfindən Norveç mağaralarının divarlarında həkk edilmiş analoqları ilə üst-üstə düşməsi ilə deyil, həmçinin orta əsrlərdə yazılmış saqalarda (norman dastanlarında) xatırlanması ilə sübuta yetirə bilib. Norveç Krallığı Azərbaycan Respublikasının müstəqilliyini 2 yanvar 1992-ci ildə tanıyıb. Ölkələr arasında diplomatik münasibətlər 5 iyun 1992-ci ildə qurulub. 22 iyul 1998-ci ildə Norveç Krallığının Azərbaycanda səfirliyi açılıb. Ötən dövr ərzində Norveç və Azərbaycan arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub, əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar və hüquq-müqavilə bazası yaradılıb. Norveç rəsmiləri dəfələrlə bəyan ediblər ki, Norveç Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə münaqişənin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həllini dəstəkləyir.

Bu gün Norveçdə bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir ki, həmin təşkilatlar da Azərbaycanın üzləşdiyi problemlər, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımının norveçlilərə çatdırlmasında yaxından iştirak edirlər. Norveçdəki Azərbaycan diaspor təşkilatları paralel olaraq zəngin tarixi- mədəni irsimizin də fəal təbliğatçıları hesab edilirlər. Bu məqsədlə bu ölkədəki diaspor təşkilatlarımız tərəfindən müntəzəm olaraq mədəni-kütləvi tədbirlər təşkil olunur. Norveçdə fəaliyyət göstərən aktiv Azərbaycan diaspor təşkilatlarından biri də Norveç Azərbaycanlıları Gənclər Təşkilatıdır. Norvec Azərbaycanlılarının Gənclər Təşkilatı 2005-ci ildə Norveçdə təsis edilib. Beş nəfərdən ibarət idarə heyəti olan Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO) dünyəvi, sivil, qeyri-siyasi və gəlir əldə etmək məqsədi olmayan bir təşkilatdır. Təşkilatın əsas məqsədi orada yaşayan azərbaycanlıların Norveç ictimaiyyətinə inteqrasiya olunmasında yardımçı olmaq, onları təşkilatlandırmaq, hüquqlarını müdafiə etmək və sosial problemlərinin həlli istiqamətində işlər görməkdir. Azərbaycan xalqının mədəniyyətini, tarixini, problemlərini və nailiyyətlərini çatdırmaqla yanaşı, iki ölkə arasında dostluq əlaqələrini möhkəmləndirmək, iqtisadi, elmi və mədəni əlaqələrin inkişafına dəstək verməklə dostluq və əməkdaşlıq körpüsü rolunu oynamaqdır. NAYO təşkilatı həm Norveçdə, həm də xaricdə davamlı olaraq müxtəlif mövzularda tədbirlər, layihələr həyata keçirir. Ən böyük layihələrdən biri kimi Norveçin Beynəlxalq Əlaqələr İnstitutunda "Azərbaycanın Cənubi Qafqazda geosiyasi rolu" mövzusunda seminarı göstərmək olar. Həmin tədbirdə Norveçdə akkreditə olan dörd səfirliyin nümayəndəsi, parlamentin üzvləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. Bundan başqa Norveçin Biznes Menecment İnstitutunda biznes təşkilatlarının iştirakı ilə "Azərbaycanın yüksələn iqtisadiyyatında investisiya imkanları" mövzusunda biznes-forum təşkil edilib. Ümumiyyətlə, Norveç Azərbaycanlıları Gənclər Təşkilatının layihələri üç hissəyə bölünür. Belə ki, tədbirlərdə ilk olaraq Azərbaycanın potensialı, neft strategiyası, regionda mövqeyi, daha sonra isə Dağlıq Qarabağ problemi, Xocalı faciəsi və ermənilərin törətdiyi digər vəhşiliklər, nəhayət, sonda tibbi və Azərbaycanın turizm potensialını əks etdirən kitablar təqdim edilir. NAYO Azərbaycan diaspor təşkilatları içərisində şəbəkəsi olan yeganə təşkilatlardandır. Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri Ramil Əliyevdir. Qeyd edildiyi kimi NAYO fəaliyyəti müddətində bir sıra uğurlu layihələr həyata keçirib. Belə layihələrdən biri keçən il baş tutub. Belə ki, Norveç Azərbaycanlıları Gənclər Təşkilatının (NAYO) təşəbbüsü, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə mədəniyyətimizin bu ölkədə təbliği məqsədi ilə bir qrup gənc musiqiçi və rəqqasımız "Saqene Beynəlxalq Festivalı-2012"-də iştirak edib. Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri Ramil Əliyev 16 ölkənin təmsil olunduğu festivalda gənclərimizin iştirakını Norveçdəki Azərbaycan diasporunun uğuru kimi qiymətləndirib.

Bildirib ki, festivalda MDB ölkələrindən yalnız Azərbaycan təmsil olunub. Festivalda çıxış edən Oslonun Saqene rayonunun bələdiyyə sədri Helqe Stoltenberq tədbirdə iştirak edən dövlətlərin Norveçdəki icmalarının bu ölkənin cəmiyyətinin ən fəal təbəqəsi olduğunu vurğulayıb. Mədəni dəyərlərimizin təbliği və Norveçdəki Azərbaycan icmaları arasında əlaqələrin inkişafına nail olmaq məqsədi ilə NAYO "Odlar yurdu Azərbaycan" adlı konsert proqramı da təşkil edib. Konsertə həmyerlilərimizlə yanaşı, əcnəbi qonaqlar da qatılıblar. Gecədə Norveç Azərbaycanlıları Gənclər Təşkilatının fəaliyyəti ilə bağlı məlumat verən Ramil Əliyev qeyd edib ki, təşkilat İsveç-Azərbaycan Federasiyası ilə birgə Stokholmda azərbaycanlıların və əcnəbilərin iştirakı ilə mədəni layihə həyata keçirib. NAYO-nun sədri bu layihəni Skandinaviyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının regional əməkdaşlığının növbəti uğuru kimi qiymətləndirib.

Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO) "Xocalıya ədalət" kampaniyasına da qoşulub və bu kampaniyaya dəstəyini əsirgəməyib. Nəticədə təşkilat Heydər Əliyev Fondu ilə səmərəli iş birliyi yaradaraq, onların Xocalı soyqırımına həsr olunmuş fotosərgisini Norveçdəki "Holokost" mərkəzində nümayiş etdirib. Sərgidə çıxışı zamanı NAYO sədri deyib ki, diaspor təşkilatı olaraq bu faciənin beynəlxalq qiymət almasına qədər daima virtual məkan, yazılı materiallar, faktlar, fotolar və s. effektiv üsullarla təbliğini aparmalıyıq, NAYO-nun təşkil etdiyi foto-sərgi çərçivəsində Xocalı soyqırımına həsr olunmuş seminar da keçirilib. Seminarda Azərbaycanın İsveçdəki fövqəladə və səlahiyyətli səfiri Rafael İbrahimov fəxri qonaq kimi iştirak edərək Xocalı soyqırımı və onun törətdiyi fəsadlar haqqında danışıb. Seminar-sərgi layihəsində Norveç Azərbaycanlıları Gənclər Təşkilatı üzvləri, Norveç hökumətinin nümayəndələri, norveçli və əcnəbi siyasətçilər, tədqiqatçılar, professorlar, bu ölkədə təhsil alan yerli və xarici tələbələr, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Norveç Azərbaycanlıları Gənclər Təşkilatı həmçinin Azərbaycanın qədim və zəngin mədəni irsinə daxil olan aşıq sənətinin xaricdə təbliği istiqamətində növbəti layihəni həyata keçirib. Əsasən norveçlilər və Norveçdə yaşayan əcnəbilər üçün nəzərdə tutulmuş bu layihə Oslo Universiteti ilə NAYO-nun əməkdaşlığı çərçivəsində həmin universitetin kitabxanasında baş tutub. Norveç Konservatoriyasının azərbaycanlı tələbəsi Əhməd Mirzəyevin ifasında aşıq havalarımız və dünya klassik irsinin dəyərli nümunələri canlı olaraq səsləndirilib.

Aşıq sənətinin təbliğini nəzərdə tutan “Lunsj med Kultur” layihəsi çərçivəsində gerçəkləşən bu tədbirdə Azərbaycan haqqında kitab və suvenirlərin də nümayiş olunub. Tədbirdə çıxış edən NAYO-nun sədri Ramil Əliyev bildirib ki, şifahi xalq sənətimizin dəyərli nümunəsi olan aşıq musiqimizin YUNESKO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi Azərbaycan mədəniyyətinin uğurudur: “İndi aşıq musiqimiz dünyada daha yaxşı tanınmağa başlamışdır və layiqincə təbliğ olunur. Biz də diaspor təşkilatı olaraq xalqımızın bu nadir mədəni incisinin Avropada təbliğini həyata keçirmək məqsədi ilə silsilə layihələri reallaşdırırıq” Azərbaycan xalçasının da YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin Norveçdə yaşayan azərbaycanlıları sevindirdiyini vurğulayan Ramil Əliyev deyib ki, biz gələcək layihələrimizdən birini də bu sənət növünə həsr edəcəyik. Keçirilən tədbirdə Azərbaycan xalçasının kiçik ölçülü nümunələri sərgilənib və xalçaların rəngarəngliyi tədbiri daha da maraqlı edib. Tədbirdə çıxış edən Əməd Mirzəyev isə bildirib ki, bir azərbaycanlı olaraq milli musiqimizin Avropada təbliğindən qürur duyur. Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə Azərbaycanda birinci Beynəlxalq aşıq festivalı keçirilməsindən sevinc hissi keçirdiyini deyən natiq deyib ki, bu layihəyə öz töhfəsini Norveçdə NAYO-nun təşəbbüsü ilə aşıq sənəti ilə bağlı keçirilən mədəni tədbirdə çıxışla verməyə çalışıb. Norveç Azərbaycanlıları Gənclər Təşkilatından başqa bu ölkədə daha bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Bunlardan biri də 1989-cu ildə yaradılmış Norveç Azərbaycan Mədəniyyət Mərkəzidir. Yaqub Cavidinin rəhbərlik etdiyi təşkilat əsasən Azərbaycan mədəniyyətinin təbliği istiqamətində çalışır. 1999-cu ildən mövcud olan “ANA” Azərbaycan-Norveç Assosiasiyasının isə əsas məqsədi iki ölkə arasında münasibətləri inkişaf etdirməkdir. Təranə Sadıxova-Nilsen və Mehparə İsmayılovanın rəhbəri olduğu Azerbajdsan- Norsk Kultur forenning –Azərbaycan-Norveç Mədəniyyət Cəmiyyəti 2002-ci ildən fəaliyyət göstərir. Adıçəkilən təşkilat da Norveçdə Azərbaycan mədəniyyətinin təbliğatı ilə məşğuldur.

**“Olaylar”.-2013.-27 noyabr.-№198.-S.15.**

**Beynəlxalq Dialoq və Əməkdaşlıq Mərkəzi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəstəyi ilə "Avrasiyanın yeni dünyada gələcəyi" (Eurasia's future on the global stage) mövzusunda Beynəlxalq Forum keçiriləcək**

Dekabr ayının 3-4-də Vyana şəhərində Beynəlxalq Dialoq və Əməkdaşlıq Mərkəzi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəstəyi ilə "Avrasiyanın yeni dünyada gələcəyi" (Eurasia's future on the global stage) mövzusunda Beynəlxalq Forum keçiriləcək.

Forumun əsas qonaqları qismində ABŞ-ın sabiq Prezidenti Bill Klinton və Avropa Komissiyasının sədri Xose Manuel Borrozu iştirak edəcək. Toplantının digər iştirakçıları sırasında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri- Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov və İsgəndəriyyə Kitabxanasının direktoru, Dünya Bankının sabiq vitse-prezidenti İsmayıl Seragəldin təmsil olunacaqlar.

Forum çərçivəsində Mərkəzin nümayəndələri arasında ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bundan başqa 2014-cü ilin aprel ayında Bakıda reallaşacaq II "Müştərək Cəmiyyətlər" forumuna hazırlıqla bağlı III Koordinasiya toplantısının keçirilməsi də planlaşdırılır.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Bakıda keçirilən I Ali Qrup görüş çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Beynəlxalq Dialoq və Əməkdaşlıq Mərkəzi arasında Əməkdaşlıq Memorandumu imzalanmışdır.

**29 noyabr 2013**

**İstanbul Türkiyə-Azərbaycan Dərnəyində (İSTAD) keçirilmiş toplantıda erməni təbliğatına qarşı birgə fəaliyyət məsələləri müzakirə olunmuşdur**

Hesabat dövrünün noyabr ayında İstanbul Türkiyə-Azərbaycan Dərnəyində (İSTAD) keçirilmiş toplantıda erməni təbliğatına qarşı birgə fəaliyyət məsələləri müzakirə olunmuşdur. Türkiyədə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası Diasporla İş Üzrə Dövlət Komitəsi və qeyri-hökumət təşkilatları ilə birgə fəaliyyətinin əhəmiyyətini vurğulayan İSTAD-ın sədri Səfər Karakoyunlu Azərbaycan Prezidenti İlham Əliyevin "bir millətin iki diasporu olmaz" kəlamını xatırlatmışdır. O demişdir ki, bu kontekstdə Türkiyənin ən böyük şəhəri olan İstanbulda Azərbaycan həqiqətlərinin təbliği üçün tədbirlər davam edəcəkdir.

Toplantının sonunda İğdır bələdiyyə sədrliyinə namizəd Gündüz Günəşə İSTAD-ın xatirə hədiyyəsi təqdim edilmişdir.

**Noyabr 2013**

**“Postimees“ qəzetinin 28 noyabr nömrəsində Tallinndəki Azərbaycan həftəsonu məktəbinin rəhbəri Sənəm Əliyeva ilə müsahibə dərc olunmuşdur**

Bu ilin noyabr ayında Estoniyada nəşr olunan “Postimees“ qəzetinin 28 noyabr nömrəsində Tallinndəki Azərbaycan həftəsonu məktəbinin rəhbəri Sənəm Əliyeva ilə müsahibə dərc olunmuşdur. Azərbaycan həftəsonu məktəbinin rəhbərinin fikrincə, Azərbaycan dilinin mənimsənilməsində, mədəniyyət və tarixin öyrənilməsində məktəbin müəllimləri üçün ən əsas amil uşaqların və gənclərin arzu və istəyinin nəzərə alınmasıdır. S.Əliyeva məktəbin genişmiqyaslı fəaliyyətindən söhbət açmış, görülən və qarşıda duran layihələr haqqında məlumat vermişdir.

**Noyabr 2013**

## Nyu York Azərbaycan-Amerika Qadınlar Cəmiyyəti yaradılmışdır

2013-cü ilin noyabr ayında Nyu-York şəhərində yaşayan Azərbaycanlı qadınları bir araya toplamaq, onların dil, iş, inteqrasiya məsələlərini həll etmək məqsədilə yeni bir təşkilatın təməli qoyulmuşdur. Zərurətdən irəli gələn bu cəmiyyətin adı Nyu York Azərbaycan-Amerika Qadınlar Cəmiyyətidir.

Cəmiyyətin rəhbəri Minəvvər Vahabovadır. Qadınların, uşaqların və ümumiyyətlə azəri ailələrinin sosial-ictimai problemlərinin həll edilməsi, Azərbaycanla Amerika arasında körpülərin daha da güclü dayaqlar üzərində dayanmasını təmin etmək məqsədilə bu cəmiyyət yaradılmışdır. Dekabrın 26 da təşkilatın rəsmi təqdimat mərasimi keçirilmişdir.

**Noyabr 2013**

**Qırğız yazıçısı Çingiz Aytmatovun 85 illiyi münasibətilə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə "Çingiz Aytmatovun dünyası" adlı kitab nəşr olunmuşdur**

Hesabat dövrünün noyabr ayında Bişkekdə Qırğız yazıçısı Çingiz Aytmatovun 85 illiyi münasibətilə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə "Çingiz Aytmatovun dünyası" adlı kitab nəşr olunmuşdur. Qırğız xalqının dahi oğlu Çingiz Aytmatova həsr olunmuş kitabın müəllifi Azərbaycan ədəbiyyatşünası, filologiya elmləri namizədi, Bakı Dövlət Universitetinin professoru Leyla Gərayzadədir. Kitabın elmi redaktoru Bakı Dövlət Universitetinin professoru Aqil Hacıyev və redaktoru isə məşhur qırğız şairi, tərcüməçi Mukan Asanalıyevdir.

**Noyabr 2013**

**Azərbaycan Prezidenti diaspor təşkilatlarına tövsiyələrini verdi**
**Dünya Azərbaycanlılarının Onlayn Forumu keçirildi**

Dekabrın 2-də Bakı Sərgi Mərkəzində "BakuTel-2013" XIX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi açılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərgi ilə tanış olmuşdur. Bu barədə AzərTAc-ın yaydığı məlumatda bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə sərgidə təqdim olunan "Dünya Azərbaycanlılarının onlayn Forumu" haqqında da məlumat verilmişdir.

Prezident İlham Əliyev onlayn videokonfrans sistemi vasitəsilə Azərbaycan diaspor nümayəndələri qarşısında çıxış etmişdir:

- Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti genişlənir. İndi demək olar ki, Avropanın əksər ölkələrində diaspor təşkilatları vardır. Onlar təşkilatlanıblar, gözəl fəaliyyət göstərirlər. Eyni zamanda, bu gün Amerika Birləşmiş Ştatlarında, MDB məkanında-Ukraynada, Rusiyada, ümumiyyətlə, müxtəlif ölkələrdə azərbaycanlılar təşkilatlanıblar. Bu gün xaricdə yaşayan azərbaycanlılar üçün yeni imkanlar yaradılır. Eyni zamanda, Azərbaycanın dövlət maraqlarının daha da dolğun şəkildə təmin edilməsi üçün diaspor təşkilatlarının rolu çox böyükdür.

Müxtəlif ölkələrə səfərlərimdə xaricdə yaşayan azərbaycanlılarla çoxsaylı görüşlər zamanı bütün bu məsələlər geniş müzakirə edilmişdir. Bakıda keçirilmiş diaspor forumlarında mən öz ürək sözlərimi demişəm. Bir daha demək istəyirəm ki, bu gün güclü diaspor güclü Azərbaycanın imkanlarını genişləndirir. Eyni zamanda, xaricdə yaşayan hər bir azərbaycanlı hesab edirəm, haqlı olaraq qürur hiss keçirir ki, bu gün dünyada güclü Azərbaycan dövləti vardır.

Siz həmişə bilirsiniz və bilməlisiniz ki, sizin arxanızda güclü, güclənən, inkişafda olan, bu gün dünya miqyasında böyük hörmətə malik Azərbaycan dövləti dayanır. Eyni zamanda, sizin fəaliyyətiniz Azərbaycanın dövlət maraqlarının qorunması baxımından bizim üçün çox vacibdir. Bax, bu birlik bizi daha da gücləndirir.

Bu gözəl elektron xidmət vasitəsilə sizinlə bu gün təmasda olmağımdan çox məmnunam. Sizə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun!

Videokonfrans iştirakçıları dövlətimizin başçısına təşəkkürlərini bildirmişlər.

Qeyd edək ki, onlayn konfrans "BakuTel-2013" sərgisi müddətində davam edəcəkdir. Bunun üçün Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən ABŞ, Almaniya, Fransa, Hollandiya, Rusiya, Ukrayna və Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının ofislərində xüsusi avadanlıq quraşdırılmışdır.

**AzərTAc, 2 dekabr 2013-cü il**

## Dünya Azərbaycanlıların Onlayn Forumu keçirilmişdir

Azərbaycan Respublikası Prezidentinin **2013-cü il 28 may tarixli** Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2013-cü ilin informasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının 31-ci bəndinə uyğun olaraq 2-3 dekabr tarixlərində Dünya Azərbaycanlıların Onlayn Forumu keçirilmişdir. Forumun təşkili üçün xüsusi avadanlıqlar (Polycom) Dövlət Komitəsi tərəfindən ABŞ, Almaniya, Fransa, Hollandiya, Rusiya, Ukrayna və Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının ofisində quraşdırılmışdır. Bakı Sərgi Mərkəzində "BakuTel-2013" sərgisində iştirak edən Prezident İlham Əliyev onlayn videokonfrans sistemi vasitəsilə Azərbaycan diaspor nümayəndələri qarşısında çıxış etmiş və onlara tövsiyələrini vermişdir.

Hesabat dövründə Dövlət Komitəsinin təşkilatçılığı ilə xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə Azərbaycan dili, ədəbiyyatı, tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etmək məqsədilə Distant təhsil üzrə layihə reallaşdırılmışdır.

Cari ildə həmçinin dünyada yaşayan azərbaycanlıları bir araya gətirmək, təmsil olunduqları diaspor təşkilatlarının fəaliyyətini işıqlandırmaq məqsədi ilə www.azerbaycanliyiq.biz saytı istifadəyə verilmişdir. Sayt vasitəsilə soydaşlarımız həmvətənlərinin həyata keçirdiyi layihələr haqqında məlumatlanmaqla yanaşı, ölkələrində baş verən hadisələrdən də xəbərdar ola bilərlər.

**2-3 dekabr 2013**

## Moskvada mərhum jurnalist Məryəm Axundovanın xatirəsi yad edilmişdir

4 dekabr 2013-cü il tarixində Moskvada mərhum jurnalist Məryəm Axundovanın xatirəsi yad edilmişdir. ÜAK-də keçirilən tədbirdə diasporunun üzvləri, Rusiya Federasiyasindaki səfirliyinin nümayəndələriri və jurnalistin yaxın dostları və iş yoldaşları iştirak ediblər tədbirdə. Azərbaycanı jurnalist Məryəm Axundovanın oçerklərindən, müsahibələrindən bir sözlə məqalələrindən hazırlanmış kitab qonaqlara təqdim olunmuşdur. "Bir kəlmədə yalan yox"("Ni slova Lji"), "Fredi Merkuri. Oğurlanmış həyat" adlandırılan kitablara münasibət bildirən və jurnalisti xatırlayan qonaqlar onun həqiqətən saf və dürüst bir jurnlaist olduğunu bildirmişlər.

**4 dekabr 2013**

**Nazim İbrahimov son vaxtlar Ukraynada azərbaycanlılara qarşı ayrı-seçkilik hallarına münasibət bildirib**

"Ümumiyyətlə, hər hansı ölkədə baş verən istənilən hadisəni ciddi şəkildə araşdırmaq lazımdır. Yüz minlərlə azərbaycanlının yaşadığı hər hansı ölkədə müəyyən tipli hadisələr də baş verəcək. Bundan heç kim özünü sığortalaya bilməz". Bunu Trend-ə açıqlamasında Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov son vaxtlar Ukraynada azərbaycanlılara qarşı ayrı-seçkilik hallarına münasibət bildirərkən deyib.

N.İbrahimov bildirib ki, Ukraynada milli zəmində münaqişələrin baş verməsi ilə bağlı yayılan məlumatlar həqiqətəuyğun deyil: "Biz orada baş verən prosesləri milli zəmində hər hansı münaqişə səviyyəsində qaldırmaq cəhdlərini pisləmişik. Hesab edirəm ki, mətbuat orqanları da bizim bu fikrimizi qəbul ediblər və artıq öz səhifələrində bu məsələyə dəqiq, qərəzsiz, düzgün münasibət bəsləməyə başlayıblar. Bu da gələcəkdə həmin azərbaycanlıların həqiqətən də müəyyən problemlərlə üzləşməməsinə gətirib çıxaracaq".

Komitə sədrinin sözlərinə görə, hər hansı azərbaycanlı ilə bağlı baş vermiş hadisəni milli zəmində hadisə kimi qələmə vermək düzgün deyil: "Biz belə gündəlik məlumatları verməklə orada yaşayan azərbaycanlıların vəziyyətini daha ağırlaşdırmış oluruq. Rusiyada təkcə azərbaycanlılarla deyil, ümumiyyətlə digər ölkələrdən gəlmiş miqrantlarla əlaqədar baş verən proseslərə öz fikrimizi bildirmişik. Güman edirəm ki, yaxın vaxtlarda bu məsələ öz həllini tapacaq və hər şey yerində oturacaq. Hər hansı ölkənin miqrantlarla bağlı gedən prosesləri qanuniləşdirmək və yaxud bu prosesdə qayda-qanun yaratmaq istəyi normaldır. Bizim əsas vəzifəmiz isə orada yaşayan azərbaycanlıların bu prosesdən daha ağrısız çıxmağını təmin etmək, onların hüquqlarını qorumaqdır".

**5 dekabr 2013**

## Avstraliyada Azərbaycan diasporu

**Müstəqillik illərindən inkişaf etməyə başlayan Azərbaycan diasporu bu gün dünyanın dörd bir tərəfində uğurlu fəaliyyət göstərməkdədir. Avropadan tutmuş Amerikaya, Afrikadan Asiya qədər dünyanın hər bir yerində Azərbaycan diaspor təşkilatlarına rast gəlmək mümkündür. Sevindirici hal ondan ibarətdir ki, bu gün hətta yaşıl qitə hesab edilən Avstraliyada da soydaşlarımıza yaşayır və burada Azərbaycan diasporu fəaliyyət göstərir.** Məlumat üçün qeyd edək ki, dünyanın 5-ci qitəsi sayılan Avstraliyada 8 minə yaxın soydaşımız məskunlaşıb. Əsasən türkiyəli və cənublu azərbaycanlılardan ibarət olan Azərbaycan diasporunun tərkibi son 10 ildə şimaldan bura iqtisadi mühacirətin artması səbəbi ilə günü-gündən genişlənir. Ümumiyyətlə isə, Avstraliyaya azərbaycanlıların mühacirəti 1950-ci illərdən başlayır. Əvvəl Türkiyə ilə Avstraliya arasında imzalanmış miqrasiya müqavilələrinə uyğun olaraq, buraya Türkiyə azərbaycanlılarının daxil olduğu kütləvi mühacirət başlanıb. Əsasən orta sinfin nümayəndələri içərisində olan azərbaycanlılara ziyalıların çoxluq təşkil etdiyi Cənubi Azərbaycan mühacirlərinin də qoşulması burada diasporumuzun formalaşmasına şərait yaradıb. Müstəqillik əldə edildikdən sonra Avstraliyada fəaliyyətini genişləndirən soydaşlarımız buraya Azərbaycandan musiqiçilər, alimlər, yazıçılar, incəsənət ustalarını bir neçə dəfə dəvət ediblər. Sidneydə Azərbaycanla əlaqəli də müxtəlif tədbirlər həyata keçirilib. 18 ildir efirə çıxan yerli "Azərbaycanın səsi" radiosunda Azərbaycanla bağlı məlumatlar, musiqilər səslənir.

**Avstraliyada fəaliyyət göstərən yeganə Azərbaycan diaspor təşkilatı Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyidir.** Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi ilk olaraq Avstraliya-Azərbaycanlılar Birliyi adı altında 1992-ci ilin aprel ayında Sidney şəhərində təsis edilib. 2007-ci il aprel ayının 20-də keçirilən Dünya azərbaycanlılarının II qurultayından sonra Avstraliya- Azərbaycanlılar Birliyi Avstraliya- Azərbaycan-Türk Dostluq Birliyi adlanmağa başlayıb. 1993-cu il yanvarın 3-də Birliyin təşəbbüsü ilə "Azərbaycanın səsi" radiosu təsis edilib. Radionun redaktoru isə Gülzar Qasımova təyin olunub. "Azərbaycanın səsi" radiosunda mütəmadi olaraq Azərbaycanın mədəniyyəti haqqında, Azərbaycanda keçirilən tədbirlər, bayramlarla bağlı azərbaycanca və ingiliscə verilişlər hazırlanıb nümayiş olunur. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin əsas məqsədi Azərbaycanı Avstraliyada və bütün dünyada tanıtmaq, onun mədəniyyəti, siyasətini dünyaya çatdırmaq, millətçilik və lobbiçilik siyasətini yürütməkdir. Dərnək tərəfindən Avstraliya Universitetində təhsil alan azərbaycanlı tələbələrlə və müəllimlərlə mütəmadi olaraq görüşlər keçirilir, müxtəlif informasiyalar onlara çatdırılır. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi 2000-ci ildə Sidneydə keçirilən Olimpiya İdman Oyunlarına gedən azərbaycanlı idmançı və turistlərin qarşılanması, yerləşdirilməsi, oranın tarixi yerləri ilə yaxından tanış olması və s. işlərlə məşğul olub. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin sədri İmaməddin Qasımovdur. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi və Türk Quruluşları Federasiyasının təşkilatçılığı ilə hər il Avstraliyanın ən böyük məscidi olan Gelibolu Camisində Xocalı soyqırımı anılır. Belə anım tədbirlərindən biri cari ilin fevral ayında keçirilib. Belə ki, Avstraliyanın ən böyük məscidi olan Sidneydəki Gelibolu Camisində 3000-dən artıq insanın iştirak etdiyi Cümə namazından öncə də Xocalı faciəsi barədə ətraflı məlumat verilib, Xocalı qurbanlarının ruhuna "Yasin" oxunub və dualar edilib. Həmən gün Türk Dayanışma Dərnəyinin binasında "Türk Evi"ndə (Turkish House)-da Azərbaycan, Türkiyə, Uyğur, Türkmən və digər türk toplumlarının, yerli ictimaiyyətin nümayəndələrinin, o cümlədən Avstraliyada təhsil alan azərbaycanlı tələbələrin iştirakı ilə anım tədbiri də keçirilib. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi və "Azərbaycanın səsi" radiosunun təşəbbüsü ilə keçirilən tədbirdə Heydər Əliyev Fondu tərəfindən Xocalı faciəsi ilə bağlı hazırlanaraq yerli diasporaya göndərilən videomateriallar nümayiş olunub, kitablar və broşürlər da paylanıb. Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin prezidenti İmamətdin Qasımov iştirakçılara Xocalı soyqırımının dəhşətləri haqqında məlumat verərək, Türkiyə-Azərbaycan birliyinin bu hadisənin dünya ictimaiyyətinə çatdırılmasında önəmli rol oynadığını vurğulayıb. O, 1992-ci ilin 26 fevral gecəsi keçmiş sovet ordusunun yardımı ilə erməni silahlılarının Xocalı şəhərində törətdiyi vəhşiliklərin əvvəlcədən hazırlanmış planın tərkib hissəsi olduğunu deyərək, bu cinayətin təkcə Azərbaycan türklərinə qarşı deyil, bütün türk dünyasına qarşı həyata keçirildiyini vurğulayıb. 2000 FM Radiosunda 19 ildir efirə çıxan "Azərbaycanın səsi"radio proqramının rəhbəri Gülzar Qasımova isə Xocalı faciəsi ilə bağlı xüsusi proqram yayımladıqlarını və dinləyicilərə ətraflı məlumat verdiklərini deyib. O, Xocalı soyqırımı zamanı 63-ü uşaq və 106-sı qadın olmaqla 613 nəfərin vəhşicəsinə öldürüldüyünü qeyd edərək, bu hadisənin XX əsrin ən dəhşətli cinayətlərindən biri olduğunu qeyd edib. Digər çıxış edənlər, Türk Dayanışma Dərnəyinin rəhbəri Bəşir Karasu və Türk Quruluşları Federasiyasının prezidenti Dursun Candəmir də çıxış edərək ermənilərin Azərbaycan türklərinə qarşı törətdiyi vəhşiliyi lənətləyiblər. Ermənistanın Azərbaycana qarşı təcavüzünü və hələ də Azərbaycanın ərazisinin 20 faizini işğal altında saxladığını da pisləyiblər. Tədbirin sonunda Azərbaycan və Türkiyə icmalarının azərbaycanlıların soyqırımı və Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin Avstraliya ictimaiyyətinə çatdırılmasında koordinasiyalı rolu və gələcək planları barədə fikir mübadiləsi də aparılıb.

Anım mərasimində Xocalı soyqırımına aid foto sərgi də nümayiş etdirilib. Təşkilat Azərbaycanın milli bayramlarını da yaşıl qitədə geniş səviyyədə qeyd edir, bu məqsədlə müxtəlif tədbirlər keçirir. Belə ki, Avstraliyanın Sidney şəhərində birliyin təşkilatçılığı ilə 28 May - Respublika Günü münasibətilə tədbir keçirilib. Tədbirə Azərbaycan və Türkiyə icmalarının nümayəndələri, o cümlədən Avstraliyada təhsil alan azərbaycanlı tələbələr qatılıb. Tədbirdə Azərbaycanın tarixi və 1918-1920-ci illərdə müsəlman Şərqində ilk demokratiya institutu olan Azərbaycan Demokratik Respublikasının mütərəqqi addımları barədə məlumat verilib. Cəmiyyətin prezidenti İmaməddin Qasımov 1918-ci ildə ölkə parlamentinin qərarı ilə qadınlara seçki hüququ verilməsi ilə Azərbaycanın qadınlara kişilərlə bərabər siyasi hüquqların verilməsi sahəsində nəinki şərqdə ilk, həm də ABŞ (1920), Britaniya (18-28), Fransa (1944) kimi ölkələri qabaqlayaraq Qərb ölkələri arasında da ilk sıralarda yer aldığını vurğulayıb. Sidney Texnologiya Universitetinin inşaat və ətraf mühit mühəndisliyi fakültəsinin baş müəllimi və koordinatoru Şəmsəddin Nicat Azərbaycan dilində vətənpərvərlik ruhunda yazdığı şeirləri oxuyub. Daha sonra Azərbaycan Demokratik Respublikasının uğurları, yenidən müstəqillik qazandıqdan sonra Azərbaycanın keçdiyi yol, Dağlıq münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı və digər mövzular ətrafında müzakirə aparılıb. Həmçinin təşkilat Azərbaycan və Türk icmasının kompakt yaşadıqları Obern (Auburn) qəsəbəsində də hər il Novruz və digər bayramlarımızı qeyd edir.

Bir müddət əvvəl isə **Avstraliyadakı azərbaycan icmasının rəsmi veb-səhifəsini istifadəyə verilib. Belə ki, bundan sonra** Avstraliyadakı Azərbaycan icması ilə bağlı bütün xəbərləri bu saytda (azeri.com.au) izləmək və xəbərlərə abunə yazılmaq mümkün olacaq. Sayt Avstraliya milli domenində yerləşir. Veb-səhifədə Avstraliya-Azərbaycan əlaqələrinə həsr olunmuş ayrıca bölmə var. Azərbaycana viza almaq, səfər etmək istəyənlər üçün məsləhətlər, ölkəmiz haqqında geniş məlumat, fotolar və xəbərlər də saytda yer alıb. Bundan başqa Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin təşkil etdiyi tədbirlər, Avstraliyada fəaliyyət göstərən "Azərbaycanın Səsi" radiosunda efirə gedən verilişlər də saytda yerləşdiriləcək.

Müsbət məqamlardan biri ondan ibarətdir ki, Azərbaycanın Avstraliyadakı səfirliyi də diasporun inkişafına öz töhfəsini verir, bu qitədə yaşayan soydaşlarımızın problemləri ilə müntəzəm olaraq maraqlanır. Bir müddət əvvəl səfirlikdə bu ölkədəki azərbaycanlı icmasının tanınmış üzvləri və fəalları ilə görüş keçirilib. Görüşün əsas məqsədi Avstraliyada yaşayan həmvətənlərimiz arasında təşkilatlanma işinin daha da möhkəmləndirilməsi, azərbaycanlıları birləşdirən qurumların vahid əlaqələndirmə mərkəzinin formalaşdırılması və erməni icmasının ölkəmizin milli maraqları əleyhinə, xüsusilə işğal olunmuş Dağlıq Qarabağın Avstraliyanın yerli və federal qanunverici orqanları tərəfindən tanınması istiqamətində intensiv fəaliyyətinin zərərsizləşdirilməsi məqsədilə prioritetlərin müəyyənləşdirilməsi olub. Tədbirdə çıxış edən Azərbaycanın Avstraliya İttifaqındakı səfiri Rövşən Cəmşidov iştirakçıları tədbirin məqsədi, Azərbaycan hökumətinin son illər ərzində apardığı uğurlu daxili və xarici siyasəti, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, xarici ölkələrdəki diaspor təşkilatlarına verilən dəstək və bu dəstəyi zəruri edən amillər, Avstraliyadakı erməni icmasının ölkəmizə qarşı apardığı fəaliyyət barədə məlumatlandırıb: “Avstraliyadakı erməni diasporunun əsas təşkilatı – Avstraliya Erməni Milli Komitəsi (ANCA) Türkiyə ilə yanaşı, ölkəmiz haqda mənfi rəy formalaşdırmağa çalışır. Təəssüflər olsun ki, bu yalan kampaniyası əksər hallarda Azərbaycana da qarşı həqiqətə uyğun olmayan məlumatlar yaymaqla cəmiyyətdə ölkəmiz haqda kifayət qədər məlumatın olmamasından istifadə edilərək həyata keçirilir. Bu bədnam fəaliyyətin qarşısının alınması məqsədilə ilk addım Azərbaycan həqiqətlərinin Avstraliya cəmiyyətinə düzgün çatdırılmasını təmin etmək və bu istiqamətdə əlaqəli və mərkəzləşdirilmiş qaydada hərəkət etmək olmalıdır”. Tədbirdə çıxış edən “Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi”nin sədri İmamətdin Qasımov görülən işlər barədə məlumat verərək, yerli hakimiyyət orqanları, ictimai təşkilatlar və digər türkdilli xalqların diaspor quruluşları ilə aparılan əməkdaşlıqdan danışıb. Sonda irəli sürülən təkliflər əsasında Avstraliyanın azərbaycanlı icmasının üzvilərinin təmsil olunduğu qurumların vahid federasiya və ya konfederasiya formatında birləşdirilməsi qərara alınıb və bu istiqamətdə ilk addımlardan biri kimi Sidney şəhərində azərbaycanlıların ümumi təsis yığıncağının təşkili ideyası qəbul olunub. Könüllülük prinsipi ilə doqquz nəfərdən ibarət müvəqqəti idarə heyəti seçilib, idarə heyətinin vəzifələri kimi yaradılacaq qurumun əsasnaməsinin hazırlanması və Sidneydə keçiriləcək toplantının təşkil edilməsi müəyyənləşdirilib.

**“Olaylar”.-2013.-7 dekabr.-№ 222.-S.15.**

**Türkiyənin Kanal A televiziyasının "A+Ekonomi" proqramında Türkiyədə fəaliyyət göstərən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) və Azərbaycan Kültür Evinin fəaliyyəti haqqında reportaj yayımlanmışdır**

Türkiyənin Kanal A televiziyasının "A+Ekonomi" proqramında Türkiyədə fəaliyyət göstərən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) və Azərbaycan Kültür Evinin fəaliyyəti haqqında reportaj yayımlanmışdır.Proqramda TADEF sədri Bilal Dündar Azərbaycanla Türkiyəni birləşdirəcək Bakı-Tiflis-Qars (BTQ) dəmiryolu xətti, Bakı-Tiflis-Ərzurum qaz boru kəməri və Bakı-Tiflis-Ceyhan neft kəməri haqqında geniş məlumat vermişdir.Eyni zamanda 2012-ci ilin noyabrında Azərbaycan və Türkiyə hökumət nümayəndələrinin, millət vəkillərinin, KİV nümayəndələrinin iştirakı ilə təntənəli açılışı olmuş Azərbaycan Kültür Evində təşkil olunmuş Xocalı soyqırımı muzeyinin əhəmiyyəti də qeyd edilərək 23 mindən çox insanın ziyarət etdiyi vurğulanmışdır.

**09 dekabr 2013**

**Nigar Rəfibəylinin 100 illik yubileyinə həsr olunmuş ədəbi-tarixi bədii gecə keçirilmişdir**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Nigar Rəfibəylinin 100 illik yubileyinin keçirilməsi barədə Sərəncamına əsasən 2013-cü il dekabrın 9-da Berlində şairənin yubileyinə həsr olunmuş "Uzaq-yaxın tanışlar" ədəbi-tarixi bədii gecə keçirilmişdir. Tədbir Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrası, Avropa Azərbaycanlıları Konqresi və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin təşkilatçılığı və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Almaniyadakı nümayəndəliyinin dəstəyi ilə təşkil edilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Almaniya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Pərviz Şahbazov, Azərbaycan Yazıçılar İttifaqının sədri, yazıçı Anar Rzayev, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, alman alimləri, Azərbaycan və türk diaspor təşkilatlarının nümayəndələri və KİV təmsilçiləri iştirak etmişlər.AAK-nın prezidenti Samira Patzer-İsmailova tədbiri giriş sözlə açaraq qonaqlara Nigar Rəfibəylinin həyat və yaradıcılığı haqqında məlumat vermişdir.

Daha sonra Berlin Humbold Universitetinin Azərbaycan tarixi kafedrasının rəhbəri Prof.,Dr. Eva-Maria Aux Nigar Rəfibəylinin ailəsi, gəncliyi və yaradıcılığı haqqında mühazirə söyləmişdir. Tədbirin 1-ci hissəsinin sonunda Nigar Rəfibəylinin şerləri Marina Ştaynhauzer tərəfindən alman dilində oxunmuşdur. Tədbirin ikinci hissəsində "Sizinlə Sizsiz" - ailədə ənənələr cəmiyyətin təzahürü kimi" mövzusu ətrafında Berlin Humbold Universitetinin Azərbaycan tarixi kafedrasının rəhbəri Prof.,Dr. Eva- Maria Aux, teatr rejissoru Peter Vittiq, Azərbaycan Respublikası Yazıçılar İttifaqının sədri və AAK-nin prezidenti fikir mübadiləsi aparmışlar. Daha sonra yazıçı Anar Rzayevin əsərləri alman sənətkarları tərəfindən alman dilində oxunmuşdur.

**10 dekabr 2013**

**Diaspor fəaliyyətinin hərəkətverici qüvvəsi-Azərbaycan Mədəniyyət Mərkəzi**

Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, zəngin tarixi-mədəni irsimizin təbliğ edilməsində müxtəlif ölkələrdə açılan Azərbaycan Mədəniyyət Mərkəzlərinin də müstəsna rolu var. Belə mərkəzlərdən biri cari ilin may ayında Avstriyada fəaliyyətə başlayıb. Məlumat üçün qeyd edək ki, Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 noyabr 2012-ci il Sərəncamı əsasında Avstriyada Azərbaycan mədəniyyətini təbliğ etmək məqsədilə yaradılıb. Mərkəzin əsas hədəfi Avstriya ictimaiyyətinin Azərbaycanı yaxından tanıması üçün Azərbaycanın zəngin mədəniyyəti, incəsənəti, turizm imkanları barədə müxtəlif səpkili tədbirlər təşkil etməkdir. Fəaliyyət istiqamətlərinə həmçinin Azərbaycan dili kurslarının təşkili, müraciət edənlərə Azərbaycan müəlliflərinin əsərlərinin toplandığı zəngin kitabxana və mediateka ilə xidmət göstərmək daxildir. Mərkəzin qonaqları kitabxanada Azərbaycan ədəbiyyatının klassikləri Nizami, Nəsimi və Füzulidən tutmuş müasir ədəbiyyatımızın görkəmli nümayəndələrinə kimi çoxlu sayda yazıçı və şairlərin əsərləri ilə tanış ola bilirlər.

Mərkəzdə mütəmadi şəkildə təşkil olunan musiqi axşamlarında Azərbaycan xalq musiqisi ilə yanaşı görkəmli bəstəkarların əsərlərinin səsləndirildiyi konsert proqramlarını dinləmək imkanı əldə edilir. Mədəniyyət Mərkəzində təşkil olunan sərgilər sayəsində isə Azərbaycanın rəngkarlıq, heykəltəraşlıq və tətbiqi xalq sənətinin ən maraqlı nümunələri sənətsevərlərin sərəncamına verilir. Mərkəzin məqsədi həm Avstriyanın mədəniyyət və turizm qurumları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığı inkişaf etdirmək, həm də bu ölkədə fəaliyyət göstərən digər dövlətlərin mədəniyyət mərkəzləri ilə sıx əlaqələr quraraq, mədəniyyətlərarası dialoqa töhfə verməkdir.

Cari il, may ayının 13-də Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Dövlət başçısı dünya mədəniyyəti paytaxtlarından biri sayılan Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışını iki ölkənin münasibətləri tarixində əlamətdar hadisə kimi qiymətləndirib. Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimində iştirak etməkdən şərəf duyduğunu deyən Avstriya parlamentinin vitse-spikeri Frits Noyqebauer ölkələrimiz arasında dostluq münasibətlərinin hökm sürdüyünü vurğulayıb.

Fəaliyyətə başladığı qısa müddət ərzində Azərbaycan Mədəniyyət Mərkəzi Avstriyada Azərbaycanla bağlı bir sıra tədbirlər keçirib. Noyabrın 28-də Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın görkəmli pianoçusu, Xalq Artisti, professor Zöhrab Adıgözəlzadənin xatirəsinə həsr olunmuş konsert keçirilib. Tədbiri giriş sözü ilə açan Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova deyib ki, görkəmli pianoçu uzun müddət Vyana və bu şəhərin musiqisevərləri ilə bağlı olub, dəfələrlə burada tanınmış orkestrlərlə birgə konsertlər verib. Tədbirin "Culture Meeting Point" təşkilatı ilə birgə təşkil olunduğunu vurğulayan Leyla Qasımova bildirib ki, mədəniyyət mərkəzinin əsas məqsədi yalnız öz tədbirlərini diqqət mərkəzində saxlamaq deyil, eləcə də Avstriyadakı digər təşkilatlarla birgə həyata keçirilən layihələr çərçivəsində mədəniyyətlərarası dialoqa və qarşılıqlı anlaşmaya töhfə verməkdir. "Culture Meeting Point" təşkilatının musiqi şöbəsinin rəhbəri, musiqişünaslıq üzrə fəlsəfə doktoru Fərəh Tahirova tanınmış pianoçu, pedaqoq və bəstəkar Zöhrab Adıgözəlzadənin həyat və yaradıcılığından, onun Azərbaycanda və Türkiyədə klassik musiqi sənətinin inkişafına verdiyi töhfələrdən danışıb. Qeyd edilib ki, Z. Adıgözəlzadə Avstriyada ilk dəfə 15 il əvvəl, 1998-ci il noyabrın 28-də "Yunus İmre" kvarteti ilə birgə konsert verib və tədbirin belə bir məkanda təşkili mərhum musiqiçinin ruhunu da şad edir. Eyni zamanda, F. Tahirova Azərbaycan Mədəniyyət Mərkəzinə ölkəmizin mədəniyyətini və görkəmli şəxsiyyətlərini tanıtmaq üçün həyata keçirilən tədbirlərə görə məmnunluğunu ifadə edib. Tədbirin bədii hissəsində Türkiyənin Eskişehir Anadolu Universitetinin nəzdində fəaliyyət göstərən "Yunus Emre" kvarteti və pianoçu Fərid Adıgözəlzadə birgə konsert proqramı ilə çıxış ediblər. Konsertdə məşhur Azərbaycan və türk bəstəkarları Qara Qarayev, Ülvi Camal Erkin, FiNoyabrın 5-də Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli yazıçı, böyük alim və pedaqoq Mir Cəlal Paşayevin xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib. Tədbirdə Avstriyada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri, Vyanada fəaliyyət göstərən bəzi ölkələrin mədəniyyət mərkəzlərinin əməkdaşları, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar iştirak ediblər.

Azərbaycan Mədəniyyət Mərkəzi tanınmış yazıçı, mərhum Mir Cəlal Paşayevin 105 illiyini də geniş şəkildə qeyd edib. Mərkəzin rəhbəri Leyla Qasımova tədbirdə çıxış edərək Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında əvəzsiz rol oynamış Mir Cəlal Paşayevin həyat və yaradıcılığından danışıb, bu il yazıçının 105 illik yubileyinin həm Azərbaycanda, həm də xarici ölkələrdə silsilə tədbirlərlə qeyd olunduğunu diqqətə çatdırıb. Mir Cəlalın ədəbi yaradıcılığı ilə yanaşı, Azərbaycanda ədəbi tənqid məktəbinin banilərindən biri olduğunu qeyd edən Leyla Qasımova yazıçını tələbələrinin sevimlisi olan, işlədiyi kollektivdə böyük hörmət qazanan, kiçikdən böyüyə hamıya mehribanlıq və səmimiyyətlə yanaşan müəllim, iş yoldaşı, ailə başçısı kimi xarakterizə edib. Bildirib ki, Vətəni Azərbaycan üçün layiqli övladlar böyütmüş görkəmli şəxsiyyətə ən yaxşı əsəri barədə ünvanlanmış suala fəxrlə "Mənim ailəm mənim ən yaxşı əsərimdir" cavabını verib.

Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov çıxışında Azərbaycan ədəbi-bədii fikrində və elmində özünəməxsus yeri olan Mir Cəlal Paşayevin yaradıcılığının ölkəmizdə və onun hüdudlarından kənarda geniş tanındığını, 2008-2009-cuillərdə UNESCO-nun dünya miqyaslı hadisələrin və şəxsiyyətlərin yubileylərinin qeyd olunması ilə bağlı qərarına Mir Cəlal Paşayevin də adının daxil edildiyini, bu təşkilat çərçivəsində görkəmli yazıçının 100 illik yubileyinin geniş qeyd edilməsinin əlamətdar hadisə olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, görkəmli alimin "Füzuli sənətkarlığı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "XX əsr Azərbaycan ədəbiyyatı" kimi elmi iş və monoqrafiyaları onilliklərdən bəri ali təhsil ocaqlarında tədris vəsaiti kimi istifadə olunmaqdadır. Tədbirin bədii hissəsində Vyana Universitetinin doktorantı Yaqut Abdalla və Ştefan Rollfinke Azərbaycan və alman dillərində yazıçının məşhur "Anket Anketov", "Ay İsmayıl, bir başa sal!" və "Öyrəncəkli" hekayələrindən parçalar oxuyublar. Skripkaçı Stefan Kamilarov pianoda Marqarete Babinskinin müşayiəti ilə Qara Qarayev, Volfqanq Amadey Motsart və Ludviq van Bethovenin əsərlərini ifa edib. Tədbirdə Mir Cəlalın həyatının müxtəlif dövrlərini əks etdirən fotolar əsasında hazırlanmış videomaterial nümayiş olunub. Həmçinin Fikrət Əmirov və başqalarının kvartet və fortepiano üçün əsərləri ifa edilib.

Azərbaycan Mədəniyyət Mərkəzində həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyətin nümayəndələri, bu ölkədə yaşayan azərbaycanlılar iştirak ediblər. Mərkəzin rəhbəri Leyla Qasımova tədbirdə çıxış edərək bildirib ki, 100 il bundan əvvəl Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının Bakıda ilk tamaşası göstərilib. İlk gündən tamaşaçıların böyük rəğbətini qazanan əsər 60-dan artıq dilə tərcümə edilib, dünyanın 160-dan çox ölkəsində nümayiş olunub. Leyla Qasımova deyib ki, ölməz sənət incisinin nümayiş olunduğu şəhərlər siyahısında dünya klassik musiqisinin paytaxtı Vyana şəhəri də olub. 2006-cı ildə Vyana Kamera Operasında avstriyalı aktyor heyətinin iştirakı ilə əsər alman dilində təqdim olunub. Həmçinin qeyd edilib ki, 2013-cü ildə UNESCO-nun Baş Konfransının 36-cı sessiyasında "Arşın mal alan" operettasının 100 illik yubileyinin dünya səviyyəsində qeyd olunması haqqında qərar qəbul olunub. Buna görə də əsərin yubileyi nəinki Azərbaycanda, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda da geniş qeyd edilir. Sonra Azərbaycan kino tarixinin ən dəyərli incilərindən olan Rəşid Behbudov, Leyla Bədirbəyli, Münəvvər Kələntərli, Lütfəli Abdullayev, Fatma Mehrəliyeva, Mirzəağa Əliyev kimi ölməz sənətçilərin rol aldığı "Arşın mal alan" filmi nümayiş olunub. Film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

May ayında isə Azərbaycanın Avstriyadakı səfirliyi və Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə 28 May – Respublika Günü münasibətilə Vyananın "Konzerthaus" mədəniyyət evində Azərbaycan və Avstriya musiqiçilərinin birgə konserti olub. Konsert proqramında Azərbaycanın Xalq Artisti, tanınmış tarzən, professor Ramiz Quliyev Avstriyanın "Concilium musicum Wien" orkestri ilə birgə çıxış edib. Gənc dirijor Əyyub Quliyevin rəhbərliyi ilə keçən klassik musiqi axşamında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib. Konsertdə Milanda yaşayıb fəaliyyət göstərən azərbaycanlı opera müğənnisi Yusif Eyvazov Üzeyir Hacıbəylinin, Françesko Çileanın və digər bəstəkarların operalarından ariyalar ifa edib. Tədbirdə Avstriya hökumətinin nümayəndələri, Vyanada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, avstriyalı musiqisevərlər və həmvətənlərimiz iştirak ediblər.

**"Olaylar".-2013.-11 dekabr.-№ 224.-S.15.**

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin IV toplantısı keçirilmişdir**

Avstraliyanın Brisbane şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin IV toplantısı keçirilmişdir.Toplantıda həmsədrlər - Latviyanın sabiq prezidenti xanım Vaira Vike-Freiberga, İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin, habelə Bolqarıstanın sabiq prezidenti Petar Stoyanov, Qırğızıstanın sabiq prezidenti Roza Otunbayeva, səfir Valter Füst və Gürcüstan Universitetinin Qəyyumlar Şurasının sədri Giuli Alasaniya iştirak etmişdir.

İclasda mərkəzin təsis olunduğu tarixdən reallaşdırılan layihələr, mərkəzin institutsionallaşması istiqamətində görülən işlər və administrativ fəaliyyəti əhatə edən hesabat dinlənilmişdir. Bununla yanaşı, 2014-cü il Aprel ayında Bakıda keçirilməsi nəzərdə tutulan II Müştərək Cəmiyyətlər Forumuna hazırlıq və mərkəz tərəfindən reallaşması vacib olan elmi-akademik layihələr müzakirə olunmuşdur.

**11 dekabr 2013**

**Rusiya Federasiya Şurasının Azərbaycan Milli Məclisi ilə ikitərəfli parlamentlərarası komissiyasının on birinci iclası keçirilmişdir**

12 dekabrın 2013-cü il tarixində Moskva şəhərində Rusiya Federasiya Şurasının Azərbaycan Milli Məclisi ilə ikitərəfli parlamentlərarası komissiyasının on birinci iclası keçirilmişdir. İclasda Milli Məclis sədrinin müavini, parlamentlərarası komissiyanın həmsədri Valeh Ələsgərovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Görüşdə Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Rizvan Əliyev Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Ümumrusiya Azərbaycan Konqresinin icraçı direktoru İlqar Hacıyev iştirak etmişlər.

Rusiya Federasiya Şurası sədrinin müavini, komissiyanın Rusiya tərəfindən yeni seçilmiş həmsədri İlyas Umaxanov, komissiyanın 10-cu iclasından ötən bir il ərzində Azərbaycanda olduqca önəmli hadisələrin baş verdiyini, prezident seçkilərinin keçirildiyini söyləyib. İ.Umaxanov komissiya üzvləri adından Azərbaycan prezidenti İlham Əliyevi seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik etmişdir.

**12 dekabr 2013**

**Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər həyata keçirilmişdir**

**Bu ilin dekabr ayında** Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər həyata keçirilmişdir. Belə ki, Kanadada Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır" mövzusu ətrafında dəyirmi masa keçirilimişdir. Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyasının təşkil etdiyi dəyirmi masada Ulu öndərin milli mədəniyyətimizin inkişafı istiqamətində göstərdiyi xidmətlər, dünya azərbaycanlılarının dünyanın istənilən nöqtəsinə yayılmasından asılı olmayaraq daim bir araya gətirməsi, onun gələcək nəsillərə ləyaqətli örnək sayılan bu ulu irsi ətrafında müzakirələr aparılmışdır.

**11 dekabr 2013-cü il tarixdə** "Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) Azərbaycan diasporunun rəhbəri Samir İmanov xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 10-cu ildönümü ilə bağlı anma tədbiri keçirmişdir. Dubayda ingilis dilində nəşr olunan "Gulf News" qəzetində tədbir haqqında "BƏƏ-dəki Azərbaycan diasporu ulu öndər Heydər Əliyevin xatirəsini yad etmişdir" sərlövhəli məqalə dərc edilmişdir.

**Cari ilin 12 dekabr tarixində** Macarıstanın Budapeşt şəhərində Azərbaycan Respublikasının Macarıstandakı Səfirliyində ümummilli lider Heydər Əliyevin vəfatının 10-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir. Mərasimdə Macarıstanın ictimai-siyasi xadimləri, bir neçə digər ölkələrin diplomatik korpus nümayəndələri, Macarıstanda yaşayan Azərbaycan diaspor nümayəndələri və Azərbaycan-Macarıstan Gənclər Birliyininn üzvləri iştirak ediblər. Anım mərasimində Liszt Ferenc Musiqi Akademiyasında təhsil alan yerli və xarici sənətçilərdən tərəfindən həzin vokal səslənmişdir.

**2013-cü ilin dekabr ayının 12-də** Ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilmişdir. Azərbaycan Nyu-York Assosiasiyasının nümayəndələri Ümummilli Liderin vəfatı ilə əlaqədar olaraq ehsan vermişlər. Ehsan mərasimində Nyu-Yorkda yaşayan azərbaycanlılar fəal iştirak etmişlər.

**2013-cü il dekabrın 12-də** Rumıniyanın Buxarest şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Xiyabanında Azərbaycan xalqının ümummilli liderinin vəfatının 10-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycanın Buxarestdəki səfirliyinin, Heydər Əliyev Fondunun, Dövlət Neft Şirkətinin Rumıniya nümayəndəliklərinin əməkdaşları, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti, Rumıniya-Azərbaycan Sənaye və Ticarət Palatası, Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası İdarə Heyətinin üzvləri, türk-tatar icmasının təmsilçiləri, Heydər Əliyev adına təqaüdə layiq görülmüş tələbələr, Rumıniyada yaşayan və təhsil alan azərbaycanlılar iştirak etmişlər.

**Bu ilin dekabrın ayının 12-də** Monrtreal şəhərində Assosiasiyanın mərkəzində Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar olaraq dəyirmi masa təşkil edilmişdir. Masa ətrafında Ümummilli liderin quruculuq siyasəti, hakimiyyətdə olduğu müddətdə siasi fəaliyyətinin əsas istiqamətləri, xalq qarşısında əvəzolunmaz xidmətləri müzakirə edilmişdir. Dəyirmi masada on il ərzində - 1993-2003-cü illərdəAzərbaycanın böyük, uğurlu yol keçdiyi, dövlət quruculuğu prosesinin uğurla aparılması və gözəl nəticələrə gətirib çıxarildığı vurğulanmışdır. Bu illərdə Müstəqil Azərbaycanın Konstitusiyasının qəbulu, Qanlı Yanvar faciəsinə hüquqi və siyasi qiymət verilməsi qeyd edilmişdir.

**2013-cü il dekabrın 12-də** Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyi tərəfindən Avropa Azərbaycanlıları Konqresi və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi ilə əməkdaşlıq nəticəsində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Xalqın taleyinə bağlı ömür" tədbiri keçirilmişdir. Xatirə Gecəsi "Azərbaycan deyəndə....." sənədli filminin nümayişi ilə başlamışdır.

**12 dekabr 2013-cü il tarixində** İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası nəzdində Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının onuncu ildönümünə həsr olunmuş açıq qapı günü keçirilmişdir. Həmin gün mədəniyyət mərkəzinə sovet dövründə və müstəqillik illərində uzun müddət Azərbaycana rəhbərlik etmiş şəxsiyyətə ehtiramını bildirmək istəyən çoxlu İsrail vətəndaşı gəlmişdir. Heydər Əliyev hazırda ölkəmizin hüdudlarından uzaqda yaşayan keçmiş Azərbaycan vətəndaşlarının yaddaşında müdrik və uzaqgörən dövlət xadimi, mehriban və qayğıkeş insan və həqiqi beynəlmiləlçi kimi silinməz iz qoymuşdur.

Mədəniyyət mərkəzinə gələnlər Diasporla İş üzrə Dövlət Komitəsinin təqdim etdiyi, Ulu Öndərin ömür yoluna həsr olunmuş ədəbiyyatla tanış olmuş, onun maraqlı bioqrafiyasından sətirləri və Heydər Əliyevin sitatlarından ibarət "Müdrik sözlər" məcmuəsində toplanmış "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!", "Qürur duyuram ki, Azərbaycan müstəqil, azad və güclü dövlətdir!" kimi məşhur sözləri və aforizmləri dönə-dönə oxumuşlar.

**2013-cü il dekabrın 12-də** Fransada fəaliyyət göstərən Paris "Azərbaycan Evi" Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirmişdir. Tədbirdə Fransada calışan və təhsil alan bir sıra soydaşlarımız fəal iştirak etmişlər.

**2013-cü il 13 dekabr tarixində** Saksoniya əyalətinin paytaxtı Drezden şəhərində fəaliyyət göstərən Alm.Az Drezden Almaniya - Azərbaycan Dostluq cəmiyyətinin təşkilatçılığı ilə Müstəqil Azərbaycanın memarı Heydər Əliyev Cənablarının xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə həmyerlilərimizlə yanaşı, Saksoniya əyalətinin nüfuzlu şəxsiyyətləri də iştirak etmişlər.

**13 dekabr 2013-cü il tarixində** Benilüks Azərbaycanlıları Konqresinin Amsterdamda yerləşən baş qərargahında Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Ölməz Ulu Öndər-Heydər Əliyev" adlı anım mərasimi keçirilmişdir.Tədbirdə Benilüks Azərbaycanlıları Konqresinə daxil olan təşkilatların rəhbərləri, siyasi xadimlər, ziyalılar, Azərbaycan, türk, yəhudi icmalarının nümayəndələri, iş adamları iştirak etmişlər. Tədbir zamanı iştirakçılara Heydər Əliyevin həyatından bəhs edən film nümayiş olunmuş, dahi şəxsiyyətə həsr olunmuş və müxtəlif dillərdə çap olunmuş kitablar paylanmışdır.

Benilüks Azərbaycanlıları Konqresinin, "Caspian International Company Amsterdam" şirkətinin sponsorluğu ilə İsveçrənin WMC şirkətində sifariş verilmiş və üzərində Ümummilli liderin portreti hekk olunmuş qol saatları rəsmi qonaqlara hədiyyə edilmişdir.

**2013-cü il 14 dekabr tarixində** Danimarkada fəaliyyət göstərən "Vətən" cəmiyyəti Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirmişdir. Mərasim zamanı tədbir iştirakçıları çıxış etmişlər və sonda Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş olunmuşdur.

**2013-cü ilin dekabrın 14-də** Haaqa şəhərində "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin yeni binasının açılışı olub. Yenicə açılmış ofisdə keçirilmiş ilk tədbir Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi olmuşdur. Cəmiyyətin sədri Mayisə Ağamirzəyeva binada Niderlandda yaşayan azərbaycanlı uşaqlara dilimizi və ədəbiyyatımızı aşılamaq üçün dahi şairimiz Nizami Gəncəvinin adını verdikləri kiçik tədris mərkəzinin fəaliyyət göstərməyə başladəğını tədbir iştirakçılarının nəzərinə çatdırmışdır. Açılış mərasiminə Niderlandda fəaliyyət göstərən cəmiyyət və qurumlardan, Azərbaycanın Niderland Krallığında fəaliyyət göstərən səfirliyindən nümayəndələrlə yanaşı, burada yaşayan bir çox azərbaycanlılar da dəvət edilmişdirlər. Tədbirdə azərbaycanlı sənətçilər də iştirak etmişdir.

**18 dekabr 2013-cü il tarixində** Almaniyada fəaliyyət göstərən Alman-Azərbaycan Mədəniyyət cəmiyyəti Bielefeld şəhərində yerləşən Real Schule məktəbində Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir. Anım mərasiminə Dövlət iş adamları Adem bəy Tumay, Alman SPD partiyasından Yuliyana Volmer, bələdiyyə təşkilatlarından Herr-Herrmann, Frau-Rönnau, başqa cəmiyyət nümayəndələrindən Atatürkçü –Düşüncə dərnəyi başqanı Mehmet-Ali -Ölmez, Alevi -Kültür dərnəyi başqanı Bülent Yilmaz, İsmayil-Nefis və digər iş adamları mərhum Ulu Önder Heydər Əliyevin anım mərasiminə dəvət olunmuşdurlar.

**12-18 dekabr 2013**

**“Ana Vətən” Niderland Azərbaycanlı Qadınlar Birliyinin yeni ofisinin və birliyin təşkil etdiyi Nizami Gəncəvi adına Azərbaycan məktəbinin açılış mərasimi olmuşdur**

Dekabrın 14-də Niderland Krallığında fəaliyyət göstərən “Ana Vətən” Niderland Azərbaycanlı Qadınlar Birliyinin yeni ofisinin və birliyin təşkil etdiyi Nizami Gəncəvi adına Azərbaycan məktəbinin açılış mərasimi olmuşdur. Bu barədə birliyin mətbuat xidmətindən məlumat verilmişdir. Açılış mərasimində Azərbaycan Respublikasının Niderland Krallığında fəaliyyət göstərən səfirliyinin nümayəndələri, Benilüks Azərbaycanlılar Konqresinin, Hollandiyada Azərbaycan Türk Kültür Dərnəyinin, Azərbaycanın Hollandiyalı Dostları Cəmiyyətinin, eləcə də Niderlandda fəaliyyət göstərən başqa cəmiyyətlərin üzvləri, ziyalılar, Türkiyə mətbuatının nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan “Ana Vətən” Niderland Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyeva iki gün öncə ümummilli lider Heydər Əliyevin vəfatının 10 illiyinin böyük hüznlə qeyd edildiyini diqqətə çatdıraraq ulu öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş etmişdir.

Cəmiyyət sədri daha sonra cəmiyyətin yaranma tarixindən, fəaliyyətindən söz açaraq qeyd etmişdir ki, 2004-cü ildə yazıçı və ziyalı xanım Gülşən Lətifin rəhbərliyi ilə yaranan və fəaliyyət göstərən birliyin əsas məqsədi Azərbaycanın tarixini, mədəniyyətini, elmini, milli-mənəvi zənginliklərini və eləcə də problemlərini Niderland cəmiyyətinin diqqətinə çatdırmaq olmuşdur. Cəmiyyət həmçinin bu illər ərzində müxtəlif festivallarda ölkəmizi ləyaqətlə təmsil etməklə yanaşı, Xocalı soyqırımı qurbanlarının anılması, Qarabağ müharibəsini əks etdirən kitab və rəsm əsərləri sərgilərinin təşkilində də fəallıq göstərmişdir. Mayisə Ağamirzəyeva həmçinin Nizami Gəncəvi adına Azərbaycan məktəbi haqqında məlumat vermişdir: “Azərbaycan dilini və ədəbiyyatını Niderlandda yaşayan həmvətənlərimizin uşaqlarına öyrətmək və bununla da yeni nəslin millətini, xalqını, tarix və ədəbiyyatını daha dərindən tanımasına şərait yaratmaq üçün bazar günləri fəaliyyət göstərən kiçik bir məktəb yaratdıq və bu gün açılışına toplaşdığımız məktəbimizə dahi Azərbaycan şairi N. Gəncəvinin adının verilməsini qərara aldıq”.

Cəmiyyət sədri sonda cəmiyyət adından göstərdikləri hər cür dəstəyə və məktəbin açılışı münasibətilə göndərdiyi təbrik məktubuna görə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə, Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinə, eləcə də məktəbin lazımi əyani vəsait və kitablarla təmin edilməsində yardım etdiyinə görə Azərbaycanda fəaliyyət göstərən “Təhsil” nəşriyyat-poliqrafiya müəssisəsi və “AzPoliqraf” nəşriyyat-poliqrafiya müəssisəsinə təşəkkürünü bildirmişdir.

Məktəbə dahi şairin rəsmi toxunmuş xalça və bir neçə şəxsi kitabını bağışlayan “Ana Vətən” Niderland Azərbaycanlı Qadınlar Birliyinin fəxri sədri, yazıçı Gülşən Lətif öz çıxışında doqquz il öncə yaratdığı təşkilatın bu günkü fəaliyyəti ilə qürur duyduğunu bildirərək YUNESKO tərəfindən 800 illik yubileyi qeyd edilən Nizami Gəncəvinin adının bu məktəbə verilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Azərbaycan Respublikasının Niderland Krallığındakı Fövqəladə və səlahiyyətli səfirinin müavini Fərid Zeynallı, səfirliyin nümayəndəsi Nahid Cəfərov tədbirdə çıxış edərək əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan diaspormuzun təşkilatlanması tarixindən, əldə olunan nailiyyətlərdən danışmış, prosesə dəstək verilməsinin bir dövlət qurumu olaraq diplomatik nümayəndəliklər üçün daim prioritet olduğunu və “Ana Vətən” Niderland Azərbaycanlı Qadınlar Birliyinə və Nizami Gəncəvi adına Azərbaycan məktəbinə bundan sonra da lazımı dəstək göstərəcəklərini qeyd etmişlər.

Daha sonra müstəqil jurnalist Elnaz Sanqin, BAK nümayəndələri Elsevər Məmmədov və Ofeliya Babayeva, məktəbin direktoru Almaz Kərimli və digərləri öz ürək sözlərini söyləyərək cəmiyyətə və məktəbə uğurlar diləmişlər.

**17 dekabr 2013**

## “EgAz” jurnalının növbəti nömrəsi çapdan çıxmışdır

Misirin İsgəndəriyyə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Ticarət Nümayəndəliyi tərəfindən nəşr olunan “EgAz” jurnalının növbəti nömrəsi çapdan çıxmışdır. Jurnalın bu nömrəsi oxucuları Azərbaycanın və Misirin siyasi və mədəni həyatında əhəmiyyətli hadisələrlə tanış edilmişdir.

Jurnal oktyabrın 9-da Azərbaycanda keçirilən və Prezident İlham Əliyevin inamlı qələbə qazandığı seçkiləri başa çatan ildə ölkəmiz üçün əsas hadisə adlandırmışdır. Misirli müəllif Zəhi Həvvas “Azərbaycan Odlar Yurdudur” adlı məqaləsində gözəl ölkəmiz, onun qədim və zəngin mədəniyyəti barədə təəssüratlarını bölüşür, Azərbaycan tədqiqatçısı Seymur Nəsirov Azərbaycan ilə Misir arasında tarixi əlaqələrdən, habelə ərəb dünyasının və Misirin tarixində əhəmiyyətli rol oynamış azərbaycanlılardan yazmışdır.

**17 dekabr 2013**

**İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası Aşkelon şəhər bələdiyyəsinin və Heydər Əliyev Fondunun dəstəyi ilə bu şəhərin sakinlərini Azərbaycanın mədəniyyəti, tarixi və bugünkü reallıqları ilə tanış etmişdir**

17 dekabr 2013-cü il tarixində İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası (Azİz) ölkənin cənubunda yerləşən Aşkelon şəhər bələdiyyəsinin və Heydər Əliyev Fondunun dəstəyi ilə bu şəhərin sakinlərini Azərbaycanın mədəniyyəti, tarixi və bugünkü reallıqları ilə tanış etmişdir.

Tədbirin əvvəlində 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərində baş vermiş faciəli hadisələri əks etdirən sənədli fotoşəkillər nümayiş etdirilmişdir. Aşkelon sakinləri bu dəhşətli fotoşəkillərə baxdıqdan sonra son dərəcə hiddətləndiklərini bildirmişlər. Onların çoxu sadəcə inana bilmirdi ki, dinc sakinlərə qarşı bu qədər qeyri-insani qəddarlıq erməni separatçılarının işğalçılıq planlarının nəticəsi olmuşdur. Aşkelon şəhərinin sakinləri öz təəssüratlarını “Justice for Khojaly” sənədli fotosərgisinə dair Rəy Kitabında ifadə etmişlər.

**17 dekabr 2013**

**2013-cü ildə diaspor sahəsində baş verən mühüm hadisələr**

Başa vurmaqda olduğumuz 2013-cü il bütün sahələr kimi diaspor sahəsi üçün də uğurlu il oldu desək yanılmarıq. İl ərzində bu sahədə keçirilən müxtəlif səviyyəli görüşlər və toplantılar diaspor sahəsinin bir qədər də inkişaf etdirilməsi, soydaşlarımız arasında həmrəyliyin daha da möhkəmləndirilməsinə xidmət etdi. 2013-cü ildə həm Azərbaycanda, həm də ondan kənarda bu istiqamətdə keçirilən tədbirlərə qısa nəzər saldıqda müsbət tendensiyasını açıq görmək olur.

2013-cü il, yanvar ayının 24-də Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Diaspor Məsələlərinə Cavabdeh Dövlət Qurumları Rəhbərlərinin Bakıda I Toplantısı keçirilib. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstandan olan nümayəndələrin iştirak etdiyi toplantıda yekun sənəd layihəsi qəbul olunub. Yekun sənəd layihəsində türkdilli ölkələrin əməkdaşlıq şurasına üzv dövlətlərin diaspora məsələlərinə cavabdeh dövlət qurumlarının gələcək əməkdaşlığının əsas istiqamətləri öz əksini tapıb. Sənəd layihəsində Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq strategiyasının müəyyən edilməsi üçün Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının diaspora məsələlərinə cavabdeh dövlət qurumlarının mütəxəssislərindən ibarət Təmas Qrupunun yaradılmasına dair müddəa öz əksini tapıb. Bundan başqa sənəddə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor təşkilatlarının rəhbərlərinin Forumunun təşkil edilməsi də nəzərdə tutulub. Həmçinin toplantıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının III Sammiti ilə əlaqədar Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor təşkilatlarının rəhbərlərinin I Forumunun 2013-cü ildə Azərbaycanda keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

Mart ayının 8-də Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Frankfurt şəhərində “Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr” mövzusunda diaspor nümayəndələrinin müşavirəsi keçirilib. Görüşdə Avropada Azərbaycan diasporunun fəaliyyəti, qarşılaşdığı problemlər, Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması istiqamətində görüləcək tədbirlərlə bağlı geniş müzakirələr aparılıb. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov tədbirdə çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq diasporumuzun öz fəaliyyətini hücum taktikası əsasında qurduğunu bildirib. O, ötən müddətdə Azərbaycan diasporunun bir çox istiqamətlərdə mühüm uğurlara imza atdığını qeyd edib. Nazim İbrahimov bildirib ki, Azərbaycan dövlətinin getdikcə artan iqtisadi və siyasi gücü diasporun da sərbəst fəaliyyət göstərməsi üçün yaxşı stimul yaradır. Dövlət Komitəsinin sədri Azərbaycan diasporunun qarşısında bir sıra vacib vəzifələrin durduğunu vurğulayıb.

Komitə sədri bu vəzifələrin uğurla yerinə yetirilməsi üçün Azərbaycan diaspor təşkilatlarının böyük potensiala malik olduğunu bildirib. Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti Bahəddin Kaya çıxışında Avropada yaşayan azərbaycanlıların diaspor quruculuğu prosesində iştirakı haqqında danışıb. O, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün Dağlıq Qarabağ haqqında müxtəlif dillərdə filmlərin çəkilməsinin zəruri olduğunu bildirib.

Bahəddin Kaya Frankfurt şəhərində Azərbaycan Respublikasının Konsulluğunun açılması, habelə azərbaycanlı tələbələrin çox olduğu ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin nəzdində təhsil müşavirliyinin yaradılmasını təklif edib. Görüşdə Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması, parlament və hökumət üzvləri ilə əlaqələr, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması, kütləvi informasiya vasitələri ilə iş və digər istiqamətlərdə mövcud olan problemlərdən danışılıb, müxtəlif təkliflər səsləndirilib.

Görüşün sonunda Avropa Azərbaycanlıları Konqresinin bəyanatı qəbul olunub. Bəyanatda qeyd olunub ki, Azərbaycan Respublikasında yürüdülən uğurlu xarici və daxili siyasət, həyata keçirilən islahatlar və irimiqyaslı layihələr əsasında iqtisadi və sosial-siyasi sahələrdə sürətli inkişafa nail olunub. Sənəddə bu uğurların diaspor quruculuğu işinə də müsbət təsir göstərdiyi, ötən dövrdə Azərbaycan diasporunun güclənməsinə xidmət edən bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirildiyi vurğulanıb. Bəyanatda Azərbaycanın daxili siyasətinə aid məsələlərin xarici ölkələrdə yaşayan bəzi soydaşlarımız tərəfindən müzakirə obyektinə çevrilməsindən də narahatlıq ifadə edilib. Bəyanatda qeyd olunub ki, xaricdə yaşayan azərbaycanlıların mütləq əksəriyyəti Azərbaycanın tutduğu yolun düzgün və uğurlu olduğuna inanır.

May ayının 6-7-də Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşkilatçılığı ilə Cənubi Qafqaz Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi idarə heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Forumu açaraq tədbirin əhəmiyyəti haqqında danışıb. Forumda Madrid Klubunun, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, dünyanın müxtəlif ölkələrindən 300-dən çox ekspert, yüksək səviyyəli rəsmilər, sabiq dövlət və hökumət başçıları, alimlər iştirak ediblər.

Mayın 7-də isə Cənubi Qafqaz Forumu öz işini yekunlaşdırıb. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanın dünyanın sabiq dövlət və hökumət başçılarının ən böyük Forumu olan Madrid Klubunun bu möhtəşəm tədbirinə ev sahibliyi etməkdən qürur hissi keçirdiyini bildirib. Nazim İbrahimov ölkəmizin qadın hüquqları, insan haqları, demokratik dövlət quruculuğu istiqamətində mühüm yol qət etdiyini vurğulayaraq müsəlman şərqində ilk dəfə olaraq qadınların azadlığı, onlara səsvermə hüququnun Azərbaycanda verildiyini diqqətə çatdırıb. Dövlət Komitəsinin sədri dini etiqad azadlığı, dini, etnik dözümlülüyün mövcud olduğu və vətəndaş cəmiyyətinin qurulması istiqamətində önəmli addımlar atan Azərbaycanın bu mötəbər tədbirin keçirilməsi üçün seçilməsini ölkəmizə inamın göstəricisi kimi səciyyələndirib. Cənubi Qafqaz Forumunun sonuncu günü Madrid Klubu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında əməkdaşlıq protokolu imzalanıb.

Mayın 14-də isə Ankarada Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin II toplantısı keçirilib. Türkiyə Baş Nazirinin müavini Bəkir Bozdağın ev sahibliyi ilə keçən toplantıda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin diaspor təşkilatlarının rəhbərləri qatılıb. Toplantıda Azərbaycan tərəfini Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev təmsil edib. İclasda "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası"nın əhəmiyyəti vurğulanıb. İlk çıxış edən Xaricdə Yaşayan Türklər və Əqrəba İcmalar Departamentinin rəhbəri Kemal Yurtnaç bu toplantını indiyədək keçirdikləri iclasların ən önəmlisi olduğunu, onun əhəmiyyətli qarşıdakı illərdə aydın olacağını deyib. Toplantıda çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev də türk dünyasının problemlərini həll etmək üçün türk xalqlarının vahid diaspor altında birləşməsinin vacibliyini vurğulayıb. O deyib ki, soydaş xalqların ortaq fəaliyyəti onların güclü addımlarla irəliləməsini, gələcəkdə türk xalqlarının fərqli mövqedə yer almasını təmin edəcək. Valeh Hacıyev Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun Bakıda keçirilməsini də Azərbaycanın bu məsələni əhəmiyyətli hesab etməsi ilə əlaqələndirib.

Çıxışlardan sonra Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələri – Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan arasında "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" imzalanıb. Toplantı çərçivəsində iyunun 21-də Bakıda keçiriləcək isə Bakıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun proqramına dair müzakirələr də aparılıb. Qərara alınıb ki, Forumda ümumi iclasdan əlavə üç istiqamətdə - Amerika, Kanada; Avropa; Asiya və MDB üzrə panel müzakirələr də təşkil olunsun.

Qeyd edək ki, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin ilk iclası bu il yanvarın 24-25-də Bakıda keçirilmişdi.

**"Olaylar".-2013.-19 dekabr.-№ 23.-S.15.**

**Krımın Azərbaycanlılar İcması Avrami Boqdanoviç Aslanbeqovun (İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun) xatirəsinin əbədiləşdirilməsi barədə Sevastopol (Ukrayna) şəhəri administrasiyası qarşısında vəsatət qaldırmaq niyyətindədir**

Krımın Azərbaycanlılar İcması Rusiya Donanmasının Azərbaycan mənşəli vitse-admiralı, Krım müharibəsi dövründə Sevastopolun müdafiəsinin fəal iştirakçısı, İmperator Rus Coğrafiya Cəmiyyətinin həqiqi üzvü olmuş, bu şəhər üçün çox faydalı və əhəmiyyətli işlər görmüş Avrami Boqdanoviç Aslanbeqovun (İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun) xatirəsinin əbədiləşdirilməsi barədə Sevastopol (Ukrayna) şəhəri administrasiyası qarşısında vəsatət qaldırmaq niyyətindədir. Bu barədə AzərTAc-a Krımın Azərbaycanlılar İcmasının rəhbəri Rəhim Hümbətov məlumat vermişdir. Rusiya hərbi dəniz xadimi, tarixçi, vitse-admiral (1887) İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyov 1822-ci ildə Bakıda anadan olmuşdur. 1837-ci ildə Dəniz Korpusunu bitirmiş, onun soyadı “qızıl lövhə”yə yazılmışdır. Baltik Donanmasında xidmət etmişdir.

1842-ci ildə Dəniz Korpusunun Zabitlik Sinfini bitirəndən sonra Qara dəniz Donanmasında xidmət etmişdir. Krım müharibəsi dövründə Aslanbəyov “Pospeşnıy” tenderinin (1853) və “Elbrus” paroxod freqatının (1854-cü ildən), bu freqat Sevastopol buxtasında batırıldıqdan sonra quru müdafiə sahəsinin və desant gəmi toplarından ibarət səyyar batareyanın komandiri olmuşdur. 1858-1864-cü illərdə 1-ci Qara dəniz donanmasında onun komandir olduğu “Sokol” vintli korveti Qara dənizdə və Aralıq dənizi sularında üzmüşdür. 1856-1871-ci illərdə Baltik dənizində “Retvizan” xətt gəmisinin komandiri olmuşdur.

1872-ci ildə I Pyotrun 200 illiyi bayram edilən dövrdə Aslanbeqov I Pyotrun Moskvaya, Ümumrusiya Politexnik sərgisinə göndərilən gəmisini müşayiət etmiş və onun Moskva çayında üzməsi mərasimində iştirak etmişdir. 1879-1882-ci illərdə dünya səyahətinə çıxmış Sakit okean eskadrasının (“Minin”, “Knyaz Pojarskiy”, “Edinburq hersoqu”, “Asiya” və “Afrika” zirehli kreyserləri) komandiri, Sevastopolun müdafiəsi muzeyinin təşkilat komitəsinin üzvü olmuşdur. Aslanbəyov həm də Sevastopolun müdafiəsinin qəhrəmanlarından admiral P.S.Naximov (1868), A.S.Qreyq (1873) və başqalarının bioqrafı kimi tanınmışdır. Saxalin adasında bir yarımadaya və Oxot dənizində bir boğaza onun adı verilmişdir. Aslanbəyov okean tipli sürətli kreyserlərdən ibarət “uçan eskadralar” yaradılması təşəbbüsünü irəli sürmüş, sonrakı layihələrdə nəzərə alınmaq üçün kreyser tipli gəmilərə təqdim olunan taktiki-texniki tələblərin siyahısını hazırlamışdır.

Vitse-admiral Aslanbəyov 1900-cü ildə vəfat etmiş, Sankt-Peterburqda dəfn olunmuşdur. Rəhim Hümbətov demişdir: “Sevastopol öz qəhrəmanlarını həmişə ehtiramla yad edir. Lakin çox təəssüf ki, bu adlı-sanlı donanma sərkərdəsinin xatirəsi indiyə qədər əbədiləşdirilməmişdir. Ona görə də biz Sevastopol hökuməti qarşısında belə bir təşəbbüslə çıxış etməyi qərara aldıq. Bundan əlavə, yaxın vaxtlarda bu əfsanəvi azərbaycanlıya həsr edilmiş kitab çapdan çıxacaqdır.

**19 dekabr 2013**

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilin yekunları ilə bağlı sərgi keçirmişdir**

Dekabrın 20-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzində ilin yekunları ilə bağlı Mərkəzə yeni təqdim olunmuş orijinal əlyazmalar və illustrasiyaların, o cümlədən Şərq mədəniyyətinin böyük incilərinə həsr olunmuş sərgi təşkil etmişdir.

Sərgidə Yunanıstanın Azərbaycan Respublikasındakı səfiri Dimitrios Tsounqas, Hindistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vinod Kumar, Qırğızıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Aycigit Buranov, Latviyanın Azərbaycandakı səfirinin milli məsəslələr üzrə müşaviri Renars Danelson həmçinin, Azərbaycanda akkreditasiya olunmuş digər səfirliklərin, Azərbaycan Dillər Universitetinin İnformasiya Resurs Kompleksinin və Xalça muzeyinin nümayəndələri iştirak etmişlər.

Sərgi iştirakçıları arxivlə tanış olmuşlar. Sərgi çərçivəsində Mərkəzlə birgə xaricdədə sərgilərin təşkili üçün razılaşmalar əldə edilmişdir.

**23 dekabr 2013**

**Dekabrın 23-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov 50 yaşı tamam olub**

Yubilyar N.İbrahimov 1963-cü ilin dekabr ayının 23-də Naxçıvanda anadan olub. 1970-1980-ci illərdə orta məktəbdə təhsil alıb. 1980-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olub və 1985-ci ildə mühəndis-mexanik ixtisası üzrə həmin institutu bitirib. N.İbrahimov 1985-ci ildə Nəvahi "AES"-nin tikintisində fəhlə kimi əmək fəaliyyətinə başlayıb. 1985-86-cı illərdə Naxçıvan Elektronika zavodunda sahə ustası, 1986-1991-ci illərdə Naxçıvan Muxtar Vilayətində rəhbər vəzifələrdə işləyib.

1991-97-ci illərdə biznes fəaliyyəti ilə məşğul olub. 1997-ci ilin mart ayından Azərbaycanın Ukraynda səfiri, 1997-ci ilin sentyabrından eyni zamanda, Moldova və Polşada, 1999-cu ilin fevralından isə Azərbaycanın Belarusdakı fövqəladə və səlahiyyətli səfiri vəzifələrinə təyin edilib. 2000-ci ildə 14 saylı seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilib və eyni zamanda 2002-ci ilin sentyabr ayınadək Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində fəaliyyət göstərib. 2002-ci ilin iyul ayında Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilib.

2008-ci il noyabr ayının 19-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilib. Fövqaladə və Səlahiyyətli Səfir ranqı var. N.İbrahimov Beynəlxalq Kadrlar Akademiyasının müxbir üzvü, YAP-ın üzvüdür. Ailəlidir, iki övladı var.

**24 dekabr 2013**

**İspaniyada Azərbaycan diasporu**

Azərbaycan diasporunun fəaliyyət göstərdiyi ölkələrdən biri də İspaniyadır. İspaniyaya azərbaycanlıların mühacirət tarixi, buradakı soydaşlarımızın sayı barədə müxtəlif məlumatlar mövcuddur. Yaxın tarixə və İspaniyadakı etnik qrupların tərkibinə nəzər salsaq görərik ki, azərbaycanlıları bu ölkədə yaşayan etnik qruplardan biridir. Dünya Azərbaycanlıları Konqresinin bütün dünyada yaşayan azərbaycanlıların sayına dair 2006-cı ildə yayınladığı məlumatlara əsasən İspaniyada 14 min nəfər etnik azərbaycanlı yaşamaqdadır. Tarixi mənbələrdən məlum olur ki, ispanların Azərbaycana və azərbaycanlı alimlərə marağı hələ XII-XIII əsrlərdən başlanıb. Xüsusilə, Azərbaycanın görkəmli alimi Nəsrəddin Tusinin əsərləri o zaman ispan səyyahları və alimlərinin böyük marağına səbəb olub.

Xristofor Kolumbun Amerika səfərini maliyyələşdirən İspan Kralının xəzinədarı, milliyyətcə yəhudi olan Qabriel Sanxes onu pul və əşyalarla təmin eib. Qabriel Sanxesin əldə etdiyi sədəf üçün ləvazimatlar içərisinə müəllifi Nəsrəddin Tusi olan xəritə, miqyas (kompasın qədim növü) və digər astronomiya cihazları daxil idi. XV əsrdən etibarən isə Azərbaycan dövlətləri (Ağqoyunlu, Səfəvi) Avropa ilə müntəzəm əlaqələr saxlayırdı. Həmin dövrdə İspaniya ilə də diplomatik və ticari münasibətlər qurulmuşdu. Xüsusən, Şah Abbasın dövründə qarşılıqlı əlaqələr inkişaf etmiş və 1599-cu ildə Huseynəli bəyin başçılığı ilə İspaniya Kralının hüzuruna nümayəndə göndərilmişdi. Nümayəndə heyətinə Əliqulu bəy, Oruc bəy Bayat və Bunyad bəy daxil idi. Turkiyə əleyhinə müqavilə bağlamağa gedən elçilər Xəzər dənizi, Volqa çayı, Rusiya, Skandinaviya, Almaniya, İtaliya yolu ilə gedərək İspaniyaya çıxmış və burada naməlum səbəblər üzündən xristianlığı qəbul etmişdilər. İspan Kralı III Filip onları xaç suyuna salmış və Əliqulu bəyə don Filip, Bunyad bəyə don Dieqo və Oruc bəyə isə Don Juan adı vermişdi. Bu elçilər xristianlığı qəbul etdikdən sonra İspaniya və Avropada öz müsbət keyfiyyətlərinə görə tanınmış və sevilmişdilər. 1604-cu ildə isə ölkənin o zamankı paytaxtı Valyovildə Azərbaycan Səfəvi dövlətinə aid kitabın nəşr olunmasında Oruc bəyin rolu böyük olmuşdu.

İspaniyaya soydaşlarımızın mühacirəti XIX əsrin sonu - XX əsrin əvvəllərində daha kütləvi şəkil alır. Avropadan mühacirət edən azərbaycanlılar İspaniyanın paytaxtı Madriddə və digər şəhərlərdə məskunlaşırlar. II dunya muharibəsindən sonra da xeyli sayda soydaşımız İspaniyada məskunlaşmalı olur. 1991-ci il dövlət müstəqilliyimiz elan edildikdən sonra İspaniya ilə iki tərəfli diplomatik münasibətlər qurulub və hazırda ticari, iqtisadi, diplomatik sahələrdə əlaqələrin intensiv şəkildə inkişaf edir. Son statistik məlumatlara əsasən İspaniyada yaşayan azərbaycanlıların təqribi sayı 5 minə yaxın göstərilir.

Bu gün İspaniyada bir sıra Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir ki, onlardan da biri "Elmira" Azərbaycan-İspan Qardaşlıq Cəmiyyətidir. "Elmira" Azərbaycan-İspan Qardaşlıq Cəmiyyəti İspaniyanın Valensiya şəhərində yaradılıb. Təşkilatı Valensiya şəhərinin qubernatorluğu qeydə alıb. « Elmira« Azərbaycan-İspan Qardaşlıq Cəmiyyətinin məqsədi Azərbaycanı İspaniyada tanıtmaq, ispan və Azərbaycan xalqları arasında əlaqələri möhkəmləndirmək, eyni zamanda, bu şəhərdəki soydaşlarımızın İspaniya ilə daha yaxından tanışlığını təmin etməkdir. "Elmira" Azərbaycan-İspan Qardaşlıq Cəmiyyəti, həmçinin, bu ölkədə fəaliyyət göstərən digər Azərbaycan icmaları, eləcə də başqa xalqların diaspor təşkilatları ilə əlaqələri var. "Elmira" Azərbaycan-İspan Qardaşlıq Cəmiyyətinin rəhbəri Gülnarə Xanbabayevadır. O həmçinin, CF Baku de Valencia ispan futbol klubunun yeganə qadın prezidentidir. Əsas fəaliyyəti Bakı ilə Madrid arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi olan "Elmira" Azərbaycan-İspan Qardaşlıq Cəmiyyəti Azərbaycan həqiqətlərinin İspan cəmiyyətinə çatdırılması, Dağlıq Qarabağ problemi, Xocalı soyqırımı ilə bağlı da müntəzəm olaraq tədbirlər təşkil edir. Cəmiyyət İspaniyanın nüfuzlu kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edir, təşkil etdiyi tədbirlərin həmin mətbuat vasitələrində çapına nail olur.

Bundan başqa cəmiyyət ispaniyalı jurnalistlərin Azərbaycana səfərinə də imkan yaradır ki, bu da ispan jurnalistlərin ölkəmiz haqqında daha ətraflı məlumata malik olmaları üçün əlverişlidir. Belə səfərlərdən biri bir müddət əvvəl Azərbaycana təşkil edilib. Belə ki, səfər çərçivəsində İspaniyanın "EFE" İnformasiya Agentliyinin redaktoru Karmen Klara Rodriges Alonso Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində olub. Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov qonağa Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, nəticələri, onun yaratdığı problemlərdən danışıb, həmçinin ermənilərin azərbaycanlılara qarşı törətdiyi 31 mart soyqırımı, Sumqayıt hadisələri, Xocalı faciəsi haqqında ətraflı məlumat verib. O, Ermənistanın BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatların münaqişə ilə bağlı qərar və qətnamələrinə əməl etmədiyini diqqətə çatdırıb. Əli Həsənov Azərbaycan torpaqlarının 20 faizinin işğalı nəticəsində ölkəmizə 300 milyard dollar ziyan dəydiyini bildirib, dövlətin 1 milyon 200 min qaçqın və məcburi köçkünün problemlərinin həlli istiqamətində gördüyü irimiqyaslı işlərdən danışıb. İspaniyanın "EFE" İnformasiya Agentliyinin redaktoru Karmen Klara Rodriges Alonso bildirib ki, Azərbaycana səfərində məqsəd 20 Yanvar faciəsi, Xocalı və 31 Mart soyqırımları haqqında reportajlar hazırlamaq, 2014-cü ilin birinci rübündə ispan, ingilis, ərəb və portuqal dillərində yayımlamaqdır.

İspaniyadakı Azərbaycan diasporunun digər bir mühüm tədbiri noyabrın 22-də İspaniya Senatında Azərbaycan ilə İspaniya arasında tərəfdaşlığın genişləndirilməsinə, habelə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinə həsr edilmiş "Azərbaycan bu gün Avropadadır. Azərbaycan ilə İspaniya arasında etimadın tənzimlənməsi" mövzusunda konfransın keçirilməsi olub. Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Elxan Süleymanovun da təşəbbüsü və təşkilati dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Azərbaycan tərəfdən konfransda Azərbaycanın İspaniyadakı səfiri Altay Əfəndiyev, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri Qurban Sadıqov, iqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Elxan Süleymanov, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sədri, Milli Məclisin deputatı Ayaz Orucov, deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Fərəc Quliyev, Zahid Oruc və Ceyhun Osmanlı iştirak ediblər. İspaniya tərəfdən konfransda 80 senator və deputat, 70-ə yaxın akademik, professor, media təmsilçiləri, qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edib. İspaniyadakı soydaşlarımızın Azərbaycanın təbliği istiqamətində atmış olduğu addımlardan biri də ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasiminin keçirilməsi olub.

"Evsen" şirkətlər qrupunun təşkilatçılığı və Azərbaycanın İspaniyadakı səfirliyinin dəstəyi ilə keçirilən mərasimdə İspaniya hökumətinin, parlamentinin üzvləri, 20-dən artıq ölkənin səfirləri, ispan ictimaiyyətinin, işgüzar dairələrinin, Azərbaycan diasporunun nümayəndələri, bu ölkədə təhsil alan tələbələrimiz iştirak ediblər. Mərasimdə çıxış edən "Evsen" şirkətlər qrupunun prezidenti Əli Evsen ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verib. Bildirilib ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin xilaskarı olmaqla yanaşı, həm də onun qurucusudur. Ümummilli liderin səyləri, uzaqgörən siyasəti nəticəsində qurulmuş müstəqil dövlətimizin hazırda əmin əllərdə olduğunu deyən Əli Evsen qeyd edib ki, bu gün Prezident İlham Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycanın nailiyyətləri dünya ölkələrinə nümunə göstərilir. Bütün bu uğurlar ərazilərimizin Ermənistan tərəfindən işğalının davam etdiyi bir şəraitdə baş verib. Azərbaycanın İspaniyadakı səfiri Altay Əfəndiyev isə ulu öndər Heydər Əliyev dühası barədə fikirlərini bildirib, ümummilli liderin xarici siyasət konsepsiyası haqqında söz açıb. Diqqətə çatdırılıb ki, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kursun nəticəsində hazırda Azərbaycan dünya miqyasında nüfuzlu dövlətə çevrilib. Səfir İspaniya-Azərbaycan əlaqələrinin inkişafına da Heydər Əliyevin böyük töhfələr verdiyini vurğulayıb. Tədbirdə "DIPLOMACIA-Siglo veinte uno" adlı jurnalın Azərbaycana, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan buraxılışı və son 10 ildə ölkəmizin nailiyyətlərindən bəhs edən broşürlər qonaqlara təqdim edilib. Daha sonda ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

**"Olaylar".-2013.-24 dekabr.-№ 233.-S.15.**

**Dünya azərbaycanlılarına**
**(25 dekabr 2013-cü il)**

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Sizi ürəkdən salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.

Mənəvi birliyimizin rəmzinə çevrilmiş bu bayram soydaşlarımızın qəlbindəki Vətən sevgisi və milli təəssübkeşlik duyğularını təcəssüm etdirir. Dünya azərbaycanlılarının həmrəyliyi hazırda özünü təkcə emosional hiss və duyğularda deyil, həm də daha çox real məzmuna malik milli-siyasi birlikdə, əməli addımlarda və konkret nəticələrdə göstərir. Azərbaycanlılar arasında həmrəyliyin daha da möhkəmlənməsi və diaspor qurumlarının təsirli qüvvəyə çevrilməsi prosesi uğurla davam edir. Son illərdə xarici ölkələrdə yaşayan soydaşlarımızın hüquqlarının təminatı, Azərbaycan haqqında obyektiv məlumatların yayılması və dövlət maraqlarının qorunması sahəsində diaspor təşkilatlarının rolu xeyli artmışdır. Dövlətimiz diaspor təşkilatlarına bu istiqamətdə indiyə qədər verdiyi dəstəyi bundan sonra da davam etdirəcəkdir.

Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs əsasında həyata keçirdiyimiz ardıcıl islahatlar hazırda bütün sahələrdə mütərəqqi dəyişikliklərə gətirib çıxarmış, ölkəmiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Fərəhləndirici haldır ki, bu ilin əvvəlində biz “Azərspace-1” milli peykini orbitə çıxararaq dünyanın kosmik dövlətləri sırasına qoşulduq. Bu günlərdə isə Bakıda Avropanın aparıcı neft-qaz şirkətləri ilə imzalanmış “Şahdəniz -2” enerji sazişi Azərbaycanın uzunmüddətli və dayanıqlı tərəqqisi yolunda aydın üfüqlər açır. Haqlı olaraq XXI əsrin müqaviləsi adlandırılan bu möhtəşəm layihə 1994-cü ildə imzalanmış “Əsrin kontraktı” kimi Avropanın enerji təminatı xəritəsində əsaslı dəyişiklik edəcək və dövlətimizin beynəlxalq rolunu daha da gücləndirəcəkdir.

Azərbaycanda son on ildə sosial-iqtisadi sahədə baş vermiş güclü sıçrayış cəmiyyət həyatının bütün sahələrinə müsbət təsir göstərmiş, ictimai-siyasi proseslərin sağlam məcraya yönəlməsini şərtləndirmişdir. Respublikamız demokratiya yolu ilə inamla addımlayır, ölkədə siyasi plüralizm, insan hüquq və azadlıqları təmin edilir, vətəndaş cəmiyyətinin inkişafına geniş şərait yaradılır. Bu il keçirilmiş Prezident seçkiləri göstərdi ki, Azərbaycanda siyasi mədəniyyətin səviyyəsi yüksəkdir və davam etdirilən strateji kurs xalqın iradəsinə söykənir.

Hazırda Azərbaycan bölgədə həm də beynəlxalq iqtisadi, siyasi, humanitar tədbirlərin və idman yarışlarının keçirildiyi əsas mərkəzə çevrilmişdir. Ölkəmiz dünyada tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Azərbaycanın iki il ərzində BMT Təhlükəsizlik Şurasında təmsil olunması isə dövlətimizin nüfuzuna və yürütdüyü siyasətə dünya birliyinin verdiyi yüksək qiymətin əyani təzahürüdür.

Uğurlarımızla bərabər qeyd etməliyəm ki, qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin pozulmuş ərazi bütövlüyünün bərpası kimi taleyüklü vəzifə dayanır. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə nail olmaq üçün qarşı tərəflə danışıqları davam etdiririk. Hesab edirəm ki, harada yaşamalarından asılı olmayaraq dünya azərbaycanlıları da bu işə öz dəstəklərini verməlidirlər.

Bir reallığı da qeyd etməliyəm ki, müasir dünyada yaşanan qlobal proseslər müsbət meyillərlə yanaşı, ölkələrin milli inkişafına, xalqların milli-mənəvi dəyərlərinin qorunmasına bir çox problemlər də yaradır. Belə şəraitdə dünya ölkələrində yaşayan həmvətənlərimizin həmrəyliyi güclənməli, diaspor qurumlarının fəaliyyəti daha mütəşəkkil və çevik olmalıdır. Birliyimizin və həmrəyliyimizin əsasında dayanan müstəqil Azərbaycan Respublikasının qorunması və inkişaf etdirilməsi, dünya birliyində mövqelərinin möhkəmləndirilməsi hər birimizdən xüsusi səy tələb edir. Biz hamılıqla milli mənafelərimizin müdafiəsi, soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması, dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməliyik.

Bu bayram münasibətilə bütün həmvətənlərimizi və soydaşlarımızı səmimi qəlbdən təbrik edir, hər birinə xoşbəxtlik, firavanlıq və işlərində uğurlar arzulayıram!

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2013-cü il**

**Ümumrusiya Azərbaycan Konqresinin 2013-cü ilin yekunlarına həsr olunmuş iclası keçirilmişdir**

***Moskvada Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) illik yekun iclası keçirilmişdir. İclasda təşkilatın fəaliyyəti, gələcək planları və layihələri müzakirə olunmuşdur.***

ÜAK-ın icraçı direktoru İlqar Hacıyev təşkilatın "Azərbaycan konqresi" qəzeti və saytında aparılan təkmilləşdirmə işlərindən danışmış, region rəhbərlərini ÜAK-n məlumat resurslarından daha fəal istifadə etməyə çağırmışdır. O, ÜAK-ın yeni layihəsi olan Hüquqi Yardım Mərkəzi haqqında məlumat vermişdir. Azərbaycanın Rusiyadakı səfirinin müavini Qüdsi Osmanov qeyd etmişdir ki, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının arxasında tarixi Vətəni, güclü Azərbaycan dövləti və Azərbaycan Prezidenti dayanmışdır. Rusiyada yaşayan azərbaycanlıların güvənc yeri isə ölkəmizin rəsmi nümayəndəliyi olan səfirlikdir. Rusiyada Azərbaycan diasporunun güclü olmasının təminatı onun birliyi, azərbaycanlıların milli maraqları ətrafında birləşmələridir. Ulu öndər Heydər Əliyev həmişə bizə bunu tövsiyə edirdi. Ümummilli lider xaricdə yaşayan soydaşlarımıza daim diqqət və qayğı ilə yanaşmışdır. Hazırda bu siyasət ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Diplomat qeyd etmişdir ki, müasir şəraitdə ÜAK daha da təkmilləşdirilməli və gücləndirilməlidir.

Bu işdə səfirliyin imkanlarından və səfir Polad Bülbüloğlunun Rusiyada böyük nüfuzundan istifadə olunur. ÜAK-ın icraçı direktoru İlqar Hacıyev tədbir iştirakçılarına Sankt-Peterburq regional nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Elmar Şahirzayevi təqdim etmişdir. Qeyd olunmuşdur ki, uzun müddət Sankt-Peterburq və Leninqrad vilayəti üzrə Daxili İşlər İdarəsinin informasiya departamentinin rəhbəri vəzifəsində çalışmış Elmar Şahirzayev bu regionda yaşayan soydaşlarımız arasında böyük nüfuza və hörmətə malikdir. İclas iştirakçıları Leninqrad vilayəti qanunvericilik orqanının deputatı Səyyad Əliyevi ÜAK-ın Rusiyanın Şimali-Qərb regionu üzrə bölməsinin rəhbəri seçmişlər.

Tədbirdə ÜAK-ın yeni yaradılmış Hüquqi Yardım Mərkəzinin sədri Vladislav Şvetsov və sədr müavini, Rusiyanın fəxri hüquqşünası Azər Əliyev bu məşvərət şurasının fəaliyyəti barədə danışmışlar. Qeyd olunmuşdur ki, Rusiyada üç kateqoriyaya aid azərbaycanlılar yaşayırlar. Onlar bu dövlətin vətəndaşlığını qəbul etmiş, Rusiya ərazisində müvəqqəti olan və işləmək üçün gələn azərbaycanlılardır. Hazırda miqrantların qanunları bilmədikləri üçün çətin vəziyyətə düşmələrinin qarşısını almaq məqsədilə xüsusi yaddaş kitabçası hazırlanır. Bu cür kitabçalar hava limanlarında, bilet kassalarında və vağzallarda soydaşlarımıza paylanılacaqdır. Tədbirin sonunda ÜAK-ın prezidenti Məmməd Əliyev və icraçı direktoru İlqar Hacıyev Rusiya Federasiyasının ictimai həyatında fəal iştirak edən diaspor üzvlərinə Konqresin medallarını, diplomlarını və fəxri fərmanlarını təqdim etmişlər.

Təltif olunanlar arasında ÜAK-ın Moskva vilayəti üzrə bölməsinin rəhbəri Əlizaman Rəhimov, "Baku" jurnalının baş redaktorunun müavini Tamilla Əhmədova, Rusiya Azərbaycanlı Gənclər Birliyi (RAGB) idarə heyətinin üzvləri Ayan Həsənova, Emin Hacıyev, Moskvadakı Dərviş Teatrının rəhbəri Mərdan Feyzullayev və başqaları vardır. Azərbaycan kütləvi informasiya vasitələrinin Rusiyada təmsil olunan nümayəndələri - Səfər Səfərov (AzTV), İqbal Hüseynov ("İnterAz"), Fərid Əkbərov (APA), Roman Ağayev (SalamNews), Elzar Ağayev (ATV), Anar Həsənov (Lider TV), Loğman Məmmədov (Xəzər TV) və başqaları da mükafat alanlar sırasındadırlar.

**Fəridə Abdullayeva, AzərTAc-ın xüsusi müxbiri Moskva**
**"Xalq qəzeti".-2013.-27 dekabr.-N 287.-S.6.**

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun Lent.az-a müsahibəsi**

*- Nazim müəllim, bu gün xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının hamısının fəaliyyəti Komitə olaraq Sizi qane edirmi?*

- Hazırda dünyada 446 Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir və bu təşkilatların fəaliyyətinin qiymətləndirilməsi Komitə daxilində aparılır. Qiymətləndirilmə proseduru təşkilatların illik, aylıq fəaliyyətinə dair tərtib olunmuş hesabatlar, arayışlar əsasında həyata keçirilir. Lakin biz bu qiymətləndirmənin ictimailəşdirilməsinin tərəfdarı deyilik. Bu təşkilatların hər biri potensialları çərçivəsində, fəaliyyət göstərdikləri ölkənin qanunvericiliyinə uyğun olaraq Azərbaycanın milli maraqlarını, mənafeyini müdafiə edir, zəngin mədəni irsini təbliğ edir. Biz diaspor təşkilatlarının birinin fəaliyyətinə yüksək, digərinə daha aşağı qiymət versək, elə təəssürat yarana bilər ki, təşkilatlara münasibətdə ayrı-seçkiliyə yol veririk.

*- Son aylar ərzində bir sıra MDB ölkələrində soydaşlarımızın təzyiqə məruz qalma halları baş verdi. Belə halların təkrarlanmaması üçün Diasporla İş üzrə Dövlət Komitəsi hansı addımlar atır?*

- Azərbaycanlılara qarşı təzyiq və təqiblərin artması halları ilə bağlı soydaşlarımızın hüquqlarının qorunması və maarifləndirilməsi istiqamətində tərəfimizdən müəyyən addımlar atılıb. Əməkdaşlarımız problemin mahiyyətini aydınlaşdırmaq və soydaşlarımıza müvafiq yardım göstərmək məqsədilə mütəmadi olaraq belə situasiyaları yarandığı ölkələrə ezam olunur. Meydana çıxan problemlərin həlli üçün konkret bir neçə istiqamətdə tədbirlərin həyata keçirilməsi vacibdir. İlk növbədə səbəblər araşdırılmalıdır. Çünki xarici ölkəyə səfər etməmişdən öncə hər bir vətəndaş həmin ölkənin mövcud qanunvericiliyi ilə yaxından tanış olmalı və yerli qanunvericiliyə uyğun olaraq sənədlərini qaydaya salmalıdır. Bu baxımdan, Dövlət Komitəsi Rusiyada yaşayan azərbaycanlı miqrantların hüquqi maarifləndirilməsi işinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir. Hal-hazırda Ümumrusiya Azərbaycanlıları Konqresinin mərkəzi ofisində həmvətənlərimizə hüquqi kömək göstərilməsi məqsədi ilə təcrübəli hüquqşünaslardan ibarət operativ qərargah fəaliyyət göstərir. Bundan başqa Rusiyanın müxtəlif subyektlərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının bu sahədə fəaliyyətinin gücləndirilməsi olduqca vacibdir. Qeyd edim ki, bu sahədə çox ciddi fəallıq müşahidə olunur. Vacib məsələlərdən biri isə Rusiyanın müvafiq dövlət strukturları ilə əlaqələrin genişləndirilməsinə nail olmaqdır. Yəni biz işimizi bu üç istiqamətdə aparmağa çalışırıq. Hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakteri də istənilən problemi birgə müzakirə etməyi və həllinə nail olmağa imkan yaradır.

*-Türkdilli ölkələrin diaspor təşkilatları ilə əlaqələr hansı səviyyədədir?*

- Türkdilli ölkələrlə dostluq və qardaşlıq münasibətlərinin qurulması və inkişafı hər zaman Azərbaycan əhəmiyyətli məsələlərdən biri olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də hər zaman türk xalqları arasında birliyin möhkəmləndirilməsinə xüsusi önəm verib. Məhz cənab Prezidentin təşəbbüsü ilə müxtəlif tarixlərdə Bakı şəhərində keçirilən tədbirlər xalqlarımız əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə müsbət töhfə olub. Elə bu ilin əvvəlində Bakıda keçirilən Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv Dövlətlərin Diaspor Məsələlərinə Cavabdeh Dövlət Qurumlarının Rəhbərlərinin I Toplantısı türk birliyi ideyasının yayılması və diasporlar arasında əməkdaşlığın genişləndirilməsi məqsədini daşıyırdı. Daha sonra iyunun 21-də Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumu oldu. Forumda dünyanın 44 ölkəsindən 446 nümayəndə iştirak etmişdi. Forum iştirakçılarının 160 nəfəri Azərbaycan, 149 nəfəri Türk, 66 nəfəri Qazax, 42 nəfəri isə Qırğız diasporunun təmsilçiləri olub. Tədbirdə təşkilata üzv olan dörd ölkənin prezidentlərinin iştirakçılara təbrik məktubları səsləndi. Forumun yekununda Bakı Bəyannaməsi və Azərbaycan prezidenti İlham Əliyevə, Qazaxıstan prezidenti Nursultan Nazarbayevə, Qırğızıstan prezidenti Almazbek Atambayevə və Türkiyə prezidenti Abdulla Gülə müraciət qəbul olundu. Bu tədbirlər zamanı aparılmış müzakirələr və qəbul olunmuş qərarlar gələcəkdə türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlığını konkret istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynayır. Xüsusilə də diaspor təşkilatlarının fəaliyyətinin koordinasiya olunması, türkdilli xalqları narahat edən məsələlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün əməkdaşlıq mexanizmlərin yaradılması baxımından əhəmiyyətlidir.

*- Erməni diaspor təşkilatları Ermənistana sərmayələr yatırsalar da, xaricdəki soydaşlarımızın bu cür addımlar atmasına o qədər də rast gəlinmir. DİDK xaricdəki imkanlı soydaşlarımızın ölkəmizə investisiyalar yatırılması ilə bağlı hansı addımlar atıb?*

- Xaricdə yaşayan azərbaycanlı iş adamlarının Azərbaycanda müxtəlif sahələrə investisiya qoyma təcrübəsi var. Buna bir çox nümunə də göstərmək olar. Biz hər zaman müxtəlif toplantılarda, görüşlərdə azərbaycanlı iş adamlarına bununla bağlı tövsiyələr veririk. 2011-ci ildə Bakıda keçirilmiş Dünya azərbaycanlılarının III qurultayında Azərbaycanın müxtəlif sahələrə cavabdeh olan dövlət orqanları rəhbərlərinin diaspor nümayəndələri ilə görüşləri də təşkil olundu. İqtisadi inkişaf naziri, mədəniyyət və turizm naziri diaspor nümayəndələri qarşısında çıxış etdilər, onların suallarını cavablandırdılar. Çox səmərəli müzakirələr keçdi. Demək istədiyim odur ki, Azərbaycan dövləti bu cür təşəbbüslərə açıqdır və bununla bağlı təklifləri, ideyaları da hər zaman dəstəkləyir. Yeri gəlmişkən qeyd edim ki, gələcəkdə Dünya Azərbaycanlı İş Adamlarının I Forumunun keçirilməsi də planlaşdırılır.

*- Rusiya kimi böyük dövlətdə diasporumuzu təbliğ edəcək mətbu nəşrlər barmaqla sayılacaq qədərdir. Bu sahəyə diqqət ayırmağın vacibliyini düşünürsünüzmü?*

- Təbii ki, qloballaşan dünyada effektiv təbliğat vasitəsi kimi mətbu nəşrlərin, KİV-in rolu danılmazdır. Lakin Rusiyada Azərbaycanı təbliğ edən mətbu orqanların az olması fikri ilə razı deyiləm. Hazırda Rusiya Ümumrusiya Azərbaycanlıları Konqresinin "Azerbaydjanskiy Konqress" qəzeti, "İRS" beynəlxalq jurnalı, "Baku" jurnalı, "AMOR" jurnalı, "Yurd" jurnalı "Millətin səsi" qəzeti nəşr olunur. www.amor.az saytı Azərbaycan diasporunun virtual aləmdə lider hesab edilən internet resurslarından biridir. Bundan başqa "Azerbaydjanskiy konqress" qəzetinin fəaliyyətini vurğulamaq istərdim. 2003-ci ildən nəşr olunan həftəlik ictimai-siyasi qəzet Ümumrusiya Azərbaycan Konqresinin mətbu orqanıdır. Qəzetdə Azərbaycan haqqında informasiyalar, müəllif yazıları, tədqiqatlar geniş yer tutur. Lakin bizim üçün prioritet məsələlərdən biri Rusiyanın yerli KİV-ləri ilə əlaqələrin genişləndirilməsi olmalıdır. Rusiyada Azərbaycanla bağlı həqiqətləri deyən, yazan jurnalistlərin sayı artmalıdır və bunun üçün onlara Azərbaycanı daha yaxşı tanıtmaq lazımdır. Diaspor təşkilatlarımız da, diplomatik nümayəndəliklərimiz də bu məsələni diqqətdə saxlayırar. Ancaq nəzərə almaq lazımdır ki, Rusiyanın əksər kütləvi informasiya vasitələrində ermənilərə açıq və ya gizli bir rəğbət var. Bunun isə obyektiv və subyektiv səbəbləri var. Ona görə də biz bu sahədə daha çox işləməliyik.

*- 2014-cü illə bağlı planlarınızı bilmək istərdik.*

- Planlarımız çoxdur. Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilmiş Dünya Azərbaycanlılarının Onlayn Forumu layihəsini genişləndirmək istəyirik. Bu sistem vasitəsilə biz dünyanın müxtəlif ölkələrində diaspor nümayəndələri ilə onlayn müzakirələr təşkil edə bilirik. Bu həm dövlət büdcəsinə qənaət etməyə imkan verir, həm də istənilən məsələ ilə bağlı operativ müzakirələr təşkil etməyə. 2014-cü ildə Bakıda Madrid Klubu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birlikdə II Cənubi Qafqaz Forumunun keçirilməsi də planlaşdırılır. Xaricdə yaşayan azərbaycanlılar üçün Azərbaycan dilini tədris edən distant təhsil mərkəzinin fəaliyyətini daha da genişləndirmək niyyətindəyik. Diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması və Rusiyada yaşayan soydaşlarımızın yaranmış problemlərinin həlli ilə bağlı planlarımız var. Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Dünya Azərbaycanlı Alimlərinin forumunun keçirilməsi ilə bağlı məsləhətləşmələr aparılır.

**29 dekabr 2013**

## 2013-cü il diaspor quruculuğu sahəsində uğurlu olmuşdur

*Müsahibimiz Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovdur*

***- Nazim müəllim, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə diaspor təşkilatlarına, xaricdə yaşayan azərbaycanlılara nə kimi arzularınız, tövsiyələriniz var?***

- Bu bayram hər bir azərbaycanlı üçün xüsusi məna kəsb edən bir bayramdır. Zaman keçdikcə biz Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis olunmasının nə qədər uzaqgörən və müdrik bir qərar olduğunu daha aydın şəkildə görə bilirik. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci ildə 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd edilməsi haqqında Naxçıvan Ali Məclisində qəbul olunmuş qərar 50 milyonluq bir xalqın tarixində mühüm bir hadisə idi. Azərbaycan xalqının tarixində əhəmiyyətli bayramlar çoxdur. Bu bayramın başqa bayramlardan fərqi ondan ibarətdir ki, o daha çox ideoloji məna kəsb edir. Azərbaycançılıq ideologiyasının təbliğini, dünya azərbaycanlılarının həmrəyliyi və birliyi ideyalarını təcəssüm etdirir. Dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi və xalqımızın dünyada layiqli yer tutması bu bayramın ideoloji məzmununu təşkil edir. Bu gün dünyanın hər bir yerində yaşayan azərbaycanlılar həmrəylik gününü qeyd edir və azərbaycanlıların yaşadığı bütün ölkələrdə müxtəlif tədbirlər təşkil olunur.Dünya Azərbaycanlılarının III Qurultayında və bu il keçirilmiş Dünya Azərbaycanlılarının Onlayn Forumunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev diaspor təşkilatlarına çox dəyərli tövsiyələrini verdi, bir sıra ideyalar səsləndirdi. Hər bir diaspor təşkilatı cənab Prezidentin tövsiyələrini yerinə yetirmək üçün daha böyük əzm və səylə çalışmalıdır.

***- Bu il ərzində diaspor qurumlarının gördüyü işlər nədən ibarətdir?***

- Diaspor quruculuğu sahəsində 2013-cü ili uğurlu il hesab etmək olar. Belə ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların cəmiyyətə inteqrasiyası və milli maraqlarımızın müdafiəsinə cəlb olunması, müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması istiqamətində 472 tədbir həyata keçirilmişdir. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ölkəmizin milli maraqlarının müdafiəsi işində çox fəal iştirak edir. Əsas məsələ ondan ibarətdir ki, diaspor təşkilatları artıq fəaliyyət göstərdikləri ölkələrin dövlət orqanları, kütləvi informasiya vasitələri, siyasi partiyaları, ictimai birlikləri, qeyri-hökumət təşkilatları ilə əlaqələr qurmağa nail olur. Bildiyiniz kimi, cənab Prezidentin Dünya Azərbaycanlılarının III Qurultayında diaspor təşkilatlarına əsas tövsiyələrindən biri ictimai-siyasi proseslərdə fəal iştirak etmələri ilə bağlı idi. Ona görə də diasporun siyasi partiyalar, dövlət orqanları, eləcə də QHT və KİV-lərlə əlaqələri çox mühüm əhəmiyyətə malikdir. Hesab edirik ki, bu sahədə işin miqyasını daha da genişləndirmək vacibdir.

***- 2013-cü il ərzində keçirilən ən əhəmiyyətli tədbirlər hansılar olmuşdur?***

- Bu il bizim bir çox əhəmiyyətli tədbirlərimiz keçirilmişdir. Mən ilk öncə beynəlxalq əhəmiyyət daşıyan Cənubi Qafqaz Forumunu qeyd etmək istəyirəm. Belə ki, bu il may ayının 7 və 8 - də Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş forumun rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər. Forumda Madrid Klubunun, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, dünyanın müxtəlif ölkələrindən 300-dən çox ekspert, yüksək səviyyəli rəsmilər, sabiq dövlət və hökumət başçıları, alimlər iştirak etmişdir. Cənubi Qafqaz Forumunun sonuncu günü Madrid Klubu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında əməkdaşlıq protokolu imzalanıb. Daha sonra iyunun 21 - də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci forumu keçirilmişdir. Forumun işində dünyanın 44 ölkəsindən 446 nümayəndə iştirak etmişdir. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına təbrik məktubu oxunmuşdur. Forumda, həmçinin Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentlərinin də iştirakçılara təbrik məktubları səslənmişdir. Forumun yekununda Bakı Bəyannaməsi və Azərbaycan Prezidenti İlham Əliyevə, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə, Qırğızıstan Prezidenti Almazbek Atambayevə və Türkiyə Prezidenti Abdullah Gülə müraciət qəbul olunmuşdur. Məlum olduğu kimi, bizim fəaliyyətimizin əsas istiqamətlərindən biri də Xocalı soyqırımının dünya ölkələri tərəfindən rəsmi şəkildə tanınmasına nail olmaqdır. Bu səpkidə fəaliyyətimizin nəticəsidir ki, ABŞ-ın Nyu-Meksiko, Arkanzas, Oklahoma, Tennensi, Pensilvaniya və digər ştatlar Xocalı soyqırımını rəsmən tanımışdır. Daha sonra bu ilin yanvarın 26-da Amerika Azərbaycanlılarının şəbəkəsi (USAN) və ABŞ-da yaşayan azərbaycanlılar Prezident Barak Obama Administrasiyasının Xocalı qətliamını və müharibə cinayətlərini, eləcə də faciə qurbanlarını tanıması məqsədilə ağ evin rəsmi veb-səhifəsində petisiya yerləşdirmişlər. Xarici ölkələrdə yaşayan həmvətənlərimizin, Azərbaycan diaspor fəallarının, kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının və yerli ictimaiyyətin aktiv fəaliyyəti nəticəsində petisiyaya toplanılan imzalar vaxtından əvvəl toplanmışdır.

Fevralın 26-da petisiyanı imzalayan hər bir kəsə Ağ Evdən gələn cavab məktubunda ABŞ-ın Azərbaycan və Ermənistan arasındakı müharibə zamanı insanların faciəli ölümünə dərindən təəssüfləndiyi vurğulanmışdır. “2013-cü ilin Azərbaycan Respublikasında “İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq dekabrın 2 və 3-də “BakuTel-2013" XIX Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi çərçivəsində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin iştirakı ilə “Dünya Azərbaycanlıların Onlayn Forumu" layihəsi təqdim edilmişdir. Prezident İlham Əliyev onlayn videokonfrans sistemi vasitəsilə Azərbaycan diaspor nümayəndələri qarşısında çıxış edərək onlara öz tövsiyələrini vermiş, fəaliyyətlərində yeni uğurlar arzulamış və onlayn videokonfrans sistemi vasitəsiləAzərbaycan diaspor nümayəndələri ilə təmasda olmağından məmnunlugunu bildirmişdir. Bu il bizim üçün əhəmiyyətli olan digər tədbir isə, komitəmizin təşkilatçılığı ilə xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə Azərbaycan dili, ədəbiyyatı, tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etmək məqsədilə distant təhsil üzrə layihənin reallaşması olmuşdur.

***- Son zamanlar Rusiyada yaranmış vəziyyət haqqında rəhbərlik etdiyiniz komitənin mövqeyini öyrənmək istərdik.***

- Son zamanlar Rusiyada miqrantlara qarşı göstərilən təzyiqlər tərəfimizdən narahatlıqla qarşılanmışdır. Bu problemləri yerindəcə araşdırmaq və həll etmək üçün əməkdaşlarımız Rusiya Federasiyasına ezam olunmuşdur. Həqiqətə sığmayan yanlış məlumatlar nəticəsində miqrantlara qarşı olan aqressiv münasibətlərə etiraz əlaməti olaraq diaspor təşkilatları bəyanatlarla çıxış etmişdir. Məişət zəminində baş vermiş adi bir qətl hadisəsinin Rusiya kütləvi informasiya vasitələrində etnik kontekstdə ictimailəşdirilməsi bizi çox narahat edir. Biz o zaman da məsələyə dair mövqeyimizi çox açıq şəkildə ifadə etdik və bildirdik ki, cinayətkarın milliyyəti olmur. Hər hansı bir şəxs cinayət törətməkdə şübhəli bilinirsə, onun bu cinayəti törətdiyi qanunauyğun şəkildə sübuta yetirilməlidir.

Hazırda biz bu məsələni diqqətdə saxlayırıq və Ümumrusiya Azərbaycanlıları Konqresinin mərkəzi ofisində həmvətənlərimizə hüquqi kömək göstərilməsi məqsədilə təcrübəli hüquqşünaslardan ibarət operativ qərargah fəaliyyət göstərir. Rusiyada yaşayan azərbaycanlı miqrantların hüquqi maarifləndirilməsi istiqamətində də bir sıra tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Biz hesab edirik ki, meydana çıxan problemlərin həlli üçün ilk növbədə Rusiyada yaşayan azərbaycanlıların hüquqi maarifləndirilməsi işini gücləndirmək lazımdır. Bununla əlaqədar Dövlət Komitəsinin müvafiq şöbələri müxtəlif təkliflər, ideyalar üzərində işləyir. Eyni zamanda, Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının daha da güclənməsi istiqamətində də tədbirlər görmək lazımdır. Paralel olaraq Rusiyanın müvafiq dövlət orqanları və hökumət strukturları ilə dialoqa xüsusi diqqət yetirilməlidir. Yəni bu istiqamətlərin hər biri üzrə ciddi iş aparılmalıdır. Çünki onlardan biri olmayanda digərinin səmərəliliyi də aşağı düşür. Biz işimizi bu cür qurmuşuq və hesab edirik ki, Azərbaycan Respublikasının Rusiyadakı səfirliyi, Ümumrusiya Azərbaycan Konqresi ilə birlikdə bu sahədə yaranan problemlərin aradan qaldırılmasına nail ola biləcəyik.

***- Növbəti illərdə fəaliyyət baxımından hansı planlar nəzərdə tutulmuşdur?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının III Qurultayında öz çıxışı zamanı qeyd etmişdir ki, hər bir vətəndaşımız məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməlidir. Bizim də gələcək illərə dair ən prioritet vəzifələrimizdən biri budur. Artıq bu istiqamətdə bir çox tədbirlər görülmüşdür. Amma biz bunu daha da genişləndirmək niyyətindəyik. Biz çalışırıq ki, xarici ölkələrdə məskunlaşan hər bir vətəndaşımız yaşadığı cəmiyyətdə özünə etimad qazansın. Belə olan halda, qarşımıza qoyduğumuz məqsədlərə nail ola bilərik. Eyni zamanda, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilmiş Dünya Azərbaycanlılarının Onlayn Forumu layihəsini genişləndirməyi planlaşdırırıq. 2014-cü ildə Bakıda Madrid Klubu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birlikdə II Cənubi Qafqaz Forumunun keçirilməsi nəzərdə tutulub. Dövlət Komitəsinin dəstəyi ilə yaradılmış xaricdə yaşayan azərbaycanlılar üçün Azərbaycan dilini tədris edən distant təhsil mərkəzinin fəaliyyətinin əhatə dairəsini daha da genişləndirmək də vəzifələrimiz sırasındadır. Xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması və Rusiyada yaşayan soydaşlarımızın yaranmış problemlərinin həlli ilə bağlı planlarımız var. Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dünya azərbaycanlı alimlərinin forumunun keçirilməsi ilə bağlı məsləhətləşmələr aparılır.

**Müsahibəni qələmə aldı: Əliqismət Bədəlov**
**“Xalq qəzeti”.-2013.-31 dekabr.-N 291.-S.3.**

**Xalqımızın milli həmrəyliyi dünyaya nümunədir**

***Ulu öndər Heydər Əliyevin milli həmrəylik, müstəqillik və azərbaycançılıq ideyaları Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir***

*Dövlət müstəqilliyinin bərpasından ötən 22 il Azərbaycan xalqı üçün möhtəşəm uğurlarla yadda qalıb. Halbuki dövlət və tarix üçün bu müddət uzun zaman kəsiyi deyil. Ancaq bu qısa dövrdə Azərbaycan çox böyük inkişaf yolu keçib. Müstəqilliyimiz və dövlətçiliyimiz möhkəmlənib, mütərrəqqi dövlət quruculuğu, cəmiyyət həyatının bütün sahələrində mükəmməl islahatlar həyata keçirilib. İndi beynəlxalq aləmdə özünün layiqli yerini tutan Azərbaycan həm də ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişaf yolunda örnək götürdüyü bir dövlətdir. Bununla belə, müstəqilliyin bəpasından ötən 22 ilin heç də bütün mərhələləri Azərbaycanın tarixinə xalqımızın və respublikamızın maraqlarına xidmət edən mütərəqqi siyasi və iqtisadi proseslərlə həkk olunmayıb. 1991-1993-cü illərdə baş verən hadisələr göstərdi ki, müstəqilliyi qoruyub saxlamaq, möhkəmləndirmək onu qazanmaqdan qat-qat çətindir. Yalnız 1993-cü ilin iyun ayında ulu öndər Heydər Əliyevin xalqı istəyi ilə hakimiyyə qayıdışından sonra ölkədə formalaşan yeni siyasi kurs Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini təmin etdi və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız misilsiz uğurların bünövrəsini qoydu.*

***Milli həmrəyliyimizin banisi***

1991-ci ildə müstəqilliyini bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olan Azərbaycanın qarşısında duran başlıca və aktual vəzifələrdən biri dünya azərbaycanlılarının vahid bir ideya ətrafında birləşməsi idi. Çünki Ermənistanın ölkəmizə qarşı təcavüzünün açıq müstəviyə qədəm qoyduğu, ermənilərin dünyada antiazərbaycan təbliğatı apardıqları bir vaxtda müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın həmrəyliyinin və diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi olduqca mühüm əhəmiyyət kəsb edirdi. Digər tərəfdən tarixin müxtəlif mərhələlərində düçar olduqları məhrumiyyətlər, haqsızlıqlar və digər səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların təşkilatlanmasının müstəqilliyinə yeni nail olmuş respublikamızın beynəlxalq birlikdəki yerinin möhkəmləndirilməsi işinə böyük töhfələr verəcəyi şübhəsiz idi.

Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşməsi ideyasının müəllifi XX əsrin sonlarına doğru Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Heydər Əliyev olmuşdur. Bu məsələdə xüsusi həssaslıq nümayiş etdirərək ilk addımı da ulu öndər atmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilmişdir. Daha sonra bu bayramın bütün ölkədə qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi.

22 il əvvəl ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın azərbaycançılıq ideyası əsasında sıx birləşməsi, milli diasporun formalaşması və lobbi fəaliyyətinin inkişafı prosesinin başlanğıcını qoydu. Dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması milli diasporun formalaşmasında, xarici ölkələrdə Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri olsa da, təəssüflər olsun ki, müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsi ilə bağlı dövlət siyasəti yürüdülmədi. O dövrdə hakimiyyətdə olan siyasi qüvvələr bu məsələdə maraqlı olmadılar, birlik və həmrəylik ideyalarının özünə yer tapmaması özünü problem kimi göstərərək inkişafı əngəlləyən amilə çevrildi. Diaspor quruculuğuna maraq göstərilməməsi xarici ölkələrdə azərbaycanlıların yeni və güclü cəmiyyətlərinin yaradılmasına mənfi təsir göstərməklə bərabər, soydaşlarımızın vətənlə əlaqələrinin genişlənməsinə, azərbaycançılıq ideyasının inkişaf etdirilməsinə, dünyaya səpələnmiş azərbaycanlıların həmrəyliyinin əldə olunmasına imkan vermədi.

Heydər Əliyevin 1993-cü ildə xalqın yekdil arzusu ilə hakimiyyətə dönüşündən sonra ölkədə davamlı sabitlik və iqtisadi tərəqqinin əsasını qoyulmaqla yanaşı, milli birliyə nail olundu, azərbaycançılıq anlayışı milli təfəkkür tərzinə çevrildi, Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçüq milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu. Ona görə də ən yeni tariximizdə dünya azərbaycanlılarının milli həmrəyliyinə nail olunması ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biridir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonar Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu. Azərbaycanlıların həmrəyliyinin həm ölkəmiz üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün xüsusi əhəmiyyət kəsb etdiyini düzgün dəyərləndirən ulu öndər xaricdəki azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayırdı.

Heydər Əliyev xarici ölkələrə etdiyi səfərlər zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirər, onların problem və qayğıları ilə yaxından maraqlanar, daha sıx təşkilatlanmalarına dair dəyərli tövsiyələr verərdi. "Harada olursa-olsun azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu, təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir" - deyə ulu öndər bildirib.

### *Azərbaycanlıların təşkilatlanması diaspor quruculuğunun prioritet istiqamətidir*

2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən dünya azərbaycanlılarının birinci qurultayı milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri oldu. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən keçirilmiş qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratdı.

Qurultayda ən yaddaqalan məqam isə Heydər Əliyevin proqram xarakterli çıxışı oldu. Ulu öndər dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı tövsiyə xarakterli fikirlərini söylədi, azərbaycançılığın nə qədər önəmli olduğunu, xalqımızın bu ideya ətrafında sıx birləşməsinin vacibliyini bildirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Bu qurultayın keçirilməsi milli ideallların, azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda mühüm addım idi. Qurultay həm də müstəqil Azərbaycanın və eləcə də dünya azərbaycanlılarının həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qaldı. Qurultaydan sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yarandı, soydaşlarımızın cəmləşdiyi cəmiyyətlər dünyanın hər yerində daha aktiv fəaliyyət göstərməyə başladılar. Diaspor hərəkatı sahəsində dövlət siyasətini daha səmərəli həyata keçirmək üçün Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (indi Diasporla İş üzrə Dövlət Komitəsi) yaradıldı. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkan verdi. Milli Məclis "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Dövlət komitəsinin yaradılması və qanunun qəbulu dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da sürətləndirdi, soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin genişləndirilməsini təmin etdi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına stimul verdi.

### *Ulu öndərin müəllifi olduğu ənənələr layiqincə yaşadılır*

Heydər Əliyev yolunu böyük uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 10 ildə Azərbaycan Cənubi Qafqaz bölgəsinin lider dövlətinə və dünya azərbaycanlılarının qürur yerinə çevrilib. İndi kosmik klubun üzvü olan Azərbaycan həm də dünyanın enerji siyasətinə özünün korrektələrini edir. Beynəlxalq tədbirlər məkanına çevrilən Azərbaycanın səsi həm də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına sədrlik etmək kimi möhtəşəm tribunalardan gəlir. Fərəhli haldır ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli həmrəylik və azərbaycançılıq amalının şüurlarımızda və qəlblərimizdə möhkəm yer tutmasına yönəlmiş uzaqgörən dövlət siyasətini, milli həmrəylik və diaspor quruculuğunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin ötən 10 ildə bu sahədə həyata keçirdiyi fəaliyyət ardıcıl və sistemli səciyyə daşıyır. Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən ölkə rəhbəri bu vədini əməli işi ilə doğrultmuş, milli birlik və həmrəyliyə xidmət edən addımları ilə birləşdirici lider statusuna yüksəlmişdir. Prezident İlham Əliyev dünya azərbaycanlılarının həmrəyliyinə verdiyi töhfələrlə - ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və məqsədlər ətrafında konsolidasiyasına nail olmaqla, onlarda milli ruhun yüksəldilməsinə çalışmaqla, bu sahədə məqsədyönlü fəaliyyətin ideoloji-siyasi konturlarını müəyyənləşdirməklə və milli birliyə xidmət edən digər addımları ilə bütün dünya azərbaycanlılarının dərin rəğbətini qazanıb.

Ötən illərin büdcə zərfində diaspor quruculuğuna ayrılan vəsaitlərin ildən-ilə artırılması da milli həmrəyliyə yüksək diqqət və qayğının bariz nümunəsi kimi diqqəti çəkir. Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir. Məhz bu siyasətin məntiqi nəticəsi olaraq İlham Əliyev 2013-cü ilin prezident seçkilərində də dünya azərbaycanlılarının dəstəyini alıb.

Azərbaycanın xarici ölkələrdəki diplomatik korpusunun nümayəndələri ilə keçirdiyi görüşlərdə Prezident İlham Əliyev diaspor quruculuğu işini xarici siyasət sahəsində prioritet istiqamətlərdən biri kimi müəyyən edib və bu fəaliyyətin daha da gücləndirilməsinin vacibliyini bildirib. Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələr düşdüyünü qeyd edib, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələr verib.

Bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin əsas hədəflərindən biri də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların potensial imkanlarını azərbaycançılıq naminə səfərbər etməklə yanaşı, onların həmin ölkələrdə gedən proseslərdə, cəmiyyət həyatının ayrı-ayrı sahələrində fəal iştirakına nail olmaqdır. "Mən demək olar ki, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni bu, bizim vəzifəmizdir. Eyni zamanda onlar da doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər" - deyə Prezident İlham Əliyev bildirib.

Prezidentin 8 fevral 2006-cı il tarixli Sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə və milli həmrəyliyimizin möhkəmlənməsinə yeni təkan verməklə ötən illərin əlamətdar hadisələrindən biri kimi yadda qalıb. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işlərinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılması üçün daha müasir metodların hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri önə çəkilib. Azərbaycan Prezidenti İlham Əliyev qurultaydakı dərin məzmunlu çıxışında xaricdəki azərbaycanlılara və respublikanın müvafiq dövlət qurumlarına bu sahədə görülmüş işlərdə arxayınlaşmamağı, daha böyük nəticələrə nail olmağı tövsiyə edib. II Qurultaydan sonra xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, doğma Vətənimizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, milli-mənəvi dəyərlərimizin qorunması, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, mədəni irsimizin təbliği sahəsində mühüm işlər görülüb. 2008-ci ildə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının Bakıdakı iclasında qəbul olunmuş "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" həmvətənlərimiz qarşısında qoyulan vəzifələrin müəyyənləşdirilməsi və həyata keçirilməsi istiqamətində əhəmiyyətli rol oynayıb. Artıq azərbaycanlıların müxtəlif ölkələrdə fəaliyyət göstərən icma və qurumları vahid mərkəzlərdə birləşmiş, soydaşlarımızın qitələr üzrə təşkilatlanması prosesi demək olar ki, başa çatıb.

Prezident İlham Əliyevin 2011-ci il yanvarın 21-də imzaladığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" Sərəncamından irəli gələrək həmin il iyulun 5-də Bakı şəhərində Dünya Azərbaycanlılarının III qurultayı keçirildi. Bu qurultay xaricdə yaşayan soydaşlarımızın, Azərbaycan icmalarının qarşısına yeni vəzifələr qoymaqla bərabər azərbaycanlıların milli birliyi və diaspor quruculuğu istiqamətində yeni səhifələr açıb. Azərbaycan Prezidentinin türkdilli xalqların ideya birliyinin təmini istiqamətindəki fəaliyyəti də müasir dünya reallıqlarından irəli gəlir. Bu gün az qala dünyanı cəfəng, iftira xarakterli təbliğatının təsiri altına salmağa çalışan, nəinki Türkiyə və Azərbaycana, bütövlükdə türk dünyasına qənim kəsilən bədnam erməni lobbisinə qarşı effektli əks-hücumun təşkili çağdaş dövrün zəruri tələbi kimi önə çıxmışdır. Rəsmi Bakının tarixi, siyasi və dini baxımdan Azərbaycana yaxın olan türkdilli respublikalarla ikitərəfli və çoxtərəfli münasibətlərin genişləndirilməsi təşəbbüsləri də məhz bu məqsədə xidmət edir. 2007-ci il martın 9-da Bakıda keçirilmiş Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu və noyabrın 17-dən 19-dək keçirilən Türk dövlət və cəmiyyətlərinin 11-ci Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı isə birləşməyə doğru atılmış real addımlar olub. Qurultayda qardaş xalqlar və ölkələr arasında bütün sahələrdə qarşılıqlı əlaqələrin dərinləşdirilməsi, inteqrasiya proseslərinin gücləndirilməsi, təhlükəsizliyin və sabitliyin bərqərar edilməsi, türkdilli dövlətlərin beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi naminə görüləcək işlərlə bağlı faydalı ideyalar, dəyərli təşəbbüslər irəli sürülüb. Bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev təkcə dünya azərbaycanlılarının mənəvi birlik və həmrəyliyinin etibarlı təminatçısı deyil, həm də türkdilli xalqlar arasında səmərəli əməkdaşlıq təşəbbüslərinin müəllifidir.

## Birliyimizin rəmzinə çevrilmiş bayram

Azərbaycanın iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırıb, onların müstəqil dövlətimizin xoşbəxt gələcəyinə inamının, özünüdərk hissinin güclənməsinə, ümummilli maraqlar ətrafında sıx birləşməsinə yaxşı zəmin yaradıb. Müstəqil Azərbaycanın əldə etdiyi uğurlar onların milli şüurunu gündən-günə möhkəmləndirir. Odur ki, müxtəlif ölkələrdəki azərbaycanlı diaspor təşkilatları soydaşlarımızın təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinin məqsədyönlü xarakter alması naminə daha faydalı iş aparır, ölkəmizi daha yaxından tanıtdırmaq üçün müxtəlif tədbirlər həyata keçirirlər.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bu bayramın qeyd edilməsi dünya azərbaycanlıları tərəfindən zərurətə və mənəvi ehtiyaca çevrilib. Çünki bu bayram ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin yaradılması işində mühüm rol oynamaqdadır.

Milli birlik və azərbaycançılıq ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyevin hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbriklər ümummilli lider Heydər Əliyevin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin dövlət səviyyəsində və çox böyük uğurla həyata keçirildiyini nümayiş etdirir. Bu günlərdə Prezident İlham Əliyev Milli Həmrəylik Günü münasibətilə bütün həmvətənlərimizi və soydaşlarımızı səmimi qəlbdən təbrik edib, hər birinə xoşbəxtlik, firavanlıq və işlərində uğurlar arzulayıb. Təbrikdə deyilir: "Mənəvi birliyimizin rəmzinə çevrilmiş bu bayram soydaşlarımızın qəlbindəki Vətən sevgisi və milli təəssübkeşlik duyğularını təcəssüm etdirir. Dünya azərbaycanlılarının həmrəyliyi hazırda özünü təkcə emosional hiss və duyğularda deyil, həm də daha çox real məzmuna malik milli-siyasi birlikdə, əməli addımlarda və konkret nəticələrdə göstərir. Azərbaycanlılar arasında həmrəyliyin daha da möhkəmlənməsi və diaspor qurumlarının təsirli qüvvəyə çevrilməsi prosesi uğurla davam edir. Son illərdə xarici ölkələrdə yaşayan soydaşlarımızın hüquqlarının təminatı, Azərbaycan haqqında obyektiv məlumatların yayılması və dövlət maraqlarının qorunması sahəsində diaspor təşkilatlarının rolu xeyli artmışdır. Dövlətimiz diaspor təşkilatlarına bu istiqamətdə indiyə qədər verdiyi dəstəyi bundan sonra da davam etdirəcəkdir".

Dünya azərbaycanlılarının həmrəyliyi ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri idi. Reallıq ondan ibarətdir ki, ulu öndərin bu arzusu həyata keçib. 31 dekabr tarixinin ən mühüm qayəsi həm də ondan ibarətdir ki, bu əlamətdar gün Azərbaycanın dirçəlişi və inkişafı yolunda əvəzsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü, yenilməz iradəsi sayəsində təsis edilib və ümummilli bayrama çevrilib.

Tarixin gedişi və taleyin hökmü ilə dünyanın bütün qitələrinə səpələnmiş milyonlarla soydaşımız ümummilli məqsədlərimizin gerçəkləşməsi naminə dünya azərbaycanlılarının yekdilliyinin misilsiz əhəmiyyət daşıdığını bu gün daha dərindən dərk edir. Onlar yaxşı başa düşürlər ki, etnik-siyasi baxımdan təşkilatlana bilməyən xalqlar ümumdünya inkişafında tutduqları mövqeləri tədricən itirir, getdikcə zəifləyərək hüquq və mənafelərini həyata keçirmək imkanlarından məhrum olurlar.

Qürur hissi ilə qeyd etməliyik ki, bu istiqamətdə ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun davam etdirilməsi və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət sayəsində ölkəmizin qüdrətlənməsi, dünyadakı mövqelərini möhkəmləndirməsi, beynəlxalq aləmdə söz sahibinə çevrilməsi dünya azərbaycanlılarının həmrəyliyini daha da gücləndirir və əzəmətli edir. Müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının həmrəyliyinin əsası və güclü dayağıdır. Bu həmrəyliyin qayəsini təşkil edən müstəqillik, azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları isə soydaşlarımızı birləşdirən ali milli məfkurədir.

***Rəşad Cəfərli,*** **"Azərbaycan".-2013.-31 dekabr.-N 291.-S.5.**

## 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirilmişdir

**20 dekabr 2013-cü il tarixində** Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyində Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi ilə birgə ənənəvi olaraq 31 dekabr-Dünya Azərbaycanlıların Həmrəylik günü münasibətilə Almaniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və icma fəalları ilə görüş keçirilmişdir. Görüş zamanı Almaniyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti və bu fəaliyyətin həmçinin Səfirliklə əlaqələndirilməsi, AAKM–nin təşkilatlandırıcı fəaliyyəti, Azərbaycan-Almaniya münasibətlərinin inkişafında Azərbaycan diasporunun rolu, diaspor təşkilatlarının həyata keçirdikləri layihələr, qarşıdan gələn il ərzində keçirilməsi nəzərdə tutulan tədbirlər və digər maraq kəsb edən mövzular ətrafında müzakirələr aparılmışdır. Tədbirin sonunda diaspor nümayəndələrinə Səfirlik və Heydər Əliyev Fondu tərəfindən alman dilində nəşr edilmiş kitablar hədiyyə verilmiş və axşam yeməyinə dəvət olunmuşlar.

**2013-cü il dekabr ayının 28-də** Azərbaycan Respublikasının İsveç Krallığındakı Səfirliyinin və İsveçdəki Azərbaycan diaspor təşkilatlarının iştirakı ilə Stokholmda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı bayram tədbiri keçirilmişdir. Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov tədbiri açaraq müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin həyata keçirdiyi milli siyasət və azərbaycançılıq ideologiyasından danışmış, Ümummilli liderin Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi ilə bağlı verdiyi Sərəncamın dünyanın müxtəlif guşələrində yaşayan 10 milyonlarla azərbaycanlının Azərbaycan naminə bir yumruq kimi birləşərək əməli işlər həyata keçirmək istiqamətində atılmış tarixi bir addım olduğunu bildirmişdir.

**2013-cü il dekabr ayının 28-də** Haaqa şəhərində Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin və diaspor təşkilatlarının birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd edilmişdir.Tədbirdə Azərbaycan Respublikasının Niderland Krallığındakı fövqəladə və səlahiyyətli səfiri çıxış edərək Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixindən danışmışdır.

**29 dekabr 2013-cü il tarixində** Azərbaycan Respublikasının İsveç Krallığındakı səfirliyinin və İsveçdəki Azərbaycan diaspor təşkilatlarının iştirakı ilə dekabrın 28-də Stokholmda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı bayram tədbiri keçirilmişdir. Səfirlikdən bildirmişlər ki, Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov tədbiri açaraq müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin həyata keçirdiyi milli siyasət və azərbaycançılıq ideologiyasından danışmış, Ümummilli liderin Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi ilə bağlı verdiyi Sərəncamın dünyanın müxtəlif guşələrində yaşayan 10 milyonlarla azərbaycanlının Azərbaycan naminə bir yumruq kimi birləşərək əməli işlər həyata keçirmək istiqamətində atılmış tarixi bir addım olduğunu bildirmişdir. “Azərbaycan Federasiyası” diaspor təşkilatının rəhbəri Səttar Sevgin çıxış edərək İsveçdəki Azərbaycan diaspor təşkilatlarının fəaliyyətindən danışmış, Azərbaycanın təbliği ilə bağlı daha çox işlərin görülməsinə ehtiyac olduğunu vurğulamışdır. Sonra tədbir Azərbaycan mahnı və rəqslərindən ibarət konsert proqramı ilə davam etmişdir.

**2013-cü il dekabrayının 29-da** Azərbaycanın Dubaydakı baş konsulluğu 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirmişdir. Tədbirdə Azərbaycan şirkətlərinin regional ofislərinin, diaspor təşkilatlarının təmsilçiləri, jurnalistlər, ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**2013-cü il 30 dekabr tarixində** Astana şəhərində Azərbaycanın Qazaxıstandakı səfirliyi və Qazaxıstan azərbaycanlılarını özündə birləşdirən “Xəzər” Cəmiyyətinin birgə təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilmişdir.

**2013-cü il dekabr ayının 30-da** Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollektivi və xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının nümayəndələri dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı önünə əklil qoyulmuşdur.

**Bu ilin dekabr ayında** Azərbaycanın Küveytdəki səfirliyində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Küveytdə yaşayan həmvətənlərimiz, ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına töhfə verən Küveyt vətəndaşları, səfirliyin əməkdaşları iştirak etmişlər.

**Cari ilin dekabr ayında** Almaniyanın Hamburq və Şlesviq-Holştayn şəhərlərində yaşayan azərbaycanlılar Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü birlikdə qeyd etmişlər. Norderstedt şəhərində fəaliyyət göstərən “Buta” Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə 80 nəfərə yaxın azərbaycanlı iştirak etmişdir. “Buta” cəmiyyətinin sədri Rüfət Seyidov çıxış edərək həmrəylik gününün dünya azərbaycanlıları üçün mühüm əhəmiyyət kəsb etdiyini qonaqların diqqətinə çatdırmışdır.

**Bu ilin dekabr ayında** Bişkekdəki "Azəri" Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirmişdir. Tədbirdə Bişkekdəki diasporumuzun üzvləri, Qırğızıstanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr, ictimaiyyətin nümayəndələri, jurnalistlər iştirak etmişlər.

**Cari ilin dekabr ayında** Tbilisidə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilmişdir Tbilisi şəhərindəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilmişdir. Azərbaycan və gürcü ictimaiyyəti nümayəndələrinin qatıldıqları tədbirdə çıxış edən muzeyin direktoru Leyla Əliyeva əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün artıq 22 ildir ki qeyd olunduğunu və soydaşlarımızın milli mənlik şüurunun daha da gücləndirilməsinə mühüm təsir göstərdiyini vurğulamışdır.

**Dekabrın 27-də** Vaşinqtondakı "Fairfax at Embassy Row" otelində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni İl bayramına həsr edilmiş təntənəli gecə olmuşdur. Tədbir Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) ABŞ-dakı rəsmi nümayəndəliyi və Vaşinqtonun Azərbaycanlılar İcmasının üzvləri tərəfindən ARDNŞ-in maliyyə dəstəyi ilə təşkil edilmişdir.

ARDNŞ-in ABŞ-dakı nümayəndəliyinin rəhbəri Rauf Məmmədov gecəni açaraq, qonaqları ARDNŞ adından təbrik etmiş və 2014-cü ilin onlar üçün uğurlu olmasını arzulamışdır. Sonra Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanov çıxış etmişdir. Başa çatmaqda olan il ərzində Azərbaycanın nailiyyətləri barədə danışan diplomat Azərbaycan icmasının fəallığına görə təşəkkürünü bildirmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni - 2014-cü il münasibətilə təbrikini qonaqlara çatdırmışdır.

Bayram gecəsində “Veronica ORCHESTRA” ansamblının müşayiəti ilə Azərbaycan müğənnisi Veronika çıxış etmişdir. “NOMAD” rəqs qrupu Azərbaycan milli rəqslərini ifa etmişdir. Tədbirdə AzərTAc-ın hazırladığı, Azərbaycanın son illərdə qazandığı uğurlardan bəhs edən, o cümlədən “Gəzdim Azərbaycanı” silsiləsindən olan videomateriallar nümayiş etdirilmişdir. Gecədə Vaşinqtonun Azərbaycan diasporunun nümayəndələri və Azərbaycanın dostları iştirak etmişlər.

**Şimali Kiprin Yaxın Doğu Universitetində** Azərbaycan Tələbə Cəmiyyətinin təşkilatçılığı, Azərbaycan-Kıbrıs Dostluq Cəmiyyətinin dəstəyi ilə “Mən azərbaycanlıyam” adlı gecə təşkil olunmuşdur.
AzərTAc xəbər verir ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilmiş tədbirdə Şimali Kiprdə fəaliyyət göstərən universitetlərdə təhsil alan azərbaycanlı gənclər, Nigeriya, Qazaxıstan, Türkiyəni təmsil edən tələbələr iştirak etmişlər.

Tədbirdə çıxış edən Yaxın Doğu Universitetinin prorektoru Fəxrəddin Sadıqoğlu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dünya azərbaycanlılarının vahid milli ideologiya ətrafında birləşdirilməsi istiqamətində xidmətlərindən danışmışdır. O bildirmişdir ki, həmrəylik gününün əsas məzmununu milli mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq, azərbaycançılıq duyğuları və ideyaları təşkil edir.

Azərbaycan-Kıbrıs Dostluq Cəmiyyətinin sədri və Şimali Kipr Doğu Akdeniz Universiteti rektorunun müşaviri Orxan Həsənoğlu Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün hər bir azərbaycanlı üçün xüsusi əhəmiyyət daşıdığını söyləmişdir. O bildirmişdir ki, bu bayramın qeyd edilməsi azərbaycançılıq ideyasının zənginləşməsinə, diaspor təşkilatlarının fəaliyyətinin güclənməsinə, hər birimizdə Vətən sevgisinin artmasına müsbət təsir göstərir. Yaxın Doğu Universitetinin doktorantı Rəşad Ələkbərov Azərbaycanın son illərdə əldə etdiyi uğurlardan söhbət açmışdır.

Azərbaycan Yazıçılar Birliyinin üzvü və Yaxın Doğu Universitetinin tələbəsi Raul Məsumun tədbirdə söylədiyi şeirlər, Doğu Akdeniz Universitetində təhsil alan azərbaycanlı tələbə Nəzrin Həsənovanın nigeriyalı tələbə Riçerd Oduki ilə birlikdə ifa etdikləri milli rəqslərimiz iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır. Gecədə Azərbaycanın son illərdə əldə etdiyi uğurlarla bağlı videoçarx nümayiş etdirilmişdir.

**Dekabrın 29-da** Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyi tərəfindən Ər-Riyad şəhərinin mərkəzində yerləşən Riyad sarayında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilmişdir. Səfirlikdən AzərTAc-a bildirmişlər ki, əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilmişdir. Səfirliyin birinci katibi Samir Məlikli 1991-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən təsis edilmiş Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətindən danışmışdır. S.Məlikli bu bayramın təsis edilməsini dünyanın müxtəlif hissələrində məskunlaşmış həmyerlilərimizin birliyi istiqamətində atılmış ən mühüm addım kimi qiymətləndirmişdir. O, həmçinin Azərbaycanın dünyada nüfuzunun artması və xaricdə yaşayan həmyerlilərimizin problemlərinin həlli istiqamətində Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətdən danışmışdır. Sonra səfirliyin birinci katibi Ramil İmranov Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarına müraciətinin mətnini oxumuşdur. Digər çıxış edənlər Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd olunmasının soydaşlarımıza Vətənə məhəbbət və milli dəyərlərimizə hörmət kimi mənəvi keyfiyyətlər aşıladığını bildirmişlər. Tədbirdə “Biz 50 milyonluq xalqıq” adlı sənədli film nümayiş etdirilmişdir.

**Azərbaycan Respublikasının Sankt-Peterburqdakı baş konsulluğu Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) regional şöbəsi ilə birgə** Sankt-Peterburqda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təntənəli gecə keçirmişlər. Azərbaycan Respublikası baş konsulluğunun mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, tədbirdə təxminən 100 nəfər - Sankt-Peterburqda yaşayan azərbaycanlı gənclər, Sankt-Peterburq azərbaycanlılarının ictimai təşkilatlarının nümayəndələri və tələbələr iştirak etmişlər. Azərbaycan Respublikasının Sankt-Peterburqdakı baş konsulu Elşad Qulamov mərasimdə çıxış edərək iştirakçılara Azərbaycanın sürətli iqtisadi inkişafı, Azərbaycan və Rusiya arasında bütün sahələrdə sıx münasibətlərdən danışmışdır. Bildirmişdir ki, iki ölkənin rəhbərləri arasında tərəfdaşlıq və dostluq münasibətləri azərbaycanlıların Rusiyada, rus icmasının isə Azərbaycanda yaşaması və uğurla inkişaf etməsi üçün sabitliyin qarantıdır. Diplomat ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs əsasında Azərbaycan Respublikasında həyata keçirilən, bütün sahələrdə proqressiv dəyişikliklərə səbəb olan ardıcıl islahatlardan da söz açmışdır. E.Qulamov son on ildə Azərbaycanda sosial-iqtisadi sahədə baş verən, cəmiyyətin həyatının bütün sahələrinə müsbət təsir göstərən və ictimai-siyasi proseslərin sağlam məcraya yönəlməsinə səbəb olan güclü sıçrayışı xüsusi vurğulamışdır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilk dəfə 1991-ci il dekabrın 16-da ulu öndər Heydər Əliyev tərəfindən elan olunmuşdur. Həmin vaxtdan etibarən bu gün Azərbaycan xalqının milli bayramına çevrilmişdir. Həmrəylik Gününün əsas ideyasını dünya azərbaycanlılarının birliyi və həmrəyliyi, Azərbaycanın dövlətçiliyi, xalqın milli mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluqla və tarixi Vətənə bağlılıqla əlaqədar hiss və ideyalar təşkil edir. RAGB-ın Sankt-Peterburqdakı regional şöbəsinin nümayəndəsi RAGB-ın rəhbəri Leyla Əliyevanın təbriklərini peterburqlu gənclərə çatdırmış və onun Rusiyanın azərbaycanlı gənclərinə göstərdiyi xüsusi qayğını qeyd etmişdir. Bildirilmişdir ki, RAGB təşkilatı azərbaycanlı gənclərin birləşməsi və Rusiya cəmiyyətinə inteqrasiyası üçün bütün şəraiti yaratmışdır. Gecədə “Vətən” ictimai təşkilatının sədri Məzahir Həsənov təbrik nitqi ilə çıxış etmişdir. O demişdir ki, çoxmillətli Rusiya cəmiyyətinin ayrılmaz hissəsi olan azərbaycanlılar tarixi Vətəndən uzaqda yaşasalar da, öz adət-ənənələrini unutmurlar. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xaricdəki həmvətənlərimiz tərəfindən, o cümlədən Peterburqda geniş qeyd olunur. Sankt-Peterburq Dövlət Universitetinin postsovet məkanında beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix elmləri doktoru Niyazi Niyazov təkcə Rusiyanın yox, bütövlükdə dünya ictimaiyyətinin nəzərində Azərbaycanın və azərbaycanlıların imicinin yaxşılaşdırılmasının vacibliyini vurğulamışdır. O, bu prosesdə gənclərin xüsusi rolunu qeyd etmişdir. Tədbirdə “Azərbaycan beynəlxalq arenada: son on ilin nailiyyətləri” filmi nümayiş etdirilmiş, tələbələr arasında Azərbaycanın tarixi ilə bağlı müsabiqə keçirilmiş, qaliblərə xatirə hədiyyələri təqdim olunmuşdur.

**Dubayın rəsmi “Al-Bayan” qəzetinin 29 dekabr tarixli nömrəsində** “Azərbaycan Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edir” sərlövhəli məqalə dərc olunmuşdur. Məqalədə deyilir: “Azərbaycan və dünya azərbaycanlıları dekabrın 31-də əlamətdar bayramı - Həmrəylik Gününü qeyd edəcəkdir. Bu bayram Sovet İttifaqının süqutundan sonra yaranmışdı. O vaxtadək dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqələri çox zəif idi. Yazıda bildirilir ki, hər il olduğu kimi bu il də Azərbaycan Prezidenti İlham Əliyev Həmrəylik Günü münasibətilə dünya azərbaycanlılarını təbrik etmiş, müstəqillik illərində dünya azərbaycanlılarının birliyinin gücləndiyini və Vətənlə əlaqələrinin möhkəmləndiyini bildirmişdir. Azərbaycanın mühüm bayramlarından biri olan Həmrəylik Gününü BƏƏ-dəki Azərbaycan diasporu da qeyd etmişdir. Qəzet yazır ki, tədbir BƏƏ-dəki Azərbaycan diasporunun rəhbəri Samir İmanov tərəfindən təşkil edilmişdir. S.İmanov demişdir: “Bu bayram dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlılar arasında münasibətlərin qurulması prosesində, onların birlik ruhunun və həmrəyliyinin güclənməsində mühüm rol oynamışdır. Bu bayramın qeyd edilməsi dünyada yaşayan bütün azərbaycanlılar tərəfindən bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir”. Məqalədə yazılır: “Samir İmanov demişdir ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycanın Naxçıvan şəhərində, 1989-cu ilin sonlarında Sovet İttifaqı ilə İran arasında sərhədin sökülməsi ilə əlaqədar müasir müstəqil Azərbaycanın qurucusu və xalqın ümummilli lideri Heydər Əliyev tərəfindən təsis edilmişdir. İki ildən sonra–1991-ci ildə Heydər Əliyev öz fərmanı ilə 31 dekabrı rəsmən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdir”.

**Brüsseldə fəaliyyət göstərən Avropada Azərbaycanlı Təcrübəçilər Təşkilatı** tərəfindən Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirilmişdir. AzərTAc xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) sponsorluğu ilə keçirilən tədbirdə ölkəmizin Belçika Krallığı, Lüksemburq Böyük Hersoqluğu və Avropa İttifaqı yanında nümayəndəliyinin, NATO yanında nümayəndəliyinin, həmçinin ARDNŞ-in Belçika nümayəndəliyinin əməkdaşları, Avropa Parlamentində və digər beynəlxalq qurumlarda təcrübə keçən azərbaycanlı gənclər, eləcə də Belçikada təhsil alan azərbaycanlı tələbələrimiz iştirak etmişlər. Tədbirdə Avropa Parlamentinin sabiq üzvü Frank Şvalba-Hot da iştirak etmişdir. Azərbaycanlı gənclər tədbir çərçivəsində diplomatlarla yaxından tanış olmaq, Belçikada təhsil və iş təcrübəsi ilə bağlı fikirlərini paylaşmaq imkanı qazanmışlar.

**Belarusda 31 dekabr -** Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilmişdir. Əvvəlcə Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirilmişdir. Belarus Azərbaycan İcmaları Konqresinin təşəbbüsü ilə keçirilən tədbirdə bu ölkənin dövlət və hökumət rəsmiləri, elm və mədəniyyət xadimləri, diplomatik korpusun nümayəndələri və diaspor fəalları iştirak etmişlər. Belarus Azərbaycan İcmaları Konqresinin sədri Natiq Bağırov çıxış edərək bildirmişdir ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü 50 milyondan çox soydaşımızı bir bayraq altında birləşdirən milli məfkurə bayramıdır. N.Bağırov qonaqlara təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün tarixi barədə məlumat vermişdir.

Tədbirdə iştirak edən İsrailin Belarusdakı səfiri İosif Şaqal demişdir ki, həmrəylik günü dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlı üçün böyük bayramıdır. Bu bayram həm də Azərbaycanda yaşayan bütün xalqların birlik və həmrəylik təntənəsinə çevrilmişdir. Səfir demişdir: “Artıq 20 ildən çoxdur ki, mən və mənim ailəm, o cümlədən əslən Azərbaycandan olan bütün yəhudilər dahi Heydər Əliyevin bizlərə miras qoyduğu 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü böyük bayram kimi qeyd edirik. Fürsətdən istifadə edib başda Prezident İlham Əliyev olmaqla dünya azərbaycanlılarını bu əziz bayram münasibəti ilə ürəkdən təbrik edirəm”.

Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Ruslan Quliyev, Belarus Azərbaycanlı Gənclər Birliyinin sədri Elvira İmanova, Belarus Azərbaycan İcmaları Konqresinin idarə heyətinin üzvü Gülnarə İmanova, Azərbaycan Dili və Mədəniyyət Mərkəzinin rəhbəri Eleonora Hüseynova və digər soydaşlarımız çıxışlarında dünya azərbaycanlılarının milli dövlətçilik məfkurəsi altında birləşməsində dahi Heydər Əliyev şəxsiyyətinin müstəsna xidmətlərindən danışmışlar.

Sonra tədbir Belarus Azərbaycanlı Gənclər Birliyinin mahnı və rəqs ansamblının maraqlı konsert proqramı ilə davam etmişdir. Gənc istedadların milli rəqsləri qonaqlara xoş ovqat bəxş etmişdir.

**"Azəri" Yeni Zellandiya Azərbaycan Dostluq Cəmiyyəti** Okland şəhərində 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirmişdir. Tədbirdə Yeni Zellandiyanın müxtəlif regionlarında yaşayan azərbaycanlılar, burada təhsil alan azərbaycanlı tələbələr, yerli ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan cəmiyyətin sədri Qalib Mahmudov 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixindən, onun əhəmiyyətindən danışmışdır. O həmçinin təşkilatın ötən dövrdəki fəaliyyəti, qarşıda duran vəzifələr barədə məlumat verərək tədbir iştirakçılarını bu əlamətdar gün münasibətilə təbrik etmişdir. Tədbir çərçivəsində qonaqlara Azərbaycan milli mətbəxi, milli geyim nümunələri, milli musiqimizdən parçalar təqdim olunmuşdur.

**Dekabr 2013**

**Londonda fəaliyyət göstərən "Azərbaycan Evi"nin təsis edilməsinin 5-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir**

Cari ilin dekabr ayında Londonda fəaliyyət göstərən "Azərbaycan Evi"nin təsis edilməsinin 5-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.Tədbirdə Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin əməkdaşları, bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının təmsilçiləri, yerli və xarici ictimaiyyətin nümayəndələri iştirak etmişdir.

Tədbir çərçivəsində "Azərbaycan Evi"nin nümayəndəsi Fəridə Pənahova , "Azərbaycan Evi"nin icraçı direktoru, doktor Əli Təkin Atalar, Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfiri Fəxrəddin Qurbanov çıxış edərək təmsil etdikləri mədəniyyət evi haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, ölkəmizin adını daşıyan bu dostluq mərkəzi Britandiyada yaşayan, təhsil alan həmvətənlərimizin təşəbbüsü ilə təsis edilmişdir.

**Dekabr 2013**

## MÜNDƏRİCAT


Azərbaycan diasporu: 2013.....1
DİASPOR: Azərbaycan həqiqətlərini təbliğ edən nüfuzlu qüvvə.....2
"Xəzər" İctimai Birliyi, Qırğızıstan Azərbaycanlıları Konqresi, Qırğızıstan Azərbaycanlılarını Əlaqələndirmə Mərkəzi, Regional Milli Etnik Diaspor Əməkdaşlığı Şurası və "Qırğızıstan-Azərbaycan Gəncləri" İctimai Birliyinin rəhbərlərinin toplantısı keçirilmişdir.....5
Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə yerli diaspor nümayəndələrinin iştirakı ilə tədbir keçirmişdir.....6
Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə İzmir Azərbaycan Mədəniyyət Evi və Həmrəylik Cəmiyyəti, Dünya Gəncləri Həmrəylik Dərnəyi və İzmirdə təhsil alan azərbaycanlı tələbələrin təşkilatçılığı ilə tədbir keçirilmişdir.....7
Belçika Azərbaycanlıları Cəmiyyəti.....8
Birləşmiş Ştatlardakı Azərbaycan Diasporu.....10
Türkiyə Respublikasının Çukurova Dövlət Konservatoriyasının professoru, əməkdar incəsənət xadimi Cahangir Novruzov Alanya Bələdiyyəsinin sədri Həsən Sipahioğlu ilə görüşmüşdür.....11
Azərbaycan diasporu 20 Yanvar faciəsinin ildönümünü qeyd edəcək.....12
"Azərbaycan üzrə Araşdırmalar Dərsləri" layihəsinin iştirakçıları, Toronto Universitetinin bir qrup Professor ve Magistr tələbələrinin Azərbaycana səfəri təşkil edilmişdir.....14
Azərbaycan diasporunun dəstəkverici qüvvəsi - türk diasporu.....15
Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Toronto Universitetinin nümayəndə heyəti Azərbaycana səfər etmişdir.....17
Kaliforniya Universitetinin professoru Lütfi Zadə 2012-ci il üçün "Foundation Frontiers of Knowledge Awards"ın informasiya-kommunikasiya texnologiyaları nominasiyası üzrə BBVA mükafatına layiq görülüb.....18
Dövlət Komitəsinin sədri Kanada Azərbaycan Tədqiqatlar İnstitutunun nümayəndə heyətini qəbul etmişdir.....19
"Bəzi ölkələrdə bir təşkilatın olması normal deyil" - Nazim İbrahimov – müsahibə.....20
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları həmçinin, Türkdilli ölkələrin diaspor təşkilatlarının rəhbərləri Heydər Əliyevin xatirəsini ehtiramla yad etmişdirlər.....22
Bakıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin diaspor məsələlərinə cavabdeh dövlət qurumlarının rəhbərlərinin ilk görüşü keçirilmişdir.....23
Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Diaspor Məsələrinə Cavabdeh Dövlət Qurumları Rəhbərlərinin I Toplantısı fasilədən sonra öz işini davam etdirmişdir.....24
Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) yeni nümayəndəliyi açılmışdır.....25
"Birinci millətlərarası Murmansk forumu" keçirilmişdir.....26
"Əl-Cümhuriyyə" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin müsahibəsi dərc edilmişdir.....27
ABŞ-ın nüfuzlu "The Hill" qəzetində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) London ofisinin əməkdaşı Emil Ağazadənin məqaləsi dərc edilmişdir.....28
"Böyük Azərbaycan mütəfəkkirləri Nizami, Nəsimi və Füzulinin yaradıcılığı" kitabı rus dilində nəşr edilmişdir.....29
Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) mərkəzi aparatının nümayəndə heyəti Murmansk vilayətində səfərdə olmuşdur.....30
20 yanvar faciəsi qurbanlarının xatirəsi bir çox diaspor təşkilatlarımız tərəfindən anılmışdır.....31
Azərbaycan diasporunun formalaşmasına uzun illərin tarixi proseslərinin təsiri.....34
Azərbaycan-Türkiyə diasporları əməkdaşlıq müstəvisində.....36
Azərbaycanın zəngin mətbəx nümunələrinin ilk təqdimatı keçirilmişdir.....38
Ümumrusiya Azərbaycan Konqresi Mərkəzi Şurasının iclası keçirilmişdir.....39
"Yosef-Yoaxim konsert zalı"nda "Gecənin romansları" adlı konsert proqramı təşkil edilmişdir.....40
Berlin şəhərində professor Eldar Quliyevin "Qotfrid Vilhelm fon laybniz medalı" ilə təltifatına həsr olunmuş mərasim keçirilmişdir.....41
"Qaradağlı soyqırımı" kitabının təqdimatı keçirilmişdir.....42
Azərbaycan icma və cəmiyyətlərindən federasiya və konqreslərə doğru.....43
Azərbaycançılıq və Azərbaycanın dövlət rəmzləri.....45
Parisdə Fransa Milli Assambleyasının binasında Parisdəki Azərbaycan Evinin sədri Mirvari Fətəliyeva və azərbaycanlı tələbə Vüsal Hüseynovun Fransa Milli Assambleyasının üzvü, ermənipərəst mövqeyi ilə tanınan parlamentar Fransua Roşebloun və erməni diasporunun üzvləri tərəfindən vəhşicəsinə döyülmüşdür.....47
Dünyanın müxtəlif ölkələrində Xocalı Soyqırımının iyirmi birinci ildönümü ilə bağlı 80-dən çox tədbir keçirilmişdir.....48
İki azərbaycanlının vəhşicəsində döyülməsi fransız mətbatının diqqətindən yayınmamışdır.....51
Parisdəki "Azərbaycan Evi".....52

Fransız mətbuatı fevralın 26-da Milli Assambleyada iki azərbaycanlının ermənilər tərəfindən vəhşicəsinə döyülməsini işıqlandırmaqda davam edir……………………………………………………...................……54
Azərbaycan diasporu dünyada söz sahibinə çevrilir.................................................................................................56
Frankfurt şəhərində "Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr" mövzusunda diaspor nümayəndələrinin müşavirəsi keçirilmişdir..........................................................................58
Londonda City Universitetinin Azərbaycan cəmiyyətinin təşkilatçılığı ilə "Azərbaycanın keçmişi, bu günü və gələcəyi" adlı konfrans keçirilmişdir……………………………………………………………………………59
Novruz bayramı münasibətilə Rusiyanın Saratov şəhərində müsəlman diasporlarının komandaları arasında mini futbol üzrə ənənəvi turnir keçirilmişdir…………………………………………………...................…60
London School of Economics" Universitetində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin təşkilatçılığı və Böyük Britaniyadakı səfirliyimizin dəstəyi ilə Novruz bayramı ilə əlaqədar nümayiş keçirilmişdir.......................61
Frankfurt şəhərində "Avropada Azərbaycan diasporu: yeni dövrün şərtləri və qarşıda duran vəzifələr" mövzusunda diaspor nümayəndələrinin müşavirəsində Avropa Azərbaycanlıarı Konqresinin bəyanatı qəbul olunub…...........................................................................................................................................62
Britaniyanın Aberdin Universitetində Azərbaycan cəmiyyətinin təşkilatçılığı və Böyük Britaniyadakı səfirliyimizin dəstəyi ilə Novruz şənliyi keçirilmişdir………………………………………………..........…63
İstanbul Türkiyə Azərbaycan Dərnəyi Maltepe Saylan Kültür Mərkəzində möhtəşəm Novruz şənliyi təşkil edib...................................................................................................................................................64
Azərbaycan Respublikasının Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzinin binasında Paris və Paris ətrafı şəhərlərdə yaşayan azərbaycanlı uşaqlar üçün ilk Azərbaycan dili dərslərini təşkil edib……........................……65
Almaniyada fəaliyyət göstərən "Almaniya Azərbaycanlı Gənclər Birliyi" 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar BMT-nin Baş Katibi Pan Ki-Moona ünvanlanan bəyanat qəbul edib……........……66
Ukraynanın Xarkov vilayətində yaşayan azərbaycanlılar Novruz bayramını qeyd etmək üçün bir araya gəlib.......67
Azərbaycan Diasporunun Almaniyadakı Mərkəzi Şurası 31 Mart soyqırımı ilə əlaqədar Almaniya Bundestaqının spikeri, professor Norbert Lammert-e ünvanlanmış bəyanat qəbul edib………………………...68
İtaliyanın paytaxtı Roma şəhərində Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun (ASAİF) növbəti – Roma forumu işə başlamışdır……………………………….……69
Amerikadakı Azərbaycan diaspor təşkilatları.................................................................................................71
"31 mart Azərbaycanlıların soyqırımı" ilə bağlı bir sıra tədbirlər keçirilmişdir...............................................73
Dr. İsmayıl Seragəldin ərəb dünyasının tanınmış simaları təmsil olunan böyük nümayəndə heyyəti "Cənubi Qafqaz Forumu"nda iştirak etmək üçün Azərbaycana səfərə gəlir……………………………………….…..74
Milli ideologiyamızın və müstəqilliyimizin baş memarı……………………………………...…………..75
Aprelin 8-də Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumu (Davos Forumu) işə başlamışdır....................................................................................80
Isgəndəriyyə Kitabxanasının direktoru Dr. Ismayıl Seragəldin Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ münaqişəsi haqqında danışıb.....................................................................................................................83
Türkiyədə səfərdə olan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Cənubi Qafqaz Forumu ilə bağlı müzakirələr aparır..........................................................................................................................84
Qlobal Liderlər Alyansın təsis olunması qərara alınıb…………………………………......……………85
Bakıda Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) məzunlarının I Ümumdünya Forumu keçirilmişdir…….............................................................................................................................86
Danimarkanın paytaxtı Kopenhagendə yaradılmış "Azərbaycan Evi"ndə "Vətən" Cəmiyyəti Gənclər Təşkilatı İdarə Heyətinin növbəti yığıncağı keçirilib……………………………………………………………87
Cənubi Qafqaz Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olacaq Bolqarıstan Respublikasının sabiq Prezidenti Petar Stoyanov (1997-2002) təşkilatçılara xüsusi müraciət etmişdir………………………….…88
Dünya Azərbaycanlı Gənclər Birliyinin nümayəndəsi, Almaniya Azərbaycanlı Gənclər Birliyinin (AAGB) rəhbəri Elnur Richter Almaniyanın sabiq kansleri Gerhard Şröder ilə görüşüb……………………………...…..89
Almaniyada yaşayan azərbaycanlılar Münhen şəhərində irqi ayrı-seçkiliyə, millətçiliyə qarşı etiraz nümayişi keçirmişdir…………………………………………………………………………………...….90
İsveçdə Azərbaycan diasporu.......................................................................................................................91
Misir Ərəb Respublikasının Prezidenti Məhəmməd Mursinin rəhbərliyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Qlobal Liderlər Şurasının əsas təsisçi qurumlarından biri olan məşhur İsgəndəriyyə Kitabxanasının Direktorlar Şurasının toplantısı keçirilmişdir..............................................................................................92
İstanbulda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası nəzdində diaspor məsələləri üzrə Təmas qrupunun ilk toplantısı keçirilib.........................................................................................................................................93
"Diaspora təşkilatlarımız Azərbaycanın milli maraqlarının sistemli şəkildə qorunmasında fəal rol oynamalıdırlar"..................................................................................................................................94

Azərbaycanda səfərdə olan israilli jurnalistlər qrupu Diasporla İş üzrə Dövlət Komitəsində görüş keçiriblər KİV nümayəndələrini komitə sədrinin birinci müavini Valeh Hacıyev qəbul edib……………….…………………96
Mənzil qərargahı Amsterdamda yerləşən Benilüks Azərbaycanlıları Konqresi ətrafında yeni təşkilatları birləşdirir………………………………………………………………………………………………..97
Almaniyanın Frankfurt Sülh Tədqiqatları İnstitutunun (PRIF) elmi əməkdaşı, həmyerlimiz Azər Babayevin tanınmış beynəlxalq elmi-tədqiqat “Democratization” jurnalında geniş elmi məqaləsi dərc edilmişdir……….......98
Helsinkinin “Caisa” mədəniyyət mərkəzində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş “Qadınların cəmiyyətdə rolu” mövzusunda tədbir keçirilmişdir…………………....99
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Türkiyə Respublikası Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç ilə görüşüb……100
AzərTAc-ın Finlandiyaya ezam olunmuş əməkdaşları Aygün Həsənova və Elşən Şahbalayev, Finlandiya-Azərbaycan Assosiasiyasının sədri Vasif Muradlı və təşkilat sədrinin müavini Arzu Oqtay Eduskuntuda (Finlandiya parlamenti) görüş keçirmişlər…………………..........……………………………101
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi növbəti yenilik edib...............................................102
Azərbaycan və türk diasporu arasında əməkdaşlıq yeni mərhələdə .........................................................................103
İsveç Azərbaycanlıları Konqresinin (İAK) nümayəndələri Şərqi Avropada “dondurulmuş” münaqişələrə həsr olunmuş seminarda iştirak etmişlər……………………………………………………..…………....104
Dünya Azərbaycanlı Gənclər Birliyi Mərkəzi Şurasının iclası keçirilmişdir…………………………........105
Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar Almaniyanın Maqdeburq şəhərində yaşayan azərbaycanlılar xüsusi aksiya keçiriblər……………………………………106
“Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafında və möhkəmlənməsində Heydər Əliyevin rolu” adlı elmi praktik respublika konfransı keçirilmişdir……………………………………………………..........................107
Dövlətin diqqətində olan diaspor nümayəndələri ........................................................................................................108
Moskvada Rusiya Azərbaycanlı Gənclər Təşkilatının rəhbərliyi ilə Rusiyada işləyən azərbaycanlı həkimlərin 1-ci tibb forumu keçirilmişdir……………………………………………….....................................110
Qlobal Liderlər Alyansı təsis edilmişdir………………………………………………….………….....111
Gənclər Azərbaycan diasporunun hərəkətverici qüvvəsi kimi ..................................................................................112
Diaspor təşkilatları Heydər Əliyevin 90 illik yubileyini qeyd edir ........................................................................113
İsmayıl Serageldin mayın 3-də Gəncədə olmuşdur……………………………………………………….115
Leyla Əliyeva “Heydər Əliyev kuboku”nu turnirin qalibi Moskva Dövlət Humanitar İqtisadiyyat İnstitunun komandasına təqdim edib…………………………………………………………………....116
Birinci Cənubi Qafqaz Forumu keçirilmişdir…………………………………………………………..117
Xarici ölkələrdə Azərbaycan dilinin təbliğində diaspor təşkilatlarının rolu..............................................................118
Azərbaycan diasporu Asiya qitəsində.........................................................................................................................120
Berlində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilib……………………………………………………………………………………122
Diaspor sahəsində mütəşəkkillik artır.........................................................................................................................123
Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş peşəkar boks çempionatı keçirilib………………………………125
Avstraliyadakı Azərbaycan icmasının rəsmi veb-səhifəsini istifadəyə verilib…………………………………126
ABŞ-dakı Azərbaycan diasporunun qarşısında bir sıra mühüm vəzifələr dayanır....................................................127
Almaniyanın Drezden şəhərində VI Transqafqaz festivalı çərçivəsində “Kişi və qadınlar arasında gender bərabərliyi” və “Sərhədsiz dünya” mövzularında iki layihə gerçəkləşmişdir.....................................................129
Türkdilli ölkələrin diaspor təşkilatları ortaq strategiya hazırladılar .........................................................................130
Azərbaycan diaspor təşkilatları Ukraynada səmərəli fəaliyyət göstərir ....................................................................131
Azərbaycan diasporu inkişaf yolunda..........................................................................................................................132
Dərbənddə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məqsədilə şəhərin mərkəzi küçələrindən birinə böyük siyasətçinin adı verilib........................................................................134
Kiyevdə “Ukraynadakı Azərbaycan diasporunun inkişaf perspektivləri” I Ümumukrayna forumu işə başlamışdır…………………………………………………......……………………...…...135
Danimarkada fəaliyyət göstərən "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə bu qurumun nəzdində olan Azərbaycan Evində “Ana dili” məktəbinin açılışı olmuşdur.......................................................................................136
Berlin-Bakı Qalereyasında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsinə və Bakı Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yaranmasının 90 illiyinə həsr edilmiş sərgi açılıb……………………137
Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) Türkiyədə ilin qeyri-hökümət təşkilatı seçilib…………………………………………………………………………......138
Azərbaycanın haqq səsini dünyaya çatdıran diaspor təşkilatları ...............................................................................139

Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə tanınmış yazıçı-dramaturq Elçin Hüseynbəylinin dörd hekayəsi bu ilin fevral - aprel aylarında Litvanın ədəbiyyat və incəsənət nəşrlərində litvaca işıq üzü görüb......................141
Azərbaycan diaspor təşkilatları Amerika qitəsində............................................................................................142
Diaspor təşkilatları Azərbaycanın problemlərini finlandiyalılara çatdırır..........................................................144
Diaspor təşkilatlarımız tərəfindən Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə bir çox tədbirlər təşkil edilmişdir……………………………………………………………………….……………146
28 may Respublika günü münasibəti ilə bir sıra tədbirlər keşirilmişdir……………………………………….148
Teymur Rzayev Rusiya Rəssamlıq Akademiyası tərəfindən Şuvalov medalı ilə təltif olunub...............................150
İsrailin Tirat-Karmel şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC)
95-ci ildönümü qeyd edilmişdir…………………………………………………………………......……151
Benilüks Azərbaycanlıları Konqresinin (BAK) idarə heyətinin növbədənkənar toplantısı keçirilib…………..….152
“Azərbaycanın haqq səsinin Belarus ictimaiyyətinə çatdırırıq”..............................................................................153
Azərbaycan diasporunda yeni bir mərhələnin başlanğıcı ......................................................................................155
Azərbaycan diasporu müsəlman ölkələrində..........................................................................................................156
“Ümumrusiya Azərbaycan Konqresi tərəfindən “Rusiya Günü”nü qeyd olunmuşdur…………………….……158
Qardabani rayonu Qara Təhlə kənd sakini Savalan Mirzə oğlu Mirzəyev Gürcüstanın baş naziri Bidzina İvanişvilinin milli azlıqların məsələləri üzrə köməkçisi təyin edilib……………………….....……………159
Peru parlamentində Xocalı soyqırımını tanıyan qərar qəbul olunmuşdur…………….........................................160
Sidney şəhərində Avstraliyanın Yeni Cənubi Uels (NSW) ştatının parlament binası qarşısında bu qurumun bu il mayın 8-də yunanlara, assuriyalılara və ermənilərə qarşı 1914-1923-cü illərdə Osmanlı imperiyası tərəfindən soyqırımı törədilməsi iddialarının tanınması barədə qərar qəbul etməsinə qarşı etiraz aksiyası keçirilib……………………...........................................................................................................…………163
Gənc azərbaycanlı yazıçı Gunel Anarqızının fransız dilinə tərcümə edilmiş"Qarabağ hekayələri" kitabının təqdimatı olmuşdur…………………………………………………………….......……………164
İsveçrənin Bazel şəhərində Azərbaycan yazıçısı və publisisti, “Ölkəm” jurnalının baş redkatoru Günel Anarqızının alman dilinə çevrilmiş “Qarabağ hekayələri” kitabının təqdimatı olub……………………….....165
Almaniyanın Aşağı Saksoniya federal əyalətinin paytaxtı Hannover şəhərində Azərbaycan xalqının Milli Qurtuluş Gününə həsr olunmuş həvəskar oyunçular arasında mini futbol turniri keçirilib…………………...…166
“Diaspor quruculuğu sonsuz bir prosesdir”……………………………………………………………………167
Nazim İbrahimov: “Diaspor təşkilatlarının əməkdaşlığı türk dünyasının gücünə güc qatacaqdır”……………....169
Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumu keçirilmişdir………………………………………………………………………………………………170
Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları
rəhbərlərinin I Forumuna…………………………………………………………………………………….…172
Diaspor quruculuğu və lobbiçiliyin dünya təcrübəsi və Azərbaycan ......................................................................173
Nazim İbrahimov BMT Baş Katibinin xüsusi nümayəndəsi ilə görüşüb.................................................................176
Nazim İbrahimov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi ilə görüşüb…………..........................177
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Lord Freyzerin ailəsinə və İngiltərə- Azərbaycan Cəmiyyətinin üzvlərinə başsağlığı verib…………………………………………...................……178
Köln şəhərinin mədəniyyət mərkəzində əslən Azərbaycandan olan və uzun illərdir Almaniyada yaşayan rəssam Marqarita Kərimova-Sokolavanın fərdi sərgisi açılıb…………………………………………….…179
Heydər Əliyev və azərbaycançılıq məfkurəsi…………………………………………………………......180
Diaspora təşkilatlarımız Azərbaycan həqiqətlərinin carçısıdır................................................................................182
Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 11 ili tamam olur…………………………………...184
Şakir Sadıqova (1919-1951) Litva ordusunun könüllü qurucusu medalının təqdim olunma (ölümündən sonra) mərasimi olmuşdur…………………………………………………………………………...……185
“Odlar Yurdu” Boks İdman Klubu təsis edilib......................................................................................................186
UNESCO-nun sabiq baş direktoru Federiko Mayor Saraqosa və Madrid Klubu Katibliyinin Azərbaycana səfəri başlayıb…...............................................................................................................................................187
Çelyabinskidə Azərbaycan diasporu ....................................................................................................................188
Nazim İbrahimov Bakıda səfərdə olan ABŞ-ın Kaliforniyanın ştatında tanınmış ictimai xadim, yəhudi mənşəli Şeron Nəzəriani ilə görüşüb.......................................................................................................................190
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov “Yeni Müsavat”a geniş müsahibə verib………...191
Azərbaycan mədəni irsinin fəal təbliğatçıları-diaspor təşkilatları….......……………………….........…..193
Diaspor quruculuğu Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir ............................................195
DAK Güney Azərbaycanla bağlı hesabat yayıb ....................................................................................................197

Mahir Həmzəyev və “Litva-Azərbaycan” Assosiasiyasının prezidenti İmantas Melyanas Moldova Respublikasının Ombudsmanı Aurelia Qriqoriuya təşəkkür məktubu göndərmişlər………………….............…199
Dünya Azərbaycanlı Gənclər Birliyinin Almaniyadakı nümayəndəliyinin dəstəyi ilə Almaniyanın Maqdeburq şəhərində “Odlar Yurdu” Boks İdman Klubu təsis edilmişdir……………...........................................…...200
Azərbaycan diasporunun gənc siması - Rusiyanin Azərbaycanlı Gənclər Təşkilatı (AMOR)..................................201
“Azərbaycana aid bütün məsələlər öz daxilimizdə müzakirə olunsun”……………………….........................203
Azərbaycan diasporu hücum taktikasını seçib ...........................................................................................................204
Azərbaycan dövləti diaspor fəaliyyətinə lazımi dəstək verir .....................................................................................206
Berlin şəhərində Almaniya Sosial-Demokrat Partiyasının təşəbbüsü ilə “Almaniya bayramı” adlı tədbir təşkil olunmuşdur………………………………………………………………………………………………..…208
Xalq Artisti Müslüm Maqomayevin anadan olmasının 71-ci ildönümünə həsr olunmuş konsert proqramı təqdim edilmişdir……………………………………………………………………………………….....209
Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə bu qurumun nəzdində olan Azərbaycan Evində “Ana dili” məktəbinin açılışı olmuşdur……………………………………………………………………………………………...…...210
“Azərbaycan diasporunun güclənməsi gənclərimizin gələcəyindən, onların birliyindən çox asılıdır”...................211
Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Madrid Klubunun təşkilatçılığı ilə keçirilən beynəlxalq toplantı öz işinə başlayır...........................................................213
Heydər Əliyev adına Dünya Boks Komitəsi Almaniyanın Aysleben şəhərində növbəti boks çempionatına start verir........................................................................................................................................................................214
Bakıda konfrans keçirilmişdir………………………………………………………………...............................215
“Azərbaycanlılar artıq Rusiyada öz yerlərini tapıblar”……………………………………...............…...216
Diaspor təşkilatlarını ətrafında sıx birləşdirilən konqreslərin yaradılması diasporun inkişafına təkan verən amillərdəndir........................................................................................................................................................218
Gənc azərbaycanlı dramaturq, ssenarist Nərgiz Bağırzadənin “Face Book. Post Scriptum” adlı pyesi Latviyanın paytaxtı Riqada səhnələşdirilib………………………………...............................………220
Nazim İbrahimov: "Diaspor təşkilatları arasında baş verən parçalanma heç zaman bizim xeyrimizə ola bilməz"…………………………………………………………………………………….............................221
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun Yeni Müsavat qəzetinə müsahibəsi…...............226
İlham Əliyevin prezidentliyi dövründə diaspora sahəsində baş verən mühüm hadisələr……………...................230
Diasporla İş üzrə Dövlət Komitəsinin hüquq və vəzifələrinin məqsədyönlü şəkildə icrası Diaspora sahəsində yeni nailiyyətlərə yol açır...........................................................................................................................................232
Ukraynanın Xarkov şəhərində Heydər Əliyev adına Dünya Boks Komitəsinin keçirdiyi boks çempionatının ikinci turu baş tutub..................................................................................................................................................234
Qloballaşan dünyada Azərbaycan diasporu...............................................................................................................235
“Azərbaycan və özbək xalqlarının mədəni və mənəvi birliyi” adlı tədbir keçirilmişdir.........................................237
“Vətən” Cəmiyyəti Danimarka Parlamentinə etiraz məktubu göndərimişdir...........................................................238
Diaspor fəallari mövqelərini açıqladı .......................................................................................................................239
Rusiya azərbaycanlılarının doğru seçimi...................................................................................................................240
Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avropada yaşayan azərbaycanlılar Brüsseldə Avropa Parlamenti qarşısında etiraz aksiyası keçirilmişdir…………………………………………………….........…242
Azərbaycan diasporu dünyada ideoloji taktika ilə işləyir..........................................................................................243
Ukraynadakı Azərbaycan diaspor təşkilatları vahid qurumda birləşib.....................................................................245
“Xocalıya ədalət” kampaniyası çərçivəsində 2013-cü ilin fevralında Tel-Aviv universitetinin Diaspor Muzeyində açılan fotosərgi İsrailin digər bir böyük şəhəri Netanyada davam edir……………………….....246
Uğurlu inkişaf yolunda olan Azərbaycan diasporu ..................................................................................................247
Yazep Vitola adına Latviya Musiqi Akademiyasında Azərbaycan muğamının mahir ifaçısı, Xalq Artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi kollektivin ifasında Azərbaycan muğamı gecəsi olmuşdur……………..249
ABŞ-ın Texas Ştatının senatı, Amerika Azərbaycanlıları Şəbəkəsi ilə birgə Azərbaycanın müstəqillik günü ərəfəsində qətnamə qəbul edib……………………………………………………………………………250
Dövlət Komitəsi Rusiyada yaşayan azərbaybaycanlılarla əlaqədar yaranmış situasiya haqqında öz mövqeyini rəsmi şəkildə bildirib və bu barədə kütləvi informasiya vasitələrində də geniş məlumat verilib………………....251
Diaspor tarixinin görkəmli şəxsiyyətləri…………………………………………………………..……253
Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr edilmiş bir çox tədbirlər təşkil edilmişdir.........254
Benilüks Azərbaycanlıları Konqresi (BAK) son günlər Moskvadakı hadisələrlə əlaqədar Rusiyada azərbaycanlılara qarşı yürüdülən diskriminasiya siyasətinə etiraz bəyanatı qəbul edib…………………….............255
Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzi Prezident İlham Əliyevə məktub ünvanlamışdır...............................256

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin kolleksiyasına Quran kitabının Al Baqarah və Al Fatiha surələrinin 14sm x 20sm ölçüsündə olan qızılla işlənilmiş əlyazması təqdim olunmuşdur………………………………...…257
Benilüks Azərbaycanlıları Konqresi qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Bako Sahakyanin Brüsseldə "Avropa Birliyi və Dağlıq Qarabağ arasındakı əməkdaşlıq" mövzusunda keçirilən görüşdə iştirakı ilə əlaqədar bəyanat yayıb………………………………...…………………………258
Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin 20 yaşı tamam olur..................................................................259
Rusiyanın Perm vilayətinin Krasnokamsk bələdiyyəsinin nümayəndələri, "İkinci Bakı" layihəsinin müəllifləri Timofey Çudinov və Qalina Palkina-Vedova bu gün Dövlət Komitəsinin sədr müavini Valeh Hacıyevlə görüşüblər………................................................................................................................…260
Ukraynanın Krım Muxtar Respublikasının Sudak şəhərində beynəlxalq "Serebrennoe pero" mükafatının təntənəli təqdimat mərasimi keçirilib……………………………………………………….......…261
Qırğızıstandakı Azərbaycan diasporu birdir..........................................................................................................262
Hyuston şəhərindəki Azərbaycan mərkəzinin direktoru İradə Axundova konqresmen Cim Braydenstayn ilə görüşmüşdür…………………………………………………………….....................................................264
Fransanın Oloron şəhərində beynəlxalq foto kulinariya festivalı keçirilmişdir.....................................................265
Azərbaycançılıq konseptual ideya kimi…………………………………………………........................266
"Odlar Yurdu" Cəmiyyətinin təşkilatçılığı ilə Rotterdam şəhərində yerləşən "Bakı" restoranında "9 noyabr-Azərbaycan Respublikasının Dövlət Bayrağı günü" münasibətilə tədbir keçirilmişdir…….........................268
Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) icraçı direktoru Adil Bağırov ABŞ-ın Ohayo ştatının Deyton şəhərində Deyton Dövlət Məktəbləri Təhsil Şurasına üzv seçilmişdir..........................................................269
Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu.......................................................................................................270
Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Portuqaliyanın sabiq prezidenti Jorge Sampaionun Qlobal Platforması arasında əməkdaşlıq memorandumu imzalanmışdır……………………………..................…272
Diasporçuluqda ilk məsələ təşkilatçılıqdır ..............................................................................................................273
Bolqarıstanda diaspor təşkilatları ...........................................................................................................................275
Berlində 17 noyabr - Milli Dirçəliş gününə həsr edilmiş "Əlimərdan bəy Topçubaşov – publisist, siyasətçi, diplomat" mövzusunda elmi seminar keçirilmişdir.....................................................................276
Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi……………………………………..............…277
Diaspordan lobbiçiliyə doğru ................................................................................................................................279
Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi açıqlaması…………………………………………....................281
Moldovada Azərbaycan diaspor təşkilatları ............................................................................................................282
Rumıniyada Azərbaycan diasporu..........................................................................................................................284
Bişkekdəki Aytmatov adına kitabxanada yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun rus dilinə tərcümə edilmiş "Əmir Teymur-Dünyanın hakimi" və "Əmir Teymur-Zirvəyə doğru" kitablarının təqdimat mərasimi keçirilmişdir..............................................................................................................................286
Milanın "Chiesa Rossa" kitabxanasında gənc rəssamlarımızın sərgisi açılmışdır……………….........……287
Yazıçı Kamal Abdullanın həm Azərbaycanda, həm də xarici ölkələrin mətbuat səhifələrində geniş müzakirələrə və polemikalara yol açmış məşhur "Yarımçıq əlyazma" romanı Bişkekdə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə qırğız dilinə tərcümə olunmuşdur.........................................288
Dövlət Komitəsinin sədri: "Rusiyadakı azərbaycanlılar belə münasibətə layiq deyillər"……………..........…289
"Çingiz Aytmatov: mən Manas oğluyam" kitabının təqdimatı keçirilmişdir.......................................................290
Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) icraçı direktoru İlqar Hacıyev iclasda çıxış edərək ÜAK-ın tələbələrlə iş sahəsində təcrübəsindən danışmışdır…………………………………………….....291
Macarıstanda Azərbaycan diasporu........................................................................................................................292
Norveçdə Azərbaycan diaspor təşkilatları ..............................................................................................................294
Beynəlxalq Dialoq və Əməkdaşlıq Mərkəzi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəstəyi ilə "Avrasiyanın yeni dünyada gələcəyi" (Eurasia's future on the global stage) mövzusunda Beynəlxalq Forum keçiriləcək………………………..……………………………….........................................296
İstanbul Türkiyə-Azərbaycan Dərnəyində (İSTAD) keçirilmiş toplantıda erməni təbliğatına qarşı birgə fəaliyyət məsələləri müzakirə olunmuşdur…………………………………………............….........…...297
"Postimees" qəzetinin 28 noyabr nömrəsində Tallinndəki Azərbaycan həftəsonu məktəbinin rəhbəri Sənəm Əliyeva ilə müsahibə dərc olunmuşdur…………………………………………...........................…..298
Nyu York Azərbaycan-Amerika Qadınlar Cəmiyyəti yaradılmışdır……………………................................299
Qırğız yazıçısı Çingiz Aytmatovun 85 illiyi münasibətilə Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə "Çingiz Aytmatovun dünyası" adlı kitab nəşr olunmuşdur…….....................……………300
Azərbaycan Prezidenti diaspor təşkilatlarına tövsiyələrini verdi Dünya Azərbaycanlılarının Onlayn Forumu keçirildi…………………………………………………………………….........................…301

Dünya Azərbaycanlıların Onlayn Forumu keçirilmişdir………………………………………........................…302
Moskvada mərhum jurnalist Məryəm Axundovanın xatirəsi yad edilmişdir………………………..................303
Nazim İbrahimov son vaxtlar Ukraynada azərbaycanlılara qarşı ayrı-seçkilik hallarına münasibət bildirib……...304
Avstraliyada Azərbaycan diasporu...........................................................................................................305
Türkiyənin Kanal A televiziyasının "A+Ekonomi" proqramında Türkiyədə fəaliyyət göstərən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) və Azərbaycan Kültür Evinin fəaliyyəti haqqında reportaj yayımlanmışdır..........................................................................................................................307
Nigar Rəfibəylinin 100 illik yubileyinə həsr olunmuş ədəbi-tarixi bədii gecə keçirilmişdir.................................308
Diaspor fəaliyyətinin hərəkətverici qüvvəsi-Azərbaycan Mədəniyyət Mərkəzi ....................................................309
Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin IV toplantısı keçirilmişdir…………............……..311
Rusiya Federasiya Şurasının Azərbaycan Milli Məclisi ilə ikitərəfli parlamentlərarası komissiyasının on birincii clası keçirilmişdir…………………………..……………………………………......................312
Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər həyata keçirilmişdir……………................313
"Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin yeni ofisinin və birliyin təşkil etdiyi Nizami Gəncəvi adına Azərbaycan məktəbinin açılış mərasimi olmuşdur……………………………......................315
"EgAz" jurnalının növbəti nömrəsi çapdan çıxmışdır……………………………………………..............316
İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası Aşkelon şəhər bələdiyyəsinin və Heydər Əliyev Fondunun dəstəyi ilə bu şəhərin sakinlərini Azərbaycanın mədəniyyəti, tarixi və bugünkü reallıqları ilə tanış etmişdir…....317
2013-cü ildə diaspor sahəsində baş verən mühüm hadisələr.............................................................................318
Krımın Azərbaycanlılar İcması Avrami Boqdanoviç Aslanbeqovun (İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun) xatirəsinin əbədiləşdirilməsi barədə Sevastopol (Ukrayna) şəhəri administrasiyası qarşısında vəsatət qaldırmaq niyyətindədir.........................................................................................................320
Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilin yekunları ilə bağlı sərgi keçirmişdir.......................................………321
Dekabrın 23-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov 50 yaşı tamam olub......................322
İspaniyada Azərbaycan diasporu .........................................................................................................323
Dünya azərbaycanlılarına (25 dekabr 2013-cü il)………………………...........................................…325
Ümumrusiya Azərbaycan Konqresinin 2013-cü ilin yekunlarına həsr olunmuş iclası keçirilmişdir……..............326
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun Lent.az-a müsahibəsi.......................................327
2013-cü il diaspor quruculuğu sahəsində uğurlu olmuşdur……………………………............……...329
Xalqımızın milli həmrəyliyi dünyaya nümunədir………………………………………………...................331
Birliyimizin rəmzinə çevrilmiş bayram…………………………………………………….........................334
31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirilmişdir…………………….........................................................................................................335
Londonda fəaliyyət göstərən "Azərbaycan Evi"nin təsis edilməsinin 5-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir……………………………………………………………………………………….......339